NİZAMİ XUDİYEV

SEÇİLMİŞ əsərləri

II CİLD

NİZAMİ XUDİYEV ❋ SEÇİLMİŞ əsərləri

Nizami Xudiyev

AZƏRBAYCAN ƏDƏBİ DİLİ LÜĞƏT TƏRKİBİNİN İNKİŞAFI

(SOVET DÖVRÜ)

Ali məktəblər üçün dərs vəsaiti

SEÇİLMİŞ ƏSƏRLƏRİ

II cild

«Elm və təhsil»
Bakı – 2013

Elmi redaktoru: ***Q. Ş. Kazımov***
filologiya elmləri doktoru, professor

Rəyçilər: ***A.M.Qurbanov***
AMEA-nın müxbir üzvü,
filologiya elmləri doktoru, professor,

T.İ.Hacıyev
AMEA-nın müxbir üzvü,
filologiya elmləri doktoru, professor

Xudiyev N. M.
X-90 Azərbaycan ədəbi dili lüğət tərkibinin inkişafı (sovet dövrü). Dərs vəsaiti. Bakı, «Elm və təhsil», 2013, 480 səh**.**

Dərs vəsaitində sovet dövrü Azərbaycan ədəbi dili lüğət tərkibinin tədqiqi məsələləri işıqlandırılır. Əsərdə terminologiya, orfoqrafiya, orfoepiya məsələləri şərh edilməklə yanaşı, lüğət tərkibinin inkişafı, konkret dil materialı əsasında hər bir dövrün səciyyəvi əlamətləri üzrə nəzərdən keçirilir, habelə lüğət tərkibinin zənginləşmə yolları haqqında ilk dəfə ətraflı məlumat verilir. Kitabda tərcümə ədəbiyyatının dili, Cənubi Azərbaycan ədəbi dili lüğət tərkibinin ümumi mənzərəsi barədə də ilkin araşdırmalarla tanış olmaq mümkündür.

$\frac{4602000000}{N098-2013}$ ***qrifli nəşr***

© «Elm və təhsil», 2013

GİRİŞ

Azərbaycan ədəbi dilinin tarixi qədimdir; bu tarixin müxtəlif dövrlərinin sistemli şəkildə araşdırılması Azərbaycan filoloji fikrini həmişə məşğul etmiş və etməkdədir. Ədəbi dilin tarixi eyni zamanda onu daşıyan xalqın təfəkkürünün, mənəviyyatının tarixidir, ona görə də ədəbi dilin təkamül mənzərəsini elmi əsaslarla canlandırmaq olduqca çətin, lakin şərəfli bir işdir.

Hər hansı xalq o zaman öz tarixinin sahibidir ki, onu yaxşı bilmiş olsun; dilin tarixi də ümumi tarixin tərkib hissəsi kimi geniş araşdırmalar aparmağı tələb edir. Əlbəttə, Azərbaycan ədəbi dilinin tarixi ilə bağlı araşdırmalar vardır, lakin ölkəmizin ictimai-mədəni həyatında baş verən yüksəlişlə, yenidənqurma və onun tələbləri ilə əlaqədar bu sahədə işi yeni vüsətlə davam etdirmək lazımdır.

Azərbaycan ədəbi dilinin tarixi üç dövrə bölünür:

I. Azərbaycan ədəbi dilinin ümumxalq dili əsasında formalaşması və inkişafı dövrü (VII-VIII əsrlərdən XIX əsrin 20-ci illərinə qədər).

II. Azərbaycan ədəbi dilinin milli dil əsasında sabitləşməsi dövrü (XIX əsrin 20-ci illərindən XX əsrin 20-ci ilinə qədər).

III. Azərbaycan ədəbi dilinin sosialist milli dili əsasında normalaşması dövrü – sovet dövrü (XX əsrin 20-ci ilindən müasir dövrümüzə qədər)[1].

Məlum olduğu kimi, Azərbaycan ədəbi dilinin tarixi

---

[1] Azərbaycan ədəbi dili tarixinin dövrləşdirilməsi ilə bağlı müxtəlif fikirlər vardır. Prof. Ə. Dəmirçizadə və prof. T. Hacıyevin bölgüləri daha geniş yayılmışdır. Ə. Dəmirçizadə dilxarici, T. Hacıyev dildaxili amillərə daha çox üstünlük vermişdir. Yuxarıda I dövr müstəsna olmaqla, Ə. Dəmirçizadənin bölgüsünə əsaslanmışıq. Bax: Ə. Dəmirçizadə. Azərbaycan ədəbi dili tarixi, B., Maarif, 1979, səh. 100.

«Kitabi-Dədə Qorqud»dan başlayır. «Kitabi-Dədə Qorqud»un dili isə təxminən V-IX əsrlərin dili hesab olunur (yaxud abidənin əsas dil-üslub potensialı qeyd edilən dövrə aiddir), başqa sözlə, V-IX əsrlərdən etibarən Azərbaycan dili ədəbi səviyyədə işlək olmuşdur. Bu dövrdə ədəbi dilimizin yazılı abidələri, şübhəsiz, yaranmışdı, lakin hələlik onların heç bir nümunəsi bizə məlum deyil. Görünür, VII, VIII, hətta IX əsrləri əhatə edən ərəb işğalına qarşı mübarizə dövründə yazılı mənbələr ya məhv edilmiş, ya da Azərbaycandan kənarlara aparılaraq itib-batmışdır. Onu da qeyd edək ki, tədqiqatçılar bu cür mənbələrin tapılacağı barədə nikbin fikirdədirlər. Ola bilməz ki, «Kitabi-Dədə Qorqud» kimi nəhəng bir abidəni yaradan xalq V-IX əsrlərdən XIII əsrə qədər sussun…[1]

XI-XII əsrlər müsəlman intibahı dövründə Azərbaycan xalqının oynadığı rol məlumdur, lakin bu dövrdən heç bir mənbənin qalmaması, fars, eləcə də ərəb dilində yazıların çoxluğu diqqəti cəlb edir. Necə olur ki, Azərbaycan xalqı müsəlman intibahında yüksək elmi, eləcə də ədəbi-bədii istedadı ilə iştirak edir, lakin bunlar Azərbaycan dilində öz izlərini saxlamır? Dildən kənarda ədəbi-normativ təfəkkür yoxdursa, deməli, istedad da yox-dur; azərbaycanlı isə müsəlman intibahında məhz azərbaycanlı təfəkkürü (və dili) ilə iştirak etməli idi – bu baxımdan da XI-XII əsrlərə aid Azərbaycan dili mənbələrinin mövcud olmaması sirdir.

XIII-XVI əsrlərdə ədəbi dilin klassik nümunələri yaranır: tədrici inkişaf ədəbi-bədii dili Həsənoğlu səviyyəsindən Füzuli səviyyəsinə yüksəldir. XVI əsrin sonu, XVII əsrin əvvəllərindən etibarən ədəbi dil demokratik

---

[1] Bax: В.Гукасян, В.Асланов. Исследования по истории азербайджанского языка дописьменного периода, Баку, изд. «Элм», 1985. Y.Yusifov, S.Kərimov. Toponimikanın əsasları. Bakı, «Maarif», 1987.

əsaslar üzərində yenidən qurulmağa başlayır, XVII-XVIII əsrlərdə bu proses xüsusi sürətlə davam edir.

I dövrdə Azərbaycan ədəbi dili ümumxalq dili əsasında surətlə inkişaf edir[1]. XVII-XVIII əsrlərdə ədəbi dildə milli elementlərin cücərtiləri meydana gəlir və bu mənada XVII, xüsusən XVIII əsrdəki ədəbi dil II dövrə keçid kimi xarakterizə edilir.

XVIII əsrin sonları, XIX əsrin əvvəllərində Azərbaycan ədəbi dilinin demokratikləşməsi elə bir səviyyəyə çatır ki, birinci növbədə norma planında milli keyfiyyətlərə malik olur. XIX əsr boyu, xüsusilə XX əsrin əvvəllərində milli özünüdərketmə prosesi ədəbi dili də milli əsaslar üzərinə qaldırır.

Azərbaycan ədəbi dilinin II dövründə funksional üslubların diferensiasiyası güclənir; elmi üslub müəyyən imkanlara malik olur, publisist üslub təşəkkül tapır, eləcə də ədəbi-bədii dilin müxtəlif istiqamətləri müəyyənləşir (məs., satira dili, nəsr dili, dram dili və s).

II dövrün sonuna doğru ədəbi dil bu və ya digər ideoloji mövqedən müzakirə obyektinə çevrilir – müzaki-rələrin gedişində ədəbi dilin ictimai-siyasi statusu artır; ədəbilik aktı (yaxud ədəbiliyin xarakteri) ancaq dilin kor-təbii inkişafı ilə deyil, elmi-ictimai mövqedən qiymətlən-dirilir[2].

Sovet hakimiyyətinin qurulması ilə Azərbaycan ədəbi

---

[1] Bax: Ю.Б.Юсифов. О некоторых языковых элементах тюркского историка — Советская тюркология. 1974, № 2. Ю.Б.Юсифов. Об актуальных проблемах этнической истории Азербайджана – проблемы изучения источников по истории Азербайджана. Баку, 1989.

[2]Azərbaycan ədəbi dili tarixinin ikinci dövrü barədə bax: T.Hacıyev. Azərbaycan ədəbi dili tarixi, II h.,Bakı, «Maarif» nəşriyyatı, 1986; T.Hacıyev. XX əsrin əvvəllərində Azərbaycan ədəbi dili, B., «Maarif» nəşriyyatı, 1978; M. Cahangirov.Azərbaycan milli ədəbi dilinin təşəkkülü, I h., Bakı, «Elm» nəşriyyatı, 1978 və s.

dilinin tarixində III dövr başlayır, – bu dövrün əsas əlaməti ədəbi dilin istər norma, istərsə də üslub planında milli əsaslar üzərində daha çox inkişaf edib kütləviləşməsindən, indiyə qədər görünməmiş səviyyədə diferensiallaşmasından ibarətdir; ədəbi dilin tarixinin III dövrü davam edir.

Sovet dövründə ədəbi dilin inkişafı onun başqa dövrlərdəki inkişafından, demək olar ki, əsaslı şəkildə fərqlənir; hər şeydən əvvəl ona görə ki, həmin dövrdə ədəbi dilin sosial bazası görünməmiş dərəcədə genişlənir, milli-ictimai təfəkkürlə ədəbi dil arasındakı sədlər aradan qalxır, nəticədə o, sözün həqiqi mənasında, milli mədəniyyətin əsas ifadə formasına çevrilir. Ədəbi dil bu dövrdə kütləviləşir, – halbuki buna qədər dövrün nitq norması fərdi üslub əsasında müəyyən olunurdu; kütləviləşmə isə elə amildir ki, nitq normasını, eləcə də funksional üslub diferensiasiyasını daha geniş kontekstdə araşdırmağı tələb edir. Mədəni-ictimai idrakın tutumu, sahələri ədəbi dildə öz səviyyəsini və sferalarını formalaşdırır, norma ilə üslubların münasibətində əvvəlkindən fərqli kəmiyyət və keyfiyyət nisbəti müəyyənləşir. İctimai intellekt ədəbi dildə hansı intensivliklə reallaşırsa, ədəbi dil də ictimai intellektin tərbiyəsində həmin intensivliklə iştirak edir – bu isə o deməkdir ki, norma, üslub diferensiallığı kütləvi təfəkkürə yiyələndikcə özü də həmin təfəkkürün məhsuluna çevrilir; beləliklə, norma-üslub kütləvi təfəkkür komponentləri getdikcə daha elastik münasibətə malik olur.

Sovet dövründə ədəbi dilin inkişafı ardıcıl, şüurlu nəzarət altında gedir; orfoqrafiya prinsipləri müəyyənləşdirilir, lüğətlər tərtib edilir, qrammatika kitabları yazılır, normanın, funksional üslubların nisbi sabitliyi gözlənilir…

Ən ciddi inkişaf isə, şübhəsiz, semantik aspektdə gedir – bu sahədə nisbi sabitliyi faktlaşdırmaq, ümumən

prosesin özünü nəzarət altında saxlamaq çətin olsa da, kütləvi təfəkkürdəki inqilabi dəyişiklik stixiyası belə bir nəzarətçi qüvvə kimi müəyyənləşir; inqilabi təfəkkür isə birinci növbədə leksik normada təbəddülat yaradır, çünki mədəni-tarixi şərait ictimai varlığa qneseoloji münasibətin xarakterini əsaslı şəkildə dəyişdirmişdi – ona görə də leksik-semantik sistemin yenidən təşkili idraki zərurət idi.

Lüğət tərkibinin bu dövdəki inkişafı, mahiyyəti etibarilə, mürəkkəb hadisədir – burada həm ədəbi dilin struktur-funksional təkamülü, həm də ictimai idrakın tərəq-qisi ehtiva olunur. Odur ki, lüğət tərkibi eyni zamanda həm linqvistik, həm də fəlsəfi-psixoloji məzmunda dərk edilir. Leksik-semantik inkişafın linqvistik planı ilə fəlsəfi-psixoloji planı ictimai təfəkkür ümumiliyində birləşir; lüğət tərkibinin inkişafını universal kontekstdə araşdırmağın metodoloji əsasları işlənib hazırlanmadığı üçün müəyyən diferensial keyfiyyətlərin uyğun təsvirini vermək bir sıra hallarda mümkün deyil. Xüsusilə o hallarda ki, şüurlu nəzarət lüğət tərkibinin kortəbii inkişaf məntiqinə qarşı durur; ədəbi dildən heç bir əsası olmadan ərəb-fars mənşəli ümumişlək leksikanın çıxarılması, yaxud yenə də heç bir əsası olmadan rus-Avropa sözlərinin ədəbi dilə qəbul edilməsi nə ədəbi dilin struktur-funksional təkamülü, nə ictimai idrakın tərəqqisi, nə də ümumən ictimai təfəkkürün inkişaf universallığı baxımından izah olunur. Bununla belə, sovet dövründə lüğət tərkibinin inkişafı müəyyən linqvis-tik-qneseoloji qanunauyğunluqlara tabedir, – əslində, məqsəd də həmin qanunauyğunluqları dil faktları əsasında şərh etməkdən ibarətdir. Bu kitab məhz həmin sahədə geniş planlı ilk tədqiqatdır.

Ali məktəblərdə tədris edilən «Azərbaycan ədəbi dili tarixi», «Müasir Azərbaycan dili» və müvafiq ixtisas

kursları üçün nəzərdə tutulmuş bu vəsaitdən filologiya fakültələrinin tələbələri, orta məktəb müəllimləri, gənc elmi işçilər, aspirantlar və ədəbi dilimizin inkişaf yolu ilə maraqlanan bütün oxucular istifadə edə bilərlər.

Xeyirxah məsləhətləri ilə bizə kömək edəcək yoldaşlara əvvəlcədən təşəkkürümüzü bildiririk.

I FƏSİL

SOVET DÖVRÜ AZƏRBAYCAN ƏDƏBİ DİLİ: İNKİŞAF PROBLEMLƏRİ, NORMALAR VƏ ÜSLUBLAR HAQQINDA

Ədəbi dil və onun lüğət tərkibinin bəzi inkişaf problemləri

Keçən əsrin 20-ci illərindən milli dillərin inkişafına güclü təkan verildi. Azərbaycan ədəbi dili də məhz inqilabdan sonra əsrlərlə məruz qaldığı assimilyativ təsirlərdən xilas oldu, real zənginləşmə imkanları qazandı və xəlqi prinsiplər əsasında yeni normalaşma prosesinə daxil oldu. Milli dillərin inkişafına, milli məsələyə yeni baxış ayrı-ayrı dillərin inkişafında həqiqi mənada böyük rol oynadı. Milli məsələ və millətlərin öz müqəddəratını təyin etmək hüququ haqqında təlim azlıqda qalan xalqları hər cür zorakılıq və asılılıqdan qurtardığı kimi, dillərin inkişafına mane olan yad təsirləri də qırıb atmaq üçün əsaslı zəmin yaratdı.

Azərbaycan ədəbi dili sovet dövründə yeni inkişaf mərhələsinə qədəm qoydu. Bu dövr Azərbaycan dili tarixində əlifba, orfoqrafiya məsələləri ilə yanaşı, leksik, semantik və qrammatik proseslərin coşğun inkişafı dövrüdür. Əlifba və orfoqrafiya məsələləri ilə bağlı qərar və göstərişlər əhalinin savadlanması, ümumi mədəni səviyyənin yüksəldilməsi kütləvi təhsil sahəsində başlıca tədbirlərdən idi. Yeni ictimai-iqtisadi quruluşla, sosial inkişaf və elmi-texniki tərəqqi ilə əlaqədar yeni söz birləşmələri, leksik və sintaktik vahidlər meydana çıxır və bunların xəlqi ifadə üsulları dilin normalaşması prosesinə

çox böyük təsir göstərirdi. Bir sıra sözlərin mənaca genişlənməsi, yaxud daralması, yeni məna qazanması, yeni leksik və leksik-qrammatik vahidlərin yaranması dilin lüğət tərkibinin inkişafında mühüm rol oynayırdı.

«Sovet hakimiyyəti illərində qazandığımız ən böyük qələbələrdən biri də milli dillərin, o cümlədən, Azərbaycan dilinin yüksək dərəcədə inkişaf etməsidir. Yalnız sovet dövründə Azərbaycan xalqı dövlət idarələrində ana dilini işlətmək hüququ aldı. Çünki Azərbaycan xalqı milli istiqlaliyyət qazanaraq öz milli dövlətini – Azərbaycan Sovet Sosialist Respublikasını yaratdı. Dil yalnız məişətdə, ədəbi və elmi əsərlərdə yaşamaqla məhdudlaşmayıb, iqtisadi, ictimai həyatın hər bir sahəsində və o cümlədən dövlət idarələrində geniş şəkildə işlənmək imkanı əldə etdi»[1].

Bütün əvvəlki dövrlərdə olduğu kimi sovet dövründə də Azərbaycan ədəbi dili lüğət tərkibinin inkişafı dilin digər yaruslarına nisbətən daha sürətli, daha mütəhərrik olmuşdur. Həm də bu sürət öz keyfiyyətinə görə əvvəlki dövrlərdən fərqlənir. Bu surət ictimai-siyasi həyatdakı dinamikaya uyğundur. Mövcud həyat tərzi feodalizm və kapitalizm formasiyalarındakı inkişafdan müqayisəedilməz dərəcədə yüksək sürətlə irəliləyirdi. Təbii ki, bu vəziyyət ictimai həyatla bilavasitə bağlı olan, onun hər bir dəyişikliyinə reaksiya verən dilə, xüsusilə dilin lüğət tərkibinə dərhal öz təsirini göstərirdi. Həqiqətən, bu dövrdə lüğət tərkibinin inkişafı, yeni söz yaradıcılığı sosial-ictimai şəraitdən doğan dinamikaya mütənasib vüsət götürür. 20-ci illəri həyatın bütün sahələri üzrə, o cümlədən dil cəhətdən qarşılıqlı təsir dövrü adlandırmaq olar. Bu dövrün leksikası

[1] M. İbrahimov. Azərbaycan dili, Bakı, Azərb. SSR EA nəşri, 1957, səh. 71-72.

üslubi rəngarəngliyə malik variantlarla zəngindir. Leksik normadakı qeyri-sabitlik, dəyişkənlik nitqin müxtəlif sahələrində onun dərk edilməsindəki özünəməxsusluqla, norma hüdudlarının müəyyənləşməsindəki qəribəlik, anlaşılmazlıq və dolaşıqlıqla xarakterizə olunur.

20-ci illər, ümumiyyətlə, ədəbi dilin tarixində az təsadüf olunan situasiyalar dövrüdür; belə ki, ədəbi dilin vəziyyətini eyni zamanda iki baxımdan təsvir etmək olar – öz təbii inkişafı və qısa müddətdə xarici dillər çərçivəsində yaradılmış süni konservasiya. İlk dövrlərdə köhnə sözlərlə yeni sözlərin mübarizəsi gedir, sosial-iqtisadi, elmi-texniki inkişafla əlaqədar daxili imkanlar hesabına yeni sözlər yaradılmasına böyük ehtiyac hiss edilir. Alınma sözlərin potensialı artır və bununla yanaşı, onların işlənmə perspektivlərini tənzim etmək lüzumu ortaya çıxır. Belə-liklə, dilin lüğət tərkibinin də normalaşdırılması sahəsində mübarizə başlayır. Bu mübarizədə dilin daxili imkanlarının ön plana çəkilməsi əsas və həlledici əhəmiyyətə malik olmuşdur. Lakin lüğət tərkibinə olan münasibət ayrı-ayrı mərhələlərdə müxtəlif səciyyə daşımışdır. Belə ki, məsələn, 20-30-cu illərdə lüğət tərkibində baş verən dəyişmələrlə 50-60-cı illər arasındakı dəyişmələrdə əsaslı fərq müşahidə olunur. Ədəbi dilin lüğət tərkibinin ayrı-ayrı mərhələlər üzrə inkişaf xüsusiyyətlərinin izlənilməsi sabitləşən, köh-nələn və yeni yaranan dil vahidlərinin ümumi mənzərəsini də təsəvvür etməyə imkan yaradır.

Sosializm quruculuğu və SSRİ xalqlarının birliyi ilə əlaqədar SSRİ xalqları dillərindəki inkişaf xüsusiyyətləri arasında da bir ümumilik və yaxınlıq mövcuddur. B u yaxınlıq, hər şeydən əvvəl, dillərin inkişafına təsir göstərən bir sıra ekstra-linqvistik amillərlə səciyyələnir.

Sovet dövründə bu amillərin başlıcası sosial-siyasi

hadisələrlə əlaqədardır. Yeni dövrün quruculuğunda bərabər hüquqla iştirak edən qardaş xalqlar ailəsinin əmək həyatında baş verən yeniliklərlə, cəmiyyətin inkişafı prosesində meydana çıxan sosial-ictimai və fərdi tələblərlə bağlı olaraq yeni informasiya funksiyası daşıyan dil vahidləri yaranır ki, bunların da çoxu qardaş xalqların dillərinə adekvat şəkildə daxil olur və həmin dillərin zənginləşməsində mühüm rol oynayır. Xalqların həyatındakı sosial-iqtisadi, siyasi və mənəvi inkişaf amilləri sayəsində milli münasibətlər genişlənir və ümumi xarakter alır. Şübhəsiz ki, milli münasibətlərin inkişafında və genişlənməsində, dillərin lüğət tərkibinin zənginləşməsində bu dillər üçün ümumi olan leksik vahidlərin rolu böyükdür. Burada dialektik vəhdətdə olan iki proses müşahidə edilir. Bir tərəfdən, sosial-siyasi və iqtisadi amillərlə əlaqədar yaranmış ümumi dil vahidləri milli münasibətlərin inkişafına müəyyən təsir göstərir; digər tərəfdən, milli münasibətlərin inkişafı qardaş xalqların dillərində ümumi səciyyə daşıyan sözlərin potensialının artmasını şərtləndirir.

Milli əlaqə və münasibətlərin genişlənməsi ilə xalqlar arasında mədəni-kütləvi kommunikasiyaya meyil artır və onların ümumi mədəniyyəti arasında yaxınlaşma güclənir. Xalqların milli mədəniyyətlərinin yaxınlaşması və dil əlaqələrinin genişlənməsi özlüyündə hər bir dilin lüğət tərkibinin zənginləşməsi amillərindən biri kimi çıxış edir.

Dillərin ümumi inkişafına təsir göstərən amillərdən biri də bu dövrdə kütləvi kommunikasiya vasitələrinin rolunun daim artmasından ibarətdir.

Kütləvi kommunikasiya vasitələrindən olan qəzet, jurnal, radio, televiziya, kino, teatr və s. ədəbi dilin inkişafına, yazılı və şifahi nitqin cilalanmasına, habelə yeni sözlərin meydana çıxmasına çox böyük təsir göstərir. Hələ

Sovet hakimiyyətinin ilk illərindən ədəbi dilin inkişafında kütləvi kommunikasiya vasitələrinin güclü təsiri özünü göstərməyə başlamışdı. Bu cəhət inqilabdan əvvəlki və sonrakı dövrün ədəbi dil xüsusiyyətlərinin müqayisəsində daha aydın şəkildə müşahidə edilir. Kütləvi kommunikasiya vasitələri gündəlik zəruri hadisələri əks etdirdiyindən burada sosial-siyasi həyatın bütün sahələri, ictimai-mədəni inkişaf, elmi-texniki tərəqqi ilə bağlı mühüm yeniliklər işıqlandırılır. Yeni dövrün hadisələrini əks etdirən dil vahidləri kütləvi kommunikasiya vasitələrinin köməyi ilə daha tez ümumxalq xarakteri ala bilir. Keçmiş ictimai quruluşla bağlı bir sıra dil vahidləri işləklikdən qalır və yeni ictimai quruluşla əlaqədar yarananlar üçün həqiqi mənada geniş meydan açılır.

Əsas kütləvi təbliğat vasitələrindən olan mətbuat ədəbi dilin üslublarının diferensiallaşmasında, qrammatik normalaşmada, lüğət tərkibinin, xüsusilə terminoloji vasitələrin zənginləşməsində böyük rol oynayır. Ədəbi dilin inkişafında mətbuat dilinin rolu bir də ona görə mühümdür ki, burada müxtəlif janrda yazılmış materiallar özünə yer tapır.

Sovet dövrü Azərbaycan ədəbi dilinin inkişafında mətbuat dilinin xüsusi çəkisi vardır. Həyatda baş verən ən mühüm ictimai-siyasi hadisələrlə bağlı olan sözlər, yeni ifadə formaları qəzet dili vasitəsilə daha tez kütləviləşir. M. Şirəliyev yazır: «Qəzet dili ancaq ədəbi nitq nümunəsi olmaqla qalmır, o, eyni zamanda ədəbi dilin kütləvi şəkildə yayılması funksiyasını yerinə yetirir, çünki «Kommunist» qəzetinin dili bütün rayon qəzetləri və Azərbaycanda başqa mətbuat orqanları üçün nümunə hesab edilir»[1].

---

[1] М. Ширалиев. Роль газеты «Коммунист» в развитии азербайджанского литературного языка. Специальный сборник, посвященный XXV летию газеты «Коммунист», Баку, 1944, стр. 36.

Qəzet dili, ümumiyyətlə, yeni terminlərin, metaforaların, xalq dili ifadələrinin, üslubi neologizmlərin, dialektizmlərin, arxaizmlərin, tarixizmlərin və s. işlədilməsi baxımından ədəbi dilin inkişafında mühüm rol oynayır[1].

Azərbaycan ədəbi dili sovet dövründə əvvəlki dövrlərin heç birində müşahidə olunmayan coşğun inkişaf yolu keçmişdir. Lakin ədəbi dildən çıxan və ədəbi dilə daxil olan, habelə yeni yaranan dil vahidlərinin ümumi çəkisinə görə bu inkişaf həmişə eyni səviyyədə olmamışdır. Müəyyən mərhələlərdə yenilik çaları olmayan sözlər çox işləndiyi halda, bəzi dövrlərdə yeni sözlərin işləkliyi güclənmiş, ənənəvi olaraq işlənən bəzi sözlər isə ya tamamilə dildən çıxarılmış, ya da başqası ilə əvəz olunmuşdur[2]. Digər tərəfdən isə ilk zamanlar elmi-texniki tərəqqinin səviyyəsi nisbətən aşağı olduğundan həmin dövrdə termin yaradıcılığı prosesi zəif idi və s.

Ədəbi dilimizin inkişafında rus dili mütərəqqi rol oynamışdır. Lakin ilk dövrlərdə rus dilindən alınan sözlərin hamısı sonralar dilimizin lüğət tərkibində vətəndaşlıq hüququ qazana bilməmişdir; işlənməsinə ehtiyac olanlar saxlanılmış, bir çoxları isə müvafiq qarşılıqları ilə əvəz edilmişdir. İlk dövrlərdə kütləvi şəkildə ərəb-fars sözlərinin çıxarılması və sonradan onların müəyyən qisminin yenidən qaytarılması da ədəbi dildə inkişafın birbaşa axınla getmədiyini, bu prosesin özündə də müəyyən ziddiyyətlərin mövcud olduğunu göstərir.

Ədəbi dilin inkişafında alınmaların rolu nə qədər böyük olsa da, birinci sırada, əlbəttə, dilin daxili imkanları

---

[1] *Bax:* M. Adilov. Qəzet dili, Bakı, ADU nəşri, 1973, səh. 114.

[2] Дж. Мамедов. Газетный стиль современного азербайджанского литературного языка, Баку, АКД, 1973, стр. 33; И.О.Мамедов. Лексика газеты «Коммунист», Баку, АКД, 1974, стр. 36 və s.

əsasında yaranan söz və ifadələr durur. Daxili imkanların əsasında yaranan sözlər də bilavasitə ictimai-siyasi inkişafla, elmi-texniki tərəqqi ilə, habelə mədəniyyətin və məişətin yüksəliş səviyyəsi ilə bağlıdır. Lakin bu yolla yaranan sözlərin heç də hamısı ədəbi dilin inkişafına eyni dərəcədə təsir göstərə bilmir. Xüsusən Sovet hakimiyyətinin ilk onilliyində dilin daxili imkanları hesabına yaranmış bir sıra sözlər vətəndaşlıq hüququ qazana bilməmiş və unudulub getmişdir. Son dövrlərdə də bir sıra alınma sözlər əvəzinə yeni sözlər düzəltmək meyili hiss olunur ki, bu meyil, əlbəttə, ilk inkişaf dövrlərindəkindən fərqlənir.

K.M.Musayev doğru olaraq göstərir ki, sovet dövründə «türk dillərində yeni ümumi sovet leksik fondu yaranmışdır. Bu leksik fond ölkənin, türkdilli respublikaların və vilayətlərin ictimai-iqtisadi və mədəni həyatında köklü dəyişiklikləri əks etdirir»[1]. Türk dilləri leksik fondunun yeni inkişaf meyilləri ilə bağlı fikrini davam etdirərək görkəmli tədqiqatçı yazır: «Bununla yanaşı türk dilləri leksikasının inkişafında problemlər də vardır. Bunlardan başlıcaları: bir tərəfdən, dilin əsl inkişaf meyillərini nəzərə almadan söz yaradıcılığına aludəçilik, digər tərəfdən, mənası həmişə aydın olmayan sözlərin başqa dillərdən alınması ilə bağlı aludəçilik. Halbuki alınan anlayışları ifadə etmək üçün milli dilin özündə kifayət qədər söz və ya onun daxili imkanlarından istifadə edərək yeni yaratmaq mümkündür»[2].

Sovet dövründə Azərbaycan ədəbi dili lüğət tərkibinin inkişaf özünəməxsusluğunu müəyyən edən cəhətlərdən

---

[1] К.М.Мусаев. Ленинские заветы и развитие тюркских языков в СССР. – СТ, 1988, № 2, стр. 9.

[2] Yenə orada.

birincisi ədəbi dilin leksik normasının dövrə hansı keyfiyyətdə gəlməsindən ibarətdir. Bu məsələnin aydınlaşdırılması və sovet dövrü Azərbaycan ədəbi dili lüğət tərkibinin tədqiqi prosesində daim diqqət mərkəzində olması ona görə lazımdır ki, bir neçə əsrlik tarixə malik leksik-semantik hadisələr bu dövrdə də fəaldır, onların səbəblərinin: aşkarlanması zamanı tədqiqatçı dövrün hüdudlarından kənara çıxmağa, səbəbiyyət əlaqələrinin arxasınca daha əvvəlki dövrlərə müraciət etməyə məcburdur.

Leksik normanın inqilabaqədərki vəziyyəti ədəbi dilin özünün vəziyyəti kontekstində, başqa sözlə, funksional üslubların fəaliyyəti hüdudunda təsəvvür edilərsə, biz aşağıdakı mənzərənin şahidi olarıq.

XVI əsrin sonu, XVII əsrin əvvəllərində Azərbaycan ədəbi dilinin leksikasında tarixi dönüş baş verir; yüzlərlə milli lüğəvi vahid ədəbi işləklikdən qalır, ərəb, eləcə də fars mənşəli leksika tədricən kəmiyyətcə azalmağa doğru gedir[1]. XVII-XVIII əsrlərdə ədəbi dilin xalq dilinə daha da yaxınlaşması ilə əlaqədar olaraq leksik normanın demokratizmi güclənir. XIX əsrin əvvəllərindən etibarən ərəb, fars dilləri ilə yanaşı, rus dili də tədricən alınma söz mənbələri sırasına keçir. XIX əsrin sonu, XX əsrin əvvəllərində rus-Avropa mənbəyi ərəb, fars mənbələri ilə eyni gücdə olur. O mənada yox ki, rus-Avropa dillərindən ədəbi dilə keçən sözlərin kəmiyyəti ərəb, fars dillərindən keçən sözlərin kəmiyyəti ilə eynidir; əslində, ərəb, fars sözləri həddindən artıq çoxdur, eyni olan – mənbələrin tarixi-psixoloji nüfuzudur: ərəb, fars mənbəyi yüz illər boyu davam edən təsir təcrübəsi – ənənəsi, rus-Avropa mənbəyi isə perspektivi ilə güclüdür. Əsas lüğət fondu –ədəbi dilin

[1] *Bax:* T.Hacıyev. Azərbaycan ədəbi dili tarixi, I hissə, Bakı, ADU, nəşri, 1976, səh. 54.

leksik normasının istinad etdiyi baza isə millidir, ona görə də iki müxtəlif mədəni-tarixi mühitin təsiri leksik normanı milli əsaslardan məhrum edə bilmir.

Funksional üslub sferası leksik normanın mövcudluğunun linqvistik şərti kimi onun fəaliyyət dairəsini aşağıdakı şəkildə müəyyən edir: bədii üslub (demokratik və qeyri-demokratik ifadə formaları), publisist üslub (yenə də iki ifadə forması), elmi üslub (olduqca qeyri-diferensial şəkildə); ədəbi dilin lüğət tutumu da bunlara uyğundur…

Bədii üslubun demokratik ifadə forması (M.Ə.Sabir, Ç.Məmmədquluzadə, Ə.Haqverdiyev, N.Vəzirov, N.Nərimanov və başqalarının dili) ilə yanaşı, qeyri-demokratik (əsasən romantiklərin dili) ifadə formasının mövcudluğu leksik normanın iki müxtəlif variantını, başqa cür desək, sözə stilistik münasibətin iki tipini təqdim edir. Variantlılıq, müxtəliflik XX əsrin əvvəllərində getdikcə güclənir, eyni zamanda nəzəri-konseptual şəkildə əsaslandırılır. Publisist üslubda da təxminən eyni hadisə baş verir, lakin demokratik ifadə tərzinin, deməli, həm də leksik normanın demokratizminin publisist dildəki qələbəsi bədii üslubdakına nisbətən asan başa gəlir, çünki publisist üslubda kütləvi anlaşıqlıq əsas şərtdir və mətbuatın dilini kütlə anlamırsa, onun mövcudluğu sadəcə olaraq mümkün deyil. Ona görə də «Molla Nəsrəddin» jurnalı bir neçə on il yaşadığı halda, qeyri-demokratik dildə yazılan məcmuələr, qəzetlər bir neçə ildə öz ömrünü başa vurur.

İnqilabaqədərki dövrdə elmi üslub, qeyd edildiyi kimi, olduqca qeyri-diferensial şəkildə idi – elmi üslubun daşıyıcısı olan ictimai qüvvələr gücsüz idi; ona görə yox ki, milli təfəkkür elmi mədəniyyətdən uzaq düşmüşdü; ona görə ki, elmi təfəkkür ya başqa dillərdə – ərəb, fars, rus, fransız dillərində faktlaşırdı, ya da olduqca publisist şəkildə

təzahür edirdi ki, bunu heç cür elmi üslub hesab etmək olmaz (Azərbaycanda elmi müəssisələrin olmaması elmi üslubun taleyinə həlledici təsirini göstərmişdi). Elmi üslubun qeyri-diferensial şəkildə təzahürü isə terminologiyanın zəif inkişafı demək idi.

İnqilabdan sonra da lüğət tərkibinin bu mənzərəsi bir müddət qalır, xüsusilə 30-cu illərə qədər leksik normaya münasibətdə tarixi tərəddüdlərin davam etməsi özünü göstərir, eyni zamanda mövcud ictimai-siyasi şərait məsələni bir qədər də mürəkkəbləşdirir: ərəb, fars sözlərinə qarşı amansız bir cəbhə açılır, əvəzində isə, heç bir linqvistik əsası olmadığı halda, inqilabi dəyişikliyi vulqar məzmunda başa düşməyin nəticəsi olaraq ədəbi dilə hədsiz rus-Avropa sözləri gətirilir. M.A.Şirəliyev bu cür sözlərin bütöv bir siyahısını təqdim edir (siyahıya böyük işlənmə tezliyinə malik 100-ə qədər söz-termin daxildir) və yazır: «Ərəb-çilik-farsçılıq deyə dildə əsrlərdən bəri işlədilmiş istilahları çıxarmaq iki böyük səhvə: 1) ehtiyac olmadan lüzumsuz Avropa sözləri ilə dilimizin zibillənməsinə; 2) bugünkü elmlərimizin, ədəbiyyatımızın onların tarixindən ayrılmasına yol vermişdir»[1]. Beləliklə, bu çox mühüm bir cəhətdir ki, sovet dövrü Azərbaycan ədəbi dili lüğət tərkibinin inkişafı əvvəlki dövrlərin inkişaf məntiqini də ehtiva edir, davam etdirir, yəni linqvistik-psixoloji varislik əlaqəsi qırılmır. 20-ci, xüsusilə 30-cu illərdə S. Vurğun şeir dilini XVIII əsrin demokratik dilinə – M. P. Vaqif üslubuna istinadən inkişaf etdirir; M. P. Vaqif dili üçün xarakterik olan bir sıra sözləri, ifadələri S. Vurğun da yeni tarixi şəraitin faktı kimi işlədir: *havalanmaq, ağzı şirin sözlü, könüldən könülə yollar görünmək* və s.

---

[1] M.Ş.Şirəliyev. İstilahlar yaradılmasındakı əsas prinsiplər. – Dil institutunun əsərləri, Bakı, Azərb. SSR EA nəşri, I cild, 1947, səh. 35.

Sovet dövründə Azərbaycan ədəbi dilinin lüğət tərkibi inqilabaqədərki dövrlərin lüğət tərkibinin keyfiyyətcə davamıdır; belə ki, leksik-semantik normanın sovet dövründə kəsb etdiyi keyfiyyət inqilabdan əvvəlki dövrlərdən formalaşmağa başlayır. XVIII əsrdən lüğət tərkibində özünü göstərən millilik XIX əsr boyu inkişaf edir, XX əsrin əvvəllərində güclənir[1] və daha böyük ictimai-demokratik məzmun kəsb edir.

Beləliklə, Azərbaycan ədəbi dili lüğət tərkibi sovet dövrünə istər zənginləşmə mənbələrinə, istərsə də funksional üslubi diferensiasiya səviyyəsinə münasibətdə özünəməxsus tarixi xarakteri ilə gəlir və bu xarakter onun sovet dövründəki inkişafına bilavasitə təsir edir.

Sovet dövründə Azərbaycan ədəbi dili lüğət tərkibi ümumxalq dili leksik bazasına istinadən inkişaf edir – ümumxalq dilinin leksikası isə qədimdən bəri formalaşa-formalaşa gəlir, bu mənada ədəbi dilin lüğət tərkibinin sovet dövründə ümumxalq dili hesabına zənginləşməsi prosesi də, əslində, daha əvvəlki dövrlərlə linqvistik-tarixi kontaktın ifadəsidir. Ümumiyyətlə, «türk xalqlarının şifahi yaradıcılıq nümunələrinin dilində terminoloji leksikanı zənginləşdirmək üçün imkanlar az deyildir. Epik əsərlərdə ümumi biologiyaya, botanikaya, heyvandarlığa, aqrobiologiyaya və başqa sahələrə aid anlayışları ifadə etmək üçün çoxlu terminlərə təsadüf olunur. Eyni fikri müxtəlif biliklər sahəsində terminologiyanı daha da zənginləşdirməkdə qiymətsiz mənbə olan dialekt leksikası haqqında da demək

[1] *Bu barədə bax:* M.Cahangirov. Azərbaycan milli ədəbi dilinin təşəkkülü, I hissə, Bakı, «Elm», 1978, s.186; N.Cəfərov.Leksik normanın milliləşməsi, «Elm və həyat» jur., 1988, № 7, səh. 22.

olar»[1].

Sovet dövründə ədəbi dilin lüğət tərkibi, xüsusilə terminologiya, folklor, eləcə də dialekt bazası hesabına zən-ginləşdikcə təbii olaraq daha əvvəlki dövrlərin dil enerjisindən istifadə edilir, ona görə də sovet dövründə ədəbi dil öz leksik potensiyasını (müasir təfəkkürün ifadəçisi olan leksik-semantik sistemi) ancaq yeni dövrün dil təfəkkürünün gücü ilə yaratmır, bir sıra hallarda tarix boyu dildə mövcud olanı «oyadır», fəal kommunikativ istismar üçün yararlı hala gətirir.

Sovet dövründə Azərbaycan ədəbi dili lüğət tərkibinin inkişaf özünəməxsusluğunu müəyyən edən *ikinci* cəhət inqilabdan sonra lüğət tərkibinin fəaliyyət sferasının tədricən genişlənməsindən ibarətdir; bunun həm ekstralinqvistik, həm də linqvistik aspektləri var.

Ekstralinqvistik aspekt dedikdə inqilab gedişində (əsasən, 1905-1920-ci illərdə) və inqilabdan sonrakı dövrdə ədəbi dilin lüğət tərkibinin funksional imkanlarını genişləndirən ictimai-siyasi, ədəbi-mədəni və mənəvi proseslər nəzərdə tutulur.

İnqilabi yüksəliş illərində Azərbaycan dilinin həm siyasi, həm də mədəni nüfuzu artır, inqilabdan sonra isə o, dövlət dili olur; respublikanın ictimai-siyasi həyatında baş verən dəyişikliklərin sürəti Azərbaycan dilinə, birinci növbədə onun lüğət tərkibinə təsir edir (burada bəzi dilçilərin sovet dövrü Azərbaycan ədəbi dilinin tarixini vaxtilə beşilliklər üzrə təsnif etmək cəhdlərini yada salaq), dil quruculuğu (düzdür, bu proses bir qədər kompaniya şəklində aparılırdı, lakin ədəbi dilin inkişafına şüurlu müdaxilənin başlanğıcı kimi böyük hadisa idi) dövründə

---

[1] К.М.Мусаев.Современная терминология литературных тюркских языков Советского Союза, СТ, 1981, № 6, стр. 8-9.

terminologiya qaydaya salınır, çoxlu sayda terminoloji lüğətlərin hazırlanmasına qayğı göstərilir.

Azərbaycan SSR-də Azərbaycan dilinin dövlət dili olması ilə xalqın ictimai-siyasi mühitə müdaxiləsi genişlənir; istər ədəbi-bədii, istər publisist, istərsə də elmi mühitə kütləvi axın baş verir, məktəblər açılır, elmi təd-qiqat müəssisələri yaranır, mətbuatın fəaliyyət dairəsi genişlənir, beləliklə, ədəbi dilin lüğət tərkibi də onun sintaksisi ilə birlikdə zənginləşir.

T.İ.Hacıyevin ifadəsi ilə desək, «ana dilinin dövlət dili kimi rəsmiləşdirilməsi, dövlət aparatına, idarə sisteminə daxil olması ilə Azərbaycan xalqı öz ədəbiyyatı və mənəviyyatı ilə yaşamağa, öz ruhu ilə ruhlanmağa imkan tapdı»[1].

Ədəbi-bədii, publisist, hətta elmi dilə 20-ci, 30-cu illərdə qarşısıalınmaz şəkildə dialekt leksikası gəlir, daha doğrusu, o leksika gəlir ki, onun normativləşmə imkanı qarşısında uzun müddət ictimai-siyasi, mədəni maneələr olmuşdur. M.A. Şirəliyev 1944-cü il dil konfransında doğru olaraq göstərir ki, xalq arasında işlənən istilahlar öyrənilmədiyindən çox vaxt rus-Avropa sözləri ilə əvəz edilmişdir. Müəllifin verdiyi siyahıdan bir neçə nümunəyə baxaq: *brak* – çıxdaş; *sort* – çeşid; *probka* – tıxac; *partner* – oyundaş; *akrobat* – canbaz, kəndirbaz; *pustula* – irinlik; *svinoroy*-(donuzeşən) – çayır otu; *harmal* – üzərrik; *belladonna* – xanımotu; *stul* – oturacaq; *kefir* – körəməz; *Venera* – dan ulduzu, zöhrə; *Bolşaya Medvediça* (böyük

[1] T.İ.Hacıyev. Azərbaycan ədəbi dili tarixi, II hissə, Bakı, «Maarif» nəş., 1987, səh. 253.

ayı) – yeddi qardaş (ulduz) və s.[1]

Xalq dilinə siyasi rəğbət az qala etnoqrafik fakta – eksponata çevrilmiş lüğəvi vahidlərin fəal ictimai həyata cəlb edilməsi ilə nəticələnir; əlbəttə, bu tipli sözlərin heç də hamısı ədəbi-normativ səviyyədə möhkəmlənə bilmir, ancaq əksər qismi möhkəmlənir və lüğət tərkibinin keyfiyyətinə təsir edir, onu demokratik, xəlqi əsaslara daha möhkəm bağlayır. Həm də məsələ burasındadır ki, xalq dilindən alınmış sözlər təkcə ədəbi-bədii dilə deyil, eyni zamanda publisist, elmi üslublara da daxil olur.

Şübhəsiz, «funksional üslubların diferensiallaşmasında və onların daha da təkmilləşməsində dilin leksik vasitələri böyük rol oynayır. Əgər lüğət tərkibində üslubi istifadə zamanı xüsusi çalar kəsb etmiş spesifik leksik qat yaranmışsa, bu heç də təsadüfi olmamışdır, əksinə, ümumistifadə sözləri ilə qırılmaz şəkildə baş vermişdir ki, belə sözlər də funksional üslubların leksikasının inkişafının əsasını təşkil edir»[2]. Bu mənada sovet dövründə Azərbaycan ədəbi dilinin lüğət tərkibi həm kəmiyyətcə, həm də keyfiyyətcə inkişaf edir. İnqilabdan sonra Azərbaycanın müxtəlif regionlarından olan ziyalıların Bakıda fəaliyyət göstərməsi lüğət tərkibinin demokratik əsaslar üzrə inkişafının sosial şərti kimi diqqəti cəlb edir.

30-cu illərdə Azərbaycan ədəbi dilinin leksik norması sabitləşir[3], «terminoloji hərc-mərclik» (T. Hacıyev), heç olmasa, psixoloji baxımdan aradan qalxır, yəni əksəriyyət

---

[1] M.Ş.Şirəliyev. İstilahlar yaradılmasındakı əsas prinsiplər. – Dil institutunun əsərləri, Bakı, Azərb. SSR EA nəşri, I cild, 1947, səh. 30-31.

[2] Эсмурат Бердимуратов. Развитие каракалпакской лексики в связи с развитием функциональных стилей литературного языка, АДД, Ташкент, 1973, стр. 11.

[3] *Bu barədə bax:* T.Hacıyev. Azərbaycan ədəbi dili tarixi, Bakı, ADU nəşri, 1976, səh. 57.

hansı mənbəyə istinad etməyin optimallığını dərk edir və bundan sonra o vahid ki, artıq qəbul olunur, onu dildən çıxarmaq təklifləri kəsilir; qeyd etmək gərəkdir ki, bütün bu proseslər – hərc-mərclik də, nizamadüşmə də ölkənin ictimai həyatında, mədəni-tarixi ənənələrə münasibətdə baş verən dəyişmələri, ümumən ictimai-siyasi inkişafın qanunauyğunluqlarını əks etdirir.

İctimai-siyasi inkişaf, təsərrüfat həyatının canlanması, kollektivləşmə, sənayenin, mədəniyyətin yüksəlişi ədəbi dilin, birinci növbədə lüğət tərkibinin imkanlarını genişləndirir dedikdə təkcə o nəzərdə tutulmur ki, leksika yeni fəaliyyət sferaları əldə edir; həm də o nəzərdə tutulur ki, söz zövqü, söz duyğusu, hətta söz siyasəti həmin sferalarda yeni cəmiyyətin qurulması uğrundakı mübarizənin gedişini də ehtiva edir və bunun nəticəsində lüğət tərkibi məzmunca milli əsaslar üzərində yenidən qurulur. Bu, sovet dövründə Azərbaycan ədəbi dili lüğət tərkibinin inkişaf özünəməxsusluğunu müəyyən edən *üçüncü* cəhətdir və bunu şərh etməyə çalışaq.

Əvvəlcə onu qeyd edək ki, hər üç cəhət bir-biri ilə dialektik əlaqədədir və bir-birini şərtləndirir; lüğət tərkibinin ictimai, eləcə də stilistik fəaliyyət dairəsinin genişlənməsi onun məzmunca yeni əsaslar üzərində qurulması ilə bilavasitə bağlıdır, eyni zamanda bu cür bağlılığın kökləri, qeyd etdiyimiz kimi, inqilabdan əvvəlki dövrlərə gedib çıxır və belə zənn edirik ki, sovet dövründə Azərbaycan ədəbi dili lüğət tərkibinin inkişaf qanunauyğunluqları bu üç cəhətdən, onun müəyyən etdiyi prinsip və parametrlərdən kənarda mövcud ola bilməz. Əslində, burada lüğət tərkibinin inkişaf məntiqini aşkarlayan kontekst təsəvvür edilir; həmin kontekst həm realdır— ədəbi dilin mövcudluğu ədəbi dilin arxasında dayanan

ictimai-siyasi, ədəbi-mədəni şəraitin mövcudluğu şəklində təzahür edir (yəni konkret ictimai-siyasi, ədəbi-mədəni tədbirlər həyata keçirilir, bu da ədəbi dilə, eləcə də müəyyən spesifikliyi ilə leksik normaya təsir edir), həm də ideal şəkildədir, – siyasi mübarizə gedir, ictimai-mədəni şüur dəyişir, təfəkkür dəyişir (əlbəttə, bunun da çoxlu planları var: ictimai-siyasi, estetik, təsərrüfat-texniki və s).

İndi üçüncü cəhətə qayıdaq: lüğət tərkibinin sovet dövründə məzmunca sosialist milli əsaslara malik olması nə deməkdir?

Milli şüurun çiçəklənməsi, inqilabi səviyyəyə çatması ilə milli mədəni təfəkkürdə konsentrasiya prosesi gedir, tarixən qazanılmış nə varsa, realist prinsiplərlə yenidən işlənir; Azərbaycanda bu proses 20-ci, 30-cu illərdə özünü daha aşkar şəkildə göstərir: məsələn, prof. Ə.Dəmirçizadənin təbiri ilə desək, sazlı şeir dili ilə yazılı şeir dili qovuşur və bu qovuşma kontekstində lüğət tərkibinin mənzərəsi müəyyənləşir (əlbəttə, ədəbi-bədii dil hüdudunda). Sazlı şeir dili – folklor əsaslı dil öz xəlqi leksikası ilə gəlir – bu öz yerində; eyni zamanda sözə spesifik estetik münasibəti ilə gəlir. Yazılı şeir dili də onun kimi. Ancaq yazılı şeir dilinin leksikası ərəb, fars, türk (osmanlı) elementləri ilə zəngindir (daha doğrusu, yazılı şeir dili müxtəlif qollara ayrılır, hər qolun da öz tarixi, öz keyfiyyəti var). 20-ci, eləcə də 30-cu illərdə – sosialist milli dilinin (deyək ki, onun ədəbi-bədii ifadə formasının) yaranması ya sazlı, ya yazılı şeir dilinə üstünlük verilməsi, ya da bunların konsentrasiyası hesabına mümkün idi (lüğət tərkibinin keyfiyyəti də burada müəyyən olunacaqdı); bunu isə dövrün ictimai-estetik şüuru həll etməli idi… İctimai-estetik şüur isə xəlqi olanı əsas götürür, yazılı şeir dilindən isə o formalar qalır ki, onlar xəlqi olanla qovuşa bilər, yəni

ilk növbədə kütləvi anlaşıqlılığa üstünlük verilir, ikinci növbədə isə estetik baxımdan uğurlu olan götürülür; ən optimal variant odur ki, həm anlaşıqlıdır (dövrün mədəni-estetik səviyyəsindən), həm də uğurludur. Ədəbi-bədii dilin leksik norması da bu prinsip əsasında qurulur; o sözlər ki, klassik mətnlərin, eləcə də XX əsrin əvvəllərində romantik şeirin dilində işlənirdi və ərəb, fars dillərinə məxsus idi (poetik potensial da əslində bu sözlərin hesabına güclü olurdu – M.Hadinin bir sıra şeirlərindəki, Ə. Hüseyn-zadənin qərb ədəbiyyatından tərcümələrindəki kimi), 20-ci, 30-cu illərdə şeir dilini tərk edir.

İctimai-siyasi şüurun dəyişməsi, əlbəttə, ictimai-siyasi terminologiyada daha qabarıq şəkildə ifadə olunur. Qeyd etmək lazımdır ki, sosialist dünyagörüşünün anlayışlarını ifadə edən leksika hələ 1905-1920-ci illər ərzində, xüsusilə bolşevik mətbuatının dilində bir sistem kimi müəyyənləşir: *sovet, partiya, kommunist, anarxizm, büro, komitet (komitə), inqilab, klub, bolşevik, azadlıq, mitinq, tətil, üsyan, üsyançı, nümayiş, nümayişçi, qiyam, qiyamçı, siyasi tətil, fəhlə hərəkatı, inqilabi hərəkat, millətçi menşeviklər, istismarçı siniflər, şura, sosializm, kommunizm, Şura hökuməti, zəhmət komissarı, Müvəqqəti Hərbi inqilab komitəsi, materializm, elmi sosializm, Kommunist manifesti və s. və i.a.*[1]

Bolşevik mətbuatı sosial məzmunlu leksikanın zən-ginləşməsi uğrunda mübarizə aparır, müxtəlif anla-yışların daha aydın ifadəsinə, daha demokratik yolla kütləyə çatdırılmasına çalışır; nümunələrdən də göründüyü kimi, axtarışlar aparılır – morfoloji, sintaktik yollarla yeni lüğəvi

[1] Г.Г.Салманова. Роль большевитской печати в обогащении словарного состава азербайджанского литературного языка (1905-1920); АКД, Баку, 1958, стр. 9-13.

vahidlər, ifadələr yaradılır və bu söz axtarışında bir sıra tərəddüdlər də özünü göstərir: həm *sovet,* həm də *şura* sözü işlədilir.

Bolşevik mətbuatında burjua jurnalistlərinin Azərbaycan ədəbi dili lüğət tərkibinin beynəlmiləl və rus sözləri hesabına zənginləşdirilməsi əleyhinə çıxmaları tənqid olunur,[1] beləliklə, ictimai-siyasi anlayışların, onların ifadəsi olan leksikanın ədəbi dildə artması təkcə linqvistik-lüğəvi bir hadisə yox, həm də mühüm ictimai-siyasi məzmunlu hadisə kimi dərk edilir.[2]

Ədəbi-bədii, publisist, elmi təfəkkürün ümumxalq əsasları üzrə, sosialist məzmununda yenidən qurulması (yeni ədəbiyyatın, yeni ədəbiyyatşünaslığın, yeni publisistikanın, eləcə də marksist-leninçi elmi dünyagörüşünün yaranması) lüğət tərkibinə ciddi təsir edir.

L.M.Qranovskaya qeyd edir ki, Oktyabr inqilabından sonrakı ilk onillik neologizmlərin sürətlə tarixizmlərə çevrilməsi ilə səciyyələnir.[3] Eyni proses Azərbaycan dilində də gedir; kapitalist dünyasının, burjua həyat tərzinin ifadəsi olan, yenicə yaranmış sözlər inqilabdan sonrakı illərdə tarixizmə çevrilir. Həm də bu cür dəyişmə ayrı-ayrı sözlərlə yanaşı, söz assosiasiyalarını da əhatə edir – bütöv ifadələr

---

[1] Г.Г.Салманова. Роль большевитской печати в обогащении словарного состава азербайджанского литературного языка (1905-1920); АКД, Баку, 1958, səh. 20.

[2] Eyni xüsusiyyət başqa türk dillərinə də aiddir; məsələn, bax: U. Tursunov, B. Urinboev. Uzbek adabiy tili tarixi, Toşkent, «Ugituvc» nəşriyyatı, 1972, səh. 89-92; Эсемурат Бердимуратов. Развитие каракалпакской лексики в связи с развитием функциональных стилей литературного языка, АДД, Ташкент, 1973, стр. 14-23; Я. Чонняев. Хәзирки заман туркмен дилинин лексикологиясы, Ашгабат, «Туркменистан» неш., 1972, səh. 89-92 və s.

[3] Л.М.Грановская. Некоторые особенности развития словарного состава русского языка в 20-е годы XX в. и проблема нормы. – Литературная норма в лексике и фразиологии, М., изд., «Наука», 1983, стр. 47.

işləklikdən qalır.

İnqilabaqədərki, eləcə də inqilabdan sonrakı illərdə lüğət tərkibində baş verən dəyişmələrin ictimai-siyasi, hətta ideoloji məzmunu həmin dəyişmələr getdiyi dövrdə də aşkar hiss edilirdi. Məsələn, inqilabdan sonrakı dövrdə rus ədəbi dilində bu cür dəyişmələr mühacir mətbuatında kəskin tənqid edilir; bunun səbəbi o idi ki, söz bəzən təşviqat məqsədlərinə tabe edilir, ona əlahiddə subyektiv məzmun verilirdi.[1]

XX əsrin 20-ci, 30-cu illərində marksizm-leninizm klassiklərinin əsərlərinin Azərbaycan dilinə tərcümə edilməsi ədəbi dilin lüğət tərkibinin inkişafında mühüm rol oynadı; birincisi, bu cür tərcümələrdə ana dilinin bütün imkanları səfərbərliyə alınırdı, ikincisi də, tərcümənin keyfiyyəti üzərində nəzarət mövcud idi, yəni həm obyektiv, həm də subyektiv imkanlardan yaxşı istifadə edilirdi. Marksizm-leninizm klassiklərinin əsərlərinin tərcüməsi gedişində ictimai-siyasi terminologiya zənginləşdi, lüğət tərkibinin sosial məzmunu artdı ki, bu da leksik-semantik normanın keyfiyyətcə yeniləşməsi demək idi. Ona görə ki, ədəbi dilin lüğət tərkibi bütöv bir sistemdir; funksional üslublara, sahələrə münasibətdə bu sistemin yarım-sistemləri ayrılır. Əgər inqilabdan sonra üslubların sosial məzmunu dəyişirsə, sahələr bir sıra hallarda yenidən qurulursa, ədəbi dilə yeni anlayışları ifadə edən yeni sözlər gəlirsə, bu, lüğət tərkibini dəyişdirir, yeni əsaslar üzərinə qaldırır. Lüğət tərkibinin ideoloji məzmununun dəyişməsi təkcə arxaikləşmə, yaxud yeni sözlərin yaranması prosesi deyildir. Çox mühüm cəhət kimi sözün semantikasında

---

[1] Л.М.Грановская. Некоторые особенности развития словарного состава русского языка в 20-е годы XX в. и проблема нормы. – Литературная норма в лексике и фразиологии, М., изд., «Наука», 1983, səh. 59-60.

təbəddülat baş verməsini qeyd etmək lazımdır: ənənəvi olaraq işlənən söz yeni ictimai-mədəni dünyagörüş kontekstinə düşür, məhz məzmunca dəyişir.

Sovet hakimiyyətinin ilk illərindən etibarən mədəni inqilabın həyata keçirilməsi lüğət tərkibinin inkişafına təkan verir; milli düşüncənin çiçəklənməsi faktı olan orijinal əsərlər meydana çıxır; eləcə də dünya ədəbi, elmi fikrinin nümunələri Azərbaycan dilinə tərcümə edilir, «Azərbaycan dili» sözünün semantik coğrafiyası genişlənir. Sözün semantik coğrafiyasının genişlənməsi elə bir linqvistik-qneseoloji prosesdir ki, tarixi-ictimai həyatın – dəyişən sosial-psixoloji münasibətlərin təsiri ilə gedir.

Cəmiyyət həyatının yeni əsaslar üzərinə qaldırılması ictimai münasibətlərin psixoloji xarakterini kökündən dəyişir və buna uyğun olaraq sözün ictimai üslublaşma imkanları da dəyişir; məsələn, *ağsaqqal, başçı, xanım, sərvət, var-dövlət* qəbilindən olan yüzlərlə söz yeni ictimai-siyasi, mədəni-etik təfəkkürün ixtiyarına keçir. Ümumiyyətlə, hər hansı ictimai-siyasi şərait lüğət tərkibinə – leksik normaya adətən birbaşa deyil, məhsulu olan mənəvi-mədəni mühit vasitəsilə daha ardıcıl, daha davamlı şəkildə təsir göstərir; çünki ictimai-siyasi şəraitin özü həmin mənəvi-mədəni mühitdə dərk olunur, dəyərləndirilir, təsdiq, yaxud inkar edilir. Sözü – leksik vahidi normativləşdirən, ədəbi səviyyəyə qaldıran da həmin mədəni-mənəvi mühitdir.

Hər hansı dövrdə ədəbi dilin lüğət tərkibi həmin dövrün idrak səviyyəsini əks etdirir, normativ qenesioloji tutum lüğət tərkibinin tutumu ilə eyni həcmdə olur, leksik stilizasiya da bu əsasda gedir. Lüğət tərkibinin sovet dövründə necə inkişaf etdiyini müxtəlif illərdə tərtib olunmuş lüğət kitablarının sözlüyünün müqayisəsi yolu ilə

müəyyənləşdirmək olar; məsələn, S.M.Qənizadənin lüğətində[1] ictimai-siyasi leksika yox dərəcəsindədir, eləcə də o sözün ki, 20-ci, 30-cu illərdə ictimai-siyasi məzmunu güclənir, bu lüğətdə daha çox məişət məzmununda çıxış edir. Onun lüğətlərində etnoqrafik leksika üstündür. Halbuki sovet dövrü lüğətlərində bu cür vahidlər minimal həddədir. Sovet dövrünə qədər deyək ki, İ.Nəsiminin, M. Füzulinin, M.P.Vaqifin dilində etnoqrafik leksikanın işləkliyi dilçilik ədəbiyyatında onların dil demokratizmi kimi qeyd edilir. Sovet dövründə də ən çox ədəbi-bədii, eləcə də publisist dildə bu cür vahidlər işlənir, lakin artıq bunu inqilabaqədərki dövrdə olduğu dərəcədə qiymətləndirmək mədəni-tarixi, eləcə də linqvistik-idraki baxımdan düzgün deyil. Beynəlmiləl leksikanın axını (ictimai şüurun rus-Avropa düşüncə tərzinə üz tutması ilə əlaqədar olaraq) xüsusilə 20-30-cu illərdə lüğət tərkibinin etnoqrafik aktivliyi ilə mübarizədə qalib çıxır, hətta dünənə qədər etnoqrafik məzmunu ilə küncdə-bucaqda qalan söz bu gün ictimai-siyasi mənaya malik olur, sinfi mübarizə silahına çevrilir. Ümumiyyətlə, sözün ictimai dəyəri təbii gedişlə artmır, sözə məzmunu zamanın ictimai aktivliyi verir.

Sovet dövründə Azərbaycan ədəbi dili lüğət tərkibinin inkişafının keyfiyyət ölçüsü ilə kəmiyyət ölçüsü qarşılıqlı əlaqədədir. N.A.Şarapov «Müasir tacik ədəbi dili leksikasının inkişaf yolları» adlı tədqiqatında keyfiyyət ölçüsünə üstünlük verir, onun fikrincə, lüğət tərkibinin keyfiyyətcə dəyişməsində də əsas anlam, eləcə də morfoloji xarakterli dəyişmələrdir[2]. Əlbəttə, anlam, yaxud morfoloji xarakterli dəyişmələrə keyfiyyət faktı kimi üstünlük

---

[1] Lüğəti-rusi və türki əsəri. – Sultan Məcid Qənizadə, Bakı, «Kaspi», 1909.

[2] Н.А.Шарапов. Пути развития лексики современного таджикского литературного языка, АДД, Баку, 1974, стр 4-5.

verilib-verilməməsi, hər şeydən əvvəl, dilin öz təbiəti, lüğət tərkibinin, söz yaradıcılığının tipologiyası ilə bağlıdır. Prinsip etibarı ilə, proses SSRİ xalqlarının yazı ənənəsi olan ədəbi dillərində həm keyfiyyət, həm də kəmiyyət münasibətinə görə oxşardır: keyfiyyət planında – ənənəvi leksika sosialist məzmununa uyğunlaşır, həmin prinsiplə yeni sözlər yaradılır; kəmiyyət planında – bütün mərhələlərdə olduğu kimi, yeni yaranan sözlər arxaikləşən sözlərdən çox olur, ən çox ictimai-siyasi leksika yaranır və arxaikləşir[1], çünki təfəkkürün bu sahəsi daha sürətlə inkişafda olur.

Sovet dövründə Azərbaycan ədəbi dili lüğət tərkibində sistem-struktur münasibətlərinin yeni sahələri müəyyənləşir. 30-cu illərdən etibarən kənd təsərrüfatının intensiv inkişafı, kollektivləşmə, sənayeləşmə prosesləri, bir qədər sonra elmi-texniki inqilabın sürətlə irəliləyişi leksik normada funksional baxımdan təbəddülat yaradır. Üslubların inteqrasiya prosesi gedir, deyək ki, elmi üslubda işlənən sözlər başqa üslublara, hətta danışıq dilinə keçir.

Elmi-texniki inqilab hər sahədə, o cümlədən ictimai münasibətlər sahəsində özünü büruzə verir, mədəni-mənəvi mühitdə təbəddülat əmələ gəlir; texnika nəinki iqtisadi-təsərrüfat, hətta sosial-psixoloji aləmdə də dəyişiklik yaradır: 50-ci illərdən etibarən lüğət tərkibinə qarşısıalınmaz bir surətdə elmi-texniki leksika, abreviaturaların bütöv bir sistemi daxil olur. 50-ci, 60-cı illərdə ədəbi dilin lüğət tərkibinə gələn elmi-texniki leksika həcminə, funksional fəallığına görə ancaq 20-ci, 30-cu illərdə gələn ictimai-siyasi leksika ilə müqayisə oluna bilər; 20-ci, 30-cu illərdə ədəbi dilə gələn ictimai-siyasi leksika dil

[1] Н.А.Шарапов. Пути развития лексики современного таджикского литературного языка, АДД, Баку, 1974, стр. 4-5.

təfəkküründə nə qədər aparıcı qüvvəyə, psixoloji çəkiyə malik olursa, 50-ci, 60-cı illərdə gələn elmi-texniki leksika da o qüvvədə, o çəkidədir. 60-cı, 70-ci illərdə ədəbi dil xalq dilinə (birinci növbədə, ədəbi-bədii dildə xalq dilinə qayıdış baş verir) nə qədər yaxınlaşırsa da, elmi-texniki leksikanın ümumi dil mühitində yaratdığı təəssürat yenə güclü olur, müxtəlif leksik-semantik sahələrə də təsir edir, stilizasiya imkanlarının novatorluğu ilə diqqəti çəkir. K. M. Musayevin qeyd etdiyi kimi, «elmi-texniki tərəqqinin güclü inkişafı ilə bağlı olaraq beynəlxalq leksik fondun, xüsusən elmi-texniki terminologiyanın genişlənməsi hesabına demək olar ki, bütün türk dillərinin terminoloji tərkibində böyük dəyişikliklər baş vermişdir», şübhə yox ki, «milli dillərdə terminlərin yaradılması heç də həmişə həmin ərazidə sənayenin və elmin inkişaf səviyyəsi ilə müəyyən edilmir.

Elmi-texniki terminologiya öz mahiyyəti etibarilə əhəmiyyətli dərəcədə beynəlmiləl xarakter daşıyır, çünki müasir dövrdə hər bir yeni kəşf, elm və texnikanın yeni nailiyyəti bütün xalqların malı olur. Xalqların ictimai-siyasi inkişafı da qanunauyğun şəkildə beynəlxalq ictimai-siyasi terminologiyanın yaranması ilə bağlıdır»[1].

Azərbaycan ədəbi dili lüğət tərkibinə beynəlmiləl leksikanın təsiri onun strukturunda müəyyən münasibətlər yaradır: milli (yaxud artıq milliləşmiş) olanla beynəlmiləl olan qarşılaşır; bu xüsusiyyət bütün türk dillərində özünü göstərir.[2] Qarşılaşma bir qayda olaraq funksional-üslubi diferensiasiyanın ədəbi dildəki dərinliyi ilə idarə olunur, belə ki, adətən beynəlmiləl söz elmi, yaxud elmi-texniki

---

[1] К.М.Мусаев. Современная терминология литературных тюркских языков Советского Союза. – СТ, 1981, № 6, стр. 9-10.
[2] Yenə orada.

ədəbiyyatın, milli (eləcə də milliləşmiş) söz isə, məsələn, bədii ədəbiyyatın dilində mühafizə edilir. Şübhəsiz ki, həm beynəlmiləl olanı, həm də milli olanı yaşadan ictimai-mədəni baza mövcuddur və bunlar dil təfəkküründə öz proyeksiyasını tapır, nəticədə, lüğət tərkibində paralel-sinonim vahidlərin yaşaması üçün şərait əmələ gəlir.

Sovet dövründə Azərbaycan ədəbi dili lüğət tərkibinin inkişafını xarakterizə edən əlamətlərdən ən mühümü inkişafın bütün mərhələlərində daxili imkanlara üstünlük verilməsidir; bu həm dilin daxili leksik-semantik potensiyasının genişliyini, həm də onun elastikliyini – stilizasiya imkanlarını nümayiş etdirir. Şübhəsiz, ictimai-siyasi, mədəni-mənəvi proseslərin nitq prosesləri ilə daxili əlaqədə getməsi, milli-mədəni təfəkkürün bütün sahələr üzrə diferensial inkişafı da burada şərtdir. Əgər milli-mədəni təfəkkür, məsələn, elmi-texniki tərəqqini qəbul etməyə hazır olmasaydı, heç elmi-texniki leksika da lüğət tərkibinə daxil ola bilməzdi, kənar üslublara, deyək ki, bədii, yaxud publisist üsluba isə ümumiyyətlə keçə bilməzdi.

Azərbaycan ədəbi dili lüğət tərkibinin inkişafının istər tarixi-ictimai, istərsə də linqvistik-qneseoloji qanunauyğunluqları qədim yazı ənənələri olan digər SSRİ xalqları dilləri lüğət tərkibinin inkişaf qanunauyğunluqları ilə tipoloji oxşarlığa malikdir. Bu hal həmin inkişaf xüsusiyyətlərinin universallığını təsdiq edir.

Elmi-dilçilik təfəkkürü 30-cu illərdən etibarən Azərbaycan ədəbi dili tarixinin sovet dövrünü keyfiyyətcə fərqli bir mərhələ kimi dərk edir, belə ki, sovet dövrünün əlamətdar cəhətləri ədəbi dildə məhz bu zaman diqqəti *cəlb* edəcək şəkildə faktlaşır; 30-cu illərin sonlarından başlayaraq, ədəbi dilin sovet dövründəki inkişafı ilə inkişaf prosesinin izlənməsi – elmi-dilçilik dərki bir qayda olaraq

bərabər gedir – lüğət tərkibi lüğətlərdə, qrammatik quruluş qrammatika kitablarında, funksional üslub mənzərəsi isə üslubiyyata aid işlərdə təsbit olunur. Beləliklə, ədəbi dilin sovet dövründəki mənzərəsi diferensial şəkildə öz əksini tapır, lakin bu hələ ədəbi dil tarixinin həmin dövrün tədqiqi demək deyildir, bunun üçün bu dövr bütövlükdə götürülməli, təhlilin həm tarixiliyi, həm də sistemliliyi gözlənilməlidir.

20-ci illərin axırı, 30-cu illərin əvvəllərində B. Çobanzadə «Aprel inqilabından sonrakı dövr»ü (onun təsnifində III dövr) xüsusi fərqləndirir.[1] Y. Əliyev də 1940-cı ildə Azərbaycan ədəbi dili tarixinin dövrləşdirilməsi probleminə həsr edilmiş məqaləsində[2] «üçüncü dövr» dedikdə məhz sovet dövrünü nəzərdə tutur. M. İbrahimov da 1944-cü ildə yazdığı məqalədə[3] 1920-ci ildən sonrakı dövrü Azərbaycan ədəbi dili tarixində müstəqil mərhələ hesab edir.

Bu dövrün müstəqilliyi 1952-ci ildə dərc olunmuş proqramda[4] da təsbit edilir.

1961-ci ildə A. Məhərrəmovun «Azərbaycan ədəbi dilinin sovet dövrü» kitabçası nəşr edilir: kitabçanın «Giriş»ində deyilir: «Ədəbi dilimizin inkişafı tarixində sovet dövrü xüsusi bir dövr təşkil edir»[5].

---

[1] B.Çobanzadə. M.F.Axundovda azəri ləhcəsi. «Maarif işçisi», 1928, № 3. (həmin bölgü burada təkrar olunur; Q.Bağırzadə, B.Çobanzadə. Elmi qramerin əsasları, Bakı, 1932, səh. 51).

[2] Y.Əliyev. Azərbaycan ədəbi dilinin inkişafı tarixinin əsas mərhələləri. – SSRİ EA Azərb. filialının xəbərləri, 1940, № 2.

[3] M.İbrahimov. Dilimizin inkişaf yolları. SSRİ EA Azərb. filialının xəbərləri, 1944, № 12.

[4] Azərbaycan ədəbi dili tarixi proqramı, Bakı, 1952 (tərtib edəni: H.Mirzəzadə).

[5] A.Məhərrəmov. Azərbaycan ədəbi dilinin sovet dövrü. Bakı, V. İ. Lenin adına APİ, 1961, səh. 3.

Tədqiqatçının müşahidələrinə görə, sovet dövrünü başqa dövrlərdən fərqləndirən əsas əlamətlər aşağıdakılardan ibarətdir:

– birincisi, lüğət tərkibinin əvvəlki dövrlərdəkinə nisbətən çoxcəhətli olması;

– ikincisi, ədəbi dilin xalq dilinə yaxınlaşması, başqa sözlə, onun əsasında inkişaf etməsi[1].

A.Məhərrəmov sovet dövrünün, əlavə olaraq, aşağıdakı xüsusiyyətlərinə də diqqəti cəlb etmişdir:

– ədəbi dilin ictimai-mədəni bazasının genişlənməsi;

– ədəbi dillə dialektlər arasındakı münasibətin dəyişməsi (ədəbi dil dialekt təzahürlərinə təsir etməyə başlayır, xüsusilə 30-cu illərdən etibarən);

– ədəbi dilin dövlət dili olması[2].

A.Məhərrəmovun kitabçasında lüğət tərkibinin, eləcə də fonetik-orfoqrafik quruluşun inkişafına dair maraqlı mülahizələrə təsadüf edilir.

ADU-nun 1979-cu ildə nəşr etdiyi proqramda isə ədəbi dilin tarixi əsasən əsrlər üzrə nəzərdən keçirildiyindən sovet dövrü XX əsr ədəbi dilinin tərkib hissəsi kimi götürülmüşdür[3]. Lakin bu halda da haqqında söhbət gedən dövrün nisbi müstəqilliyi görünür.

Ə.Dəmirçizadə bir neçə on il davam edən tədqiqatlarının nəticəsi olaraq Azərbaycan ədəbi dili tarixinin üç dövrünü qeyd edir.

Ə.Dəmirçizadənin təqdim etdiyi dövrləşdirmədə sovet dövrünün müstəqil mərhələ kimi fərqləndirilməsi ilə yanaşı, digər məsələ də maraq doğurur: tədqiqatçı sovet

---

[1] A.Məhərrəmov. Azərbaycan ədəbi dilinin sovet dövrü. Bakı, V.İ.Lenin adına APİ, 1961, səh. 3-4.

[2] Yenə orada, səh. 4-5.

[3] Azərbaycan ədəbi dili tarixi proqramı, Bakı, ADU nəşri, 1973.

dövründə ədəbi dilin milli dil əsasında inkişafından, dövrün ədəbi dilinin dialektikasından bəhs edir, beləliklə, Ə. Dəmirçizadənin təqdimatında Azərbaycan ədəbi dili tarixinin bu dövrü həqiqətən tarixilik prinsipinə dayanılaraq müstəqil mərhələ hesab edilir. Əks halda, həmin dövrdən müstəqil mərhələ kimi bəhs olunması, əslində, düzgün sayılmazdı, çünki ədəbi dil tarixinin bu və ya digər mərhələsi o vaxt müstəqildir ki, öz daxilində müəyyən inkişaf məntiqini ehtiva edir.

Ə. Dəmirçizadə sovet dövrü Azərbaycan ədəbi dilinin müstəqil keyfiyyət faktı olduğunu vaxtilə «Azərbaycan ədəbi dilinin inkişaf yolları» adlı kitabçasında göstərmişdir; onun fikrincə, dövrün əsas əlamətləri «inqilabdan əvvəlki bolşevik mətbuatında özünü göstərməyə başlamış», nəticə etibarilə, «bu dövrdə Azərbaycan ədəbi dili əvvəlki dövrlərdə müyəssər ola bilmədiyi bir hüquqa malik olmuşdur»[1]. Ə. Dəmirçizadə sovet dövründə şifahi ədəbi dilin, elmi üslubun sürətlə inkişaf etdiyini, nəsr dilinin getdikcə daha çox diferensiallaşdığını (xüsusilə roman dilinin təşəkkülünü) qeyd edir[2]. Göründüyü kimi, tədqiqatçı sovet dövrü ədəbi dilini ayrıca mərhələ hesab edərkən, hər şeydən əvvəl, funksional-üslub planına dayanır. Ə. Dəmirçizadə, məsələn, göstərir ki, «sazlı şeir dili ilə yazılı şeir dilinin xüsusən lüğət tərkibi ibarə və ifadələr etibarilə bir-birinə qovuşduğu, qarşılıqlı surətdə bir-birilə zənginləşdiyi diqqəti cəlb edir»[3]. Bu fakt nə Ə. Dəmirçizadə, nə də ədəbi dil tarixi ilə məşğul olan başqa mütəxəssislər tərəfindən geniş şərh edilməmişdir – 20-ci

---

[1] Ə. Dəmirçizadə. Azərbaycan ədəbi dilinin inkişaf yolları, Bakı, 1958, səh. 42.
[2] Yenə orada, səh. 42-44.
[3] Yenə orada, səh. 43.

illərin sonu, 30-cu illərin əvvəllərində diqqəti daha çox cəlb edən bu cür konsentrasiya prosesi dərin ictimai-mədəni köklərə malik idi, milli mənəviyyatın dialektikası mədəni-ədəbi inteqrasiyanın güclənməsi ilə şərtlənirdi.

Ümumiyyətlə, Ə.Dəmirçizadənin sovet dövrü Azərbaycan ədəbi dilinin inkişafı ilə bağlı müşahidələri tədqiqat üçün maraqlı material verir, çünki onun müşahidələri olduqca professional, sistemli şəkildə, əksərən üslubların dialektikası mövqeyindən aparılmışdır.

M.Ş.Şirəliyevlə M. Ş. Rəhimovun « Закономерности развития литературных языков народов СССР в советскую эпоху» kitabına yazdıqları «Azərbaycan dili» oçerkində də Azərbaycan ədəbi dili tarixinin sovet dövrü şərh olunur; müəlliflər əsasən norma planına diqqət yetirmiş, funksional-üslub planı ilə əlaqədar ancaq bəzi qeydlər etmişlər[1]. Oçerkdə maraq doğuran məsələlərdən biri ədəbi dilin inkişaf tendensiyaları (perspektivləri) barədə müəyyən mülahizələrin irəli sürülməsindən ibarətdir. Ümumiyyətlə isə, oçerk əsaslı nəzəri bazaya malik deyil, daha çox təsviri səciyyə daşıyır.

Azərbaycan SSR EA Nəsimi adına Dilçilik İnstitutunun buraxdığı «Azərbaycan ədəbi dili tarixi (sovet dövrü)» kitabında ədəbi dilimizin sovet dövründə keçirdiyi inkişaf prosesinin «elmi şəkildə işıqlandırılması» ehtiyacından danışılır[2]. Kitabda fraqmentallıq nəzəri cəlb edir – sovet dövrü ədəbi dilimizdə baş verən fonetik-orfoqrafik, leksik-terminoloji, müəyyən qədər qrammatik

---

[1] М.Ш.Ширалиев, М.Ш.Рагимов. Азербайджанский язык. – В кн.: Закономерности развития литературных языков народов СССР в советскую эпоху (под общей редакцией Ю.Д.Дешериева), М., изд. «Наука», 1979.

[2] Azərbaycan ədəbi dili tarixi (sovet dövrü), Bakı, «Elm» nəşriyyatı, 1982, səh. 7.

dəyişikliklərdən bəhs edilir, ədəbi-bədii dilə, eləcə də mətbuat dilinə diqqət yetirilir. Bütövlükdə, sovet dövrü ədəbi dilimizə həsr olunmuş kitabda elmi-nəzəri ümumiləşmə nisbətən zəifdir.

50 ildən artıq bir müddətdə Azərbaycan ədəbi dilinin sovet dövrünə bir sıra məqalələr də həsr edilmişdir. Lakin ümumən bu dövrü Azərbaycan ədəbi dilini keyfiyyət faktı kimi təhlilə cəlb edən işlər çox azdır.

Beləliklə, sovet dövrü Azərbaycan ədəbi dilinin bütöv bir mərhələ kimi tədqiq olunması sahəsində görülən işləri məqbul saymaq mümkün deyil. Məsələnin metodiki çətinliyi də var: hər on-on beş ildən bir ədəbi dilin sovet dövrü inkişaf tarixinə yenidən baxmaq lazım gəlir və bu cür baxış bəzən mövcud təsniflərin dəyişdirilməsini tələb edir. Elə hadisələr meydana gəlir ki, kökləri daha əvvəlki onilliklərə gedib çıxır. Ona görə də bu dövr Azərbaycan ədəbi dili, hər şeydən əvvəl, canlı proses kimi öyrənilməlidir.

Fonetik-orfoqrafik və qrammatik normalar

Şübhəsiz, ədəbi dil ictimai-iqtisadi formasiyanın dəyişməsinə uyğun olaraq dəyişmir (SSRİ-də 50-ci illərin dilçilik müzakirələri də bunu təsdiq edir), lakin burası da etiraf edilməlidir ki, hər bir ictimai-iqtisadi formasiyanın ədəbi dilə spesifik təsiri mövcuddur və bu təsirdən kənarda ədəbi dil yoxdur Yeni hakimiyyətin ilk illərindən Azərbaycan ədəbi dilinin ideoloji məzmunu dəyişir; ədəbi dil daha çox ictimailəşir, kütləvi mədəniyyətə xidmət edən vasitəyə çevrilir və elə bunun nəticəsində də getdikcə daha demokratik məzmuna malik olur. Dünənə qədər heç bir təhsili olmayan azərbaycanlı bu gün təhsil alır, ictimai-

siyasi həyatda fəal iştirak edir, istehsalat ocaqlarında, partiya, komsomol təşkilatlarında keçirilən yığıncaqlarda çıxış edir; sosialist gerçəkliyini tərənnüm edən ədəbi-bədii, eləcə də publisist əsərlər meydana gəlir – Azərbaycan ədəbi dili bu qayda ilə sosializm quruculuğunda iştirak edir.

XX əsrin əvvəllərindəki ədəbi dil mübahisələri, demək olar ki, dayanmır, yeni quruluşun ilk illərindən etibarən ictimaiyyətin bilavasitə münsifliyi ilə gedir. Əsas kriteriya kimi demokratizm götürülür. Əlbəttə, dil quruculuğu işində müəyyən yanılmalar da olur (birinci növbədə, ədəbi dilin zənginləşmə mənbələrinə münasibətdə – gah bu, gah da digər mənbələrə üstünlük verilir), lakin nəticə etibarilə, demokratizmin əsas kriteriya olduğu nəzərə çarpır.

İctimai-inqilabi şüurun Avropadan (xüsusilə Rusiyadan) qidalanması ədəbi dilin zənginləşmə mənbəyini də müəyyən edir; ədəbi ifadənin qərb (xüsusilə rus) standartları əsrlər boyu davam edən şərq kontekstində həzm oluna-oluna yeni keyfiyyət verir – Azərbaycan ədəbi dili tarixi-etnoqrafik məzmununu itirmədən müasirləşir. Əslində, ədəbi dilimizin maksimum ictimailəşməsi iki baxımdan diqqəti çəkir:

1) ədəbi dil demokratikləşməsi hesabına xalq kütlələrinə daha çox yaxınlaşır;

2) xalq kütlələrinin ədəbi-mədəni səviyyəsinin yüksəlməsi nəticəsində ədəbi dil xalq üçün daha çox əl çatan olur.

Sovet dövründə ədəbi dilimizin ideoloji məzmununun dəyişməsi onun ictimailəşməsi ilə bilavasitə bağlıdır, çünki kütləvi olmayan bir dil inqilabi mübarizə vasitəsi ola bilməz, ədəbi dilin ideoloji funksiyası (ideoloji məzmunun realizasiya şərtləri) ədəbi dil sosiumunun (ədəbi dil

daşıyıcılarının) istifadə etdikləri normativ nitq təzahürünə ictimai-siyasi münasibətdən kənarda deyil; yeni dövrdə isə bu münasibət bir neçə əsr əvvəlki ilə müqayisədə daha aydındır, hətta nəinki aydındır, formalaşdırılmış şəkildədir.

Sovet hakimiyyəti qurulduqdan sonra Azərbaycan ədəbi dili dövlət dili kimi fəaliyyət göstərir – milli respublikanın milli dili olur, başqa sözlə, siyasi-ideoloji mübarizə meydanına çıxır. Əslində, elə bu cəhət imkan verir ki, sovet dövrü xüsusi mərhələ kimi fərqləndirilsin, çünki ədəbi dilin rəsmi dövlət dili hüququ olması onun funksiyalarının əsaslı surətdə genişlənməsi deməkdir; dövlət ədəbi dildən istifadə edirsə, onu birinci növbədə bu cür istifadə üçün yararlı hala gətirməlidir, yəni dövlət fəaliyyətinin mümkün ola biləcək bütün sferaları ədəbi dilin fəaliyyət hüduduna daxil olmalıdır.

Azərbaycan ədəbi dilinin surətlə inkişaf edib dövlət dili səviyyəsinə qalxması ancaq ona verilən hüquqlarla bağlı deyil, burada mövcud ədəbi dilin potensial imkanlarının genişliyi də şərtdir. Azərbaycan ədəbi dili müəyyən vaxtlarda dövlət dili olmuşdu, deməli, bu dilin «yaddaşında» dövlətə xidmət stixiyası da vardı. XX əsrin əvvəllərindən etibarən ədəbi dilimiz demokratik əhvali-ruhiyyəli milli burjuaziyanın fəaliyyətində tədricən funksional imkanlarını genişləndirirdi. Sovet hakimiyyətinin ilk illərindən başlayaraq ədəbi dilə münasibətdə burjua demokratizmi sosialist demokratiyası ilə əvəz olunur.

Sovet dövründə Azərbaycan ədəbi dili aşağıdakı inkişaf mərhələlərindən keçir:

1. 20-40-cı illər;
2. 40-80-ci illər;

20-ci, eləcə də 30-cu illər ədəbi dilimizin sürətlə

inkişaf edib (və müxtəlif eksperimentlərin obyekti olub) sosialist milli dilinə çevrilməsi dövrüdür. 20-40-cı illərdə ədəbi dilin fonetik-orfoqrafik, eləcə də morfoloji-sintaktik, leksik-terminoloji norması müəyyənləşir (norma planı), milli ədəbi dil üçün vacib olan funksional-üslubi diferensiasiya faktlaşır (üslub planı); ədəbi-bədii dilin əsrlər boyu davam edən hegemonluğu azalır; leksik-terminoloji, eləcə də sintaktik normada gedən dəyişikliklər hesabına funksional üslubların potensiyası artır, hətta publisist dil ədəbi-bədii dilə təsir edir.

40-cı, 50-ci illərin II mərhələnin tərkib hissəsi kimi götürülməsi şərtidir; bu şərtilik isə ona əsaslanır ki, 40-cı, müəyyən qədər isə 50-ci illərdə 20-ci, 30-cu illərə məxsus əlamətlər mövcuddur, lakin eyni zamanda, xüsusən 50-ci illərin ortalarından etibarən ədəbi dildə xalq dilinə qayıdış müşahidə edilir. Beləliklə, 40-cı, 50-ci illər, əslində I mərhələdən II mərhələyə keçid dövrü kimi anlaşılmalıdır – bu illərin II mərhələyə aid edilməsi isə həmin illərdə II mərhələyə məxsus əlamətlərin müəyyən qədər təzahürü ilə bağlıdır.

60-cı illərdə ədəbi-bədii dildə, 70-ci illərdə isə ədəbi-bədii dillə yanaşı əvvəl publisist, bir qədər sonra elmi üslubda xalq dilinə qayıdış özünü göstərir, həm fonetik, həm leksik, həm də qrammatik (sintaktik) norma qeyd edilən prosesi əks etdirir.

II mərhələdə funksional üslublar bir-birindən daha çox təcrid olunur – üslub keyfiyyətləri daha diferensial görünür.

Fonetik-orfoqrafik normanın inkişafı. Sovet hakimiyyətinin ilk illərində – 20-ci illərin əvvəllərində əlifba məsələsi dönə-dönə müzakirə edilir; əgər XIX əsrdə ərəb əlifbasını dəyişmək mümkün deyildisə (M.F.Axun-

dovun fəaliyyəti də bunu göstərdi), XX əsrin əvvəllərində, əksinə, onu saxlamaq çətin oldu…

30 dekabr 1921-ci ildə Azərbaycan Xalq Komissarları Sovetində müşavirə keçirilir. Müşavirədə Yeni Əlifba Komitəsi təşkil edilir. 30 dekabr 1922-ci ildə latın əlifbası əsasında tərtib olunmuş əlifba layihəsi elan olunur. Bu əlifba ciddi şəkildə fonetik prinsipə əsaslanırdı. Ərəb dili üçün spesifik olan səsləri ifadə edən hərflər (məsələn, ث, ط, ظ, ض, ز, ع və s), əlifbadan çıxarılır.

30 dekabr 1922-ci ildən etibarən mətbuat yeni əlifbanı təbliğ edir, 1924-cü ildən isə ərəb əlifbası ilə yanaşı, yeni əlifbanın işlədilməsi də rəsmiləşdirilir.

I Türkoloji qurultay (1926) yeni əlifbanın qəbulunu məqbul hadisə hesab edir. 1 yanvar 1929-cu ildən isə ərəb əlifbasından bütünlüklə imtina olunur, yeni əlifba yeganə əlifba olaraq işlənir.

Ərəb əlifbasının ləğv edilməsi ədəbi dilin fonetik normasındakı demokratikləşmənin təsbit olunmasına imkan verir; alınma sözlər də daxil edilməklə tələffüz-orfoepiya norması yazı-orfoqrafiya norması ilə xeyli dərəcədə yaxınlaşdırılır.

Latın əlifbasına keçid prosesində orfoqrafiya məsələləri də müzakirə edilir. Müzakirələrin gedişində vahid orfoqrafiya yaradılmasına daha çox diqqət verilirdi, çünki XX əsrin əvvəllərində mətbuatın təcrübəsi göstərmişdi ki, hər kəs öz bildiyi kimi yazır, vahid orfoqrafiya normasına riayət edilmir.

Latın əlifbasından istifadə edildiyi ilk illərdə norma pərakəndəliyi davam edirdi; cəmisi bir-iki mətbuat orqanında bir neçə orfoqrafiya norması mövcud idi. Səbəbi də o idi ki, demokratik əhvali-ruhiyyənin artması dialekt-lərə məxsus tələffüz variantlarının əsrlər uzunu müəy-yənləşmiş

normaya təcavüzünə şərait yaradırdı, lakin vulqar demokratizm tələffüz normasını dağıtmamışdı (əslində, dağıda da bilməzdi, çünki tələffüz norması çoxəsrlik orfoqrafik prinsiplərlə qanunauyğun əlaqədə mövcud idi, ərəb əlifbasının ləğvi isə bu prinsipləri məhv etmirdi), sadəcə olaraq, variantlılıq yaradırdı. Əlbəttə, mətbuatın kütləvi savadalma işindəki rolunu nəzərə alsaq, bu cür variantlılıq savadlanma məsələsinə də mane olurdu[1].

20-ci illərdə latın əlifbasından istifadə təcrübəsi, eləcə də orfoqrafiya prinsiplərinin fəaliyyəti ilə bağlı müzakirələr istər fonetik-tələffüz, istərsə də orfoqrafiya—yazı mədəniyyətinin təkmilləşməsi perspektivlərini müəyyən etdi. Demək lazımdır ki, həmin illərdə (əslində, sonralar da) orfoqrafiyanın problemləri orfoepiyanın problemlərinə nisbətən daha aktual sayılırdı və maraqlıdır ki, orfoepiya məsələlərinə (məsələn, ahəng qanununun fəaliyyət dairəsi) o vaxt xüsusi diqqət verilirdi ki, bu, birbaşa orfoqrafiya ilə bağlı olsun; elə bunun nəticəsi idi ki, 30-cu, 40-cı, hətta 50-ci illərdə orfoqrafik norma tələffüz norması üzərində hegemonluğa malik idi.

20-ci illərdə alınma sözlərin orfoqrafiyası ətrafında gedən mübahisələr problemin həlli üçün iki yol müəyyən etdi:

– mənbə dildəki formasında yazmaq;

– xalq tələffüz formasında (əsasən, ahəng qanununa tabe edərək; məsələn, *iqbal-yığval)* yazmaq.

20-ci illərdə alınma sözlərin orfoqrafiyasının belə aktual şəkil alması, ardıcıl olaraq mübahisə doğurması ondan irəli gəlirdi ki:

– birincisi, tarixən ədəbi dildə mövcud olan ərəb,

---

[1] *Bax:* N.Xudiyev. Zamanın axarı ilə, «Azərbaycan» jur. 1988, № 4, səh. 180-181.

eləcə də fars sözlərinin orfoqrafiyasının qeyri-demokratikliyi latın əlifbasına keçid dövründə daha aydın görünürdü;

– ikincisi, XIX əsrin əvvəllərindən başlayaraq Avropa-rus mənşəli alınmaların ədəbi dildəki həcmi artırdı (bu cür alınmalar 20-ci illərdə daha da güclənmişdi);

– üçüncüsü, milli dilin çiçəklənməsi müxtəlif mənşəli alınma sözlərin milli orfoqrafiyaya tabe edilməsini, adaptasiyasını tələb edirdi.

1929-cu ildə birinci orfoqrafiya konfransı orfoqrafiya qaydalarını müzakirə edir. Elə həmin ildə latın əlifbası ilə 20 min sözü əhatə edən «İmla lüğəti» çapdan çıxır. 20-ci illərin mübahisələri lüğətdə də əksini tapır; xüsusilə alınmalara münasibətdə ikilik diqqəti cəlb edir – söz iki şəkildə yazılır.

Əsl Azərbaycan-türk sözlərinə isə həddindən artıq demokratik şəkildə yanaşılır, bir sıra hallarda dialekt tələffüz orfoqrafik normanın əsasında dayanır.

20-ci illərdə ərəb əlifbasından tədricən imtina edilməsi ahəng qanununun qrafik faktlaşmasına kömək elədi, xüsusilə sait səslərin dəqiq göstərilməsinə imkan verməklə sözün vokal əsasının olduğu kimi ifadə olunmasına şərait yaratdı. 20-ci illərdə ədəbi dilə dialektlərin təsiri saitlərlə bağlı bir sıra fonetik dəyişmələrdə özünü göstərir: *i* əvəzinə *ı* (ışıq, ırmaq və s), *o* əvəzinə *a (av,* savırmaq və s), *d* əvəzinə *e* (neticə), *e* əvəzinə *d* (kəşik), *i* əvəzinə *ə* (nəfrət), *ü* əvəzinə *i* (invan, şiar və s.)[1]. 40-cı illərə qədər bu cür pərakəndəlik davam edir.

Samit səslərə münasibətdə də sonradan aradan qalxan bir sıra hadisələr müşahidə olunur: *y* əvəzinə *g* (ürəgə,

[1] *Bax:* Azərbaycan ədəbi dili tarixi (sovet dövrü), səh. 211-213.

istədigi və s.) işlənir (XVII-XVIII əsrlərə qədər mövcud olub arxaikləşmiş normaya qayıdılır), *k (kolxoz* sözündə) səsi Avropa-rus alınmaları hesabına funksional imkanlarını genişləndirir, *p* əvəzinə *b* işləndiyi hallar müşahidə edilir (braqurul – prokuror), kar səslərin işləkliyi artır (arva*t*, alma*s* və s), *y* səsi söz əvvəlində işlənir (yıldırım, yuca və s.)[1].

20-ci, bir sıra hallarda 30-cu illərdə mövcud olan bu pərakəndəlik ənənəvi normaya münasibəti də əks etdirir; o fonetik hadisələr ki, XVII-XVIII əsrlərdə artıq təbii şəkildə normativliyini itirir, sovet dövründə həmin hadisənin yenidən norma kimi təqdim olunduğu hallar müşahidə edilir. Əlbəttə, arxaik normativliyin funksional bərpası canlı dialekt bazasının təkidi ilə gedir. Şərq fonetik-tələffüz mədəniyyəti fonetik normanın yenidən təşkilinə cəhd etsə də, 40-cı illərdən etibarən bu cür cəhdlər azalır[2].

1931-ci ildə ikinci orfoqrafiya konfransı çağırılır. Əslində konfransa qədər də «İmla lüğəti»nin orfoqrafiya sahəsindəki problemləri həll etmədiyi göstərilmişdi. Konfrans yeni orfoqrafiya qaydalarının layihəsini müzakirə edir, «Azərbaycanı öyrənmə yolu» məcmuəsində (1931-ci il) çap olunan layihədə orfoqrafiyanın prinsipləri optimal şəkildə müəyyən edilir:

– əsl Azərbaycan-türk sözlərinin orfoqrafiyası tarixən müəyyənləşmiş demokratik normaya tabe olunur, tələffüz norması ilə yazı norması arasındakı fərq tarixi normativlik pozulmadan aradan qaldırılır, ahəng qanununun fono-morfoloji imkanları genişləndirilir;

---

[1] *Bax:* Azərbaycan ədəbi dili tarixi (sovet dövrü), səh. 213-220.

[2] Şərq fonetik-tələffüz mədəniyyəti ilə qərb fonetik-tələffüz mədəniyyətinin tarixi əlaqəsi barədə bax: N.Cəfərov. Fonetik normanın milliləşməsi, «Elm və həyat» jurnalı, 1988, № 3.

– ərəb, eləcə də fars dilindən keçən sözlərə iki cür münasibət faktlaşdırılır: söz xalq dilinə keçmişsə, yəni fonomorfoloji uyğunlaşmaya məruz qalmışsa, deyək ki, ahəng qanununa tabe edilmişsə, xalq dilində olduğu şəkildə ədəbi dildə işlənmişsə, tarixən işləndiyi şəkildə qəbul olunur;

– Avropa-rus mənşəli sözlərin demokratik formaları (istər fonetik, istərsə də morfoloji baxımdan) norma hesab edilir.

Lakin layihədə dialekt tələffüz variantları müəyyən hallarda qalırdı (məsələn, hal şəkilçilərinin, eləcə də *-lar, -lər* cəm şəkilçisinin fonetik variantları norma kimi təqdim edilirdi).

30-cu illərin ortalarında orfoqrafiya məsələləri geniş şəkildə müzakirə olunur, 1936-cı ildə isə orfoqrafiya qaydaları təsdiq edilir. Lakin bu qaydalar da məqbul hesab olunmur, 1937-ci ildə yeni layihə hazırlanıb müzakirəyə verilir. Layihə 1938-ci ildə təsdiq edilir. Ümumiyyətlə, 30-cu illərin ortalarından sonra orfoqrafiya qaydaları hazırlanarkən əsasən aşağıdakı məsələlər müxtəlif mübahisələrin mərkəzində dayanır:

– bir qayda olaraq, söz sonunda *q, ğ* yaxud *x* yazılması, *k* yaxud *g* yazılması;

– sonu saitlə bitən sözlərdə hallanma prosesində bitişdirici samitin artırılıb-artırılmaması;

– Avropa-rus mənşəli sözlərin mənbə dildə olduğu kimi, yaxud Azərbaycan dilində işlədildiyi kimi yazılması.

Fonetik-orfoqrafik norma üçün diqqəti cəlb edən hadisələrdən biri 30-cu illərin ortalarında sağır *nun* ك hərfinin əlifbadan çıxarılmasından ibarətdir; bu hərfin ifadə etdiyi səs ədəbi dilin tarixi boyu olduğu kimi bu gün də mövcuddur. Təsadüfi deyildir ki, həmin səsin qrafik

ifadəsinin olmamasını tədqiqatçılar əlifbanın nöqsanı kimi qeyd edirlər[1].

Beləliklə, latın əlifbasına keçid dövründə fonetik-orfoqrafik normaya müxtəlif baxımdan təsir edilir və ədəbi dilin tarixi təcrübəsi nəzərə alınmadığı üçün iki ifrat meyil meydana gəlir:

– Xalq dilinin ədəbi normanı təşkil etməkdəki rolu həddindən artıq qiymətləndirilir, nəticədə dialekt tələffüz variantlılığı norma kimi faktlaşdırılır;

– ikincisi xalq dilinin ədəbi normanı təşkil etməkdəki roluna etinasız yanaşılır, nəticədə alınma sözlər mənbə dildəki fonetik quruluşu ilə norma faktı kimi təqdim edilir.

İfrat meyillərlə yanaşı, bir sıra aralıq meyillər də mövcud idi.

Demək lazımdır ki, orfoqrafik normanın bu cür tez-tez dəyişdirilməsi, fikir ixtilafları ədəbi dilin tarixini bilməməkdən, fonetik-tələffüz, orfoqrafik-yazı ənənələrinə əslində biganə münasibətdən irəli gəlirdi – haradasa tarixə vulqar baxışın nəticəsi idi.

Ümumiyyətlə, 20-30-cu illərin təcrübəsi də göstərdi ki, normanı təzədən yaratmaq, əsrlər boyu davam edib gələn prinsipləri məhv edib yeni prinsiplər tətbiq eləmək mümkün deyil.

20-ci, eləcə də 30-cu illərdə Azərbaycanın müxtəlif rayonlarından Bakıya gələnlərin sayı artır, bu da fonetik-tələffüz mühitinə təsir etməklə yanaşı, gedən müzakirələrə də ton verir, başqa sözlə, müzakirələr daha demokratik kontekstdə gedir. Ona görə də 30-cu illərdə ədəbi dilin fonetik-orfoqrafik norması əsasən müəyyənləşir (daha doğrusu, təbii-qanuni müəyyənlik təsbit olunur). 40-cı, 50-ci illərdə məhz müəyyənləşmiş fonetik-orfoqrafik normanın

[1] A.Məhərrəmov. Azərbaycan ədəbi dilinin sovet dövrü, səh. 83.

daha da dəqiqləşdirilməsi (prinsiplər yox, faktlar) üzərində iş gedir.

1 yanvar 1940-cı ildə Azərbaycan SSR Ali Sovetinin qərarı ilə rus qrafikası əsasında yaradılmış əlifbaya keçilir; birinci növbədə onu qeyd etmək lazımdır ki, ərəb əlifbasından latın əlifbasına keçid geniş müzakirə edildiyi halda, rus əlifbasına keçid bir-iki ildə baş verir, prinsip etibarilə mübahisəyə səbəb olmur… Mübahisə ancaq onun üzərində gedir ki, rus əlifbasında mövcud olan *я, ю, е, ц, ь, ъ* hərfləri də Azərbaycan dili üçün məqbuldur, ya yox. S.Vurğun bu barədə yazırdı: «Mənim düşündüyümə görə, əlifba kulturasının birinci şərti odur ki, hərflərin sayı mümkün qədər az olsun. Əgər dilimizi tamamilə ifadə etmək şərtilə 32 hərf saxlaya bilsək, yaxşı olar. Əksinə, hərflərin sayını çoxaltmaq yolu ilə getsək, bu, əlifbanın zəifliyinin birinci əlaməti olar. Odur ki, hərflərin sayı məsələsində biz xəsis olmalıyıq. Ona görə də *я, ю, е, ц* və *ь* hərflərinin bizim əlifbaya daxil edilməsinə mən ziddəm, çünki bu hərflərin ifadə etdikləri səslər Azərbaycan dilində yoxdur…»[1].

Bununla belə *я, ю, е, ц* hərfləri Azərbaycan əlifbasında saxlanılır, yəni demokratizm bu nöqtədə də pozulur.

40-cı illərin ortalarında mətbuat həmin hərflərin əlifbadan çıxarılması barədə təkliflər verir. *Ц* hərfi 1947-ci ildə, *я, ю, е* hərfləri isə (*е* hərfi *ə* əvəzinə işlənir) 1958-ci ildə əlifbadan çıxarılır.

40-50-ci illərdəki müzakirələr orfoqrafiya qaydalarının təkmilləşməsinə kömək edir; 1940-cı ildə tərtib olunmuş qaydalardan sonra bu sahədə görülən işlər öz əksini 1946-cı, 1950-ci, 1951-ci illərin layihələrində tapır.

[1] «Kommunist» qəzeti, 12 may 1939-cu il.

24 fevral 1954-cü ildə isə Azərbaycan SSR Nazirlər Soveti yeni orfoqrafiya qaydalarını təsdiq edir. Bununla belə, 1955-ci ildə yeni layihə təqdim olunur, həmin layihə 1958-ci ildə təsdiq edilir.

40-50-ci illərdə ədəbi dildə orfoqrafik sabitlik yaratmaq məqsədi ilə gedən müzakirələr, şübhəsiz ki, 20-30-cu illərdəkindən fərqlənir; ikinci mərhələdə diqqət orfoqrafiyanın daha konkret məsələlərinə (məsələn: apostroflu sözlərin yazılışı, şəkilçilərin yazılışı, mürəkkəb sözlərin yazılışı və s.) verilir, təkcə fonetik deyil, morfonoloji hadisələr təsbit edilir. Məhz 40-cı illərdə orfoqrafiyanın üç prinsipi (fonetik, morfoloji, tarixi-ənənəvi prinsiplər) nəzəri şəkildə qiymətləndirilir.

40-50-ci illərdə fonetik-orfoqrafik normanın sabitləşməsində filoloji-linqvistik tədqiqatların xüsusi əhəmiyyəti olur; məsələn, D. Quliyevin «Azərbaycan dili orfoqrafiyası haqqında» məqaləsində orfoqrafiyanın üç prinsipi qeyd edilir və müəllif göstərir ki, orfoqrafiya qaydalarının tərtibində həmin prinsiplərə riayət etmək lazımdır[1]. Eyni məsələlər A.Əfəndiyevin[2], Ə.Dəmirçizadə-nin[3], bir qədər fərqli şəkildə M.Şirəliyevin[4] məqalələrində də qeyd edilir.

1960-cı ildən sonra Azərbaycan dilinin orfoqrafiya qaydalarında elə bir ciddi dəyişiklik edilmir; nisbətən diqqəti cəlb edən dəyişmə apostrofun funksiyalarının azal-

---

[1] D. Quliyev, Azərbaycan dili orfoqrafiyası haqqında. «Müəllimə kömək» məcmuəsi, 1940, № 1.

[2] A.Əfəndiyev. Azərbaycan dilinin imla qaydaları haqqında. – «Ədəbiyyat» qəzeti, 29 iyun 1944-cü il.

[3] Ə.Dəmirçizadə. İmlamız haqqında. – «Azərbaycan müəllimi» qəzeti, 1946, № 25.

[4] M.Ş.Şirəliyev. Ədəbi dilimizin zərurəti məsələləri. – «Kommunist» qəzeti, 23 fevral 1944-cü il.

dılmasından ibarətdir (mətbuatda apostrofun tamamilə atılması barədə mülahizələr əksini tapır).

60-cı illərdə əvvəl ədəbi-bədii dildə, bir qədər sonra isə publisist üslubda folklor ifadə tərzinə – xalq dilinə qayıdış rəsmi şəkildə təsdiq edilib orfoqrafiya qaydalarında təsbit olunmasa da, yazı dilində müəyyən demokratizm meyillərinin meydana gəlməsi ilə nəticələnir; bir sıra hallarda isə dialekt tələffüz xüsusiyyətləri yazıya ayaq açır, təbliğ olunur. Doğrudur, 80-ci illərin əvvəllərindən etibarən bu prosesin ifrat şəkil alması dayanır, lakin bununla belə, fonetik-orfoqrafik normaya demokratizm ab-havası da gəlir. Sözlərin, xüsusilə şəkilçilərin tələffüzündə orfoqrafiyaya təsir edə biləcək dəyişikliklər baş verir. Lakin məsələ burasındadır ki, fonetik-tələffüz mühitindəki təbəddülat orfoepiya qaydalarının yaradılmasına, başqa sözlə, fonetik-tələffüz normasının tam təsbit olunmasına təsir etmir. İndiyə qədər bu sahədə nəyin norma, nəyin qeyri-norma olduğunu, demək olar ki, dil stixiyası müəyyən edir.

Əlbəttə, 60-80-ci illərdə orfoqrafiya qaydalarının tez-tez müzakirə olunmaması əsasən stabil qaydaların yaranmaqda olduğunu göstərir. Orfoepiya sahəsində isə 60-70-80-ci illərin fonetik-tələffüz təcrübəsi əsasında yeni stabil orfoepiya qaydaları yaratmaq mümkündür.

Sovet dövründə ədəbi dilin fonetik normasının inkişafı onun orfoqrafik-yazı, eləcə də orfoepik-tələffüz normasının inkişafı ilə bağlıdır; əslində, bu qanuna-uyğunluq ədəbi dilin sovet dövründəki kütləviliyindən irəli gəlir, elə bu kütləviliyin nəticəsidir ki, orfoqrafik-yazı mühiti orfoepik-tələffüz mühiti ilə əlaqədə inkişaf edir.

Qrammatik normanın inkişafı. Azərbaycan ədəbi dilinin qrammatik norması XVIII əsrin ortalarından

etibarən milli əsaslar üzərində, başqa sözlə, xalq-folklor dilinin qrammatikası əsasında yenidən qurulur. Qrammatik normanın milliləşmə-xəlqiləşmə istiqamətində inkişafı XIX əsr boyu davam edir. XX əsrin əvvəllərində isə burjua mədəniyyətinin çiçəklənməsi ilə ədəbi dilin qrammatik norması demokratik və qeyri-demokratik istiqamətlərdə funksionallaşmaq imkanı qazanır.

Sovet dövründə ədəbi dilin morfoloji normasında elə bir dəyişiklik müşahidə edilmir; bəzən morfonoloji normadakı təbəddülatların tədqiqatçılar tərəfindən morfoloji normanın inkişafı kimi qəbul edilməsi diqqəti cəlb edir[1], lakin bu, şübhəsiz, düzgün deyil.

A. Əlizadə 20-30-cu illərdə *sormaq* felinin yönlük halla işlənməsi (çıxışlıq hal əvəzinə) faktına istinad edərək belə bir nəticəyə gəlir: «Göründüyü kimi, 1920-1940-cı illər müddətində ismin yönlük halı müxtəlif mənalarda işlənmişdir. Son zamanlarda isə ismin yönlük hal şəkilçisinin qrammatik əlaməti sabitləşmişdir»[2].

İsmin yönlük hal şəkilçisinin qrammatik əlaməti bir neçə əsr bundan əvvəl (ən geci XVII-XVIII əsrlərdə) sabitləşmişdir; 20-30-cu illərdə qeyd olunan hadisənin mövcudluğuna gəldikdə isə, bu, arxaik normativliyin dirçəldilməsindən ibarətdir, canlı hadisə deyil (bu cür faktların fonetik səviyyədə də mövcudluğunu qeyd etmişdik). 40-cı illərdə bu vəziyyətin prinsip etibarilə aradan qalxması da, şübhəsiz, yönlük halın inkişafı deyil, sadəcə olaraq «yönlük hal+sormaq (soruşmaq)» modelindən, yəni arxaik norma faktından imtina edilməsidir (bu qəbildən olan başqa faktlarda olduğu kimi).

Sifətin dərəcə şəkilçilərindən *-mtraq, -sov (soy), qaç,*

---

[1] Azərbaycan ədəbi dili tarixi (sovet dövrü), səh 225-253

[2] Yenə orada, səh. 239.

takım, fəzlə kimi kəmiyyət mənalı morfemlər, bölgülü saylar *(birər, ikər, onar...)* 20-30-cu illərdə müəyyən işləkliyə malik olmuş[1], mərhələnin morfoloji norma mühitində diqqəti cəlb etmişdir.

Felə məxsus arxaik əlamətlərdən bəziləri sovet dövründə – ədəbi dilin inkişafının birinci mərhələsində funksionallaşmaq imkanına malik olmuşdur; buraya aşağıdakılar daxildir:

a) əmr şəklinin I şəxs təkini ifadə edən *-ayım, -əyim* şəkilçisi (bu şəkilçinin XVIII əsrə qədər ədəbi dildə işlədildiyi qeyd edilmişdir, sonralar bir qayda olaraq işlənməmişdir)[2];

b) əmr şəklinin I şəxs cəmini ifadə edən *-alım, -əlim* şəkilçisi (bu şəkilçi də XVIII əsrdən etibarən normativliyini itirmişdir)[3];

c) *-malı, -məli* şəkilçisinin funksionallığı artır; *-malı, -məli* şəkilçisi başqa üslublara nisbətən mətbuat üslubunda, əsasən, çağırış xarakterli məqalə başlıqlarında, konfrans, qurultay, plenum və idarə iclaslarının sərlövhə və qərarlarında daha çox işlənir»[4].

Felə məxsus qrammatik kateqoriya əlamətlərindən aşağıdakılar 20-30-cu illər Azərbaycan ədəbi dilində türk dilinin faktı kimi işlənmişdir:

– xəbər şəklinin I şəxs təkinin inkarı *-mam, -məm* forması ilə düzəlir *(düşünməm, sığınmam, istəməm* və s.)[5];

– xəbər şəklinin indiki zamanını bildirmək üçün *-yor* forması işlənir *(kəliyorum, yazıyorum* və s).

---

[1]Azərbaycan ədəbi dili tarixi (sovet dövrü), səh. 240-244.
[2] M.Rəhimov. Azərbaycan dilində fel şəkillərinin formalaşması tarixi, Bakı, Azərb.SSR EA nəşriyyatı, 1965, səh 47.
[3] Yenə orada, səh. 52.
[4] Yenə orada, səh. 249.
[5] Yenə orada, səh. 249.

20-30-cu illərdə bir sıra bağlayıcıların da arxaikalınma formaları qrammatik normanın keyfiyyətinə təsir etmişdir; buraya *fəqət (ancaq), leyk (lakin), zira (ona görə)* kimi bağlayıcıları daxildir.

Dəxi ədatının işlənməsi də 20-30-cu illərin qrammatik norması üçün xarakterikdir.

Sovet dövrü Azərbaycan ədəbi dilinin birinci mərhələsində morfoloji normada baş verən təbəddülat əsasən aşağıdakı mədəni-ictimai proseslərlə əlaqədardır:

– milli ziyalıların yetişməsi ilə bağlı olaraq və milli özünüdərkin sosialist platformasına qalxması nəticəsində ədəbi dilin tarixinə marağın artması;

– türk (osmanlı) mədəni mərkəzlərində təhsil almış mütəxəssislərin fəaliyyətinin (mədəni, hərbi və s. sahələrdə) genişlənməsi;

– Avropa-rus mədəniyyətinin milli-mədəni mühitin təşkilinə təsir etməsi, ictimai-siyasi təfəkkürün çiçəklənməsi.

40-50-ci illərdə mədəni-ictimai mühitdə konsentrasiyanın güclənməsi antinorma xarakterli hadisələrin aradan qalxmasına səbəb olur, nəticə etibarilə, 30-cu illərin sonu, 40-cı illərin əvvəllərində morfoloji normada müəyyən sabitlik yaranır, indiyə qədər də bu sabitlik bir qayda olaraq davam edir.

20-30-cu illərdə ədəbi dilin kütləviləşməsi birinci növbədə sintaktik normaya təsir göstərir və sintaktik normada aşağıdakı hadisələr diqqəti cəlb edir:

I. Danışıq dili sintaksisi ədəbi dilin əsasında dayanır, ona görə də danışıq dilinə məxsus lakoniklik, «primitiv» mücərrədlik, təbii emosionallıq normada keyfiyyət faktına çevrilir; şəxssiz cümlələrin funksionallığı güclənir, sual cümlələrinin struktur-semantik diferensiasiyası genişlənir,

adlıq (eləcə də məsdər) cümlələr kontekstual baza əldə edir[1], mürəkkəb cümlənin daha yığcam formaları işlənir, nidanın sintaktik-semantik imkanları artır və s

Dialekt sintaksisi ədəbi dilin sintaktik normasının demokratikləşməsində iştirak edir.

II. Ərəb, eləcə də fars sintaksisinin təsiri, demək olar ki, bütünlükdə aradan qalxır; o konstruksiyalar ki, yazılı ədəbi dildə standartlaşmışdı (xüsusilə klassik şeir ənənələrinin təsiri ilə), funksionallığını tamamilə itirir.

Tərkiblərin (feli sifət, feli bağlama tərkiblərinin) işləkliyinin artması hesabına ərəb, eləcə də fars qrammatikasından gələn mürəkkəb konstruksiyalar tədricən arxaikləşir (bu və ya digər dərəcədə rəsmi sənədlərin dilində qalır).

İzafət tərkiblərinin XX əsrin əvvəllərində nisbətən çox işlənməsinə baxmayaraq, 20-30-cu illərdə onların funksionallığı azalır və ümumiyyətlə, izafət konstruksiyası qrammatik hadisə kimi itir (bu formada olan müəyyən vahidlər leksik materiala çevrilir).

III. Avropa-rus dillərinin təsiri ilə bir sıra sintaktik konstruksiyaların, xüsusilə mürəkkəb cümlələrin müəyyən növlərinin ya funksionallaşdığı, ya da yarandığı diqqəti cəlb edir; tərcümə əsərlərindən gələn mürəkkəb-konstruktiv ifadə formaları sintaktik normanın təşkilində öz işini görür.

40-50-ci illərdə ədəbi dilin sintaktik normasında baş verən hadisələr əsasən stilistik əhəmiyyətə malikdir; məsələn, Böyük Vətən müharibəsi illərində bədii-publisist, hətta elmi mətnlərin sintaksisinə yığcamlıq, mütəhərriklik, sərtlik gəlir, zamanın intonasiyası sintaksisə də çekür.

20-30-cu illərdə bədii, publisist, elmi üslubların

---

[1] R.Məhərrəmova, M.Cahangirov. Azərbaycan dilinin tarixi sintaksisinə dair materiallar, Bakı, Azərb. SSR EA nəşri, 1962, səh. 129, 175, 220, 225.

sintaksisindəki diferensiasiya 40-50-ci illərdə daha da güclənir. Eyni zamanda məhz 40-50-ci illərdə bədii üslubun sintaksisində, daha dəqiq desək, poetik qrammatikasında bədii təfəkkürü qəlibə salan standartlar müəyyənləşir. 50-ci illərin sonu, 60-cı illərin əvvəllərində ədəbi dilin sintaktik normasında 20-30-cu illərdəkinə bənzəyən, lakin xeyli dərəcədə sistemli-konseptual şəkildə folklor – xalq bazasına qayıdış baş verir, bunun da nəticəsində sintaktik normadakı standartlıq (məsələn, cümlə üzvlərinin normativ sırası) müəyyən qədər aradan qalxır.

20-30-cu illərdə sintaktik normadakı təbəddülat normanın özünün daxili tələbidirsə, yəni mövcud ictimai təfəkkürün tələbi ilə assosiativ-konstruktiv; münasibətlərin hüdudu müəyyənləşirsə (40-cı illərdə də bu proses qismən davam edir), 50-ci illərdən başlayaraq, ümumiyyətlə isə 60-70-ci illərdə sintaktik normadakı təbəddülat bir qayda olaraq üslubların təsiri ilə baş verir. Beləliklə, *ədəbi dilin sovet dövründəki inkişafının birinci mərhələsində norma planı üslub planına, ikinci mərhələsində isə, əksinə, üslub planı norma planına təsir edir, heç olmasa, təsir etmək potensiyasına malik olur,* bu isə sovet dövründə ədəbi dilin bu və ya digər müstəqil qanunauyğunluğa malik olduğunu nümayiş etdirir.

Üslubların inkişafı

Sovet dövründə Azərbaycan ədəbi dili funksional-üslub baxımından inkişaf edir; hər şeydən əvvəl, funksional üslubların diferensiasiyası güclənir, hər bir üslub üçün davamlı mədəni-linqvistik baza müəyyənləşir, üslub daşıyıcıları – sosiumlar artır.

B ə d i i ü s l u b . Azərbaycan ədəbi dilinin bədii

üslubu sovet dövrünə minillik bir ənənəsi ilə gəlir, buna baxmayaraq, bir neçə on il ərzində keyfiyyətcə böyük dəyişikliyə məruz qalır; heç şübhəsiz, bunun, birinci növbədə, dərin ictimai səbəbləri vardır.

XX əsrin əvvəllərində ədəbi-bədii dil ətrafında gedən mübahisələr bədii ifadə sahəsində yaşamaq iqtidarı olan bütün formaları fəallaşdırmışdı, mübarizə gedirdi. Məlum olduğu kimi, əsasən iki cəbhə var idi; mollanəsrəddinçilər demokratik, füyuzatçılar isə, əgər belə demək mümkünsə, qeyri-demokratik, (ərəb-fars, yaxud osmanlı elementləri ilə ağırlaşdırılmış, onların fikrincə isə, ədəbiləşdirilmiş) dildən istifadə edirdilər. Ədəbi-bədii dilin inkişaf məntiqi mollanəsrəddinçilərin dilinin tərəfində idi; birincisi ona görə ki, ictimai-mədəni tərəqqi – burjua cəmiyyətinin yetişməsi kütlələrin anlayacağı, yaxud sənət faktı kimi zövq ala biləcəyi ifadə tərzinə üstünlük verməli idi (və verirdi); ikincisi ona görə ki, XVII-XVIII əsrlərdən etibarən xalq dili əsasında yenidən qurulan (və xalqın dil stixiyasına əsaslanan) ədəbi-bədii dil hər hansı «dil icadı»na güzəştə getməzdi (və getmədi də). Mollanəsrəddinçilərlə füyuzatçıların mübahisəsinin ədəbi-bədii dillə əlaqədar aspekti bir qayda olaraq nəzəri planda daha sistemli görünür, məsələnin praktik tərəfinə gəldikdə isə, mollanəsrəddinçilər əsasən satirik, füyuzatçılar isə ciddi-romantik dil materialı ilə işləyirdilər. Füyuzatçıların dili onların ideologiyasının məhsulu idi, mollanəsrəddinçilər isə dili təbii-tarixi stixiyası ilə qəbul etmişdilər, belə demək mümkünsə, mollanəsrəddinçilərin ifadə tərzini ədəbi-bədii dilin tarixi-ictimai ehtiyacı yetirmişdi.

XX əsrin əvvəllərində maarifçi dünyagörüşlü ziyalıların (mollanəsrəddinçilərin bir hissəsi də əvvəllər buraya daxil idilər) işlətdiyi dil, əslində füyuzatçıların dili ilə daha

çox oppozisiya təşkil edir.

Ədəbi-bədii dil sahəsində XX əsrin əvvəllərindəki mübahisələr 20-ci illərdə də mövcud olur, lakin artıq məlum idi ki, ədəbi-bədii dil (bədii üslub) yalnız o zaman mövcud ola bilər ki, demokratik əsaslara malik olsun. Şübhəsiz, XX əsrin əvvəllərində ədəbi-bədii dilin (xüsusilə nəsr dilinin) demokratikləşməsində publisist üslub böyük iş gördü.

20-30-cu illərdə bədii üslubda böyük irəliləyiş baş verdi, istər şeir, istər nəsr, istərsə də dram dilinin gözəl nümunələri yarandı.

20-ci illərdə şeir dilində pərakəndəlik mövcud idi; ona görə yox ki, müxtəlif üslub təmayülləri eyni zamanda mövcud idi (hətta bu baxımdan da 20-ci illər fərqlənir), əsasən ona görə ki, eyni müəllif bəzən bir neçə ifadə tərzi nümayiş etdirir.

Müşahidələr göstərir ki, 20-ci illərdə şeir dilinin qidalandığı mənbələr aşağıdakılardır:

1. XIII-XIV əsrlərdən etibarən inkişaf edib XX əsrin əvvəllərinə qədər gələn klassik dil ənənələri – İ.Nəsimi, Q.Bürhanəddin, M.C.Həqiqi, Kişvəri, M.Füzuli, C.Təbrizi, S.Ə.Şirvaninin dil-üslub təcrübəsi.

Mürəkkəb, bir qədər də standartlaşmış ifadə tərzi, əruz intonasiyası bu dilin əsasında dayanır. Lakin burası da var ki, klassik dil 20-ci illərdə adətən həm strukturuna, həm də semantikasına görə deformasiya olunmuş vəziyyətdə çıxış edir, yəni bu bütövlükdə klassik dil deyil, onun mədəni-ictimai təfəkkür tərəfindən adaptasiya olunmuş formasıdır. Birinci növbədə, estetizm aradan çıxır, əvəzində isə klassik obrazlar yeni dünyanın ifadəsinə uyğunlaşdırılır, beləliklə, o obraz ki klassik vəziyyətində intim məzmuna malik idi, indi ictimai-siyasi məna verir.

XX əsrin əvvəllərində klassik dil ənənələrindən daha intensiv şəkildə istifadə olunduğu halda həm də bu cür istifadənin estetik-konseptual diferensiasiyası getdiyi halda (məsələn, M.Ə.Sabir, Ə.Nəzmi, Ə.Qəmküsar, M.Ə.Möcüz, B.Abbaszadə – Hammal – satirik-realist, M.Hadi, H.Cavid, A.Səhhət, A.Şaiq – romantik dil təqdim edirlər), sovet dövrünün birinci onilliyində klassik dil materialına birtipli münasibət üstünlük təşkil edir.

II. XVI əsrin əvvəllərindən başlayaraq çiçəklənən, XVII-XVIII əsrlərdə normativləşən, eləcə də XIX əsrdə və XX əsrin əvvəllərində müəyyən nümunələri meydana çıxan, Ş.İ.Xətai, M.Əmani, M.V.Vidadi, M.P.Vaqif, Q. Zakirin dil-üslub təcrübəsində inkişaf edən ənənələr.

Demək lazımdır ki, 20-ci illərdə bu dil ən ənənələri o qədər də güclü olmur.

III. XVIII əsrin əvvəllərindən etibarən türk (osmanlı) realist poeziyasının hazırladığı dil-üslub ənənələri; bu ənənələrdən, əslində, 20-ci illərdə eklektik şəkildə istifadə edilir,– H.Cavid, C.Cabbarlı, sonralar M.Müşfiq, S.Vurğun bu dildə yazırlar, səbəbi odur ki, türk (osmanlı) realist şeirinin dili inqilabi, döyüşkən əhvali-ruhiyyəli bir dil idi və 20-ci illərin, eləcə də 30-cu illərin əvvəllərinin üsyankar əhvali-ruhiyyəsini yaxşı ifadə edirdi.

IV. Şifahi xalq şeirinin – folklorun dil ənənələri; 20-ci illərdə bu ənənələr xeyli dərəcədə yayğın şəkildə mövcud idi, dil-üslub təmayüllərinin hamına təsir etsə də, bu təsir o qədər qüvvətli deyildi.

20-ci illərdə şeir dilindəki bu cür üslub pərakəndəliyi 30-cu illərin ortalarından etibarən aradan qalxır, nəticə etibarilə, bir meyil aparıcı olur; bu meyilin əsasında S.Vurğunun poeziya dili dayanır.

30-cu illərdə folklor əsaslı dillə (Ş.İ.Xətai – M.Əmani

– M.V.Vidadi – M.P.Vaqif – Q.Zakir xətti ilə gələn ifadə tərzi ilə) bilavasitə şifahi xalq şeirindən gələn dil tədricən bir cəbhədə çıxış edir, klassik dil ənənələri kimi, türk (osmanlı) ədəbiyyatının dil ənənələri də həmin kontekstdə həzm olunur. Çünki 30-cu illərin sonuna doğru ədəbiyyata XX əsrin əvvəllərində gələn şairlərin əsas hissəsi ədəbi prosesdən uzaqlaşır, yeni nəsil isə canlı xalq dilinə daha çox istinad edən ifadə tərzində yazır.

30-cu illərdə şeir dilində şüarçılıq faktlarına təsadüf edilir, hətta M. Müşfiq, S. Vurğun, S. Rüstəm, R. Rza, M. Rahim kimi şairlərin dili də bu baxımdan istisna təşkil etmir. Ümumiyyətlə isə, şeir dilinin əsasında təbii nitq intonasiyası dayanır.

40-cı illərin birinci yarısında təkcə Azərbaycan xalqı yox, Azərbaycan dili də faşizmə qarşı döyüşür; bu illərdə poetik dilə daxil olan hərbi-vətənpərvərlik leksikası dilin məzmununa da, intonasiyasına da təsir edir. 40-cı illərin ikinci yarısında, eləcə də 50-ci illərin birinci yarısında şeir dilində müəyyən normativləşmə gedir.

Əlbəttə, 40-50-ci illərdə şeir dilində müəyyən axtarışlar da gedir; lakin axtarışlar poetik normativləşməyə təsir edə bilmir, bir qədər kənar hadisə kimi özünü göstərir. Bununla belə, aparılan axtarışlar 50-ci illərin ikinci yarısından şeir dilinin ifadə-obraz planında yeniləşməsində müəyyən iş görür. R. Rzanın dili bu baxımdan diqqəti cəlb edir.

40-cı illərdə Cənubi Azərbaycan ədəbi-bədii dili Şimaldakı ilə təmasda olur, əvvəla, Şimaldan olan sənətkarların müəyyən hissəsi müharibə dövründə Cənubda hərbi qulluq edirlər, ikinci tərəfdən, müharibədən sonrakı illərdə Cənubdan bir qrup sənətkar— B.Azəroğlu, H. Billuri, Ə.Tudə, M.Gülgün, S.Tahir Şimala köçürlər və

cənubluların dili Şimalda mövcud olan poetik dil mühitində yad görünmür[1].

50-ci illərin sonu, 60-cı illərin əvvəllərində şeir dilində folklor ifadə tərzinə qayıdış baş verir; yaradıcılığa 60-cı illərdən əvvəl gəlmiş B. Vahabzadə, N.Xəzri, H. Arif, N.Həsənzadə, Qabil kimi şairlərin dilində folklor ifadə tərzinin havası duyulur.

Şübhəsiz, ədəbi-bədii dilin, eləcə də şeir dilinin folklor ifadə tərzinə meyil etməsi ədəbi-bədii fikrin məzmunca xəlqi əsaslar üzərində köklənməsindən irəli gəlir; xəlqilik birinci növbədə oradan başlayır ki, insanın daxili aləminə maraq güclənir, süni (yaxud elə təbii) patetika əvəzinə, poetik fikir təhlilə can atır və bu da imkan verir ki, şeir dilinin obrazlar sistemində əsaslı dəyişikliklər meydana gəlsin.

50-ci illər poeziyada iki üslubi meyili ənənə səviyyəsinə qaldırdı: 1) S. Vurğunun təmsil etdiyi üslub; 2) R. Rzanın təmsil etdiyi üslub. 60-70-ci illərin dil-üslub panoramı bu ənənələrə istinadən təqdim olunur. Lakin sonrakı dövrdə (70-ci illərin sonu, 80-ci illərin əvvəllərində) eksperimentlər dalğası meydana çıxır; hələ ənənələrin təsiri altında olan, müxtəlif istiqamətlərdə səpələnmiş mikroüslublar eksperimentlərin ilkin nəticələri ilə hesablaşmalı, hətta müəyyən dərəcədə özünüredaktəyə məruz qalmalı oldu.

Əlbəttə, şeir dili (eləcə də ümumən ədəbi-bədii dil) dövrün estetikasına qarşı kifayət qədər həssasdır, bəzən hər nəsil özü ilə yeni dil-üslub təmayülü gətirir; 60-cı illərdə – M.Araz, Ə.Kərim, S.Əsəd, F.Qoca, F.Sadıqdan sonra 70-ci illərdə – R.Rövşən, Ə.Salahzadə, E.Baxış, V.Cəbrayılzadə,

---

[1] N.Cəfərov. Cənubi Azərbaycanda ədəbi dilin inkişafı tarixindən. – «Azərbaycan müəllimi» qəzeti, 3 fevral 1988-ci il.

V.Səmədoğlu, V.Bəhmənli maraqlı eksperimentərlə çıxış edirlər.

60-70-ci illərin dil-üslub təmayüllərinin qovuşağında M.İsmayıl, N.Kəsəmənli, S.Rüstəmxanlı, Ç.Əlioğlu, E. Nəsiblinin dili yaranır.

80-ci illərin şeir dilində (ədəbiyyata məhz 80-ci illərdə gələnlər nəzərdə tutulur) xalq dilindən – folklordan qidalanma bir qədər normaya salınmış şəkildə gedir, onların dilində intonasiya təmkinlidir.

60-70-ci illər şeir dilinə həmçinin şablonçuluğun görünməmiş nümunələrini gətirdi. Ümumiyyətlə, şeir dili tariximizi gözdən keçirsək, təqlidçiliyə aid istənilən qədər fakt tapmaq mümkündür, təqlidçilik müəyyən obrazlar sistemini kütləviləşdirməklə yanaşı, ayrı-ayrı dil-üslub təmayüllərinin mərkəzləşməsinə – dövrün ədəbi-bədii dilinin sabitləşməsinə təsir edir, lakin təqlidçilik bədii dili zənginləşdirmək ehtirasından məhrumdur.

İstər 20-30-cu, istər 40-50-ci, istərsə də 60-80-ci illərdə şeir dilinin inkişafı həm fonetik, həm leksik, həm də sintaktik səviyyədə poetik fiqurların yeni ifadə imkanlarının aşkarlanması ilə gedir; şeir dili ədəbi-bədii dilin strukturunda xüsusi funksionallığı ilə fərqlənərək nəsr dilinin, eləcə də dramaturji dilin təkamülünə təsir göstərir.

Nəsr dilinin tarixi təcrübəsinin o qədər də böyük olmaması onun sovet dövründəki inkişafına təsir edir; nəsr dili ədəbi dilin inkişafının həm birinci, həm də ikinci mərhələsində SSRİ xalqları, eləcə də xarici ölkə nəsrinin janr-ifadə mədəniyyətindən müəyyən priyomlar əxz edir.

20-30-cu illərdə nəsr dilinə XX əsrin əvvəllərində ədəbiyyata gəlmiş sənətkarlarla yanaşı, M.Hüseyn, Ə. Əbülhəsən, S.Rəhimov, M.İbrahimov, Mir Cəlal, Ə. Vəliyev, Ə.Məmmədxanlı kimi yazıçıların dili də xüsusi

keyfiyyət aşılayır; hər şeydən əvvəl, bu mərhələdə nəsr dili ciddi şəkildə publisist dilin təsiri altında olur, sözün birbaşa deyilməsi, obrazlılıqdan mümkün qədər imtina edilməsi nəinki cavan, hətta yaşlı yazıçıların təhkiyəsi üçün də xarakterikdir (nümunə üçün C.Cabbarlının hekayə dilini yada salmaq kifayətdir).

40-50-ci illərdə şeir dilində olduğu kimi, nəsr dilində də şablonlaşma müşahidə edilir, 50-ci illərin sonu, 60-cı illərin əvvəllərindən etibarən İ.Hüseynov, İ.Şıxlı, S. Əhmədov, Ə.Əylisli, bir qədər sonra Elçin, Anar, İ. Məlikzadə, F.Kərimzadə, S.Azəri, M.Süleymanlı nəsr dilinin şablonçuluqdan çıxması üçün böyük iş görürlər.

60-70-ci illərdə nəsr dilinin mənzərəsi həmin illərdə şeir dilinin mənzərəsi kimi mürəkkəbdir; bir tərəfdə ədəbiyyata 30-40-cı illərdə gələnlər, başqa tərəfdə onları davam etdirənlər yazıb-yaradırlar və bu prosesdə nəsr dilinin novator imkanları təzahür edir. İ.Hüseynov fəlsəfi-analitik, Ə.Əylisli lirik-analitik, Elçin, Anar psixoloji-publisistik dil nümayiş etdirirlər.

Azərbaycan ədəbi-bədii dilinin nəsr qolunun sovet dövründəki inkişafında Ə.Məmmədxanlının xidmətləri maraq doğurur, o hələ 30-cu illərdə 60-cı illərin dil-üslub zövqü ilə qiymətləndirilə bilən tərzdə yazır.

Dramaturgiya dili birinci mərhələdə – 20-30-cu illərdə daha sürətlə inkişaf edir (xüsusilə C.Cabbarlının yaradıcılığında). Dialoji dilin, mükalimələrin təbiiliyi, gərginliyi novatorluq təzahürləri kimi ortaya çıxır. Lakin 40-50-ci illərdə dramaturgiya dilində, demək olar ki, irəliləyiş olmur.

60-80-ci illərdə Ə.Məmmədxanlı, İ.Əfəndiyev, B. Vahabzadə, N.Xəzri, N.Həsənzadə, Anar və başqa dramaturqların dilində müəyyən axtarışların olduğu görünür,

bütövlükdə isə dramaturji dilin imkanları həm şeir, həm də nəsr dilinin imkanlarından aşağıdır, 60-80-ci illərin dramaturgiya dilində məhz dramatizm çatışmır; lirizm dramatizmi qüvvətləndirmək əvəzinə, onu əvəz edir və bu sahədə İ. Əfəndiyevin aparıcı mövqeyi xüsusi nəzərə çarpır.

Ədəbi-bədii dilin, başqa sözlə, bədii üslubun strukturunda şeir dili ilə nəsr dilinin münasibəti tarixən müxtəlif olmuşdur; 20-30-cu illərdə poetik ifadə axtarışları şeirdə qüvvətli idi, halbuki 60-80-ci illərdə nəsr də şeirlə bir sıraya keçir, hətta bəzən daha böyük imkanlar nümayiş etdirir. Əslində, bu, ədəbi-bədii dildən çox, ictimai şəraitin estetik tələbi ilə bağlıdır, 20-30-cu illərdə ictimai şəraitin yeniləşməsi estetik təfəkkürü qabaqlamışdı, ona görə də estetik təfəkkür onu tərənnüm etməli idi, 60-80-ci illərdə estetik təfəkkür cəmiyyətdəki durğunluğun səbəbləri üzərində düşünürdü, ona görə də təhlil etməli idi; birinci halda şeir, ikinci halda nəsr dili daha çox aktuallaşır.

Əlbəttə, ədəbi-bədii dilin sovet dövründəki inkişafı ümumən ədəbi dilə verilən ictimai-siyasi hüquqlarla bağlıdır; bu dövrdə bədii üslub heç bir yad təsirə məruz qalmadan bilavasitə xalqın estetik təfəkkürünün faktı kimi kütləviləşir, məktəblər, kitabxanalar, başqa mədəniyyət ocaqları vasitəsilə yayılır, təbliğ olunur. Nəşriyyatlar, mətbuat ədəbi-bədii dili indiyə qədər görünməmiş bir sürətlə xalqın malı edir.

Ədəbi-bədii dilin kütləviləşməsi müxtəlif üslubi təmayüllərin konsentrasiyasına gətirib çıxarır. Ədəbiyyatın qarşısında duran estetik tələblər özü də ifadə planında vahid xəttin güclənməsinə şərait yaradır.

«Azərbaycan ədəbi dili lüğət tərkibinin inkişafı (sovet dövrü)» kitabında göstərilir ki, «1920-ci, qismən də

30-cu illərin bədii dilində nəzərə çarpan cəhətlərdən biri sözlərin yazılışında müasir dilin fonetik-imla sistemindən fərqli xüsusiyyətlərin olmasıdır»[1]. Əlbəttə, belə müşahidələr üslubun tarixi ilə deyil, normanın tarixi ilə əlaqədardır və məhz normanın tədqiqi üçün material verir. Ümumiyyətlə, oçerkdə bədii üslubun sovet dövründəki inkişaf mərhələləri müəyyən olunmur, ədəbi-bədii dil ardıcıl olaraq təkmilləşən forma kimi götürülür ki, əlbəttə, bu, düzgün deyil. Ona görə düzgün deyil ki, bədii üslub obrazlı dilə əsaslanır, obrazlı dil isə tədricən yox, adətən sıçrayışlarla inkişaf edir – müəyyən dövrdə bir obrazlaşdırma tərzi şablonlaşır və tədricilik dayanır, sonra yeni dalğa gəlir[2].

Ədəbi-bədii dilin – bədii üslubun estetik keyfiyyəti tarixən müxtəlif parametrlərlə müəyyənləşdirilə bilər; bizim fikrimizcə, bunlardan ikisi aparıcıdır: birincisi – ədəbi-bədii dilin xalq dilinə münasibəti, ikincisi – ədəbi-bədii dilin ictimai tələbata münasibəti. Birinci parametrlə ikinci arasında dialektik əlaqə mövcuddur. Sovet dövründə Azərbaycan ədəbi-bədii dilinin (bədii üslubun) iki mərhələdən keçməsi qeyd edilən parametrlərə əsasən müəyyən edilir.

E l m i ü s l u b . Sovet dövründə ədəbi dilin elmi üslubu görünməmiş bir surətlə inkişaf edir; XVIII əsrdə təşəkkül tapan, XIX əsr boyu tədricən təkmilləşən elmi üslub XX əsrin əvvəllərində də hələ geniş terminoloji, eləcə də sintaktik bazaya malik deyildi. 20-ci, 30-cu illərdə Azərbaycan ədəbi dilinin elmi üslubu tədricən diferen-

---

[1] Azərbaycan ədəbi dili tarixi (sovet dövrü), səh. 171.

[2] Azərbaycan ədəbi dilinin bədii üslubunun tədrici inkişafı ideyası aşağıdakı mənbədə də əks olunmuşdur: Закономерности развития литературных языков народов СССР в советскую эпоху, М., изд. «Наука», 1979, стр. 262-263.

siallaşır, bədii-publisist elementlərdən getdikcə təmizlənir və elmi üslubun maraqlı nümunələri meydana gəlir.

Şübhəsiz, elmi üslubun diferensiasiyasını elmi təfəkkürün özündə gedən diferensiasiya hazırlayır – ziyalı kadrların, bu və ya digər ixtisas sahəsində işləyən milli mütəxəssislərin yetişməsi elmi üslubun ictimai dayağını – sosiumunu yaradır. Şərq təhsili görmüş ziyalılarla qərb təhsili görmüş ziyalılar arasındakı elmi diskussiyalar, 20-30-cu illərdə elmi təfəkkürün şərq tipi ilə qərb tipinin konsentrasiyasına gətirib çıxarır və əslində, elmi üslub da hər iki regionun terminoloji materialının qovuşağında yenidən qurulur, keyfiyyətcə müəyyənləşir. Elmi təfəkkürün elə sahələri olur ki, şərq tipi ilə qərb tipi əsasən bərabər həcmdə təmsil olunur (xüsusilə ictimai elmlər sahəsində), müəyyən sahələrdə isə qərb tipinin üstünlüyü müşahidə edilir (xüsusilə dəqiq elmlər sahəsində); elmi üslub da elmi təfəkkürün genealoji strukturunu əsasən olduğu şəkildə əks etdirir.

20-30-cu illərdə elmi üslubun inkişafı əsasən XIX əsrin ortalarında (M. F. Axundovun yaradıcılığından) aldığı təkanla gedir. XIX əsrin ikinci yarısında, eləcə də XX əsrin əvvəllərində müxtəlif elmi (yaxud elmi-publisist) yazılarda ənənə davam etdirilir. 20-30-cu illərdə isə elmi üslub keyfiyyətcə yeni mərhələyə qalxır, elmi terminologiya isə aşağıdakı mənbələr əsasında yaranır:

1) Şərq dilləri – əsasən ərəb, eləcə də fars dili əsasında; şərq mənbəyi Azərbaycan ədəbi dilinin elmi üslubu üçün tarixən daha anlaşıqlı idi, lakin məsələ burasında idi ki, elmi sosiumun məhdudluğu elmi üslubu ümumiyyətlə kütləviləşdirə bilmədiyindən şərq mənbəyinin elmi anlaşıqlığı kütləvi anlaşıqlığa keçməmişdi, ona görə də 20-30-cu illərdə şərq dillərinə məxsus elmi termino-

logiyanın bir daha seçilməsi ehtiyacı meydana gəldi.

2) Avropa dilləri – əsasən rus dili vasitəsilə; Avropa mənbəyi XIX əsrin ortalarından elmi üslubun ictimai-fəlsəfi qolunda görünür («Kəmalüddövlə məktubları»nın dili bu baxımdan xarakterikdir), XX əsrin əvvəllərindən başlayaraq, Avropa mənşəli terminologiya nəinki elmi üsluba daxil olur, həmçinin mətbuat vasitəsilə kütləviləşir (xüsusilə ictimai-siyasi məzmunlu terminologiyadan söhbət gedir). Elə də olur ki, Avropa mənşəli termin ədəbi dilə keçmir, lakin Avropa elmi-ictimai təfəkkürünün təsiri ilə şərq mənşəli leksik vahid Avropa məzmununda anlaşılmağa başlayır; məsələn, *cəmiyyət, inqilab, siyasət, fəhlə, üsyan, hərəkat, cəhalət, irtica, ixtilaf, sinif, firqə* və s. və i.a. kimi terminoloji məzmunlu leksik vahidlər ictimai-siyasi təfəkkürdə baş verən novatorluğu əks etdirir. XVI əsrdə *inqilab* dedikdə aşiqin öz məşuqəsinə xəfif etirazı, adi dəyişiklik nəzərdə tutulurdusa, XX əsrin əvvəllərindən etibarən bu söz dərin ictimai-siyasi, mədəni-mənəvi çevriliş məzmununda işlənir.

Əlbəttə, irəlidə görəcəyimiz kimi, elmi üslubun Avropa (rus) mənbəyinə münasibəti nəinki müxtəlif mərhələlərdə, hətta bir mərhələ daxilində bir neçə dəfə dəyişir, lakin mənbə mənbəliyində qalır, getdikcə güclənir.

3) Şərq mənbəyi ilə Avropa (rus) mənbəyinin qovuşması, şübhəsiz, milli mənbənin münsifliyi ilə gedir; Azərbaycan ədəbi dilinin elmi üslub potensialı (terminologiyadan tutmuş sintaksisə qədər) milli elmi-təfəkkürün ifadə forması kimi 20-30-cu illərdə də aparıcı olur. Şərq, eləcə də Avropa mənşəli terminoloji-qrammatik material sovet dövründə ədəbi dilin inkişafının birinci mərhələsində məhz milli elmi təfəkkürün xəlqiliyi (xalq üçün anlaşıqlığı) əsasında təbliğ olunur, kütləviləşdirilir.

20-30-cu illərdə məktəb-maarif sisteminin inkişafı, elmi-ictimai cəmiyyətlərin fəaliyyəti elmi üslubun həm irəliləyişinə, həm də demokratikləşməsinə əsaslı təsir göstərir. Elmi təfəkkürün sintetik xarakteri elmi üslubun demokratikləşməsinə mane olsa da (xüsusən 20-ci illərdə), 30-cu illərin sonuna doğru terminoloji norma əsasən sabitləşir.

Elmi dilçilik ədəbiyyatında qeyd edildiyi kimi, marksizm-leninizm klassiklərinin əsərlərinin tərcüməsi Azərbaycan ədəbi dili ictimai elmlər üslubunun həm məzmunca, həm də formaca inkişafına təkan verir[1].

20-30-cu illərdə fəlsəfə, tarix, ictimaiyyat, iqtisadiyyat elmləri, eləcə də filoloji elmlər sahəsində yeni əsərlər meydana gəlir, mətbuat ictimai elmlər üslubunun funksionallığını artırır. Dəqiq elmlərin, eləcə də təbiət-şünaslıq elmlərinin inkişafı elmi üslubun bazasını genişləndirir. 20- 30-cu illərdə elmi üslubun, demək olar ki, bütün əsas sahələrini əhatə edən terminoloji lüğətlər yaradılır[2].

20-30-cu illərdə elmi üslubun xarakterik cəhətlərindən biri onun publisist üslubun təsirinə məruz qalmasından, başqa sözlə, publisistikləşməsindən ibarətdir.

40-50-ci illərdə ictimai həyatda ziyalıların rolu artır, elmi üslubun sosial bazası müəyyənləşir, elmi tədqiqat işlərinin həcminin genişlənməsi, diferensial sahələrin meydana çıxması elmi üslubun həm yazılı, həm də şifahi qollarının tipoloji xarakterinin sabitləşməsinə gətirib

---

[1] *Bax:* Закономерности развития литературных языков народов СССР в советскую эпоху, стр. 263-264; A.Məhərrəmov. Azərbaycan ədəbi dilinin sovet dövrü, səh. 12; Azərbaycan ədəbi dili tarixi (sovet dövrü), s. 41-42 və s.

[2] Sovet dövründə terminologiyanın inkişafı barədə sonrakı fəsillərdə geniş bəhs edilir.

çıxarır. Şərq mənbəyi elmi üslubun inkişafına təsirini bütünlükdə dayandırır, Avropa (rus) mənbəyi isə getdikcə aparıcı mövqe tutur. 50-ci illərin sonu, 60-cı illərin əvvəllərindən başlayaraq, elmi üslubda analitik yığcamlıq – sintaksisin informativliyi güclənir, beynəlmiləl terminlərin işlənmə tezliyi artır.

İkinci mərhələdə elmi terminlərin paralel işlənməsi faktı diqqəti cəlb edir; bir tərəfdən beynəlmiləl terminlər işlənir, digər tərəfdən milli (yaxud onu əvəz edən). Beynəlmiləl terminlə milli termin arasındakı semantik fərq əsasında məna mübadiləsi gedir.

60-70-ci illərdə elmi üslub xalq dilindən uzaqlaşır (müəyyən sahələrdə çox, müəyyən sahələrdə az), daha doğrusu, ədəbi dilin danışıq üslubu ilə elmi üslub arasında az qala uçurum yaranır; bunun səbəbi aşağıdakılardan ibarətdir:

– xüsusən dəqiq elmlər üzrə ədəbiyyat başqa dillərdə (əsasən rus dilində) olduğundan elmi informasiyanın mənimsənilməsi bu mənbələr əsasında gedir – mütəxəssislər azərbaycanca yazarkən (yaxud mühazirə oxuyarkən) başqa dildə faktlaşmış elmi informasiyanı «hərfi» ifadə edirlər, yəni informasiyanı dil həzm etmir, amma ifadə edir;

– elmi materialın kütləviləşdirilməsi işi zəif gedir, müxtəlif sahələrə aid elmi-kütləvi orqanlar (bunların içərisində «Elm və həyat» jurnalının rolunu xüsusi qeyd etmək lazımdır) azdır və bunların əsas hissəsi elmi-kütləvi dilin inkişafına heç bir kömək etmir – ya həddindən artıq elmi, ya da publisist üslubda yazırlar;

– nəhayət, bir sıra hallarda elmdə sxolastikanın hökmranlığı elmi üslubu da yaşarı köklərdən, dinamizmdən məhrum edir.

Lakin demək lazımdır ki, 80-ci illərdə ictimai elmlər

üslubu ilə xalq dili arasındakı uçurum aradan qalxmaqdadır; bunun da sosial əsasları var: xalq öz tarixinə, ədəbiyyatına, dilinə aid elmi-tədqiqat işlərinə maraq göstərir, ona görə də əlaqə bərpa olunur. Ümumiyyətlə, elmi-kütləvi dili inkişaf etdirmədən elmi üslubun xəlqiliyini qorumaq mümkün deyil. Dərsliklərin tərcüməsinin yarıtmaz halda olması 60-80-ci illərdə elmi üslubun keyfiyyətinə mənfi təsir göstərmişdir və göstərməkdə davam edir; xüsusilə orta məktəb dərsliklərində sadə kütləvi elmi üslub əvəzinə, qarışıq bir dil var, bu dərsliklər əsasında aparılan təlim, şübhəsiz, aşağı səviyyədə olacaqdır.

P u b l i s i s t ü s l u b. Azərbaycan ədəbi dilinin publisist üslubu, tədqiqatçıların qeyd etdiyi kimi, «Əkinçi»nin nəşri ilə başlayır. Lakin burada bir cəhət diqqəti cəlb edir: publisist dil materialı əslində əvvəllər də mövcud idi – ədəbi-bədii dil üstün olduğu şəraitdə publisist dil materialını da ehtiva edirdi.

XIX əsrin sonu, XX əsrin əvvəllərində mətbuatın inkişafı publisist dilin də inkişafına şərait yaradır, bununla belə sovet dövründə müəyyənləşən publisist dil əvvəlki dövrlərdəkindən keyfiyyətcə fərqlənir. Bu fərq nədən ibarətdir?

Sovet dövründə ədəbi dilin publisist üslubu sosialist mədəniyyətinin təbliği sahəsində mühüm iş görür. Əlbəttə, bu proses hələ inqilabdan qabaq bolşevik: mətbuatında başlamışdı, 20-ci illərdə isə «Kommunist», «Molla Nəsrəddin», «Kəndçi qəzeti», «Yeni yol», «Müəllim qəzeti», «Maarif və mədəniyyət», «Gənc işçi» kimi mətbuat orqanlarının təcrübəsində davam edir.

20-30-cu illərdə publisist üslubun axtarışları xüsusilə güclü idi, partiya qərarlarında da bir neçə dəfə mətbuat

dilinin kütləviliyini qorumaq barədə məsələ qaldırılmışdı[1]; mətbuat dilinə bu cür-xüsusi diqqət yetirilməsi onun ictimai-siyasi həyatda gördüyü mühüm işlərlə bağlıdır. Ümumiyyətlə, «mətbuat üslubu ədəbi dilimizin inkişaf mənzərəsini – leksik-qrammatik dəyişməni, səlisləşmə və təkmilləşməni başqa üslublara nisbətən özündə daha aydın və tez əks etdirir»[2] – bu öz yerində, yeni zamanda mətbuat dili – publisist üslub özünəməxsus yolla inkişaf edir.

20-30-cu illərdə publisist üslub aşağıdakı diferensial ifadə formalarını ehtiva edir:

1) siyasi-publisist dil – bu ifadə formasını ictimai-siyasi terminologiyanın işləkliyi, çağırış, təbliğ-təşviq intonasiyası xarakterizə edir;

2) elmi-publisist dil – bu ifadə formasında şərhçilik, müxtəlif elm sahələrinə aid terminlərin işləkliyi, sintaksisin təmkinliliyi diqqəti cəlb edir;

3) bədii-publisist dil – bu ifadə formasında obrazlılıq mühafizə olunur, dəyişən dünyanın tərənnümü, cəhalətin tənqidi verilir;

4) adi publisist dil – bu, məişət hadisələrinin təsvirini verir.

Demək lazımdır ki, hər bir mətbuat orqanı publisist üslubun bütün diferensial ifadə formalarından eyni dərəcədə istifadə etmir, hətta müxtəlif zamanlarda bu və ya digər ifadə forması daha funksional olur.

20-30-cu illərdə publisist üslub həm bədii, həm də elmi üsluba təsir göstərir, çünki mətbuat kütləvi idi, inqilabın coşdurduğu xalqın intellektual enerjisi mətbuatda daha tez ifadəsini tapırdı, mətbuat kütləvi təfəkkür

---

[1] *Bu barədə bax:* Советская власть в документах, М., 1961, стр. 213, 223, 261 и т.д.

[2] Azərbaycan ədəbi dili tarixi (sovet dövrü), səh. 106.

mədəniyyətini bütün imkanları ilə ehtiva edirdi.

Mətbuat dilinin leksikası üçün bu illərdə xarakterik əlamətlərdən biri ərəb, fars, rus, eləcə də qədim türk sözlərinin (həmin sözlər Azərbaycan dilinin lüğət tərkibindən çıxdığına görə artıq osmanlı türkcəsinin faktı hesab edilirdi) bəzən kütləvi şəkildə işlədilməsi idi. Həm də bu cür kütləvi işlənmənin istiqaməti, demək olar ki, bir neçə ildən bir dəyişmiş, gah bu, gah da digər dildən alınmalara üstünlük verilmişdir. Bununla belə, qeyd etmək lazımdır ki, 1920—1940-cı illər arasında mətbuatın dilində demokratizm yüksələn xətlə getmişdir; hətta aparılan dil-üslub eksperimentləri də prinsip etibarilə xəlqi əsaslara malik olmuşdur.

1920-ci illərdə publisist dildə ictimai-siyasi leksika fəal idi, bu isə mətbuat dilinin məzmununa təsir edirdi. 30-cu illərdə isə ekstralinqvistik hadisələrin təsiri ilə ictimai-təsərrüfat leksikası fəallaşır və publisist üslub bu istiqamətdə inkişaf edir. Ümumiyyətlə, 1920-1930-cu illərdə mətbuat dilində dövrün inqilabi əhvali-ruhiyyəsi bütünlükdə əks olunurdu. Şübhəsiz, birinci növbədə sintaksis həmin əhvali-ruhiyyəyə – dövrün intonasiyasına köklənmişdi.

Böyük Vətən müharibəsi illərində mətbuat dilinə hərbi vətənpərvərlik məzmunu gəlir – hərbi terminologiyanın işləkliyi artır, qısa, lakin kəskin, təsirli ifadə forması fəallaşır. Əslində, 40-cı illərin ortalarından sonra da mətbuat dilində müharibə dövrü üçün xarakterik bəzi xüsusiyyətlər qalır.

40-cı illərin sonu, 50-ci illərin əvvəllərindən başlayaraq, publisist üslubda aşağıdakı əhəmiyyətli dəyişikliklər baş verir:

1. 20-ci, eləcə də 30-cu illərdəkindən fərqli olaraq,

40-cı illərin sonu, 50-ci illərin əvvəllərindən mətbuat dili sabit norması ilə seçilir; istər fonetik-orfoqrafik, istər leksik, istərsə də qrammatik norma sahəsində əvvəlki onilliklərə məxsus tərəddüdlər, paralelliklər aradan qalxır, norma ardıcıl şəkildə gözlənilir.

2. 40-cı illərin sonu, 50-ci illərin əvvəllərindən ölkənin mədəni həyatında baş verən əsaslı dəyişikliklər, mətbuat şəbəkəsinin genişlənməsi mətbuat dilində də üslubi diferensiasiyanı gücləndirir; əgər vaxtilə bir qəzet (məsələn, «Kommunist» qəzeti) publisist üslubun müxtəlif sahələrini (siyasi-publisist dil, elmi-publisist dil, bədii-publisist dil və s.) əks etdirirdisə və müharibə illərində inteqrasiya bir qədər də gücləndisə, 40-cı illərin sonu, 50-ci illərin əvvəllərindən sahə qəzetlərinin artması eyni zamanda həmin sahələr üzrə publisist üslubun diferensiasiyasının sürətlənməsinə gətirib çıxarır.

3. Elmi-texniki tərəqqinin ədəbi dilə gətirdiyi anlayışlar birinci növbədə mətbuatda faktlaşır və xüsusilə 50-ci illərin ortalarından sonra mətbuat dilində yeni texnika ilə əlaqədar leksika genişlənir; söz birləşmələrinin işləkliyinin artması hesabına bir sıra müasir ictimai-təsərrüfat, mədəni-məişət anlayışları ifadə olunur.

60-cı illərdə ədəbi-bədii dildə folklor – xalq dilinə qayıdış 60-cı illərin sonu, 70-ci illərin əvvəllərindən publisist üsluba da təsir edir; mətbuatın dilinə dialektlərdən (xüsusilə kənd təsərrüfatı ilə bağlı) sözlər keçir, bədii-publisist dil tədricən 30-cu illərə məxsus şüarçılıqdan azad olur, daha doğrusu, o əlamətlər ki, 30-cu illərdə üslub norması idi, 50-ci, 60-cı, hətta 70-ci illərdə də bəzən mövcud olmaqda davam edir və bu onilliklərin ümumi ədəbi dil kontekstində gerilik faktı kimi diqqəti çəkir.

60-cı illərdən etibarən Azərbaycan mətbuatında gedən

dil prosesləri kifayət qədər intensivdir; bir tərəfdən milli-ictimai təfəkkürün, digər tərəfdən ümumən dünya ictimai fikrinin nailiyyətləri hər gün mətbuat dilində öz ifadəsini tapır, publisist üslub bütün üslublardan fərqli olaraq, zamanın ictimai düşüncəsinin sürətinə müvafiq dəyişir, inkişaf edir. İnformasiya axınının güclənməsi, informasiyanın şərhindən çox, düzgün verilməsinə, dəqiqliyinə maraq mətbuat dilini də rəsmi sənəd dilinə yaxınlaşdırır. Eyni zamanda bunun əksinə olan proses gedir: xüsusilə 80-ci illərdə bu və ya digər hadisənin mahiyyəti geniş şərh edilir və beləliklə, publisist dilə elmi-fəlsəfi dərinlik, analitiklik gəlir.

R ə s m i ü s l u b . A. Məhərrəmovun fikrincə, «bu üslub ancaq sovet dövründə yaranmış və inkişaf etmişdir»[1]. Şübhəsiz, belə deyil: XVI əsrdən başlayaraq rəsmi üslubun maraqlı nümunələri mövcuddur, lakin o ki qaldı rəsmi üslubun sovet dövründəki inkişafına, bu, həqiqətən belədir.

XVII, eləcə də XVIII əsrdə Azərbaycan ədəbi dilinin rəsmi üslubuna aid nümunələr pərakəndə şəkildədir, sovet dövründə isə bu üslubun ardıcıl inkişafını şərtləndirən dövlət idarə aparatı fəaliyyət göstərir.

1920-1940-cı illərdə Azərbaycan ədəbi dilinin inkişafının birinci mərhələsində rəsmi üslub aşağıdakı əlamətlərlə səciyyələnir:

1. Ərəb, eləcə də fars elementləri ilə zəngin olan klassik ifadə tərzi əsasən qalır; ümumən lüğət tərkibində gedən proseslər – gah bu, gah da digər dildən alınmalara üstünlük verilməsi rəsmi üslubun leksikasına da təsir edir, lakin sintaksis bir qayda olaraq klassik ifadə tipində mövcud olur.

2. Rəsmi üslubdan istifadə edən sosium geniş

[1] A.Məhərrəmov. Azərbaycan ədəbi dilinin sovet dövrü, səh. 13-14.

olmadığına görə, onun ictimai məzmunu da, deyək ki, bədii, publisist, yaxud elmi üslub qədər böyük olmur. Eyni zamanda rəsmi üslub 20-ci, eləcə də 30-cu illərdə başqa üslublardan təcrid olunmuş şəkildə inkişaf edir, daha doğrusu, rəsmi üslubla başqa üslublar arasındakı təmas, məsələn, bədii üslubla publisist, yaxud publisist üslubla elmi üslub arasındakı əlaqələr gücündə olmur.

Onu da qeyd etmək lazımdır ki, 1920-ci ildən 1940-cı ilə qədərki mərhələdə rəsmi üslubun demokratizmi nəinki artan, hətta azalan xətlə gedir. Lakin bununla belə sovet cəmiyyətinin mənəvi-siyasi strukturunda baş verən hadisələr rəsmi üsluba, onun funksionallıq səviyyəsinə, ictimai-siyasi dəyərinə bilavasitə təsir göstərir.

İkinci mərhələdə (1940-cı illərdən etibarən) Azərbaycan ədəbi dilinin rəsmi üslubu istər sintaktik, istərsə də leksik quruluşca tədricən demokratikləşir, xalq dilinə yaxınlaşır. Əlbəttə, bu prosesin güclənməsinə, rus ədəbi dilinin rəsmi üslubu da təsir edir, çünki həmin üslub sahəsində Azərbaycan dili rus dili ilə daim qarşılaşır, dövlət sənədlərinin respublikada adətən iki dildə tərtib olunması bu cür qarşılaşmanı qanuniləşdirir.

E p i s t o l y a r ü s l u b . Epistolyar üslubun sovet dövründəki inkişafı, şübhəsiz, birinci növbədə əhalinin kütləvi savadlanması ilə əlaqədardır.

XVII-XVIII əsrlərə aid cünglərdə epistolyar xarakterli mətnlərə təsadüf edilir, XIX əsrdə məktub, xatirə, eləcə də gündəliklər yazılır, yəni bu üslubun tarixi hər halda bir neçə əsr əvvələ gedib çıxır, bununla belə, daha intensiv inkişafı XX əsrin əvvəllərinə düşür.

Ədəbi dilin inkişafının birinci mərhələsində 20-ci, 30-cu illərdə epistolyar üslub ədəbi-bədii dilin təsiri altında olur (mətbuatda, xüsusən, «Molla Nəsrəddin» jurnalında

hələ XX əsrin əvvəllərindən başlayaraq epistolyar üslub standartlarından bədii-publisistik məqsədlə istifadə edilirdi).

İkinci mərhələdə isə epistolyar üslub daha çox publisistləşir, uzun-uzadı obrazlı ifadələrdən təmizlənir, fikrin daha aydın təqdimi normativləşir.

Epistolyar üslubun məzmununu adamların mənəvi xarakteri, daxili mədəniyyəti müəyyən edir, bu üslubda ictimailik bir qədər arxa plana keçə, fərdi hisslər qabarıqlaşa bilər; ona görə də burada dil fərdin savadından, zövqündən, xarakterindən asılı olaraq müxtəlifdir. Lakin belə müxtəlifliyin hüdudu var.

Epistolyar üslubun mühüm bir keyfiyyəti onun tədricən daha çox ictimailəşməsindən ibarətdir. Bunu şəxsiyyətlə cəmiyyət arasındakı münasibətlərin inkişafı prosesi müəyyən edir.

* * *

Azərbaycan ədəbi dilinin sovet dövründə inkişafı dedikdə, metodiki baxımdan, norma planı ilə funksional-üslub planının dialektik əlaqəsi göz önünə gətirilir; qeyd edildiyi kimi, Azərbaycan ədəbi dilinin norma planı ilə üslub planı müxtəlif mərhələlərdə müxtəlif münasibətlərdə olmuşdur, birinci mərhələdən fərqli olaraq, ikinci mərhələdə funksional-üslubi diferensiasiya sürətlə getdiyinə görə norma planı daha çox funksional-üslub baxımından diqqəti cəlb edir, başqa sözlə, normanın təkmilləşməsi ictimai dil təfəkkürü üslubları vasitəsilə həyata keçirilir.

Azərbaycan ədəbi dili lüğət tərkibinin inkişafı da norma planı ilə üslub planı arasındakı bu cür mürəkkəb münasibətlər kontekstində gedir; ədəbi dilin struktur-

semantik inkişafından kənarda lüğət tərkibinin sistemli inkişafını təsəvvürə gətirmək mümkün deyil.

II FƏSİL

ƏDƏBİ DİLİN LÜĞƏT TƏRKİBİNİN ÜMUMİ MƏNZƏRƏSİ VƏ İNKİŞAF MƏRHƏLƏLƏRİ HAQQINDA

Sovet dövründə Azərbaycan ədəbi dili lüğət tərkibinin inkişafı müəyyən mərhələlər üzrə gedir. Bizim müşahidələrimizə görə, bu mərhələlər ümumən ədəbi dilin həmin dövrdəki inkişaf mərhələlərinə uyğundur. Səbəbi odur ki, sovet dövründə ədəbi dilimiz tarixi mövcud-luğunun bütün dövrlərindəkindən daha çox struktur kompaktlığa malik olur, fonetik-orfoqrafik normanın təkmilləşməsi ilə leksik-qrammatik norma da təkmilləşir, eyni zamanda, müvafiq templə ədəbi dilin funksional məzmunu da inkişaf edir. Bu cür kompaktlığı – norma planı ilə funksiya planı arasındakı əlaqələrin bu cür intensivliyini göstərən nədir? Əlbəttə, birinci növbədə, sovet dövrü ədəbi dili üçün əsas sosioloji keyfiyyətlərdən biri olan kütləvilik faktına diqqət etmək lazımdır. Ədəbi normanın (eləcə də funksional üslubların) kütləvi mövqedən işlədilməsi (sosiumun həcmcə genişlənməsi ilə əlaqədar demokratikləşməsi) nəinki norma planı ilə funksiya planı arasındakı, eləcə də normanın səviyyələri (fonetik-orfoqrafik, leksik-semantik, qrammatik) arasındakı asılılığın artmasına təsir edir. Ümumiyyətlə, ədəbi dilin lüğət tərkibinin inkişafı ədəbi dilin funksional məzmununu dəyişməklə yanaşı, struktur münasibətlərdə də ifadə olunur; məsələn, terminoloji leksikanın artması (hansı mənbələr hesabına artmasının da həlledici təsiri var, termin mənsub olduğu dilin mədəni-elmi təfəkkürünü maddiləşdirir) ədəbi dili intellektuallaşdırır, yaxud iltisaqi dillərdə alınma sözlər artdıqda qrammatik münasibətlərdə analitizm güclənir

(deyək ki, köməkçi fellərin daha intensiv işləkliyi hiss edilir. Lakin yenə də o fikrə qayıdırıq ki, ədəbi dil nə qədər kütləvidirsə (kütlələrin təfəkkür enerjisi ədəbi dilə nə qədər çox çökürsə), inkişaf prosesində ədəbi dili təşkil edən formaların (normalar, üslublar) avtonomluğu o qədər azalır, yəni ədəbi dil daha inteqrativ şəkildə mövcud olur (bir norma digər normaya, bir üslub digər üsluba, eləcə də norma planı üslub planına və yaxud əksinə daha çox təsir edir).

Sovet dövründə Azərbaycan ədəbi dili lüğət tərkibinin mərhələlərə bölünməsində əsas prinsip lüğət tərkibinin mənzərəsinin keyfiyyət və kəmiyyətcə hiss edilən dəyişməsidir; şübhəsiz, bu cür dəyişmənin də ekstra-linqvistik dayağı vardır – ölkənin iqtisadi-təsərrüfat, sosial-siyasi, mədəni-mənəvi simasının dəyişməsi lüğət tərkibində – leksik normada da təbəddülat yaradır. Lakin mərhələlərə ayırma zamanı lüğət tərkibinin mənzərəsinin ölkənin ictimai həyatından (ekstralinqvistik amillərdən) asılılığı vulqar şəkildə başa düşülməməlidir; hər beşillikdə iqtisadi, sosial, mədəni inkişafın baş verməsi həmin beşillik üçün bir lüğət mənzərəsi təqdim etmir, ümumiyyətlə, dil o dili daşıyanlardan təşkil olunmuş ictimai mövcudluğu mexaniki surətdə əks etdirə bilməz, lüğət tərkibi də bu baxımdan istisna təşkil etmir (nə qədər mütəhərrik olsa da). Linqvistik proseslərlə ekstralinqvistik proseslər arasındakı əlaqə birbaşa deyil, müəyyən mərhələlərdən keçir.

Ədəbi dilimizin sovet dövrü böyük bir müddəti əhatə etməsə də, müəyyən ziddiyyətlərlə daim inkişafda olmuşdur[1]. Buna görə də bu dövrün mərhələlərə bölünməsində dilçilər arasında yekdil fikir yoxdur. Bu hal təkcə Azər-

[1] *Bax:* N. Xudiyev, Azərbaycan ədəbi dili lüğət tərkibinin inkişafı, Bakı, APİ nəşr., 1986, səh. 5.

baycan dilçiliyində deyil, digər SSRİ xalqlarının, o cümlədən türkdilli xalqların ədəbi dillərinin inkişaf mərhələlərinin fərqləndirilməsində də müşahidə edilir.

N. A. Şarapov sovet dövrü tacik ədəbi dilinin inkişaf yolunu beş mərhələyə bölmüşdür: 1) 1917-1930-cu illər; 2) 1930-1940-cı illər; 3) 1940-1945-ci illər; 4) 1945-1960-cı illər; 5) 1960-cı ildən sonrakı dövr[1].

T. Tacmuradov isə sovet dövründə türkmən ədəbi dilinin inkişafını üç mərhələyə bölmüşdür: 1) 1920-1930-cu illər; 2) 1930-1940-cı illər; 3) 1940-1970-ci illər[2].

Azərbaycan ədəbi dilinin keçdiyi inkişaf mərhələlərinin müəyyənləşdirilməsində də mübahisələr özünü göstərir. Əlbəttə, SSRİ xalqlarının ədəbi dillərinin bir-birindən fərqli inkişaf mərhələlərinə malik olması mümkündür və deməli, elmi-dilçilik ədəbiyyatında bu cür-müxtəlifliyin təsbit olunması təbiidir, konkret bir ədəbi dil üçün müxtəlif inkişaf mərhələlərinin göstərilməsi isə tədqiqatçıların əsaslandıqları (səhv, yaxud düz) prinsiplərin müxtəlifliyi ilə bağlıdır.

Onu da qeyd edək ki, adətən SSRİ xalqları ədəbi dillərinin eyni mərhələlərdən keçdiyi göstərilir; bu, tədqiqatçıların təsnifin əsasında ictimai-siyasi hadisələri götürmələri ilə daha çox bağlıdır. Əlbəttə, ədəbi dillər əsasən eyni sosial mühitdə inkişaf edirlər, lakin hər hansı ədəbi dilin inqilabaqədərki tarixi onun sovet dövründəki tarixi inkişafı üçün də şərtdir – hər dil inqilaba bir tutumla gəlir. A.M.Məhərrəmov öz təsnifatında terminologiya məsələlərinə daha çox diqqət yetirdiyindən, terminologi-

---

[1] Н.А.Шарапов. Пути развития лексики современного таджикского литературного языка, АДД, Баку, 1974, стр. 4.

[2]Т.Таджмурадов. Развитие и нормализация туркменского литературного языка в советскую эпоху, Ашхабад, 1974, стр. 94.

yanın inkişaf yolunu nəzərə alaraq, Azərbaycan ədəbi dili lüğət tərkibinin inkişafında üç əsas mərhələ göstərmişdir: 1) 1920-1930-cu illər; 2) 1930-1943-cü illər; 3) 1943-1949-cu illər[1]. Eyni təsnifat müəllifin «Azərbaycan ədəbi dilinin sovet dövrü» kitabında əsasən saxlanır: 1) 1920-1930-cu illər; 2) 1931-1944-cü illər və 3) 1944-cü ildən sonrakı illər[2]. «Azərbaycan ədəbi dili tarixi»ndə də bu təsnifat tarixlər yuvarlaqlaşdırılmaqla, demək olar ki, təkrar edilir: 1) 1920-1930-cu illər; 2) 1930-1945-ci illər və 3) 1945-ci ildən sonrakı illər[3].

Elə tədqiqat işləri var ki, 1920-1930-cu illər barədə xüsusi, sonrakı mərhələlər barədə isə ümumi şəkildə bəhs edilir[4]. Səbəbi odur ki, 20-30-cu illərdə ədəbi dilin müxtəlif üslublarında müəyyən sabit normalara riayət edilir, dilin ümumi inkişaf mənzərəsində bir vahid meyil özünü göstərir. Sonrakı onilliklərdə ədəbi dilin bəzi normaları başqa istiqamətdə sabitləşmə prosesi keçirir və belə bir prosesdə bu və ya digər dil səviyyəsinə aid vahidlərin konkret şəkildə normalaşma müddətinin göstərilməsi həqiqətən çətindir. Buna görə də 1930-cu ildən sonrakı ədəbi dilimiz üçün ayrı-ayrı müəlliflər tərəfindən verilmiş dövrləşdirmələr bir-birindən fərqlənir.

N.A.Baskakov sosial-siyasi hadisələrin dəyişkən xarakterini, cəmiyyətdə baş verən mühüm hadisələri,

---

[1]А.М.Магеррамов. Вопросы языка (алфавита, орфографии, терминологии и грамматики) о азербайджанской советской печати, АКД, Баку, 1950, стр. 9.

[2] A.Məhərrəmov. Azərbaycan ədəbi dilinin sovet dövrü, səh. 30.

[3] Azərbaycan ədəbi dili tarixi (sovet dövrü), səh. 42.

[4]A.A.Aslanov. Обогащение словарного состава азербайджанского литературного языка в советский период, АКД, Баку, 1954, стр. 9-20; Ə. A. Aslanov. Lenin milli siyasəti və Azərbaycan ədəbi dilinin yeni mərhələsi, Bakı, 1980, səh. 15-20

bunların dilə təsirini nəzərə alaraq, SSRİ xalqları ədəbi dillərinin üç mərhələ keçirdiyini göstərir.

Birinci mərhələyə 1917-1929-cu illər aid edilir. Həmin mərhələdə dilin lüğət tərkibində baş verən mühüm dəyişmələr – yeni dövr üçün köhnələn terminlərin əvəz olunması, yeni sözlərin yaranma prinsipləri, purizmin dildə zərərli cəhətləri və s. diqqət mərkəzinə çəkilir.

İkinci mərhələ 1929-1945-ci illəri əhatə edir. Bu mərhələ bir sıra yeni terminlərin alınması və dilin daxili imkanları əsasında yeni sözlər düzəldilib işlədilməsi ilə əlamətdardır.

Böyük Vətən müharibəsindən sonrakı dövr ədəbi dillərin inkişafında üçüncü mərhələ kimi verilir. Bu mərhələdə də dilin lüğət tərkibinin inkişafına təsir göstərən iki başlıca meyil – rus dilindən və bu dil vasitəsilə Avropa dillərindən söz alınması və daxili imkanlar əsasında yeni vahidlərin yaradılması davam edir[1].

Bu bölgüdə, əsasən, ictimai-siyasi amillər nəzərə alındığı üçün cəmiyyət həyatında mühüm rol oynamış hər bir dövr dilin inkişafının bir mərhələsi kimi səciyyə-ləndirilmişdir. Əlbəttə, mühüm ictimai hadisələrin heç biri dilə təsirsiz qalmır. Hər hansı bir» ictimai dəyişmə və inkişaf yeni sosial şərait yaradır ki, dildə də həmin dəyişmə və inkişaf proseslərinə müvafiq yeni anlayışlar meydana çıxır. Sözlərin bir qismi öz işləkliyini itirir, yeniləri dilə gətirilir, daxili imkanlar hesabına təzə sözlər yaradılır və s.

Bütün bunlarla belə, dilin ümumi inkişafı, bir çox cəhətdən normalaşması, sabitləşməsi və vahid qaydaya düşməsi üçün, əlbəttə, hər hansı təsadüfi ictimai hadisə əsas

---

[1] *Bax:* Н.А.Баскаков. Современное состояние терминологии в языках народов СССР. – «Вопросы терминологии», Изд. АН СССР, М., 1961, стр. 59-60.

ola bilməz. Bu fikri eyni zamanda, dilin lüğət tərkibində baş verən dəyişmələrə də aid etmək olar.

Sosializm quruculuğu illərində cəmiyyətin inkişafı üçün əlamətdar olan hadisələr silsiləsi əvvəlki dövrün ən mühüm nailiyyətlərinə əsaslandığından daim köhnənin yaxşı ənənələrini yaşadır. Deməli, hər bir yeni mərhələdə keçmişin ən yaxşı əlamətləri, ənənələri saxlanılır, gələcək hadisələr də bunun üzərində inkişaf edir. Həyatın tələblərindən geri qalanlar tədricən aradan çıxmaqla, yeniliklər daim təkmilləşir və zənginləşir. Şübhəsiz, cəmiyyətin bu cür dialektik inkişafı dildə də öz ifadəsini tapır. Belə ki, köhnə cəmiyyətlə bağlı bir sıra dil vahidləri müəyyən dövrdə saxlansa da, sonrakı dövrlərdə əhəmiyyətini itirir və tədricən tamamilə unudulur, dilin daxili imkanları əsasında yeni vahidlərim yaranması prosesi güclənir. Terminoloji səciyyə daşıyan alınmalar ümumən assimilyativ təsirdən uzaq olur. Buna görə də sovet dövründə ədəbi dilin lüğət tərkibinə bu sahədə lüzumsuz elementlər daxil ola bilmir və yalnız müəyyən zərurətlə bağlı alınan sözlər əsasında dilin lüğət tərkibi zənginləşir.

Sovet dövründə Azərbaycan ədəbi dili lüğət tərkibinin inkişafı, qeyd etdiyimiz kimi, iki mərhələdən keçir: birinci mərhələ 1920-1940-cı illəri, ikinci mərhələ 1940-cı ildən sonrakı dövrü əhatə edir. Birinci mərhələdə lüğət tərkibi ərəb, fars, rus-Avropa sözləri ilə zəngin olsa da, tədricən Azərbaycan dilinin öz sözlərinin maksimum üstünlüyü özünü hiss etdirir; nəticədə, birinci mərhələnin sonlarına doğru tarixən mənimsənilməmiş ərəb, fars sözləri lüğət tərkibindən çıxır, rus-Avropa sözlərindən isə beynəlmiləl məzmuna malik olub, qarşılığı olmayanları qalır, yəni zəruri tələbat ödənilir.

XX əsrin əvvəllərində, eləcə də 20-ci illərdə osmanlı türkcəsindən keçmiş bir sıra sözlər də 30-cu illərdə işləklikdən qalır.

Birinci mərhələ – normalaşma mərhələsidir.

İkinci mərhələdə ictimai tərəqqi, sosializmin uğurları, elmi-texniki inqilab nəticəsində yeni sözlər yaranır və ümumxalq səciyyəsi daşıyaraq sabitləşməyə başlayır; inkişaf əsasən dilin daxili imkanları hesabına gedir, yalnız zəruri hallarda rus-Avropa mənbəyinə müraciət edilir.

İkinci mərhələ – sabitləşmə və zənginləşmə mərhələsidir.

Azərbaycan ədəbi dili lüğət tərkibinin inkişaf mərhələləri, şübhəsiz, bir-biri ilə sıx bağlıdır.

B i r i n c i m ə r h ə l ə . 20-40-cı illərdə lüğət tərkibinin inkişafı

Azərbaycan ədəbi dilinin normalaşma dövrü kimi səciyyələnən birinci mərhələnin ilk onilliyi sonrakı onillikdən bir sıra əlamətlərinə görə fərqlənir. Belə ki, 20-ci illərə nisbətən 30-cu illərdə dilin lüğət tərkibində xəlqiləşmə daha çox özünü büruzə verir. 20-ci illər ədəbi dilinin xalq kütlələri üçün anlaşılma səviyyəsi nə qədər aşağı idisə, 30-cu illərdə xəlqiləşmə bir o qədər gücləndi.

Sovet dövrü Azərbaycan ədəbi dilinin tarixində birinci mərhələ, xüsusən 20-ci illər, ən mürəkkəb bir dövrdür. Çünki bu illərdə ictimai-siyasi həyatda müxtəlif dil-üslub təmayüllərinin geniş fəaliyyəti üçün şərait var idi; ədəbi norma müzakirələrin gedişində müəyyənləşirdi, XX əsrin əvvəllərinə aid mübahisələr davam edirdi.

1.

Oktyabr inqilabından sonra ölkədə baş verən ciddi sosial dəyişikliklər milli dillərin inkişafına, xüsusən geniş vüsətli dil quruculuğu işlərinə çox güclü təsir göstərdi. Yeni quruluşun birinci onilliyində hər sahədə yeniliklə köhnəlik üz-üzə durmuşdu. Ölümə məhkum olmuş köhnə cəmiyyət can üstündə belə, yeniliklə vuruşmaq, onu boğmaq istəyindən əl çəkmirdi. Bu cür sosial təlatümlər dövründə milli dilin inkişaf istiqamətini şərtləndirən güclü bir meyil, həm də elmi və xəlqi bir meyil müşahidə edilirdi. SSRİ xalqları dillərinin, o cümlədən Azərbaycan dilinin inkişafında tədricilik sürətliliklə əvəz olunmuşdu. Ədəbi dilin bütün sahələri və şaxələr üzrə yenidən qurulması uğrunda ciddi və mürəkkəb mübarizə aparılırdı. XX əsrin əvvəllərində ədəbi dilə münasibətdə ziyalılar arasında vahid mövqe, vahid meyil olmadığı kimi, inqilabdan sonrakı ilk dövrdə də üslub pərakəndəliyi davam edirdi. Ədəbi dildə XX əsrə qədər kök salmış ərəb-fars elementləri, XX əsrin ilk onilliklərində meydana çıxmış türkizmlər bu dövrdə bir-biri ilə çulğalaşmış şəkildə işlədilirdi. Belə bir pərakəndə üslub Azərbaycan Sovet hakimiyyətinin ilk illərində də davam etməkdə idi və hətta bir qədər qüvvətlənmişdi, ideoloji məzmun almışdı. Yeniliyin qələbəsi ilə bağlı olan dil təbəddülatı SSRİ ərazisindəki başqa milli dillərdə də müşahidə edilirdi.

1926-cı ildə fevralın 26-dan martın 5-dək Bakıda I Ümumittifaq Türkoloji qurultayı keçirilir. Qurultayın işində görkəmli türkoloqlar iştirak edirlər; burada türk dillərinin müxtəlif problemləri ilə yanaşı, terminologiya məsələləri də müzakirə olunur: B.Çobanzadənin «Elmi terminologiya sistemi haqqında», A.R.Zifeld-Simumyaqın «Türk dil-

lərində elmi terminologiyanın yaranma prinsipləri haqqında», H.Zeynallının «Türk dillərində elmi terminologiyanın sistemi haqqında» və s. mövzularda məruzələri dinlənilir. I Türkoloji qurultay termin yaradıcılığı məsələsində demokratik prinsiplərin rəhbər tutulduğunu göstərir, bu isə 20-ci illərdəki mürəkkəb dil mübahisələri kontekstində gərəkli iş idi. Lakin burası da məlum olur ki, məsələyə münasibətdə dörd meyil var: 1) ərəb-fars mənbəyini əsas götürənlər – islamlaşma tərəfdarları; 2) avropalaşma tərəfdarları; 3) türkləşmə tərəfdarları; 4) dialekt materialını əsas götürənlər – «demokratlaşma» tərəfdarları. Bu meyillərin hər biri ayrı-ayrılıqda naqis idi[1]. Lakin I Türkoloji qurultayın düzgün mövqe tutmasına baxmayaraq, 20-ci illərdə bu meyillər lüğət tərkibinin inkişafına təsir edirdi.

20-ci illərdə Azərbaycan ədəbi dilini səciyyələndirən əsas xüsusiyyətlərdən biri lüğət tərkibində bir sıra ərəb-fars, türk (osmanlı) və rus mənşəli sözlərin vahid normaya uyğun işlədilməməsi idi. Bununla yanaşı, sosializm quruculuğu ilə əlaqədar baş verən ictimai proseslərə dair yeni sözlərin dilə daxil olması, daxili imkanlar əsasında yeni leksik vahidlərin yaranması və s. də bir proses kimi güclənməkdə idi.

* * *

Azərbaycanda inqilabdan sonra daxili imkanlar hesabına söz yaradıcılığı prosesi dilin zənginləşməsində böyük rol oynamışdır. Yeni yaranan *kənd özəkləri fəaliyyətdədir* (K-12.04.1921); *Bütün dünya işçiləri,*

[1] Bax: T.İ.Hacıyev. Azərbaycan ədəbi dili tarixi. II hissə, Bakı, «Maarif», 1987, səh. 266-272.

birləşin! (K-12.04.1921); *Əməkçi felyetonu yazılmağa başlayır* (K-3.11,1926). *Türkcə kəlmələr haqqında araşdırmalar yapılmışdır* (K-3.11.1926); *Oktyabrın doqquzuncu ildönümü günündə hər kəs bu doqquzillik yolu xəyali olaraq keçəcəkdir* (K-4.02.1928); *Kəndlərdə şura seçkisi olan vaxtda yoxsul və orta kəndçi dövlətini özünə yaxın buraxsın* (K-7.11.1926); *El köməyi komitələri yaradılmışdır* (K-13.04.1921); *Türküstanda əkin kompaniyasına başlanmışdır* (K-4.04.1921); *Məktəblərdə bədən tərbiyəsi fənni keçiləcəkdir* (İM-1928, № 11-12); *Azərbaycanda neft komitəsinin xəbərləri yayılmışdır* (K-4.04.1921) və s.

İctimai-siyasi və mədəni hadisələrlə bağlı yaranmış bir sıra sözlər, xüsusən siyasi və iqtisadi sahədəki müvəqqəti hallarla əlaqədar yaranmış *qolçomaq, özək, el köməyi, neft komitəsi* kimi söz və söz birləşmələri sonralar müxtəlif səbəblərə görə öz işləkliyini itirmişdir. Məsələn, *qolçomaq* sözü bir tarixizm kimi, ifadə etdiyi varlığın səhnədən çıxması ilə passivləşir – indi ya məcazi mənada işlənir, ya həmin dövrün siyasi təsərrüfat quruluşundan danışarkən xatırlanır. Yaxud *özək* və *işçi* sözləri bu gün də işlənir, lakin həmin dövrə məxsus terminoloji mənada deyildir, yeni məzmun kəsb etmişdir. Və ya *el köməyi* birləşməsi purizm prinsipi üzrə yaranmışdır, bu gün işlənsə də ilkin terminoloji vəzifəsini yerinə yetirmir. Sosialist təsərrüfatı, sosializm quruculuğu ilə bağlı anlayışları əks etdirən *işçi, əməkçi, araşdırma, ildönümü, seçki, bədən tərbiyəsi* kimi sözlər və birləşmələr bugünkü ədəbi dilimizdə də özünə möhkəm yer qazanmışdır.

Ümumiyyətlə, götürdükdə, 20-ci illərdə purizm Azərbaycan dili üçün müsbət rol oynamışdır; ana dilinin nəinki konkret milli materialla zənginləşməsi, hətta bu

istiqamətdə xüsusi söz yaradıcılığı prinsiplərinin müəyyənləşdirilməsi baxımından purizmin əhəmiyyəti böyükdür. Mədəni-tarixi prosesin inqilabi məzmunu, dil quruculuğunun sürətlənməsi purizm axtarışlarını, əslində, istiqamətləndirirdi və heç şübhəsiz, həmin hadisənin mütərəqqi rolu bir də bununla müəyyən olunurdu. Əlbəttə, söz yaradıcılığı axtarışlarında milli zəminə, milli dilin imkanlarına istinad olunması sonrakı dövrlərdə də başlıca uğurlu prinsip idi ki, həmin prinsipin də həyatilik qazanmasında purizmin təsiri göz qabağındadır.

20-ci illərdə puristlər tərəfindən bir sıra qondarma və uydurma sözlər də düzəldilmişdir ki, bunlar sonralar zamanın sınağından çıxa bilmədi və yaşamaq imkanını itirdi. Məsələn, Ə. Şıxlinskinin «Döyüş sözlüyü» adlı lüğətində *salıq, toqunaq, üstünc, yənəldici, cızğıc, kandırğac, bilməksiniz, düşünməksiniz, görüntü, öndül, tasarlayış*[1] və s. kimi sözlər vardır ki, sonralar onların heç biri lüğət tərkibinə daxil ola bilmədi. Bu dövrdə digər elm sahələrinə aid də qondarma terminlər meydana çıxmışdı. Məsələn, *yerbilik* (coğrafiya), *yulduzbilik* (astronomiya), *subilik* (hidrologiya), *daşbilik* (petroqrafiya)[2] və s. bu qəbildən idi. Bu tipli uydurma söz və terminlərə Qafur Rəşadın lüğətində də yer verilmişdi. Lüğətlə əlaqədar rəylərdə də hələ o zaman uydurma sözlər barədə kəskin etirazlar var idi. Belə rəy müəlliflərindən biri olan Ə. Cavad yazırdı: «Qafur Rəşad əfəndinin coğrafiya terminlərinə keçdikdə içərisində o qədər süni, məntiqsiz və yersiz kəlmələr icad edilmiş ki, dilə yardım etmək istəyən

---

[1] *Bax:* Ə.Şıxlinski. Döyüş sözlüyü (təlimnamə və nizamnamələri və elmi-hərbi kitabları çevirmək üçün yardımlıq), Bakı, 1926.

[2] *Bax:* M.Ş.Qasımov. Azərbaycan dili terminologiyasının əsasları. Doktorluq dissertasiyası, Bakı, 1973, səh. 198.

adam nasıl bu kimi sözlər çıxarır sualına cavab verməzdən aciz qalır»[1]. Rəy müəllifi belə sözlərə aid lüğətdən kötürdüyü aşağıdakı quraşdırmaları misal göstərir: *toplay* (atmosfera), *layölçən* (barometr), *ilçaq* (mövsüm), *toplantay* (dövlət), *taslıq* (xəritə), *yayxan* (metal), *özülölçən* (masştab), *payqırdaş* (paralel), *başqan* (prezident), *quyruqlu* (kometa), *topal* (məbləğ), *biçimbil* (həndəsə), *özübəlli* (aksioma), *kandamar* (vena), *dirgi* (heyvan), *sayaz* (rəqəm) və s.[2]

Göründüyü kimi, Azərbaycan ədəbi dilinin 20-ci illər dövrü, zamanın özü kimi təlatümlü və mürəkkəb olmuşdur. Dildə daxili imkanlar əsasında inkişaf meyilləri daha güclü müşahidə olunurdu.

Ədəbi dilimizin lüğət tərkibinin beynəlmiləl sözlərlə zənginləşməsində rus dilinin mütərəqqi təsirini xüsusi qeyd etmək lazım gəlir. Milli ədəbi dilimizin inkişafında dildaxili imkanlar və rus dili alınmaları əsas və həlledici amillər kimi qiymətləndirilməlidir.

20-ci illərdən etibarən Azərbaycan ədəbi dili lüğət tərkibinin inkişafına elmi-şüurlu nəzarət başlayır; hərc-mərcliyin mövcud olduğu dövrdə buna həm ehtiyac var idi, yəni dilin milli ləyaqətinin qorunması bunu tələb edirdi, həm də yeni yaranan ictimai quruluşun özü dilə planlı yanaşmanın tərəfində dururdu. Odur ki, 1922-ci ildə Azərbaycan MİK yanında terminoloji komissiya yaradılır, komissiya terminoloji lüğətlər nəşr etdirir; bu lüğətlərdə onilliyin leksik norma tendensiyası özünü hiss etdirir.

Termin yaradıcılığı sahəsindəki mübahisələr ona gətirib çıxarır ki, həmin terminoloji komissiya buraxılır,

---

[1] *Bax:* Ə.Cavad. Fənni istilahlar. «Maarif və mədəniyyət» jurnalı, 1923, № 3, səh. 12.
[2] Yenə orada, səh. 12-14.

əvəzində Xalq Komissarlığı yanında yeni terminoloji komissiya yaradılır. Görülən təşkilati tədbirlər tezliklə öz bəhrəsini verir, terminologiya sahəsində dilin öz daxili imkanlarına üstünlük verilir.

* * *

Ərəb və fars dillərindən dilimizə uzun müddət ya zorla, ya da könüllü şəkildə külli miqdarda sözlər daxil olmuşdur. Müəyyən boşluğu doldura bilən, dilimizin leksik-semantik və fonetik-qrammatik normalarına uyuşan sözlər o dərəcədə kütləviləşmiş, ümumxalq malına çevrilmişdir ki, onlarsız dilimizi təsəvvür etmək olduqca çətindir.

20-ci illərdə Azərbaycan ədəbi dilində işlədilən ərəb-fars sözləri müxtəlif səciyyəyə malikdir. Onları dil sistemində yerinə, lüğət tərkibinə münasibətinə və işlədilmə imkanlarına görə iki qrupa bölmək olar:

a) əsrlərdən bəri işlənərək dilimizin inkişafında mühüm rol oynayan ərəb-fars mənşəli sözlər. Ədəbi dildə əsrlərdən bəri işlədilən ərəb-fars sözlərinin bir qismi istər fonetik tərkib, istərsə də qrammatik quruluşca o qədər dəyişikliyə uğramışdır ki, onları tələffüz və ifadə xüsusiyyətlərinə görə Azərbaycan dilinin öz sözlərindən fərqləndirmək çətindir. Orfoqrafik və orfoepik qanuna-uyğunluqların təsiri ilə dəyişmiş bu sözlər Azərbaycan ədəbi dili lüğət tərkibinin əsas hissəsinə daxil olmuşdur. Müasir ədəbi dilimizdə də fəal işlənmə xüsusiyyətinə malik olan bu cür ərəb-fars mənşəli sözlərdən 20-ci illərin ədəbi dilində geniş şəkildə istifadə edilmişdir. *Məmnuniyyət, xalq, əlifba, qəbul, mədəni, inkişaf, dövr, vahid, təsərrüfat, qərar, məqsəd, istehsal, əlaqə, cəlb, ziyalı, çəmi, idarə, azad, sərf* və s. belə sözlərdəndir.

20-ci illərə məxsus mətbuat dilində işlədilmiş aşağıdakı cümlələrdə belə sözlərin məna aydınlığı qabarıq şəkildə öz əksini tapmışdır:

Hindustanda çıxan «Əş-Şura» adlı müsəlman qəzetəsi böyük bir məmnuniyyətlə oxucularına bildirmişdir ki, Bakıda olmuş türkoloji qurultayı bütün türk xalqları üçün yeni əlifba qəbul etmişdir (K-15.11.1926); *Bununla qurultay türklərin mədəni inkişafı üçün yeni bir dövr yaratmışdır* (K-11.04.1921); *25 martda Əhmədli kəndində qurulan mitinqdə fəhlə və kəndlilər bir vahid kimi dağılmış olan təsərrüfat işlərini düzgün yoluna qoymaq üçün əhd və yəmin etmələri babında yeni qərar çıxarmışlardır (*K-5.04.1921*); Ali İqtisadi Şuranın qərarı bəyənilmişdir* (K-11.04.1921); *Komitə bu məqsədə varmaq üçün aşağıdakı işləri yapacaqdır* (K-6.06.1921); *Kənd təsərrüfatı öz istehsal əlaqələrini yaradır* (İM-1928, № 11); *Cəmi müsəlman ziyalıları idarələrimizdə yazı-pozu türk dilində getdiyiçün qət ediblər ki, gizlicə alış-veriş etməkdən əl çəkib azad vaxtlarını türk dilini öyrənməyə sərf etsinlər* (K-4.04.1921);

b) ikinci qrup leksik vahidlər müasir ədəbi dilimiz üçün məqbul olmayan, mənaca daha anlaşıqlı qarşılıqları ilə əvəz edilməsi mümkün olan, ərəb və fars dillərindən hazır şəkildə alınıb işlədilən sözlərdən ibarətdir. Bu tipli sözlər 20-ci illərdə daha geniş işlənmişdir. Buraya, əsas etibarilə, aşağıdakı leksik-semantik söz qrupları daxildir.

Sosial-ictimai vəziyyətlə bağlı olanlar. Yeni dövrün ilk onilliyində sosial vəziyyətlə əlaqədar meydana çıxan anlayışları ifadə etmək üçün bir sıra ərəb-fars mənşəli sözlərə müraciət edilmişdir. 20-ci illər ədəbi dilində, xüsusən «Kommunist» və «Gənc işçi» qəzetlərində sosial

vəziyyətlə bağlı *binagüzarlıq, əmələ, füqərayi-kasibə, əfvi-ümumi, əza* kimi söz və ifadələrin işlədilməsi səciyyəvi idi. Yeni ictimai quruluşla bağlı hadisələri əks etdirmək üçün hələlik dilin özündə müvafiq vasitələr müəyyən-ləşdirilmədiyindən ümumxalq səciyyəsi daşımayan belə sözlərdən istifadə edilirdi. Onilliyin sonlarına doğru ədəbi dildə bu cür sözlərin müvafiq şəkildə ümumxalq xarakterli digər vahidlərlə əvəz edilməsinə başlanmışdı. Mənaca daha kütləvi olan qarşılıqlar yalnız Azərbaycan dilinə məxsus sözlərdən yox, ərəb-fars və rus dili alınmaları içərisindən də seçilirdi. Belə ki, 20-ci illər üçün səciyyəvi olan həmin sözlər lüğət tərkibinin sabitləşməsi dövründə *rəhbərlik, fəhlə, proletar, amnistiya, üzv* sözləri ilə əvəz edilmişdir. Bu sözlər ümumişlək xarakterinə görə əvvəlkilərdən üstün olduğu üçün öz işləkliyini hətta müasir dövrə qədər də qoruyub saxlaya bilmişdir.

Sosial-mədəni inkişafla bağlı olanlar. Qeyd etdiyimiz kimi, Sovet hakimiyyətinin ilk illərindən meydana çıxan bir çox ictimai hadisə və prosesləri ifadə etmək üçün bəzi sözlər əvvəlki dövrlərin ədəbi dilində işlənmiş alınma leksik vahidlər içərisindən seçilirdi. 20-ci illərdə sosial-mədəni inkişafla əlaqədar *darülfünun, müdiri-məsul, tarixi-ədəbiyyat, ümure-mülkiyyə* kimi söz və birləşmələr işlədilirdi.

İlk dövrlərdə, inqilabdan əvvəlki ədəbi dilin təsiri nəticəsi kimi, bir sıra izafət birləşmələrindən də sosial-mədəni inkişafla bağlı anlayışları ifadə etmək üçün istifadə olunurdu. Lakin izafət Azərbaycan dilinin fonetik-qrammatik qanunlarına uyğun gəlmədiyindən, normalaşma dövründə müvafiq şəkildə ümumişlək xarakterli söz və söz birləşmələri ilə əvəz olunmuşdur. Belə ki, *müdiri-məsul* əvəzinə *redaktor, tarixi-ədəbiyyat* əvəzinə *ədəbiyyat tarixi,*

ümure-mülkiyyə əvəzinə *mülki işlər* işlədilməyə başlandı. Ərəb-fars dillərinin təsiri ilə dilimizə inqilabdan əvvəlki dövrlərdə daxil olmuş izafətin qarşılığı kimi indi çox vaxt milli söz birləşmələrindən istifadə olunur. Məsələ burasındadır ki, izafətin forması söz birləşməsinə ekvivalent olmaq baxımından qrammatik vahid təsiri bağışlayır. Əslində isə bunlar müəyyən anlayışın, terminoloji məzmunun informasiyavericisi olmaqla leksik vahid hüququndadır və belə vahidlər dildə sintaktik fakt kimi, sintaksisin obyekti kimi təhlil olunmayıb, məhz leksik vahid kimi verilməlidir. Bunlar, sadəcə olaraq, söz yaradıcılığında sintaktik yol kimi izah olunmalıdır.

Təsərrüfat quruculuğunun elmi əsasda inkişafı ilə bağlı olanlar. Oktyabr inqilabından sonra ictimai həyatın başqa sahələrində olduğu kimi, təsərrüfat quruculuğunda, elm və texnikanın inkişafında da bir canlanma var idi. Lakin bu sahəyə aid məfhumların adlandırılmasında hələ də inqilabdan əvvəlki dövr ədəbi dilində işlənmiş olan, tələffüz və ifadə çətinliyi törədən ərəb-fars alınmalarına təsadüf olunurdu. Ədəbi dilin keçid dövründə müasir dildəkindən fərqli olaraq *yol* və *nəqliyyat* əvəzinə *təriq* və *mabər, stansiya* əvəzinə *müvqüf, dənizçi* əvəzinə *bəhriyyun, fabrik* əvəzinə *karxanə, çay* əvəzinə *nəhr, Sakit okean* əvəzinə *Bəhri-mühiti-kəbir* sözləri və tərkiblərinin işlədilməsi səciyyəvi idi. Bu cür faktlara ədəbi dilin keçid dövrü nümunələrini əks etdirən mətbuat dilində tez-tez təsadüf etmək olurdu:

Təriq və mabər komissarlığına xəbər verilmişdir (K-11.04.1921); *Xüsusi bir müvqüf işə başlayacaq. Bəhruyyunlar nümayəndələri şurasının nəşr əfkarıdır* (K-4.04.1921); *Karxanələrdə parça toxunur* (K-16.04.1924); *Bəhri-mühiti kəbir qurultayı olmuşdur*

(K-1.10.1926) və s.

Müasir ədəbi dilimiz üçün səciyyəvi olmayan, sonralar dildə xəlqiləşmə və kütləviləşmə prinsipi ilə əlaqədar asan qarşılıqları ilə əvəz edilən çətin ərəb-fars mənşəli sözlərin işlədilməsinə ilk dövrlərdə yazılmış bədii əsərlərin də dilində təsadüf edilir. Aydın məsələdir ki, inqilabdan əvvəlki ədəbi dilin təsiri sovet dövrü ədəbi dilinin ilk illərində hətta bədii üslubda da mühafizə olunurdu. Bu dövrdə ərəb-fars sözləri bədii əsərlərdə müxtəlif məqsədlərlə işlədilirdi. Bəzən yazıçı obrazı fərdiləşdirmə vasitəsi kimi onun dilində yad, anlaşılmaz ərəb-fars söz və ifadələri işlədir. Digər halda isə, ümumiyyətlə, həmin dövr ədəbi dilinin səciyyəvi xüsusiyyəti kimi, hətta yazıçının öz dilində bu qəbil söz və ifadələrə yer verilir. *Mərəz* (xəstəlik), *nam* (ad), *nas* (qadın), *övrət* (arvad), *təam* (yemək), *əqdəm* (əvvəl) (S. S. Axundovda) və s. sözlər bu qəbildəndir. Bəzən bu sözlərin sinonimləri də işlədilir: *səs//avaz//səda, yemək//təam, yazıq//binəva//fəqir, pis//bəd//fəna* və s. Dilin cilalandığı və normaya düşdüyü dövrdə artıq bədii üslubda da inqilabdan əvvəlki dövr ədəbi dilinin təsiri ilə işlənən ərəb-fars sözləri öz işləklik lüzumunu itirməyə başlayır.

Ədəbi dilin keçid dövründə əvvəlki dövrün ənənəsi ilə işlədilən və çətin başa düşülən ərəb-fars sözləri anlaşıqlılıq səviyyəsinə görə inqilabdan əvvəlki dövrlərdə nəşr olunmuş lüğətlərdə verilən *ictihad, təəllük, hürufi-muxatimə, xabigah, darül-qərar, mücavir, təfsil, sahib-nüfuz, istilal, ahəngi-büləndi, bitəmam, şir-şəkər, dərk-dəzvic* və s. kimi sözlərdən, demək olar ki, prinsipcə fərqlənmirdi[1].

---

[1] *Bax:* С.М.Ганиев. Татарско-русский словарь, Баку, 1903,. Yenə onun: Русско-татарский словарь, Баку, 1909; Самоучитель татарского языка, Баку, 1912.

Buna görə də ədəbi dilin sonrakı inkişaf dövrlərində ümumxalq səciyyəsi daşımayan belə elementlər getdikcə sıradan çıxmağa başladı.

Göründüyü kimi, 20-ci illərdə ədəbi dildə işlənmə hüququnu hələ də saxlayan ərəb-fars alınmaları, əsas etibarilə, terminoloji səciyyə daşıyan sözlərdən ibarətdir. Terminologiyanın inkişafı elmi terminologiyanın müxtəlif xalqlar arasında universallaşma meyili qazanması ilə daha çox bağlı olduğundan, sonrakı dövrlərdə Azərbaycan dilində beynəlxalq səciyyəli terminlərin alınma potensialı da artmışdı. Bu sahədə, SSRİ xalqları dillərindən biri kimi, Azərbaycan dilinə də rus dilinin böyük təsiri olmuşdur. Cəmiyyətin sosial inkişafı və elmi-texniki tərəqqi ilə əlaqədar olan terminlərin çox mühüm bir qismi Azərbaycan dilinə bilavasitə rus dili vasitəsilə daxil olmuşdur. Məlum olduğu üzrə, hələ inqilabdan əvvəlki dövrlərdə Azərbaycan dilində çoxlu miqdarda ərəb-fars mənşəli terminlər işlədilirdi. Lakin belə terminlər yeni ictimai quruluşun tələbləri ilə uyuşmadığı, habelə ifadə tərzi və anlaşma xüsusiyyətləri etibarilə Azərbaycan dilinin real inkişafı zəminindən geri qaldığı üçün öz yerini rus dilindən alınmış müvafiq terminlərə verməli oldu.

Yeni ictimai quruluşla əlaqədar dildə baş verən bu tipli dəyişmələr məhz terminologiyanın inkişafı və təkmilləşməsi amillərindən biri kimi meydana çıxır. Belə ki, terminologiyanın inkişafı elmin, texnikanın, istehsalatın inkişafı ilə paralel surətdə gedir; hər bir yeni anlayış dildə öz əksini tapır[1].

İnsan fəaliyyətinin ən müxtəlif sahələrindəki tərəqqi, irəliləyiş terminlər sisteminin fasiləsiz dəyişməsinə və

[1] M. Ş. Qasımov. Azərbaycan dili terminologiyasının əsasları, Bakı, «Elm» nəşriyyatı, 1973, səh. 40-41.

inkişafına səbəb olur. Vaxtilə Azərbaycan dilçiliyində işlənmiş *təmsil, sövtiyyat, sərf, nəhv* və s. kimi terminlərin köhnələrək *assimilyasiya, fonetika, morfologiya, sintaksis* terminləri ilə əvəz edilməsini buna misal göstərmək olar.

İnqilabdan əvvəlki dövr ədəbi dili üçün xas olan ərəb-fars mənşəli terminlərə inqilabdan sonra nəşr edilmiş lüğət-lərdə də rast gəlmək mümkündür. Məsələn, müəllim Qafur Rəşadın 1921-ci ildə nəşr olunmuş «Təfsirli xalq lüğəti» kitabında həmin dövr ədəbi dilini səciyyələndirən və mənası çətin anlaşılan bir çox terminlər verilmişdir ki, sonralar onlar ədəbi dildə tamamilə işləkliyini itirdi və unuduldu. Onların yerinə rus dilindən müvafiq terminlər qəbul edildi. Qəliz ərəb-fars mənşəli terminlərə 1929-cu ildə çap olunmuş «İmla lüğəti»ndə də rast gəlmək mümkündür. Lüğətdə *amadə, bərğus, bəsalət, cərahət, daül-əzrək, daüssəmək, etidaleyn, əfazil, ənqaz, fəyyaz, hazaristə, həccaz, iltihac, qəbayih, laəqəll, məzrubat, nisfünnəhar, pəri-peykər, seriüzəval, tərəqqüm*[1] və s. kimi çoxlu sözlər vardır ki, bunların, demək olar ki, heç biri nə işləndiyi dövrdə, nə də sonralar ümumxalq malı olmaq hüququ qazana bilməmiş, beləliklə də, ədəbi dilin lüğət tərkibindən çıxmış və sonrakı lüğətlərə daxil edilməmişdir.

Bu cür sözlər Azərbaycan ədəbi dilində ona görə yaşaya bilmədi ki, yeni cəmiyyətin sosial-mədəni inkişafı, millətlərin və mədəniyyətlərin yaxınlaşması zəminində milli dillərin coşğun tərəqqisi elmi-texniki terminlərdə unifikasiyaya yaranmış güclü meyillə ayaqlaşa bilmir, Azərbaycan dilinin fonetik və orfoepik tələblərinə qətiyyən uyğun gəlmirdi.

Çətin anlaşılan, terminoloji məzmunlu ərəb-fars sözlərini 20-ci illərdə ədəbi dilə elmi anlayışları ifadə

---

[1] *Bax:* Azərbaycan ədəbi dili tarixi (sovet dövrü), səh. 72

ənənəsi gətirmişdi; bu terminləri başa düşən, işlədən az idi, elə ki, ədəbi dil sürətlə xalq üçün anlaşıqlı olmağa başlayır, kütlənin ünsiyyətinə xidmət edir, onda çətin anlaşılan, yad lüğəvi vahidlər də sosial-psixoloji nüfuzunu itirir, bunun arxasınca isə onların faktik olaraq dildən çıxması, daha doğrusu, ədəbi işləklikdən qalması baş verir. Bir sıra nümunələr isə satirik dilin materialına çevrilir: məsələn, «Molla Nəsrəddin» jurnalının 20-ci illər nömrələrinin dilində çətin anlaşılan ərəb-fars mənşəli sözlərdən üslubi element kimi istifadə edilir. Elə bu da sözün normalılığını itirməsi deməkdir; o söz, ifadə, obraz satiranın materialına çevrilir ki, artıq ciddi—normativ həyatını başa vurmuşdur.

* * *

20-ci illərdə Azərbaycan ədəbi dilində türk dilinə məxsus bir sıra sözlər də işlənirdi. Ərəb-fars mənşəli sözlər kimi, türk dili elementlərinin Azərbaycan ədəbi dilində işlənməsi də inqilabdan əvvəlki dövr ədəbi dilindən qalmış miras idi. İnqilabdan əvvəlki dövrdə türk ədəbi mühitinin Azərbaycan ziyalılarına təsiri onların dilində xüsusi şəkildə özünü göstərirdi. Bu təsir altında türk dili elementləri bəzi ziyalıların dilində geniş işləklik qazanmışdı. Bu elementlər XX əsrin I rübündə Azərbaycanda nəşr edilmiş «Füyuzat» və «Şəlalə» kimi jurnalların dilində xüsusilə çox işlədilirdi. Demək olar ki, həmin məcmuələrdəki cümlələr də quruluş və ifadə cəhətdən türk dilinə uyğunlaşdırılırdı. Bunlar nə xalis türk, nə də Azərbaycan dili cümlələri idi. Buna görə də Azərbaycan ədəbi dili belə pozuq ifadə vasitələri ilə inkişaf edə bilməzdi. Xalqın başa düşmədiyi, onun ruhuna uyğun gəlməyən dil vasitələri ictimai həyatda da özünə yer tapmaq imkanından məhrum idi. Bu jurnallarda ifadə

edilən cümlələrin çoxu quraşdırma xarakterli konstruksiyalardan ibarət idi.

Bu jurnallar, habelə «həyat», «İrşad» və s. kimi burjua mətbuatı «dil birliyi» şüarı altında Azərbaycan dilinin müstəqilliyini inkar edir, onu osmanlılaşdırmağa can atırdı[1].

Oktyabr inqilabından əvvəlki dövrdə fəaliyyət göstərən inqilabi-demokratik mətbuatın ətrafında toplaşmış görkəmli Azərbaycan ziyalıları – C.Məmmədquluzadə, Ə. Haqvardiyev, M.Ə.Sabir, N.Nərimanov, F.Köçərli, M.S. Ordubadi, Ə.Nəzmi və başqaları belə türkçülük tərəfdarlarına qarşı mübarizə aparırdılar.

Azərbaycan mətbuatında türk dili elementlərinin qalıqlarını 20-ci illərdə də görmək mümkündür. Bu elementləri xaraktercə iki qrupa bölmək olar.

Ümumxalq Azərbaycan dilində leksik və ya semantik paralelləri olan türk dili sözləri. Ümumtürk leksikasına daxil olub, müəyyən tarixi dövrlərdə Azərbaycan dilində işlənmiş bir sıra sözlər sonrakı leksik-semantik diferensiallaşma nəticəsində Azərbaycan ədəbi dilində unudulmuş, türk ədəbi dilində isə daha güclü şəkildə mühafizə olunmuşdur. Onların XX əsrin ilk onilliklərində Azərbaycan ədəbi dilində yenidən işlədilməsi bilavasitə «dil birliyi» siyasətçilərinin məzmunsuz təşəbbüsü ilə bağlı idi. Axı uzun əsrlərdən bəri diferensiallaşaraq bir dildə normalaşan elementləri zorla başqa dilə gətirmək mümkün deyildi. Buna görə də inqilabdan sonrakı ilk onilliyin sonlarına doğru belə sözlərin işlədilmə potensialı zəifləyir və getdikcə sönməyə başlayır. «Dil birliyi» siyasətçilərinin tarixi-ənənəvi prinsip üzrə işlətdiyi və 20-ci illər Azər-

---

[1] *Bax:* Ə. Aslanov. Lenin milli siyasəti və Azərbaycan dilinin yeni mərhələsi. «Bilik» cəmiyyətinin nəşri, Bakı, 1980, səh. 16.

baycan ədəbi dilində hələ də qalmaqda davam edən türk dili elementləri, başlıca olaraq, modal sözlərdən, bəzi isim, sifət, zərf, əvəzlik və fellərdən ibarət idi. Bir daha qeyd etməliyik ki, həmin elementlərin içərisində modal sözlər daha geniş yer tuturdu. Modal sözlərə artıq yer verilməsi, xüsusilə, türkçülük təsirinə uymuş ziyalıların danışıq dilində onların çox işlənməsi ilə əlaqədar idi. Beləliklə, dil siyasətçiləri bu sözlərin ədəbi dildən xalq dilinə keçəcəyinə və ümumxalq səciyyəsi daşıyacağına daha çox ümid bəsləyirdilər.

20-ci illər ədəbi dilində türk dilinə məxsus – *pək, əvət, həp, işdə* kimi modal sözlər və ədatlar işlədilməkdə davam edirdi. Bunlar Azərbaycan dili üçün səciyyəvi olan *ən, bəli, bütün, budur* kimi sözlərin yerini tuturdu.

Dünyanın pək böyük bir insanı vəfat ediyordu (İM-1926, № 1); *Əvət, biz bunları biliyoruz* (Kİ-2.06.1923); *Həp xain pəncəli mollalar və papaslardır* (Kİ-2.U1.1929); *İştə dünyayı qaplayan bir müti var...* (Kİ-2.04.1923); *İştə bunlar füqəreyi-kasibənin xeyrinədir* (MM-1926, № 2-3).

Bu cür sözlər ümumxalq dilində işlənmə imkanı qazana bilmədiyindən normalaşma dövründə ədəbi dildəki mövqeyini itirməyə başladı. Bunların yerinə ümumxalq səciyyəli müvafiq sözlərin işlədilməsi ədəbi dilin cilalanmasında və onun vahid ünsiyyət vasitəsi kimi inkişafında mühüm rol oynadı.

20-ci illər Azərbaycan ədəbi dilində işlədilən türk dilinə məxsus isimlər, başlıca olaraq, türk dilləri üçün qədim dövrlərdən ortaq olan sözlərdən ibarətdir. Vaxtilə bu cür sözlər türk dillərində ümumişlək vahidlər olmuşdur. Türk ədəbi dili leksikası üçün normalaşmış belə vahidlərin Azərbaycan dilində yenidən işlədilmə cəhdi qədim sözlərin

yenidən həyata qaytarılması istəyinin nəticəsi idi. Halbuki həmin sözlərin Azərbaycan ədəbi dilinə daxil edildiyi dövrlərdə onların qarşılığı olan daha anlaşıqlı sözlərimiz var idi. Təsadüfi deyildir ki, çox keçmədən həmin sözlər Azərbaycan ədəbi dili üçün normaya çevrilə bilməyən türk dili alınmalarını yazı dilində də əvəz etməyə başladı. Türk dili üçün səciyyəvi olan belə sözlər, əsas etibarilə, ümumi isimlərdən ibarət idi. Azərbaycan dilində bir qrup isimlər diferensiallaşaraq ümumtürk leksikasından ayrılmış olsa da, keçid dövrü ədəbi dilində: *kişi* əvəzinə *erkək, kənd* əvəzinə *köy* tipli sözlər işlədilirdi. Məsələn:

Erkəklərin yumruğu və təpiyi sizləri incitdi (Kİ-4.11.1929); *Köylərdə özəklər təşkil etməyə başladı* (Kİ-4.11.1929) və s.

Şübhəsiz, həmin dövrdə də ümumxalq dilində *erkək* sözü *kişi* mənasında başa düşülmürdü və *göy* sözü işləklikdən qalmışdı. Qədim türk dillərinə məxsus sözləri yenidən canlandırmaq və terminləri «təmiz türk dilindən» almaq haqqında həmin dövrdə mətbuatda hökm sürən fikir də yanlış bir fikir idi. Azərbaycan dilində terminlər yaradılarkən qədim türk dillərinə məxsus sözlərə qayıtmaq, yaxud da bu dillərə aid arxaik sözləri diriltmək bir neçə yüz il ərzində keçirdiyimiz tarixi inkar etmək demək idi.

Onu da qeyd etmək lazımdır ki, həmin illərdə Azərbaycan dilini ərəb və fars dillərinə məxsus sözlərdən təmizləmək, bu sözləri başqa sözlərlə əvəz etmək məsələsi irəli sürülərkən bəziləri termin yaradıcılığında məhz qədim türk dillərinə qayıtmağı təklif edirdilər. Məsələn, F.Ağazadə «Maarif işçisi» jurnalında dərc etdirdiyi «Türkcənin zənginləşdirilməsi yolları» adlı məqaləsində yazırdı: «…Yüzlərcə, bəlkə minlərcə əcnəbi kəlmələr var ki, onları türkləşdirmək (azərbaycancalaşdırmaq – *N. X.)* mümkün

olmur. Mümkün olsa da, o, dadsız-duzsuz kəlmələrə qarşı türkün (azərbaycanlının – *N. X.)* ruhunda heç bir məhəbbət duyulmur. Belə kəlmələrin türkləşdirilməsi (azərbaycan-calaşdırılması – *N.X.)* üsulları faydasız olduğundan, burada başqa tədbirlər görülməlidir. Məsələn, türkləşə bilməyən əcnəbi kəlmələrin əski türkcələri varsa, həmin əski kəlmələri bulub canlandırmalı; məsələn, «sərya», «zəhrə», «dübbi-əkbər», «səttarə», «məstərə», «tərcüman», «səndə-liyyə» kimi kəlmələrin əvəzinə «ülkər», «çolpan» (çoban ulduzu), «yeddigər» (yeddi ulduz), «cızğac», «köçürgəc», «popurğac» kimi kəlmələri diriltməlidir.

İkincisi, hərgah türkləşə bilməyən kəlmələrin əski türkçələri yoxdursa, başqa türk şivələrindən qarşılıqlarını almalı; məsələn, *zərbül-məsəl* yerinə cığataycanın «hövcək» kəlməsi götürülürsə, az bir zamandan sonra ərəbin bu uydurma tərkibinə qələbə çalar. Həmçinin türkləşə bilməyən «əfsanə» kəlməsinin yerinə altaycanın «çörnək» kəlməsi də dilimizdə tezcə qərarlaşa bilər.

Hər ərəb kəlməsinə «etmək» felini qoşmaqla «müharibə etmək», «təsadüf etmək» kimi minlərcə uydurma tərkiblər yaradılmışdır. Bu isə türk (Azərbaycan – *N. X.)* dilini çox çirkin hallara salır. Halbuki cığataycanın «çəriləşmək» feli «müharibə etmək» tərkibinin eynidir. «Çərik» cığatayca «əskər» deməkdir»[1].

Beləliklə, 1920-1930-cu illərdə, xüsusən, mətbuatda, lüğətlərdə həmin prinsipin tətbiqi nəticəsində vaxtilə türk dillərində ümumişlək vahidlər olmuş «çəri», «yenicəri», «qovğa», «cəng», «bənək», «çolpan», «çörnək», «hizgi» (tarix mənasında), «yozumsu» («məcazi» əvəzinə) sözlə-rindən istifadə edilirdi.

---

[1] F.Ağazadə. Türkcəni zənginləşdirilmək yolları. «Maarif işçisi»; 1926, № 8-9, səh. 14-15.

İnqilabdan sonrakı ilk onillikdə Azərbaycan ədəbi dilində türk dili üçün xarakterik olan *əski, sıkı, yovuq* kimi sifətlərin işlədilməsinə də təsadüf olunurdu. Məsələn:

Rusiya xalqı düçar olduğu bu böyük müharibə illərinin ağırlığı altında əski həyat, əski üsul məişəti qaib etdiyi sırada iki həyatı vicuda gətirmək deyil, onu xəyalinə gətirməyi dəxi imkan bulamıyordu (Kİ-4.9.1929); *Bir-biri ilə sıkı surətdə mərbut olan bir haldır* (K-7.11.1927); *İşin axırına yovuq yoldaş Nərimanov təklif etdi ki, bütün işə gələnləri siyahıya dutsunlar* (K-4.04.1921) və s.

Türk dilinə məxsus bu sifətlər Azərbaycan dilində uzun müddətdən bəri istifadə olunan və ümumxalq səciyyəsi daşıyan ərəb-fars mənşəli *köhnə, möhkəm,* habelə Azərbaycan dilinin özünəməxsus *yaxın* sözünün yerində işlədildiyi üçün sonralar dilin lüğət tərkibində normalaşa bilməmişdir.

Sovet dövrü Azərbaycan ədəbi dilinin ilk onilliyində türk dilinə məxsus bir sıra əvəzliklərin də işlədilməsinə rast gəlmək olur. Bunlar, əsas etibarilə aşağıdakılardan ibarət-dir:

Sual əvəzlikləri. 20-ci illər Azərbaycan ədəbi dilində türk dilinə məxsus *nerə, hanki, kaç* kimi sual əvəzliklərinə daha tez-tez təsadüf olunur:

Azərbaycana nerədən və nə zaman gəldikləri bəlli deyildir (MM-1926, № 2-9); *Hanki mövhumat sözlərlə damağımızı ləkəliyorlar* (Kİ-2.06.1926); *Bu kiçik məqalədə qurultayın yalnız bəzi qərarları üzərində bir kaç sözlə durmaq istiyoruz* (MM-1926, № 2-3) və s.

Bu cümlələrdə işlənmiş *nerə, hanki, kaç* sözlərinin əvəzinə Azərbaycan dilində *hara, hansı, neçə* kimi para-lellər mövcud idi və sonrakı dövrlərdə bunlar mənaca

müvafiq türk paralellərini sıxışdırıb sıradan çıxartdı.

Təyin və qeyri-müəyyənlik əvəzlikləri. Bu əvəzliklər içərisində türk dilinə məxsus *kəndi* və *həpsi* sözlərinə daha çox rast gəlmək olur. Məsələn:

Axırda zülmdən təngə gəlmiş füqərayi-kasibənin səbr kasası dolub kapital üsul-idarəsini kəndi müdhiş dalğaları yuvarladıb dağıtdı (K-6.04.1921); *Fəqət onlar kəndi ciblərini güdərək dad-fəryad ediyorlar* (Kİ-2.06.1923); *Neyləyir onlar alalar çoxlu pul. Etmişəm hepsin özümə sanki qul* (Kİ-4.11. 1923).

Sonralar bunların yerinə Azərbaycan dilinin özünəməxsus *öz* və *hamısı* əvəzlikləri sabitləşmişdir.

İşarə əvəzlikləri. İlk mərhələdə Azərbaycan ədəbi dilində türk dilinə məxsus bir sıra işarə əvəzlikləri də işlədilirdi. Onlar əsas etibarilə *şöylə, şu, bəylə* kimi sözlərdən ibarət idi. Məsələn:

Şöylə ki, birinci dərəcəli məktəblərdə məhəlli iş nə əsas tutulacaqdır (MM-1926, № 2-3); *Bu qərarlar arasında ən mühümləri şunlardır* (MM-1926, № 2-9, səh. 4); *Bakı komitəsinin Qala-Maştağa dairə konfransı tərəfindən böylə bir təbrik məktubu gəlmişdir* (Kİ-5.5.1923); *Bununla Azərbaycan İctimai Şura Cümhuriyyətinin maliyyə komissarlığı elan ediyor ki, şu ayın 11-dən Azərbaycan İctimai Şura Cümhuriyyətinin beş min manat dəyərində parçaları intişarə başlayır* (K-12.06.1921).

Ədəbi dilin sonrakı dövrlərində bu əvəzliklər də sıradan çıxmış, onların yerinə Azərbaycan dilinə məxsus *elə, belə, bu* əvəzlikləri sabitləşmişdir.

20-ci illər Azərbaycan ədəbi dilində türk dilinə məxsus *şimdi, iləri* kimi zərflər də işlədilirdi. Məsələn:

Ümumiyyətlə, türkoloji haqqında yazılan üç böyük məruzə şimdiyə qədər yapılan tədqiqatın nə ümumi və

müfəssəl bir türk tarixi və nə də ümumi və müqayisəli türk sərfi və lüğəti yapmağa kafi olmadığını meydana çıxardı (MM-1926, № 2-3); *Şərqə doğru gediyor deyib: i l ə r i. Yol veriniz, gəlir qırmızı əskər!* (K-12.04.1921).

Bu misallarda verilən zərflər sonrakı dövrlərdə Azərbaycan dilinə məxsus *indi, irəli* kimi sözlərlə əvəz olunmuşdur.

İnqilabdan sonrakı ilk onillikdə Azərbaycan ədəbi dilində türk dili üçün xarakter olan bəzi fellərə də rast gəlmək olur. Doğrudur, bu fellər genetik cəhətdən, ümumiyyətlə, türk dilləri, o cümlədən də Azərbaycan dili üçün ümumi olan vahidlərdən ibarətdir. Lakin leksik-semantik diferensiallaşma nəticəsində hər bir dilin lüğət tərkibində bu və ya digər fellər daha fəal mövqe tutmuşdur. Bir müddət sovet dövrü Azərbaycan ədəbi dilində işlədilmiş *bulmaq, çınlamaq, qullanmaq* kimi sözlər Azərbaycan dilində tarixən fəallığını itirmiş sözlərdir. 20-ci illər Azərbaycan ədəbi dilində təsadüf olunan belə sözlər sonralar öz yerini ümumxalq dilində geniş işlədilən *tapmaq, çinlənmək, işlənmək* kimi vahidlərə verdi:

Dilimizin anarşı qarşılıqdan qurtarması üçün bütün vasitələr q u l l a n m ı ş d ı r (MM-1926, № 2-3); *Onuncu əsrdə nihayət b u l m u ş d u r* (MM-1926, № 2-3); *Qulağımda ç ı n l a y ı r ...! polad kimi* (R. Rza).

Türk dili vasitəsilə alınıb işlədilən Avropa mənşəli sözlər. 20-ci illər Azərbaycan ədəbi dilində, əvvəlki dövrlərin qalıqlarından biri kimi, türk dilindən keçən Avropa alınmalarına da təsadüf olunur[1]. Bu cür alınmalar, başlıca olaraq, ictimai-siyasi və elmi-mədəni məzmunlu sözlərdən ibarət idi. Azərbaycan dilində bu cür sözlərin

[1] *Bax:* M.Ş.Qasımov. Azərbaycan dili terminologiyasının əsasları. Doktorluq dissertasiyası, Bakı, 1973, səh. 190.

böyük qisminin türk dilindəki kimi işlədilməsi, heç şübhəsiz, inqilabdan əvvəlki dövrün türkçülük təsiri hesab edilirdir. Məsələn:

İngiltərə parlamanında münaqişə baş vermişdir (K-3.11.1926); *Burada Orupa-rus alimlərinin türk-şərq maarifçiləri ilə əl-ələ çalışdığını görməmək mümkün deyildir* (K-3.11.1926); *Çin dəmir yolunda Çan-Lan Tun stasionu dairəsində yer tərpənmişdir* (K-1.10.1926); *Azərbaycan inqilabi hərəkatından türk və rus dillərində teatro əsərləri müsabiqəsi keçiriləcək* (K-5.04.1921); *Bu paraxodun uzunluğu 148 metro olub, həcmi isə 15 bin tonajdır* (K-5.04.1929); *Tiyatronun Bakıdakı qastrolları başa çatmışdır* (K-26.04.1928); *Bütün keçmişləri, hətta beş yaşından bəri başına nələr gəlmişdisə, hamısı birər sinema lentası kimi gözündən gəlib keçirdi. Vapor Bakı əskələsinə yanaşdıqca Həmid göyərtədə bir sevinclə cocuqluğunu keçirdiyi altun yurdu Bakıya baxırdı* (C.Cabbarlı).

20-ci illər Azərbaycan ədəbi dilində müvəqqəti işlədilən bu cür sözlər müasir türk dilində geniş işlədilməkdədir[1]. Qeyd etməliyik ki, o dövrdə türk dili vasitəsilə alınmış Avropa dillərinə məxsus sözlərin bəziləri Azərbaycan dilində işlədilərkən müəyyən dərəcədə dəyiş-dirilmişdir. Məsələn, türk dilində *parlament* şəklində işlədilən *parlament* sözü Azərbaycan dilində *parlaman; istasyon* şəklində işlədilən *stansiya* sözü *stasiyon* və s. şəklində dəyişdirilmişdir. Türk dilində *parlament* sözü ilə əlaqədar *parlamento binası, parlamento üyələri (parlament* üzvləri), *istasyon* sözü ilə əlaqədar *yük istasyonu, dəmir-yolu istasyonu* və s. ifadələr işlədilirdi. 20-ci illər

[1] *Bax: Русско-турецкий словарь.* М., 1972, стр. 72, 690, 560, 894, 901; Türkcə-rusca lüğət, M., 1977, səh. 622, 893, 779 və s

Azərbaycan ədəbi dilində işlədilən bu tipli sözlərin bəzilərində dəyişiklik çox cüzidir. Məsələn, türk dilində *Arupa* şəklində olan *Avropa* sözü Azərbaycan dilində *Orupa, vapur* sözü *vapor* şəklində işlədilmişdir. *Oşema, kontrol, tiyatro, metro* kimi sözlər isə, demək olar ki, hər iki dildə eyni şəkildə olmuşdur.

20-ci illərin təcrübəsi göstərdi ki, türk dilləri arasındakı əlaqələr onlardan birinin sıxışdırılıb, digərinin «ümumi ədəbi dil» kimi təqdimi şəklində olmamalıdır; əgər Azərbaycan dilində *kənd* sözü varsa, bunun əvəzində *köy* işlədilməsini qanuniləşdirmək qeyri-demokratik cəhd olardı: amma həmin təcrübə onu da göstərdi ki, mütləq söz almaq lazım gəlirsə, həmin sözü imkan daxilində qohum türk dillərindən almaq daha uğurlu yoldur, çünki bu halda alınmış sözün leksik-semantik, eləcə də leksik-qrammatik həcmi asanlıqla uyğun gəlir. Həmin söz söz yaradıcılığı prosesində aktiv olur.

20-ci illər üçün bir xarakterik cəhət də türk sözlərinə üstünlük verənlərin eyni zamanda purizmlə bağlı larıdır – dil mübahisələri bunları eyni cəbhədə birləşdirmişdi.

20-ci illərdə ədəbiyyata gələn gənclik S.Vurğun, S. Rüstəm, M.Müşfiq və b. əsərlərinin dilində türk sözlərini (yaxud türk dilinə keçən): *aşk, bəkləmək, tiren, cınğıraq, hazla, kurnaz, hasta, nerdə, küçük, bıqmaq, taqım, sıcaq, bəkçi, türkü, süslü, yavru* və s. gen-bol işlədirdilər. Bu ənənə 30-cu illərin ortalarına kimi davam edir.

* * *

XIX əsrin əvvəllərindən Azərbaycanın Rusiyanın tərkibinə daxil olması ilə əlaqədar rus dilindən söz alınması prosesi güclənmişdi. Bu zaman alınan sözlər əsas etibarilə

ictimai-siyasi, habelə elmi-texniki tərəqqiyə aid terminoloji xarakterli sözlər idi.

20-ci illərdə də Azərbaycan ədəbi dilində rus dilindən alınmış sözlər mühüm yer tuturdu.

Azərbaycanda inqilabdan sonra rus dilindən alınan sözlərin böyük əksəriyyəti dövrün aktual hadisələrini əks etdirən ictimai-siyasi məzmunlu dil vahidləri idi. Elmi-texniki tərəqqiyə aid beynəlmiləl sözlərin alınmasına inqilabdan əvvəlki dövrə nisbətən, 20-ci illərdən daha güclü ehtiyac yaranmışdı.

Birinci Türkoloji qurultayın termin yaradıcılığı sahəsində çox böyük rolu oldu. Məhz həmin qurultaydan sonrakı illərdə çap olunmuş lüğətlərdə rus dilindən alınmış, dövrün sosial-siyasi hadisələrini əks etdirən bir çox terminoloji vahidlər öz əksini tapmışdır. 1929-cu ildə V. Xuluflu tərəfindən nəşr edilən «İmla lüğəti»ndə verilmiş *bolşevik, bolşevizm, demonstrasiya, konstruksiya, kontr-revolyusiya, kooperasiya, kooperativ, koordinasiya, pioner, proletar, sovet, sovetizasiya, sosial, sosializm, revolyusiya, revolyusioner*[1] və s. kimi sözlər buna misal ola bilər.

Azərbaycan terminologiyasının və termin nəzəriyyəsinin inkişafında o dövrün mətbuatında dərc olunan əsərlər böyük əhəmiyyətə malik idi. Belə əsərlərdə əsas etibarilə terminlərin rus dilindən alınması məsələləri şərh olunur, alınma terminlərin quraşdırma və uydurmalardan fərqli olaraq dildə özünə möhkəm yer qazana biləcəyi, perspektivli inkişaf yolu barədə mülahizələr söylənilirdi[2].

---

[1] İmla lüğəti. Bakı, 1929; habelə bax: K.İsmayılova. Sovet dövrü Azərbaycan ədəbi dili lüğət tərkibinin vəziyyəti və inkişafı. «Azərbaycan ədəbi dili tarixi» (sovet dövrü), III hissə, Bakı, 1982, səh. 65.

[2] *Bax:* «Azərbaycanı öyrənmə yolu» jurnalı, 1928, № 1, səh, 15-20, 21; 1930, № 3, səh. 3-5, 6-13 və s.

Rus dilindən alınan terminlər hələ o zaman buraxılmış ikidilli lüğətlərdə də öz əksini tapırdı[1].

Bununla belə, həmin dövrdə puristlər rus və Avropa alınmalarının işlədilməsinə qarşı mübarizə aparırdılar. Lakin geniş xalq kütlələrinin dilində işlədilən rus dili[2] alınmaları ədəbi dilə daha tez daxil olmaq imkanı qazanırdı. Sosial-iqtisadi dəyişiklik və inkişafla bağlı olan belə terminlərin qondarma sözlərə nisbətən yaşamaq üçün daha real imkanları var idi. Rus dili alınmalarının Azər-baycan ədəbi dilində intensiv işlənə bilməsi ilə əlaqədar, hətta belə bir ifrat meyil yaranmışdı ki, dildəki ərəb-fars sözlərini də əvəz etmək lazımdır. A.Məhərrəmov bu müna-sibətlə yazır: «Puristlərin və pantürkistlərin bu mürtəce meyillərinə qarşı yönəldilmiş bir sıra qəzet məqalələrində dilimizdə rus və beynəlxalq terminlərin mövcud olması zərurəti göstərilirdi. Bu cərəyanın nümayəndələri ərəb və fars terminlərini rus və beynəlxalq sözlərlə əvəz etməyi təklif edirdilər»[3]. Hələ inqilabdan əvvəlki illərdə rus dilindən alınan sözlərin Azərbaycan ədəbi dilinin inkişafındakı mütərəqqi rolu ilə əlaqədar T.Hacıyev göstərir ki, bu sözlərin içərisində nəinki alındığı dövr üçün, hətta bugünkü ictimai həyat üçün də zəruri olan *proletar, sosializm, bolşevik, universitet, demokrat, baykot, avtomobil, pasport* və s. terminlər var idi. Müasir ədəbi dildə işlənməyən *часть, начальник, инженер, ушгола, экономика, политика* kimi sözlərin o zamankı ədəbi dilə daxil edilməsi başlıca olaraq ərəb-fars

---

[1] *Bax.* Русско-турецкий словарь. Т. I, Баку, 1928.

[2] T.Hacıyev. XX əsrin əvvəllərində Azərbaycan ədəbi dili. Bakı, “Maarif”, 1977, səh.138-139.

[3] А.М.Магеррамов. Вопросы языка (алфавита, орфографии, терминологии и грамматики) в азербайджанской советской печати, АКД, Баку, 1950, стр. 25.

sözlərinin əvəz edilməsi meyili ilə bağlı idi[1].

20-ci illərdə Azərbaycan ədəbi dilində rus dilindən və rus dili vasitəsilə Avropa dillərindən alınıb işlədilmiş sözləri üç qrupa ayırmaq olar:

Azərbaycan dilinin lüğət tərkibində sonralar sabitləşən terminoloji səciyyəli sözlər. Bu qrupa daxil olan sözlər müasir ədəbi dilimizdə indi də fəal şəkildə işlədilməkdədir. Bu sözlərin bir qismi fonetik tərkibcə, əsasən, sabit qalmış, cüzi dəyişikliyə uğramışdır. Belə sözlərə *hidrostansiya, kooperativ, internasional, plenum, teleqraf, texnika, komitə, büro* və s. misal göstərmək olar. 20-ci illərdə nəşr olunan «İnqilab və mədəniyyət» jurnalında, «Kommunist», «Gənc işçi», «Kəndli qəzetəsi» kimi qəzetlərdə işlədilmiş bu sözlər sonrakı dövrlərdə, xüsusilə ədəbi dilin inkişafının ikinci mərhələsində tam mühafizə olunmuşdur. Cəmiyyətin inkişafı ilə bağlı vacib anlayışları əks etdirən bu sözlər semantik cəhətdən də mühafizə olunmuşdur. Üstəlik, bu sözlərin ictimai mənaları cəmiyyətin sosial inkişafı ilə əlaqədar genişlənməyə başlamışdır.

20-ci illərdə işlənərək tədricən sabitləşmə imkanı qazanmış terminoloji vahidlərin bir qismində müəyyən dəyişmə baş verdiyi müşahidə olunur. Belə sözlərdən *sistema, kommunizma, proletariya* və s. xüsusilə səciyyəvidir. Ədəbi dilin sonrakı inkişaf mərhələsində belə sözlər də semantik cəhətdən mühafizə olunmuş, onların da ictimai məzmunu genişlənmişdir. Bu cür sözlərdəki dəyişiklik isə, əsasən, orfoqrafik səciyyəlidir. Bu sözlərin sonundakı *-a, -ya* elementləri Azərbaycan dili sözlərinin quruluş tələbləri ilə uyuşmadığına görə sonralar islah

[1] T.Hacıyev. XX əsrin əvvəllərində Azərbaycan ədəbi dili. Bakı, «Maarif», 1977, səh. 138-139.

edilmiş və onlar *sistem, kommunizm, proletar* şəklində sabitləşmişdir.

Sonrakı dövrlərdə əvəz olunan sözlər. Sovet hakimiyyətinin ilk onilliyində Azərbaycan ədəbi dilində rus dilindən alınmış bir sıra sözlər də mövcud idi ki, sonralar həmin sözlər ədəbi dil səciyyəsi qazana bilmədiyindən müvafiq qarşılıqları ilə əvəz edilmişdir. Bu cür sözlər vaxtilə termin yaradıcılığı və ərəb-fars elementlərinin islahı ilə əlaqədar rus dilindən alınmışdı. Bu qrupa daxil olan sözlər sovet dövrü Azərbaycan ədəbi dilinin başlanğıc mərhələsində mətbuat dili ilə yanaşı, hətta bədii dil nümunələrində də işlədilirdi. Azərbaycan ədəbi dilində həmin dövrdə işlənmiş və sonralar əvəz olunmuş *sport, atçot, krujok, doklad, vıstavka, beloqvardiya, klas, provokasiya, flot, paroxod, meqralyoz, adres, marionetka, stipendiya* və s. sözlər bu qəbildən idi.

Bu sözlər sonralar əsasən dilimizdə ümumişlək olan ərəb-fars mənşəli sözlərlə əvəz olundu. Rus dilindən alınmış bu sözlərin əksəriyyətinin ərəb-fars mənşəli qarşılıqları ilə əvəz olunmasının əsas səbəbi ondan ibarətdir ki, həmin sözlər (ərəb-fars mənşəlilər) dilimizdə işlənmiş və daha əvvəllər xalqın malı olmuşdu, ümumxalq səciyyəsi qazanmışdı. Ədəbi dildə sabitləşmiş ərəb-fars sözlərini zorla rus dilindən alınmalarla əvəz etmək meyili özünü doğrultmadığından yenidən müvafiq qarşılıqları ilə əvəz edildi: *sport* sözü *idman, atçot* sözü *hesabat, student* sözü *tələbə, krujok* sözü *dərnək, doklad* sözü *məruzə, klas* sözü *dərəcə, provokasiya* sözü *təxribat, adres* sözü *ünvan, stipendiya* sözü *təqaüd* sözü ilə əvəz olundu. Müasir dilimizdə də ərəb-fars mənşəli həmin sözlər ümumxalq səciyyəli vahidlər kimi işlədilməkdədir.

Sovet dövrü Azərbaycan ədəbi dilinin ilk mərhə-

ləsində rus dilindən alınmış sözlərin bir qismi sonralar xalis Azərbaycan dili sözləri ilə əvəz olunmuşdur. Belə əvəzolunmada Azərbaycan dilinə məxsus ümumişlək və ya terminoloji sözlərdən istifadə olunurdu. Məsələn, *flot* sözünü əvəz edən *donanma, paroxod* sözünü əvəz edən *gəmi* belə sözlərdəndir. *Vıstavka* yerinə *sərgi, marionetka* yerinə *oyuncaq* sözlər semantik kalkalardan ibarətdir. Ayrılıqda ümumişlək xarakterə malik olan bu sözlər həm də terminoloji səciyyə daşıyır. *Beloqvardiya* sözündə də sonralar birinci komponent ümumişlək *ağ* sözü ilə əvəz olunmuşdu və rus dilində olduğu kimi, bizim dildə də rəng bildirən «ağ» sözü rəmzi xarakter daşıyırdı. *Ağqvardiya* sözü indi artıq köhnəlmişdir və yalnız tarixizm kimi işlədilir.

Rus dilindən qrammatik əlamətlərlə Azərbaycan dilinə daxil olan sözlər. İlk mərhələdə rus dilindən alınmaların bir qismi Azərbaycan dilinə öz qrammatik əlamətləri ilə birlikdə daxil olurdu. Bu da alınmalar üçün qəti bir prinsip müəyyənləşdirilməməsi və onların işlədilməsində vahid bir qaydanın olmaması ilə bağlı idi. Həmin dövrdə rus dilinə məxsus qrammatik formanı Azərbaycan dilində də mühafizə edən aşağıdakı faktları göstərmək olar

Kəndlilər, sənətkarlar və orada duran промежуточный siniflərin simasında da öz nümayəndələrini bulan «keçid» səciyyəli siniflər görürük (İM-1928, № 11-12); *Türk dillərinin morfoloqiçeski şəkli xüsusiyyətlərini də göz önündə tutmaq tövsiyə edilyor* (MM-1926, № 2-3); *Şərq və simfoniçeski musiqi dəstələri dəvət olunur* (K-12.04.1921) və s.

Hələ XX əsrin əvvəllərində mətbuat dilində bu tipli *mestni qomanda, aqrujnoy ştab, injenernı upravleniya,*

Aleksandrovski, rus-müsəlmanski kimi sözlər işlədilirdi[1].

Rus dilinə məxsus elementlərin sovet dövrü Azərbaycan ədəbi dilində bu cür işlədilməsi əslində hələ XIX əsrdən başlayaraq davam edən proses idi. XIX əsrdə Azərbaycan dilinə daxil olan terminoloji leksik vahidlərlə birlikdə, qrammatik əlamətlərini mühafizə edən sözlər də işlədilirdi və bunlar həm mətbuat dilində, həm də bədii dildə özünə yer tapırdı. Əsasən, «Əkinçi» qəzeti ilə başlanan bu ənənə XX əsrin əvvəllərində davam edir və hətta bədii ədəbiyyatın dilinə yol tapır. «Əkinçi»nin dilində işlədilən *mestni uyezd, okrujnoy sud, zakaznoy kağız,* N. Nərimanov, C.Məmmədquluzadə və Ə.Haqverdiyev kimi yazıçıların dilində rast gəlinən *naçalnik, sudun predsedateli, akoşka, şkol, zakon, mejevoy sud, uyezdnoy smotritel* kimi sözlər buna misal ola bilər.

20-ci illərdə bədii əsərlərin dilində ən müxtəlif sahələrə aid rus alınmaları işlədilirdi. Məsələn, məişət leksikası üzrə: *stakan, çamadan, kepka* və s; mədəni-maarif sahəsində: *qəzet, şkola, student, jurnal, klas, konsert* və s; elmi-texniki sahə üzrə *teleqraf, teleqram, ekonomiya, enerji, texnika, elektrik, fabrik* və s.

Göründüyü kimi, bu sözlərin bir qismi sonradan aradan çıxaraq, öz yerini daha müvafiq sözlərə vermişsə, digər qismi olduğu kimi müasir dövrümüzə qədər yaşamış, bəziləri isə dilimizin lüğət tərkibinə daxil olaraq cüzi struktur dəyişməyə məruz qalmışdır.

20-ci illərdə rus sözləri Azərbaycan ədəbi dilinə müxtəlif yollarla gəlmişdi; bunların əsas qismi Rusiya ilə bağlı olan ziyalılar vasitəsilə yayılırdı (buraya həm inqilabdan əvvəlki, həm də sonrakı dövr daxildir), bir qismi

---

[1] *Bax:* T.Hacıyev. XX əsrin əvvəllərində Azərbaycan ədəbi dili, Bakı, «Maarif» nəşriyyatı, 1977, səh. 140.

isə təsərrüfat, ticarət, məişət əlaqələri əsasında xalq dili vasitəsilə mətbuata, ədəbi-bədii dilə yol tapırdı. Hər iki proses 20-ci illərin sonlarından etibarən tədricən kompensasiya olunur.

20-ci illər Azərbaycan ədəbi dilinin ümumi vəziyyəti və bir sıra mənzərəsi nəzərdən keçirilərkən sözlərin köhnəlmə prosesi də nəzərə alınmalıdır. Köhnəlmiş sözlərin mövcudluğu məsələsi əslində mürəkkəb məsələdir; bu dövrdə bir tərəfdən hələ XVI-XVII əsrlərdən etibarən arxaikləşmiş leksik vahidlərin qeyri-ardıcıl olsa da işləkliyi diqqəti çəkir, digər tərəfdən inqilabın xalqın həyatına daha kütləvi şəkildə daxil olması ilə bağlı olaraq köhnə dünyanın anlayışları təcrid edilir və köhnəlmiş sözlərin ikinci «nəsli» meydana çıxır. Arxaizmlər, tarixizmlər ədəbi dilin lüğət tərkibində xüsusi stilistik rol oynadıqlarına görə, onların normativ ünsiyyətdən çıxması da, stilistik amil kimi dilə yenidən qayıdışı da «lüğət tərkibinin inkişafı» anlayışında ehtiva edilir, – arxaikləşmənin dialektikası bu cür baş verir və bu hal sonrakı mərhələlərdə də davam edir.

2.

30-cu illər Azərbaycan ədəbi dili lüğət tərkibinin inkişafının əsl canlanma dövrü kimi qiymətləndirilə bilər. Bu dövrdə artıq lüzumsuz ərəb-fars, türk elementlərinin aradan çıxmasında daha güclü bir meyil müşahidə olunur, ictimai həyatda baş verən çox böyük siyasi hadisə və irəliləyişlərlə əlaqədar Azərbaycan dilinin daxili imkanları hesabına yeni söz və söz birləşmələri meydana gəlir. Ədəbi dilin lüğət tərkibinin zənginləşməsində rus dilindən alınmış sözlərin rolu getdikcə artır. Bununla yanaşı, zəif olsa da,

hələlik ədəbi dildə bəzi lüzumsuz ərəb-fars mənşəli elementlərə təsadüf edilir. Yeni ictimai-siyasi hadisələrlə bağlı anlayışları ifadə etmək üçün rus dilindən alınmış bir sıra terminoloji sözlər işlədilir ki, bunlar da sonralar daha müvafiq qarşılıqları ilə əvəz olundu.

Ölkəmizdə sənayenin və kənd təsərrüfatının sürətlə canlanması, istehsalın mexanikləşdirilməsi, sosial tərəqqi bu dövrdə terminologiyanın inkişafı üçün də yeni perspektivlər yaradırdı[1].

Ümumən ədəbiyyata, mədəniyyətə partiya rəhbərliyi milli ədəbi və bədii dilin hərtərəfli inkişafına geniş yollar açırdı: «…yeni quruluş ədəbiyyatı sosializm quruculuğuna xidmət istiqamətinə yönəldə bildiyi kimi, onun dilinə də nəzarət etmiş, milli və bədii dilin saflaşma, zənginləşmə istiqamətində sürətli inkişafını təmin etmişdir»[2].

Yeni dövrü, yeni ictimai-siyasi hadisələrlə əlaqədar meydana çıxan anlayışları ifadə etmək üçün söz və söz birləşmələrinin yaranmasında Azərbaycan dilinin daxili imkanları mühüm rol oynayırdı. Azərbaycan dilinin daxili imkanları əsasında yaranan söz birləşmələri 20-ci illər üçün səciyyəvi olan ərəb-fars tərkiblərinin çoxunu sıradan çıxarmışdı. Birləşmələrin komponentlərindən bəziləri alınmalardan ibarət olsa da, qrammatik quruluş Azərbaycan dilinin özünəməxsus idi. Yeni yaranan sözlərdə bilavasitə aid olduğu dövrün səciyyəsini əks etdirən mənalar var idi. K. İsmayılova bu dövrə aid söz yaradıcılığını aşağıdakı kimi şərh edir: «30-cu illərdən başlayaraq ümumxalq dilindən sözgötürmə meyilləri və Azərbaycan dilinin söz yaradıcılığı vasitələrindən istifadə yolu ilə yeni sözyaratma

---

[1] *Bax:* M.Ş.Qasımov. Azərbaycan dili terminologiyasının əsasları, Bakı, «Elm», nəşriyyatı, 1978, səh. 87.

[2] Q.Kazımov. Komik-bədii vasitələr, «Yazıçı», 1983, səh. 57-58.

halları getdikcə üstünlük təşkil etməyə başlayır. Özü də ilk illərdən fərqli olaraq bunların əhatə dairəsi də genişlənir. Belə ki, dilimizin öz sözyaratma üsulları artıq ictimai-siyasi, iqtisadi həyatın, elmi fəaliyyətin, incəsənətin, mədəniyyətin bütün sahələrini ehtiva edir»[1].

30-cu illərdə Azərbaycan dili lüğət tərkibinin rus dilindən alınmalarla yanaşı, daxili imkanlar hesabına inkişafını N.A.Baskakov da göstərmişdir[2]. A.M. Məhərrəmov qeyd edir ki, bu dövrdə istər daxili imkanlarla yaranan, istərsə də rus dilindən alınan söz və terminlərdə, başlıca olaraq, sosializm quruluşunu, sosialist təsərrüfat və mədəniyyətini əks etdirən anlayışlar öz ifadəsini tapırdı[3].

20-ci illərdən fərqli olaraq, 30-cu illərdə yeni anlayışları əks etdirən və daxili imkanlar əsasında meydana çıxan sözlər dilin lüğət tərkibində daha mühüm yeri tutur. Bu illər SSRİ xalqları dillərinin inkişafı tarixinə bir növ dirçəliş dövrü kimi daxil olmuşdur. Həqiqətən də, ziddiyyət və təlatümlərlə dolu olan 20-ci illərdən sonra ədəbi dildə sanki bir dirçəliş başlanmışdı.

Bu dövrdə Azərbaycan dilinin daxili imkanları əsasında yaranan yeni dil vahidləri, əsasən, iki istiqamətdə inkişaf edirdi. Bunlardan biri dildə yeni söz birləşmələrinin, digəri isə yeni sözlərin yaranması prosesi idi. Bu cür söz birləşmələri və sözlər bilavasitə sosializm quruculuğu ilə bağlı məfhumları əks etdirdiyi üçün ədəbi dilin zənginləşməsində mühüm rol oynamışdır. Sosial və təsərrüfat

---

[1] K.İsmayılova. Sovet dövründə Azərbaycan ədəbi dili lüğət tərkibinin vəziyyəti və inkişafı. Azərbaycan ədəbi dili tarixi (sovet dövrü), səh. 69-80.

[2] Н.А.Баскаков. Современное состояние терминологии в языках народов СССР. «Вопросы терминологии», Изд. АН СССР, М., 1961, стр. 60.

[3] А.М.Магеррамов. Вопросы языка (алфавита, орфографии, терминологии и грамматики) в азербайджанской советской печати, АКД, Баку, 1950, стр. 24

quruculuğundakı inkişaf və irəliləyişlə bağlı olaraq, bunların bir qisminin işlənmə dairəsi sonralar tədricən məhdudlaşmışdır.

Sovet hakimiyyətinin ikinci onilliyində Azərbaycanda mühüm sosial və iqtisadi irəliləyişlər baş verdi. Bu irəliləyiş başqa sahələrlə yanaşı, milli mədəniyyətin yüksəlişinə də aid idi.

30-cu illərdə Azərbaycan ədəbi dilində baş verən inkişaf xüsusiyyətlərini ətraflı xarakterizə edərək Ə.Dəmirçizadə həmin dövrdə roman dilinin inkişaf etdiyini, müxtəlif sahələrə aid lüğətlər hazırlandığını, Azərbaycan dilinin ümumxalq dili və yazılı dil əsasında yenidən qurularaq müasir tələblərə müvafiq halda inkişaf etməyə başladığını göstərir[1].

Bütün bunlarla yanaşı, qeyd etmək lazımdır ki, 30-cu illərdə xalq dilinin imkanlarından hələ də kifayət qədər istifadə olunmurdu; görkəmli türkoloq A.N.Samoyloviç 1936-cı ildə belə bir sual verirdi: «Azərbaycan dilində ulduz və bürc adları seçilərkən çox da uzaq olmayan keçmişdə ulduzlar və bürclər əmək təqvimində görkəmli yer tutan əkinçilərdən və maldarlardan ibarət geniş zəhmətkeş xalq kütlələrinin nücum elminə aid terminologiyası nə dərəcədə nəzərə alınmışdır?»[2] – bu sual astronomiyaya dair terminoloji leksikanın lüğətlərdəki ifadəsinin yarıtmaz halda olduğunu göstərirdi və məsələ burasında idi ki, təkcə astronomiya terminləri deyil, kənd təsərrüfatının, sənətkarlığın müxtəlif sahələrinə aid terminlər də 30-cu illərdə xalq dilindən bəzən lazımi effekti ilə

---

[1] *Bax:* Ə. Dəmirçizadə. Azərbaycan ədəbi dilinin inkişaf yolları, Bakı, 1958, səh. 44.

[2] К.М.Мусаев. Современная терминология литературных тюркских языков Советского Союза. – СТ, 1981, № 6, стр. 9.

toplanmırdı. Dövrün xarakterini çatışmazlıqlarla yanaşı, bunun aradan qaldırılmasına elmi mövqelərdən yönəlmiş cəhdlər də eyni dərəcədə müəyyən edir.

Ümumən, 30-cu illər üçün səciyyəvi olan, daxili imkanlar əsasında yaranmış sözləri və söz birləşmələrini aşağıdakı kimi qruplaşdırmaq mümkündür:

Düzəltmə sözlər. 30-cu illərdə dövrün ictimai-siyasi və mədəni-iqtisadi vəziyyəti ilə bağlı bir çox düzəltmə sözlər yaranmışdır. Bu sözlərin bir çoxu müasir ədəbi dilimizdə də özünə mühüm yer qazanmış leksik vahidlərdən ibarətdir. Bunları, başlıca olaraq, aşağıdakı kimi qruplaşdırmaq olar:

Azərbaycan dili bazası əsasında düzələnlər. Yeni dövr hadisələrini ifadə edən bu sözlər xarakter etibarilə o dövr üçün neologizmlərdən ibarət idi. Dövrün ictimai-siyasi həyatı ilə sıx bağlı olan bu cür neologizmlərin mühüm bir hissəsi ədəbi dilin lüğət tərkibində özünə uzunmüddətli yaşamaq hüququ təmin etsə də, ictimai-siyasi hadisələrin mövqe və vəziyyətindən asılı olaraq bəzilərinin işlənmə imkanları zəifləmişdir. 30-cu illərdə Azərbaycan dili bazası əsasında yaranmış və neologizm hüququ qazanmış düzəltmə sözlərə dair aşağıdakı faktlar xüsusilə səciyyəvidir:

Onlar yalnız texnikanı cəsarətlə yeniləşdirənlər deyil, həmçinin sosializm yarışının gözəl təşkilatçıları olmuşlar (K-4.05.1931); *Kadrların seçilməsinə bu cür qayğısızcasına yanaşmaq olmaz* (K-2.02.1931): *Yoxlanış nəticələrinin möhkəmləndirilməsi öz ifadəsini tapmalıdır* (K-25.07.1937); *Traktor sürməyi məndən öyrənmiş əvəzçim 703 hektar şumlamışdır* (K-6.07.1936); *Kənddə ortabablarla aparılası işlərin və əyintilərə qarşı mübarizənin mərkəzi vəzifə olduğu ilə*

doğrultmağa çalışmışlar (K-3.01.1936); *AHİŞ təsərrüfat hesablı briqadaların xüsusi toplanışını çağırmışdır* (K-14.05.1934); *Geoloji kəşfiyyat bazasının vəziyyəti qəti surətdə sağlamlaşdırılmalıdır* (K-14.05. 1934).

Dövrün ictimai-siyasi hadisələri ilə bağlı olan bir sıra düzəltmə sözlər ədəbi dildə sabitləşə bilməmiş, köhnələrək passiv lüğət fonduna daxil olmuşdur; Məsələn:

Onların izdaşları öz işlərini davam etdirirlər (K-24.05.1932); *Ellikləşdirilmiş təsərrüfatın mənafeyi yolunda mübarizədə möhkəmlənməmiş və təşkil olunmamış yoxsullar arasında tərəddüd ola bilər* (K-24.08.1932); *Nüyədi kənd şurası sədri quyruqçuluqda çox irəli getmişdir* (K-14.05. 1933) və s.

Bu sözlərin bir qisminin sonrakı dövrdə işlənməsinə lüzum qalmamış, *ellikləşmə* sözü isə daha müvəffəqiyyətli *kollektivləşmə* sözü ilə əvəz edilmişdir.

Rus dili bazası əsasında düzələnlər. İctimai həyat durmadan, çox böyük surətlə inkişaf edirdi. Bütünlükdə dünyaya yeni pəncərə açan Oktyabr inqilabı ölkədə bütün sahədə köklü dəyişikliklərin əsasını qoymuşdu. Çox qısa bir müddətdə yenilik qələbə çalmalı, yeni ictimai-siyasi quruluşun üstünlükləri öz əksini tapmalı idi. Ona görə də ictimai həyatın bütün sahələrində inkişaf, yeniləşmə tempi çox surətli, yüksək idi. Bu surət, yüksəliş dildə də öz əksini tapırdı. Dilin dəyişməyə, inkişafa daha çox meyilli olan lüğət tərkibi yeniləşmə, təkmilləşmə istiqamətində daha böyük surətlə zənginləşirdi. Bu sahədə isə dilin daxili imkanları, yaxud sırf alınmalar kifayət etmirdi. Ona görə də dilimizə məxsus şəkilçilər vasitəsilə hətta alınmalardan yeni sözlər yaradılırdı. Bu cəhətdən rus dili alınmaları xüsusi rola malik idi. Dövrün başlıca ictimai-siyasi və təsərrüfat həyatı ilə bağlı yaranmış bu qəbil düzəltmə

sözlərə aid aşağıdakıları göstərmək olar:

Bakıya 100 kisə göndərilmiş, bu xüsusda sənəd formalaşdırılmışdır (K-4.02.1931); *Kolxozlarda yoxsul və muzdurların təşkili işinin kollektivləşmənin möhkəmləndirilməsi üçün böyük siyasi əhəmiyyəti vardır* (K-24.04.1932); *Maşınlaşdırma və əkin sahələrinin genişləndirilməsi əsas məsələ olmalıdır* (K-18.07.1937); *Bütün işçi, kolxozçu, sovxozçu və əməkçi qadınlara müraciət edilir* (K-2.02.1931) və s.

Ərəb-fars sözləri əsasında yarananlar. 30-cu illərdə Azərbaycan və rus sözləri ilə yanaşı, ərəb-fars mənşəli leksik vahidlərə Azərbaycan dili şəkilçiləri artırmaq əsasında da bir sıra sözlər düzəldilirdi. Bunlara dair aşağıdakıları göstərmək olar:

Ağdaş rayonu Ləki sovetinin yüksək məhsulçuları qabaqcıllar sırasındadır (K-4.01.1931); *O, ziyançılıq işini davam etdirmişdir* (K-24.08.1939); *İşçilər bunun faşizmin ziyançı işinə cəlb olduğunu qeyd edirlər* (K-21.1.1936) və s.

Mürəkkəb sözlər. Sosializm quruculuğu dövründə ədəbi dilin lüğət tərkibini zənginləşdirən bir sıra yeni mürəkkəb sözlər də yaranmışdır. Xalqın ictimai-siyasi və mədəni həyatı ilə üzvi şəkildə bağlı olan belə sözlərdən xüsusilə mətbuat dilində fəal işlənənlərə aşağıdakı nümunələrdə verilənləri göstərmək olar:

Bu ehtiyatlar neftçıxarma işini ölkəmizdə genişlətmək imkanı verir (K-4.07.1937); *İkinci bolşevik beşilliyinin başlanğıcı ərəfəsində Azərbaycan dəmir yolunun qəhrəmanları üçün bundan artıq şərəfli vəzifə yoxdur* (K-9.04.1932); *Müraciət Staxanov hərəkatının dördüncü ildönümünü sosializm yarışının yeni yüksəlişi ilə qeyd etmək haqqındadır* (K-4.04.1932); *Onların alçaq işini,*

tənqidi və özünütənqidi boğduğunu gördükdə kolxozdan çıxmaq istəyirdilər (K-24.08.1939); *Dairə və okruq özünüyoxlama komisyonları seçilmişdir* (K-18.07. 1937); *Keçənlərdə əldə edilmiş qiymətli dərz-bağlayan maşınları neçə ildən bəridir gün və yağış altında xarab olur* (K-18.07.1937) və s.

Bu cür sözlərin mühüm bir qismi dilin lüğət tərkibinə daxil olmuş, bəziləri nisbətən məhdudlaşmışdır.

Söz birləşmələri. Sosialist təsərrüfatı, sosialist iqtisadiyyatı, cəmiyyətdəki sosial dəyişmə və inkişaf perspektivləri, habelə dirçəliş dövründə həyata keçirilən mədəni inqilabla bağlı yaranmış yeni anlayışları ifadə edən söz birləşmələrini komponentlərin mənşəyinə görə aşağıdakı kimi qruplaşdırmaq olar:

Komponentləri xalis Azərbaycan sözlərindən ibarət olan birləşmələr. Təsvir olunan dövrdə yeni anlayışların ifadə edilməsində Azərbaycan dili sözlərinin rolu artmışdır. Yeni ictimai quruluşu səciyyələndirən yeni söz birləşmələrinin yaranmasında Azərbaycan dilinin milli sözlərindən istifadəyə güclü bir meyil yaranmışdı. Buna görə də həmin dövrdə Azərbaycan dilinə məxsus sözlərin iştirakı ilə *tarla düşərgəsi, əməkçi kəndlilər, yaz əkini* və s. kimi söz birləşmələrinin meydana gələrək işlədilməsi səciyyəvi idi. Belə söz birləşmələrini təşkil edən komponentlər dildə əvvəlcədən mövcud olsa da, onların söz birləşməsi tərkibində kəsb etdiyi ictimai məzmun yeni idi. Sosialist ictimai münasibətlərini, sosialist həyat və təsərrüfat tərzini əks etdirən, ictimai həyatın tələblərinə tam uyğun gələn belə söz birləşmələri dildə geniş işlənmə xüsusiyyəti qazanaraq ümumxalq xarakteri almış və ədəbi dili lüğət tərkibini zənginləşdirən vahidlər sırasına daxil olmuşdur.

Komponentlərində xalis Azərbaycan və ərəb-fars

mənşəli sözlər işlənən birləşmələr. Ədəbi dilin keçid dövründə anlayış cəhətdən köhnəlmiş, ifadə cəhətdən özünü doğrultmayan bir çox fars mənşəli sözlər öz işləkliyini itirir, ümumxalq səciyyəsi daşıyan və yeni ictimai məzmun qazanan sözlər lüğət tərkibində fəal işlənməkdə davam edirdi. Yeni ictimai hadisələri və anlayışları ifadə edən leksik vahidlər Azərbaycan dili sözləri ilə birlikdə söz birləşmələrinin komponentlərindən biri kimi fəal surətdə işlənirdi. Azərbaycan ədəbi dilində, xüsusən 30-cu illərdə *yığım müddəti, əmək məhsuldarlığı, heyvandarlıq qabaqcılları, coşqun tərəqqi, torpaq şöbəsi, işçi qüvvəsi* və s. kimi birləşmələrin işlədilməsinə tez-tez rast gəlmək olur. Belə birləşmələrdə yeni dövrün aktual hadisələri öz ifadəsini tapdığından onların ümumxalq səciyyəsi daşıması imkanları çox güclü idi.

Komponentləri bütövlükdə ərəb-fars mənşəli sözlərdən ibarət olan birləşmələr. 30-cu illərin ədəbi dilində ərəb-fars mənşəli sözlərdən düzəlmiş söz birləşmələri çox idi. Bunlar yeni ictimai şəraitdə tamamilə yeni ictimai məzmun qazanmış dil vahidləri kimi fəaliyyət göstərirdi. Bu dövrdə ictimai həyatın müxtəlif sahələrinə aid anlayışları ifadə edən belə birləşmələrdən *tədarük məntəqələri, daxili ehtiyatlar, istehsalat qələbələri, istehsal vəsaiti, xalq təsərrüfatı, qəti qələbə, təşkilat tədbirləri* və s. göstərmək olar.

İctimai həyatın zəruri tələbləri ilə əlaqədar yaranmış anlayışları ifadə edən bu cür söz birləşmələrinin də ədəbi dilin inkişafında özünəməxsus rolu olmuşdur.

Komponentlərindən biri Azərbaycan dilinə məxsus, digəri isə rus dilindən alınmış sözlərdən ibarət olan birləşmələr. 30-cu illərdə Azərbaycan ədəbi dilində ictimai-siyasi məzmunlu, habelə elmi-texniki tərəqqi ilə bağlı

terminoloji səciyyəli sözlərin işlənmə potensialı artmışdı. Çox tezliklə ümumxalq dilinə daxil olan bu tipli alınmalar ədəbi dilin inkişafına da müsbət təsir göstərdi. Yaranmış yeni anlayışların ifadəsi üçün belə sözlərin özünəməxsus yeri var idi. Bunlar ayrıca işləndiyi kimi, söz birləşməsi tərkibində də işlədilərək müəyyən anlayış bildirməyə xidmət edirdi. Ədəbi dilin həmin inkişaf mərhələsində rus dilindən alınmış sözlərin iştirakı ilə *yerli komitə, yeni texnika, əkin kompaniyası, pambıq planı, kultivasiya işləri, sosialist əkinçiliyi, sosializm iməciliyi, toxumçuluq kolxozları, yem bazası* kimi birləşmələr əmələ gəlirdi və bunlar gündəlik informasiya prosesində fəal yer tuturdu.

Komponentlərindən biri rus, digəri ərəb-fars mənşəli sözlərlə ifadə olunan birləşmələr. Bu tipli birləşmələrin komponentləri kimi çıxış edən sözlər alınmalardan ibarət olsa da, ümumxalq səciyyəlidir. Yeni ictimai dövrü səciyyələndirən bu cür birləşmələrdən 30-cu illərdə aşağıdakıların xüsusilə fəal işlədilməsini müşahidə etmək olurdu; *sosialist heyvandarlığı, heyvandarlıq sovxozu, tədarük planı, rayon təşkilatları, proletar rəhbərliyi* və s

Azərbaycan dilində həmin dövrdə bu cür birləşmələrlə yanaşı, hər iki komponenti rus dilindən alınmış sözlərlə ifadə olunan *texniki normalar, radio studiyaları* və s. tipli birləşmələrə də təsadüf edilirdi ki, günün tələblərinə cavab vermək və ədəbi dili zənginləşdirmək baxımından bunlar da özünəməxsus müsbət rol oynayırdı.

Təsərrüfatın inkişafı ilə əlaqədar, bu dövrdə *ərzaq vergisi, ərzaq sapalağı, ərzaq kitabçası, yeni iqtisadi siyasət* və s. kimi bir sıra birləşmələr də yaranmışdı ki, bunlar sonralar ifadə etdikləri məfhumların köhnəlməsi ilə öz işləkliyini itirməyə başlamışdır.

Bu dövrə məxsus ictimai-siyasi, təsərrüfat-mədəni və

elmi-texniki tərəqqi ilə əlaqədar bəzi söz birləşmələrinin bu və ya digər komponenti rus dilindən alınmış elə sözlərlə ifadə olunurdu ki, sonralar onlar Azərbaycan dilində əvvəlcədən mövcud olan və mənaca daha anlaşıqlı görünən sözlərlə əvəz edildi. Əslində, həmin dövrdə yeni yaranan birləşmələrdə bilavasitə rus dilindən alınan sözlərin işlədilməsi təbii idi, çünki yeni şəraitə uyğun məfhum və anlayışlar əvvəlcə rus dilində yaranır, adlandırılır, sonra isə başqa dillərdə onların ifadə qarşılıqları meydana çıxırdı. Yeni yaranan məfhum və anlayışlar müəyyən müddətdən sonra başqa dillərdə, o cümlədən Azərbaycan dilində də milli terminoloji vasitələrlə ifadə edilməli olurdu. Məsələn, bir neçə nümunəyə diqqət edək:

Pambığı saxlamaq üçün bütün kolxozlarda binaların təmiri, bütün transport vasitələrinin təmiri təmin edilsin (K-4.05.1931); *Kultur uşaq yaslıləri təşkil etmək, bu yaslilərə yaxşı xidmət etmək üçün təcrübəli kolxozçu qadınlar ayırmaq lazımdır* (K-4.05.1931); *Seçicilərin siyasi aktivliyinə başçılıq etmək lazımdır* (K-4.05.1931); *Bu buruqda bərk süxurları qazmaq üçün fasonlu baltalardan istifadə edilmişdir* (K-4.05. 1931); *Düşmənlər vətənimizi soymaq və onu faşizm kaloniyasına çevirmək həsrətindədirlər* (K-22.08. 1939); *Sovet dövlətinin qüdrəti artdıqca, varılmaz polyusu fəth edən qəhrəman şahinlərimizin şöhrəti dünyanı bürüdükcə alçaq düşmənlərimizin də bizə qarşı vəhşi kini artır* (K-3.08.1939).

Bu birləşmələrdəki *kultur, aktiv* kimi sözlər hələ 20-ci illərdən ədəbi dildə işləndiyi halda, *yasli, fason, kaloniya, polyus* sözlərinə məhz 30-cu illərin mətbuatında təsadüf olunur. Daha sonralar bu cür alınmalar Azərbaycan dilindəki *mədəni, fəal, müstəmləkə, qütb* kimi ərəb-fars

mənşəli sözlərlə, *yasli* və *fason* sözləri isə Azərbaycan dilinə məxsus *uşaq bağçası, dişli balta* birləşmələri ilə əvəz edilmişdir.

30-cu illərdə cəmiyyətin sosial inkişafı və elmi-texniki tərəqqi ilə əlaqədar məcazi məna daşıyan bir sıra yeni sözlər və söz birləşmələri də yaranmışdı. Bilavasitə yarandığı dövrün sosial ifadəsinə xidmət edən belə dil vahidlərinin mühüm bir qismi hətta sonrakı dövrlərdə də öz işləkliyi ilə nəzəri cəlb edir. Həmin dövrlə bağlı məcazi mənalı söz və ifadələrin daha geniş yayılanlarına aid aşağıdakıları göstərmək olar:

Şura gəmisi cəsarət və qorxusuzluqla dalğaları kəsir (K-3.07.1937); *İnqilab dalğalarının yüksəlişi nəticəsində kapitalizm sistemi getdikcə sarsılmaqdadır. Üçüncü bolşevik yazına bolşevik hazırlığı davam edir* (K-1.05.1930); *Sovet hava gəmisinin Portland yaxınlığında zəfərli finişi sosialist dövlətinin əzəmətini bir daha nümayiş etdirdi* (K-10.04.1932); *Mayın 30-da qrup həmkarlar komitəsi əlaçılar gecəsi təşkil etmişlər* (K-27.07.1937); *Bunlar quruculuğumuz üçün canlı rəqəmlərdir* (Kİ-2.04.1935); *Bütün işləri bolşevik relslərinə keçirməyə başlamışlar* (K-4.02.1930); *Həmkarlar orqanlarının müştərək müqavilənamələrin müzakirəsi işində gecikmələrinə baxmayaraq, bu hazırlıq işləri işçilər arasında bolşevik sürəti ilə aparıldı* (K-29.03.1932); *Komsomol buruğuna verilmiş 6 düyməli kvadrat aşağı keyfiyyətli və gödək olduğu üçün işin surətlə getməsinə mane olur* (K-30.03.1932) və s.

Ümumiyyətlə, ədəbi dilin inkişaf xüsusiyyətlərini özündə parlaq şəkildə əks etdirən mətbuat dilində yeni dövrün ictimai-siyasi, mədəni-kütləvi və elmi-texniki tərəqqisinə aid məcazi ifadə vasitələrinin işlədilməsi xüsusi

maraq doğurur. Təsadüfi deyildir ki, belə vasitələr ədəbi dildə yaranmış yeni meyillərin ənənəsi ilə əlaqədar sonrakı dövrlərdə də davam etmiş, xalqın əmək və məişət həyatı ilə bağlı *tarla gözəli, hava avtobusu, hava gəmisi, polad at, ağ qızıl, ağxalatlılar, qara qızıl, vətənin qanadları, göydələn* və s. kimi müxtəlif söz və ifadələr meydana gəlmişdir[1].

* * *

30-cu illərdə Azərbaycan dili lüğət tərkibinin, o cümlədən terminologiyasının zənginləşməsində rus dilinin çox böyük təsiri olmuşdur. Rus dilindən alınan terminlər bilavasitə elmi-texniki yenilikləri, habelə ictimai-iqtisadi və mədəni inkişafı özündə əks etdirirdi və bu cür dil vahidlərinin alınıb işlədilməsi zəruri ehtiyac və həyatı tələbatdan doğurdu. Bu zəruri tələbat bir də özünü onda büruzə verdi ki, həmin dövrdə ərəb-fars, habelə türk sözlərinin dildən çıxarılmasına və sosializm quruculuğu zəminində yaranan sovetizmlərlə əvəz edilməsinə dərin bir meyil yarandı[2].

O dövrdə Azərbaycan ədəbi dilində rus dilindən alınan *prostoy, ustanovka, posyolka, rekonstruksiya* tipli bir çox sözlər də işlədilmişdir[3] ki, bunlar müasir ədəbi dilimiz üçün o qədər də xarakterik deyildir. Lakin belə sözlər o

---

[1] *Bax:*M.Adilov. Qəzet dili, ADU nəşriyyatı, Bakı, 1973, səh. 19; Дж. Мамедов. Газетный стиль современного азербайджанского литературного языка, АКД, Баку, 1973, стр. 63; И. О. Мамедов. Лексика газеты.«Коммунист», АКД, Баку, 1974, стр. 10-11 və s.

[2]А.А.Магеррамов. Вопросы языка (алфавита, орфографии, терминологии и грамматики, в азербайджанской советской печати, АКД, Баку, 1950, стр. 24-25.

[3] V.İ.Aslanov. Leksik xüsusiyyətlər. Azərbaycan ədəbi dili tarixi (sovet dövrü), səh. 120.

zaman çap olunmuş lüğətlərə də daxil edilmişdir[1].

30-cu illərdə də rus dilindən alınıb Azərbaycan ədəbi dilində işlənən bir sıra sözlər sonralar ümumxalq dilində sabitləşmiş ərəb-fars mənşəli, bir qismi isə Azərbaycan dili qarşılığı ilə əvəz olunmuşdur. Bu dövrdə Azərbaycan ədəbi dilində işlədilib, sonrakı mərhələdə müvafiq qarşılıqları ilə əvəz olunmuş rus dili alınmalarını iki qrupa ayırmaq olar:

Azərbaycan sözləri ilə əvəz olunanlar. Sovet dövründə Azərbaycan dilinin ifadəlilik vasitələri inkişaf etdikcə daxili imkanlar əsasında yeni anlayışların ifadəsinə xidmət edən bir sıra yeni sözlər yaranırdı. Bunların bir qismi dildəki bəzi alınmaları əvəz etmək baxımından maraqlı idi. Təsadüfi deyildir ki, sovet dövründə Azər-baycan dilinə məxsus sözlərin istər əvəzedici kimi, istərsə də yeni anlayışların ifadə vasitəsi kimi işlənmə potensialı getdikcə artırdı. Azərbaycan ədəbi dilində başlanğıcdan müəyyən səbəblərlə əlaqədar işlədilmiş rus sözləri daxili imkanlar əsasında sözdüzəltmə meyilinin güclənməsi nəticəsində xalis Azərbaycan sözləri ilə əvəz olunurdu. *Prostoy, ustanovka* kimi sözlərin sonralar *boşdayanma, qurğu,* habelə *neftostroy* mürəkkəb sözündə ikinci tərəfin *tikinti (nefttikinti)* sözü ilə əvəz edilməsi bu prosesin nəticəsi idi.

Bu dövrdə rus dilindən alınmaların səciyyəvi xüsusiyyətlərindən biri də onların mənşə dildə işlədilən formasının olduğu kimi saxlanılması idi. Bu cəhətdən həmin dövrün ədəbi dilində işlənmiş *kontorşik, tonna, kadro, metro* kimi sözləri qeyd etmək kifayətdir. Azərbaycan dili-nin daxili qanunlarına uyğun olmayan belə sözlər sonralar dildəki sabitləşmə prosesində fonetik tələblərə uyğun-laşdırıldı.

Ərəb-fars mənşəli sözlərlə əvəz olunanlar. 30-cu

---

[1] *Bax:* Azərbaycanca-rusca lüğət, Azərnəşr, Bakı, 1939; Orfoqrafiya lüğəti, Azərnəşr, Bakı, 1940.

illərdə ərəb-fars mənşəli sözlərin dildən çıxarılması meyili o qədər güclü olmuşdur ki, hətta ümumxalq səciyyəsi daşıyan və yeni dövrdə yeni ictimai məzmun qazanma imkanlarına malik olan bir çox sözlər də bu meyilin təsiri ilə passiv lüğət fonduna daxil edilmişdir. Lakin bu, termin yaradıcılığı sahəsindəki çətinliklərlə əlaqədar müvəqqəti bir hal idi; sonralar passiv lüğət fonduna keçirilmiş ümumxalq səciyyəli ərəb-fars sözlərindən termin yaradıcılığı sahəsində yenidən istifadə edilməyə başladı. İctimai-siyasi, sosial-mədəni, elmi-texniki tərəqqi, habelə inzibati vəzifə, sahə, həcm anlayışı ilə bağlı bir sıra rus dili alınmaları ümumxalq dilində uzun dövrlərdən bəri işlədilərək lüğət tərkibində fəal yer tutan ərəb-fars mənşəli vahidlərlə əvəz olundu. Rus dilindən alınmış *aqressor* (təcavüzkar), *zayom* (istiqraz), *kontrrevolyusioner* (əksinqilabçı), *stil* (üslub), *propaqanda* (təbliğat), *deleqasiya* (nümayəndə), *revolyusion* (inqilabi), *akitasiya* (təbliğat), *ekonomiya* (iqtisadiyyat), *abliqasiya* (istiqraz vərəqəsi), *sklad* (anbar), *smena* (növbə), *kommerasiya* (ticarət), *prosent* (faiz), *kalendar* (təqvim), *student* (tələbə), *aeroplan* (təyyarə), *prezidium* (rəyasət heyəti), *uçastok* (ərazi), *okruq* (dairə) kimi sözlər həmin dövr ədəbi dilinin ayrı-ayrı üslublarında, xüsusən, rəsmi publisist, elmi və bədii üslub nümunələrini özündə birləşdirən mətbuat dilində geniş işlədilirdi. Ədəbi dilin inkişafının ikinci mərhələsində bu sözlər Azərbaycan dilində əvvəlcədən mövcud olan, sosializmin coşğun inkişafı şəraitində yeni ictimai məzmun qazanan ümumişlək ərəb-fars mənşəli sözlərlə əvəz edilmişdir[1].

* * *

30-cu illər Azərbaycan ədəbi dilində ərəb-fars mənşəli

[1] Sözlərin əvəzediciləri mötərizədə verilmişdir.

sözlərin ümumi potensialı getdikcə azalmağa başlayır. Yalnız uzun müddətdən bəri işlədilərək ümumxalq səciyyəsi qazanmış və dilimizin lüğət fonduna daxil olmuş sözlərə təsadüf edilir. İnqilabdan əvvəlki dövrdə «yüksək üslub» ənənəsi üzrə işlədilən sözlər isə olduqca azlıq təşkil edir. Həmin sözlər də sonralar ya Azərbaycan dilinə məxsus, ya da rus dilindən alınan daha anlaşıqlı qarşılıqları ilə əvəz edilir. Bu dövrdə işlədilən həmin sözlərdən aşağıdakılar xüsusilə səciyyəvidir:

Azərbaycan dili qarşılığı ilə əvəz edilənlər. Müttəhid xarici ticarət yaradılması məsələlərində, internasional bolşevik siyasəti əleyhinə birinci çıxış yapmışdır (K-2.02.1931); *Azərbaycan Hilal-Əhmər Cəmiyyəti kommunist firqəsinin rəhbərliyi altında böyük müvəffəqiyyətlər əldə etmişdir* (K-6.01.1936); *1920-ci ildən bəri təşkilat müttəsil artır* (YY-4.03.1932); *Əli Bayramov naminə tikiş fabrikasının bir nəfər işçisi Polşada səfarətimiz üzərinə həyasız hücum hazırlandığı məlumatını nifrətlə dinləmişdir* (K-5.04.1932) və s.

Bu misallardakı *müttəhid* sözü əvəzinə sonralar Azərbaycan dilinə məxsus *birləşmiş, Hilal-Əhmər* əvəzinə *Qırmızı Aypara, müttəsil* əvəzinə *daim, naminə* əvəzinə *adına* sözləri işlədilməyə başlanmışdır. 30-cu illərdə nəşr olunmuş lüğətlərdə də inqilabdan əvvəlki dövrdə assimilyativ təsirlə işlənən, ədəbi dilin keçid, hətta dirçəliş və normalaşma dövrlərində də mühafizə olunan *istihalə, mühəqqəq, müğayir, nəməkdan, pərvəriş, xoşnud* və s. kimi ərəb-fars mənşəli sözlərə təsadüf edilir[1].

Lakin sabitləşmə mərhələsində bu sözlər də tarixin ciddi sınaqlarından çıxa bilməyərək öz işləkliyini itirmiş,

[1] Bax. Azərbaycanca-rusca lüğət. Azərnəşr, Bakı, 1939; orfoqrafiya lüğəti, Azərnəşr, Bakı, 1940

onların əvəzinə ədəbi dilin saflaşmasını və zənginləşməsini təmin edən müvafiq ifadə vasitələri əmələ gəlmişdir.

Rus dilindən alınan sözlərlə əvəz edilənlər. 30-cu illər ədəbi dilində işlədilən ərəb-fars mənşəli elə sözlərə də təsadüf edilir ki, bunlar sonradan rus dilindən alınan beynəlxalq səciyyəli qarşılıqları ilə əvəz olunmuşdur. *Əfvi-ümumi və cümhuriyyət* kimi sözlər belələrindəndir.Ədəbi dilin sonrakı inkişaf dövrlərində *əfvi-ümumi – amnistiya, cümhuriyyət* isə *respublika* sözü ilə əvəz edilmişdir.

Daha anlaşıqlı ərəb-fars sözləri ilə əvəz edilənlər. Ədəbi dilin dirçəliş və normalaşma dövründə bir sıra ərəb-fars mənşəli sözlər istər ifadə və istərsə də məna cəhətdən ədəbi dilin inkişaf tələblərini ödəmirdi. Bu dövrdə dilin daxili inkişaf amilləri, habelə xəlqiləşmə və kütləviləşmə meyilləri güclü olduğundan lüzumsuz görünən ərəb-fars mənşəli sözlərin də işlənmə potensialı daralırdı. Dilin inkişaf meyilləri əsasında həmin sözlərin yalnız əsl Azərbaycan və ya rus sözləri ilə deyil, habelə uzun illərdən bəri dilimizdə işlənib sabitləşmiş və xəlqi xarakter daşıyan daha anlaşıqlı ərəb-fars qarşılıqları ilə əvəz olunması da özünü göstərir. Belə ki, bu dövrdə işlənən *əfkar-ümumiyyə, müsəlləh, cahan* kimi sözlər sonralar yeni ictimai məzmun çaları olan *ictimai rəy, silahlı, dünya* sözləri ilə əvəz edilməsində bu meyilin mühüm təsiri olmuşdur.

Göründüyü kimi, hələ inqilabdan əvvəlki dövrün ədəbi dili üçün səciyyəvi olan çətin anlaşıqlı ərəb-fars sözləri 30-cu illərin əvvəllərində də Azərbaycan dilində işlənmişdir. Sonrakı illərdə isə belə sözlərin işlədilməsinə, ümumiyyətlə təsadüf edilmir. Onlar öz yerini getdikcə dilimizin lüğət tərkibində sabitləşmiş sözlərə və rus dilindən alınmalara verir.

* * *

30-cu illərdə, xüsusən bu mərhələnin ilk illərində Azərbaycan ədəbi dilində inqilabdan əvvəlki dövrün səciyyəvi «yüksək üslub» ənənəsi ilə bağlı bilavasitə türk dilinə məxsus olan sözlərin də işlədilməsinə təsadüf olunur. Bu sözlərin bir qismi türk, digər qismi isə Avropa mənşəli idi. Avropa mənşəli sözlərdə türk dilinə məxsus ifadə tərzi saxlanılırdı. Bu sözlər, əsas etibarilə, aşağıdakılardan ibarət idi.

Türk mənşəli sözlər. Türk sözləri ayrı-ayrı nitq hissələrinə məxsus müxtəlif dil vahidlərindən ibarət idi. Sonralar həmin sözlər ədəbi dildən sıxışdırılıb çıxarıldı. Bunlara aid aşağıdakıları misal göstərmək olar:

Analıq və cocukluk mühafizəsinə keçən ildə 29700 manat xərclənmişdir (K-29.03.1932); *Saxta para dövlətlər arasında mübarizə üçün bir vasitə olaraq burakılmışdır* (Gİ-2.06.1935); *Bu kurslara bin nəfər cəlb olunacakdır* (Gİ-5.03.1932); *Buna baxmayaraq, Dəvəçi, Xaçmaz, Xudat və Kusar kibi böyük dairələri əhatə edən imalatxanalarda ayda bir traktoru təmir edəmirlər. Bugünkü ihtiyaclarımıza karşı çox geridə kaldıklarını, şübhəsiz, təsdik edərsiz* (Gİ-2.06.1935); *Okruqlarda, dairələrdə və başka şəhərlərdə xidmətdə bulunan xidmətçilər xidmətə bulduqları yerdə təmizlənəcəkdirlər* (K-18.07.1932) və s.

Bu qəbildən olan türkizmlərə Sovet hakimiyyətinin ilk onilliklərində yaranmış bədii ədəbiyyat nümunələrində də təsadüf olunurdu. Məsələn:

Tək-tək qapıya gəldikdə üzünü elə bərk tutardı ki, bir dürlü müəllim öz məqsədinə nail olmazdı (S. Hüseyn); *Mənim yol arkadaşlarım iki kişi, onunku ixtiyar bir qadın idi* (S. Hüseyn); *Kəlmələr, cümlələr bir irmaq kimi yerinə görə sakit, durğun, mövqeyinə görə sərin və çoşğun*

axın zənn edilirdi (S. Hüseyn); *Bu günsüz y a r ı n olmaz. Bu gün yoxsa y a r ı n l a r da qurulmaz* (R. Rza). *Elə bil ay durur bulud dalında; O ellər gözəli, o e l y a v r u s u* (S. Vurğun) və s.

Misallardan göründüyü kimi, türk (osmanlı) sözləri ərəb-fars, xüsusilə də rus dilindən alınan sözlərdən prinsipcə əsaslı surətdə fərqlənir: ərəb-fars və rus-Avropa mənşəli leksika bir qayda olaraq terminoloji xarakter daşıyır. Bu, əlbəttə, söz yaradıcılığı prosesi ilə bağlı idi, axtarışın nəticəsi idi. Türk (osmanlı) sözləri isə qeyri-terminoloji səciyyədədir (bin – «min», kibi – «kimi», cocuq – «uşaq» və s).

Avropa mənşəli sözlər. 30-cu illərdə Azərbaycan ədəbi dilində türk dilinin fonetik xüsusiyyətlərini saxlayan Avropa mənşəli sözlər də qalmaqda idi. Daha çox terminoloji səciyyə daşıyan bu sözlər ya ayrıca, ya da birləşmə daxilində işlədilmişdir. Məsələn:

Mərkəzi p o s t a n ı n qəzetə şöbəsi işə soyuk yanaşdığına görə yerli posta kantrollarında a b o n a toplamak işi də dört ayağından aksayır (Gİ-2.06.1935); *Əmək b u r a s ı n d a olan bütün işçilərə təklif olunur ki, təmizliyə gəlsinlər* (Gİ-2.06.1935); *T e a t r o n u n bu təşəbbüsü son zamanlarda onun nə kadar kütlələrə doğru getdiyini sübut edir* (Gİ-2.08.1935); *Kolçomağa və onun a g e n t ə s i olan sağ və sol opportunizma qarşı firkənin baş xətti uğurunda kütləvi təşkilat işləri genişləndirəcəyimizə söz veririk* (K-4.07.1937).

Tədricən ümumxalq malına çevrilib dilin lüğət tərkibinə daxil olan bu sözlər ədəbi dilin sonrakı inkişaf mərhələsində Azərbaycan dilinin daxili qanunlarının təsiri ilə müəyyən fonetik dəyişmələrə məruz qaldı, sadələşdirilərək *poçt, abunə, birja, teatr, agent* şəklinə salındı.

30-cu illər ədəbi dilini səciyyələndirən xüsusiyyətlərdən biri də bəzi məna paralellərinin və sinonim cərgələrin meydana çıxması idi. Dildə bir-birinin məna paraleli kimi işlənən sözlərdən sonralar daha ümumişlək olanları özünə yaşamaq hüququ təmin edə bilmişdir. Maraqlıdır ki, bəzi hallarda ədəbi dildə işlənmə hüququ qazana bilməyən paralellərin bir qisminin yerində ərəb-fars mənşəli sözlərin işlənməsi üstünlük təşkil etmişdir. Aradan çıxan sözlərin içərisində xalis Azərbaycan sözlərinə və rus dili alınmalarına da təsadüf olunurdu. Məsələn, bu dövrdə işlənən *işçi-fəhlə* paralellərindən Azərbaycan dilinə məxsus *işçi* sözü getdikcə işləklikdən qalmış, onun yerini ərəb mənşəli *fəhlə* sözü tutmuşdur. «İşçi» sözü dilin sonrakı mərhələsində daha geniş məna kəsb etmişdir; daha doğrusu, əvvəllər dar mənada – yalnız *fəhlə* mənasında işlədilən bu söz sonradan mənasını genişləndirərək, lazımi məna yükünü qazanmışdır. İndi *işçi* sözü «fəhlə» anlayışı ilə yanaşı, bütünlükdə ictimai əməklə məşğul olanlar mənasında çıxış edir.

Bu dövrdə fars mənşəli *dərnək* sözünün müqabilində işlədilən rus dilinə məxsus *krujok* sözü də leksik-semantik cəhətdən özünü doğrulda bilməmiş, sonrakı mərhələdə, ümumiyyətlə, dilin lüğət tərkibindən çıxmışdır.

Ədəbi dildə bu cür paralellərin mübarizəsi ilə birlikdə, bir sıra sinonim cərgələrin işlədilməsi də müşahidə edilirdi. Daha çox ictimai məzmunlu *əməkçi – zəhmətkeş, hamilik – ictimai yedəyə almaq, zərbəçi – qabaqcıl* kimi sinonim cərgələr bu dövr üçün xüsusilə səciyyəvi idi. Belə sinonim cərgələr ədəbi dilin söz ehtiyatını, ifadə imkanlarını, məna potensialını zənginləşdirməklə yanaşı, dilin təsirlilik vasitə-

lərinin qüvvətlənməsində də mühüm rol oynayırdı.[1]

Beləliklə, birinci mərhələdə (1920-1940-cı illər) ədəbi dilimiz, lüğət tərkibinin sabitləşməsi üçün vahid normaların meydana çıxması, daxili imkanların artması, ifadə imkanlarının zənginləşməsi baxımından möhtəşəm bir yol keçmişdir.

Cəmi iyirmi il davam edən bu mübarizələr dövründə ədəbi dil, xüsusən onun lüğət tərkibi çox böyük mütərəqqi dəyişmələrə məruz qalmışdır. Cəmiyyətdəki hadisələrin inkişafı ilə həmahəng baş verən bu dəyişmələr nəticəsində ilk dövrlərdə hegemonluq edən ərəb-fars sözləri, habelə türkçülük meyilləri zəifləmiş, ədəbi dilin lüğət tərkibinə daxil olmuş türk dili sözləri dildə özlərinə daimi vətəndaşlıq hüququ təmin edə bilməmiş, onların yerini əksərən daxili imkanlar hesabına meydana çıxan sözlər tutmuşdur. Bu dövrdə Sovet hakimiyyəti illərində yaranan yeni anlayışları ifadə etmək baxımından Azərbaycan dili lüğət tərkibində rus dili söz və ifadələrinin də xüsusi çəkisi artmışdır.

Bütün bu müsbət hallarla yanaşı, ədəbi dilə münasibətdə bəzi zərərli meyillər də yaranmışdı ki, bunlar dilin təbii inkişafına öz mənfi təsirini göstərirdi. Bu meyillərdən birincisi ərəb-fars sözlərindən tamamilə imtina etməkdən ibarət idi. Həmin meyillə əlaqədar dildə mövcud olan külli miqdarda lüzumsuz ərəb-fars sözləri ilə birlikdə ümumişlək xarakterli leksemlər də atılırdı. Lakin ədəbi dilin sabitləşmə dövründə lüğət tərkibinin inkişafı üçün mütərəqqi rol oynayan, Azərbaycan dilinin tələbləri ilə uyuşan, yeni ictimai məzmun qazanma imkanına malik olan ərəb-fars sözləri qaytarılaraq yenidən dilimizin işlək

---

[1] *Bax:* Дж. Мамедов. Газетный стиль современного азербайджанского литературного языка, АКД, Баку, 1973, стр. 13.

vahidləri kimi təsbit edildi. İkinci zərərli meyil ictimai-siyasi, elmi-texniki tərəqqi, təsərrüfat-iqtisadi və s. hərəkatla bağlı anlayışlar ifadə edən bir çox sözlərin kütləvi şəkildə rus dilindən alınıb işlədilməsindən ibarət idi. Bu sözlərin Azərbaycan dili qanunları ilə uyğunlaşmayan, dilin leksik-semantik tələblərinə cavab verməyən, ümumxalq malı ola bilməyən hissəsi təbii olaraq dildən çıxarılmış və yerini müvafiq paralellərə vermişdir. Üçüncü meyil Azərbaycan dilində daxili imkanlar hesabına yeni sözlər yaradılması ilə səciyyələnirdi. Məlum olduğu kimi, dildə kənar elementlərin təsiri nə qədər güclü olsa da, daxili imkanlar həmişə aparıcı xarakter daşıyır. Lakin daxili imkanlar hesabına yaranan sözlərin hamısı dilin inkişafı ilə bağlı tələbatı tam təmin edə bilmir. Yalnız elə sözlər ümumişlək xarakter qazanır ki, onlar həqiqi zərurətlə əlaqədar yaranmış olsun. Sovet dövrü ədəbi dilinin ilk mərhələsində bu zərurət yeni ictimai anlayışların ifadəsindən ibarət idi. Bu dövrdə-meydana gələn və ictimai həyatın real ifadəçisi kimi işlənən sözlərin böyük bir qismi ədəbi dilin lüğət tərkibini zənginləşdirdiyi halda, bəziləri fərdi yaradıcılıq təşəbbüslərinin məhsulu kimi yaranaraq purizm təsiri bağışlayırdı. Bu sözlərin yaradılmasında məqsəd heç də dilin zənginliyini təmin etmək, onun ifadə imkanlarını genişləndirmək deyil, əslində uzun müddətdən bəri dilimizdə işlənib, ümumxalq səciyyəsi kəsb etmiş alınmalardan dilimizi «təmizləmək», dili «milliləşdirmək» idi ki, bu, zərərli nəticələrə apara bilərdi. Belə ki, ümumxalq malına çevrilmiş sözlərdən imtina etmək, bir tərəfdən mümkün deyildi, digər tərəfdən isə, bu, dili yenidən çılpaqlaşdırmaq, ifadə imkanının zənginliyindən əl çəkmək demək idi. Ona görə də uydurma sözlər dilin lüğət tərkibində özünə daimi yer qazana bilmədi.

N.P.Petrov çuvaş dili haqqında yazır: «30-40-cı illərdə ədəbi dilin leksik vasitələrinin seçilməsi neytral üslub adlanan ən normativ, ən ənənəvi, ən standart dil yaratmaq məqsədi güdür»[1]. Demək lazımdır ki, bu fikir müəyyən qeyd-şərtlə müvafiq mərhələdə Azərbaycan dilinə də aid edilə bilər. 30-40-cı illərdə lüğət sahəsində dil quruculuğunun əsas məqsədi optimal leksik norma yaratmaqdan ibarət idi. Əsas işi bir sıra hallarda yenə ziyalılar görürdülər, ona görə də həmin optimal leksik normanı yaratmaq çətin mübarizə şəraitində gedirdi. Şübhəsiz, mübahisələrin kəsilməsi (əlbəttə, söhbət prinsipial məsələlərdə olan mübahisələrin kəsilməsindən gedir) də yenə 30-cu illərin ortalarından etibarən xalq kütləsinin ictimai-mədəni fəaliyyətinin genişlənməsilə mümkün oldu. 30-cu illərin ortalarından etibarən ziyalılar daha ardıcıl şəkildə demokratik mövqedə durdular, onların tərkibi sürətlə dəyişdi.

Birinci mərhələnin sonlarında artıq ədəbi dilin normativ leksik tərkibi müəyyənləşmişdi. Ə.Babazadə, D. Quliyev, Y.Əliyev və C.Əfəndiyevin birgə tərtib etdikləri «Orfoqrafiya lüğəti» 1940-cı ildə nəşr edildi, bu lüğət müəyyənləşmiş normanı əks etdirirdi.

1920-1940-cı illərdə lüğət tərkibinin normalaşması prosesi başa çatdı, söz yaradıcılığı mənbələrinə leksik inkişafın münasibəti müəyyən edildi, ədəbi dillə xalq dilinin qarşılıqlı əlaqəsi təmin olundu. Sonrakı mərhələdə lüğət tərkibinin inkişafı məhz birinci mərhələdə əsası qoyulmuş prinsiplərlə gedir.

---

[1] Н.П.Петров. Чувашский язык в советскую эпоху, Чебоксары, Чувашское книжное издательство, 1980, стр. 124.

İ k i n c i m ə r h ə l ə
40-80-ci illərdə lüğət tərkibinin inkişafı

1940-1980-ci illər mərhələsi Azərbaycan ədəbi dilinin həqiqi mənada çiçəklənmə dövrünü təşkil edir. Ədəbi dilin inkişaf prosesi gücləndikcə lüğət tərkibinin zənginləşməsi üçün daha real imkanlar yaranan bu mərhələdə dildaxili qanunların çəkisi də artmağa başlayır. Bu mərhələnin ən səciyyəvi xüsusiyyətləri söz yaradıcılığı imkanlarının artması ilə birlikdə ədəbi dilin terminoloji potensialının rus dili alınmaları hesabına zənginləşməsindən ibarətdir. Bu mərhələdə, xüsusən mərhələnin ilk dövrlərində ədəbi dildə işlənmiş, lakin ümumxalq malı ola bilməyən bir sıra rus sözlərinin potensialı azalmış, daha məqbul və ümumişlək ərəb-fars mənşəli sözlər yenidən ədəbi dilə qaytarılmışdır.

Lüğət tərkibinin mənşə mənzərəsini təsəvvür etmək üçün 1940 və 1975-ci illərdə nəşr olunmuş orfoqrafiya lüğətlərinin leksikasının bu baxımdan (mənşə münasibəti baxımından) müqayisə edilməsi maraqlı nəticələrə gəlməyə imkan verir; hər şeydən əvvəl ona görə ki, bu lüğətlərdən birincisi, lüğət tərkibinin sovet dövründəki inkişafının birinci, ikincisi isə ikinci mərhələsini təqribi yekunlaşdırır. İrəlicədən qeyd edək ki, o sözlər ki Azərbaycan dili sözdüzəldicilik vasitələri ilə formalaşıb, kökünün hər hansı dilə məxsus olmasına baxmayaraq onlar Azərbaycan sözləri kimi hesaba alınır.

Cədvəldə **Az** – Azərbaycan, **ƏF** – ərəb-fars, **RA** – rus-Avropa mənşəli sözləri göstərir:

Hərflər	Mənşə tərkibi	1940	1975	Hərflər	Mənşə tərkibi	1940	1975
1	*2*	*3*	*4*	*1*	*2*	*3*	*4*
A	Az	808 (-51,8%)	2600 (75,9%)	B	Az	812 (62%)	3082 (83,3%)
	ƏF	120 (7,7%)	235 (6,7%)		ƏF	203 (15,4%)	330 (8,9%)
	RA	631 (40,5%)	593 (17,4%)		RA	296 (22,6%)	282 (7,8%)
V	Az	124 (38,4%)	504 (62,2%)	Q	Az	1025 (73,2%)	4382 (89,7%)
	ƏF	70 (21,6%)	151 (18,6%)		ƏF	173 (12,4%)	383 (7,6%)
	RA	129 (40%)	155 (19,2%)		RA	202 (14,4%)	119 (2,7%)
D	Az	726 (58,9%)	3883 (86,3%)	E (Э)	Az	114 (25,8%)	658 (72,4%)
	ƏF	131 (10,6%)	380 (8,5%)		ƏF	37 (8,4%)	72 (8%)
	RA	377 (30,5%)	233 (5,2%)		RA	291 (65,8%)	178 (19,6%)
Ə	Az	309 (62,8%)	1338 (75,7%)	J	Az	5 (16,1%)	10 (21,8%)
	ƏF	183 (37,2%)	430 (24,3%)		ƏF	1 (3,2%)	1 (2,1%)
	RA	–	–		RA	25 (80,7%)	35 (76,1%)
Z	Az	180 (49,4%)	776 (77,7%)	İ	Az	355 (47,1%)	1754 (77,3%)
	ƏF	150 (41,2%)	207 (20,7%)		ƏF	153 (20,2%)	405 (17,8%)
	RA	34 (9,4%)	15 (1,6%)		RA	249 (32,7%)	109 (4,9%)
Y (E, Й, Ю, Я)	Az	738 (90,4%)	1878 (96,7%)	K	Az	605 (48,1%)	2543 (74%)
	ƏF	24 (3%)	48 (2,5%)		ƏF	128 (10,2%)	415 (12%)
	RA	54 (6,7%)	15 (0,8%)		RA	523 (41,7%)	480 (14%)
G	Az	399 (90,3%)	1542 (88,1%)	L	Az	163 (38,4%)	579 (63,3%)
	ƏF	43 (9,7%)	153 (8,7%)		ƏF	80 (18,8%)	230 (25,2%)
	RA	–	55 (3,3%)		RA	182 (42,8%)	105 (11,5%)

M	Az	305 (23,3%)	2068 (59,8%)	N	Az	172 (33,3%)	855 (62,4%)
	ƏF	493 (37,7%)	950 (27,8%)		ƏF	174 (33,4%)	420 (30,7%)
	RA	506 (39%)	430 (12,4%)		RA	171 (33,3%)	95 (6,9%)
O	Az	197 (55,5%)	701 (84,7%)	Ö	Az	113 (95,8%)	381 (98,4%)
	ƏF	3 (0,8%)	7 (0,8%)		ƏF	5 (4,2%)	6 (1,6%)
	RA	155 (43,7%)	120 (14,5%)		RA	–	–
P	Az	321 (35,6%)	1573 (79,5%)	R	Az	69 (14,3%)	587 (63,5%)
	ƏF	83 (9,2%)	105 (5,3%)		ƏF	103 (21,4%)	112 (12,3%)
	RA	498 (55,2%)	302 (15,2%)		RA	310 (64,3%)	220 (24,2%)
S (C, Ц)	Az	809 (52%)	4162 (90%)	T	Az	592 (55%)	3273 (90,8%)
	ƏF	244 (16%)	182 (4%)		ƏF	261 (25%)	223 (6,2%)
	RA	509 (32%)	280 (6%)		RA	218 (20%)	110 (3%)
U	Az	148 (75,5%)	587 (93,2%)	Ü	Az	82 (76,7%)	610 (94,1%)
	ƏF	3 (1,5%)	3 (0,5%)		ƏF	25 (23,3%)	38 (5,9%)
	RA	45 (23%)	40 (6,3%)		RA	–	–
F	Az	116 (22%)	655 (60,7%)	X	Az	221 (54,1%)	903 (76%)
	ƏF	97 (18,4%)	155 (14,3%)		ƏF	132 (32,4%)	252 (21%)
	RA	314 (59,6%)	270 (25%)		RA	55 (13,4%)	33 (3%)
H	Az	300 (38,6%)	1981 (75,2%)	Ç	Az	537 (86,7%)	1898 (95%)
	ƏF	270 (34,8%)	352 (19,2%)		ƏF	60 (9,7%)	72 (3,6%)
	RA	206 (26,6%)	103 (5,6%)		RA	22 (3,6%)	28 (1,4%)
C	Az	255 (59%)	945 (81,5%)	Ş	Az	169 (42%)	1156 (82%)
	ƏF	175 (40%)	212 (18,2%)		ƏF	189 (47%)	215 (15,3%)
	RA	4 (1%)	3 (0,3%)		RA	44 (11%)	33 (2,7%)

Mənşə tərkibi	Cəmi	
	1940	1975
Az	10769 (52,2%)	47255 (80,9%)
ƏF	3813 (18,6%)	6744 (11,5%)
RA	6050 (29,2%)	4441 (7,6%)

Statistik müqayisələr aşağıdakı nəticələrə gətirib çıxarır:

I. Azərbaycan sözlərinin sayı 10.769-dan 47.255-ə çatmışdır, yəni təqribən 4 dəfə artmışdır; bunun nəticəsində Azərbaycan sözlərinin çəkisi 52,2%-dən 80,9%-ə qədər, yəni təxminən 28% artmışdır. Müşahidələr göstərir ki, bu cür artım aşağıdakı leksik proseslərdən irəli gəlir:

1) ərəb-fars, xüsusilə rus-Avropa mənşəli söz köklərinin Azərbaycan dili sözdüzəldicilik vasitələrini qəbul etməsi ilə bağlı olaraq alınma sözlərin milli kontekst tərəfindən mənimsənilməsi prosesi güclənir;

2) daxili imkanlar vasitəsilə yeni sözlər meydana gəlir.

II. Ərəb-fars mənşəli sözlərin sayı 3813-dən 6744-ə çatır, təqribən 1,5 dəfə artır; bu, onunla əlaqədardır ki, 20-ci, xüsusilə 30-cu illərdə lüğət tərkibindən sıxışdırılıb çıxarılmış 3000-ə qədər söz yenidən ədəbi dilə qayıdır; tarixi-ictimai yüksəliş klassik mədəniyyəti xalqa qaytarır, buna uyğun olaraq klassik dil də canlandırılır və nəticədə, ərəb-fars mənşəli sözlərin kəmiyyəti artır. Lakin lüğət tərkibindəki ümumi çəkisi 18,6%-dən 11,5%-ə düşür, yəni təxminən 7% azalır.

III. Rus-Avropa mənşəli sözlərin sayı 6050-dən 4441-ə enir, 1,5 dəfə azalır; göründüyü kimi, bu nisbət ərəb-fars

mənşəli sözlərin artım nisbətinə bərabərdir, 20-ci, xüsusən 30-cu illərdə ədəbi dilə süni şəkildə daxil edilən rus-Avropa mənşəli sözlər 40-cı, 50-ci illərdə tədricən ədəbi dildən çıxır. Eyni zamanda həmin sözlərin mənimsənilməsi prosesi gedir; hər şeydən əvvəl, rus-Avropa mənşəli sözlərdən Azərbaycan dili sözdüzəldicilik vasitələri ilə yeni sözlər yaranır, digər tərəfdən də kalka yolu ilə söz artımı güclənir, – bunlar isə rus-Avropa mənşəli sözlərin xüsusi çəkisinin azalması deməkdir.

IV. Qeyri-Azərbaycan sözlərinin, ümumiyyətlə, azaldığı diqqəti cəlb edir; əgər 1940-cı ildə nəşr edilən lüğətdə alınma sözlər 47,8% təşkil edirdisə, yəni Azərbaycan sözləri ilə alınma sözlər təxminən yarıbayarı idisə, 1975-ci ildə nəşr edilən lüğətdə alınma sözlərin çəkisi 19,1%-ə düşür, 28,7% azalır, bu isə böyük rəqəmdir; ədəbi dilin lüğət tərkibində milliləşmə faizi 28,7-yə bərabər olur.

V. Statistik təhlil ümumən lüğət tərkibində mənşə baxımından gedən dəyişiklikləri əks etdirdiyi kimi, bu və ya digər yarımsistemlərdəki prosesləri izah etmək istiqamətində də maraqlıdır; məsələn, 1940-cı ilin lüğətində k hərfi ilə başlayan rus-Avropa mənşəli söz yoxdur, 1975-çi ilin lüğətində isə 55 söz vardır; bu da həmin hərflə başlayan sözlərin 3,3%-i deməkdir… Səbəbi odur ki, 1940-cı il lüğətində q ilə təqdim olunan sözlər 1975-ci ilin lüğətində k ilə verilir və nəticədə, q ilə başlayan sözlərdə rus-Avropa sözlərinin xüsusi çəkisi 202-dən 119-a düşür, yəni 11,7% azalır…

Ümumiyyətlə isə, hər hansı hərflə başlayan sözlərdə özünü göstərən tarixi nisbət ümumən lüğət tərkibindəki ilə eynidir; ərəb-fars sözlərinə nisbətən rus-Avropa sözlərinin xüsusi çəkisi (faizi) daha çox azalır, məsələn, deyək ki, *A* hərfi ilə başlayan sözlərdə ərəb-fars mənşəli sözlərin xüsusi

çəkisi 1%, rus-Avropa mənşəli sözlərin xüsusi çəkisi 23,1%, *V* hərfi ilə başlayan sözlərdə uyğun olaraq 6,5% və 14,8%, *V* hərfi ilə başlayan sözlərdə 3% və 20,8%, ümumiyyətlə lüğət tərkibində isə 7,1% və 21,6% azalır.

Beləliklə, lüğət tərkibində baş verən inkişafın statistik ifadəsi birinci mərhələyə nisbətən ikinci mərhələdə milli vahidlərin maksimum üstünlüyə malik olduğunu (yəni 52,2%-ə qarşı 80,9%), alınma sözlərin isə azaldığını (yəni 47,8%.-ə qarşı 19,1%) göstərir; ikinci mərhələdə millilik normativləşir – həm milli vahidlərin kəmiyyəti artır, həm də qeyri-milli leksik material imkan daxilində azərbaycancalaşır, Azərbaycan dili leksik-semantik sisteminin üzvi tərkib hissəsinə çevrilir.

Cəmiyyət həyatında baş verən bir çox ictimai-siyasi hadisələrlə əlaqədar bu mərhələnin ayrı-ayrı dövrlərində ədəbi dilin inkişafında spesifik cəhətlər müşahidə olunur. Məsələn, 1946-1950-ci illərdə sənaye və kənd təsərrüfatının inkişafı, 1955-1960-cı illərdə kosmik fəzanın tədqiqi, 1960-cı illərdən sonra elmi-texniki tərəqqinin coşğun inkişafı ilə dildə yeni dövr üçün səciyyəvi olan sözlərin yaranması ikinci mərhələnin əsas xüsusiyyətlərindəndir. Beləliklə, ədəbi dilin 1940-1980-ci illəri əhatə edən inkişaf mərhələsində də tam sabitlik olmamışdır. Ədəbi dildən bu və ya digər alınma sözün çıxarılması, onun yerinə başqasının gətirilməsi və ya bu dilin özündə ona qarşılıq axtarılması kimi proseslər daim davam etmişdir. 60-cı illərdən sonra lüğət tərkibində belə dəyişmə proseslərinin nisbətən azalması və ictimai-iqtisadi, habelə elmi-texniki tərəqqi ilə əlaqədar Azərbaycan dilinin daxili imkanlarına əsaslanan yeni sözlərin yaradılması meyili daha da güclənir. Bu dövrdə rus dilinin təsiri ilə yaranan və rus dilindən alınan yeni terminoloji vahidlərin

ədəbi dildə işlədilməsi davam edir. Buna görə də 1940-80-ci illər mərhələsinin özünü də iki əsas dövr üzrə (1940-1960-cı və 1960-1980-ci illər) səciyyələndirmək məqsədəuyğundur.

I.

1940-cı illərin əvvəllərindən etibarən ədəbi dilin lüğət tərkibi, başqa cür desək, leksik norma elmi-mədəni mühit tərəfindən daha ardıcıl şəkildə nəzərdən keçirilir, müzakirə olunur. 1944-cü il Dil konfransında M.A.Şirəliyev «İstilahlar yaradılmasındakı əsas prinsiplər» mövzusunda məruzə edir[1]. Məruzədə göstərilir ki, «elm və texnikanın ayrı-ayrı sahələri üçün yaranan istilahların mənbəyi bir tərəfdən bu milli dillərin öz geniş, zəngin lüğət materialları, digər tərəfdən də bu dildə çoxdan bəri işlədilən əcnəbi sözlər ola bilər»[2].

M.A.Şirəliyev aşağıdakı alınma sözlərin işlədilməsini ona görə nöqsan sayır ki, onun fikrincə, həmin sözlərin qarşılığı mövcuddur: *эпоха, реакция, уклон, база, базис, импорт, экспорт, агитация, пропаганда, гипотеза, абстракт, обсолют, анархия, централизм, тирания, культура, экономика, автор, стил, образ, инфинитив, лексика, грамматика, геометрия, арифметика, процент, циркул, география, календар, карта, эхо, территория, полюс, космос, каток, физкультура, мускул, нерв, орган, температура, пулс, холера, слесар,*

---

[1] *Bax:* M.A.Şirəliyev. İstilahlar yaradılmasında əsas prinsiplər. – Dil institutunun əsərləri, Bakı, Azərb. SSR EA nəşriyyatı, 1947, I cild, səh. 27-42.

[2] Yenə orada, səh. 27.

мастерская, керосин və s[1].

M. A. Şirəliyevin nümunə gətirdiyi lüğəvi vahidlərin bir hissəsi ədəbi dildə normaya çevrilib işləndi (məsələn: *baza, bazis, abstrakt, anarxiya, obraz, leksika, qrammatika, kosmos, orqan* və s.), lakin bununla belə, müəllifin müdafiə etdiyi prinsiplər əsasən özünü doğruldur; onun fikrincə, istilahlar mümkün qədər xalq dilindən alınmalıdır, yaxud xalq dili əsasında düzəldilməlidir (məsələn: yarış, beşillik, uduş, bildiriş, dilçilik, udlaq, toxuma, atıcılıq, bucaq, üçbucaq, səsboğan, səstutan, taxıldöyən və s.[2]); ərəb-fars sözləri ki, artıq Azərbaycan dili tərəfindən mənimsənilib, onlar dildən çıxarılmamalıdır; nəhayət, rus-Avropa sözlərindən müasir elmin, mədəniyyətin ifadəçisi kimi istifadə edilməlidir[3]. M. A. Şirəliyev doğru olaraq göstərir ki, «əgər xalq dili lazımi dərəcədə öyrənilmiş və buna aid geniş lüğətlər yazılmış olsaydı, biz bu gün dil və istilah yaradılması işində o qədər də çətinlik çəkməzdik»[4].

M. A. Şirəliyevin məruzəsi ədəbi dilin lüğət tərkibinin sovet dövründəki inkişafının birinci mərhələsindəki vəziyyəti ümumiləşdirir və ikinci mərhələnin başlanğıcında inkişaf üçün demokratik, real prinsiplər müəyyən edir; doğrudur, ikinci mərhələdə də bir sıra təbəddülatlar baş verir, lakin həmin demokratik prinsiplər əsas etibarilə gözlənilir, çünki onları inkişafın öz daxili məntiqi irəli sürmüşdü.

Lüğət tərkibinin daha ciddi normalar əsasında təkmilləşməsi istiqamətində aparılan araşdırmalar Böyük Vətən müharibəsi ilə əlaqədar ləng gedir, amma dayanmır;

---

[1]M.A.Şirəliyev. Göstərilən əsəri, səh. 28.
[2] Yenə orada, 29.
[3] Yenə orada
[4] Yenə orada, səh. 30.

məhz bu illərdə bütün mürəkkəbliyi ilə dərk edilir ki, «Şəkilcə milli, məzmunca sosialist mədəniyyətimizin inkişafında ən mühüm sahələrdən biri də istilah məsələləridir. İstilah yaradıcılığı xalqın, dövlətin ciddi məsələləri sırasında durmalıdır. Elmin, mədəniyyətin kütləvi və həyati olması, istilahların xalqın ruhuna uyğun, xalqın başa düşəcəyi bir şəkildə və digər tərəfdən də elmi əsaslar üzərində qurulması məsələsini qarşıya qoyur. Buna görə də istilah yaradıcılığı Azərbaycan mədəniyyətinin keçmiş tarixini, indiki vəziyyətini və gələcək inkişaf yollarını nəzərə alaraq, məsələyə ciddi və hərtərəfli yanaşmağı tələb edir»[1].

Həmin qənaətin müəyyənləşməsi üçün, əslində, xeyli vaxt lazım gəlmişdi, ictimaiyyət müzakirələrə qoşulmuşdu; elə bunun nəticəsi idi ki, istilah (istilah «terminologiya»da geniş mənada işlədilirdi) yaratmaq prinsipləri demokratik planda quruldu. 1952-ci ildə Azərbaycan SSR EA Rəyasət heyəti yanında Terminologiya Komitəsi təşkil edildi və komitə müxtəlif sahələr üzrə terminoloji lüğətlərin hazırlanmasına nəzarətə başladı. Ümumiyyətlə, belə bir fakt maraqlıdır ki, 1930-cu ildən 1940-cı ilə qədər, yəni birinci mərhələnin son onilliyində 30-a yaxın, 1941-1942-ci illərdə 4 terminoloji lüğət nəşr olunduğu halda, 1942-ci ildən Terminologiya Komitəsinin təşkilinədək, yəni on il ərzində heç bir terminoloji lüğət nəşr edilməmişdir…[2].

Əlbəttə, bu, o demək deyildir ki, 40-cı illərdə termin yaradıcılığı zəifləyir. Sadəcə olaraq, bir tərəfdən, müharibə dövründə bu cür professional məsələlərə diqqət azalır, ikinci tərəfdən, həmin illərin keçid dövrü olması özünü hiss

---

[1] M.A.Şirəliyev. Göstərilən əsəri, səh. 41.

[2] Ə.Ə.Orucov. Terminoloji leksika haqqında bəzi qeydlər. Nitq mədəniyyəti məsələləri, Bakı, «Elm» nəş., 1969, səh. 15.

etdirir; 30-cu illərə qədər gələn paralellik (ikiqat yox, üçqat paralellik: Azərbaycan, ərəb-fars, rus-Avropa) 40-cı illərdə tam mənası ilə aradan qalxmırsa, demək hələ yaşamaq iddiasındadır, daxili enerjisi var. Bu enerji ancaq 50-ci illərdə tükənir.

50-ci illərdə nəşr olunan terminoloji lüğətlər maksimum demokratik lüğətlər hesab oluna bilər; lüğətlərin sözlüyündə milli vahidlər aparıcıdır; məsələn, «İzahlı neft geologiyası lüğəti»ndən[1] aşağıdakı terminlərə diqqət edək: *ana süxurlar, asılı sular, axtarış quyusu, açıq yataqlar, aşırılmış qırışıq, bərkitmə, buzlaqarası çöküntülər, verim əyrisi* və s. və i. a.

50-ci illərdə terminologiya sahəsindəki axtarışların müəyyən nəticələri 60-cı illərdə buraxılmış lüğətlərdə əks olunur. «Botanika terminləri lüğəti»[2] buna nümunə ola bilər. Lüğətdə *dəmyə əkin, amöbəoxşar quruluş, örtülü toxumlular, paxlalı, budaqlanma, su qıtlığı, əmici tellər, becərmə, sorucu, sistem* kimi terminoloji söz və ifadələrlə yanaşı, birbaşa tərcümədən gələn, yaxud müvəffəqiyyətsiz tapılmış vahidlər də mövcuddur; məsələn: *soxulmuş areal, təpədən böyümə, hava gübrəsi, yetişmiş oyuncaq* və s.

Beləliklə, 40-cı, xüsusilə 50-ci illərdə Azərbaycan ədəbi dili lüğət tərkibinə münasibətdə aşağıdakı meyillər diqqəti cəlb edir:

1) axtarışların ümumiyyətlə lüğət tərkibini əhatə etməsi dayanır, diqqət daha çox terminologiya məsələlərinə verilir: 30-cu illərdə lüğət tərkibinin demokratik əsaslar üzərində qurulması terminologiyanın da tədricən bu istiqamətdə təşkilini təkid edir;

---

[1] Q.A.İsmayılov, Ə.V.Məmmədov, S.H.Salayev. İzahlı neft geologiyası lüğəti, Bakı, Azərb. Dövlət neft və elmi-texniki ədəbiyyat nəşriyyatı, 1959.

[2] Botanika terminləri lüğəti, Bakı, Azərb. SSR EA nəş., 1963

2) sabit leksik normanın müəyyənləşməsi ilə lüğət tərkibində stilistik diferensiasiya güclənir;

3) yeni anlayışlar əksərən sintaktik yolla ifadə olunur, ona görə də söz birləşmələrinin leksik-semantik imkanları genişlənir – hər şeydən əvvəl, metaforalaşma yolu ilə müxtəlif sahələrə aid ifadələr yaranır.

50-ci illərdə ədəbi-bədii dildə lüğət materialı ilə əlaqədar gedən proseslər ümumən lüğət tərkibindəki dialektik münasibətləri ifadə edir; bir tərəfdən ənənəvi söz-obrazlar qalır (afət, pünhan, əsrar, cilvə, qəmzə, peyman, əhd və s.), digər tərəfdən leksik novatorluq aydın görünür[1].

Ədəbi-bədii dildə leksik inkişaf həmişə iki şəkildə özünü göstərir: arxaikləşmə yolu ilə, bir də yeniləşmə yolu ilə; sözlərin arxaikliyini onların işlənmə tezliyi, daha doğrusu, məhdud işlənmə xüsusiyyəti müəyyən edir; yeniləşmə isə üslubi dəblə bağlı olur, söz və ifadələr tədricən işləkliyini genişləndirir. 50-ci illərdə ədəbi-bədii dildə arxaikləşmə ən çox ərəb-fars sözlərini əhatə edir, yeniləşmə isə bir qayda olaraq milli təfəkkür vasitəsilə diktə olunur (yəni yeniləşmə milliləşmə atributu ilə çıxış edir); məsələn: *tellənmək, sızıldı, vətəncanlı, çillə-çillə, adamcığaz*[2] və s.

Poetik təfəkkürün söz axtarışı milli köklərə istinad etdiyinə görə alınan məhsul da demokratik məzmuna malik olur; əlbəttə, bu məhsulun normativləşib - normativləş-məməsini ədəbi dilin, onun estetik məzmununun sonrakı vəziyyəti müəyyən edir, lakin fakt faktlığında qalır ki,

---

[1] *Bax:* T. Hacıyev. Elmi-zehni səviyyə və bədii dildə novatorluğun faktı. – «Azərbaycan» jur., 1980, № 10.

[2] Misallar buradan alınır: Г.А.Абдуллаева. Художественный стиль современного азербайджанского литературного языка, Баку, АКД, 1987, стр. 15-16.

məhsulun özü milli əsaslar üzərində yaranmışdır. Bu cür novatorluq həm geniş, həm də dar miqyaslı ola bilir, başqa sözlə, fərdi səciyyə daşıyır.

50-ci illərdə lüğət tərkibinin mənzərəsini müəyyən edən bir mühüm məsələ də ondan ibarətdir ki, dialekt leksikası kütləvi şəkildə ədəbi-bədii dilə ayaq açır; bu, mənşə etibarilə stilistik hadisə olsa da, nəticə-etibarilə normativ hal alır: *üşürgələnmək, suvadaq, çiləkən, cələ, oxranmaq, təntimək* (İ.Şıxlı); *ölüşkəmək, öykəşik* (İ.Hüseynov); *çığnamaq, çəhlim*; (B.Bayramov) və s. Görünür, 30-cu, 40-cı, 50-ci illərdə şivə materialına maraq da ədəbi dilin lüğət tərkibinin xalq dilinə daha yaxın olmasına təkan verir; o illərdə dialekt materialının toplanması sahəsində böyük işlər görülürdü, bu isə ümumən leksik normaya təsir etməyə bilməzdi. Təsir ikitərəfli idi; həm leksik-semantik planda, həm də formal-söz yaradıcılığı planında gedirdi – hər iki halda lüğət tərkibi xəlqiləşirdi. Dialektlərin təsiri diferensial sahələri – ədəbi-bədii dili də, elmi üslubu da eyni zamanda əhatə edir, lakin ədəbi-bədii dildə öz xəlqi gücünü daha çox hiss etdirir.

40-50-ci illərdə Azərbaycan ədəbi dili lüğət tərkibində stilistik diferensiasiyanın artması onunla nəticələnir ki, leksik proseslərin bu və ya digər funksional üslub üçün avtonomiyası müəyyənləşir; hər bir üslubun öz kontekstində öz tipologiyasına uyğun axtarışlar gedir və bu cür diferensiallıq lüğət tərkibinin ümumi mənzərəsinə təsir edir.

* * *

Ədəbi dilin bu mərhələsində (40-60-cı illərdə) daxili imkanlar hesabına bir sıra yeni düzəltmə və mürəkkəb sözlər, söz birləşmələri meydana çıxmışdır. Bunları aşağıdakı kimi qruplaşdırmaq olar:

Düzəltmə sözlər. Bütün dövrlərdə olduğu kimi, Böyük Vətən müharibəsindən sonrakı dövr ədəbi dilində də söz yaradıcılığının əsas qolu morfoloji yolla yeni sözlər yaradılması olmuşdur. Coşğun sosial-iqtisadi inkişaf dövründə düzəltmə yolla sözyaratmanın rolu xüsusilə artmışdır. Yeni anlayışları ifadə etmək üçün söz yaradıcılığı prosesində, hər şeydən əvvəl, sənət, peşə və digər əməli fəaliyyət sahələri ilə bağlı sözlər əmələ gətirən şəkilçilərin məhsuldarlığı daha çox diqqəti cəlb edir.

Bu dövrdə sözyaratma prosesində daha fəal iştirak edən və nəzəri daha çox cəlb edən əsas şəkilçilər aşağıdakılardır:

-çı (-çi, -çu, -çü) şəkilçisi. Dilimizdə sənət, peşə, ixtisas anlayışı bildirən sözlərin əmələ gəlməsində bu şəkilçinin mühüm rolu olmuşdur.

Sovet dövrü Azərbaycan ədəbi dilinin inkişafının xüsusilə ikinci mərhələsində lüğət tərkibi bu şəkilçi vasitəsilə düzəlmiş ictimai məzmunlu bir çox yeni sözlərlə zənginləşmişdir. Həmin sözlərin böyük əksəriyyəti kənd təsərrüfatı və ictimai əmək sahələri ilə bağlıdır. Əsasən, 1940-60-cı illərdə düzəlmiş *-çı*[4] şəkilçili *üçyüzçü, rekordçu, təşəbbüsçü, universalçı, podratçı, avtomobilçi, yemçi, hüquqçu* və s. sözlər xüsusilə səciyyəvidir.

-çı, + -lıq şəkilçisi. Ədəbi dilin sabitləşmə dövründə bu iki şəkilçinin birləşməsi yolu ilə də xeyli yeni söz düzəlmişdir. Bu cür sözlərdən *kartofçuluq, təsərrüfatçılıq, baramaçılıq, qarğıdalıçılıq* və sairi göstərmək olar.

-ıçı (-içi, -uçu, -üçü) şəkilçisi. Ədəbi dilin ictimai

məzmunlu yeni sözlərlə zənginləşməsində *-ıçı (-içi, -uçu, -üçü)* şəkilçisi vasitəsilə düzələn sözlərin də özünəməxsus rolu vardır. Bu şəkilçi vasitəsilə xüsusən kənd təsərrüfatının inkişaf xüsusiyyətlərinə aid anlayışları əks etdirən *göstərici, sazlayıcı, çiləyici, tozlayıcı* və s. kimi bir sıra yeni sözlər əmələ gəlmişdir.

1940-60-cı illərdə sosialist əmək həyatının coşğun inkişafı ilə əlaqədar yeni anlayışları ifadə edən düzəltmə sözlərin sinonim cərgələri yaranmışdır ki, ədəbi dilin lüğət tərkibinin zənginləşməsində bunların da müəyyən rolu vardır. Bunlardan *əməkçi* və *zəhmətkeş* sözləri xüsusilə səciyyəvidir. Bu sözlərin məna yaxınlığı, xüsusən onların bir komponent kimi iştirak etdiyi *kənd əməkçiləri – kənd zəhmətkeşləri, tarla əməkçiləri – tarla zəhmətkeşləri, rayon əməkçiləri – rayon zəhmətkeşləri* kimi birləşmələrdə qabarıq şəkildə özünü göstərir.

Mürəkkəb sözlər. Nəzərdən keçirilən dövr üçün bir çox yeni mürəkkəb sözlər də səciyyəvi idi. Bunların böyük əksəriyyəti lüğət tərkibinə daxil olaraq ədəbi dili zənginləşdirən vasitələr kimi mühüm rol oynasa da, bəziləri elmi-texniki tərəqqi və istehsal proseslərinin təkmilləşməsi ilə əlaqədar işləklik potensialını itirmiş, yalnız lüğət tərkibinin əlavə hissəsində öz izlərini saxlaya bilmişdir. Müəyyən dövrdə ədəbi dildə işlək olmuş mürəkkəb sözlərin bir qismi isə həmin dövr hadisələri ilə bilavasitə bağlı olduğundan onların da işlənmə potensialının zəifliyi müşahidə edilir.

Azərbaycan ədəbi dilinin lüğət tərkibini zənginləş-dirmək baxımından bilavasitə sosialist təsərrüfatının çiçək-lənməsi, elmi-texniki tərəqqi və ümumiyyətlə, ictimai həyatın müxtəlif sahələrinin inkişafı ilə bağlı bu dövrdə *yembasdırma, məktəbdənkənar, kolxozlararası, cərgələr-*

arası, pambıqyığan, çiyidsəpən, silosdöyən, silosbasdıran, bağsalma, bağbecərmə, çaybecərmə, tütünbeçərmə, taxıl-becərmə və s. kimi mürəkkəb sözlər işlənməkdə idi.

Söz birləşmələri. Bu dövrü səciyyələndirən yeni anlayışların ifadəsi ilə əlaqədar yaranmış bir sıra söz birləşmələri diqqəti cəlb edir. Ədəbi dildə yaranan belə birləşmələr, əsasən, terminoloji funksiya daşıyırdı.

Qeyd etməliyik ki, belə birləşmələr sosialist gerçəkliyinin təntənəsi ilə bağlı anlayışları ifadə etdiyindən ümumxalq səciyyəsi daşımağa daha çox meyilli olmuşdur. Ona görə də ümumxalq dilinin kütləvi ifadə vasitələri sırasına keçdikcə onların terminoloji cəhəti də bir növ unudulmuş olur. Başqa sözlə desək, belə birləşmələr vaxt keçdikcə terminə xas olan məhdud işlənmə dairəsindən çıxır və onların istifadə əhatəsi genişlənir. Lakin ədəbi dildə həmin dövrlərdə terminoloji səciyyəli elə söz birləşmələrinə də təsadüf edilir ki, onların bildirdiyi anlayışlar sonradan aradan çıxdığı üçün həmin birləşmələr də öz işləkliyini itirir.

1940-1945-ci illərdə ədəbi dildə hərbi məzmunlu birləşmələr geniş işlənmə əhatəsinə malik idi. Bununla yanaşı, həmin dövrdə kənd təsərrüfatı və sənayenin irəliləyişi ilə əlaqədar olan yeni terminoloji vahidlər də yaranırdı. Təsərrüfat quruculuğu və sənayenin inkişafı məsələlərini əks etdirən birləşmələrin potensialı 1945-ci ildən sonra xüsusilə güclənməyə başlamışdır. Müharibədən sonra da ədəbi dildə hərbi terminlərin işlədildiyinə təsadüf olunurdu. Lakin bunların çoxu sülh və əmin-amanlıq dövrünə məxsus ictimai məzmuna malik idi. Ümumiyyətlə, 1940-60-cı illərdə yaranan terminoloji səciyyəli söz birləşmələrini onların ifadə etdikləri məzmuna görə bir neçə qrupa ayırmaq olar.

Hərbi vəziyyət və müharibə şəraiti ilə əlaqədar işlənənlər. Böyük Vətən müharibəsi illərində dövrlə, şəraitlə əlaqədar yalnız Azərbaycan ədəbi dilində deyil, bütün SSRİ xalqlarının dillərində hərbi terminlərin işlənmə potensialı genişlənmişdi[1]. Köhnə hərbi terminlərlə yanaşı, yeni hərbi məfhumları, anlayışları ifadə etmək üçün dilin öz daxili imkanları hesabına yeni hərbi terminlər meydana çıxırdı.

Azərbaycan ədəbi dilində 1940-1945-ci illər üçün daha səciyyəvi olan, sonralar işlənmə potensialı zəifləyən söz birləşmələrindən *küçə vuruşmaları, düşmən avtomatçıları, cəbhə xətti, hərbi komendant, hərbi sifarişlər, komanda məntəqəsi, atıcı diviziya, döyüşən ordu, qərb cəbhəsi, cənub cəbhəsi, Qafqaz cəbhəsi, avtomatçı qruplar* və s. göstərmək olar. Bunların bəzilərinin, xüsusən hərbi dairə, hərbi sifarişlər, qoşun dəstəsi, hərbi anbar və s. tipli birləşmələrin sonrakı dövrlərdə imperialist dövlətlərin hərbi təcavüzkarlıq planları və sürətlə silahlanma tədbirləri ilə əlaqədar işlədilməsinə də təsadüf etmək mümkündür.

Hərbi leksik qat ümumən bu dövrdə türk dillərinin leksikasında əhəmiyyətli yer tutmuşdur, Azərbaycan dilində də hərbi terminologiyanın işləkliyi diqqəti çəkir; 20-ci, 30-cu illərdə bu leksik qat publisistikanın ixtiyarına keçmişdi və təkcə hərbi məzmunlu anlayışları deyil, təsərrüfatın, elmin, mədəniyyətin yüksəlişi ilə bağlı anlayışları da metaforlaşaraq ifadə edirdi; məsələn: *əmək cəbhəsi, zərbə vurmaq, zəhmət ordusu, hücum, səfərbərlik,*

---

[1] *Bax:* M.Ş.Şirəliyev. Azərbaycan sovet bədii ədəbiyyatının dili. – «Ədəbiyyat» qəzeti, 1951, 16 may: Yenə onun: К вопросу развития азербайджанского литературного языка в советский период. 10 лет. АН Азерб. ССР (1945—1955). Изд. АН Азерб. ССР, Баку, 1957, стр. 598-599; Yenə onun: Sovet dövrü Azərbaycan ədəbi dilinin inkişafı. – «Azərbaycan dili və ədəbiyyat tədrisi», I bur., Bakı, 1957, səh. 14, və s.

döyüşkən, gənc qvardiya və s. ifadələrin əsas hissəsi rus dilindən kalka idi, lakin Azərbaycan dilində dərhal vətəndaşlıq hüququ almışdı.

30-cu illərdən hərbi terminologiya təkcə ölkənin təsərrüfat yüksəlişi ilə yox, həm də müdafiəsi ilə əlaqədar mətbuat dilində sıx-sıx işlədilməyə başlayır. Böyük Vətən müharibəsi dövründə isə hərbi leksik qatın böyük aktivliyə malik olması artıq tarixi zərurət idi.

Böyük Vətən müharibəsi – sovet cəmiyyətinin tarixində mühüm mərhələ olduğuna görə bütün SSRİ xalqlarının dillərinə, birinci növbədə, lüğət tərkibinə təsir edir; bu dövr rus dilində gedən leksik-semantik proseslərə ayrıca tədqiqat işi həsr edilmiş, hərbi şəraitlə əlaqədar yaranan sözlərin, ifadələrin geniş təhlili verilmişdir[1]. Analoji proseslər Azərbaycan dilində də getmişdir. Hərbi leksika bütün funksional üslub sahələrində işlənir və öz növbəsində başqa leksik-semantik sahələrə də təsir edir, yəni dövrün mənəvi-ictimai iqlimi necədirsə, lüğət tərkibi də onun ifadəçisidir.

Böyük Vətən müharibəsi dövrünün leksik-stilistik prosesləri müharibədən sonrakı dövrün dilində də müəyyən rezonans verir, xüsusilə ədəbi-bədii dil sahəsində bu daha aydın şəkildə müşahidə edilir. İstər müharibə dövründə, istərsə də müharibədən sonra hərbi terminologiyada paralellik kifayət qədər güclü idi; məsələn: *həm pota, həm bölük; həm front, həm cəbhə; həm flot, həm donanma; həm tankist, həm tankçı* işlənir; lakin bu cür paralellik daha çox dövrün ədəbi dilinin işgüzar xarakterindən irəli gəlirdi, tədricən aradan qalxdı.

Təsərrüfat quruculuğu məsələləri ilə əlaqədar

---

[1] *Bax:* А.Н.Кожин. Лексико-стилистические процессы в русском языке периода Великой Отечественной войны. М., «Наука». 1985.

işlənənlər. Azərbaycan ədəbi dilində 1940-cı illərdən sonra kənd təsərrüfatı, ağır sənaye, sosial-iqtisadi inkişaf və s. məsələlərlə bağlı bir çox söz birləşmələri də yaranmışdır ki, bunların böyük bir qismi ədəbi dilin inkişafında fəal mövqeyi ilə diqqəti cəlb edir. Sosial-ictimai hadisələrlə bağlı birləşmələrin işlənmə potensialı həmin hadisələr öz dövrünü başa çatdırdıqdan sonra dildə məhdudlaşmağa başlamışdır.

Oktyabr inqilabından sonra ədəbi dilin lüğət tərkibini zənginləşdirən vasitələrdən biri kimi, sosialist təsərrüfatı, aqrar sənaye və mədəni əkinçiliklə bağlı söz birləşmələri mühüm rola malik oldu. 1940-1945-ci illərdə hərbi vəziyyətlə əlaqədar işlədilən terminlərlə yanaşı, təsərrüfat quruculuğuna, xüsusən də kənd təsərrüfatına aid bilavasitə sosialist təsərrüfatı və sosialist əkinçilik sisteminin nailiyyətlərini əks etdirən *payızlıq əkini* (K-20.09.1943); *dondurma şumu* (K-16.06.1949); *Herik şumu* (K-17.09.1943); *birinci seyrəltmə, yarış şərtləri* (K-18.10.1941); *sosialist əkinçiliyi, gündəlik tapşırıq* (K-14.07.1944); *ehtiyat əmək qüvvələri* (K-25.04.1945) kimi söz birləşmələri də səciyyəvi idi.

Böyük Vətən müharibəsinin ağır sınaqlarından zəif çıxmış təsərrüfatın durmadan inkişaf etdirilməsi, yeni təsərrüfat sahələrinin meydana gəlməsi, elm və texnikanın sürətli inkişafı müvafiq olaraq yeni sözlərin və söz birləşmələrinin yaradılmasını zəruriləşdirdi. Təsərrüfatın yeni mütərəqqi üsulları, idarəetmənin sosial-iqtisadi əsasları və texniki inkişafını əks etdirən yeni söz və ifadələr meydana gəldi. Məsələn, 1945-1955-ci illərdə *ottarlalı əkin, tam növbəli əkin* (K-25.04.1945); *dar cərgələr, köndələninə becərmə* (K-12.06.1946); *çarpaz becərmə* (SK-6.05.1947); *kvadrat yuva üsulu* (K-8.03.1951); *traktor*

briqadası, istehsal briqadaları (K-12.04.1954), *gənclər briqadaları, əkinçilik mədəniyyəti* (K-16.02.1955) kimi terminoloji vahidlərin işlədilməsi səciyyəvi idi. Bunların mühüm bir qismi, xüsusilə *kvadrat yuva üsulu, kommunist gənclər briqadaları, əkinçilik mədəniyyəti* və s. sonrakı dövrlərdə də öz işləklik xüsusiyyətini mühafizə etmişdir.

1955-1960-cı illərdə meydana çıxan bu tipli terminoloji birləşmələrdə texniki tərəqqiyə aid anlayışlar öz əksini tapırdı. Bu cəhətdən, həmin dövrdə işlədilən *kompleks mexanikləşdirmə, texniki kadrlar* (K-16.04.1958); *təmir-texniki stansiyaları* (K-18.05.1959), *çoxsahəli kənd təsərrüfatı* (SK-14.04.1960) kimi birləşmələr də çox işlənən terminoloji dil vahidlərindən idi.

İctimai-siyasi və mədəni-kütləvi inkişafla əlaqədar işlənənlər. 1940-1960-cı illər arasında meydana çıxmış və ya ümumişlək xarakter almış *xalq evi, özfəaliyyət dərnəyi, sağlamlıq ocağı, mədəni ocaqlar, məktəbdənkənar tərbiyə, fəallar yığıncağı, siyasi dərnəklər, siyasi biliklər* kimi söz birləşmələri mədəni-kütləvi, ictimai-siyasi inkişafla bağlı yaranmışdır.

Xalq təsərrüfatının inkişafı ilə əlaqədar işlənənlər. 1940-1960-cı illərdə xalq təsərrüfatının və ictimai istehsalın inkişafını səciyyələndirən *mənzil tikintisi, istehsal gücü, təsərrüfat xərcləri, sənaye müəssisəsi, sənaye mərkəzləri* və s. birləşmələr də nəzəri cəlb edir.

1940-1960-cı illərdə ədəbi dildə bəzi elə söz birləşmələrinin işlədilməsinə də təsadüf edilir ki, bunlar sonrakı illərdə, xüsusən 1960-cı ildən sonrakı dövrdə ədəbi dilin səlisləşməsi və qrammatik normalılığın inkişafı ilə əlaqədar müəyyən dəyişikliyə uğrayaraq dilin qrammatik təbiətinə, habelə anlayışın mahiyyətinə daha çox uyğunlaşdırılmışdır. Bu cəhətdən həmin dövrdə işlədilmiş

elm namizədləri (K-16.02.1955); *elm doktorları* (K-18.VIII.1956), *sosialist öhdəçiliyi* (SK-14.04.1960) söz birləşmələrini göstərmək olar. 60-cı illərdən sonra *elm namizədləri* və *elm doktorları* birləşmələri mətbuatda *elmlər namizədləri* və *elmlər doktorları,* 70-ci illərdə isə *sosialist öhdəçiliyi* birləşməsi sadələşdirilərək *sosialist öhdəliyi* şəklində formalaşdırılmışdır.

* * *

1940-cı ildən sonrakı dövrlərdə Azərbaycan ədəbi dilini səciyyələndirən xüsusiyyətlərdən biri də «gəmi-peyk» tipli xüsusiləşməyən əlavələrin fəal işlənməsi və bir sıra belə struktur vahidlərin yaranmasıdır. Bunlar da özlüyündə mürəkkəb sözlərə oxşayır. Əksəriyyəti rus dilindən kalka yolu ilə yaradılan yeni dil vahidləri kimi maraqlıdır. Sosializm cəmiyyətinin inkişaf qanunauyğunluqları ilə əlaqədar ayrı-ayrı fəaliyyət sahələrinin genişlənməsi sayəsində dildə əlavəli formaların yaranması meyli artır. Belə formalar, başlıca olaraq, elmi-texniki tərəqqi və cəmiyyətin sosial inkişafı ilə əlaqədar müxtəlif sahələrin inteqrasiyası şəraitində meydana gəlir. Məhz buna görə də əlavəli konstruksiyalarda, bir qayda olaraq, müxtəlif fəaliyyət sahələrinin inteqrasiyasına aid anlayışlar öz əksini tapır. İnsanın əməli fəaliyyəti ilə əlaqədar yeni sahələrin yaranması əlavəli konstruksiyaların yeni tiplərinin meydana gəlməsini şərtləndirir. İnkişaf etmiş sosializm şəraitində belə söz-formaların yaranması imkanları xüsusilə genişlənir və onların komponentləri Azərbaycan dilinə məxsus sözlərdən, habelə alınmalardan təşkil olunur.

Azərbaycan dilində bilavasitə 1940-cı illərdən, xüsusən də elmi-texniki tərəqqi dövrü kimi səciyyələnən bərpa və quruculuq illərindən sonra əmələ gələn əlavəli söz-

formalardan aşağıdakılar geniş işlənmə dairəsinə malik olmuşdur:

Əlavəsi və əsas komponenti Azərbaycan dili sözləri ilə ifadə olunanlar: *satış-sərgi, tikinti-quraşdırma, baxış-üçaylıq.*

Komponentlərindən biri Azərbaycan, digəri ərəb-fars sözləri ilə ifadə olunanlar: *adam-gün, dayaq-nümunə, yarış-müsabiqə, nəzarət-ölçü, gəmi-peyk, hesabat-seçki.*

Komponentlərinin hər ikisi ərəb-fars alınmaları ilə ifadə olunanlar: *mədəni-məişət, tədris-təcrübə, tədris-istehsalat.*

Komponentlərindən biri Azərbaycan dilinə məxsus, digəri rus dilindən alınmış sözlə ifadə edilənlər: *dülgərlər-betonçular, sarğı-izolyasiya, kvadrat-yuva, dəmir-beton.*

Hər iki komponenti rus dilindən alınmış sözlərlə ifadə olunanlar: *nasos-kompressor, kollektor-drenaj, vaqon-restoran.*

Komponentlərdən biri rus, digəri ərəb-fars mənşəli sözlərlə ifadə olunanlar: texniki-təşkilat, layihə-smeta, maddi-texniki, sərnişin-poçt, seminar-müşavirə, mühəndis-texnik və s.

Azərbaycan ədəbi dilində xüsusən son zamanlar daha çox işlədilməyə başlamış belə sözlərdə, konstruksiyalarda, bir qayda olaraq, birinci komponent əsas üzv, ikinci isə əlavə kimi çıxış edir. Əlavə üzv əsas üzvə aid mənanın meydana çıxmasında bəzən yardımçı rol oynayır. Belə birləşmələrdən bəhs edən S.Cəfərov da onlardakı komponentlərdən birinin əlavə xarakteri daşıdığını və digərini müəyyənləşdirmək üçün vasitə olduğunu göstərir. Bununla belə[1], qeyd etməliyik ki, bilavasitə rus dilinin təsiri ilə

[1] S.Cəfərov. Azərbaycan dilində söz yaradıcılığı, ADU nəşriyyatı, Bakı, 1960, səh. 156.

kalka şəklində meydana çıxmış belə birləşmə formalarının leksik-semantik quruluşu onları nisbi sinonim saymaq barədə S.Cəfərovun irəli sürdüyü fikrə haqq qazandırmır. Müəllifin misal gətirdiyi *kino-teatr, texniki-quraşdırma, qazma-buruq, komsomol-gənclər, kino-texnik, kino-rejissor, mühəndis-texnik*[1] tipli söz-formalar, ümumiyyətlə, nisbi sinonim anlayışından uzaqdır. S.Cəfərovun «Müasir Azərbaycan dili» kitabında onlar yaxın mənalı sözlərin birləşməsi yolu ilə düzələn mürəkkəb sözlər kimi izah edilir[2]. R.İsrafilova isə bu cür əlavəli söz-formaları komponentləri arasında bərabərlik, bəzən də asılılıq müşahidə edilən qoşa sözlərin birləşməsi adlandırır[3]. Elmi cəhətdən özünü doğrultmayan bu fikir sonralar da təkrar edilmişdir[4].

Əlavəli söz-formaların getdikcə inkişaf edərək mürəkkəb sözlərə çevrildiyi müşahidə edilir. Bu proses *fotosərgi, fotomüxbir* kimi sözlərdə qabarıq surətdə öz ifadəsini tapmışdır.

* * *

1940-1960-cı illər ərzində də cəmiyyətin sosial inkişafı ilə əlaqədar rus dilindən Azərbaycan dilinə bir sıra yeni terminoloji sözlər daxil olmaqda davam etmişdir. Bununla yanaşı, həmin dövrdə rus dilindən alınmış bəzi

---

[1] S.Cəfərov. Azərbaycan dilində söz yaradıcılığı, ADU nəşriyyatı, Bakı, 1960, səh. 136.

[2] *Bax:* S.Cəfərov. Müasir Azərbaycan dili, Bakı, «Maarif» nəşriyyatı, 1976, səh. 202.

[3] Р.Д.Исрафилова. Обогащение в советский период словарного состава азербайджанского языка за счет внутренних ресурсов и отражение его в словарях, АКД, Баку, 1971, стр. 37.

[4] Müasir Azərbaycan dili, I c., Bakı, «Elm» nəşriyyatı, 1978, səh. 236.

sözlər sonralar xalis Azərbaycan və ya ərəb-fars mənşəli sözlərlə əvəz olunmuşdur.

Azərbaycan dili qarşılığı ilə əvəz olunanlar. 40-cı illərdə ədəbi dildə işlənib, sonradan Azərbaycan dili qarşılığı ilə əvəz olunmuş aşağıdakı sözləri qeyd etmək olar: *paraxod, otdeleni, laqer* və s. Məsələn:

Hərbi əsirlər üçün l a q e r düzəltmişlər (K-7.06.1942); *Yunanıstanın Səlanik portunda fəhlələr paraxoda ərzaq yükləməkdən boyun qaçırmışlar* (K-10.01.1949); *Serjant Savelyevin otdelenisi kəndin yaxınlığında durmuşdur* (K-10.1.1949) və s.

Dilin sonrakı inkişafı dövründə *laqer* sözü *düşərgə, paraxod* sözü *gəmi, otdeleni* sözü isə *bölmə* sözü ilə əvəz edilmişdir.

Ümumişlək xarakterli ərəb-fars sözləri ilə əvəz olunanlar. 1940-55-ci illərdə işlənmiş rus dili alınmalarının xeyli hissəsi sonralar ərəb-fars mənşəli sözlərlə əvəz edilmişdir. 1960-cı illərdən sonra ədəbi dilimizdə daxili imkanlar əsasında söz yaradıcılığının daha çox genişlənməsi, rus dilindən beynəlmiləl terminlər alınması meylinin artdığı müşahidə edilməklə yanaşı, kütləviləşmə və xəlqiləşmə amillərinin güclənməsi ilə əlaqədar bir sıra ərəb-fars mənşəli sözlərin yenidən həyata qaytarıldığı müşahidə edilir. Ədəbi dildə xəlqiləşmə cəhətdən özünü doğrultmayan alınmaları əvəz edən belə sözlər yeni anlayışları bildirmək baxımından ictimai məzmunca genişlənirdi.

İctimai-siyasi və mədəni-kütləvi sahələrə məxsus anlayışları bildirən aşağıdakı sözlər sonralar əvəz edildi:

Neft Bakısının partiya a k t i v i də təbrikində eyni sözləri yazır (K-30.01.1942); *Oktyabr r e v o l y u s i y a s ı adına zavodun fəhlələri daha çox məhsul istehsal etməyə*

çalışır (K-30.01.1942); *Həmin elmin cəmiyyətin proqressiv inkişafında bir əngəl olduğunu göstərmək başlıca vəzifədir* (Ə-21.08.1948) və s.

Bu misallardakı *aktiv, revolyusiya, proqressiv* sözləri 1960-cı illərdə və sonrakı inkişaf dövründə *fəal, inqilab, mütərəqqi* kimi ərəb-fars sözləri ilə əvəz edildi. Lakin əvəzlənmə bu sözlərin hamısında eyni dərəcədə deyil. Belə ki, *revolyusiya* sözü artıq dilin lüğət tərkibindən çıxmış və tamamilə *inqilab* sözü ilə əvəz olunmuşsa, qalan iki söz, az da olsa, qarşılıqları ilə paralel olaraq işlənməkdədir.

1940-60-cı illərdə ədəbi dilimizdə işlədilən və əvəz edilməsinə ehtiyac duyulan rus dili alınmalarının bir qismi mədəni-kütləvi sahəyə məxsus sözlərdən ibarət idi. Belə sözlər sırasında aşağıdakılar xüsusilə xarakterikdir:

Pediatriya kafedrası dosent vəzifəsini tutmaq üçün konkurs elan etdi (K-7.06.1942); *D.M.Hüseynov kənd təsərrüfatı elmləri kandidatıdır* (K-7.06.1942); *Kultura saraylarında, ailə məclislərində Qızıl Ordunun şərəfinə söz söyləndi* (K-10.01.1943); *Rayon intelliqentləri çox aktivlik göstərmişlər* (K-4.04.1943); *«Ordenli Azərbaycan cəbhəyə» təmasında veriliş keçirilmişdir* (K-30.04.1942); *Hərbi qulluqçulara məvacib, habelə stipendiya verilsin* (AM-10.01.1947) və s.

Bu misallardakı *konkurs, kandidat, kultura, intelliqent, tema, stipendiya* kimi sözlər 1960-cı illərdə müvafiq olaraq *müsabiqə, namizəd, mədəniyyət, ziyalı, mövzu, təqaüd* kimi ümumxalq səciyyəli ərəb-fars sözləri ilə əvəz edilmişdir.

Azərbaycan ədəbi dilində 1940-45-ci illərdə rus dilindən alınmış bəzi inzibati-idarə, təşkilat, vəzifə, ərazi bildirən sözlər də var idi ki, bunlar da əsasən, 1945-ci ildən sonra müvafiq ərəb-fars sözləri ilə əvəz edilmişdir. Bu tipli

alınmalardan aşağıdakıları göstərmək mümkündür:

Bütün müttəfiq respublikalardan, bütün oblast və ölkələrdən cəbhəyə ət, meyvə və şərab göndərilmişdir (K-4.04.1943); *Dərhal bütün ölkədə, kəndlərdə, posyolkalarda zayoma yazılış başlandı* (K-30.04.1942); *S.Korelin yoldaşın naçalnik olduğu sexin işçiləri planı ödəmişdi. Cəbhəyə zəhmətkeşlərin deleqasiyaları gəldilər* (K-4.04.1943) və s.

Buradakı *oblast, posyolka, naçalnik, deleqasiya* sözləri inqilabın ilk illərindən daha çox işlənmiş, 1940-45-ci illərdə də işlənməkdə davam etmişdir. Artıq 1960-cı ildən sonra belə sözlərə ədəbi dildə təsadüf olunmur, bunlar müvafiq şəkildə ərəb-fars mənşəli *vilayət, qəsəbə, rəis, nümayəndə* sözləri ilə əvəz edilir.

Ehtiyac duyulan sözlərin əvəzlənməsi prosesi 1960-cı illərdən sonra kütləvi şəkil alsa da, bəzi sözlərin öz yerini ərəb-fars alınmalarına verməsi prosesi hələ 1940-45-ci illərdən müşahidə olunur. Bu dövrdə bəzi hərbi-texniki, hərbi-inzibati, habelə iqtisadi sahəyə aid sözlərin Azərbaycan və ərəb-fars dili qarşılığı ilə paralel işlədilməsi də əvəzolunma xüsusiyyətini özündə əks etdirir. Həmin dövrdə bu tipli sözlərdən aşağıdakıların paralel işlənməsi müşahidə edilirdi:

Aeroplan – təyyarə: Partizanlar özlərini elə göstərirdilər ki, guya aeroplanlar üçün yanacaq aparırlar (K-30.01.1942); *Belorusiya cəbhəsində qırıcı təyyarələrin köməyi ilə düşmən təyyarəsini vurub salmışlar* (K-18.10.1944);

Ştab – qərargah: Döyüşçülərimiz çoxlu ştab sənədləri ələ keçirmişlər (K-7.06.1942); *Müttəfiqlərin xüsusi qanunlar qərargahı xəbər verir* (K-14.07.1944);

Zayom – istiqraz: Bu gün hərbi zayomun buraxılışı

haqqında qərarı dərc edirik (K-30.04.1942); *Zəhmətkeşlər istiqraz vərəqələrini almağa başlamışlar* (K-30.04.1942).

Nemes – alman: Qızıl Ordu sovet torpağını alman-faşist işğalçılarından azad etmişdir (K-1.01.1945);

Şpion – casus: İgid sovet partizanları nemeslərin xeyli hərbi işçisini, şpionunu qırmışlar (K-18.10.1941); *Gizli casusların pozğun işləri aradan qaldırılsın* (K-1.01.1945).

1940-45-ci illərdə rus dilindən alınmış bir sıra sözlərdə mənbə dilin bəzi qrammatik-orfoqrafik əlamətlərinin saxlanıldığı da müşahidə edilir. Belə sözlərdə rus dilinə aid başlıca əlamətlər söz sonunda *-a, -on, -et* hissəcikləridir:

Proqrammaya konsert də daxil edilmişdir (K-30.04.1942); *Bu günlərdə teleqramma almışlar* (K-8.04.1943); *Yüz minlərlə tonna neft vermişlər* (K-30.01.1942); *Komitet məni Sverdlov kommunist universitetinə göndərdi* (Ə.Vəliyev); *Komitetin özü bu məsələ ilə məşğul olur* (K-30.01.1942) və s

Bəzi sözlərdə *«ц»* hərfinin saxlanması və söz sonunda qoşa samit işlədilməsi də rus dili sözlərinin əslinə müvafiq yazılmasının nəticəsi idi:

Metall qırıntısı toplamaq işin yalnız yarısını görmək deməkdir (K-14.07.1944); *Цехin Staxanovçuları yeni məhsullar buraxmağa başlamışlar* (K-30.01.1942) və s.

* * *

Azərbaycan ədəbi dilinə rus dilindən daxil olan bir sıra sözlərin sonradan ərəb-fars mənşəli sözlərlə əvəz edilməsi meyili ilə əlaqədar 50-ci illərin sonlarında bu cür

sözlərin işlədilmə potensialının artması müşahidə olunur. İkinci mərhələdə yenidən həyata qaytarılan ərəb-fars sözlərinin içərisində elələri də vardır ki, onlar əslində ifadə və məna cəhətdən 1920-30-cu illərdə işlədilən və ədəbi dildə özünə yer tuta bilməyən ərəb-fars sözlərindən fərqlənmirdi. Təsadüfi deyildir ki, belə sözlər də sonradan ədəbi dildə nüfuz qazana bilməmiş və öz işləklik fəaliyyətini itirmişdir.

1940-60-cı illərdə beynəlmiləl sözlər ədəbi dilimizdə öz yerini daha da möhkəmləndirirdi. Belə ki, sonrakı dövrlərdə mübarizə rus dilindən alınmış beynəlmiləl terminlərin xeyrinə başa çatdı. 40-cı illərdə ərəb-fars mənşəli sözlər çox işləndiyi halda, bu dövrün sonlarına doğru onların müqabilində beynəlmiləl səciyyəli rus sözləri də paralel şəkildə işlədilməyə başlamış, daha sonralar isə ərəb-fars mənşəli bir çox sözlər beynəlmiləl səciyyə daşımaq imkanından məhrum olduğuna görə işləkliyini itirmiş və öz yerini beynəlmiləl sözlərə vermişdir. 40-cı illərin sonlarına doğru ədəbi dildə paralel işlədilmiş belə sözlərdən aşağıdakıları göstərmək olar:

Məfkurə – ideologiya: *Bizim ölkədə hər bir şəxsin öz siyasi-m ə f k u r ə v i səviyyəsini artırması üçün zəruri olan bütün imkanlar vardır* (K-30.04.1942); *İdeoloji məsələlər barədə lazımi nəticələr çıxarmışlar* (Ə-21.08.1948) və s.

Darülfünun – universitet: *Azərbaycan Dövlət D a r ü l f ü n u n u n bu nömrəli yataqxanasında bəzi müvəffəqiyyətlər əldə edilmişdir* (AM-10.01.1947); *S.M.Kirov adına Azərbaycan Dövlət Universiteti tarix fakültəsinin tələbələri ilə gənc seçicilərin görüşü olmuşdur* (K-12.04.1954) və s.

2

Lüğət tərkibinin inkişafı 60-80-ci illərdə elə keyfiyyətə malikdir ki, bu keyfiyyəti qeyd edilən yarımmərhələni nəinki 40-80-ci illəri əhatə edən ikinci mərhələdə, həmçinin bütövlükdə sovet dövrü kontekstində fərqləndirir. Bu keyfiyyət ondan ibarətdir ki, bu dövrdə lüğət tərkibinin daxili imkanlar hesabına inkişafı ilə başqa dillər hesabına inkişafı arasında mütənasiblik qüvvətlənir və keyfiyyət həddinə çatır, odur ki, 60-80-ci illərdə lüğət tərkibi funksional mövqedən izah və şərh olunmağı tələb edir; prinsiplər dəyişir, yəni daha biz yarımmərhələni müxtəlif mənbələrə münasibətinə görə deyil, iqtisadi-təsərrüfat, ictimai-siyasi, mənəvi-mədəni sahələr üzrə (diferensial şəkildə) nəzərdən keçiririk, çünki mənbələrə münasibətdəki psixoloji fərqlərin aradan qalxdığı hiss olunur, neytrallaşma prosesi gedir. Bu dövrdə lüğət tərkibindəki mütəhərriklik aradan qalxır. Aydındır ki, ədəbi dilin lüğət tərkibində söz laylarının tez-tez dəyişməsi dilin zənginləşməsinə mütərəqqi təsir göstərə bilməz, hər şeydən əvvəl, bu proses ünsiyyətin yaxşılaşmasına mənfi təsir göstərir. Belə ki, tez-tez dəyişən vahidlər dərhal hamı tərəfindən qavranıla bilmir; yeni sözlərin bir çoxları isə, ümumiyyətlə, ünsiyyətə daxil ola bilmir, deməli, əslində yaşamaq hüququna malik olmur və bu əsasda ədəbi dilin şifahi və yazılı qolları arasında uçurum yaranmış olur. İkinci tərəfdən isə, dilin lüğət tərkibinin tez-tez dəyişmələrə məruz qalması lüğətlərin tərtibində çətinlik və dolaşıqlıq yaradır. Ona görə də dilin lüğət tərkibində yeniləşmə prosesi özü də müəyyən qanunauyğunluqlara tabe edilməli, bu sahədə müəyyən tələblər gözlənilməlidir. 60-cı ildən sonra belə proseslər çox zəif müşahidə edildiyindən istər

terminoloji vahid kimi başqa dillərdən alınan və istərsə də dilin özündə yaranan sözlərin ədəbi dilin lüğət tərkibinə daxil olmasında müəyyən qanunauyğunluqlar gözlənilir. 1960-1980-ci illərdə alınma sözlərin əvəzlənməsi olmasa da, bəzi terminoloji vahidlərin, xüsusən də 1940-60-cı illərdə yaranmış və istehsalat həyatı ilə bağlı olan dil vahidlərinin işləklikdən qaldığı müşahidə olunur. Bu illərdə meydana gəlmiş və ədəbi dildə geniş işlədilmə imkanı qazanmış terminoloji söz və ifadələrin nəzərə çarpan başlıca məna xüsusiyyətləri aşağıdakılardan ibarətdir:

Təsərrüfat-iqtisadi həyatla bağlı olanlar. 1960-1980-ci illərdə Azərbaycan ədəbi dilində cəmiyyətin texniki tərəqqisini və iqtisadi inkişafını əks etdirən *qoşqusuz kultivator, çiyidsəpən maşın, pambıqyığan maşın, əməyin mexanikləşdirilməsi, gencərgəli üsul, qırmızı bayraqlı beşillik, kommunist əməyi zərbəçiləri, əməyin normallaşdırılması, plantasiya şumu, ictimai bostançılıq, briqada-qovşaq üsulu, İpatov metodu, Zlobin metodu, briqada podratı, kompleksli traktor-tarlaçılıq briqadası, cərgəvi üsul* və s. kimi terminoloji birləşmələr dövr üçün xarakterikdir.

Qeyd etməliyik ki, 1960-cı ilə qədərki dövrdə işlədilən *dar cərgələr (dar cərgəli üsul),* habelə *kvadrat yuva üsulu* kimi birləşmələr artıq 1960-80-ci illərdə, demək olar ki, öz fəallığını itirir. Təsərrüfatın inkişafı ilə əlaqədar həmin üsulların iqtisadi əhəmiyyətinin və səmərəliliyinin azalması təsərrüfat həyatının artan tələbləri ilə uyuşmaması müvafiq olaraq onların ifadə vasitələrinin də öz işləkliyini getdikcə azaltmasına səbəb olur. Elmi-publisist üslubda işlədilən belə birləşmələrin mənasının aydınlığı üçün bəzən sadə şəkildə izahı verilir. Məsələn: *Venoz damarlarda trombların – tıxacların əmələ gəlməsinə və*

damarın həmin hissəsinin iltihaba uğramasına tromboflebit deyilir (K-11.01.1967); *Təcrübə göstərir ki, bir çox xəstəliklərin profilaktikası – baş verməsinin qarşısının alınması müalicədən daha asandır* (K-11.01.1967) və s.

Yuxarıda qeyd etdiyimiz kimi, bu cür faktlar ədəbi dilin lüğət tərkibində analitik proseslərlə bağlıdır, yəni bir tərəfdən, diferensiallıq mövcuddur – elmi üslub faktı ilə sıravi nitq faktı qarşılaşdırılır, digər tərəfdən, bunlar eyni bir anlayışı ifadə etmək üçün birləşir – bu isə inteqrasiya əlamətidir, beləliklə, leksik proseslər hər iki cəhəti – həm diferensiasiya, həm də inteqrasiya gedişini ehtiva edir.

Mədəni-tərbiyəvi sahə ilə bağlı olanlar. 60-cı illərdə mədəniyyət və tərbiyə məsələlərinin inkişafı ilə bağlı olaraq, Azərbaycan ədəbi dilində *xalq evi, mədəniyyət ocaqları, fəallar yığıncağı, Lenin cümə günü, siyasi gün* və s. söz birləşmələri işlədilməyə başlamışdır. Ədəbi dildə özünəməxsus yer tutan bu ifadələr tədriclə daha geniş işlənmə arealı qazanmış və ümumxalq malına çevrilə bilmişdir. Müasir ədəbi dilimizdə belə birləşmələrin işlənmə imkanlarının artması onların ifadə etdiyi məfhum və anlayışların zəruriliyi, vacibliyi və digər tərəfdən, həmin ifadələrin diləyatımlı, dilin leksik-qrammatik təbiətinə uyğun olması ilə əlaqədardır.

Elmi-texniki tərəqqi və kosmik fəzanın tədqiqi ilə əlaqədar olanlar. 50-ci illərin sonu, 60-cı illərin əvvəlləri ölkəmizdə elmin, texnikanın vüsətli inkişafı ilə səciyyələnir. Bu dövrdə texnika sahəsində həqiqi inqilab, kosmosun fəthi yeni məfhum və anlayışların yaranmasını şərtləndirdiyi kimi, onların dildə ifadəsi üçün də yeni vahidlərin əmələ gəlməsi zərurətini meydana atdı. Bu sahədə yeni dil vahidləri rus dilindən alınsa da, dilin öz daxili imkanları yaddan çıxarılmır, imkan olduqca bu sahədə müvəf-

fəqiyyətli söz və ifadələr yaradılır. 60-cı illərin əvvəllərindən Azərbaycan ədəbi dilində işlədilməsi müşahidə edilən və öz yeniliyi ilə səciyyələnən belə dil faktlarından bir neçəsini qeyd edək: *teleqraf siqnalları, kosmik qidalar, telemetrik aparat, uçuş aparatları, kosmik uçuşlar, çoxpilləli kosmik raket, manevrli kosmik aparat, manevrli kosmik gəmi, kosmik fəza, orbital stansiya, planetlərarası stansiya, qlobal raket, planetlərarası kosmik fəza, planetlərarası fəza, kosmik beşillik, kosmik əmək növbəsi, avtomatik yempaylayan* və s.

Kosmik terminologiya üçün az-çox kütləvilik xarakterikdir ki, bu da hər şeydən əvvəl, həmin sahənin «özünün publisistik aktivliyi ilə əlaqədardır[1]. Lakin publisistik aktivlik kosmik terminologiyanı professionallıqdan çıxarmır.

Əkinçilik sahəsində işlədilənlər:

Təsərrüfatın coşqun inkişafı ilə əlaqədar mətbuat dilində sahə terminlərinə geniş yer verilir.

Müxtəlif xəstəlik adları bildirənlər:

Üzüm bağlarında başqa bir qorxulu xəstəlik olan o n d i u m u n yaranması müşahidə edilir (K-3.04.1976); *Finallarla yoluxmuş heyvanların əti xəstəliyin mikroblarını saxlayır* (K-10.06.1963); *Laktasiya dövründə onun məhsuldarlığı aşağı düşür* (SK-3.04.1970); *Üzüm bağlarında m i l d i y u xəstəliyinə qarşı istifadə edilir* (K-18.04.1966) və s.

Dərman preparatlarının adlarını bildirənlər:

Davamlı s u s p e n z i y a almağa kömək edən yardımçı maddə vardır (K-18.04.1966); *Alınan preparatlar içərisində p o l i d o f e n vardır* (AG-3.04.1970); *M e t i l m e r k a p t o f o n işlədilən yerdə feldşer olmalıdır*

---

[1] З.Ш.Мамедов. Терминология по космонавтике о азербайджанском языке, Баку, АКД, 1987, стр. 8.

(AG-8.01.1965); *Kuprikol pasta şəklindədir* (K-18.04.1966); *Tərkibində protien və mikro-element olan yemlərdən istifadə faydalıdır* (AG-8.01.1965); *Kuprizon islanan tozdur* (SK-20.05.1977) və s.

60-70-ci illərdə də ədəbi dilimizdə geniş kütlələr üçün anlaşılmaz ərəb-fars söz və ifadələrinin işlədilməsi halları nəzər-diqqəti cəlb edir. Əlbəttə, dilin bir tərəfdən, daxili imkanlar hesabına zənginləşdiyi, digər tərəfdən isə lüğət tərkibinin əsas hissəsinin sabitləşdiyi bir vaxtda anlaşılmaz ərəb-fars sözlərinin işlədilməsinə heç bir ehtiyac yoxdur. Bir neçə nümunə:

Sözü təkrar elətdirmək, dübarə-sebarə soruşmaq Çərçizadənin xüsusiyyəti idi (A-1966, № 7); *Müəllim onu təbrik edəndən sonra da otağın girəcəyində məbhut, düşüncəli dayanmışdı* (A-1968, № 4) və s.

Bu misallarda *«dübarə-sebarə»* əvəzinə *«iki-üç dəfd», «məbhut»* əvəzinə *«heyrətli»* işlətmək müəllif fikrini daha da aydınlaşdırardı.

Bu dövrdə bir sıra alınma sözlərin müxtəlif variantlarda işlədilmə hallarına da təsadüf edilir. Məsələn, Avropa dillərinə məxsus *artist* sözü dilimizdə geniş şəkildə işlədilir. Lakin istər mətbuat, istərsə də bədii əsərlərin dilində bəzən qadın cinsini bildirmək üçün *artistka//aktrisa* və s. işlədilir. Hətta fəxri ad bildirən «xalq artisti» ifadəsi bəzən «xalq artistkası, xalq aktrisası» şəklində də işlədilir[1].

Bütün bura qədər deyilənlər bir daha göstərir ki, sovet dövründə Azərbaycan ədəbi dili lüğət tərkibinin inkişaf tempi və istiqaməti birinci və ikinci mərhələdə eyni olmamışdır. Məsələn, 1920-30-cu illər dövründə ədəbi dildə külli miqdarda ərəb-fars mənşəli sözlər olduğu halda,

---

[1] *Bax:* R. İsrafilova. Dilimizin qayda-qanunlarını gözləyək. Dil mədəniyyəti, III buraxılış, «Elm» nəşriyyatı, Bakı, 1979, səh. 103-104.

sonrakı dövrlərdə bunların işlənmə potensialı xeyli zəifləmişdir. İctimai-siyasi hadisələrlə əlaqədar rus dilindən alınan sözlərin bir qismi sonradan dildən çıxmış, bir qismi isə müvafiq qarşılıqları ilə əvəz edilmişdir. Vaxtilə ədəbi dildə mövcud olan türkizmlər ikinci mərhələdə-tamamilə sıradan çıxmışdır.

Artıq 30-cu illərdən Azərbaycan dilinin daxili imkanları hesabına meydana gələn sözlərin potensialı artmağa başlayır. Dildə beynəlmiləl meyillə bərabər, xəlqi meyillər güclənir və bu cəhətdən milli sözlər hesabına yeni sözlərin yaradılmasında bir vüsət, bir sıçrayış müşahidə edilir: məsələn, *çatdırıcı ton, yüksəklik, qıraq səslər, səsdüzümü, üfləmə (духовой), aralıq səs, sıçrayış, eşidiş (slux), dartımlı (alətlər)* və s[1]. Elmin, texnikanın inkişafı, kosmosun mənimsənilməsi, eləcə də ictimai-siyasi proseslərin elmi mövqedən dərki-lüğət tərkibinə yeni anlayışların bütöv bir sistemini gətirir. Əlbəttə, elmi-texniki tərəqqi dedikdə, onun qlobal hadisə olduğunu xatırlatmaq lazımdır; təkcə respublika, ittifaq deyil, ümumən dünya miqyasında belə bir proses gedir və Azərbaycan ədəbi dili lüğət tərkibinin yeni anlayışlarla zənginləşməsində bu prosesin ciddi rolu müşahidə edilir. Bir avtomat idarəetmə sistemi, deyək ki, ancaq Yaponiyada mövcud ola bilər, lakin onun adı (eləcə də sistemin hissələrinin adları), prinsip etibarilə, Azərbaycan dilində də mövcud olmalıdır. Beləliklə, elmi-texniki tərəqqi söz yaradıcılığını getdikcə daha çox beynəlmilləşdirir.

60-70-ci illərdə elmi-texniki tərəqqi ilə əlaqədar yaranmış termin-sözlərə nümunə olaraq aşağıdakıları göstərmək olar: *fondverimi, traktor-avtomat, sürücü-mexanik, lazer qayçısı, minifabrik, ot unu, aerobus,*

[1] Ə. Bədəlbəyli. Musiqi lüğəti. Bakı, «Elm» nəşriyyatı, 1969.

elektrobus, elektromobil, fotorəqəmyazan, vakuum sobası, kosmonavt-tərcüməçi, hidrovelosiped, videogücləndirici, astroverici, lazer bıçağı, elektrocərrahiyyə, biokütlə, bioiqlim, eroziyaölçən, kinoroman, mühəndis dilçiliyi, kosmik leksika və s.[1]

60-70-ci illərdə təsərrüfatın, ictimai münasibətlərin, mədəniyyətin inkişafı ilə əlaqədar yaranan hər cür sözlər, ifadələr elmi-texniki tərəqqi faktıdırmı? – Şübhəsiz, yox. Məsələn, 60-70-ci illərdə meydana gəlmiş *dincəliş, bildiriş, yollayış* kimi sözlər dilin daxili imkanlarından fəal istifadə meyilindən irəli gəlirdi.

70-ci illərin sonlarında «Avtomatik idarəetmə üzrə terminologiya lüğəti»nin[2] (altı dildə) nəşri Azərbaycan ədəbi dili lüğət tərkibində elmi-texniki tərəqqi ilə bağlı yaranmış söz və ifadələri, birləşmələri əks etdirir; lüğətin azərbaycanca sözlüyü üzərindəki müşahidələr göstərir ki, anlayışların ifadəsi üçün müxtəlif dillərə məxsus müvafiq sözlər seçilmişdir. Aşağıdakı nümunələrə diqqət yetirmək kifayətdir.

I. Azərbaycan sözləri ilə: *ayırmalı axtarış, alışdırma bucağı, ardıcıl dolaq, artıqyükləmə, aşağı tezliklər, süzgəci, baş açar, dayanıqlıq* və s.

II. Rus-Avropa sözləri ilə: *dinamik diapazon, diskret analiz, ekspotensial impuls, elektromexaniki ossiloqraf, elektronika, erqodik proses, iqnitron, impulslar generatoru, inteqrallayıcı kontur, intiqal mexanizmi* və s.

III. Ərəb-fars sözləri ilə: *qeyri-xətti müqavimət,*

---

[1] L.Kərimov. Elmi-texniki tərəqqi və yeni yaranmış termin sözlər. Azərb. SSR EA-nın Xəbərləri; ədəbiyyat, dil və incəsənət, Bakı,1987, № 4, s. 91-92.

[2] Русско-англо-азербайджанско-киргизско-туркменско-узбекский терминологический словарь по автоматическому управлению, Баку, изд. «Элм», 1977.

ehtimal xətası, zaman sabiti, idarəetmək vasitələri, şərti ehtimallıq, hadisələr zəbri, həyəcanlaşdırıcı təsir və s.

Bir sıra hallarda isə bir anlayış müxtəlif mənşəli sözlərin birləşməsi ilə ifadə olunmuşdur; bizim fikrimizcə, elmi-texniki anlayışların bu cür ifadəsi perspektivlidir, çünki burada həm ənənəvi (əsasən milli) elmi təfəkkürün, həm də dünya elmi fikrinin müasir nailiyyətlərinin (bunun da ənənəsi var, lakin biz həmin ənənəni deyil, müasir nəticəni qəbul edirik) əlaqəsi təmsil edilir: *avtomatik işəsalıcı, doymamış maqnit sistemi, eksperimental vahid, elektron deşiyi, düyüm nöqtəsi* və s.

Avtomatlaşma elmi-texniki inqilabın mühüm mərhələsidir və elmin istehsalatla birləşməsi zamanı mümkün olur; elmlə istehsalatın birləşməsi öz növbəsində ictimai münasibətlərin xarakterinə təsir edir[1]. Ona görə də 60-cı, 70-ci illərdə lüğət tərkibində gedən inkişafı təkcə bu və ya digər elm sahəsinin terminoloji bazasının zənginləşməsi kimi başa düşmək düzgün deyil, bu proses universal xarakter daşıyır[2].

Sovet dövrü lüğət tərkibinin inkişafında tərcümə işi xüsusi əhəmiyyətə malikdir[3]. Yeni anlayışların toplandığı informasiyalar ilk növbədə əsasən rus dilində olur (bəzən ingilis, fransız, alman dillərində olan elmi-texniki məlumatlardan da Azərbaycan dilli oxucu faydalanır, lakin bu dillərdən elmi-texniki ədəbiyyat adətən tərcümə edilmir və ya çox cüzi tərcümə edilir), Avropa dillərində faktlaşan elmi-texniki informasiya da bizə rus dili vasitəsilə çatır. 60-

---

[1] Философский словарь. М., Политиздат, 1987, стр. 305-306.

[2] N.M.Xudiyev. ETT və dilin lüğət tərkibi, – «Elm və həyat» jur., 1987, № 10, səh. 20.

[3] Lüğət tərkibinin inkişafında tərcümənin rolu barədə irəlidə ayrıca danışılacaqdır.

70-ci illərin dil təcrübəsi göstərir ki, yeni anlayışların dildə ifadəsi prosesində yaranan söz-terminlərin adətən Avropa dillərinə mənsub hissəsi saxlanılır, rusca hissəsi kalka olunur; məsələn, *анод пусковой – işəsalma anodu, асимметрический волчок – asimmetrik fırfıra, близкодействие – yaxına təsir, блок подвижный – mütəhərrik blok, болометр полупроводниковый – yarımkeçirici bolometr, спектрометр зеркальный – güzgülü spektrometr* və s.[1]

Eyni xüsusiyyət daha kütləvi söz-terminlərə də aiddir: *qanadlı raket* (крылатая ракета), *elektrocərrahiyyə* (электрохирургия), *biokütlə* (биомасса) və s.

Doğrudur, kalka yolu ilə yaranan birləşmələrdə Azərbaycan dili vahidləri üstünlük təşkil edir, lakin konstruksiyanın yadlığı (bu adətən yarımçıq kalka zamanı müşahidə edilir) bəzən bu prinsipi pozur; məsələn: *biokütlə* tipli formalarda olduğu kimi.

Beləliklə, 60-cı illərdən etibarən daha çox sürətlənən elmi-texniki tərəqqi ədəbi dilimizin lüğət tərkibində aşağıdakı proseslərlə əlamətdardır:

1) söz-terminlərin potensialı genişlənir, Avropa dillərindən ədəbi dilimizin lüğət tərkibinə müxtəlif sahələrə aid çoxlu sözlər, ifadələr keçir;

2) orta əsrlərdən bəri elmi üslub faktı kimi ədəbi dildə işlənən ərəb-fars mənşəli sözlər, bütöv ifadələr müasir elmi-texniki təfəkkürün ifadəçisinə çevrilir; yəni elmi-texniki tərəqqinin yaratdığı anlayışlar boş yerdə yaranmadığı kimi bu anlayışların ifadəsi də ənənəvi leksik konteksti inkar etmir;

3) bilavasitə elmi-texniki (professional) səciyyə

[1] Nümunələr bu mənbədən alınır: Fizika terminləri lüğəti, Bakı, «Elm» nəşriyyatı, 1986.

daşıyan anlayışlar kütləviləşir və ümumdil faktlarına çevrilir;

4) terminoloji lüğət əsasən yeni söz birləşmələri hesabına artır; əslində, sintaktik yol söz yaradıcılığının ən demokratik formasıdır, eyni zamanda həmin yol yeni yaranan anlayışların analitik təfəkkür faktı olduğunu – başqa anlayışların münasibətindən yarandığını ifadə edir[1].

Eyni zamanda qeyd etmək lazımdır ki, 60-70-ci illərdə bir sıra çətinliklər də ortaya çıxır; bu, hər şeydən əvvəl, yeni anlayışın beynəlmiləl, yaxud milli sözlə adlandırılması məsələsindən ibarətdir[2] (eləcə də aralıq məsələləri həll etmək lazım gəlir: alınma söz hansı fonetik tərkibdə işlənməlidir? bütün hallarda alınma söz milli qarşılığı ilə əvəz edilməlidirmi? və s.): mövcud ikidilli və birdilli lüğətlər, eləcə də nitq (yazılı, yaxud şifahi) materialları üzərində apardığımız müşahidələr bu sahədə axtarışların davam etdiyini göstərir.

Elmi-texniki tərəqqi ilə yanaşı, 60-cı illərdən etibarən Azərbaycan ədəbi dili lüğət tərkibinin inkişafına daha bir sıra ekstralinqvistik amillər təsir göstərir; nəticə etibarilə, lüğət tərkibinin – leksik normanın nisbi sabitliyi təmin olunur. Deyək ki, 60-cı illərdə ədəbi dilin lüğət tərkibi xalq danışıq dili hesabına zənginləşir; bu cür zənginləşmə, hər şeydən əvvəl, bədii üslubda gedir. Əslində, 60-cı illərdən etibarən ədəbiyyatın xəlqiləşməsində bir meyar da ədəbi-bədii dilin xəlqiləşməsidir ki, onun mühüm komponentini leksika təşkil edir.

---

[1] Qeyd edək ki, sintaktik yolla ifadə-termin yaradıcılığı sovet dövründə müxtəlif mərhələlərdən keçir; bu barədə bax: С.А.Садыгова. Терминологические словосочетания в азербайджанском литературном языке, АКД, Баку, 1986.

[2] *Bax:* V.İ.Aslanov. Termin yaradıcılığında unifikasiya vacib şərtdir. – Azərbaycan terminologiyası problemləri, Bakı, APİ nəşri, 1988, səh. 31-32.

60-cı illərdə xalq dilinə məxsus sözlərin, ifadələrin birinci növbədə ədəbi-bədii dildə işləkliyi estetik başlanğıca malik olsa da, nəticə etibarilə linqvistik hadisədir, çünki tədricən ümumdil səciyyəsi daşıyır və başqa üslubları da əhatə edir.

«70-80-ci illər bədii nəsrində kənd mövzusu əsas yer tutur. Respublikanın müxtəlif rayon və kəndlərindən gəlmiş Azərbaycan ziyalıları nümayəndələri, yazıçılar kənd mövzusuna daha tez-tez müraciət edirlər»[1].

«70-80-ci illər nəsrində ədəbi dilə ən yaxşı və koloritli dialekt sözlərini gətirmək meyili hiss olunur»[2], müəllif buraya aşağıdakıları aid edir: *qənşər, dam* («ev» mənasında), *əppək, qəlbi, ustufca, yassar, məmə («ana» mənasında), mığmığa, pencər, ağnamaq, anşırmaq, eymənmək, kəsdirmək* («anlamaq» mənasında), *səngimək, qımışmaq, irişmək, təpimək, tınçıxmaq* və s. Şübhəsiz bunların bir qisminin dialektizm olmaması barədə müəlliflə mübahisə etmək olar (məsələn: *qənşər, irişmək* və s), lakin fakt faktlığında qalır ki, bu tipli sözlərin ədəbi-bədii dilə kütləvi gəlişi əsasən qeyd edilən dövrlə bağlıdır.

60-70-ci illərdə ədəbi-bədii dildə xalq danışıq leksikasının üstünlüyü 20-30-cu illərdəkindən fərqlənir: əsas fərq bundadır ki, 20-30-cu illərdə xalq danışıq leksikası ədəbi norma təşkil etmək baxımından fəallaşır, yəni bu elə fəallaşmadır ki, lüğət tərkibinin keyfiyyətini müəyyən edir, 60-70-ci illərdə isə xalq danışıq leksikasının üstünlüyü müəyyənləşmiş kontekstdə gedir, normanı yenidən qurmur, ədəbi-bədii dilin demokratikləşməsi

---

[1] М.А.Кулиева. Лексические диалектизмы в азербайджанской советской художественной прозе (1970-1980-е годы), Баку, АКД, 1987, стр. 6.

[2] М.А.Кулиева. Лексические диалектизмы в азербайджанской советской художественной прозе (1970-1980-е годы), Баку, АКД, 1987, стр. 6.

ümumən ədəbi-bədii fikrin demokratikləşməsi ilə yanaşı gedir.

Ümumxalq leksikasının 60-70-ci illərdə ədəbi-bədii dilə kütləvi gəlişinin öz spesifikası var; o mənada ki, bu mərhələdə bir tərəfdən ədəbi-bədii təfəkkürün özü xəlqiləşir, folklor ifadə tərzinə qayıdış müşahidə edilir, digər tərəfdən, müxtəlif nəsillərdən olan yazıçılar həmin prosesdə eyni cür çıxış etmirlər. Ədəbiyyata 30-cu illərdə gələn yazıçılar (S. Rəhimov, M. İbrahimov, Ə. Əbülhəsən, Ə. Vəliyev, M. Dilbazi, O. Sarıvəlli və b.) 60-cı illərdə də məhz 30-cu, 40-cı illərin söz duyğusu ilə yazıb-yaradırlar; onların da əsərlərində xalq dili leksikası çox işlənir, lakin məsələ burasındadır ki, bu cür işləklik 30-cu illərin norma axtarışlarının davamı idi və leksik sabitlik yaratmaq uğrunda gedirdi. 50-ci illərin sonu, 60-cı illərin əvvəllərində İ.Şıxlı, B.Bayramov, İ.Hüseynov, S.Əhmədov, Ə. Əylisli kimi ədəbi prosesə kənd koloriti ilə qoşulan yazıçıların nitqində xalq dili leksikasını artıq normativ fonda görürük, yəni bir tərəfdən, 30-cu illərin sabit lüğət fondu var, başqa tərəfdən isə, bu kontekstdə xəlqiləşmə gedir; bu proses xeyli dərəcədə stilizasiya faktı kimi maraqlıdır.

60-cı illərdə ədəbiyyata gəlmiş görkəmli nasirlərimizdən Elçin yazır: «Ədəbi dilin lüğət tərkibinə daxil olan hər söz, qeyd etdiyimiz kimi, bədii dildə əlavə mənalar kəsb edir və məhz bu mənalara görə də biz bədii əsərin lüğət tərkibini müxtəlif semantik-üslubi qruplara bölə bilərik. Hər bir yazıçının leksikası ədəbi dilin başqa üslublarına aid leksikanı (elmi, publisistik və s.), emosional-ekspressiv leksikanı (hörmət ifadə edən sözlər, kobud sözlər, qarğışlar və s), dialektizmləri, müxtəlif məişət sözlərini və s. əhatə edir. Bütün bu sözlərin

işlədilməsi müəyyən norma və çərçivələr daxilində olmalı, mövzuya, obrazların ictimai-psixoloji vəziyyətinə, əsərin ümumi ideyasına uyğun gəlməlidir.

Bədii dili təsvir olunan gerçəklikdən uzaqlaşdırmaq «realizm» xatirinə süni yollarla bu «realizmə» yaxınlaşdırmaq kimi lüzumsuzdur»[1].

Yazıçı, göründüyü kimi, dövrün leksik norma həssaslığını duyur, ona həm nəzəri baxımdan qiymət verir, həm də onu əməli olaraq yazı təcrübəsində sübuta yetirir. 60-cı illərdə leksikada xəlqiləşmə bədii üslubun şeir qolunu da, nəsr qolunu da eyni dərəcədə ehtiva edir.

Ədəbi-bədii dillə yanaşı, publisistik mətnlərin dilində də xalq danışıq leksikasının artımı diqqəti çəkir; məsələn, 1960-1970-ci illərdə «Kommunist» qəzetində, janrından asılı olmayaraq, bütün materialların dilində bu cür leksikanın fəal olduğu qeyd edilmişdir. Buraya: *çaxnaşma, çörəkpulu, tutarlı şapalaq, həngamə, naşı, kefkom, vurmaq (içki içmək), bordaq, maçal*[2] tipli sözlər daxildir.

1960-80-ci illərdə xalq dilinə maraq elmi üslubun müxtəlif təzahürlərini də əhatə edir; məsələn, «Xalq coğrafiya terminlərinin izahlı lüğəti» nəşr olunur[3]. Bu dövrdə elmi terminologiyanın etnoqrafik faktlarla zənginləşdirilməsi ilə yanaşı, qədim türk söz-terminlərinin canlandırılması cəhdləri də özünü göstərir; nümunə üçün deyək ki, mifoloq-ədəbiyyatşünas, professor M. Seyidovun əsərlərinin dilində aşağıdakı qəbildən olan leksika intensiv şəkildə işlənir: *bağımsızlıq* (müstəqillik), *bilki* (məlumat),

---

[1] Elçin. Tənqid və ədəbiyyatımızın problemləri, Bakı, «Yazıçı», 1981, səh, 293.

[2] И.О.Мамедов. Лексика газеты «Коммунист», АКД, Баку, 1974, стр. 25-27.

[3] E.Q.Mehrəliyev. Xalq coğrafiya terminlərinin izahlı lüğəti, Bakı, «Maarif» nəşriyyatı, 1987.

ilişkə (əlaqə), *durum* (vəziyyət), *bilkin* (alim) və s. 80-ci illərdə bu hadisə az qala lüğət tərkibinin mənzərəsinə (əsasən, elmi üsluba) təsir edəcək gücdədir.

60-70-ci illərdə lüğət tərkibinin stilistik funksional aspekti onu keyfiyyətcə xarakterizə edir, başqa sözlə, norma stabilliyinin yaranması imkan verir ki, dil daşıyıcılarının intellektual enerjisi daha çox üslubi plana sərf olunsun.

* * *

Beləliklə, sovet dövründə Azərbaycan ədəbi dili lüğət tərkibinin inkişafı müxtəlif sinxron mərhələlərdən keçir, hər bir mərhələ əvvəlki mərhələdən başlayır, onun davamı kimi çıxış edir, eyni zamanda nisbi müstəqilliyi ilə əlahiddə şəkildə mövcud olur; lüğət tərkibinin inkişaf məntiqini də bu münasibət müəyyən edir: leksik norma bir neçə onillik hüdudunda bu və ya digər mərhələnin ictimai-mədəni məzmununa uyğunlaşır, lakin əsas leksik fon mühafizə edilir, nəticədə, lüğət tərkibinin sabit qatı ilə funksional qatı arasındakı münasibət onun dialektikasının göstəricisi olur.

III FƏSİL

ƏDƏBİ DİLİN LÜĞƏT TƏRKİBİNİN DAXİLİ İMKANLAR HESABINA ZƏNGİNLƏŞMƏSİ

Sovet dövrü Azərbaycan ədəbi dili lüğət tərkibinin inkişafı sinxron mərhələlər üzrə araşdırıldığı kimi, diaxron aspektdə – bütöv bir tam halında da nəzərdən keçirilə bilər və əslində, bu təhlil üsullarından biri digərini tamamlayır. İkinci halda lüğət tərkibini xarakterizə edən başlıca əlamətlər onun ümumi strukturunda baş verən hadisələrdir. Həmin hadisələrin əsas məzmununu lüğət tərkibinin zənginləşməsi təşkil edir. Zənginləşmə elə bir prosesdir ki, burada lüğət tərkibinin diaxron mənzərəsi açılır, tarixi-mədəni inkişafın dildə faktlaşma üsulları meydana çıxır.

K.M.Musayevin belə bir fikri diqqəti cəlb edir: «Türk dillərinin leksik tərkibinin zənginləşməsi məsələləri haqqında nəzəri tədqiqatlar lazımdır. Məlumdur ki, türk dilləri leksikasının zənginləşməsi həm daxili imkanlardan (materiallardan, vasitələrdən və yollardan) istifadə yolu ilə sözdüzəltmə hesabına, həm də dünyanın başqa dillərindən sözalma hesabına olur. Sözdüzəltmə və onun müxtəlif yollarının (sintetik, analitik, fonetik, leksik) mahiyyətini aydınlaşdırma və alınmalara nəzəri və praktiki qiymət – onları daha da dərindən öyrənmək üçün geniş imkanlar açır»[1].

Bütün tarix boyu olduğu kimi, sovet dövründə də Azərbaycan ədəbi dilinin lüğət tərkibi iki yolla zənginləşir:

1. Daxili imkanlar hesabına;

---

[1] К.М.Мусаев. Основные проблемы изучения лексики тюркских языков. — СТ, 1978, № 3, стр. 35

2. Başqa dillərdən alınmalar hesabına.

Sosial-ictimai münasibətlərlə bağlı olaraq, dildə sözlərin müəyyən qismi köhnələrək istifadədən qaldığı kimi, yeni sözlərin yaranması meyili də mövcuddur. Cəmiyyət həyatında sosial dəyişikliklər və inkişaf perspektivləri ilə bağlı olaraq, yeni sözlərin yaranması, habelə bir çox sözlərin köhnəlməsi prosesində intensivlik və ya ləngik müşahidə edilir. XX əsrin əvvəlləri, xüsusilə Oktyabr inqilabından sonrakı illər cəmiyyət həyatını mütərəqqi inkişaf yoluna aparan hadisələrlə zəngin olduğundan, bu hadisələrə müvafiq şəkildə çoxlu yeni sözlər meydana çıxırdı. Vaxtını başa çatdırmış ictimai hadi-sələr isə özləri ilə bərabər bir sıra sözlərin də köhnəlməsinə səbəb olurdu. Lakin dildə bütün köhnə ictimai hadisələr, əşya və münasibətlər birdəfəlik unudulmur. Vaxtını başa çatdırmış hadisələrin gələcək nəsillərə bədii yolla xatırladılmasında köhnə sözlərdən də istifadə olunur. Bu zaman köhnəlmiş sözlər lüğət fondundan çıxır, lakin ədəbi dilin bədii üslubu hesabına lazım gəldikdə yenidən canlandırılır.

Ədəbi dilin zənginləşməsində məna dəyişkənliyinə uğrayan sözlərin, dialektizmlərin, habelə kalka yolu ilə yaranan leksik vahidlərin və xalq dili əsasında yaranmış bir çox sabit birləşmələrin hər biri, dilin daxili inkişafı bu amillərin təsir gücündən və əhatəsindən asılıdır. Bunların təsiri güclü isə hər bir konkret dil də özünəməxsus elementlərə malikdir. Oktyabr inqilabından sonra Azərbaycan ədəbi dilinin zənginləşməsi üçün bu amillərin təsir gücünün artmasına daha real zəmin yaranmışdır. Dilin daxili imkanlar hesabına zənginləşməsi yollarından biri və məhz başlıca amili ictimai quruluşla əlaqədar dəyişikliklərin, xüsusən sovet dövründə elmi-texniki, siyasi və mədəni münasibətlərin inkişafıdır.

Yeni sözlərin yaranması

Sovet dövründə Azərbaycan ədəbi dili lüğət tərkibinin strukturunda gedən inkişaf, birinci növbədə, tarixi-ictimai mühitin dəyişməsi ilə əlaqədar olaraq köhnəlmə-yeniləşmə prosesinin güclənməsi ilə diqqəti cəlb edir. Hər iki proses (həm köhnəlmə, həm də yeniləşmə) dil təfəkküründə dialektik vəhdətdə mövcuddur; hətta o halda ki, məsələn, lüğət tərkibinin müəyyən sahəsi arxaikləşir, ona oppozisiya təşkil edən lüğəvi sahə yaranmır, yenə də həmin vəhdət qalır, çünki bu və ya dikər sahədəki arxaikləşmə, yaxud yeniləşmə (lüğəvi vahidin istifadədən çıxması, yaxud istifadəyə bilavasitə daxil olması – yeni sözün yaranması) elə bir assosiativ gücə malik olur ki, bütövlükdə leksik-semantik sistem daxilində əksəlaqə yaradır.

Köhnəlmiş sözlər bir leksik vahid kimi, yalnız dilin passiv fondunda yaşayır, lakin keçmiş dövrə aid müəyyən əhvalat və ya hadisənin təsvirində həmin dövrü daha qabarıq canlandırmaq məqsədilə belə sözlərdən istifadə edilir. Bununla da dialektizmlər ilə köhnəlmiş sözlər arasında bir funksional oxşarlıq müşahidə edilir.

Dialektizmlərdə yerli kolorit əks olunduğu kimi, köhnəlmiş sözlərdə tarixi keçmiş və həm də müəyyən mənada milli kolorit ifadə edilir. Beləliklə, bir zamanlar dildə ümumişlək səciyyə daşıyan bu sözlər indi tarixi keçmişin təsviri ilə əlaqədar bədii ədəbiyyatda işlədildikdə ədəbi dilin bədiilik imkanlarının artmasına öz müsbət təsirini göstərir. Köhnəlmiş sözlər, bir qayda olaraq, köhnəlmiş ictimai münasibətlər, insan fəaliyyətindən kənarda qalan əşya və hadisələr, istehsalat vasitələri və s. ilə əlaqədar olaraq dilin aktiv fondundan passiv fonduna keçən vahidlərdən ibarətdir.

Tək-tək köhnəlmiş sözlər yeri gəldikdə yenidən fəallaşa və ədəbi dildə işləklik qazana bilər. Belə sözlər də ədəbi dilin zənginləşdirilməsinə xidmət edir, lakin ədəbi dil, başlıca olaraq, yeni sözlər hesabına zənginləşir.

Hər bir dilin inkişafında və xalqın ictimai həyatında neologizmlərin rolu böyükdür. Çünki neologizmlərdə bir qayda olaraq yeni anlayışların ifadəsi öz əksini tapır. Burada, aydın məsələdir ki, ictimai dəyişikliklərlə, elmi-texniki tərəqqi və s. ilə bağlı meydana çıxan anlayışların dil vahidləri ilə ifadə edilmə zərurəti başlıca rol oynayır. Lakin neologizmlərin hamısı eyni dərəcədə dilin lüğət tərkibində möhkəmlənmir. Yeni yaranan, yeni anlayışları ifadə edən sözlər öz işlənmə intensivliyinə görə müəyyən müddətdən sonra dilin lüğət tərkibinə daxil olur və neologizmlikdən çıxır. N.M.Şanski göstərir ki, yeni sözlər o halda neologizm hesab edilir ki, onlarda məntiqi-məfhum yeniliyi və ya üslubi özünəməxsusluq əks olunsun. Məsələn, rus ədəbi dilindəki *прилуниться, космодром, луноход, видео-телефон, универсам, миниюбка, максипальто, автоход* kimi yeni sözlər işlənmişsə, artıq onların yenilik dövrü başa çatmışdır. Belə sözlər ümumxalq səciyyəsi qazandıqdan sonra ədəbi dilin lüğət tərkibinə daxil olmuş və neologizm xüsusiyyətini itirmişdir[1].

Yeni sözlər gündəlik ünsiyyətdə işlədilməklə tədricən neologizm olmaq xarakterini itirir və dilin aktual leksik vahidlərinə çevrilir.

Neologizmlərin bəziləri müəyyən müddətdə dildə işlənsə də, quruluş və semantik cəhətdən dilin daxili qanunlarına müvafiq gəlmədiyi üçün istifadədən qalır. Fərdi-üslubi neologizmlər isə yazıçı təxəyyülünün məhsulu

---

[1] *Bax:* Н.М.Шанский. Лексикология современного русского языка, М., «Просвещение» 1972, стр. 159.

kimi, məhz həmin yazıçının əsərlərinin lüğət tərkibinə daxil olmaqla məhdudlaşır. Beləliklə, neologizmlərin hamısı dildə işlək olmur və vətəndaşlıq hüququ qazanmır. Daxilindəki belə müxtəlifliyə görə neologizmlər iki qrupa bölünür.

Sovet dövrü Azərbaycan ədəbi dilində neologizmlərdən bəhs edərkən, cəmiyyətin sosial inkişafının hər bir mərhələsində yaranan sözləri nəzərə almaq lazımdır. Məlum olduğu üzrə, sosializm cəmiyyəti quruculuğunun ayrı-ayrı mərhələlərində ictimai-siyasi inkişafla əlaqədar elə sözlər yaranmışdır ki, həmin dövr hadisələri başa çatdıqdan sonra bunların işlədilməsi lüzumu da aradan qalxmışdır. Məsələn, vaxtilə Azərbaycan dilində işlədilmiş *yeni iqtisadi siyasət, ərzaq sapalağı, ərzaq kartoçkası, ortabab kəndli, yoxsul kəndli, muzdur əməyi* və s. kimi vahidlər bu qəbildəndir. Bu xüsusiyyət elmi-texniki tərəqqinin səviyyəsi ilə əlaqədar yaranmış sözlərə da aiddir. Məsələn, vaxtilə işlədilmiş *dərzbağlayan, taxıldöyən, taxılsovuran* və s. kimi sözlər elmi-texniki tərəqqinin sonrakı inkişafı ilə əlaqədar yaranmış yeni sözlərin müqabilində öz işləkliyini itirmişdir.

Qeyd etməliyik ki, ictimai-siyasi inkişafla əlaqədar yaranmış sözlərin çox mühüm bir qismi sonradan ədəbi dilə daxil olmaq hüququ qazanmışdır. Sovet dövründə rus dilində yaranmış *вертолет, комсомолец, магнитофон, орденоносный, райком* və s. sözlər də bu qəbildəndir[1]. Yarandığı dövrdə neologizm kimi səciyyələndirilən belə sözlər rus dilində olduğu kimi, SSRİ xalqlarının dillərinə, o cümlədən Azərbaycan dilinə də daxil olaraq ümumxalq səciyyəsi qazanmış və lüğət tərkibinə keçmişdir. Bu tipli sözlərin bir qismi Azərbaycan dilinə hazır şəkildə daxil

[1] Bax: Современный русский язык, I, M., «Высшая школа», 1978, стр. 33.

olmuş, bəziləri isə bu dilin qaydalarına uyğun şəkildə işlədilmişdir. Məsələn, *комсомолец* əvəzinə *komsomolçu, орденоносный* əvəzinə *ordenli* və s. Neologizmlərin ümumxalq səciyyəsi qazanması onların lüğət tərkibinə keçə bilməsində başlıca amil olduğundan dilçilik ədəbiyyatında bu tipli yeni sözlərə ümumdil və ya linqvistik neologizmlər, ikinci qrupa isə fərdi və ya üslubi (okkazional) neologizmlər daxil edilir.

Fərdi (okkazional) neologizmlər ədəbi dilin lüğət tərkibinə daxil ola bilmədiyi üçün onlar üslubi və ya müəyyən ekspressivlik yaradan vasitələr kimi qiymətləndirilir. Ədəbi dilin lüğət tərkibinin zənginləşməsi mənbələrindən biri kimi, ümumdil neologizmləri xüsusilə maraqlıdır.

Elmi ədəbiyyatda neologizmlərin üç başlıca proseslə bağlı yarandığı qeyd edilir. Bunlar aşağıdakılardan ibarətdir: a) yeni anlayışların adından ibarət olanlar *(атомоход, космодром, астронавт, лунодром);* b) köhnə sözlərin əvəz edilməsi yolu ilə yarananlar *(цеппелиндрижабль, авиатор-летчик, сленг-жаргон);* c) semantik cəhətdən dəyişərək yeni məna qazananlar *(пионер, память, вратар)*[1] *və* s.

Bizə elə gəlir ki, semantik cəhətdən dəyişmiş sözləri neologizmlərdən ayrı şərh etmək lazımdır. Çünki neologizm, ümumiyyətlə, ictimai həyatda, elm və texnikada, məişətdə yaranmış yeni anlayışların adlarından ibarətdir. Bu adların yaranmasında isə müxtəlif üsullardan, hətta başqa dildən söz alınması üsulundan da istifadə edilə bilər. Yeni yaranmış anlayışların adlandırılması ilə yanaşı, köhnə sözlərin də yeniləri ilə əvəz edilməsi əməliyyatı

---

[1] *Bax:* Современный русский язык. I, Минск, изд. БГУ, им. В. И. Ленина, 1979, стр. 215. 154

neologizmlərin yaranması tələblərinə tam cavab verir. Belə ki, dildə indiyə kimi olmayan yeni bir vahid əmələ gətirilməsi tələbi ödənilmiş olur. Məna dəyişməsində də ictimai amillərin, həmçinin sosial-iqtisadi inkişaf və elmi-texniki tərəqqinin rolu böyükdür. Lakin məna dəyişməsində, əvvəlki məna bu və ya digər dərəcədə saxlanmaqla sözə yeni çalarlar əlavə olunur, yeni söz, yeni vahid isə əmələ gətirilmir. Məsələn, vaxtilə *yoldaş* sözü Azərbaycan dilində *yol yoldaşı, ortaq, köməkçi* mənalarında işlənmişsə də, sovet dövründə artıq bu sözün *məsləkdaş* mənası da meydana çıxmışdır. Bununla da söz, quruluşca olduğu kimi qaldığı halda, onun məzmun planında dəyişmə baş vermiş və semantik sahəsi genişlənmişdir. Rus dilindəki *пионер, вратар, память* və s. kimi sözlərdə də buna oxşar proses baş vermiş, sovet dövründə onların ictimai mənaları genişlənmişdir[1]. A.A.Brakinanın da neologizmlərə həsr etdiyi əsərində semantik dəyişməyə uğramış sözlər mənaca genişlənmə və ya daralma yox, məhz neologizm kimi izah olunmuşdur. Müəllif belə hesab edir ki, *sputnik* sözünün *искусственный спутник* mənasında işlənərək semantik cəhətdən genişlənməsi ilə neologizm yaranmışdır[2].

Lakin göründüyü kimi, burada yeni linqvistik vahid yaranmamış, elmi-texniki tərəqqi ilə əlaqədar, sözün təkcə semantik sahəsi genişlənmişdir.

Neologizmlərin yaranmasında başlıca şərt yeni sözlərin meydana gəlməsi olduğu üçün tədqiqatçıların bir qismi məhz bu xüsusiyyəti əsas götürmüşlər. Bu cəhətdən, müasir rus dilinə həsr olunmuş dərslikdəki «dilçilik

---

[1] *Bax:* Современный русский язык. I ч., M,, «Высшая школа». 1978, стр. 33.

[2] А.А.Брагина. Неологизмы в русском языке. М., Изд. «Просвещение», 1973, стр. 17.

ədəbiyyatında sadəcə olaraq yeni sözə deyil, lap təzətər sözə, dildə lap yenicə işlənən sözə, yeniliyini danışanlar duyduğu sözə neologizm deyilir»[1] fikrinə tamamilə haqq qazandırmaq mümkündür. Neologizmlərin səciyyəvi xüsusiyyətləri ilə əlaqədar olan belə bir fikrə rus dilinə həsr olunmuş başqa əsərdə də təsadüf olunur: «birinci qrupa daxil olan neologizmlər (dilçilik neologizmləri – *N. X.)* yeni əşya və hadisələri, yeni ictimai münasibətləri, elm və texnikada yeni kəşfləri bildirməyə xidmət edir, məs: *колхоз, электровоз, мичуринец, суворовец* və b.»[2].

Azərbaycan dilçiliyində də neologizmlər ümumdil və fərdi (okkozional) olmaqla iki qrupa bölünmüşdür. Burada da ümumdil neologizmlərinin başlıca xüsusiyyəti onların yeni əşya və hadisələrin adları kimi meydana çıxması zərurəti ilə izah olunur. Semantik dəyişmədən – sözlərin mənaca daralması və genişlənməsindən ayrıca bəhs edilir[3].

Ümumdil (linqvistik) neologizmləri. Azərbaycan dilindəki ümumdil neologizmlərinin yaranmasında dörd əsas meyil müşahidə edilir. Bunlardan biri cəmiyyətin sosial inkişafı ilə əlaqədar yaranmış anlayışların yeni sözlərlə ifadə edilməsi zərurətindən doğan başlıca meyildir. İkincisi, alınma söz əvəzinə Azərbaycan dilinin sözyaratma qanunları əsasında yeni vahidlərin düzəldilməsi meyilindən ibarətdir. Bu meyillər istər sözdüzəldici şəkilçi vasitəsi ilə, istərsə də analitik yolla düzələn neologizmlərdə müşahidə olunur. Azərbaycan dilindəki ümumdil neologizmlərinin üçüncü qismini ərəb-fars mənşəli və ya vaxtilə Azərbaycan

---

[1] *Bax:* Современный русский язык. I ч., М., «Высшая школа», 1978, стр. 33.

[2] А.М.Земский, С.Е.Крючков, М.В.Светлаев. Русский язык. ч. I, М., Изд. «Просвещение», 1971, стр. 38.

[3] *Bax:* Azərbaycan bədii dilinin üslubiyyatı (oçerklər), Bakı, «Elm» nəşriyyatı, 1970, səh, 102.

dilinin daxili imkanları əsasında düzəlmiş bəzi sözlərin əvəzinə əsasən rus dilindən alınmış vahidlərin işlədilməsi təşkil edir. Məcazi mənalı yeni vahidlərin əmələ gəlməsi ilə neologizmlərin mövcud potensialının genişlənməsi dördüncü meyildir. Qeyd etməliyik ki, Azərbaycan dilçiliyində söylənmiş fikir və mülahizələrdə neologizmlərin yeni məfhum ifadə etməsi xüsusiyyətinə daha çox diqqət yetirilmişdir. Sovet dövründə Azərbaycan dilinin lüğət tərkibinə daxil olmuş ümumdil neologizmlərinin yaranma xüsusiyyətləri, əsas etibarilə, aşağıdakılardan ibarətdir.

Azərbaycan ədəbi dilində bilavasitə ictimai-siyasi amillərin və elmi-texniki tərəqqinin təsiri ilə yaranan neologizmlər başlıca yer tutur. Belə ki, cəmiyyətdə baş verən inkişafla həmahəng olaraq, dildə də bir sıra yeni sözlər yaranır. M.İ.İsayev dilin cəmiyyətlə bağlı inkişaf perspektivləri barədə yazır: «Dil cəmiyyətlə sıxı əlaqədə mövcud olur və inkişaf edir. Tarixi bir zərurət kimi meydana gələn dil cəmiyyətin onun qarşısına qoyduğu tələblərə cavab verməyə qadir olmalıdır. Dil cəmiyyətin vəziyyətini əks etdirir və onun tərəqqisinə fəal kömək göstərir. Dil və cəmiyyətin dialektik əlaqəsi bundadır»[1].

Sovet dövründə Azərbaycan ədəbi dilində məhz cəmiyyətdəki inkişaf perspektivlərini əks etdirən bir çox yeni sözlər meydana gəlmişdir. Azərbaycan dilində ictimai-siyasi inkişaf və elmi-texniki tərəqqi ilə əlaqədar, düzəltmə və mürəkkəb quruluşlu neologizmlərin əmələ gəlməsi daha çox müşahidə olunur.

Düzəltmə neologizmlərin yaranmasında əsas etibarilə

---

[1] М.И.Исаев. Языковое строительство как один из важнейших экстралингвистических факторов развития языка. «Язык и общество», М., Изд. «Наука», 1968, стр. 82.

aşağıdakı sözdüzəldici şəkilçilər iştirak edir:

-ıcı, (-ici, -ucu, -ücü) şəkilçisi. Bu şəkilçi vasitəsilə sovet dövrü ədəbi dilimizdə *bayraq* sözü ilə birinci növ təyini söz birləşməsi şəklində işlənərək əmək cəbhəsində fərqlənmə anlayışı ifadə edən «keçici» sözü yaranmışdır. Bu söz ictimai əməyin coşqun inkişafı illərinin məhsulu olduğu üçün kollektivləşmə dövründə, Böyük Vətən müharibəsindən sonrakı quruculuq illərində işlənmiş, 1960-cı ildə nəşr olunmuş «Azərbaycan dilinin orfoqrafiya lüğətinə daxil edilmiş və sonrakı lüğətlərdə də qeydə alınmışdır[1]. Mətbuatda və bədii dildə 1960-cı illərdə daha fəal işlənməyə başlanmışdır:

Briqadamız bu il keçici bayraq almışdır (K-16.03.60); *Bu il bizim zavodumuz əmək qələbələrinə görə keçici bayraqla təltif edilmişdir* (K-18.04.65); *Keçici bayraqlar yan-yana durur* (S. Vurğun) və s.

İctimai əməyin cəmiyyətdəki fəal mövqeyi ilə əlaqədar düzəldilmiş *keçici* sözü artıq ədəbi dilin indiki mərhələsində neologizmlikdən çıxmış, ümumxalq səciyyəsi qazandığı üçün ümumişlək sözlər sırasına keçmişdir. Son dövrlərdə bu sözün semantik imkanlarının genişlənməsi sayəsində yeni *keçici vımpel* söz birləşməsi də meydana çıxmışdır: *Keçici vımpel məktəblilərə təqdim olundu* (AP-18.05.76).

-ıcı (-ici, -ucu, -ücü) şəkilçisi vasitəsilə Azərbaycan dilində sosialist cəmiyyətinin demokratik inkişaf nailiyyətlərini əks etdirən *seçici* sözü də əmələ gəlmişdir. Bu sözün yaranması *keçici* sözünə nisbətən daha əvvəlki dövrə aid olduğu üçün, demək olar ki, 30-cu illərdən nəşr olunan bütün Azərbaycanca-rusca lüğətlərdə, orfoqrafiya

---

[1] *Bax:* Azərbaycanca-rusca lüğət. Bakı, 1965; Azərbaycan dilinin orfoqrafiya lüğəti, Bakı, 1975; Azərbaycan dilinin izahlı lüğəti, I c., Bakı, 1966 və s.

lüğətlərində və izahlı lüğətdə qeydə alınmışdır. *Seçici* sözü yarandığı vaxtdan öz kütləviliyi ilə ümumxalq xarakteri qazanmışdır. Artıq çoxdan bəri bu söz ümumişlək leksikaya daxil olmuşdur. *Seçici* sözünün işlədilməsinə müxtəlif dövrlərdə, ədəbi dilin müxtəlif üslublarında bol-bol rast gəlmək olur:

Seçicilər səhər tezdən məntəqəyə toplaşmışdılar (K-16.04.38); *Seçicilərlə söhbət aparılmışdır* (K-22.03.51); *Deputatlığa namizədlərlə seçicilərin görüşü keçirilmişdir* (K-12.02.76) və s.

Azərbaycan dilində *-ıcı (-ici, -ucu, -ücü)* şəkilçisi vasitəsilə elmi-texniki nailiyyətləri əks etdirən *qırıcı* sözü də əmələ gəlmişdir. Bu sözün yaranması, əsasən, I mərhələnin ikinci onilliyinə təsadüf etsə də, 30-cu illərdə nəşr olunmuş lüğətlərə, həmçinin 1940-cı ildə nəşr olunmuş «Orfoqrafiya lüğəti»nə düşməmiş, yalnız 1941-ci ildə nəşr olunmuş «Azərbaycanca-rusca» lüğətə daxil edilmişdir.

Qırıcı sözü də *keçici* və *seçici* sözləri kimi, artıq dilin ümumişlək leksikasına daxil olmuşdur. Ona görə də bu sözə ədəbi didin müxtəlif üslublarında təsadüf edilir:

Sovet qırıcıları düşmənin canlı qüvvəsinə və texnikasına böyük tələfat verir (K-16.03.42); *Qırıcı təyyarələr göydə halay vururdu* (K-18.07.44); *Qırıcılarımızın o biriləri qəsəbənin üzərində hərlənir və yoldaşlarının keşiyini çəkirdi* (Ə. Vəliyev) və s.

Həmin şəkilçinin köməyi ilə yaranmış «soyuducu» sözü də öz yaranma və ədəbi dilimizdə işlənmə taleyinə görə maraqlıdır.

Rus dilindəki «xolodilnik» sözünün azərbaycanca qarşılığını axtaran yazıçılarımız müxtəlif sözlərdən istifadə etmişlər. R. Rza *«soyutqan» sözünü şeirə gətirmişdir:*

Soyutqan, televizor, radio, qəndqıran maşın (R. Rza). Yazıçı M. Hüseyn isə «Yeraltı çaylar dənizə axır» romanında bu mənada *«buz dolabı»* birləşməsini işlətmişdir: *Buz dolabından yağ, pendir çıxartdı.*

-lıq (-lik, -luq, -luk) şəkilçisi. Azərbaycan dilində məhsuldar olan bu şəkilçi vasitəsilə də sovet dövründə bir sıra neologizmlər yaranmışdır. Bu cəhətdən *yenilik, üzümçülük* kimi sözlər xüsusilə maraqlıdır. *Yenilik* sözü Sovet hakimiyyətinin ilk illərində köhnəliklə mübarizə prosesində yaranmışdır. Kütləvi xarakter daşımaq baxımından geniş imkanlara malik olan bu söz tezliklə ədəbi dilin lüğət tərkibinə keçmişdir:

Yenilik tərəfdarları bu mübarizədə qalib gələcəkdir (K-18.07.28); *həyatda və məişətdə yenilik yaratmaq təşəbbüsü alqışlanmalıdır* (SK-21.08.32); *Yenilik kükrəyib köhnəliyi məhv etmək istəyir, köhnəlik təslim olmaq istəmir* (Ə. Vəliyev) və s.

Yenilik sözü ədəbi dilin indiki mərhələsində əsas etibarilə əməli məzmun daşıyır: *Aqreqatın yeniliyi dərmanlamanın səmərəliliyi ilə ölçülür* (SK-18.08.76); *Briqadamızın üzvləri İpatovo metodundan yeniliyi öz əmək təcrübələrinə tətbiq edirlər* (SK-12.02.76).

Yenilik sözünün əməli məzmununun genişləndiyi indiki mərhələdə ondan *-çı* şəkilçisi vasitəsilə şəxs çalarlı *yenilikçi* sözü də düzəlmişdir:

Qabaqcıl kollektivlərin və yenilikçilərin vətənpərvərlik hərəkatı təşəbbüsçülərinin təcrübəsi fəal surətdə təbliğ edilsin (K-2.07.83); *Təsərrüfatın müxtəlif sahələrində yenilikçilərin təşəbbüsləri müdafiə edilir* (AG-8.02.87) və s

Sovet dövrü Azərbaycan ədəbi dilində *-lıq* şəkilçili *önlük* sözünün də işlədilməsinə təsadüf edilir:

Qızlar önlüklərini pambıqla doldurub sahənin kənarına çıxırdılar (SK-16.09.47); *Bir qəşəng qızın şəklini də çəkmişdilər, önlüyü pambıqla dolu* (Ə. Qasımov) və s.

Önlük sözünə 1951, 1963, 1965-ci illərdə nəşr olunmuş Azərbaycanca-rusca lüğətlərdə, 1960, 1975-ci illərdə nəşr olunmuş orfoqrafiya lüğətlərində və 1966-cı ildə nəşr edilmiş izahlı lüğətdə rast gəlmək olur.

Rus dilindəki «купальник» sözünün dilimizdə *çimərlik paltarı (kostyum), çimərlik geyimi* kimi qarşılıqları ilə yanaşı, fərdi üslubda «dənizlik» sözü ilə də ifadəsinə rast gəlirik: *İçəri girdi, siyirməni çəkdi, qəzetə bükülmüş dənizliyini götürdü* (Anar).

-lıq şəkilçisi dilimizin müasir vəziyyətində geniş sözyaratma vəzifəsini icra edir. Bu şəkilçi müxtəlif sözlərə qoşularaq peşə, sənət və müəyyən prosesləri bildirən sözlər əmələ gətirir və sözyaratma imkanlarının genişliyi ilə seçilir, həm dilimizin öz sözlərinə, həm də alınma sözlərə qoşulmaqla yeni sözlər silsiləsi yarada bilir: *Novosibirskidəki Akademiya şəhərciyi kimi savadlılıq, intellektuallıq və təminatlılıq səviyyəsinin təbii olaraq yüksək olduğu bir kollektivdə müəyyən dövr ərzində ölkə miqyasında ən yüksək boşanma müşahidə edilmişdir* (A-1986, № 2); *Həmin nemətlərin paytaxt zəhmətkeşlərinə vaxtında çatdırılması, israfçılıqla təsərrüfatsızlığa yol verilməməsi həmişə diqqət mərkəzində olmalıdır* (Əİ-12.12.86); *Zəhmətsiz gəlirlərə qarşı mübarizədə əzmkarlıq və aşkarlıq* (K-10.02.87); *Çoxillik pedaqoji təcrübə göstərir ki, məktəbdə əmək kollektivləri ilə əlaqəni möhkəmləndirməyin düşünülmüş sistemi yoxdursa, böyüyən nəslin kommunist tərbiyəsi işini bütünlükdə həll etmək mümkün olmayacaqdır* (K-10.02.87).

Adlıq, yiyəlik, təsirlik, yönlük, yerlik, çıxışlıq, zərflik

kimi linqvistik terminlər də sovet dövründə məhz həmin şəkilçi vasitəsilə yaradılmışdır.

-çı (-çi, -çu, -çü) şəkilçisi. Bu şəkilçi vasitəsilə sovet dövrü Azərbaycan ədəbi dilinin ayrı-ayrı mərhələlərində əsas etibarilə təsərrüfat və əmək həyatı ilə bağlı neologizmlər əmələ gəlmişdir. Ümumiyyətlə, sosialist təsərrüfat həyatının coşqun inkişafı məhz bu sahə ilə bağlı bir sıra yeni sözlərin yaranmasında başlıca amillərdən biri kimi nəzərə alınmalıdır[1]. *-çı* şəkilçisi vasitəsilə sosialist təsərrüfat həyatının ayrı-ayrı sahələrinə aid yaranan neologizmlərdən *əməkçi, qazmaçı, qaynaqçı, qəlibçi, açarçı* kimi sözləri misal göstərmək olar. «Əməkçi» və «qazmaçı» sözləri «qaynaqçı» və «qəlibçi» sözlərinə nisbətən daha əvvəlki dövrdə yaranmış olduğundan bunlara hətta 1930-cu illərin lüğətlərində təsadüf etmək olur. «Qaynaqçı» və «qəlibçi» sözlərinə isə 1960-cı ildən sonra nəşr olunmuş lüğətlərdə təsadüf edilir.

-çı şəkilçisi ilə düzəlmiş aşağıdakı sözlərin hamısında əməyin ictimai funksiyası qabarıq şəkildə öz əksini tapır:

Əməkçilər öz vəzifələrini layiqincə yerinə yetirirlər (K-18.08.38); *«Birlik» kolxozunda bizim qazmaçı dəstəmiz artezian quyusu qazır* (Ə. Vəliyev); *Üçüncü sexdə qaynaqçıyam deyə Ramazan cavab verdi* (S. Qədirzadə); *Qəlibçi hara, boru hazırlamaq hara?* (V. Babanlı) və s.

-ış (-iş, -uş, -üş) şəkilçisi. Bu şəkilçi vasitəsilə son zamanlar *bitmək* və *çıxmaq* sözlərindən əkinçilik təsərrüfatı ilə bağlı *bitiş* və *çıxış* sözlərinin düzəldiyi müşahidə edilir. Qeyd etməliyik ki, *çıxış* sözü Azərbaycan dilində «nitq

---

[1] *Bax:* Л.Г.Керимов. Научно-технический прогресс и обогащение словарного состава современного азербайджанского языка, АКД, Баку, 1983, стр. 10-16.

söyləmək» mənasında əvvəlcədən də var idi. Lakin bitkinin cücərməsi mənasında «çıxış» sözü öz məna xüsusiyyətinə görə bundan tamamilə fərqlənir. Bu sözlərin hər ikisi istər məzmunca, istərsə də quruluşca analoji yolla bir-birinə bənzədilərək əmələ gətirilmişdir. *Çıxış* və *bitiş* sözlərinin heç biri hələlik Azərbaycan dili lüğətlərinə daxil edilməmişdir. Hətta bu sözlər izahlı lüğətdə və sonuncu (1975) orfoqrafiya lüğətində də verilməmişdir.

Ədəbi dildə son zamanlar işlədilməyə başlamış bu sözlər aid olduğu hadisəni uğurla ifadə edir:

Səpin yaxşı aparılmış və yaxşı b i t i ş alınmışdır (K-03.00.83); *Hər yerdə yaxşı ç ı x ı ş alınmışdır* (K-27.08.83). Şübhə etmək olmaz ki, hələlik lüğətlərdə öz əksini tapmayan və neologizm səciyyəsini saxlayan bu sözlər öz dolğun məzmunları ilə ədəbi dilin lüğət tərkibinə daxil olan sözlər sırasına keçə biləcəklər.

Ədəbi dildə son zamanlar *-qaç (-kəc) şəkilçisi* ilə yaranmış *sürüngəc, tutqac* kimi yeni sözlərə də rast gəlmək olur ki, bunlar da bilavasitə elmi-texniki tərəqqi ilə bağlı yaranmışdır[1]. Qeyd etməliyik ki, bu sözlər son dövrün məhsulu olduğu üçün yalnız 1975-ci ildə nəşr olunmuş «Azərbaycan dilinin orfoqrafiya lüğəti»ndə qeydə alınmışdır.

Dilimizin sözdüzəltmə ənənələrinə uyğun yaradılmış «alışqan» sözü birdən-birə sabitləşməmişdir. Bir müddət *çaxmaq, avtomatik alışqan, tapança çaxmaq* (M. Hüseyn), *papirosyandıran* (S. Rəhimov) və s. söz və ifadələrlə paralel işlənmiş, nəhayət *alışqan* sözü ədəbi dilimizdə sabitləşmişdir: *Siqaret çıxarıb birini Sərvərə verdim, birini*

---

[1] *Bax:* Л.Г.Керимов. Научно-технический прогресс и обогащение словарного состава современного азербайджанского языка, АКД, Баку, 1983, стр. 12.

də özüm damağıma qoyub a l ı ş q a n l a yandırdım (İ.Əfəndiyev).

Sovet dövründə ictimai-siyasi inkişafla əlaqədar bir sıra mürəkkəb quruluşlu neologizmlər də yaranmışdır. Bunların bəziləri mürəkkəb söz şəklində olduğu halda, bəziləri söz birləşməsi şəklindədir. Lakin əsas etibarilə terminoloji səciyyə daşıyan bu tipli söz birləşmələri dilə sintaktik vahid kimi yox, leksik vahid kimi daxil olur. İstər sosializm quruluşunun inkişaf perspektivləri ilə və istərsə də sovet elm və texnikasının nailiyyətləri ilə bağlı yaranmış belə neologizmlərin böyük əksəriyyəti dilin ümumişlək fonduna daxilolma imkanı qazana bilmişdir. Azərbaycan ədəbi dilində meydana gəlmiş bu cür neologizmlər, başlıca olaraq, kənd təsərrüfatı və əkinçiliyin, habelə elm və texnikanın tərəqqisi ilə əlaqədar anlayışları ifadə edir. Xüsusən müharibədən sonrakı dinc quruculuq dövründə kənd təsərrüfatının inkişafı bir çox yeni sözlərin meydana gəlməsinin təməlini qoydu. Bu sözlər yarandığı müddətdə yeni anlayış ifadə etmək cəhətdən neologizm səciyyəli idi. Lakin xalqın əmək həyatında mühüm yer tutan belə sözlər tezliklə ədəbi dilin lüğət tərkibinə daxil olaraq ümumxalq səciyyəsi qazanmağa başladı. Azərbaycan dilində sosialist kənd təsərrüfatının inkişafı ilə bağlı olan neologizmlər, başlıca olaraq, kənd təsərrüfatı texnikasına və əkinçilik üsullarına, habelə, texniki-inzibati anlayışlara aid sözlərdən ibarətdir. Kənd təsərrüfatının inkişafı ilə bağlı olan və mürəkkəb söz şəklində formalaşmış bu tipli neologizmlərə dair aşağıdakıları misal göstərmək olar.

Feli sifət birləşməsi şəklində qurulanlar. Belə neologizmlər feli sifət birləşmələri strukturunda, yəni «ümumi isim + feli sifət» formasında yaranır. Sovet dövrü Azərbaycan ədəbi dilində bu cür quruluşa malik

pambıqyığan, çaybecərən, qarğıdalıbecərən kimi neologizmlər meydana çıxmışdır.

Qeyd etməliyik ki, bunlardan *pambıqyığan* sözü daha əvvələ aiddir. Pambıqyığan maşın müharibədən sonrakı dövrdə yarandığından onu ifadə edən sözə də 1930-cu illərin lüğətlərində təsadüf edilmir. Bu sözə yalnız 1975-ci ildə nəşr olunmuş «Azərbaycan dilinin orfoqrafiya lüğəti»ndə təsadüf edilir. Müasir dövrdə pambıqyığan maşın əmək cəbhəsində çox mühüm rol oynadığından onun ifadəçisi olan söz də ədəbi dildə intensiv işlənir. Bu sözə ayrı-ayrı üslublara aid materiallarda rast gəlmək olur: *Kolxoz və sovxozlarda p a m b ı q y ı ğ a n maşınların təmir edilməsi başa çatmaq üzrədir* (SK-19.04.82); *Rüstəm dayı bu p a m b ı q y ı ğ a n maşınlara neçə baxır, – deyə dilləndi* (M. İbrahimov).

Azərbaycan dilində *borudüzən, çaybecərən, qarğıdalıbecərən* kimi sözlər daha sonralar yarandığı üçün hələlik lüğətlərin heç birində qeydə alınmamışdır. Bu sözlərdən son dövrün mətbuat dilində kənd təsərrüfatı məsələləri ilə bağlı istifadə edilir: *B o r u d ü z ə n gəminin inşası Finlandiyada 500 gəmiqayıranı işlə əlavə təmin etməyə imkan verəcəkdir* (K-4.03.87); *Fərəhli haldır ki, çaybecərənlərimizin məhsulu ölkədə böyük şöhrət qazanmışdır* (AG-30.06.83); *Konsertdən sonrakı söhbət yenə kolxozun qarğıdalıbecərənləri barədə idi* (SK-30.06. 83) və s.

İkinci nov təyini söz birləşməsi şəklində qurulanlar. İkinci növ təyini söz birləşməsi strukturunda qurulan yeni sözlərin iki komponenti isimlərdən ibarət olur. İkinci komponentdə mənsubiyyət şəkilçisi iştirak edirsə də, bu artıq qrammatik funksiya daşımır. Dildə mürəkkəb söz kimi formalaşan belə vahidlərə aid sosialist əmək həyatı ilə

bağlı *manqabaşçısı* və *peşəyönümü* sözlərini misal göstərmək olar:

Manqabaşçısı hamıdan artıq məhsul toplamağa və yarışın qaliblərindən biri olmağa söz vermişdir (SK-19.07.81); Səni manqabaşçılıqdan çıxarmaq üçün əldə elə bir əsas yoxdur (İ. Şıxlı).

Peşəyönümü sözü hələlik lüğətlərin heç birinə düşməmişdir. Neologizm səciyyəli bu sözə ədəbi dilin xüsusilə son dövrlərinə aid materiallarında təsadüf edilir: *«Məktəblilərin əmək təlimi, tərbiyəsi və peşəyönümü sosial inkişaf planlarının yerinə yetirilməsi barədə məsələlər müzakirə olunmuşdur».*

Söz birləşməsindən ibarət olanlar. Sovet dövründə yaranmış, sosial inkişaf və elmi-texniki tərəqqi ilə bağlı neologizmlərin bir qismi söz birləşmələri şəklindədir. Bunlar özlüyündə sintaktik yolla yaranmış olsa da, müəyyən məfhum bildirmək cəhətdən terminoloji xarakter daşıyır. Bunlara kosmik fəzanın tədqiqi ilə bağlı olan *kosmik gəmi, hava gəmisi, raket texnikası, planetlərarası gəmi* və s. birləşmələri misal göstərmək olar.

Qeyd etməliyik ki, Azərbaycan dilinə aid lüğətlərdə söz birləşməsi şəklində olan və terminoloji səciyyə daşıyan belə nümunələrə nadir hallarda təsadüf edilir. Buna görə də 1975-ci ildə nəşr edilmiş «Azərbaycan dilinin orfoqrafiya lüğəti»ndə bu tipli neologizmlərdən yalnız birinin ilk komponenti (planetlərarası) qeydə alınmışdır. Kosmik tədqiqatlarla əlaqədar yaranmış bu tipli birləşmələr, ümumiyyətlə, ədəbi dilə surətlə keçməyə meyillidir. Rus dilində neologizmləri tədqiq edən A.A.Brakina kosmosla əlaqədar yaranmış yeni sözlərdə bu meyili müşahidə edərək onların başqa neologizmlərə nisbətən ədəbi dilə daha tez daxil olmasını, ümumiyyətlə, yeni bilik sahəsinin

kütləviliyi və onun ictimai rolu ilə əlaqələndirir[1].

Azərbaycan dilində də bu tipli neologizmlərin ümumxalq səciyyəsi qazanma meyili güclüdür və onlardan mətbuat dili ilə yanaşı, bədii üslub nümunələrində də istifadə olunur.

Kosmik gəminin uçuşa hazırlaşmasına az vaxt qalırdı (K-16.04.65); *Nibbanı başqa bir dünyaya aparmalı olan Hava gəmisi meydanın ortasında dayanmışdı* (Ə. Mahmudov); *Kim bilir, bəlkə bizim arxamızca planetlərarası gəmi göndərilmişdir* (Ə. Mahmudov); *Bu dörd ildə raket texnikası bir az da təkmilləşmiş olar* (Ə. Mahmudov) və s.

* * *

Sovet dövründə Azərbaycan ədəbi dilinin inkişaf xüsusiyyətlərindən biri də dövrün ictimai-siyasi hadisələri ilə uyuşmayan, quruluş və semantik cəhətdən dilin daxili tələblərini ödəyə bilməyən və yeni ictimai anlayışları əks etdirə bilməyən sözlərin əvəz edilməsindən ibarət idi. Ədəbi dilin 1920-40-cı illər mərhələsində bu meyil xüsusilə güclü olmuş, əvvəlki fəsildə qeyd edildiyi kimi, dilin müasir tələblərini ödəməyən xeyli miqdarda ərəb-fars mənşəli sözlər yeniləri ilə əvəz edilmişdi. Bu əvəzlənmədə, hər şeydən əvvəl, Azərbaycan dilinin daxili imkanlarının üstün rolu daim hiss edilməkdədir. Qeyd etmək lazımdır ki, ədəbi dilin inkişafının ilk mərhələsində ərəb-fars mənşəli, ikinci mərhələdə isə həm ərəb-fars, həm də rus mənşəli alınmaların əvəzinə, Azərbaycan dilinin daxili imkanları hesabına düzəldilmiş yeni sözlərin işlədilməsi meyili

[1] *Bax:* А.А.Брагина. Неологизмы в русском языке, «Просвещение». М., 1973, стр. 10-40.

müşahidə edilir. Ədəbi dilin lüğət tərkibinə daxil olan bu cür neologizmlər dilin leksik cəhətdən zənginləşməsində, onun semantik potensialının genişlənməsində mühüm rol oynamışdır.

Ədəbi dildə xüsusən son dövrlərdə əmələ gələn bu cür yeni sözlər, əsasən, düzəltmə və mürəkkəb yolla yaranmış vahidlərdən ibarətdir. Belə sözlərin səciyyəvi xüsusiyyətlərini aşağıdakı kimi izah etmək olar.

Alınma sözlərin əvəzinə işlədilən və sözdüzəldici şəkilçilər vasitəsilə əmələ gələn neologizmlərin meydana çıxmasında, başlıca olaraq, aşağıdakı şəkilçilərdən istifadə edilmişdir:

-ıçı (-içi, -uçu, -üçü) şəkilçisi. Bu şəkilçinin *-üçü* variantı ilə *sürmək* felindən *sürücü* sözü əmələ gətirilir. *Sürücü* sözü ədəbi dilimizdə *şofer* sözünün əvəzedicisi kimi yaradılmışdır. Təsadüfi deyildir ki, bu söz S. Cəfərovun söz yaradıcılığına aid tədqiqatında da qeydə alınmışdır[1].

Sürücü sözünə 1965-ci ildə nəşr olunmuş «Azərbaycanca-rusca lüğət»dən əvvəlki lüğətlərdə təsadüf olunmur. Bu söz ümumxalq səciyyəli lüğəvi vahidlərdən biri kimi, kütləvilik xarakteri qazanaraq işlədilir;

Təzə sürücü gələndən sonra İskəndər Nəzərin yerinə keçmişdi (S. Qədirzadə); *Sürücü bir daha donquldanıb uzaqlaşdı* (S. Qədirzadə); *Sürücülər təmir emalatxanasında məşğul idilər* (AG-26.08.79) və s.

-ac (-əc) şəkilçisi. Bu şəkilçinin *-əc* variantı ilə Azərbaycan dilində *tormoz* sözünü əvəz edən *əyləc* sözü düzəldilmişdir. *Əyləc* sözünü S. Cəforov *-ac (-əc)* şəkilçisi ilə düzələn sözlər sırasında qeydə almamışdır[2]. Son

---

[1] *Bax:* S Cəfərov. Azərbaycan dilində söz yaradıcılığı, ADU nəşri, Bakı, 1960, səh. 93-94.

[2] Yenə orada, səh. 102.

zamanlar yarandığından lüğətlərin də heç birinə düşməmişdir. Bununla belə, *əyləc* sözü ümumxalq səciyyəli leksik vahid kimi müvəffəqiyyətlə işlədilməkdədir:

Maşının ə y l ə c i xarab olmuşdu deyə bir qədər ləngimişdilər (AG-30.12.80); *Qaratel sürəti azaltmadan əyləci basdı, maşın yolu sağa-sola yazıb fışıltı ilə dayandı* (B. Bayramov) və s.

-ış (-iş, -uş, -üş) şəkilçisi. Bu şəkilçinin *-ış* variantı ilə son zamanlar *putyovka* sözünü əvəz edən *yollayış* sözü düzəldilmişdir. *Yollayış* sözü son dövrlərin mətbuat dilində daha çox işlədilməkdədir:

İstirahət zonalarında dincəlmək üçün y o l l a y ı ş l a r vardır (K-19.05.81); *Biz bu il komsomol y o l l a y ı ş ı ilə Azərbaycandan Sibirə – bizim tikintiyə getdik* (AG-18.02.83).

Əyləc sözü kimi *yollayış* sözü də ümumxalq səciyyəsi qazanmış olsa da, son dövrdə yarandığından lüğətlərə daxil olmamışdır. Bu sözə hətta son dilçilik ədəbiyyatında da təsadüf edilmir[1].

-ər, -lik şəkilçiləri. Bu şəkilçilərin birgə işlədilməsində *çimmək* sözündən *çimərlik* sözü düzəldilmişdir: *Çimərlik* sözü ədəbi dildə *plyaj* sözünü əvəz etmək üçün işlədilir:

Ç i m ə r l i k d ə suyun temperaturu 24 dərəcə olacaqdır (K-12.08.82); *Üz-üzə, göz-gözə dinməzcə baxışırdılar. İkisi də ç i m ə r l i k paltarlarında idi.*

Ədəbi dildə son zamanlar yaradılmış *çimərlik* sözü də mövcud lüğətlərdə qeydə alınmamışdır.

-ar (-ər) şəkilçisi. Bu şəkilçinin *-ar* variantı ilə *müvafiq* sözünü əvəz etmək üçün *uy-* felindən *uyar* sözü düzəldilmişdir. Qeyd etməliyik ki, tamamilə olmasa da, bir

---

[1] *Bax:* Müasir Azərbaycan dili, «Elm» nəşriyyatı, Bakı, 1980, səh. 78.

çox hallarda *uyar* sözü həqiqətən *müvafiq* sözünün əvəzedicisi kimi çıxış edə bilir:

Landşaftda u y a r ı olmayan kompozisiyasız ağaclar yığını memarlıq əsərlərini də yaraşıqdan salır (K-3.07.83); *Göründüyü kimi yaşıllığın memarlıqla uyarlığı çox mühüm məsələdir* (K-20.08.82).

Yeni olduğundan bu söz də lüğətlərə düşməmişdir. *Uyar* sözü məna və ifadə cəhətdən dilin daxili tələblərini ödəyə bilsə də, *müvafiq* sözü ilə əlaqədar bir sıra vahidləri, o cümlədən *məqsədəmüvafiq, müvafiq sahə, müvafiq yer* və s. kimi birləşmələr tərkibində işlənə bilmir.

Azərbaycan dilində alınma sözləri əvəz etmək üçün mürəkkəb yolla da bir sıra yeni kalkalar düzəldilmişdir. Azərbaycan dilində xüsusən son zamanlar yaranmış, ictimai fəaliyyət sahələri ilə bağlı olan belə sözlərdən aşağıdakıları qeyd etmək olar:

Tamixtiyarlı. Bu söz Azərbaycan dilində son zamanlar ərəb mənşəli *səlahiyyətli* sözünü əvəz etmək məqsədi ilə düzəldilmişdir. Qeyd etməliyik ki, *tamixtiyarlı* sözü əslində fars mənşəli *tam* və ərəb mənşəli *ixtiyar* sözlərinin birləşməsindən ibarət olsa da, ifadə edilən anlayışın kütləviliyi cəhətdən *səlahiyyətli* sözündən üstündür. Belə ki, *tam* və *ixtiyar* sözlərinin ümumxalq səciyyəsi güclü olduğundan onun mənası hamı üçün daha anlaşıqlıdır. Bununla belə, bu sözün *səlahiyyətli* sözünü bütövlükdə əvəz etdiyini də hələlik iddia etmək olmaz. *Tamixtiyarlı* sözü neologizm səciyyəli olduğundan lüğətlərə də daxil edilməmişdir. Lakin bu sözün müvəffəqiyyətlə işlədilməsinə mətbuat dilində güclü bir meyil hiss olunur: *Rayon aqrar-sənaye birlikləri və onların şuraları kolxoz və sovxozların mənafeyini əsas tutmaqla istehsala təsir göstərməyə qabil olan demokratik əsaslı, t a m i x t i y a r l ı*

dövlət və təsərrüfat idarə orqanlarıdır (K-25.06.83).

Qarşıdurma. Azərbaycan ədəbi dilində son zamanlar ictimai-siyasi hadisələrlə əlaqədar işlədilən bu söz ərəb mənşəli *ziddiyyət* və *müxalifət* kimi sözləri əvəz etmək məqsədi ilə düzəldilmişdir. *Qarşıdurma* sözü anlayış və ifadə cəhətdən ərəb mənşəli bu kimi sözlərdən üstündür. Ərəb mənşəli *ziddiyyət* və *müxalifət* sözlərində onların aid edildiyi anlayışlarla münasibətdə bir abstraktlıq müşahidə edildiyi halda, *qarşıdurma* sözündə məna konkretliyi güclüdür. Təsadüfi deyildir ki, bu kimi üstün xüsusiyyətlərinə görə *qarşıdurma* sözü 1975-ci ildə nəşr edilmiş «Azərbaycan dilinin orfoqrafiya lüğəti»nə də daxil edilmişdir. Bu sözdən ədəbi dildə terminoloji vahid kimi istifadə olunur: *Nüvə qarşıdurması şəraiti beynəlxalq siyasətdə yeni münasibətlər tələb edir* (Əİ-1.01.87); *Sosialist dövlətləri zəmanəmizin bütün mürəkkəb məsələlərini nüvə qarşıdurması yolu ilə deyil, danışıq yolu ilə həll etməyə çalışırlar* (B-30.06.82) və s.

Sututar. Bu söz ədəbi dildəki *su anbarı* söz birləşməsini əvəz etmək üçün işlədilir. *Su anbarı* söz birləşməsi artıq dildə terminoloji mənalı leksik vahid kimi formalaşmış olsa da, mürəkkəb vahid üslubi neologizmlər hesab edilir və onların bədii təsvir vasitəsi kimi işlənməsi fikri təqdir olunur[1]. Ümumiyyətlə götürdükdə isə istər linqvistik, istərsə də okkazional neologizmlərin yaranmasında dil qanunlarından kənar heç nə yoxdur. Yəni bu sözlər dilin qanunauyğunluğlarına müvafiq olaraq ya sözdüzəldici şəkilçilər vasitəsilə, ya da analitik üsulla əmələ gətirilir. Başlıca fərq ondan ibarətdir ki, linqvistik neologizmlərin ümumxalq dilinə daxil olma imkanları daha

[1] *Bax:* Azərbaycan bədii dilinin üslubiyyatı (oçerklər), «Elm», Bakı, 1970, səh. 93-97.

çoxdur. Fərdi neologizmlərdə isə bu imkan aşağı səviyyədədir. Hər halda, istər linqvistik və istərsə də okkazional neologizmlər dildə yeni yaranan vahidlər kimi maraqlıdır. N. M. Şanski rus dili üçün yeni olan sözlərlə əlaqədar yazır: «Rus dili leksikasında zühur edən hər bir neologizm rus dili sözdüzəltmə, rus dili semantik sistemi və qrammatik quruluşunun qayda və qanunlarından kənar yeni söz hesab edilə bilməz»[1].

Azərbaycan dilində də ədəbi dilin inkişafı prosesində linqvistik neologizmlərlə yanaşı, okkazionalizmlər də meydana gəlmişdir. Bunların mühüm bir qismi həqiqətən ancaq yazıçı üslubunun məhsulu olduğuna görə bu və ya digər müəllifin bədii yaradıcılığına xasdır. Hətta belə neologizmlərin müəyyən qismi məhz onu yaradan yazıçının əsərlərində də süni görünür və təkrar işlədilmə lüzumu qazana bilmir. Okkazionalizmlərin bəziləri isə ümumdil səciyyəli neologizmlərdən prinsipcə fərqlənmir və ədəbi dilə keçmək imkanına malik olur[2].

Həqiqətən də Azərbaycan yazıçılarının düzəltdiyi bir çox neologizmlər üslubi məqsədlə yanaşı, dildə məna təravəti ilə diqqəti cəlb edir və lüğət tərkibinin zənginləşməsinə təsir göstərir. Ümumdil neologizmləri bilavasitə alınma sözü əvəz edir, tam hüquqlu vahid kimi, ədəbi dildə onun yerində işlədilir. Okkazional neologizmlər isə ədəbi dildən alınma sözü sıxışdırıb çıxara bilmir, əksinə, həmin sözlə birlikdə dilin leksik-semantik potensialını genişləndirən sinonim cərgə əmələ gətirir. Əlbəttə, ümumdil neologizmləri kimi, okkazionalizmlər də dildə müəyyən leksik-semantik normalara müvafiq yaranır

---

[1] Н. М. Шанский. Лексикология современного русского языка, изд. «Просвещение», М., 1972, сящ. 163.

[2] *Bax:* S.Cəfərov. Müasir Azərbaycan dili, «Maarif», Bakı, 1970, səh. 71-72.

və buna görə də ədəbi dilə keçə bilmək imkanına malik olur. Ümumi halda, okkazional neologizmlərin hamısını ədəbi dilə daxil olmaq hüququ baxımından eyniləşdirmək mümkün deyildir. Belə ki, okkazional sözlərin bir qismi həqiqətən uydurma təsiri bağışlayır. Buna görə də yazıçı dilində özünü göstərən okkazional neologizmləri aşağıdakı kimi qruplaşdırmaq olar:

Ümumxalq səciyyəsi qazanmağa meyilli olan okkazionalizmlər. Okkazional neologizmlərin bu tipinə aşağıdakıları misal göstərmək olar:

Əyləclənmək. Əyləclənmək sözü ədəbi dildə hələlik ümumdil neologizmi kimi işlədilən və lüğətlərdə qeydə alınmamış *əyləc* sözü əsasında düzəlmişdir. Bu sözlə yazıçı dilində *tormozlanmaq* sözü əvəz edilir:

Bütün bunlara vaxtında əməl edilməyəndə yedəklənən maşın dartınırdı, ə y l ə c l ə n i r d i və til yoxuşda yedəkçini möhkəm dara salırdı (B. Bayramov);

Ədəbi dildə *əyləç* sözünün ümumişlək leksik vahid kimi işlədiləcəyi halda, *əyləclənmək* sözünün də ədəbi dilə daxil olma imkanları genişlənəcəkdir.

Asmalıq. Asmalıq fars mənşəli *zivə* sözünü əvəz etmək məqsədilə yazıçı dilində işlədilir. Qeyd etməliyik ki, *zivə* sözünün özü də dialekt səciyyəsi daşıyır, ümumxalq xarakterli vahid kimi hamı tərəfindən işlədilmir. Azərbaycan dilinin leksik-semantik tələbləri ilə tam şəkildə uyğun gələn *asmalıq* sözü ifadə və anlayış cəhətdən uğurlu hesab edilə bilər:

A s m a l ı q d a n quru dəyişək gətirib kağızların arasına atdı (B. Bayramov).

Asmalıq sözü 1940-cı ildə nəşr edilmiş «Azərbaycan dilinin orfoqrafiya lüğəti»ndə, habelə 1951 və 1962-ci illərdə nəşr edilmiş azərbaycanca-rusca lüğətlərdə qeydə

alınsa da *paltar sərilən ip* mənasında deyil, qaşıq-çəngəl qoymaq üçün ipdən toxunmuş əşya, habelə qurudulmuş meyvə mənalarında verilmişdir. *Paltarasılan ip* mənasında *asmalıq* sözü yenidir.

Hələlik bədii ədəbiyyatda işlədilən bu sözün ədəbi dilə daxil olmaq imkanı genişdir.

İşıqlı. Mövcud lüğətlərdə qeydə alınmış *işıqlı* sözü «işığı olan» anlayışını bildirir. Yazıçı qələminin məhsulu kimi meydana gələn «işıqlı» sözü isə ərəb mənşəli «ziyalı» sözünü əvəz etmək məqsədi daşıyır: *Əri fəhlə fakültəsi bitirmişdi. Elmli, işıqlı hesab olunurdu* (B. Bayramov); *Özü də elmli, işıqlı adam olmuşdu* (M. İbrahimov); *...özünü gəldi-gəlmədi qabağa dürtməyi, gözə soxmağı sevən bəzi «ziyalılardan» qat-qat mədəni, i ş ı q l ı, mənəviyyatlı adamlardır* (Anar) və s.

İstiölçən Yazıçı üslubunun məhsulu olan bu söz ədəbi dildə işlədilən *termometr* sözünün əvəz edilməsi məqsədilə düzəldilmişdir: *Evə gəldim. İ s t i ö l ç ə n ə baxdım* (R. Rza).

Təqdirəlayiq haldır ki, bu söz *termometr* sözünün əvəzedicisi kimi «Azərbaycan dilinin izahlı lüğəti»nə (III c., 1983) daxil edilmişdir.

Rus dilindən kalka yolu ilə alınıb işlənən *radio-qəbuledici* (radiopriemnik) sözünün əvəzinə, bədii ədəbiyyatda «radiotutan» sözünün də işlədilməsinə rast gəlinir: *Gülsənəm arvad bucaqdakı nikel çarpayını da, r a d i o t u t a n ı da builki qazancı hesabına almışdı* (M. Hüseyn); *Axı o, radiotexnik dərnəyinə getmişdi, radiotutanlardan başı çıxırdı* (M. İbrahimov).

Bədii əsərlərin leksik tərkibi səviyyəsi ilə məhdudlaşan okkazionalizmlər. Bədii ədəbiyyatda bəzən ifrat yeni sözdüzəltmə meyillərini də müşahidə etmək olur. Yeni söz düzəltmək təşəbbüsü altında bəzən elə leksik vahidlər

meydana gətirilir ki, onlar hətta əvvəldən mövcud olan qarşılığının mənasını ya tam vermir, ya da onu təhrif edir. Bəzi hallarda paralel okkazionalizmlər düzəldilir. Okkazionalizmlərin müəyyən bir qismi isə ədəbi dildəki formalara bənzədilərək analitik yolla düzəldilir. Lakin bir çox hallarda bu tipli okkazionalizmlər də ədəbi dilin tələbləri baxımından leksik-semantik cəhətdən özünü doğrultmur. Xüsusən son dövrlərdə yazıçı dilində yeni okkazional sözlərin yaradılması meyilinin artdığı müşahidə edilir. Ümumiyyətlə, bu cür okkazionalizmləri aşağıdakı kimi qruplara bölmək olar:

a) *Dildə mövcud qarşılığına semantik cəhətdən tam bərabər olmayan okkazionalizmlər.* Bədii ədəbiyyatda bir sıra elə okkazionalizmlərə təsadüf edilir ki, onlar ümumdil neologizmləri kimi, bilavasitə dildəki alınma sözü əvəz etmək məqsədi ilə düzəldilmişdir. Lakin bu və ya digər yazıçı tərəfindən düzələn yeni sözlərin bu qismi mənanı təhrif edir və dilin ifadəlilik imkanlarının genişlənməsinə təsir göstərə bilmir. Bu cəhətdən bədii əsərlərdə təsadüf edilən *sığalsızlıq, dincliksiz, yöndəmləmək, ömürlük, soyutmaz* və s. kimi sözlər xüsusilə səciyyəvidir.

Sığalsızlıq sözü ədəbi dildə kökü ərəb mənşəli olan *səliqəsizlik* sözünü əvəz etmək üçün işlədilmişdir: *hər səmtdə sərtlik, dəmir qarışıqlığı, s ı ğ a l s ı z l ı q, hökmfərma idi* (B.Bayramov); *Sığalsızlıq* sözünün kökü olan *sığal* heç də eynilə *səliqə* mənası daşımır. Bunlardan birində hamarlıq, digərində təmizlik çaları üstünlük təşkil edir. Bununla da *sığalsızlıq* sözünün ədəbi dildə *səliqəsizlik* sözü yerinə işlədilməsi ehtimalı və imkanları azalmış olur.

Eyni fikri *dincliksiz* sözü barədə də demək olar. *Dincliksiz* sözünün işlədilməsi ilə yazıçı ərəb mənşəli *istirahətsiz* sözünü əvəz etmək istəmişdir: *Övlad istəyən ana*

özünə əzab istəyir, yuxusuz gecələr, dincliksiz gündüzlər istəyir (B.Bayramov). Bununla belə həmin sözlər yazıçı dilinin fərdi xüsusiyyətlərini səciyyələndirən faktlar kimi maraqlıdır.

Bədii ədəbiyyatda ədəbi dildəki *tərcümeyi-hal* sözünün *ömürlük* sözü ilə əvəz edilməsi təşəbbüsünü də müşahidə etmək olur:

Nəsimi ömürlüyünün bu gücündə olmuş faktı sonralar əfsanələrə çevrilə bilərdi (Anar); Lakin *ömürlük* sözü də yalnız yazıçı üslubunu səciyyələndirən fakt səviyyəsində qalır. Çünki bir tərəfdən, lüğətlərdə *ömürlük* sözü «daimilik» və «ömür yolu» mənalarında işlədilir, digər tərəfdən, ədəbi dildə *tərcümeyi-hal* əvəzinə beynəlmiləl termin olan *avtobioqrafiya* sözünün işlədilməsinə üstünlük verildiyi müşahidə edilir. *Avtobioqrafiya* sözünün son dövrdə buraxılan lüğətlərdə öz əksini tapması da bunu sübut edir.

Bədii əsərlərdə mənaca özünü doğrultmayan okkazionalizmlərlə yanaşı, hətta bəzən əvəz ediləcək sözün mənasını təhrif edənlərlə də rastlaşmaq olur. Bu cəhətdən B.Bayramovun işlətdiyi *soyutmaz* sözü xarakterikdir. Yazıçı bu sözü ədəbi dildə, artıq lüğət tərkibinə daxil olmuş və ümumxalq səciyyəsi qazanmış *termos* sözü yerinə işlətmişdir. *Yemək soyutmazında ona dolma, büküm-büküm fətir-yuxa, pendir və qeyri-yol azuqəsi qoymuşdular* (B. Bayramov). Termos istini isti, soyuğu soyuq saxlama xüsusiyyətinə malik olduğu halda (termos – «ərzaq məhsullarını sabit temperaturda saxlamaq üçün ikiqat divarlı qab» – ASE. IX c, 212), *soyutmaz* sözündə bunun yalnız bir tərəfi, istini isti saxlamaq mənası bildirilir.

Deməli, yazıçılar tərəfindən dilə gətirilən söz dilin daxili ruhuna uyğun olmalı, onun qrammatik normalarına

müvafiq gəlməli, həm də sözün təbiətində zəruri olan yenilik duyulmalıdır. Təbii ki, belə olmadıqda o, dildə qərar tuta bilmir, çox keçmir ki, dildən çıxır və unudulur. Belə uğursuz neologizmlərə misal olaraq *işıqfor* (R.Rza), *kəfkirli aftava* (susəpən), *buz dolabı* (soyuducu), *yazı cihazı* (M.Hüseyn), *süpürücü* (maşınla yağıştəmizləyən) (Anar) sözlərini misal göstərmək olar.

Odur ki, okkazional neologizmlər alınma sözləri əvəz etmək məqsədindən irəli kəlsə də, həmişə müvəqqəti sayılmışdır. Azərbaycan ədəbi dilinin inkişafının ilk mərhələsində puristlərin yaratdığı və sonradan unudulmuş olan sözlər də məhz bu qəbildəndir[1].

b) *Paralel okkazionalizmlər.* Bədii əsərlərdə bəzən alınma sözləri əvəz etmək məqsədi ilə paralel okkazionalizmlərdən də istifadə edilir. Məsələn, son dövr Azərbaycan bədii ədəbiyyatında ərəb mənşəli *əbədi* sözünü əvəz etmək məqsədi ilə *yaşarı (yaşarılıq)* və *ölməz (ölməzlik)* sözlərindən paralel şəkildə istifadə olunur:

Mənə elə gəlir ki, yaşarılıq, dirilik ümumən həyatın qələbəsini simvolizə edir (Anar); *Ölməzlik önün-də baş əymək üçün Basdım bu dünyanı bağrıma* (Z. Yaqub).

Əbədi sözü quruluş və semantik cəhətdən, həmçinin ümumxalq səciyyəsi qazanması etibarilə daha çox üstünlüyə malikdir. Bu söz ədəbi dilimizdə əsrlərdən bəri işlədilir və demək olar ki, ərəb mənşəli olması da unudulmuşdur. Buna görə də dilimizin lüğət tərkibində özünəməxsus yer tutan *əbədi* sözünün əvəz edilməsi təşəbbüsü də özünü doğrultmur.

Bədii ədəbiyyatda paralel işlədilmiş *işıqfor – işılqan*

---

[1] *Bax:* N.Abbasova. C.Cabbarlı dramaturgiyasında söz. Bakı, 1983, səh. 139-146; М.Джангиров. Язык стихотворений Джафара Джаббарлы, АКД, Баку, 1950, стр. 12.

(svetofor əvəzinə) və *bugünlük – çağdaş (müasir* əvəzinə) sözləri də dildə mövcud olan müvafiq alınmaları leksik-semantik cəhətdən əvəz edə biləcək iqtidarda deyildir. Çünki istər *svetofor,* istərsə də *müasir* sözləri Azərbaycan ədəbi dili leksikasının tərkibinə qaynayıb qarışmış, ictimai praktikada sınaqdan çıxmış sözlər sırasına keçmişdir. İstər *işıqfor – işılqan,* istərsə də *bugünlük – çardaş* paralelləri *svetofor* və *müasir* sözlərinin əvəzində süni təsir bağışlayır. Bunu məhz, aşağıdakı faktlardan da görmək olar:

Heç olmazsa, i ş ı q f o r u n qırmızı, sarısı var, yaşılı var (R. Rza); *Göy i ş ı l q a n l a r ı sönmüş, nə gedən var, nə gələn; Sevda yollarında nə işıq, nə i ş ı l q a n* (M. Müşfiq); *Anar yaradıcılığının həyatiliyi, bugünlülüyü bizə əsl ədəbiyyat haqqında danışmağa tam haqq verir* (Y. Səmədoğlu); *Nəsiminin bir misrasını onun düşünə bilmədiyi, lakin bizim kosmik əsr çağdaşlarının düşünə biləcəyi bir mənada qavrayırıq* (Anar).

Təəssüf ediləcək haldır ki, bəzən elmi üsluba aid nümunələrin dilində də artıq Azərbaycan ədəbi dilində sabitləşmiş, norma hüququ qazanmış, ümumxalq xarakteri daşıyan ərəb-fars mənşəli sözlərin əvəz edilməsi cəhdlərinə rast gəlmək olur. Bu cəhdlər bəzi sözlərin süni şəkildə müasir türk dilindən götürülərək işlədilməsinə də gətirib çıxarır. Belə sözlərə aid *dürlü* (müxtəlif), *ilişgə* (əlaqə), *anlam* (məna), *əski* (köhnə), *dayanmaq* (əsaslanmaq) və s. göstərmək olar*. Bəzi hallarda elə süni sözlər işlədilir ki, onların mənası, ümumiyyətlə, geniş oxucu kütləsi üçün qaranlıq qalır. Məsələn, *biçimlənmək, suyum* və s. kimi sözlər bu qəbildəndir.

---

* Qeyd etməliyik ki, bu cür sözlər artıq dilimizdə çoxdan sabitləşmiş sözləri əvəz etmək üçün yox, dilin leksik-semantik potensialını genişləndirən sinonim cərgə əmələ gətirmək baxımından maraqlı ola bilər.

Qeyd etməliyik ki, bəzi sözlərin türk dilindən süni şəkildə alınıb işlədilməsi Azərbaycan ədəbi dili lüğət tərkibində yalnız qarışıqlıq əmələ gətirir. Çünki türk dilində həmin sözlər, hələ XX əsrin ilk onilliklərindən bəri işlədilir və həmin dildə ümumxalq xarakteri daşıyır. Azərbaycan dilində isə *müxtəlif, əlaqə, məna, köhnə, əsaslanmaq* kimi sözlər ümumxalq xarakteri almışdır. Bunları yenidən türkcələşdirmək tamamilə əsassızdır. İstənilən şəkildə özündən yeni sözlər qondarıb ədəbi dil faktı kimi elmi üslubda işlətməyin heç bir əhəmiyyəti və lüzumu yoxdur.

Z.İ.Budaqova bu cür sözlərlə əlaqədar haqlı olaraq göstərir ki, belə sözlər ədəbi dilin zənginləşməsini təmin etmək əvəzinə, onun leksik-semantik inkişafı yolunda süni təsir bağışlayır[1].

c) *Azərbaycan dilində mövcud olan sözdüzəltmə üsulları əsasında yaradılan okkazionalizmlər.* Bədii ədəbiyyatda təsadüf edilən bu tipli neologizmlərin səciyyəvi xüsusiyyətləri ondan ibarətdir ki, belə neologizmlər yazıçı təxəyyülünün məhsulu olmaqla dilin məna potensialının genişlənməsinə təsir göstərir və bilavasitə yeni bədii, obrazlı anlayışların ifadəsinə xidmət edir. Belə okkazionalizmlər nəinki təkcə yazıçı dilini səciyyələndirir, həm də onlar bədii üslubun ifadə imkanlarının artmasında mühüm rol oynayır.

Fərdi yaradıcılıq məhsulu olan bu cür okkazionalizmlər XX əsrin görkəmli inqilab carçıları olan M. Qorki, V.Mayakovski kimi ədiblərin də əsərlərində işlənmişdir.

Yaradıcılığının əsas dövrü XX əsrin əvvəllərinə təsadüf edən bir çox Azərbaycan yazıçılarının əsərlərində

---

[1] *Bax:* Z. Budaqova. Sözləri düzgün seçək. Dil mədəniyyəti məcmuəsi, I cild, Bakı, 1972, səh. 13-15.

də bu cür uğurlu okkazional neologizmlərin işləndiyini görmək mümkündür. Məsələn, C.Məmmədquluzadənin o dövrdə ərəb-fars dillərindən alınmış *didə, çeşm, eyn* kimi sözlər əvəzinə, Azərbaycan dilinə məxsus göz sözünü və onun *gözlük, gözlüklü, gözüaçıqlı, gözcük, gözətçi*[1] və s. kimi düzəltmə formalarını işlətməsi yeni söz yaradıcılığı sahəsində müvəffəqiyyətlərdən sayıla bilərdi. O dövrdə N. Vəzirovun, Ə.Haqverdiyevin və başqalarının da əsərlərində yeni dövrü əks etdirən belə fərdi neologizmlərə təsadüf olunurdu[2].

Fərdi neologizmlərə Azərbaycan yazıçılarının əsərlərində son dövrlərdə daha çox rast gəlmək olur. Belə hallarda, bir qayda olaraq, dilin lüğət tərkibinin yeni sözlərlə zənginləşdirilməsi meyili üstünlük təşkil edir. Bilavasitə üslubi-emosionallıq xatirinə işlənmiş fərdi neologizmlər bunların içərisində azdır. Daha çox poeziya dilində təsadüf olunan üslubi neologizmlərdə belə yeni söz yaradıcılığı təşəbbüslərini görmək mümkündür. Bu cəhətdən C.Cabbarlının, S.Vurğunun, R.Rzanın yaradıcılığında təsadüf olunan və Azərbaycan dilində mövcud söz yaradıcılığı qaydaları əsasında qurulan bir çox sözləri misal göstərmək olar. Bu cəhətdən *-daş* şəkilçili yeni sözlər daha maraqlıdır. Azərbaycan dilində bu şəkilçi vasitəsilə şəriklik bildirən *qardaş, sirdaş, yoldaş* kimi isimlər yaradılmışdır[3].

---

[1] *Bax:* Э.М.Алибейзаде. Борьба Джалила Мамедкулизаде за развитие азербайджанского литературного языка, АКД, Баку, 1953, стр. 8.

[2] *Bax:* T. Hacıyev. Satira dili, ADU nəşri, Bakı, 1975; С.А.Халилов. Язык произведений Наджаф Бека Везирова, АКД, Баку, 1954; Q.Ş.Kazımov. Yazıçı və dil, APİ nəşri, Bakı, 1975 və s.

[3] *Bax:* S.Cəfərov. Azərbaycan dilində söz yaradıcılığı, ADU nəşri, Bakı, 1960, səh. 77; Yenə onun: Azərbaycan dilində sözdüzəldici və sözdəyişdirici şəkilçilər, «Maarif», Bakı, 1968, səh. 90; Я.В.Севортяи. Аффиксы именного словообразования в азербайджанском языке, Изд. «Наука», М., 1966, стр. 164 və s.

Yazıçılarımız tərəfindən də bir sıra belə yeni sözlər düzəldilərək işlədilmişdir:

Üstündə salxım-salxım işıq, Biz sənlə həmşəhərik, Gündaş, ildaş, vətəndaşıq (R.Rza); *Faşistlərə ölüm yazır mürəkkəbim, qələmdaşım* (S. Vurğun).

Daş şəkilçisi ilə H.Cavid də vaxtilə *könüldaş, sinifdaş, vaxtdaş, əsrdaş* və s. kimi sözlər düzəldərək işlətmişdir[1].

-ıcı və *-lıq* şəkilçiləri ilə düzəldilən və əsasən üslubi məqsədlə işlədilmiş aşağıdakı neologizmlər də leksik-semantik baxımdan uğurlu sayıla bilər:

Görkəmilə andırar düşündüyü sözləri, Kəmbaxıcı, evyıxıcı, canyaxıcı gözləri (C.Cabbarlı); *Dostluq müxtəlif olur, düşmənlik kimi, Dost var – ayrılmaz səndən sümükdən ilik kimi* (R.Rza);

Son zamanlar yaradılan okkazional neologizmlərin bir qismi bilavasitə yazıçı dilinin lüğət tərkibi üçün maraqlıdırsa, digər qismi ümumi ədəbi dil baxımından da əhəmiyyətli hesab edilə bilər. Yazıçı dilini səciyyələndirən neologizmlərə dair aşağıdakıları göstərmək olar:

-daş şəkilçisi ilə: Qapıçı öz saqqaldaşına sataşdı (B. Bayramov); *Bu il duz doxsan yaşım tamam olur. Daha üzü qocalığa gedirəm. Saqqaldaşlarım da bu mahalda az qalıb* (S.Qədirzadə); *Hərə öz həmpeşələrinin, işdaşlarının arasında idi* (Anar).

-laş şəkilçisi ilə: Əri, ayrılıqları, soyuqlaşmaları ilə əlaqədar olan fikirlər onu bədii hissədə rahat buraxdı (B.Bayramov); *həm də neçə deyərlər, qonaqsızlaşmışdı* (B.Bayramov).

-ıntı şəkilçisi ilə: O, təsərrüfata, detala, ayrıntıya

---

[1] *Bax:* Azərbaycan bədii dilinin üslubiyyatı (Oçerklər), «Elm» nəşriyyatı, Bakı, 1970, səh. 93-97.

varmağı bacarır (Anar).

Fərdi söz yaradıcılığı təşəbbüsü ilə meydana gələn və bədii dildə üslubi cəhətdən mühüm rol oynayan okkazionalizmlərə dair aşağıdakıları da misal göstərmək olar:

-çı şəkilçisi ilə: L a v a ş ç ı dükanına çatanda Mirzə Qulam gülümsəyərək dedi: – Kababla bütürşmə lavaşın ayrı ləzzəti olur. (Mir Cəlal).

-qan şəkilçisi ilə: Anlaşılmazlıq, unutqanlıq, yalqızlıq – həqiqi şairin bəxtinə düşən bunlardır (Anar).

-li şəkilçisi ilə: Kənd b i ç i m l i bir şəhərin, Lövhəsini çəkirəm mən (S.Vurğun).

Bədii dilin ifadəlilik imkanlarının artmasına təsir göstərən bu tipli okkazionalizmlərin müəyyən qisminə hətta lüğətlərdə də təsadüf olunur. Məsələn, «Azərbaycan dilinin izahlı lüğəti»ndə (II c., 1980) və «Azərbaycan dilinin orfoqrafiya lüğəti»ndə (1975) qeydə alınmış *yançı* sözü bu qəbildəndir.

Sözlərin semantik inkişafı

Sovet dövrü Azərbaycan ədəbi dili lüğət tərkibinin zənginləşməsində leksik vahidlərin semantik dəyişmələrə uğramasının, yeni ictimai məzmun kəsb etməsinin də mühüm rolu vardır. İnsanın ictimai və siyasi fəallığının yüksəldiyi, hər sahədə yeniləşmələr baş verdiyi bir dövrdə meydana çıxan yeni anlayışların bir qismi dildə əvvəldən mövcud olan sözlərlə ifadə edilmişdir. Beləliklə, dilin lüğət tərkibindəki bir çox sözlərin semantikasında dəyişmələr baş vermiş, onların əsas lüğət fondunda işlənmə intensivliyi xeyli artmışdır. Yeni mənaların yaranması cəmiyyətdə baş verən sosial, iqtisadi, mədəni inkişafla, habelə elmi-texniki tərəqqi ilə bilavasitə bağlıdır.

Yeni anlayışlar təkcə yeni sözlər yaratmaq yolu ilə deyil, həm də ümumişlək sözün məna inkişafı və məna genişlənməsi ilə də ifadə olunur.

Bu dövrdə sözlərdə məna genişlənməsi iki cəhətdən diqqəti cəlb edir. Bunlardan birincisi sözlərin ictimai-siyasi, ikincisi isə mədəni-məişət məsələləri ilə bağlı yeni mənalar qazanmasıdır.

Semantik cəhətdən dəyişərək ictimai-siyasi məna qazanan sözlərin özündə də iki maraqlı xüsusiyyəti müşahidə etmək olar. Bu xüsusiyyətlər aşağıdakılardır:

a) *Sözlərin bir qismi inqilabdan əvvəlki ədəbi dildə ictimai-siyasi mənaya malik olmayıb, sovet dövründə ictimai-siyasi məna qazanmışdır:* Belə sözlərdən *siyasət, ünsür, sabah, yoldaş, ruzigar* və sairi göstərmək olar.

Siyasət sözü hələ orta əsrlər Azərbaycan ədəbi dili nümunələrində «cəza», «əziyyət» mənalarında işlənmişdir. Həmin məna M. Füzulinin «Leyli və Məcnun» poemasında da müşahidə edilir: *Neylərsən əgər atan eşitsə, Zülm ilə sənə s i y a s ə t etsə.*

Bu məna hətta XX əsrin əvvəllərinə məxsus bədii ədəbiyyat nümunələrində də qalmışdır: *Şad ol ki, bir qulağın kəsildi, öldürmədim. Sabah sənə elə s i y a s ə t eləyim ki, tarixlərdə deyilsin* (Y.V.Çəmənzəminli).

Sonralar *siyasət* sözünün «cəza», «əziyyət» mənaları kölgədə qalmış, söz ictimai-siyasi məna qazanmışdır. Bu cəhətdən aşağıdakı nümunələrdə *siyasət* sözünü və tərkibində bu söz olan birləşmələri nəzərdən keçirmək kifayətdir:

Onların da canı sümükdür, ətdir, Bütün şayiələr bir s i y a s ə t d i r (S.Vurğun); *İmperialist dövlətlərin m ü h a r i b ə s i y a s ə t i baş tutmayacaqdır* (K-16.07.75)*; Sovet xalqının s ü l h s i y a s ə t i bütün bəşəriyyətin arzusudur*

(K-20.10.83); *Məhsuldar qüvvələrin inkişafı Sovet dövlətinin daxili siyasətinin əsas məzmununu təşkil edir* (K-19.11.80); *Sovet hökuməti xarici siyasət məsələlərində daim ardıcıl mövqe tutur* (K-21.07.82) və s.

Ünsür sözü leksik mənasına görə *element* sözünün ekvivalentidir. Xüsusilə inqilab nailiyyətlərinin möhkəmləndirilməsi dövründə bu söz yeni ictimai-siyasi məzmun qazanmışdır. Keçmişin qalıqlarını qorumağa çalışan, yeniliklə, sosializm gerçəkliyinin nailiyyətləri ilə barışa bilməyən mühafizəkar şəxslər 30-cu illərdə *ünsür* tim-salında idi:

Nəsir onun istirahət və səadətini əlindən almağa, onun rahat həyatını pozmağa çalışan «müzürr» bir ünsürdür (S.Hüseyn); *Yazmağa lüzum yoxdur, çünki zərərli ünsürlər hər yerdə vardır* (Ə.Vəliyev); *Buna görə də bir çox tüfeyli ünsürlər kimi qorxu hissi onun da iradəsini qırmışdı* (C.Əlibəyov); *De görüm, dünən sənin eşşəyin kolxozun tutluğunda nə gəzirdi, ünsür oğlu, ünsür* (Ə.Əylisli).

Sabah sözünün lüğəvi mənası zaman anlayışı bildirməklə səciyyələnir. Lüğəvi məna cəhətdən *sabah* sözü «bu günün sabahı» anlayışını ifadə edir: *Bu axşam üstü vədələşdik, ayrıldıq, – Sabah görüşərik, – deyə.* (R.Rza)

S*abah* sözünün mənası da məhz onun gələcək zamanı (cəmiyyətin xoşbəxt gələcəyini) bildirən anlayışı əsasında genişlənmişdir. *Sabaha baxmaq, sabaha boylanmaq, sabaha getmək, sabaha çağırmaq* və s.

Sabaha çağırır o bizi ancaq, Sabah da bu günsüz, dünənsiz deyil (S. Vurğun); *Qoşa qala qapıları iki gözümdür; Dünənimdən boylanıram gələn sabaha.* (Z. Yaqub) və s.

Sabah sözünün xoşbəxt gələcək mənası sinfi zid-

diyyətlərin kəskin olduğu dövrdə köhnəliklə yeniliyin mübarizəsi, köhnəliyin geriliklə, gələcəyin isə sabahla müqayisəsi şəraitində yaranmışdır. Zəhmətkeş xalq öz qadir əməyinin bəhrəsi olan xoşbəxtliyi labüd gələcəkdə, sabahda görürdü. Elə ona görə də *sabah* sözü geniş mənada gələcək anlayışı bildirsə də, bilavasitə indiki zaman felləri ilə birlikdə işlədilir. V.İ.Lenin indiki zamanın məzmunundakı bu labüdlük xüsusiyyətini dolğun şəkildə aşağıdakı kimi izah edir: «C.B.Mixaylovskinin ikinci orijinallığı bundan ibarətdir ki, bütün diqqətini fel zamanlarının işlədildiyinə vermişdir. Niyə gələcək haqqında danışarkən Marks indiki zamandan istifadə edir? – deyə bizim filosof qaliblərə məxsus əda ilə soruşur: Möhtərəm tənqidçi, bu barədə Siz hər bir qrammatikadan məlumat ala bilərsiniz: Sizə deyərlər ki, gələcək labüd və şübhəsiz sayıldıqda, gələcək zaman əvəzinə indiki zaman işlədilir»[1].

b) *Sözlərin bir qismi inqilabdan əvvəlki dövrdə ictimai-siyasi mənaya malik olmuş, sovet dövründə isə həmin mənanı dəyişərək yeni anlayış ifadə etməyə başlamışdı.* Belə sözlərdən *təhkim, istismar, qulluqçu, mübarizə* və sairi göstərmək olar. Bunların ictimai-siyasi mənası üçün real zəmin sinfi ziddiyyətlərdir. Oktyabr inqilabından əvvəlki dövrdə belə bir zəmində həmin sözlər ictimai-siyasi anlayışları bildirməklə səciyyələnmişlər. Sovet dövründə isə həmin şərait mövcud olmadığından bu cür sözlərin həyatında da tamam yeni bir mərhələ başlanmışdır.

İnqilabdan əvvəlki dövrə məxsus ictimai münasibətlərlə əlaqədar *təhkim* sözü insanlar arasında ictimai asılılığı bildirmək üçün işlədilmiş, həmin sözlə bağlı *təhkimli kəndli, təhkimçilik hüququ* kimi ifadələr yaranmışdır. Sonralar bu sözün əvvəlki mənası dəyişmiş, isteh-

[1] V.İ.Lenin. Əsərləri, Bakı, 1942, I c., səh. 170.

salatla, sosialist əmək şəraiti ilə bağlı yeni anlayış ifadə edilmişdir.

Təsərrüfatların əksəriyyətində maşınların mexanizatorlara t ə h k i m e d i l m ə s i başa çatdırılmışdır (K-31. 08.83); *T ə h k i m ç i l ə r sahələrdə işlərin gedişi ilə maraqlanırdılar* (K-18.06.78) və s.

İstismar sözü də sinfi ziddiyyətlərin mövcud olduğu dövrün məhsuludur. Bu sözün də ifadə etdiyi əvvəlki məna tamamilə dəyişmiş, söz sosialist əmək şəraiti ilə bağlı yeni məzmun kəsb etmiş, *istismar quyusu, istismar borusu, istismar avadanlığı, neft-qaz yataqlarının istismarı, istismara buraxılmaq* və s. kimi ifadələr yaranmışdır.

Bugünkü imkanlarımız istismar qazma işindən asılıdır (K-9.04.32); *Quyular təmir edilib istismara verilmişdir* (K-21.04.62); *Yeni mənbələrin aşkara çıxarılıb istismar edilməsinə başlanmışdır* (K-28.07.74) və s.

«Azərbaycan dilinin izahlı lüğəti»ndə (1980, II) *istismar* sözü əsasında düzəlmiş *yol istismarı, quyuların istismarı* kimi ifadələr də qeydə alınmışdır.

İstismar sözünün ictimai-siyasi mənası müasir dövrdə yalnız sinifli cəmiyyətdəki hadisələrlə əlaqədar işlədilir. Həmin məna bilavasitə əməyin ictimai xarakter daşımadığı və istismarçı siniflərin mövcud olduğu kapitalizm əhatəsinə məxsus hadisələrin şərhi prosesində özünü göstərir. Əmək və kapital arasındakı ictimai ziddiyyətlərdən doğan ictimai-siyasi anlayışlar əsasında *fəhlə əməyinin istismarı, istismarçı siniflər, əməyin istismar olunması, istismarçı qüvvələr* və s. kimi ifadələr də yaşayır.

Mübarizə sözü də ictimai ziddiyyətlərin mövcud olduğu inqilabdan əvvəlki dövrdə ictimai-siyasi məna daşımışdır. Sovet dövründə isə antaqonist ziddiyyətlər mövcud olmadığından *mübarizə* sözü ilə ifadə olunan

ictimai-siyasi məzmun bir qədər dəyişmişdir. Məsələn:

Bu il də qabaqcıllığı əldən verməmək uğrunda mübarizə edir (K-27.08.83); *Onun başçılıq etdiyi briqada bu il min ton üzüm toplayıb təhvil vermək uğrunda mübarizə aparır* (K-26.08.83); *Aylıq şəraitində bir sıra rayonlarda ziyanvericilərə qarşı mübarizəni yaxşı təşkil etmək lazımdır* (SK-20.08.83) və s.

Mübarizə sözü də keçmiş mənasında yalnız ictimai ziddiyyətlərin mövcud olduğu kapitalizm əhatəsinə aid hadisələrlə əlaqədar işlədilir. Məsələn, *istismarçı siniflərə qarşı mübarizə, zəhmətkeşlərin iqtisadi mübarizəsi, xalqların azadlıq mübarizəsi, sinfi bərabərlik uğrunda mübarizə, sülh uğrunda mübarizə* və s

İctimai həyatdakı dəyişmə və inkişafla əlaqədar sözlərin yeni mənalar qazanması dilimizdə müntəzəm davam edən zəruri bir prosesdir. Xüsusən, son dövrlərdə baş verən qlobal ictimai hadisə və dəyişmələr bir sıra sözlərə yeni məzmun gətirmişdir. Məsələn, dilimizdə yenicə işlənməyə başlayan və az müddət ərzində geniş yayılan «sürətləndirmə», «yenidənqurma», «aşkarlıq» kimi sözləri misal göstərə bilərik.

Sovet dövrü Azərbaycan ədəbi dilində mədəni-məişət mənasına malik olan sözlərin də məna cəhətdən dəyişməsi, semantik inkişafı özünü göstərir.

c) *Məişət mənasına malik olan bir sıra sözlər tədricən ictimai məna çaları qazanır.*

İctimai münasibətlərin coşğun inkişafı bütün sahələrdə olduğu kimi, dildə də öz mütərəqqi təsirini göstərir. Bu təsir bir qrup sözdə yeni ictimai mənaların meydana çıxmasına səbəb olur. Bu hal *qulluqçu, elçi* kimi sözlərdə daha qabarıq şəkildə öz əksini tapmışdır. *Qulluqçu* sözü inqilabdan əvvəlki dövrdə muzdlu ev xidmətçisi mənasını

ifadə etmək üçün işlədilmişdir: *Bir ev q u l l u q ç u s u tutdu* (Mir Cəlal); *Bu dəmdə q u l l u q ç u gəlib qapının ağzında dayandı* (Ə.Vəliyev).

İnkişaf etmiş sosializm şəraitində istismarçı siniflər ləğv edildiyi üçün *qulluqçu* sözü ilə ifadə olunan köhnə anlayış da sıradan çıxdı. Bununla belə, leksik vahid kimi, bu sözdən tamamilə başqa mənada istifadə etmək lüzumu meydana gəldi. Belə ki, sosializm quruculuğu dövründə bu söz yeni ictimai münasibətlərdən doğan anlayışla özünə yaşamaq hüququ təmin etdi. *Qulluqçu* sözü yeni dövrdə «dövlət işçisi» ifadəsinin sinonimi kimi işlənməyə başladı. Aşağıdakı misallarda bu mənanı müşahidə etmək olar:

– *A kişi, vallah qorxu ram bu bir hava ilə dünyanı özünə düşmən qayırasan, hökumət q u l l u q ç u s u d u r, çağırır, get* (M.İbrahimov); *Fəhlə və q u l l u q ç u l a r ı n maddi rifahının yaxşılaşdırılması əsas məsələlərdəndir* (K-12. 04.61); *O özü də qulluqçu ailəsindəndir* (İ.Hüseynov) və s.

«Azərbaycan dilinin izahlı lüğəti»ndə (1966, I c.) bu sözün inqilabdan əvvəlki dövrə aid «muzd ilə işləyən işçi» mənası verilmişdir. Sovet dövründə həmin sözün qazandığı yeni ictimai məna nədənsə bu lüğətdə öz əksini tapmamışdır.

Qulluqçu sözünün mənaca dəyişməsindən danışarkən Z.Məmmədova haqlı olaraq göstərir ki, bu sözün «ev xidmətçisi» mənası sovet dövründə tarixizmə çevrilmişdir. Bununla belə həmin sözün müasir dövrdə də «ev xidmətçisi» mənasında işlədildiyi barədə fikri özünü doğrultmur, çünki Z.Məmmədova bu sözün məişət mənasının ictimai məna ilə əvəz olunması xüsusiyyətini nəzərə almamışdır[1].

---

[1] *Bax:* З.Мамедова. Расширение значения слов в современном азербайджанском языке, АКД, Баку, 1984, стр. 16.

Azərbaycan dilindəki *oçaq* sözündə də məişət məzmunu yeni ictimai anlayışla zənginləşmişdir. *Ocaq* sözü nominativ mənada od olan yer anlayışı ilə bağlı olsa da, bir sıra mənbələrdə onun «ailə» mənasında işləndiyi də qeydə alınmışdır. «Ailə» mənası *ocaq* sözünün mühüm məna çalarlarındandır. Görünür, bu sözün «ailə» mənası tarixən ailə üzvlərinin ocaq başına toplanması ənənəsinə müvafiq olaraq məcazi yolla yaranmışdır.

İctimai münasibətlərin genişlənməsi ilə əlaqədar *ocaq* sözünün yeni ictimai mənası meydana gəlmişdir: *elm ocağı, istirahət ocağı, müalicə ocağı* və s.:

Şəhərimizdə yeni istirahət ocaqları şəbəkəsi yaradılır (B-16.05.78); *Burada mədəni-tərbiyə ocaqlarının yaradılması məsələləri barədə danışılır* (K-26.06.46); *Ölkəmizdə tədris və elm ocaqlarının sayı artırılır* (K-12.01.54) və s.

b) *Sözlərin bir qismində məişətlə bağlı məna daha da genişlənir, yeniləşir.*

Xalqın ictimai-mədəni səviyyəsinin yüksəlməsi ilə əlaqədar bir qrup sözlərdə adi məişət məzmununun daha geniş şəkildə mədəni-məişət çaları qazanması meyili də özünü göstərir. Bütün bunlar, sosializm quruculuğu ictimai əsaslarının möhkəmlənməsi və xalq kütlələrinin mədəni səviyyəsinin yüksəlməsi şəraitində daha real imkanların meydana çıxması ilə şərtlənir. Bu cəhət *yurd* və *düşərgə* kimi sözlərdə daha bariz şəkildə özünü göstərir.

Yurd sözü ilkin semantikasına görə «ev», «olacaq yer» mənası bildirir. Azərbaycan dilində bu məna ilə əlaqədar hətta *köhnə yurd, təzə yurd, yurd yeri* və s. kimi ifadələr formalaşmışdır. Sovet dövründə bu sözün mənası xüsusilə genişlənmişdir. *Yurd* sözü ilə əlaqədar ədəbi dildə *odlar yurdu, qəhrəmanlar yurdu, igidlər yurdu* və s. kimi

ifadələr meydana gəlmişdir.

Düşərgə sözünün lüğəvi mənası adi məişət səciyyəlidir və bu söz «müvəqqəti yaşayış məntəqəsi» anlayışı verir. Ümumxalq dilində geniş yayılmış bu mənadan bədii əsərlərdə də yeri gəldikcə istifadə olunmuşdur:

Siz parxananı düşərgə halına salın, nə qədər istəsəniz sizə fəhlə göndərərəm (P.Makulu); *Orada özlərinə düşərgə salmışdılar, qışı qalmaq fikrində idilər* (Ə. Vəliyev) və s

Düşərgə sözünün mənası xeyli genişlənmişdir. Aşağıdakı nümunələrə diqqət yetirmək kifayətdir:

Onlar pioner düşərgəsində yaxşı dincələcəklər (AG-16.06.82); *Tarla düşərgələrinə baş çəkməli, kolxoz kitabxanaları və klubları ilə əlaqə saxlamalı idi* (Ə. Qasımov) və s.

«Azərbaycan dilinin izahlı lüğəti»ndə (1980, II c.) *düşərgə* sözünün müvəqqəti yaşayış yeri kimi adi məişət mənası ilə yanaşı, mədəni-məişət mənası da göstərilmiş, *tarla düşərgəsi, pioner düşərgəsi* kimi nümunələr misal göstərilmişdir.

c) *Adi ümumişlək sözlərin semantik inkişafı onların terminoloji sözə çevrilməsinə səbəb olur.*

İctimai həyatın sosialistcəsinə yenidən qurulması, elm və texnikanın geniş tətbiqi, sənayeləşmə və s. terminlərin sayca çoxalmasına səbəb olmuşdur. Belə hallarda Azərbaycan ədəbi dili lüğət tərkibinin zənginləşməsində ümumxalq leksikası baza rolunu oynayır. Məlumdur ki, bu zaman dilin adi sözləri öz əsas mənası ilə yanaşı yeni terminoloji məna da qazanır.

Məsələn, dilimizdə *körpü* sözü çoxişlənən sözlərdən biridir və iki sahili, tərəfi birləşdirən ağac, daş, beton və s. qurğuların adıdır. Bu sözün qazandığı yeni terminoloji

mənalarından biri «gəmi və qayıqların limanda yan aldığı yer» mənasıdır.

Yaxud «açar» sözündəki məna inkişafına baxaq. Bu söz də müxtəlif semantik funksiyalarda çıxış edir: 1) ümumişlək söz kimi; 2) elektrotexniki termin kimi:

Tahir a ç a r ı n qapağını örtdü və yenə işığı yandırdı (M. Hüseyn); Bax ustanın sözü yaman tez yadından çıxdı – deyə Cəmil a ç a r ı burub Tahirə uzatdı (M.Hüseyn).

Bunlardan əlavə, *balta, qüllə, xətt, qapaq, daraq, düymə və s.* sözlər çoxdan elmi, bədii və publisist dildə öz terminoloji mənası ilə sabitləşmişdir. Belə terminoloji sözlərə çoxlu misallar gətirmək mümkündür. Məsələn: *Qıfıl. Boruları bir-bir q ı f ı l a keçirmək əməliyyatı bir saatdan çox çəkdi* (M.Hüseyn); *Torba. Bax t o r b a qalxır, tut keçir* (M.Hüseyn) və s.

Beləliklə, deyilənlərdən aydın olur ki, sovet dövründə Azərbaycan ədəbi dili lüğət tərkibində sözlərin semantik dəyişməsi daha çox ictimai-siyasi və mədəni inkişafla bağlıdır. Əgər bir neçə on il ərzində məişət məzmunlu söz ictimai-siyasi məna ilə zənginləşirsə, adi ümumişlək sözlər terminlərə çevrilirsə, deməli, ədəbi dil, onun lüğət tərkibi ictimai yükünü artırmış və zənginləşmiş olur.

Ədəbi dilin zənginləşməsində leksik dialektizmlərin rolu

Ədəbi dilin lüğət tərkibinin inkişafında dialektizmlər də mühüm mənbələrdən birini təşkil edir[1]. Dialektizmlərin ədəbi dilin lüğət tərkibinə daxil olması üçün bədii ədəbiyyat keçid rolu oynayır. Belə ki, leksik-semantik cəhətdən ədəbi dildə işlədilmə lüzumuna malik olan dialektizmlər yazıçılar tərəfindən bədii ədəbiyyata gətirilir; bunlardan ümumxalq səciyyəsi qazananlar ədəbi dilin lüğət fonduna keçərək onu zənginləşdirir. Bir çox dialektizmlər isə ümumxalq səciyyəsi qazana bilmədiyi üçün ədəbi dilə daxil ola bilmir. Dialektizmlərin müəyyən hissəsinin yalnız bir qrup üçün anlaşıqlı olması, məhəlli xüsusiyyət daşıması ilə əlaqədar onların bədii ədəbiyyatda işlədilməsi məsələlərinə dair bir çox mübahisəli fikirlər meydana çıxmışdır. Vaxtilə dialektlərin ədəbi dilin zənginləşməsi mənbələrindən biri olması tamamilə inkar edilirdi. Bununla da, əslində, ədəbi dil və dialektlər bir-birindən tamamilə təcrid olunurdu. Dialektizmlərin ədəbi dildə işlədilməsi guya məhəlləçiliyi, milli və sinfi ayrı-seçkiliyi yenidən dirildir. Halbuki dialektlər ədəbi dilin maddi əsasıdır, onun qida mənbəyidir. Dialektlər dil sistemi həlqəsindən kənarda deyildir. Bununla yanaşı, bütün leksik dialektizmlərin ədəbi dilə gətirilərək lüzumsuz paralellik yaradılmasına da ehtiyac yoxdur. Dialektizmlərin bədii üsluba gətirilməsi ilə əlaqədar V.V.Vinoqradov yazır: «Bu və ya digər sosial

---

[1] *Bax:* S.Cəfərov. Azərbaycan dilində söz yaradıcılığı, ADU nəşri, Bakı, 1960, səh. 8-9; А.А.Алиев. Художественный стиль современного азербайджанского литературного языка (проза), АКД, Бакы, 1975, стр. 11; В.Р.Мурсакулиев. Диалектизмы в азербайджанских советских романах (1930-1960), АКД, Баку, 1969. стр. 4-11; A.Qurbanov. Müasir Azərbaycan ədəbi dili, Bakı, 1967, səh. 216-218.

dialekti saxlamaq naminə yazıçılar tez-tez müəyyən dialektlərə müraciət edirlər. Yazıçıların bir hissəsi bu xüsusiyyətləri çinovniklərin dilində, başqa bir hissəsi ruhanilərin, tacirlərin dilində «əks etdirir və s.»[1].

A.İ.Yefimov dialektizmlərin ədəbi dili zənginləşdirən mənbə olduğunu inkar edir, yalnız dialekt sözlərinin müəyyən üslubi məqamla əlaqədar işlədilə biləcəyi fikrini irəli sürür: «Müasir rus ədəbiyyatında dialektizmlər ədəbi dilin lüğət tərkibinin zənginləşməsi mənbəyi rolunu oynamır: onlar ədəbi materiallarda üslubi məqamlara və müvafiq personajların nitqin qurmağa xidmət edir»[2].

Dialekt sözlərinin və jarqon ünsürlərinin ədəbi dilə münasibəti məsələsi Sovet hakimiyyətinin ilk onilliklərində xüsusilə kəskin qoyulurdu.

«Литературная газета»nın 1934-cü il nömrələrində bu barədə diskussiyalara geniş yer verilirdi. Bu diskussiyalarda belə bir fikir üstünlük təşkil edirdi ki, ümumiyyətlə, dialektizmlər ədəbi dili zibilləyir, onun inkişafına mane olur. Hətta böyük proletar yazıçısı M.Qorki dialektizmləri ədəbi dili korlayan zərərli ünsürlər adlandırırdı[3].

Azərbaycan ədəbi dili lüğət tərkibinin dialektizmlərlə zənginləşməsində bizim yazıçıların rolu bir qədər fərqlənir. Xalq dilinə, birinci növbədə, dialekt faktlarına müraciət Azərbaycan ədəbi dilinin inkişafı üçün həmişə başlıca şərt olmuşdur. Lakin bəzən ifrat meyillərin əsaslandırılmasına cəhd edilir, dialektizmlər «termin yaradıcılığının əsas mənbəyi» elan olunur. Halbuki terminoloji sistemin inkişafı

---

[1] В.В.Виноградов. Стилистика. Теория поэтической речи, Поэтика, Изд. АН СССР, 1963, стр. 40.
[2] А.И.Ефимов. Стилистика художественной речи, М., 1957, стр. 222-223.
[3] *Bax:* Русские писатели о языке, Л., 1954, стр. 453.

nə kəmiyyət, nə də keyfiyyət ölçüləri ilə bu və ya digər dilin dialekt materialına əsaslana bilməz.

1951-ci ildə Azərbaycan sovet ədəbiyyatında dialektizmlərin işlədilməsinə dair dilçilərlə ədəbiyyat-ünasların yığıncağında fikir ayrılığı yaranmışdı. Ədəbiyyatşünasların müəyyən bir qismi iddia edirdi ki, bədii ədəbiyyatın dili sərbəst olmalıdır. Bədii ədəbiyyat xalis dil normaları əsasında inkişaf edə bilməz. Bu yığıncaqda çıxış edən görkəmli dialektoloq M.Ş.Şirəliyev göstərirdi ki, ədəbi dildə dialektizmlərin sərbəst işlədilməsinə yol vermək düzgün deyildir[1]. M.Ş.Şirəliyevin sonrakı məqalələrində də dialektizmlərin ədəbi dilə gətirilməsi yolverilməz hesab edilir[2]. Burada məruzəçi belə bir fikri əsaslandırmağa çalışır ki, dialekt sözləri birbaşa bədii ədəbiyyatın dilində işlədildikdə ədəbi dildəki oxşar sözün lüzumsuz ekvivalenti meydana çıxır.

Bununla yanaşı, dialektlərdə ədəbi dildə qarşılığı olmayan bir çox sözlər vardır ki, onların bədii ədəbiyyata gətirilməsi və ədəbi dilin malı edilməsi dilin ifadə vasitələrinin zənginləşməsini təmin edən amillərdən biri kimi maraqlıdır.

Ə.Dəmirçizadə dialektizmlərin bədii ədəbiyyatda yerli kolorit yaratmaq məqsədilə işlədilməsini məqbul hesab edir[3]. M.Adilov dialektizmlərin bədii ədəbiyyatda işlədilməsinin ədəbi dil üçün lüzumlu cəhətləri olduğunu göstərir. Konkret fakt kimi S.Rəhimovun «Şamo» əsərində işlə-

---

[1] *Bax:* M.Ş.Şirəliyev. Azərbaycan sovet bədii ədəbiyyatının dili, «Ədəbiyyat» qəzeti, 16 may 1957-ci il.

[2] *Bax:* M.Ş.Şirəliyev. Sovet dövrü Azərbaycan ədəbi dilinin inkişafı, «Azərbaycan dili və ədəbiyyatı tədrisi», VI buraxılış, Bakı, 1957, səh. 14-15; Dil mədəniyyəti məsələlərimiz. «Nitq mədəniyyəti məsələləri», Bakı, 1969. səh. 11

[3] *Bax:* Ə.Dəmirçizadə. Azərbaycan dilinin üslubiyyatı, Bakı, 1962, səh. 89.

dilmiş və ədəbi-bədii dil baxımından maraqlı olan dialektizmlərə diqqəti cəlb edir[1].

Yeri gəlmişkən qeyd edək ki, «Şamo» əsərinin dilinə həsr olunmuş başqa bir tədqiqatda da romanı» dilində işlədilmiş dialektizmlər bədii təsvir vasitəsi kimi və surətlərin səciyyələndirilməsi baxımından təqdirəlayiq hal kimi qiymətləndirilir[2].

S.Cəfərov, A.Axundov, R.Məhərrəmova, A.Qurbanov, M.Cahangirov kimi dilçilərimiz və bir çox görkəmli ədəbiyyatşünaslarımız da bədii dildə dialektizmlərin işlədilməsinin üslubi əhəmiyyətini və ədəbi dilin zənginləşdirilməsindəki rolunu qeyd etmişlər.

Azərbaycan sovet ədəbiyyatının dilində dialektizmlərdən istifadə sahəsində iki meyil müşahidə edilir. Birinci meyil dialekt sözlərinin bilavasitə yazıçı dilində, ikincisi isə surətlərin dilində işlədilməsi ilə səciyyələnir.

Yazıçının dilində işlənən dialektizmlər. Yazıçı dilində dialekt sözlərinin işlədilməsi, ümumiyyətlə, məhdud xarakter daşıyır və adətən elə sözlərdən istifadə edilir ki, onlar az-çox ümumxalq xarakteri qazanmış olur.

Son dövrlərdə dialekt fərqlərinin müxtəlif sosioloji və mədəni amillərlə əlaqədar azalması dialektləri müəyyən qədər təmərküzləşdirmiş, dialektlərlə ədəbi dili yaxınlaşdırmış, ədəbi dilin lüğət tərkibinin zənginləşməsində dialektizmlərin rolu artmışdır. Yazı dilində də dialektlərdən alınmış bir sıra sözlərin işlədilməsinə təsadüf olunur. Bunlara misal olaraq aşağıdakıları göstərə bilərik:

a) *Məişətlə bağlı anlayışları ifadə edən dialektizmlər.*

---

[1] *Bax:* M.Adilov. S.Rəhimovun bədii üslubu və «Şamo»nun dili haqqında, «Azərbaycan» j., 1965, № 7, səh. 167-168

[2] *Bax.* Ş.Q.Şabanov. Leksika romana S. Raqimova «Şamo», AKD, Baku, 1974 səh. 29.

Bədii əsərlərdə yazıçı dilində işlənmiş elə məişət sözlərinə təsadüf edilir ki, ədəbi dildə onların ekvivalenti yoxdur. Yerli koloriti canlandırmaq məqsədi ilə belə sözlərin bədii ədəbiyyatda işlənməsinin müəyyən lüzumu vardır. Bunların bədii ədəbiyyata gətirilməsi ədəbi dilin lüğət tərkibini zənginləşdirmək baxımından da əhəmiyyətlidir. Belə sözlərin bir çoxu demək olar ki, müxtəlif fəaliyyət sahəsinə aid sənət-peşə leksikası kimi artıq ədəbi dildə işlənmə hüququ qazanmış vahidlərdən ibarətdir:

İslam d o q q a z ı n qabağında atdan endi (S.Hüseyn); *D o q q a z ı n ağzında Cəlal və Humay; Birisi söz atır, digəri gülür* (S.Vurğun); *Nə çoxdur ilxısı, malı, yaylağı, B o r d a x d a saxlanır minik atları* (S. Vurğun); *Musa yerindən qırğı kimi sıçrayıb Gülarənin yanına gəldi və t o x a c ı onun əlindən aldı* (Ə. Vəliyev); *Buludlara ilişib onları yun ə l ç i m i kimi parçalayan qaya da buz kimi soyuq idi* (F.Kərimzadə); *Nazar kişi malları sağdırıb x a l x a l ı n ağzını təzəcə bağlamışdı* (T.Hüseynov) və s.

Doqqaz sözü 60-80-ci illər Azərbaycan nəsrində üç mənada işlənmişdir: 1) *Küçə – D o q q a z d a, çəpər dibində, evin böyür bucağında beşbir-üçbir olub, xısın-xısın danışır, pıçıldaşır, ən ucqar d o q q a z l a r d a itlər hürüşürdü* (İ.Şıxlı); 2) *Darvaza – Nəzifə qarı doğrudan da d o q q a z d a n içəri girib matı-qutu qurumuş adamı görüb mat qalmışdı* (V.Nəsib); 3) Üçüncü məna izahlı lüğətdə qeyd edilmişdir: «Həyətin, bağın hasarında bir-birinə keçirilən ağaclardan ibarət sadə qapı» – *Güləhmədin dövrəsi d o q q a z çəpərli, çiy kərpicli iki mərtəbəli evinin alt otağında, hələ də aldığı zərbənin altını çəkməkdə idi* (S. Rəhimov).

Doqqaz sözü şimal-qərb şivələrində «evin qabağın-

dakı meydança» mənasında da müşahidə edilmişdir[1].

Doqqaz, toxac, əlçim kimi sözlər bədii ədəbiyyatda işlədilmə intensivliyi ilə əlaqədar ədəbi dilin lüğət tərkibinə daxil olmuşdur. Bunların içərisində *doqqaz* sözü xüsusilə işlək olduğundan ədəbi dilin lüğət tərkibində *toxac* və *əlçim* sözlərindən əvvəl işlədilir. 1939-cu ildə nəşr olunmuş «Azərbaycanca-rusca lüğət»də *doqqaz* sözünün qeydə alınması da bunu göstərir. *Doqqaz* sözü yalnız 1951 və 1952-ci illərdə nəşr olunmuş «Azərbaycanca-rusca lüğət»lərə düşməmişdir. Qalan lüğətlərdə bu söz öz əksini tapmışdır. *Toxac* və *əlçim* sözlərinə isə 1965-ci ildə nəşr olunmuş «Azərbaycanca-rusca lüğət»də, habelə 1975-ci ildə nəşr edilmiş «Azərbaycan dilinin orfoqrafiya lüğəti»ndə təsadüf olunur. 1980-ci ildə nəşr olunmuş «Azərbaycan dilinin izahlı lüğəti»ndə *əlçim* sözü də qeydə alınmışdır. *Xalxal* sözünə isə mal-heyvan salınan arakəsmə mənasında yalnız 1940-cı ildə nəşr olunmuş «Orfoqrafiya lüğəti»ndə təsadüf edilir. Bu söz nədənsə qalan lüğətlərə düşməmişdir.

Məişət leksikasına daxil olan və bədii ədəbiyyatda işlədilən dialektizmlərin bir qisminin ədəbi dildə qarşılığı olduğundan onların ədəbi dilin lüğət tərkibinə keçməsi imkanları məhduddur, lakin onlar bədii dilin ifadə imkanlarını artırmaq və bilavasitə yerli koloriti canlan-dırmaq baxımından əhəmiyyətlidir. Bu tipli dialektizmlər sanki oxucuya əhvalatın baş verdiyi yerin dəqiq ünvanını göstərir. Yerli koloritin canlandırılması baxımından belə sözlərin yazıçı dilində işlədilməsi də təsadüfi deyildir. Bunların işlədilməsi ilə yazıçı dili canlı xalq dilinə yaxınlaşır

[1] A.Ə.Hüseynov. Azərbaycan dili şimal-qərb şivələri lüğəti. V.İ.Lenin adına APİ-nin «Elmi əsərləri», XI seriya, 1964, səh. 90. (R.Ə.Rüstəmov. Quba dialekti, Bakı, 1961, səh. 241).

ki, bu, ədəbiyyatda xəlqiliyin yaranmasını təmin edən vasitələrdən biri kimi özünü göstərir. Bədii ədəbiyyatda belə sözlərdən aşağıdakıların işlədilməsi xüsusilə maraq doğurur:

Təzətoylu (təzəbəy) – *Əmirxan gətirdiyi gülü t ə z ə t o y l u l a r ı n stulları müqabilində qoyub döşünü irəli verdi* (B. Bayramov);

Mağar – toy məclisi[1], toy, yas və s. məclislər qurulan böyük çadır[2]. – *Vidi ciddi-cəhdlə oynayır, mağarın bu başından vurub, o başından çıxır, qayıdıb Klavdiyaynan üzbəüz rəqs edirdi* (Ə.Mustafayev).

Çalğı (iri süpürgə) – *Müküşün xəzəl süpürmək üçün qayırdığı yoğun ç a l ğ ı ilə zir-zibili atdı* (Ə. Əylisli).

Ləmə (rəf) – *Sanki l ə m ə l ə r d ə k i çini qablar, zərli-güllü kasalar bir-birinə dəyərək cingildədi* (S.Qədirzadə).

Gürşad (ildırım) – *Dedilər bir qəfil g u r ş a d ı n qurbanı olmusan* (M.Araz);

Gurşad sözü şiddətli yağış mənasında da işlənir[3]. *Həmin zülmət gecədə elə bir g u r ş a d gəldi ki, kənd adamı demişkən, göyün yeddi qatına dırmaş* (B. Bayramov).

Məhrə (palçıqdan hörülmüş hasar) – *Tərlan deyə çağırmasın qoy hər yetən qarğısını; Alçaq m ə h r ə dağdır deyə söykəməsin arxasını* (R.Rza).

Himləşmək (gözləşmək) – *Kolxozçular təəccüblə sədrə qulaq asırlar; Gah qımışır, gah h i m l ə ş i r, gah gizli göz basırlar* (R.Rza);

İsmarıc (tapşırıq, sifariş) – *Qoca xeyli udqunmalı oldu, nə i s m a r ı c ola bilərdi* (T.Hüseynov). *İsmarıc* sözünün fonetik variantları mövcuddur. Surətin yerli nitq

---

[1] Azərbaycan dilinin dialektoloji lüğəti, Bakı, 1964, səh. 313.
[2] Azərbaycan dilinin izahlı lüğəti, III c., Bakı, 1983, səh. 252.
[3] Azərbaycan dilinin qərb qrupu dialekt və şivələri, Bakı, 1967, səh. 226.

xüsusiyyətini daha qabarıq vermək üçün bu cür variantlardan istifadə edilir. Məsələn, *Əmin oğluna ha ismarıc göndərdim yayda, yazda külfətini də götürüb gəlsin, kar qaya kimi səs çıxmır* (V.Nəsib); *Özüm göy rəngini seçdim, göndərdim, ismarış elətdirdim ki, bəli, axşam ona qonaq gəlmək istəyirəm* (Anar); *Araya qan düşəndə Maşa Səmədin bir ismarıcınnan qan yiyəsi qanından keçərdi* (S.Tağızadə). Nümunələrdəki *ismarıc, ismarış, ismarıc* bir dialektimizin fonetik variantlarıdır.

Bədii dilin üslubi imkanlarının güclənməsi məqsədinə xidmət edən bu kimi dialektizmlərin bəziləri, hətta ədəbi dilə daxil olaraq, sinonim cərgələrin zənginləşməsinə də təsir göstərir: *himləşmək, məhrə, ləmə, çalğı, ismarıc* kimi sözlər bu qəbildəndir.

b) *İnsanın gündəlik fəaliyyəti ilə əlaqədar işlədilən dialektizmlər.* Dialektizmlərin bir çoxu insanın gündəlik həyat və fəaliyyəti ilə möhkəm bağlıdır, ona görə də belə sözlərə danışıq dilində tez-tez təsadüf olunur. Dialektizmlərin bu qrupu emosionallıq yaratmaq məqsədilə yazıçı dilində də çox işlədilir. Ədəbi dildə belə sözlərin müəyyən qarşılığı olsa da, onlar emosional çalar yaratmaq baxımından sırf məhəlli dialektizmlərdən fərqlənir. Bədii ədəbiyyatda işlədilən belə dialektizmlərdə insanların birbirinə və ətraf mühitə münasibətindən doğan aşağıdakı kimi emosional çalarlar ifadə olunur:

Qəzəb, nifrət və narazılıq bildirənlər:

Dinaz. Bu sözün əvəzinə ədəbi dildə *tənə* sözü işlədilir. *Tənə* sözü ərəb mənşəli olmaqla, emosional ifadə gücünə görə *dinaz* sözündən fərqlənmir. *Tənə* sözündə günahlandırmaq anlayışı bildirilirsə, *dinaz* sözü həm də şivə çalarlı «qaxınc» mənasını ehtiva edir – *Yoxsa elin dinazından başlarını qaldırıb dünya üzünə baxa*

bilməzdilər (T.Hüseynov).

Çığnamaq – ədəbi dildə «ayaqlamaq» sözü ilə ekvivalentdir. Lakin *çığnamaq* sözündə «ayaqlamaq»la yanaşı, «əzmək» çaları da bildirilir – *Dəli inək buzovunu çığnayan kimi Fərəci ayağının altına aldı* (V.Babanlı).

Rahatlıq, dinclik bildirənlər:

Toxtamaq. Ədəbi dildə bu sözün leksik və frazeoloji sinonimləri mövcuddur: *dincəlmək* və *özünə gəlmək. Toxtamaq* sözündə isə bu iki məna bütövlükdə ifadə olunur – *Muxtar onları toxtatdı, ancaq axırında bir əmma qoydu* (Ə.Vəliyev); *hər şeyi öz yerinə tapıb xeyli toxtadı* (V.Babanlı).

Kirimiş. Ədəbi dildəki *sakit* və *dinməz* sözlərinin ifadə etdiyi mənaları ehtiva edir. Əslində, bu sözdə bir itaətkarlıq çaları da vardır – *Küsmüş uşaqlar kimi başını aşağı salıb kirimiş durdu* (Mir Cəlal); *Onun barəsində deyirlərsə, o çox kirimiş adamdır* (Ə.Vəliyev).

Hərəkətin müəyyən intensivliyini bildirənlər:

Lombalamaq. Bu sözdə *acgözlük, doymamazlıq, qarınqululuq* və həm də *xəbislik* çaları ifadə olunur – *Bir an içində cücə ətini, çörəyi, göyərtini lombalayıb içəri ötürdü* (Mir Cəlal).

*Qırplamaq. H*əmin sözdə normativ cəhətdən *qoparmaq* mənası ifadə olunsa da, yazıçı situasiya ilə əlaqədar bu sözdən *tələsiklik* çaları yaratmaq məqsədilə istifadə edir – *Ata-oğul buğdanı qırplayıb çuvallara doldurur, arabir də qovzaq qalan sünbülü bərk-bərk təpirdilər* (Ə.Vəliyev)

Diklənmək. Bu sözdə də *tələsiklik, qalxmaq, yerimək* çaları bildirilir – *Onun kimi bir neçə səbirsiz də ayağı yalın, başıaçıq üzüyuxarı dikləndilər* (S.Salahov).

İntensiv hərəkət ifadəsi üçün başqa sözlərdən də

istifadə olunur – *T e y l ə n ə r dağların qılınc yalında; Bəzən açıqlıqda, bəzən qalında* (S.Vurğun); *Basıb daş yığını dar döngələri; Ağırlıq altında t ə n g i y i r torpaq* (S.Vurğun); *Sözünü kəsib b e c i d bir yerişlə səhnədən düşdü, yerinə qayıtdı* (Anar); *Cavan bəstəkar S.Qayıblı pencəyinin boynunu qaldırıb divarların dibi ilə b e c i t - b e c i t evinə tərəf üz qoydu* (Elçin).

c) *Dar məhəlli xarakter daşıyan dialektizmlər.* Yazıçı dilində işlədilən dialektizmlərin müəyyən bir qismi ifadə etdiyi məna cəhətdən dar məhəlli xarakter daşıyır. Əlbəttə, bədii surətin səciyyələndirilməsi baxımından belə dialektizmlərdən istifadə etmək olar, lakin yazıçı dilində onların işlədilməsi yolverilməzdir. Çünki əsərə də emosionallıq gətirmir. Buna görə də yalnız müəyyən qrup dialektlər üçün səciyyəvi olan aşağıdakı dialektizmlərin bədii ədəbiyyatda, xüsusən yazıçı dilində işlədilməsinə lüzum yoxdur.

Nə sözlərin s i n s i s i n, nə şeirim boyat olsun (R. Rza); *Elə şey var, göz görsə də, ç ö ç ü n gəlir insana* (R. Rza); *Əbih Sultan başından qara örtüyü götürəndə onun rəngi boğulmuş, t ı n c ı x m ı ş d ı* (F.Kərimzadə); *Yolların toz-dumanına bürünə-bürünə nəfəsim tıncıxmış halda gəlib kəndə çıxdım* (Ə.Qasımov); *Bu kölgədən neçə kölgə ü r ü y ü r. Bu kölgələr hər tərəfi bürüyür* (R.Rza); *Yemədim, içmədim, axırı lap a n q u t u m çıxdı* (A.Məmmədov); *Doqqazın qapısında ayaq tappıltısı, sonra da at fınxırtısı eşitdi. Sümüyü s ə z i k d i – xeyir olar* (T. Hüseynov); *Qonaq boynunu, k ı v a r t qollarını dirsəyəcən yudu* (T.Hüseynov).

ç) *Arxaizm səciyyəli dialektizmlər.* Dialektizmlərin bir qismi ədəbi dilin lüğət tərkibindən çıxmış arxaizmlərdən ibarətdir. Bədii dildə bunların işlədilməsi həmin sözlərə aid anlayışların canlandırılması məqsədinə xidmət edir. Aydın

məsələdir ki, dialektlərdə mühafizə olunmuş belə sözlər tarixi dialektologiyanın əsas materiallarındandır. Bir çox sözlərin mənaca anlaşılmasında tarixi dialektologiyaya aid tədqiqatlar, etimoloji təhlil vacibdirsə, yazıçıların işlətdiyi sözlərdə mənanı mətnə görə aydınlaşdırmaq olur. Yazıçı dilində işlənmiş belə dialektizmlərdən aşağıdakıları göstərmək olar – *O, Molla Xəlili qapısından d i ş a r ı çıxarmış, onu rədd etmişdir* (S.Hüseyn); *Belə t ü n l ü k d ə onlar nə yanılır, nə çaşır* (M. Aslan); *Sərnişinlər düşünüb qurtardı, Feyzulla özünü birtəhər t ü n l ü k avtobusun içinə saldı* (Anar); *O yanda uçuq bir divar dalında A y l a n a r qoca bir sərxoş başı* (S.Vurğun); *Paşa bəy turaclılar haqqında bir a y a m a düzəldibdir* (Ə.Vəliyev); *Xan Kərəmi yada salıb a n d ı r a, həsrət məni buğum-buğum yandıra* (Z.Yaqub); *S ı ğ ı r ç ı olmaq ayıb deyil ki, Yəqin ata-anası deyib ki, s ı ğ ı r ç ı y a qız vermərik* (M.Hüseyn); *S ı ğ ı r ç ı l a r a başı qarışdığından, gecikəcəyini dedilər* (T. Hüseynov).

Surətlərin dilində işlənən dialektizmlər. Dialektizmlərin mühüm bir qismini surətlərin dilində işlənənlər təşkil edir. Surətlərin dilində işlənən dialektizmlər, bilavasitə onların daxili aləmini, xarakterini açmaq, nitqlərini tipikləşdirmək üçün mühüm vasitələrdəndir. Bu cür dialektizmlərin hamısı başdan-başa dar məhəlli xarakterli deyildir. Bunların içərisində elələri var ki, ümumxalq danışıq dili səciyyəli sözlər kimi işlədilir. Ümumiyyətlə, surətlərin dilində təsadüf edilən dialektizmləri aşağıdakı kimi qruplaşdırmaq olar:

a) *Ədəbi dildə qarşılığı olanlar.* Surətin dilində işlədilən və ədəbi dildə qarşılığı olan dialektizmlər öz emosional xarakteri ilə diqqəti cəlb edir.

Yazıçı surətin dilində dialekt sözləri işlətməklə, yerli

koloriti canlandırmaq məqsədi güdür. Digər tərəfdən, belə dialektizmlər ədəbi dildəki qarşılığı ilə birlikdə sinonim cərgə yaradır və bədii dilin ifadəlilik imkanlarını zənginləşdirir. Ədəbi dildəki qarşılığına nisbətən bədii dildə daha emosional təsir gücünə malik olan dialektizmlərdən aşağıdakılar xüsusilə səciyyəvi hesab edilə bilər:

Qənşər (qarşı) – *Ay Salman qağa, iş deyəndə ki, elə biz də o barədə sənin q ə n ş ə r i n ə gəlmişik* (M.İbrahimov); *Pəncərədən baxıb gördüm ki, təkatlı gəlib kəndin qənşərinə, balaca təpə var onun üstünə* (İ.Əfəndiyev).

Oxar (itilik) – *O x a r ı n ı gördünmü baltanın?* (R. Rza).

Barı (hasar) – *Çox uça görünməsin gözlərinə, ey cənab, Daş hasarlar, b a r ı l a r* (B.Vahabzadə).

Çuğul (xəbərçi) – *Yenə ç u ğ u l l u ğ a başlandı* (Ə. Mahmudov);

Höyüş (yaş) – *Yoxsa qurunun oduna h ö y ü ş də yanar* (T.Hüseynov);

Sozalmaq (avazımaq) – *Arvadı durduğu yerdə s o z a l m ı ş d ı və xata gözləyirdi* (T.Abbasov).

Bu cür sözlər ədəbi dilin leksik-semantik potensialının gücləndirilməsində müəyyən rol oynayır. Ümumxalq dilində öz işləkliyi ilə diqqəti cəlb edən belə sözlər düzgün olaraq «Azərbaycan dilinin orfoqrafiya lüğəti»nə (1975) də daxil edilmişdir.

b) *Ədəbi dildə qarşılığı olmayanlar.* Ədəbi dildə qarşılığı olmayan dialektizmlər də emosionallıq yaratmaq cəhətdən maraqlıdır. Belə dialektizmlər də ümumxalq dilində az-çox işləklik qazanmışdır. Əsas etibarilə bədii dildə ümumxalq danışıq dili koloritini artıran bu tipli dialektizmlərin bir qismi ədəbi dilə daxil olmaq imkanına malikdir. Çünki bunların bir qismi incə məna çaları ilə

ədəbi dili zənginləşdirə bilər. Belə dialektizmlərdən *kallaşmaq* (səsi tutulmaq, xırıltı ilə danışmaq), *çimir* (ani yuxu), *kəmçənə* (xırda kəsik), *bordaq* (kökəldilmiş, ayrıca qulluq edilmiş) və s. səciyyəvi lüğəvi vahidlərdir. Bədii ədəbiyyatda bu cür sözlər məhəlli koloritin güclü ifadəsinə xidmət edir:

Səsi k a l l a ş ı b deyə dillənmək istəmir (T.Mehdiyev); *Dindirib söylədən olmasa səhəri ç i m i r s i z açardım* (V.Babanlı); *Uşaqlar: «Hə, gedək bir az ç i m i r e l ə y ə k», – deyib qalxdılar* (Ə.Əbülhəsən); *Söhbətə tutdum, xalqın malını k ə m ç ə n ə elədim* (B.Bayramov); *Sovxozun b o r d a q buğasından nəyin əskikdir?* (B.Bayramov).

Maraqlıdır ki, bədii dilin yeni məna çaları ilə zənginləşməsində mühüm rol oynayan belə dialektizmlər ədəbi dilin leksik tərkibini əks etdirən lüğətlərə də daxil edilmişdir. Məsələn, 1965-ci ildə nəşr olunmuş «Azərbaycanca-rusca lüğət»də bunlardan *çimir,* habelə *kəm* kökündən düzəlmiş *kəmçik* sözlərinin qeydə alınması təqdirəlayiqdir. 1975-ci ildə nəşr edilmiş «Azərbaycan dilinin orfoqrafiya lüğəti»ndə *çimir* sözü ilə yanaşı, *bordaq* və *kəmçənə* sözləri də qeydə alınmışdır.

c) *Məhəlli xüsusiyyət daşıyanlar.* Surətin dilində işlənən dialektizmlərin bir qismi dar məhəlli xüsusiyyət daşımaqda, xarakterin canlandırılması baxımından maraq doğurur. Belə dialektizmlər bədii dildə ifadəlilik imkanlarının artmasına təsir göstərir. Bunların bir qisminin ədəbi dildə konkret qarşılığı olmasa da, bəzilərinin qarşılığını tapmaq mümkündür. Hər iki qisim dialektizmlər emosionallıq yaratmaq məqsədi güdür. Ədəbi dildə qarşılığı olmayan məhəlli xarakterli dialektizmlər daha çox yerli koloritə malikdir. Bu xüsusiyyət *şırvanmaq* (yan-yörəsinə sürtünməklə yaltaqlanmaq), *eydirmə* (inək sağanda çox süd

vermək üçün xüsusi oxunan mahnı), *sıpıxmaq* (gizlənib aradan çıxmaq) və s. sözlərdə qabarıq şəkildə ifadə olunur. Müasir dildə bu sözlərdən *sıpıxmaq* daha çox ümumxalq səciyyəsi daşıdığından, hətta 1941-ci ildə buraxılmış «Azərbaycanca-rusca lüğət»də də qeydə alınmışdır. 1975-ci ildə nəşr edilmiş «Azərbaycan dilinin orfoqrafiya lüğəti»ndə isə bunlardan *eydirmək* sözünə təsadüf olunur. *Eydirmək* sözü «Azərbaycan dilinin izahlı lüğəti»ndə də (1966) qeydə alınmışdır.

Bəziləri qocaya yanaşıb yan-yörəsində şırvanırdılar (M.Hüseyn); *Eydirmə mahnısını elə bir səviyyəyə qaldırdım ki, bir zaman gördüm inəyin yelini tamam boşalıb* (B.Bayramov); *Özünə gələndə isə saatına baxıb sıpıxırsan* (T.Abbasov)

Ədəbi dildə qarşılığı olan dialektizmlər bir qayda olaraq etnoqrafik xarakter daşıyır. Eyni zamanda burada ədəbi dildəki qarşılığına nisbətən emosionallıq ifadəetmə xüsusiyyəti daha üstündür. Aşağıdakı dialektizmlərdə bu cəhəti daha aydın görmək mümkündür:

Ünnəşmək (toplaşmaq) – *Birbaş sövdəgərin evinə getdim. Bəşir əmi burada idi. Camaat ünnəşmişdi* (Ə.Vəliyev).

Göyən (aydın) – *Qoyunu yaylıma aparmışdıq, gecə də göyən idi* (Ə.Vəliyev).

Təmənnəşmək (razılaşmaq) – *Hər kəs yaxşı şana vç kürək qayırsa, maşını ona verəcəyəm, – deyib onlarla təmənnəşdi*. (Ə.Vəliyev)

Səmələnmək (avaralanmaq) – *Bir də axı gəzməkdən, küçələrdə səmələnməkdən bunun başı nə vaxt ayılıb ki, belə-belə işlərlə məşğul olsun!* (V.Babanlı)

Pəsinmək (utanmaq, çəkinmək) – *Yanlarından ötüb-keçən böyük-kiçikdən, ağbirçək-qarabirçəkdən bir damcı*

da p ə s i n m i r d i l ə r (B.Bayramov)

Eymənmək (qorxmaq) – *Dovşan çıxsa qabıqdan, e y m ə n i b hürküşürlər* (M.Aslan)

1960-cı ildə nəşr olunmuş «Azərbaycan dilinin orfoqrafiya lüğəti»ndə *eymənmək, təmənnəşmək, ünnəşmək* sözləri qeydə alınmışdır. 1940-cı ildə nəşr olunmuş «Orfoqrafiya lüğəti»ndə bu dialektizmlərin heç birinə rast gəlmək olmur. Bütün bunlar bir daha ədəbi dilin xüsusilə son zamanlar dialekt bazası əsasında zənginləşməsi perspektivlərinin genişləndiyini göstərən faktlardandır.

Surət dilində işlənən dialektizmlərin müəyyən qismi düzəltmə yolla əmələ gəlmişdir. Bunlar da məna cəhətdən ümumxalq səciyyəsinə malik olan sözlərdən, demək olar ki, fərqlənmir. Xüsusi məna incəliyinə malik olan belə dialektizmlər bədii dili öz ifadə imkanları ilə zənginləşdirir. Daha çox dialekt səviyyəsində işlənən və ümumxalq dili səciyyəsi qazanmağa meyilli olan belə dialektizmlər ədəbi dilin lüğət tərkibinin zənginləşməsi baxımından da əhəmiyyətlidir. Bunlara aid *yatı* (yatmaq vaxtı), *çalançı* (musiqi alətində çalan) və s. sözləri misal göstərmək olar. Bunlara ədəbi dilin bədii üslubunda da rast gəlmək mümkündür:

Y a t ı vədəsinəcən evə qayıtsan vay halına (V.Babanlı) ; *Ya gərək xanəndə, ç a l a n ç ı olasan, ya aşıq, ya molla* (Anar)

ç) *Məcazi məna ifadə edənlər.* Bədii ədəbiyyatda işlənən dialektizmlərin müəyyən qismi məcazi məna ifadəsi ilə səciyyələnir. Belə sözlərdə emosionallıq daha güclüdür. İşlənmə əhatəsinə görə ümumxalq danışıq dili səviyyəsinə daxil olan belə dialektizmlər ədəbi dildə çoxmənalılıq potensialının artmasına mühüm təsir göstərir. Bunlardan *ağzıbir* (həbsxana), *dəyişək* (alt paltarı), *oturuşmuş* (yaşlı)

kimi sözlər xüsusilə səciyyəvidir:

Tutub ağzıbirə salıblar (M. Hüseyn); *Tapşır ki, dəyişəyi də aparıb yusun* (B. Bayramov); *Ancaq qızlar bir az oturuşmuşuna gedirlər* (Ə. Vəliyev) və s

Sovet dövründə Azərbaycan ədəbi dili lüğət tərkibinin dialektizmlər hesabına zənginləşməsi başqa dövrlərdəki eyni prosesdən əsaslı şəkildə fərqlənir; sovet dövründə ədəbi dil, dialekt münasibətlərinin məzmununda dəyişikliklər baş verir – ədəbi dilin kütləviləşməsi onu dialekt mühiti ilə üzbəüz qoyur, ona görə də dialektlərdən ədəbi dilə söz keçməsi bir tərəfdən sürətlənir, digər tərəfdən həmin sözün ədəbi ünsiyyətdəki davamlılığı, yaxud qeyri-sabitliyi sürətlə həll olunur, yəni dialektizm ya tezliklə normativ hadisəyə çevrilir, ya da normalaşa bilmir.

Dialektoloji lüğətlərin hazırlanması, terminologiyanın qaydaya salınması üçün xalq dilinə müraciət edilməsi kimi planlı təşkilati işlər ədəbi dilin dialektizmlərlə zənginləşməsinə təsir edir, daha doğrusu, bu işi ciddi nəzarət altında görməyə imkan verir.

Ümumiyyətlə, «dialektizm» adı altında nəzərdən keçirilən lüğəvi vahidlərin müəyyən hissəsi vaxtilə ədəbi həyat keçirmiş sözlərdir və bir sıra dialektlər üçün ümumi olub xalq danışıq leksikasına yaxındır; bu cür sözlərin ədəbiləşmə (daha doğrusu, yenidən ədəbiləşmə) imkanı böyükdür. Məsələn, *tıxac, oyundaş, çıxdaş, irinlik, andır, çayır, üzərrik, üskük otu, xanım otu, döyənək, oturacaq, kərəməz, dan ulduzu, yeddi qardaş (ulduz), karvanqıran* və s. sözlərin ədəbi dildə işlədilməsi sovet dövründə təklif olunmuşdur və bu sözlərin demək olar ki, hamısı hazırda normativ lüğəvi vahid kimi işlədilir.

Şübhəsiz, dialektizmlərin ədəbi normaya çevrilməsində bədii dil əsas rol oynamışdır və bu iş davam edir.

S.Vurğun, S.Rəhimov, Ə.Vəliyev, M.Hüseyn, B.Bayramov, İ.Hüseynov, İ.Şıxlı və b. yazıçıların dili bu baxımdan xüsusilə əlamətdardır. Lakin sovet dövründə başqa üslublar, xüsusilə publisist üslub və müəyyən qədər elmi üslub da dialekt leksikasına münasibət baxımından diqqəti çəkir; bu isə sovet dövründə ədəbi dilin dialektizmlər hesabına zənginləşməsinin linqvistik təbiətini göstərən cəhətlərdən biridir. Müxtəlif üslubların xalq dilinə, təbii, canlı danışığa yaxınlaşmasından başqa, bunu publisist, eləcə də elmi təfəkkürün milli mənbələrə müraciəti də şərtləndirir.

Lüğət tərkibinin kalka yolu ilə zənginləşməsi

SSRİ xalqları dillərində kalkaların yaranması üçün rus dili aparıcı rol oynayır. Sosializm quruculuğu ilə əlaqədar bir sıra yeni anlayışlar meydana çıxır və SSRİ xalqları dillərindən biri kimi Azərbaycan dilində də onların ifadə formaları meydana gəlməli olur, nəticədə ədəbi dilin leksik-semantik potensialı zənginləşir.

N.A.Şarapov Sovet hakimiyyəti illərində tacik ədəbi dilinin leksik-semantik bazasının zənginləşməsində *muborizan-sinfi* «классовая борьба», *muborizon-makfuravi* «идеологическая борьба» və s. kimi kalkaların rolunu xüsusi qeyd etmişdir[1].

X.A.Atayeva türkmən dilində Oktyabr inqilabından sonra *zarpçı* «udarnik», *«otuzmünçi»* – «тридцатитысячник», *kolxoz başlığı* «председатель колхоза» və s.

[1] *Bax:* Н.А.Шарапов.Пути развития лексики современного таджикского литературного языка, АДД, 1974, стр. 54-55.

kimi xeyli miqdarda kalkaların yarandığını göstərir[1]. Kalka yolu ilə düzələn sözlər barədə Azərbaycan dilçiliyində də bəhs edilmişdir. Azərbaycan dilində işlədilən *dünyagörüşü, tozsoran, şəhərsalan, neftdestiləedən, özünütərbiyə, özünəxidmət, özfəaliyyət, əməkgün, yarımfabrikat, yarımmüdafiə, sülhsevər, sürünkəc, elektrocərrahiyyə, fotoxizək, gəmipeyk, təyyarəçi-kosmonavt, həkim-kosmonavt, kosmik elm, daşıyıcı raket, kosmik gəmi, kosmik uçuş, hava layneri* və s. külli miqdarda sözlər məhz kalka yolu ilə düzəlmişdir.

Dilçilik ədəbiyyatında söz yaradıcılığı üsullarından biri kimi kalkadan da bəhs olunur. Söz yaradıcılığının öz üsulu ilə meydana gələn yeni sözlərdə kalka edən dildəki kök və şəkilçinin leksik-qrammatik xüsusiyyətlərinin kalka edilən dildəkinə uyğunluğu başlıca prinsip hesab olunur. Beləliklə, bir dildə yeni anlayışları ifadə edən və qrammatik-semantik cəhətdən digər dildəkinə uyğun gələn sözlər tərcümə edilmə yolu ilə yaranmış olur.

Azərbaycan dilində söz yaradıcılığı üsullarından biri kimi kalkalardan geniş istifadə olunur. Məsələn – *Bu sənəddə ali məktəblər tərəfindən gənclərin m ə q s ə d y ö n l ü p e ş ə y ö n ü m ü n ü n təşkili, gələcək birinci kurs tələbələrinin müntəzəm surətdə axtarılması nəzərdə tutulur* (AG-31.03.89).

Lakin belələri semantik kalkalara nisbətən azdır. Semantik kalkaların meydanagəlmə imkanları söz yaradıcılığı kalkalarına nisbətən daha genişdir. Azərbaycan dilində hələ Sovet hakimiyyətinin ilk dövrlərindən söz yaradıcılığı kalkalarına xüsusi meyil olmuşdur. Bu meyil

---

[1] *Bax:* Х.А.Атаева. Развитие лексики туркменского языка за счет своих внутренних ресурсов (после Великой Октябрьской социалистической революции), АКД, Самарканд, 1961, стр. 5.

sonralar da söz yaradıcılığının bir qolu kimi inkişaf etmişdir. Söz yaradıcılığı kalkaları əsas etibarilə rus dilindəki hazır formaların Azərbaycan danışıq dilindəki qarşılığından ibarətdir.

Söz yaradıcılığı yolu ilə düzələn kalkalarda söz-düzəldici şəkilçilərin ikinci dildəki qarşılığı verilir. Belə kalkalar da ümumxalq xarakteri daşıdıqdan sonra ədəbi dildə işlənmə hüququ qazana bilir. Azərbaycan dilində söz yaradıcılığı kalkalarının əmələ gəlməsində, başlıca olaraq, *-çı, (-çi, -çu, -çü)* şəkilçisindən istifadə edilir. Bu şəkilçi vasitəsilə rus dilindən alınmış *traktorist* sözünün *traktorçu, maşinist* sözünün *maşınçı, kassir* sözünün *kassaçı* şəklində işlədildiyinə təsadüf edilir. Doğrudur, *maşınçı* və *kassaçı* sözlərinin ədəbi dil lüğətlərində verilməsinə hələlik təsadüf edilmir, lakin bədii ədəbiyyatda *traktorçu* sözü ilə yanaşı, belə sözlərin də işlənməsinə müəyyən meyil olduğunu görmək mümkündür:

Traktorçular sahəni şumlamağa başladılar (Mir Cəlal); *Amma biz sizi traktorçu, maşınçı, aeroplançı eləmək istəyirik* (C. Cabbarlı); *Kassaçı dedi ki, bir dənə də bilet qalmayıb* (Anar)

-çı (-çi; -çu, -çü) şəkilçisi ilə bəzən tərcümə yolu ilə də kalka əmələ gətirilir. Məsələn, rus dilindəki *strelok* sözünün qarşılığı kimi işlədilən *nişançı* sözü bu tiplidir. Burada *-çı* şəkilçisi ilə *nişan* sözündən həm də yeni söz yaradılır. Azərbaycan dilində bu söz 1940-cı ildən sonra yarandığından, 1930-cu illərin lüğətlərində ona təsadüf edilmir. 1940-cı ildən sonrakı lüğətlərdə isə bu söz qeydə alınmışdır. *Nişançı* sözü ümumxalq səciyyəli söz kimi ədəbi dilin bədii üslubunda da işlədilir – *Sonra atışma uzandı, qabaqda üç nəfər nişançı vardı* (M.Hüseyn).

Söz yaradıcılığı kalkasında *-sız (-siz, -suz, -süz)*

şəkilçisindən də istifadə edilir. Bu cəhətdən, Azərbaycan dilindəki fars mənşəli *narahat* sözünün *rahatsız* şəklində kalka edilməsi maraqlıdır. Fars dilinə məxsus *na-* ön şəkilçisinin Azərbaycan dilində *-sız* son şəkilçisi ilə əvəz edilməsi bilavasitə sovet dövründə ərəb-fars alınmalarının dəyişdirilməsi meyilindən irəli gəlirdi.

Azərbaycan dilinə aid lüğətlərdə *rahatsız* sözü ilə yanaşı, *narahat* sözü də verilir. Bunlar, ümumiyyətlə, dildə paralel işlənən sözlərdir. Qeyd etməliyik ki, *rahatsız* sözü hələ ədəbi dildə *narahat* sözünü tam əvəz edə bilmədiyindən, başlıca olaraq, bədii üslubda işlədilir:

Ürəyim çox rahatsızdır, Şərif, bəlkə çala bilmədim (C.Cabbarlı); *Gecə yol gəldiyindən rahatsız olmuşdu* (Ə.Qasımov) və s

Azərbaycan dilində rus dilinin təsiri ilə yaranan semantik kalkaların da özünəməxsus səciyyəvi cəhətləri vardır. Bu tipli kalkaları iki qrupa bölmək olar:

Normativ məna əsasında əmələ gələnlər. Belə kalkalarda ifadə olunan məfhum və ya anlayış üçün ikinci bir söz işlənmir. Yəni, hər bir məfhum və ya anlayış bir ifadə vasitəsinə malik olur. Sözlərin mənasında məcazilik müşahidə edilsə də, onlar vahid ifadə vasitəsi olduğu üçün nominativ adlandırma xüsusiyyəti daşıyır. Azərbaycan dilində rus dilinin təsiri ilə yaranmış belə kalkalar iki cürdür:

a) *Mürəkkəb söz şəklində olanlar:* Kalkaların bu növündə rus dilindəki müvafiq məna öz əksini tapdığı kimi, quruluş xüsusiyyətinin saxlanılmasında da analitik üsul mühüm rol oynayır. Beləliklə, Azərbaycan ədəbi dilinin lüğət tərkibi təkcə yeni anlayış ifadə edən mənalarla yox, həm də yeni quruluşa malik vahidlərlə zənginləşmiş olur. Başqa sözlə, bu cür sözlər quruluş cəhətdən Azərbaycan dilində mövcud olan mürəkkəb sözlərin potensialını artırır.

Azərbaycan dilində rus dilinin bilavasitə təsiri ilə yaranan və mürəkkəb sözlərin potensialını genişləndirməyə xidmət edən mürəkkəb sözlərə aşağıdakı misallarda verilən faktlar nümunə göstərilə bilər:

Mövcud ədəbiyyat mənbələri hesabat və seçkilərin gedişində dərindən və özünütənqid ruhunda təhlil olunmalıdır (K-17.08.83); *Şirvan hər yerdə özünütən-qidlə başlayıb deyirdi ki, maymaqlıq edib* (B. Bayramov); *Yeddinci sinifdən başlayaraq hər il yüz əlli, iki yüz əməkgünü alır* (M.İbrahimov); *İşin gedişində kartof yarımfabrikatları emal edən sex yaradılmasını nəzər-də tutmaq məqsədəuyğundur* (K-26.06.83); *O, tozsora-nın uğultusundan yorulub divanda əyləşmişdi* (B. Bayramov); *O, bütün müharibəni keçmiş və onuncu qırıcı əleyhtank polkunun tərkibində vuruşmuşdu* (Anar); *Bu gün-sabah on birinci beşilliyin planlarını yerinə yetirdiyimiz barədə raport verəcəyik* (K-1.07.83); *Xındırıstan kəndi düzənlikdə müasir aqroşəhərciyə çevrilmişdir* (K-6.07.83); *Yenidənqurma elə bir prosesdir ki, bu prosesdə məhz sözü bütöv olmaq lazımdır* (Əİ-12.12.86) və s.

Bu misallarda verilən kalkalar, müvafiq olaraq rus dilindəki *самокритика, трудоден, полуфабрикат, пылесос, противотанковый, пятилетка, агрогородок, перестройка* sözləri əsasında düzəldilmişdir. Azərbaycan ədəbi dilinin leksik tərkibini əks etdirən lüğətlərdə bu tipli kalkalar ümumxalq səciyyəli digər vahidlər kimi özünə-məxsus yer tutur.

Mürəkkəb söz şəklindəki kalkalar hələ 1930-cu illərdən lüğətlərə daxil olmağa başlamışdır. Bu cəhətdən 1939-cu ildə nəşr olunmuş «Azərbaycanca-rusca lüğət»də verilən *beşillik* sözü səciyyəvidir. 1940-cı ildə nəşr edilmiş

«Orfoqrafiya lüğəti»nə isə bununla yanaşı, *tozsoran* da daxil edilmişdir. 1951 və 1962-ci illərdə nəşr edilmiş «Azərbaycanca-rusca lüğət»lərdə artıq belə kalkaların sayının artmağa başladığı müşahidə edilir. Bu lüğətlərdə əvvəlki lüğətlərdəkilərlə yanaşı, *maşınqayırma, özünütən-qid* kimi yeni kalkaları da görmək mümkündür. Sonrakı lüğətlərdə də mürəkkəb yolla düzəldilmiş kalkaların sayının getdikcə artdığı müşahidə edilir. Məsələn, 1960-cı ildən sonrakı dövrlərdə buraxılmış lüğətlərdə *qəbuledici, aqroşəhər, əməkgün, yarımfabrikat radioverici, dalğaölçən* və s. kalkalar vardır.

b) Söz birləşməsi şəklində olanlar. Belə kalkaların rus dilindəki əsası da söz birləşməsi şəklində olur, buna görə də Azərbaycan dilində analoji qaydada düzəldilmiş kalkalar həm semantik həm də struktur qarşılıq təsiri bağışlayır. Bu tipli kalkalarda elmi-texniki tərəqqi, ictimai-iqtisadi inkişaf, insanın cəmiyyətdə artan rolu və s. anlayışlar öz ifadəsini tapır:

Cari ilin ötən aylarının nəticələri daha fərəhlidir (K-1.07.83); Ortada qoyduqları balaca radio-cihazında həzin səsli bir müğənni bağrı yana-yana oxuyurdu (S.Qədirzadə); *Müvafiq ittifaq və respublika orqanları aqrar-sənaye kompleksinin inkişafına dair kontrol rəqəmlərin kənd təsərrüfatı, sənaye, müəssisə və təşkilatlarına çatdırılmasını təmin edəcək* (K-25.06.83); *Kənd zəhmətkeşləri (Ərzaq proqramının həllində özlərinin məsul yerini aydın müəyyən etmiş və bu yolla inamla irəliləyirlər* (K-2.07.83); *İndi kolxozda hər hektar əkin sahəsindən 7.200 yem vahidi əldə edilir* (K-2.02.83); *Bu ya planetlərarası gəmi, ya da yerdən buraxılmış süni peyk ola bilərdi* (Ə.Mahmudov); *Qərara aldılar ki, kəndin qabaqcılları və fəalları əmək*

intizamına xüsusi diqqət yetirsinlər (M.İbrahimov); *İlin bir sıra istehsal göstəriciləri ürəkaçandır* (Əİ-12.12.86); *Müasir imperialistlər isə bunun əksinə olaraq başqa fikir söyləyirlər: kosmos ulduz müharibələri üçün ən perspektivli yerdir* (AG-17.02.87); *Yem istehsalında da ailə podratı üsulunu tətbiq etmək nəzərdə tutulur* (K-2.02.87) və s.

Bu misallarda verilən kalkalar müvafiq şəkildə, rus dilindəki *текущий год, радио аппарат, контрольные цифры, продоволственная программа, кормовая единица, искусственный спутник, трудовая дисциплина* birləşmələrinin semantik-struktur qarşılığından ibarətdir.

Məcazi məna əsasında əmələ gələnlər. Məcazi məna əsasında yaranan kalkalar obyekti ifadəetmə xüsusiyyətlərinə görə nominativ mənalı kalkalardan fərqlənir. Belə ki, burada obyekt bir, ifadə vasitələri müxtəlif ola bilər. Bir obyektə aid olan bir neçə ifadə vasitəsi emosional xüsusiyyətlərinə görə biri-digərindən seçilir. Onların emosionallığında məcazi mənalılıq xüsusi rol oynayır. Sovet dövründə yaranan bu cür kalkalar elm və texnikanın ən yüksək nailiyyətlərinə aid məfhumları ifadə etmək məqsədi ilə işlədilir. Bunlardan elektrik və kosmosla əlaqədar olam məcazi mənalı kalkalar xüsusilə səciy-yəvidir:

Evlərin qapısında göz qırpa-qırpa yanan, elektrik lampası deyil, misralarımdır (S.Rüstəm);

Salxım-salxım süd lampalı dirəklərinə salam (R. Rza); *Bax bu elektrik çırağı asılan dirəyin yanından keçəndə Südabə yaşıllıqdan danışırdı* (A.Məmmədov); *O zaman gecə yarı İliç lampaları işıq saçacaq* (S. Vurğun).

Bu misallarda verilən nümunələrin hamısı eyni məfhumu ifadə etmək üçün işlədilir.

Astronomlar istər-istəməz belə bir aksiomu təsdiq etməli oldular: «Veneraya şüurlu varlıqlar tərəfindən s ə m a g ə m i s i enmişdir (Ə.Mahmudov); *Venera planetinə enmək k a i n a t g ə m i s i n i n uçuş proqramına daxil deyildir* (Ə. Mahmudov); *Nəhəng hava gəmisi kosmosa yol açmışdır* (K-16.06.67) və s.

Ədəbi dilə sözlərin kalka yolu ilə gətirilməsi öz-özlüyündə incə və diqqət tələb edən məsələdir. Çünki mənbə dildə məqbul görünən söz kalka edildikdə uyğunsuzluqlar baş verə bilər. Eyni zamanda, kalka yaradıcılığına aludə olmaq dildə standartlaşmaya, qeyri-dəqiqliyə, qeyri-təbiiliyə gətirib çıxara bilər.

Sovet dövrü Azərbaycan ədəbi dilində kalkalar ünsiyyətin müxtəlif sahələrində müxtəlif saydadır; ən çox elmi, ictimai-publisist əsərlərdə müşahidə olunur ki, bu da üslubların miqyasca genişlənməsi, funksionallaşması ilə əlaqədardır.

Onomastik sistemin zənginləşməsi

Azərbaycan ədəbi dilinin zənginləşməsi onomastik sistemdə gedən inkişafı da ehtiva edir; o mənada ki, onomastik vahidlər də ədəbi dilin lüğət tərkibinin faktıdır və dövrün söz zövqü burada da özünü hiss etdirir. Sözə etik-estetik münasibətin formalaşmış normasından kənarda bir qayda olaraq xüsusi ad – onomastik vahid yoxdur, hətta bəzən onomastika ideoloji məzmun daşıyır; bu sistemdə ədəbi dilin lüğət tərkibini xarakterizə edəcək əlamətlər bir qədər dərin qatlarda yerləşdiyinə görə nisbətən çətin aşkarlanır, lakin bununla belə fakt faktlığında qalır ki, onomastik vahid lüğət tərkibinin adi vahidi kimi mədəni-ictimai amillərin təsiri ilə normaya çevrilir, yaxud

normativlikdən çıxır, köhnəlir və s.

Onomastik vahidlər ictimai-tarixi inkişafın məhsuludur, özündə bəzən mənbələrdə qeydə alınmamış dil faktlarını mühafizə edir, müasir dövrə qədər gətirib çıxarır.

Azərbaycan ədəbi dilinin zənginləşməsində iştirak edən onomastik vahidlər də, dilin başqa sahələrində olduğu kimi, müəyyən prinsiplərə əsaslanır. Burada da ilk növbədə məna və məzmun ön plana çəkilir, eyni xarakterli və eyni səciyyəli məna verən onomastik vahidlər bir qrupda birləşdirilir.

Onomastik sistemi əsasən aşağıdakı bölmələr üzrə nəzərdən keçirmək olar:

1. Antroponimik sistemin zənginləşməsi;
2. Toponimik sistemin zənginləşməsi;
3. Ktematonimik sistemin zənginləşməsi.

1. *Antroponimik sistemin zənginləşməsi.* Onomastikanın ən geniş yayılmış və əsas sahəsini təşkil edən antroponimiya Azərbaycan ədəbi dilinin zənginləşməsində özünəməxsus yer tutur. İnsan adlarının müxtəlif dövrlərdəki inkişafı məhz həmin dövrün ictimai, siyasi və mənəvi güzgüsüdür – desək, o qədər də səhv etmərik.

Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra hərtərəfli inkişaf yoluna qədəm qoyan Azərbaycan dili öz lüğət tərkibini elmin, texnikanın, ictimai həyatın müxtəlif sahələrini əhatə edən söz və terminlər hesabına zənginləşdirmişdir. Bu zənginləşmədə şəxs adları da mühüm əhəmiyyət kəsb etmişdir.

Yeni milli ad yeni həyat tərzi ilə bağlı əmələ gəlir[1]. Azərbaycan antroponimiya sistemində zənginləşmə prosesinin məqsədəuyğunluğu, sadə və anlaşıqlılığı məhz

[1] З.Н.Садыхов. Личные имена в азербайджанском языке, АКД, Баку, 1975, стр. 9.

bu dövrlə bağlıdır. Yeni həyat tərzinə keçilməsi ilə tarixin müxtəlif dövrlərində formalaşmış və dildə özünəməxsus mövqeyə malik olan ərəb, fars, rus və s. mənşəli, dilin fonetik tərkibinə uyğunlaşmayan mürəkkəb adlar əvvəlcə funksionallığını itirmiş, sonralar isə arxaik sözlər kimi işləklikdən çıxmış, onların yerini yeni, səs tərkibinə görə sadə və anlaşıqlı adlar tutmuşdur; *Elşən, Şahin, Vüqar, İradə, Emin* və s.

Sovet dövründə Azərbaycan antroponimiyası əsasən aşağıdakı istiqamətlərdə zənginləşmişdir:

a) *Ümumişlək sözlər hesabına zənginləşmə.* Sovet dövrü Azərbaycan ədəbi dilinin xüsusi adlar sistemi hesabına zənginləşməsi prosesi, bütün dünya xalqlarının antroponimiyasında olduğu kimi, öz məna və məzmunu etibarilə rəngarəng və müxtəlif ümumişlək sözlər əsasında formalaşır.

Əsası Azərbaycan dili lüğət tərkibinin hərəkət bildirən sözlərindən ibarət olan xüsusi adların tarixi əsasən sovet dövrünə təsadüf edir. Belə adlar tarixən dilimizin antroponimik sistemində qeydə alınmamışdır. Onlar Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonrakı dövrdə çoxalmış və müvəffəqiyyətlə köhnə sözlərin böyük bir qismini sıxışdırmışdır.

Dilimizin lüğət tərkibindəki *dönmək, qorxmaq, yaşamaq, baxmaq* kimi sadə fellərdən *Dönməz, Dönüş, Qorxmaz, Yaşar, Baxşı, Baxış* kimi kişi adları əmələ gəlmişdir. Kişi adlarının bu yolla əmələ gəlməsində *-mə, +z, -üş, -ma, +z, -ar, -ış* şəkilçiləri fəal iştirak etmişdir.

Gülmək, sevmək, solmaq, küsmək və s. sadə fellərdən düzələn *Gülüş, Gülər, Sevər, Sevil, Solmaz, Küsgün* və s. qadın şəxs adlarının əmələ gəlməsində isə *-üş, -ər. -il, -ma+z, -gün* kimi şəkilçilər iştirak edir. Onu da qeyd edək

ki, göstərilən adların əksəriyyəti Azərbaycan dilinin antroponimik sisteminə C.Cabbarlının əsərləri vasitəsilə daxil olmuş və get-gedə işlənmə tezliyi artaraq müasir adlar səviyyəsinə yüksələ bilmişdir.

Sonralar bu yolla addüzəltmə prosesi daha da inkişaf etmiş, *Anar, Yanar, Sevindik, Ötkəm* və s. kimi adlar da əmələ gəlmişdir. Beləliklə, fellərin semantik konversiyasının antroponimlərin təşəkkülündəki aparıcı rola malik olması[1] özünü doğruldur.

Sifətlərin semantik konversiyası ilə əmələ gələn adlar da sovet dövrü Azərbaycan ədəbi dilinin zənginləşməsində fəal rol oynayır. Belə adlar da həm kişilərə, həm də qadınlara verilir.

Kişi adları: *Lətif, Əziz, Bəxtiyar* və s.

Qadın adları: *Yaxşı, Lətifə, Şirin, Zərif, Zərifə, Əzizə* və s.

b) *Tarixi hadisələrlə bağlı sözlər hesabına zənginləşmə.* Tarixi hadisələr və bu hadisələrlə bağlı olan şəxs adları da yeni ad düzəldilməsi üçün mənbələrdən biridir. Bu mənada Oktyabr inqilabı və Böyük Vətən müharibəsi kimi tarixi hadisələr Azərbaycan ədəbi dilinin yeni şəxs adları ilə zənginləşməsinə təsir etmişdir. Böyük Oktyabr və onun nəticələrilə bağlı *Oktyabr, Aprel, İnqilab, Noyabr, Sovet, Əsgər, Şura, Mübariz, Kommunar, Kommunist* kimi şəxs adları ortaya çıxsa da, bunlardan təkcə *Mübariz, İnqilab, Şura, Əsgər* adları dilin antroponimik sistemində özünə geniş yer tapa bilmiş, qalanları isə zaman keçdikcə aradan çıxmışdır. Bu dövrün qəhrəmanlarından Çapayevin adı ilə bağlı *Çapay* şəxs adı da Azərbaycan dilində müəyyən müddət işlədilmişdir.

---

[1] *Bax:* M.N.Çobanov. Azərbaycan antroponimiyasının əsasları. Tbilisi, 1983, səh. 12.

Əsasən Böyük Vətən müharibəsi ilə bağlı: *Alay, Mayor, Otryad, Qoşun, Zabit, General, Marşal, Qələbə* kimi şəxs adlarından *Alay, Zabit* adları dilimizin antroponimik sistemində öz yerini qismən qoruya bilmişdir.

Böyük Vətən müharibəsi qəhrəmanlarının adlarının uşaqlara verilməsi xalqın onlara olan dərin məhəbbətinin təzahürüdür. Müharibə dövrü və sonrakı illərdə, eləcə də indiki dövrdə *Mehdi, Qafur, Həzi, İsrafil* və s. adlar dilimizin antroponimik sisteminin bəzəyinə çevrilmişdir.

Onu da qeyd edək ki, tarixi hadisələrlə bağlı şəxs adları ancaq kişilərə verilmişdir. Bu da həmin hadisələrin öz xarakteri ilə bağlıdır.

Yeni sosialist quruculuğu ilə əlaqədar müxtəlif vəzifə adları da yeni ad düzəldilməsində mənbə rolunu oynamışdır. Belə adlar həmin vəzifə adının rus dilindən götürüldüyü formaya uyğun qurulmuşdur: *Narkom, Raykom, İspolkom, Özək, Katib, Sədr* və s. Bu adlardan heç biri dildə özünə vətəndaşlıq hüququ qazana bilməmişdir.

c) *Coğrafi terminlər əsasında zənginləşmə.* Bu cəhət özünü ilk növbədə ononim və hidronimlər əsasında addüzəltmədə göstərir. Valideynin advermədə təsəvvür etdiyi böyüklük, əzəmət *Qoşqar, Elbrus, Savalan, Xəzər, Araz, Dərya* adlarının semantikasında indi də hiss edilir. *Sahil, Sərhəd, Dalğa, Mühit, Dağlar, Orlan* kimi kişi adları, *Mənzər, Şəlalə, Xəzan, Çəmən, Şərqiyyə* kimi qadın adları da coğrafi terminlər əsasında formalaşmışdır və bu gün də az-çox işlədilir.

ç) *Bitki aləmini bildirən sözlər əsasında zənginləşmə.* Məlumdur ki, bitki aləminə daxil olan bəzi çiçəklər və küllər öz gözəlliyi, xoşagələn ətri, incəliyi və zərifliyi; meyvələr isə zahiri əlaməti və dadı ilə insanların zövqünü

oxşayır[1]. Bitki aləminin belə xüsusiyyətlərini ifadə edən ümumişlək sözlər şəxs adı kimi də diqqəti cəlb edir. Sovet dövrünə qədərki adlar sistemində bu tipli şəxs adlarına az-çox təsadüf olunsa da, əsasən son dövrlər belə adlar daha geniş yayılmış və təkcə Azərbaycan antroponimik sistemində deyil, digər qrup türk dillərində də fəal işlənmə imkanı qazanmışdır.

Azərbaycan dilində ümumişlək söz olan *gül* sözü müxtəlif şəxs adlarının düzəldilməsində fəal iştirak edir. Söz başqırd dilində *qol*[2], qaraqalpaq dilində *qul*[3], qazax dilində *jarıq*[4] formalarında olmaqla, şəxs adı düzəldilməsi işinə geniş xidmət edir. Azərbaycan dilində – *Gül, Güllü, Güllər, Gülü; başqırd* dilində – *Qoler, Qolar,* qaraqalpaq dilində – *Qulayım, Qulbazar, Qulbiybi, Quljan, Ayqul,* qazax dilində – *Xarıqım* və s. Göründüyü kimi, *gül* sözü türk dillərində «daha çox qadın şəxs adları»[5] düzəldilməsinə xidmət edir. Azərbaycan dilində *gül* əsaslı kişi adları tarixən inqilabaqədərki antroponimik sistemə daxil olan vahidlərdir: *Gülmirzə, Gülhüseyn, Gülalı, Gülayət, Gülağa* və s. Bu cür antroponimik vahidlər hələ də Azərbaycan dilində mövcuddur.

Gül komponentli adlarda həmin söz mürəkkəb komponentin həm birinci, həm də ikinci tərəfi yerində fəal şəkildə işlədilir. Sovet dövrü Azərbaycan antroponimik

---

[1] *Bax:* M.N.Çobanov. Azərbaycan antroponimiyasının əsasları, Tbilisi 1983, səh. 21.

[2] В.А.Никонов. Башкиры. В кн.: Системы личных имен у народов мира, М., 1986, стр. 72

[3] В.С.Насиров, Л.С.Толстова. Каракалпаки. В кн: Системы личных имен у народов мира. М., 1986, стр. 154

[4] Т. Жанузаков. Казахи. В кн: Системы личных имен у народов мира. М., стр. 198.

[5] А. Гафаров. Имя и история. М., 1987, стр. 34.

sistemini bəzəyən *Gülçöhrə, Gülçiçək, Gülyaz, Güldəstə, Gülcahan, Gülbahar, Gülçin* və s. müvəffəqiyyətlə istifadə edilən qadın şəxs adlarıdır. Bu adların bir hissəsi tatar antroponimiyasında da Oktyabr inqilabından sonra yaranan vahidlər kimi xarakterizə edilir: *Qulçiçək, Qulşan* və s.[1]

Gül komponenti antroponimik vahidin ikinci tərəfi kimi çıxış edən *Təzəgül, Xoşgül, Yazgül, Aygül, Qızılgül* və s. şəxs adları da tarixən qədim olmayıb, sovet dövrü Azərbaycan ədəbi dili ilə bağlıdır.

d) *Kosmonimlər əsasında zənginləşmə.* Kosmonimlərdən də antroponimlər törəmiş və azərbaycanlılar arasında geniş yayılmışdır[2]. Tarixin bütün dövrlərində fəza cisimləri insanın diqqətini cəlb etmiş, bu əlçatmaz aləmin sirli dünyası insan adına çevrilərək əbədiləşmişdir. Belə addüzəltmə sovet dövründə daha da genişlənmişdir. Müasir dövrdə tez-tez işlədilən *Aygün, Ayulduz, Aysu, Aynaz, Günay, Güntac, Gülay, Aynur, Aynurə, Aypara, Ayqız, Aytac, Aytən, Aysel* kimi qadın adları son dövrlərin məhsulu hesab edilə bilər.

e) *Müxtəlif mənbələrdən gələn adlar hesabına zənginləşmə.* Müxtəlif nağıl və dastanlarda, bədii əsərlərdə təsadüf edilən surətlərin adları da kütləviləşdikləri halda şəxs adlarına çevrilmişdir[3] və indi də dilimizin antroponimik sistemində əsas yerlərdən birini tutur. Məsələn: C. Cabbarlının yaratdığı *Aqşin, Solmaz, Elxan, Qorxmaz, Dönməz, Toğrul, Gülgün, Altay, Sönməz* və s. kimi şəxs

---

[1] Г. Ф. Саттаров. Татары. В кн.: Системы личных имен у народов мира. М, 1986, стр. 301.

[2] *Bax:* M.Çobanov. Azərbaycan antroponimiyasının əsasları, Tbilisi, 1983, səh. 26.

[3] Z.İ.Budaqova. Antroponimlərin növləri və mənbələri. «Azərbaycan onomastikası problemlərinə dair konfransın materialları», Bakı, 1986, səh. 11.

adları ölkəmizdə geniş yayılmışdır. Bədii əsərlərin dilində işlədilən bu cür şəxs adları öz işləkliyi etibarilə nağıl və dastanlardakı adlardan ciddi şəkildə fərqlənir. Bu adlardan daha intensiv istifadə edilir. Nağıl və dastanlardakı adlardan istifadə belə bir tezliyə malik deyil. Bunlar göstərir ki, sovet dövrü Azərbaycan ədəbi dilinin şəxs adları hesabına zənginləşməsində bədii əsərlərin də mühüm rolu olmuşdur.

ə) *Bəşəri ideyalar bildirən sözlərlə zənginləşmə.* Son dövrlər Azərbaycan antroponimik sistemində tez-tez işlədilən şəxs adlarının bir qismini bəşəri ideyalar ifadə edən adlar kimi sistemləşdirmək olar. Belə adlardan *Bəşər, Tale, Eldar, Eldaş, Elşən, Elnur, Elnar, Elnarə* və s. göstərmək olar. Xüsusilə 1960-1975-ci illərdə *Elşən, Elnur, Elnar, Elnarə* şəxs adları daha çox kütləviləşmişdir.

Onu da qeyd edək ki, verilən yeni adlar içərisində mücərrədlik bildirənlərə maraq daha çox artmış, *Cürət, Şücaət, Malik, Şövqi, Adil, Aqil, Nəcib, Adilə, Vəfa* və s. adlar daha geniş şəkildə məişətimizə daxil olmuşdur.

2. *Toponimik sistemin zənginləşməsi.* Qeyd etdiyimiz kimi, dilimizin onomastik sistemi leksik və semantik cəhətdən sabit qalmayıb, daim müəyyən dəyişikliyə uğrayır. Onomastik vahidlərin birinin digərini əvəz etməsi, yeninin köhnəni sıradan çıxarması prosesinə məruz qalır[1]. Bu proses daha çox toponimik adlarda müşahidə olunur. Belə ki, vaxtilə verilmiş ad – onomastik vahid öz səs tərkibinə, mənasına görə müasir tələblər baxımından yararsız hesab edilir və yenisi ilə əvəz edilir. Yeni adın verilməsi isə kortəbii xarakter daşımayıb, elmi cəhətdən əsaslandırılır və xüsusi qərarla həyata keçirilir. Belə qərarlar əsasında verilən yeni ad dildə mövcud olan hər

[1] A.Qurbanov. Azərbaycan onomalogiyası məsələləri, Bakı, 1986, səh. 4.

hansı sözün yeni məna kəsb etməsindən başqa bir şey deyildir və ədəbi dilin zənginləşməsi prosesində müəyyən əhəmiyyət kəsb edir.

Göstərilən qrup onomastik vahidlər mənası aydın, dilin fonetik qayda-qanunlarına tabe olan sözlərdir. Onu da qeyd edək ki, bu adların ümumi adlarla heç bir məna əlaqəsi yoxdur. Onlar ümumi sözdən hazır şəkildə xüsusi ada – onomastik vahidə çevrilir.

1. *Xüsusi fərmanla dəyişdirilmiş adlar.* Xüsusi formanla dəyişdirilmiş ən başlıca adlar, yuxarıda qeyd etdiyimiz kimi, Azərbaycan dilində tam anlaşıqlı olmayan, mənası qeyri-dəqiq və digər dillərdə olan sözlərdir.

a) Vaxtilə rus dilində olan *Pervoe maya* (İmişli), *Zubovka* (Əli Bayramlı), *Petropavlovka* (Sabirabad), *Annino* (Şamxor) kimi oykonimlər müvafiq olaraq *Bir May, Əli Bayramlı, Sabirabad və Şamxor* kimi onomastik vahidlərlə əvəz edilmiş və həm məna, həm də səs tərkibi cəhətdən bir növ «şəffaf» sözlər kimi bu sonrakılar ön plana çəkilmişdir.

b) Azərbaycanda Avropa mənşəli onomastik vahidlər say etibarilə azlıq təşkil edir. Bunların əksəriyyəti əsli almanca olan sözlərdən ibarətdir: *Traubenfeld* (Tovuz), *Qrünfeld* (Qazax), *Leninfeld* (Şamxor), *Yelenindorf* (Xanlar). Qeyd olunan onomastik vahidlər müvafiq olaraq *Yenikənd, Kalininkənd, Lenin* və *Xanlar* onomastik vahidləri ilə əvəz edilmişdir.

c) Ərəb və fars mənşəli olub, dəyişdirilmiş və yeniləşdirilmiş onomastik vahidlər say etibarilə azlıq təşkil edir: *Dəstəfur, Pirçivan, Vərkədüz, Zuvant* onomastik vahidləri müvafiq olaraq: *Daşkəsən, Zəngilan, Yardımlı, Lerik* sözlərilə əvəz edilmişdir.

Misallardan göründüyü kimi, bir çox onomastik

vahidlərin yenisi ilə əvəz edilməsi onomastik leksikanın daha da zənginləşməsinə və məna cəhətdən dolğunlaşmasına kömək edən əsas vasitələrdəndir. Ümumiyyətlə, toponimlər sahəsində yenidən adlandırma müəyyən məna əsasında baş verdiyindən leksik yolla söz yaratmanın məhsuldarlığından söhbət açmaq lüzumsuz olardı.

ç) Xüsusi fərmanla təsis olunmuş adlar. Azərbaycanın zəngin toponimlər sisteminin ayrılmaz hissəsi olan sovet dövrü onomastik vahidlərinin bir qismi memorial səciyyəlidir. Bunlar antroponim əsaslı olub, yer adı kimi tamamilə başqa məna kəsb etməklə leksik-semantik cəhətdən xüsusiləşmişdir. Bu cür adlar xronoloji cəhətdən sovet dövrü ilə səsləşir, kortəbii və təsadüfi adlandırmadan fərqli olaraq, tarixi şəxsiyyətlərin adının əbədiləşdirilməsinə xidmət edir və xüsusi qərarla təsis olunur. Bu adlar mənsub olduğu xalqın dili, mədəniyyəti, tarixi ilə sıx bağlı olur və həmin xalqın dilinin xüsusiyyətləri əsasında formalaşır.

Buraya proletariatın dahi rəhbərləri K.Marksın, F. Engelsin, V.İ.Leninin, başqa görkəmli inqilabçı-demokratların, alimlərin, şair və yazıçıların, bəstəkarların adı ilə bağlı olan onomastik vahidlər daxildir: *Cəlilabad* (şəhər), *Füzuli* (şəhər), *Üzeyirkənd* (kənd), *Cəfərabad* (kənd), *Qasım İsmayılov* (rayon), *Sabirabad* (şəhər) və s.

Sovet dövrü onomastik vahidlərinin bir qismi təbii şərait və təbii sərvətlərlə bağlı olaraq yaradılmışdır. Məsələn, *Daşkəsən* şəhərinin adı burada gedən dağ-mədən işləri, filizçıxarma ilə bağlıdır. Şəhərin *Rudnik* qəsəbəsi mis çıxaranların yaşadığı ərazinin adını bildirir. Söz rus dilindəki «ruda» – filiz sözü ilə əlaqədardır.

Filizçay Balakən rayonu ərazisində filizçıxarma ilə bağlı onomastik vahid kimi formalaşmışdır. *Palmetkənd*

Şəki rayonunda son dövrlərdə salınmış kəndin adıdır. Palmet üsulu ilə bağlar salınması *Palmetkənd* onomastik vahidinin əmələ gəlməsinə səbəb olmuşdur.

Xalqın azadlığı uğrunda mübarizə aparmış qəhrəmanların adı ilə, tarixi gün, inqilabi hadisələrlə, sovet adamlarının əxlaqi keyfiyyətləri, əmək və arzuları, məişət ilə bağlı toponimlər[1] də sovet dövrü onomastik leksikasının müəyyən hissəsini təşkil edir: *Babək* (rayon), *Neftkeçirmə* (qəsəbə) və s.

Göstərilən qrup onomastik vahidlərin bir qismi cəmiyyətin ictimai-siyasi tarixini, ideologiyasını müəyyən edən sözlər hesabına düzələnlərdir. Hər bir ictimai-iqtisadi formasiyanın özünəməxsus yeni onomastik vahidlərinin olması qanunauyğun haldır. Azərbaycanda Sovet hakimiyyətinin qələbəsindən sonra verilən *Qırmızıkənd* (Neftçala), *Şənlik, Şurakənd* (Gədəbəy), *İşıqlı* (Qubadlı), *Yenikənd* (Qusar), *Təzəkənd* (İsmayıllı), *Bir May* (İmişli), *Qırmızı Oktyabr* (İsmayıllı) və s. cəmiyyətin ideologiyasını səciyyələndirən onomastik vahidlərdir.

Aparılan araşdırmalar göstərir ki, Azərbaycan toponimiyasının əsas qatını təşkil edən oykonimlərdən fərqli olaraq, şəhər tipli qəsəbələrin əsas hissəsi sovet dövrü onomastik vahidləri ilə adlandırılmışdır.

Şəhərdaxili prospekt, döngə, meydan, bazar, küçə, bina, qala və s. adları urbonimlər qrupuna daxil olan adlardır.

Urbonimlər də iki qrupa bölünür: a) qodonimlər; b) aqronimlər.

Qodonimlər qrupuna daxil olan küçə, prospekt,

---

[1] M.S.Hüseynova. Müqayisəli toponimikanın aktual məsələləri (Oğuz qrupu türk dillərinin materialları əsasında), «Azərbaycan onomastikası problemlərinə dair konfrans materialları», Bakı, 1986, səh. 171.

döngə, keçid, körpü, yol adlarının xeyli hissəsi əsasən sovet dövrü onomastik vahidləri ilə nişanlanmışdır. Ərazinin tarixi, təbii şəraiti, yerin iqtisadi göstəriciləri və s. ilə ifadə olunan qodonimlər isə daha qədim tarixə malikdir: *Nizami küçəsi, Hüsü Hacıyev küçəsi, Üzeyir Hacıbəyov küçəsi, Xaqani küçəsi, Darvin küçəsi* (Bakı), *Cəlil Məmmədquluzadə küçəsi* (Naxçıvan), *Sabit Rəhman küçəsi* (Şəki), *Kirov prospekt, Nərimanov prospekt, Akademiya döngəsi* (Bakı), *Neftçilər keçidi* (Bakı), *Qaqarin körpüsü* (Bakı) və s. sovet dövrünün məhsuludur.

Aqronimlər qrupuna daxil olan meydan, xüsusi bina, park, bağ adları içərisində də həm qədim, həm də müasir dövrlə səsləşən onomastik vahidlərə təsadüf edilir: *Füzuli bağı* (Şəki), *Vunq Tau meydanı, Dakar meydanı* (Bakı), *Bazar qabağı* (Ağdam), *Nizami parkı* (Bakı), *Təzə bazar* (Bakı) və s. kimi müasir onomastik vahidlərlə yanaşı, *Kömürçü bazarı* (Bakı), *Köhnə bazar* (Şəki), *Xan sarayı* (Şəki), *İsmailiyyə* (Bakı), *Xan qızının evi* (Ağdam), *Nüşabə bazarı* (Bərdə) və s. kimi onomastik vahidlər qədim tariximizin izlərini özündə yaşadır.

Toponimlərin növlərindən biri olan d r a m o n i m l ə r özündə hava, su, yeraltı və yerüstü nəqliyyat yollarının adını birləşdirir. Ümumiyyətlə, göstərilən növlərin meydana gəlməsi elmi-texniki inkişafla bağlı olduğuna görə bu sahə bütövlükdə sovet dövrü onomastik leksikasına aiddir. Məsələn: *Bakı-Krasnovodsk dəniz yolu, Bakı-Moskva hava xətti, Gəncə-Moskva hava xətti, Bakı-Balakən dəmir yolu, Bakı Soveti-Neftçilər metro xətti, 28 Aprel-Memar Əcəmi metro xətti* və s.

Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonrakı dövrdə çəkilən kanallar, yaradılan süni göllər sututarlar da sovet dövrü onomastik leksikasına daxildir.

Respublikamızın ərazisində *Samur-Dəvəçi kanalı, Yuxarı Qarabağ kanalı, Kür-Araz su qovşağı, Arpaçay dəryaçası, Mil-Qarabağ kanalı* və s. sovet dövrü Azərbaycan ədəbi dilinin onomastik vahidlər sistemini zənginləşdirir. Göründüyü kimi, bu tipli hidroobyekt adlarının şəxs, nəsil, tayfa adları ilə heç bir əlaqəsi yoxdur. Onlar əsasən köhnə obyekt adları əsasında və yeni məzmun kəsb etməklə formalaşdırılmışdır. Burada da əsas və aparıcı rol oynayan tərəf hidrotermindir.

Professor A.Qurbanov göstərir ki, hidronimlər yer adlarından seçilir, su obyektlərinin adlarını bildirərək, toponimlərdən fərqli fonetik, leksik semantik, qrammatik və etimoloji xüsusiyyətlərə malik olur. Onları toponimlərdən fərqləndirən mühüm səciyyəvi cəhətlərdən biri bu söz qrupunun dəyişməsi, başqa sözlərlə əvəz edilməməsidir. Hidronimlərdə siyasi-ictimai hadisələrlə bağlı dəyişmə yox dərəcəsindədir.[1]

3. *Ktematonimik sistemin zənginləşməsi.* Ktematonimlərin bütüb növləri Azərbaycan ədəbi dili lüğət tərkibinin zənginləşməsində müəyyən rola malikdir. Müxtəlif sahələrə aid olan maddi-mədəniyyət abidələrinin, xüsusi əşyaların, inzibati idarə təşkilat adlarının əsas daşıyıcısı olan onomastik vahidlər – ktematonimlər daha xırda onomastik vahidlərə – xrematonimlərə, xrononimlərə, erqonimlərə və s. bölünür:

a) Xrematonimlər

1) *Şirniyyat adları:* «Qaranquş» konfeti, «Nağıl» tortu, «Qaymaqlı» peçenyesi və s.

2) *Mebel və mebel dəsti adları:* «Lalə», «Təranə»,

[1] *Bax:* A.M.Qurbanov. Azərbaycan onomastikası, Bakı, 1986, səh. 71.

«Sevil», «Aygün», «Gülüstan» və s.

3) *Soyuducu adları:* «Çinar», «Abşeron», «Xəzər» və s.

4) *Parça adları:* «Təranə», «Firuzə», «Nəsimi», «İradə» və s.

5) *Sabun adları:* «Leyli», «Güllü», «Çiyələk» və s.

6) *Mineral su adları:* «İstisu», «Badamlı», «Sirab», «Vayxır», «Turşsu» və s.

7) *Radioqəbuledici adları:* «Qaya», «Xəzər» və s.

8) *Daş-qaş və bəzək şeyləri adları:* «Badamı sırğa», «Tor sırğa», «Zənbil sırğa», «Paxlava üzük», «Təkqaş üzük», «Üçqaş üzük», «Sfetofor üzük», «Yarpaq üzük», «Sünbül bilərzik», «Tor bilərzik», «Gül bilərzik», «Halqa bilərzik», «Qızıl bilərzik», «Gümüş bilərzik» və s.

9) *Nəqliyyat adları:* a) Su nəqliyyatı adları: «Həzi Aslanov gəmisi», «Şirvani» üzən bazası, «Məşədi Əzizbəyov» tankeri və s.; b) Quru nəqliyyatı adları: «LAZ-4 avtobusu», «KİR AZ» maşını; c) hava nəqliyyatı adları: «TU-134» təyyarəsi, «AN-24» təyyarəsi, «YAK-40» təyyarəsi və s.

b) Xrononimlər

İsimlərin iştirakı ilə düzələn xrononimlər mütləq «günü», «bayramı» izahedici sözlərlə özündə əks etdirir. Məsələn, *Bilik günü* – hər il sentyabrın 1-də SSRİ-də «Bilik günü» qeyd edilir. Bu gün məktəblərdə və digər tədris müəssisələrində elmin, biliyin təbliği günü kimi səciyyəvidir.

Bahar bayramı – təbiətin oyanma, yeni mövsümün başlanması günüdür.

Məhsul bayramı – son dövrlər xüsusilə geniş yayıl-

mışdır. Respublikamızın zəhmətkeşləri məhsul yığımından sonra qazandıqları müvəffəqiyyətləri təntənə ilə qeyd edirlər.

Sayların iştirak etdiyi tarixi hadisə və bayram adlarında əlamətdar hadisənin xarakteri öz əksini tapır. Belə ki, *8 Mart Beynəlxalq Qadınlar günü* bütün dünya qadınlarının həmrəyliyi günüdür; *1 May* bayramı bütün dünya zəhmətkeşlərinin beynəlmiləl həmrəyliyi günüdür; *9 May* qələbə günü Sovet dövlətinin faşist Almaniyası üzərində qələbəsi günü kimi əlamətdardır; 7 *oktyabr* müvafiq olaraq Sovet dövlətinin əsas Qanunu olan Konstitusiyanın qəbul olunduğu gündür; *28 Aprel* Azərbaycanda Sovet hakimiyyətinin qurulduğu gün kimi əlamətdardır və s.

Yuxarıda qeyd edildiyi kimi, hər bir tarixi hadisənin, əlamətdar günün adında həmin hadisənin mahiyyəti öz əksini tapır.

c) İdeonimlər

Sovet dövrü Azərbaycan ədəbi dilinin zənginləşməsində elm, mədəniyyət və ədəbiyyatla bağlı əsərlərin və eləcə də digər materialların, nəşriyyat, mətbuat və s. adını bildirən onomastik vahidlərin də mühüm əhəmiyyəti vardır.

1. *Mətbəə və nəşriyyat adları.* Nəşriyyatlara adlar əsasən işin profilinə uyğun verilmişdir. Məsələn, *«Elm» nəşriyyatı* elmi kitablar və jurnallar çap edir. *«Maarif» nəşriyyatı* ali və orta ixtisas məktəbləri və eləcə də xalq maarifi, ümumtəhsil məktəbləri üçün vəsait çap edir. *«İşıq» nəşriyyatı* daha çox musiqi ədəbiyyatı, rəngli və iriformatlı kitabların nəşri ilə məşğuldur. *«Yazıçı»* və *«Gənclik» nəşriy-*

yatları isə geniş oxucu kütləsi üçün bədii kitablar nəşr edir.

Mətbəə və nəşriyyat adları içərisində təkcə Azərbaycan Dövlət Nəşriyyatının adı qısaldılmış formada – *«Azərnəşr»* kimi qeyd edilir.

2. *Qəzet adları.* Azərbaycan dilinin öz qanunları əsasında yaranmış qəzet adları da mətbəə və nəşriyyat adları kimi, profilə uyğun formalaşdırılmışdır. Məsələn, *«Şəki fəhləsi»* qəzetinin adı şəhərin sənaye cəhətdən daha çox inkişafı ilə bağlıdır. *«Elm»* qəzeti Azərbaycan SSR EA-nın orqanı olub, elmi idarənin gündəlik qayğılarından söhbət açır.

«Kommunist» (Azərbaycan, rus, erməni dillərində), *«Azərbaycan gəncləri», «Bakı»* qəzetləri respublikanın ictimai və təsərrüfat həyatından bəhs etdikləri halda, *«Sovet kəndi», «Azərbaycan müəllimi», «Ədəbiyyat və incəsənət»* qəzetləri bir qədər professional çərçivədə fəaliyyət dairəsinə malikdir.

3. *Jurnal və məcmuə adları.* Sovet dövrü Azərbaycan ədəbi dilinin zənginləşməsində müxtəlif profilli jurnal və məcmuə adları da müəyyən əhəmiyyətə malikdir.

Azərb. SSR EA-nın fəaliyyəti ilə bağlı olan «Elm» nəşriyyatı xətti ilə buraxılan bütün jurnallar buraya daxildir. Elmlər Akademiyasının bölmələrinin orqanı olan *«Azərb. SSR EA Xəbərləri»nin dil, ədəbiyyat və incəsənət seriyası, dəqiq elmlər seriyası, «Советская тюркология», «Əlyazmalar xəzinəsi», «Azərbaycan etnoqrafiya məcmuəsi» «Azərbaycan kommunisti», «Təbliğatçı», «Müxbir», «Azərbaycan», «Ulduz», «Gənclik», «Kirpi»* və s. sovet dövrü mətbuat orqanlarıdır.

4. *Bədii, tarixi və elmi əsər adları.* Sovet dövrü Azərbaycan ədəbi dilinin zənginləşməsində bədii, tarixi və elmi əsərlərin adları onomastik leksikanın kəmiyyətcə ən

zəngin hissəsini təşkil edir. Buraya nəzm, nəsr, dram əsərləri, inqilaba qədərki və sonrakı dövrləri əhatə edən tarixi əsərlər, dil, ədəbiyyat, tarix, riyaziyyat, fizika, kimya və s. sahələrdəki tədqiqat əsərlərinin adları və s. daxildir.

1) *Bədii əsər adları.* Bədii əsərlər, əsasən, tərənnüm etdikləri dövrün ictimai və siyasi hadisələrini öz adlarında qismən ifadə edirlər. Onlara ad vermək yaradıcılıq prosesində mühüm amillərdəndir. M.Hüseynin *«Abşeron», «Qara daşlar»,* M.İbrahimovun *«Böyük dayaq»,* N.Xəzrinin *«Günəşin bacısı», «Sumqayıt səhifələri»,* S.Vurğunun *«Bəsti», «Muğan»,* Ə.Vəliyevin *«Turaclıya gedən yol»,* M.Süleymanovun *«Dalğalar qoynunda»* və s.

2) *Elmi əsər adları.* Yuxarıda qeyd etdiyimiz kimi, elmi əsərlər müəyyən sahə ilə bağlı uzun müddətli axtarışların nəticəsidir. Ş.Salmanovun *«Poeziya və tənqid»,* X.Məmmədovun *«Əkinçi»dən «Molla Nəsrəddinə» qədər»,* N. Nəcəfovun *«Salman Mümtazın ədəbi və elmi fəaliyyəti»,* Ə. Məftunun *«Məmməd Səid Ordubadi»,* Y.Qarayevin *«Ədəbi üfüqlər»,* Q.Kazımovun *«Bədii ədəbiyyatda komizm üsulları»,* M.Şirəliyevin *«Azərbaycan dialektologiyası»,* Z. Budaqovanın *«Müasir Azərbaycan dili»,* A.Qurbanovun *«Azərbaycan onomastikası»,* M.İslamovun *«Azərbaycan dilinin Şəki dialekti»,* C.Qəhrəmanovun *«Nəsimi divanının leksikası»* və s. Bütün başqa elm sahələri üzrə də külli miqdarda belə nümunələr göstərmək olar.

Öz rəngarəngliyi, səciyyəvi leksik, semantik, qrammatik, orfoqrafik, orfoepik xüsusiyyətləri ilə seçilən Azərbaycan dili onomastik leksikasında musiqi əsərlərinin adları tədqiqat üçün yaxşı mövzu kimi diqqəti cəlb edir və bu adların etimoloji cəhətdən izahı dil tarixi ilə bağlı bir çox məsələlərin həllində mühüm əhəmiyyət kəsb edə bilər.

Azərbaycan kinosu da Sovet hakimiyyəti illərində

surətlə inkişaf etmiş və dilimizin onomastik tərkibinə bir sıra xüsusi adlar vermişdir: *«Qızmar günəş altında», «Əhməd haradadır?», «Onu bağışlamaq olarmı?», «Bir qalanın sirri», «Sehrli xalat», «Bəyin oğurlanması», «Arxadan vurulan zərbə», «Axırıncı aşırım», «Yeddi oğul istərəm»* və s.

Respublika televiziyası da xalqın ictimai-siyasi və elmi-mədəni inkişafında, kütlələrin kommunist tərbiyəsində fəal iştirak edir və müxtəlif məzmunlu çoxlu siyasi, elmi-kütləvi və kütləvi verilişlər hazırlayıb tamaşaçılara təqdim edir. Belə verilişlərin adı da onomastik vahidlər hesab edilir: *«Aygün», «İdrak», «Azərbaycan dili», «Sağlamlıq», «Dünyaya pəncərə», «Yada düşər xatirələr», «Tanış səslər, tanış üzlər», «Ordan-burdan», «Arzular»* və s.

Müəssisə, təşkilat, idarə, ictimai-mədəni obyekt və s. adları da onomastik vahidlərdir və ədəbi dilin zəngin-əşməsi prosesinin mühüm tərkib hissəsi kimi diqqəti cəlb edir. A. Qurbanovun göstərdiyi kimi, bu cür adlar istər yaranma tarixinə, istərsə də yaranma yolları və priniplərinə görə olduqca müxtəliflik təşkil edir[1].

Müəssisə, təşkilat, idarə adları xüsusi fərmanla verilən adlardır və rəsmi surətdə elan edilir. Buna görə də belə adların verilməsində dilimizin leksik vahidlərindən dəqiq istifadə edilir. Quruluşu etibarilə belə onomastik vahidlər mürəkkəb olub, sonunda «idarə», «nazirlik», «komitə», «zavod», «fabrik», «müəssisə» və s. sözləri oriyentir vəzifəsində özünü göstərir. Məsələn, *Azərbaycan SSR Elmlər Akademiyasının Dilçilik İnstitutu, Lenin Rayon Partiya Komitəsi, Bakı Baş Tikinti İdarəsi, Baş Kartoqrafiya və Geodeziya İdarəsi, Respublika Yerli Sənaye Naziriyi, Azərbaycan SSR Baş Qoruqlar İdarəsi,*

[1] A. Qurbanov. Azərbaycan onomastikası, Bakı, 1986, səh. 110.

Pambıqçılıq İdarəsi, Makaron fabriki, Bakı Radio zavodu, Azərbaycan Statistika İdarəsi və s. Çox zaman şifahi danışıqda bu onomastik vahidlər abreviaturlaşır. Daha çox rus dili vasitəsi ilə abreviaturlaşma qeydə alınır. Bu isə həmin onomastik vahidlərin ilk dəfə rus dilində təşəkkülü ilə bağlıdır. Məsələn, *Ali və Orta İxtisas Təhsili Nazirliyi – Мин.ВУЗ, Bakı Baş Tikinti İdarəsi – Главбакстрой, Azərbaycan Statistika İdarəsi – Статуправление* və s.

Göründüyü kimi, sovet dövründə Azərbaycan onomastikasının zənginləşməsi ümumən lüğət tərkibinin. zənginləşməsi, leksik normanın inkişafı ilə bilavasitə bağlıdır. Bu bağlılıq onomastik sistemin zənginləşməsindən həmin kontekst daxilində və onun inkişaf qanunlarına müvafiq olaraq danışmağı zəruri edir. Şübhəsiz, Azərbaycan onomastikasının inkişafı alınmalar hesabına da gedir, lakin məsələ burasındadır ki, daxili imkanların rolu əsas və aparıcıdır.

IV FƏSİL

ƏDƏBİ DİLİN LÜĞƏT TƏRKİBİNİN ALINMALAR HESABINA ZƏNGİNLƏŞMƏSİ

Sovet dövründə Azərbaycan ədəbi dilinin beynəlxalq əlaqələrinin yeni sistemi sabitləşir, həmin sabitləşmə prosesinin özü də, sabit vəziyyət də sovet dövrü kontekstində faktlaşır; ərəb, fars, türk dilləri ilə kontaktlar kəsilir, əvəzində isə bütövlükdə Avropa mədəniyyəti ilə bilavasitə əlaqəli olan rus dili fəallaşır və nəticə etibarilə demək olar ki, Azərbaycan dilinin başqa dillərlə əlaqəsində əsas, çox zaman isə yeganə vasitəyə çevrilir.

Müxtəlif mədəniyyətlərin qarşılıqlı əlaqələrinin sıxlaşması, ictimai həyatın sürəkliliyi – bütün bunların hamısı Şərq və Qərb xalqlarının yaxınlaşmasına, ümumdünya mədəniyyətinin nailiyyətlərindən faydalanmaq imknının yaranmasına gətirib çıxarır. Ona görə də lüğət tərkibinin müxtəlif sahələrində alınmalara ehtiyac əmələ gəlir.

XX əsr tarixə – cəmiyyət salnaməsinə silinməz izlər buraxan bir dövr kimi daxil olmuşdur. Zəngin ictimai-siyasi hadisələr dövrü kimi səciyyələnən XX əsrin ən əlamətdar hadisəsi Böyük Oktyabr sosialist inqilabının qələbəsidir. Cəmiyyət həyatının bütün guşələrinə nüfuz edib, işıqlı sabaha, aydın gələcəyə yol açan bu inqilab sosial-ictimai münasibətlərdə, iqtisadi sahədə əsaslı dönüşə istiqamət verdi.

Böyük Oktyabr sosialist inqilabının qələbəsindən dərhal sonra milli məsələyə dair V.İ.Lenin tərəfindən işlənmiş proqram real şəkildə həyata keçirilməyə başlandı.

Çox hissəsi savadsız, ədəbi dildən məhrum olan 130-dan çox millətin mədəni geriliyinin aradan qaldırılması yolunda nəhəng və uğurlu addımlar atıldı. Millətlərin müstəqilliyi ilə yanaşı, birgə fəaliyyətinin möhkəmlənməsi üçün geniş və perspektiv imkanlar yaradıldı.

K.Marks yazırdı ki, hər bir millət başqalarından öyrənə bilər və öyrənməlidir[1]. Bəşəriyyətin ən qədim dövrlərindən mövcud olmuş bu qanunauyğunluq sovet hakimiyyəti, sosializm quruculuğu dövründə daha aydın və möhkəm şəkildə özünü göstərməyə başladı. Monolit sovet xalqları ailəsi tərkibində iqtisadi və mədəni gerilik aradan qaldırıldıqca millətlərin bir-birinə yaxınlaşması və bir-biri ilə ünsiyyəti daha geniş miqyas aldı. İndi elmi-texniki tərəqqinin vüsəti SSRİ ərazisinin hər yerində bütün millətlər üçün, demək olar ki, eynidir. Daha doğrusu, hər hansı elmi-texniki nailiyyət dar milli çərçivədə qalmayıb, sovet xalqlarının malına çevrilir. Sosial-ictimai və iqtisadi sahədəki bu irəliləyiş ilk növbədə mühüm ictimai hadisə olan dildə öz əksini tapır.

Sovet milli siyasətinin mühüm tərkib hissələrindən biri milli dillərin müstəqilliyini qorumaq, onların inkişafını təmin etmək və onlara hörmətlə yanaşmaqdır. Sov.İKP-nin Proqramında bu məsələ xüsusi şəkildə işıqlandırılmışdır: «SSRİ-nin bütün vətəndaşları tərəfindən ana dillərin azad inkişaf etdirilməsi və bu dillərdən bərabər hüquqla istifadə edilməsi bundan sonra da təmin ediləcəkdir»[2]. Bu inkişaf qonşuluq şəraitində yaşayan xalqların dillərinin qarşılıqlı təsirini, birinin digərini zənginləşdirmə imkanını da təmin etmiş olur.

Müasir dövrdə dillərin bir-birinə qarşılıqlı təsiri və

---

[1] *Bax:* K. Marks. Kapital, I t., Qospolitizdat, 1955, səh. 7.
[2] Sov.İKP Proqramı, Yeni redaksiya, Azərnəşr, 1985, səh. 52.

alınmalar ictimai həyatda mühüm rol oynayır və hətta qəti şəkildə demək olar ki, bu, qanunauyğun bir haldır. V. N. Yartseva haqlı olaraq yazır ki, «çox nadir, müstəsna hallar nəzərə alınmazsa, heç bir dil başqa dillərlə əlaqədən kənarda qala bilməz»[1]. Ən qədim dövrlərdən özünü göstərən bu proses müasir dövrdə millətlərarası əlaqələrin, ünsiyyət əlaqələrinin daha da genişləndiyi və möhkəmləndiyi bir vaxtda daha da sürətlənmişdir. «Sözlərin alınması dillər və mədəniyyətlər arasında qarşılıqlı əlaqələrin, ümumi məziyyətlər yaradılmasının ən parlaq nümunələrindən biridir. Keçmişdə Avropada bu rolu latın və yunan, sonralar isə fransız və alman dilləri oynamışdır. Hazırda belə bir rolu hər şeydən əvvəl ingilis və rus dilləri oynayır. Rus dili sovetizmlərin və beynəlxalq sözlərin vasitəçisi və yayıcısı rolunu oynayır, ölkəmizdə bütün xalqların dillərinin lüğət tərkibinin zənginləşməsinə təkan verir»[2]. Alınmaların bu cür vüsəti bir tərəfdən, mənbə dillərin zənginliyi, ifadə imkanlarının genişliyi ilə bağlıdırsa, digər tərəfdən, sıx qarşılıqlı əlaqələrlə şərtlənir. Bu qarşılıqlı əlaqələr müasir dövrümüzdə bilavasitə ekstralinqvistik faktorlarla bağlandığı üçün daha intensivdir. Qarşılıqlı əlaqələr dilə, xüsusilə onun lüğət tərkibinə ciddi təsir edir, onun beynəlmiləl səciyyə daşımasına güclü təkan verir. Başqa şəkildə desək, «yaxınlıq hər şeydən əvvəl özünü lüğət tərkibində göstərir. Artıq Sovet hakimiyyəti illərində SSRİ xalqlarının hamısının ədəbi dillərində ümumi leksik fond yaranmışdır»[3].

Bütün bunlar millətlərin və dillərin sürətlə yaxınlaş-

---

[1] В.Н.Ярцева. Развитие национального литературного английского языка, М., 1969, стр. 48.
[2] В.И.Кодухов. Введение в языкознание, М., 1979, стр. 222
[3] А.Т.Базиев, М.И.Исаев. Язык и нация, М., 1973, стр. 162.

dığı və qarşılıqlı münasibətlərin gücləndiyi indiki dövrdə dillər arasındakı əlaqələrin, alınmaların tədqiqi və araşdırılmasını, bu sahədə əsas qanunauyğunluqların müəyyənləşdirilməsini aktual məsələlər sırasına çıxarır. Bu həm dili zənginləşdirən yollardan biri kimi maraq kəsb edir, həm də ümumiyyətlə, xalqların əlaqə və təsir dairəsini göstərir. Belə ki, alınma bir xalqın başqa xalqdan nəyi öyrəndiyini bildirir. Hələ keçən əsrdə dillərin qarşılıqlı əlaqə və təsirini ən aktual məsələ hesab edən H. Şuxardt o qənaətdə idi ki, bu əlaqə və təsir problemi daha ətraflı və tam şəkildə tədqiq olunmalıdır[1].

Sovet dövrü Azərbaycan ədəbi dilinin lüğət tərkibi mənşə baxımından əsasən aşağıdakı qatlardan ibarətdir:



Qatlar arasında müxtəlif tipli əlaqələr var; ərəb-fars qatı rus-Avropa qatı ilə (III əlaqə) ancaq Azərbaycan (türk) qatı vasitəsilə əlaqədədir və tarixi inkişaf prosesində bu qatlardan biri digərini sıxışdırır (xüsusilə 40-cı illərin sonu, 50-ci illərin əvvəllərinə qədər bu proses daha intensiv gedir, sonra müəyyən stabillik var); Azərbaycan (türk) qatının ərəb-fars qatına münasibətində (II əlaqə) bu cür stabillik yaranmışdır, rus-Avropa qatı (III əlaqə) barəsində

[1] *Bax:* Г. Шухардт. Избранные статьи по языкознанию, М., 1950, стр. 175.

isə bunu demək olmaz, çünki burada dinamizm hələ davam edir. Beləliklə, müxtəlif mənşəli alınmaların Azərbaycan (türk) qatına münasibəti də müxtəlifdir.

Alınma sözlərin struktur-semantik xüsusiyyətləri

Yer üzündə elə dil yoxdur və elə bir dil təsəvvür etmək mümkün deyil ki, başqa dillərlə qarşılıqlı əlaqə və ünsiyyətdə olmasın. Qonşu xalqların qarşılıqlı münasibəti öz əksini bilavasitə dildə tapır. Dillərin qarşılıqlı əlaqə və təsiri dedikdə isə birinci növbədə sözalma, yaxud sözvermə prosesi başa düşülür. B.Y.Çernıx göstərir ki, «dillərin qədimliyini müəyyən dərəcədə təsəvvür etməyə yardım göstərən vasitələrdən biri də bir dilin başqasından aldığı və ya əksinə, başqa bir dilə verdiyi sözlərdir»[1]. Doğrudan da, sıx qonşuluq şəraitində yaşayan xalqların dillərində alınmaların kəmiyyəti onların bu münasibətlərinin tarixini, deməli, müəyyən mənada, dilin özünün tarixini göstərə bilir.

Dildə alınmalar, alınma sözlər mövzusunda çoxlu əsərlər meydana çıxsa da, mövcud prosesin anlaşılmasında, daha doğrusu, prosesin terminoloji ifadəsinə münasibətdə müxtəliflik yenə qalmaqdadır. Hər hansı bir dildə kənar dil ünsürlərinə münasibətdə müxtəlif fikirlər daha çox bu dil elementlərinin adlandırılmasında, habelə alınma söz və kalka, alınma söz və internasionalizm məsələlərində özünü göstərir.

Qeyd etməliyik ki, müəyyən dərəcə yaxın məzmunlu olsalar da, həmin terminlər bir-birindən fərqli anlayışlar

---

[1] Б. Я. Черных. Историческая грамматика русского языка, М., 1952, стр. 62.

ifadə edir. Belə ki, «alınma» termininin özü iki mənadadır. Birinci halda bu termin başqa dildən keçib, daxil olduğu dili zənginləşdirən linqvistik vahid mənasını bildirir. Geniş mənada «alınma» bir dildən başqa dilə sözkeçmə prosesini göstərir. Beləliklə, ikinci mənada bu termin proses, birinci mənada isə bu prosesin nəticəsini bildirir.

«Alınma» və «alınma söz» terminləri eyni anlayışları bildirmir. «Alınma» dedikdə bir dildən başqa dilə keçən bütün linqvistik vahidlər, hər cür dil elementləri başa düşülür, «alınma söz» dedikdə isə yalnız leksik vahidlərin mənimsənilməsi nəzərdə tutulur. Başqa şəkildə desək, «alınma» termini daha geniş anlayışı ifadə edir. «Alınma söz» anlayışının özü də «alınma» termininin ifadə etdiyi mənanın tərkibinə daxildir.

E.M.Axunzyanov bu terminləri müqayisə edərək, onların kəsişən və ayrılan tərəflərini daha düzgün göstərmişdir: «Şübhəsiz, «alınma» termini mənaca «alınma söz» terminindən çox genişdir. «Alınma söz» termini isə «əcnəbi söz» termini ilə eyni mənada işlədilə bilməz»[1]. Deməli, «alınma» ilə «sözalma»nı fərqləndirən müəllif hətta «sözalma» ilə «əcnəbi söz» terminlərinin də eyni olmadığı fikrini müdafiə edir.

A.P.Krısin yazır: ««Alınma»nı müxtəlif elementlərin bir dildən başqa dilə keçməsi prosesi adlandırmaq məqsədəuyğundur. «Müxtəlif elementlər» adı altında dil yaruslarının – fonologiyanın, morfologiyanın, sintaksisin, leksikanın, semantikanın ayrı-ayrı vahidləri nəzərdə tutulur»[2].

---

[1] Э.М.Ахунзьянов. Русские заимствования в татарском; языке, Казань, 1968, стр. 13.

[2] А.П.Крысин. К определению терминов «заимствование» и «заимствованное слово» – сб. «Развитие лексики современного русского

Göründüyü kimi, müəllif «alınma» terminini daha geniş mənada götürür və aydın olur ki, əslində, «alınma söz» məhz «alınma» içərisində öyrənilir, daha doğrusu, yalnız leksik qatdakı «alınma»nın nəticəsi «alınma» deyildir.

Bəzi tədqiqatlar eyni məqsədlə «alınma söz» terminindən istifadə edirsə, bəziləri «əcnəbi söz» terminini işlədir. Halbuki bunlar arasında da eynilik işarəsi qoymaq olmaz.

Məlumdur ki, danışıq dilində, müəyyən üslubi məqsədlərlə bədii əsərlərdə, xüsusilə başqa dilə mənsub müəyyən sözlər işlədilir ki, onların hamısı ədəbi dil normaları üzrə sabitləşmiş olmur. İkinci tərəfdən isə, ədəbi dilin lüğət tərkibinə daxil olub sabitləşmiş sözlər də ilkin mərhələdə məhz bədii ədəbiyyatda, yaxud danışıqda işlədilir. Başqa dillərə məxsus bu qəbil sözlər «əcnəbi sözlər»ə daxildir. «Alınma söz» isə dar və konkret anlayış ifadə edir. Belə ki, bu anlayış altında ədəbi dilimizdə normalaşmış və sabitləşmiş, ədəbi dilin lüğət tərkibinə daxil olmuş sözlər başa düşülür. Bu sözlər artıq hamı tərəfindən anlaşılıb qəbul edilir və ümumxalq xarakteri daşıyır. Bu əsasda «əcnəbi söz» və «alınma söz» terminləri bir-birindən müəyyən dərəcə fərqlənməlidir.

Bəzən «alınma söz» termini daha geniş mənada, daha doğrusu, «əcnəbi söz» mənasında işlədilir. H. Həsənov «Alınma sözlər»dən bəhs edərək onların dörd növünü göstərir: 1) ümumişlək alınmalar; 2) beynəlmiləl alınmalar; 3) ekzotizmlər; 4) varvarizmlər[1].

Azərbaycan dilinin üslubi leksikasına ayrıca monoqrafiya həsr edən, dilimizin bu sahəsini ətraflı şəkildə

языка», М., 1965, стр. 108.

[1] H.H.Həsənov. Müasir Azərbaycan dilinin leksikası, Bakı, 1978, səh. 23.

tədqiq edən T.Əfəndiyeva həmin məsələdən danışarkən, düzgün olaraq, «alınma söz» və «əcnəbi söz» terminlərini fərqləndirir. Müəllif yazır: «… «alınma» deyəndə, bu məfhum altında artıq dilimizin təbiətinə tam uyğunlaşmış, xəlqiləşmiş leksik vahidlər nəzərdə tutulur. «Əcnəbi» termini isə «alınma»ya nisbətən daha geniş mənaya malikdir: onun vasitəsilə həm assimilyasiya olunmuş, həm də hələ bu prosesi keçirməmiş, lakin şifahi nitqdə və bədii dildə üslubi zəruriyyətlə əlaqədar istifadə edilən xarici dil ünsürlərini birləşdirmək mümkün olur»[1]. Buna görə müəllif «alınma sözlər»i də «əcnəbi sözlər» içərisində tədqiq edir. Bunu sonrakı qruplaşdırmadan da aydın şəkildə görmək olur. Belə ki, müəllif başqa dillərə məxsus sözlərin alındığı dildə mənimsənilmə dərəcəsini, ümumxalq xarakterinə malik olub-olmaması keyfiyyətini əsas meyar götürərək, başqa dillərə məxsus sözləri «əcnəbi söz» adlandıraraq, onları iki qrupda birləşdirir: 1. Azərbaycan dilinin lüğət tərkibinə daxil olmuş və ümumxalq xarakteri daşıyan əcnəbi sözlər; 2. Ümumxalq xarakteri daşımayan və istifadəsi üslubi məqsədlə bədii dildə mümkün olan əcnəbi sözlər[2].

Oktyabr inqilabının qələbəsindən sonra beynəlxalq münasibətlərdə olan dəyişikliklər milli dillərdə öz əksini tapmağa başladı. Bu cəhətdən beynəlxalq sözlərin yayılma intensivliyi xüsusi əhəmiyyət kəsb edir.

Başqa dillərə məxsus leksik vahidlərdən bəhs edilən yazılarda beynəlxalq sözlərə münasibətdə də fikir ayrılıqları özünü göstərir. Dilçilikdə geniş yayılmış fikrə görə, beynəlxalq sözlər alınma sözlərin bir qolunu təşkil edir. Lakin xüsusilə son vaxtlar internasionalizmlərin

---

[1] T.Ə.Əfəndiyeva. Azərbaycan dilinin leksik üslubiyyatı, Bakı, 1980, səh. 202.
[2] Yenə orada, səh. 203-205.

alınma sözlər içərisində tədqiq edilməsinə etiraz edənlər meydana çıxmışdır[1]. Y.A.Belçikov rus dilində internasional leksika ilə alınma sözləri müqayisə edərək, onların ümumi və fərqli cəhətlərini göstərir və maraqlı nəticələr çıxarır. Müəllifin fikrinə görə, beynəlxalq sözlərlə alınma sözlər arasında müəyyən yaxınlıq, bəzi hallarda isə hətta eynilik vardır. Bu cəhət beynəlxalq sözlərin çoxunun alınma olmasından irəli gəlir. Lakin bu hal heç də beynəlxalq sözlərlə alınma sözlərin eyniləşdirilməsi üçün əsas vermir. Hər şeydən əvvəl ona görə ki beynəlxalq terminlərin müəyyən qismi alınma deyil, rus dilinin özünə məxsusdur. Elə buradaca V.İ.Leninin xalis rus sözü «sovet» haqqında dediyi fikri xatırlatmaq yerinə düşər. V.İ.Lenin yazırdı ki «Bizim rus sözü olan «sovet» sözü ən çox yayılmış sözlərdən biridir, o hətta başqa dillərə tərcümə olunmur, hər yerdə rusca işlədilir»[2].

Doğrudan da, yalnız «sovet» sözü deyil, onlarca bu qəbil sözlər artıq milli rus çərçivəsindən çıxaraq beynəlxalq mahiyyət qazanmışdır. Düzdür, beynəlxalq sözlərin böyük əksəriyyəti latın və yunan dillərinə məxsusdur. Lakin bu sırada etimoloji cəhətdən rus dilinə mənsub olan sözləri kənar etmək olmaz. Xüsusilə Oktyabr inqilabından sonrakı dövr ərzində «sovetizmlər» adlandırılan bu qəbil beynəlxalq sözlərin əhatə dairəsi daha da genişlənmişdir. «Halhazırda beynəlxalq sözlərin xüsusi bir növündən – «sovetizmlərdən» danışmaq olar… Belə sözlər hər şeydən əvvəl SSRİ xalqlarının dillərində yayılmışdır»[3]. Bu, sözlər

---

[1] *Bax:* Ю.А.Бельчиков. Интернациональная терминология в русском языке, М., 1959, стр. 69.

[2] V.İ.Lenin. Əsərləri, 40-cı cild, Azərnəşr, Bakı, 1983, səh. 221.

[3] Ю.А.Бельчиков. Интернациональная терминология в русском языке, М., 1959, стр. 70.

rus dili üçün alınma hesab edilə bilməz.

Digər tərəfdən, alınma sözlər qohum dillərdən də keçə bildiyi halda, bu meyarı beynəlxalq sözlərə tətbiq etmək olmur. Belə ki, «elə sözləri beynəlxalq sözlər hesab etmək olar ki, onların mənşəyi ümumi olsun, qrafik və morfoloji keyfiyyətlərində müvafiq uyğunluq olsun, semantik cəhətdən bir-birinə bu və ya digər dərəcədə yaxın olsun və bir sıra qohum olmayan dillərdə, o cümlədən ən azı iki müxtəlif sistemli dildə işlədilsin»[1]. Doğrudan da, hər hansı sözün bir dildən onunla qohum olan başqa dillərə (bu dillər nə qədər çox olsa belə) keçməsi həmin sözün beynəlxalq səciyyə qazanması demək deyil. Sözün internasional leksikaya daxil olması üçün onun ən azı 2-3 müxtəlif sistemli dildə işlədilməsi vacibdir. Ona görə də Y.A. Belçikov internasional sözlərin alınma sözlər içərisində öyrənilməsi əleyhinə çıxır. Buna baxmayaraq, o, internasional sözlərin mühüm hissəsinin başqa dillərə mənsub olduğunu qeyd edib, onların alınma söz kimi tədqiqinə diqqət yetirir.

Bu məsələyə Azərbaycan dili nöqteyi-nəzərindən yanaşdıqda vəziyyət bir az başqalaşır. Müasir dilimizdə beynəlxalq mahiyyət daşıyan xalis Azərbaycan sözü olmadığı üçün bütün beynəlxalq sözləri biz alınma söz adı altında öyrənirik.

Tədqiqatçıların göstərdiyinə görə, əgər əvvəllər internasional sözlər üçün baza yunan və latın dilləri idisə, indi rus, ingilis, ispan, italyan, alman və fransız dilləri bu sahədə daha aparıcıdır.

Alınma sözlər sahəsində fikir ayrılığı yaradan

---

[1]Н.А.Мамедов. Интернациональные слова европейского происхождения в современном азербайджанском литературном языке, АКД, Баку, 1966, стр. 6.

məsələlərdən biri də kalkalara münasibətdir. Məlumdur ki, fransız dilinə mənsub olan «kalka» sözü «üzünü köçürmək» mənasını ifadə edir. Lakin dilçilikdə «üzünü köçürmək» ifadəsi müxtəlif məqam və məqsədlərlə, müxtəlif məna çalarlarında işlədildiyi üçün «kalka» sözü və onun ifadə etdiyi dil faktına münasibət də başqa-başqadır. Burada nəzəri cəlb edən ilkin cəhət kalkanın alınma söz olub-olmamasıdır.

Əksər tədqiqatçılar kalkaları alınma hesab edir və alınmalardan bəhs edərkən onların bir qolu kimi kalkalardan da söhbət açır, kalkaları leksik alınmaların müxtəlif üsulları kimi izah edirlər[1]. Maraqlıdır ki, dilçilərin bir qrupu yalnız anlayışın, başqa qrupu strukturun, digər qrupu isə həm anlayışın, həm də strukturun alınma olduğunu qeyd edirlər.

Digər qrup dilçilər kalkanın alınma olduğuna etiraz edir və onun daxili imkanlar hesabına yaranan dil vahidləri olduğu fikrini müdafiə edirlər. N.M.Şanski rus dilindəki əcnəbi dil elementləri haqqında məlumat verərkən yazır: «Məsələ burasındadır ki, sözlər və ifadələr həm bütöv, yəni real nominativ vahidlər müəyyən mənaları olan səs kompleksləri kimi həm da onların ayrı-ayrı elementləri (quruluş, məna) şəklində alınır»[2].

Göründüyü kimi, müəllif alınma sözlərlə kalkaların fərqli olduğunu qeyd edir və bunların hər birini ayrıca olaraq xarakterizə edir. Lakin müəllifin ümumi qənaəti belədir ki, alınma sözlər də, kalkalar da kənar dil

---

[1] *Bax:* Ш.Балли. Французская стилистика, М., 1961, стр. 68; М.И.Стеблин-Каменский. История скандинавских языков. М.,-Л, 1953; стр. 281; В.Пизани. Этимология, М., 1956, стр. 67; Л.Хакулинян. Развитие и структура финского языка, II, М., 1965, стр. 52 və s.

[2] Н.М.Шанский. Лексикология современного русского языка, М., 1978, стр. 96.

elementlərinin təsiridir. Birincilərdə bu təsir bilavasitədir, daha doğrusu bilavasitə ya ifadə alınır. İkincilərdə isə bu təsirin xarakteri fərqlidir. Belə ki, anlayış bir dildən başqasına keçdiyi kimi, ifadənin strukturu da bilavasitə onları alan dildə saxlanır. Beləliklə, müəllifin qənaətinə görə, leksik alınmalar bilavasitə alınmalardırsa, leksik kalkalar dolayı təsir nəticəsində yarananlardır.

N.K.Dmitriyev alınmaları və kalkaları bir-birindən fərqləndirərək göstərirdi ki, onlar müxtəlif tətbiq üsullarına malikdir. Belə ki, tək-tək leksik vahidlər alınır, iki və daha artıq sözün birləşməsi isə kalka edilir. Deməli, kalkada söz birləşməsi formasından danışmaq lazım gəlir[1].

Bu sahədə dilçiləri birləşdirən odur ki, anlayış və habelə struktur, model bir dildən başqasına keçir. Hər şeydən əvvəl deyək ki, hər hansı anlayışın bir dildən başqasına keçməsi həmin anlayışı bildirən söz və ifadənin alınma olduğuna əsas vermir. Çünki bu anlayış düzəltmə, mürəkkəb sözlə, yaxud söz birləşməsi ilə ifadə olunduğu kimi, sadə sözlə də ifadə oluna bilər. Digər tərəfdən isə, anlayış xalis milli sözlə ifadə olunduğu kimi, həmin anlayışı bildirən söz və ifadənin özü də bütövlükdə alına bilər.

Strukturun, modelin alınmasına gəldikdə isə, onu xatırlatmağı lazım bilirik ki, dilin sintaktik qatı, quruluşu dəyişmələrə, o cümlədən kənar dil təsirlərinə qarşı çox mühafizəkardır. Sintaktik quruluşun, modelin alınma olması fikri, bizcə, doğru deyildir. Quruluş dilin özününkü olur və ona görə də burada hətta bilavasitə təsirdən belə danışmaq olmaz. Kalka hesab edilən düzəltmə və mürəkkəb sözlərin, habelə müxtəlif tipli söz birləşmələrinin modeli

---

[1] Н.К.Дмитриев. Грамматическая терминология в учебниках родного языка, М., 1955, стр. 106.

əslində dilimizdə qədim dövrlərdən mövcuddur. Bu halda ilkin vaxtda başqa xalqlarda meydana çıxmış anlayışları bildirmək üçün həmin modellərdən istifadə edilməsi onların alınması demək deyildir. Burada yalnız bir məsələdən danışmaq lazım gəlir: başqa xalqda yaranmış hər hansı yeni anlayış digər xalqa keçərkən həmin anlayış sonrakı xalqın dilində ya müstəqil şəkildə yaranır, ya etimon (ilkin formanın mənsub olduğu) dildə həmin anlayışı bildirən söz alınır, ya da stimon dildəki söz və ya ifadə sonrakı dilin materialları ilə və müvafiq modellərdə kalka edilir. Təsadüfi deyil ki, kalkaetmə zamanı bütün hallarda vahid prinsip gözlənmir; bəzən kalka edilən söz birləşməsi, yaxud mürəkkəb söz müvafiq modellərlə deyil, başqa modellərlə verilə bilər. Məsələn, etimon dildəki mürəkkəb söz başqa dildə söz birləşməsi, yaxud əksinə ola bilər və s. Deməli, burada modelin alınmasından deyil, söz və ya ifadənin hər iki dil üçün uyğun gələn müvafiq modellərdə kalkasından bəhs etmək lazımdır.

Kalkalar dilin öz daxili imkanları hesabına (həm söz və şəkilçilər, həm də struktur milli olur) yaransa da, onların meydana çıxması üçün bilavasitə etimon dilin təsiri olur, belə ki, etimon dilin təsiri ilə əvvəla sözün və ya ifadənin bütün komponentləri müvafiq surətdə kalka olunur. Digər tərəfdən isə, bəzi istisnalar nəzərə alınmazsa, struktur eyniliyi saxlanır, daha doğrusu, söz birləşməsi söz birləşməsinə, söz sözə kalka edilir.

Bütün bunlar bir daha göstərir ki, kalkalar söz yaradıcılığının bir forması olub, dilin daxili imkanları hesabına kənar dil elementlərinin təsiri ilə yaranan dil vahidləridir.

İctimai hadisə olmaq etibarilə dil daim inkişaf edir və zənginləşir. Qrammatikadan fərqli olaraq, lüğət tərkibi

dəyişməyə daha çox meyillidir. Həm də «hər bir canlı dilin leksikası kəmiyyətcə çox sürətlə artır: yeni anlayışlar və yeni əşyalar yeni sözlər «tələb edir», köhnə sözlər isə bir qayda olaraq yeni sözlərlə birlikdə qalır, onların yalnız az bir hissəsi dildə istifadədən çıxaraq arxaizmlərə çevrilir. Burada artma prosesi azalma prosesini əhəmiyyətli dərəcədə ötüb keçir: say daim artır»[1].

Dilin lüğət tərkibini zənginləşdirən vasitələrdən biri kənar dil elementləridir. Yeri gəlmişkən demək lazımdır ki, kənar dil elementlərinin təsiri dedikdə burada zorakı təsir deyil, dilin öz təbii inkişafı, tələbatı nəticəsində olan təsir başa düşülməlidir. Burada xüsusilə zərurət nəticəsində alınan sözlər daha çox nəzəri çəkir. Bu tip alınmaların gərəkliyindən bəhs edərək F. Engels yazırdı: «…Əksər hallarda hamı tərəfindən qəbul edilmiş elmi-texniki terminlərdən ibarət olan zəruri əcnəbi sözlər tərcümə edilə bilsəydi, onları işlətmək lazım gəlməzdi. Deməli, bunların tərcüməsi yalnız mənasını təhrif edir; bunları izah etmək əvəzinə dolaşdırır»[2].

Doğrudan da, yeni anlayışları ifadə etmək üçün dilin öz daxili imkanları məhduddursa, zərurət üzündən söz alınması vacibdir. Bu hal dilin öz təbii qanunauyğunluğudur. Təsadüfi deyil ki, müasir dövrdə beynəlxalq miqyasda çox zəngin hesab olunan ingilis və rus dillərində kənar dil elementləri, alınmalar xüsusi lay təşkil edir və bu dillərin tədqiqatçıları həmin cəhəti dili zənginləşdirən, əlvanlaşdıran, ünsiyyət üçün daha yararlı edən hal kimi qiymətləndirirlər. Bunun səbəblərindən biri və əsaslısı alınma sözlərin daxil olduğu dilin fonetik-qrammatik

---

[1] Р.А.Будагов. Что такое развитие и совершенствование языка, М., 1977, стр. 38.

[2] F. Engels. Sosializmin utopiyadan elmə doğru inkişafı, Bakı, 1974, səh. 4

qayda-qanunlarına uyğunlaşmasıdır. Ona görə də çox zaman alınma sözlərin alınma xarakteri zahirən bilinmir. N. M. Şanski alınma sözlərin bu xüsusiyyətindən bəhs edərək yazır: «…Əcnəbi sözlərin çoxunun əcnəbi söz olduğu, kənardan gəlmə olduğu açıq-aşkar hiss edilir. Lakin mənşə etibarilə yad sözlərin alınma olduğu heç də həmişə hiss edilmir. Bir çox yad sözlərin alınma olduğunu sübut etmək üçün xüsusi linqvistik araşdırmalar aparmaq lazımdır»[1].

Alınma sözlərin mənimsənilməsində sözü alan dilin spesifikası nəzərə alınmazsa, bu dilin fonetik və qrammatik normaları gözlənilməzsə, alınmış söz vətəndaşlıq hüququ qazana bilməyəcək və gec-tez dildən çıxacaqdır. Bu özü də onu göstərir ki, başqa dildən sözlər mexaniki olaraq alınmır. Digər tərəfdən isə, «…əcnəbi sözlərin alınması prosesi ikitərəfli prosesdir. Bu ancaq bir dilin hazır elementlərinin sadəcə olaraq başqa bir dilin ixtiyarına verilməsi demək deyildir. Bu, həm də həmin elementlərin üzvi şəkildə, alan dilin sistemi tərəfindən mənimsənilməsi deməkdir, bu elementlərin həmin dilin xüsusi tələblərinə uyğunlaşması, yeni sistem şəraitində formal və semantik baxımdan dəyişməsi deməkdir. Əgər alınma prosesi qeyri-müəyyən əcnəbi sözlər yığımının başqa nitq stixiyasına mexaniki köçürülməsi deyilsə, onda bu proses haqqında demək olar ki, bu, əsasən, yaradıcı, fəal inkişafın ən yüksək mərhələsidir»[2].

Azərbaycan dili dünyanın ən qədim dillərindən biri olub, geniş və zəngin daxili imkanlara malikdir. Buna baxmayaraq, bütün digər dillər kimi, Azərbaycan dili də

---

[1] Н.М.Шанский. Лексикология современного русского языка, М, 1972, стр. 97.

[2] Д.Н.Шмелев. Современный русский язык (лексика), М., 1977. стр. 45-46.

təsirlərdən kənarda qalmamış, dünyanın bir sıra yaxın və uzaq dilləri bilavasitə, yaxud dolayı yolla bu və ya digər dərəcədə Azərbaycan dilinə öz təsirini göstərmişdir. Bu münasibətlə S. Cəfərov yazır: «Dünyanın başqa xalqları kimi, Azərbaycan xalqı da tarix boyu müxtəlif xalqlarla yaxın və uzaq bir şəkildə əlaqə və münasibətdə olduğundan həmin xalqların dillərindən Azərbaycan dilinə minlərcə söz keçmişdir. Bu proses dilin leksikasını zənginləşdirən əsas bir amil olaraq indinin özündə belə, fəal bir surətdə davam etməkdədir»[1].

Azərbaycan dili lüğət tərkibini zənginləşdirən vasitələrdən biri rus dilindən və rus dili vasitəsilə başqa dillərdən alınan sözlərdir. İctimai-siyasi və elmi-texniki inqilablar, geniş elmi kəşflər ölkəsi olan SSRİ-də rus dilinin təsir dairəsi çox böyükdür. «Rus dili zəngin demokratik və inqilabi ənənələrə malik, yüksək mədəniyyətli qəhrəman bir xalqın dilidir, ən yaxşı zəkaların və bəşəriyyətin əsrlər boyu arzu etdiyi cəmiyyəti quranların dilidir. Bu dil yeni elmin, texnika və mədəniyyətin dilidir»[2].

Bu cəhətdən rus dili yalnız SSRİ-də deyil, ümumiyyətlə, beynəlxalq miqyasda böyük nüfuz və təsirə malikdir. Fərqli səciyyəyə malik olsalar da, ümumişlək alınmalarla termin alınmasının ən müsbət cəhəti dilin lüğət tərkibini zənginləşdirməsidir. Lakin təcrübə göstərir ki, «alınmaların çoxu terminologiyada baş verir, ona görə də ümumiyyətlə alınmalar haqqında elmi ədəbiyyatda deyilənlərin, demək olar ki, hamısı terminlərə aiddir»[3]. Rus dilindən alınan terminoloji səciyyəli sözlər xüsusilə türkdilli xalqların

---

[1] S.Cəfərov. Azərbaycan dilində söz yaradıcılığı, Bakı, 1960, səh. 10.
[2] Н.А.Кондратов. Основные вопросы русского языка. М., 1985, с. 31.
[3] Н.Г.Гулямов. Русские лексические заимствования в узбекском языке, Изд-во «Фан», Ташкент, 1985, стр. 6.

ədəbi dillərinin inkişafına müsbət təsir göstərmişdir.

N.A.Baskakov haqlı olaraq qeyd edir ki, «Türk dillərinə rus dilinin təsiri bir sıra türk dillərinin leksik tərkibində, nisbətən də sintaktik quruluşunda dərin iz buraxmış ərəb və fars dillərinin təsirindən daha güclü olmuşdur»[1]. Bu təsir leksik qatda daha çox özünü göstərir. Belə ki, türk dilləri sovet dövründə rus dilindən çoxlu yeni leksik vahid almışdır. Məsələn, tatar dilində işlədilən *шахта, рудник, домна, забои, курс, лошка, партер, ложа, кухня, коридор, котлет, аптек, актив, революция, республика* və s; özbək ədəbi dilinə daxil olan *архитектор, солдат, трамвай, фанер, смена, минут, секунд, адрес, трактор, поезд, вокзал, станция, вагон, конверт, завод, фабрика, машина;* turkmən dilindəki *класс, школа, стол, парта, физика, химия, доктор, доцент, профессор, кабинет;* qumıq dilindəki *poçta, qəzet, forma, prikaz, stol, karton* və s. sözlər bu qəbildən hesab edilməlidir.

Rus dili sözləri Azərbaycan dilinə sistemli şəkildə hələ XIX əsrdən keçməyə başlamış, onun lüğət tərkibinin ictimai məzmunlu yeni sözlərlə zənginləşməsində mühüm rol oynamışdır. XIX əsrin axırlarında M. F. Axundovun və «Əkinçi» qəzetinin dilində işlədilmiş *fabrik, birja, raport, teleqraf, şose, plan, bilet, pasport, naçalnik, partizan, qubernator, doktor, general, zavod* kimi sözlərə, həmçinin XX əsrin birinci rübündə nəşr olunan «Hümmət», «Qoç-Dəvət», «Təkamül» qəzetlərində, «Bakı fəhlə komitəsinin əxbarı»nda, Ü.Hacıbəyovun tərtib etdiyi lüğətdə internasional terminlərlə yanaşı bilavasitə rus dilinə məxsus

---

[1] Н.А.Баскаков. Развитие грамматической структуры языков и расширение их общественных функции (на материале тюркских языков). Доклад на X конгрессе лингвистов, Бухарест, 1967, стр. 120.

terminlər də əhatə olunmuşdur. XX əsrin əvvəllərində, xüsusən sovet dövründə rus dilindən başqa dillərə söz keçməsi prosesi daha da güclənmişdir. Bunu şərtləndirən amillərdən biri də ikidillilikdir. …Bizim ölkə şəraitində öz ictimai funksiyasına görə dünya dillərindən biri olan rus dili millətlərarası ünsiyyət dilinə çevrilmişdir[1].

Onu da deyək ki, ikidillilik dillərin adi kontaktından hər cəhətdən, o cümlədən söz alınmasına görə fərqlənir. Belə ki, ikidillilik şəraitində dillərin yaxınlaşması, qovuşması daha güclü olur və ümumi elementlər daha intensiv inkişaf edir. Ölkəmizdə 130-dan çox xalq yaşayır ki, onların hamısının milli dilləri, hər bir milli dilin geniş imkanları, hüquqları, nəhayət, muxtariyyəti vardır. Bunlarla yanaşı, son vaxtlar rus dili hər hansı xalq, millət üçün ikinci ünsiyyət vasitəsinə çevrilmişdir. Ona görə ki, rus dilini mənimsəmək tarixi bir zəruriyyət olmuşdur. Bu dili mənimsəmədən, öyrənmədən sovetlər ölkəsinin digər millət və xalqları ilə ünsiyyət yaratmaq, vüsətli sosializm quruluşunda birgə addımlamaq mümkün olmadığı kimi, müasir dünya hadisələrindən, o cümlədən dünya mədəniyyətindən tam mənası ilə xəbərdar olmaq da qeyri-mümkündür. Dövrümüzün böyük sənətkarı Ç.Aytmatov bilinqvizm hadisəsinə ümumbəşər mədəniyyətinin yeni aspekti kimi baxaraq yazır ki, bilinqvizm «müxtəlif dillərin, deməli, müxtəlif təfəkkür formalarının, dünya duyumunun qovuşmasıdır. Bu isə elm və mədəniyyətin həmhüdud sahələrindən bütün hadisələr kimi şüurun yeni səviyyəsini yaradır, elə əlavə hərəkət, elə əlavə gərginlik yaradır ki, bunlarsız incəsənət ola bilməz. Beləliklə, bilinqvizm vasitəsilə insan mənliyinin təzahüründə əks olunan «elə

[1] Ф.П.Филин. Современное общественное развитие и проблема двуязычия. – В кн-: Проблемы двуязычия. М., 1972, стр. 17

yeni formalar tapırıq ki, həyat özü göstərdiyi kimi bunlar saysız-hesabsızdır»[1].

Qeyd etmək lazımdır ki, bilinqvizm şəraitində yalnız rus dili milli dillərə təsir etmir, habelə özü onlardan mənimsəyir, bəhrələnir. Heç də təsadüfi deyil ki, rus dilində Azərbaycan dilinə məxsus onlarla söz işlənmək-dədir. Buna baxmayaraq, birinci istiqamət, daha doğrusu, rus dilinin milli dillərə təsiri xüsusi şəkildə özünü göstərir.

Oktyabr inqilabından sonra da Azərbaycan dili rus dilindən və onun vasitəsilə Avropa dillərindən söz almağı davam etdirmişdir. Lakin istər kəmiyyət və istərsə də keyfiyyət etibarilə sovet dövründə alınan leksik vahidlər inqilabdan əvvəl alınmalardan əsaslı şəkildə fərqlənir. Təbii ki, bu fərq bilavasitə bu iki xalqın – rusların və azərbaycanlıların qarşılıqlı münasibəti ilə əlaqədardır. Çar dövründə, milli dillərin sıxışdırılması şəraitində rus dilindən keçib sonralar dilimizdə vətəndaşlıq hüququ qazanmış çox az sözü nümunə gətirmək mümkündür. Sovet dövründə, yeni ictimai-iqtisadi şəraitdə, xüsusilə elm və texnikanın sürətli inkişafı və onun bütün SSRİ xalqlarının malına çevrilməsi zəminində rus dilindən Azərbaycan dilinə keçən sözlərin miqdarı əvvəlki ilə müqayisədə ölçüyəgəlməz dərəcədə artdı.

Məlumdur ki, başqa dildən söz alınması iki yolla həyata keçir: 1) danışıq yolu ilə, daha doğrusu, şifahi ünsiyyətlə; 2) yazılı ədəbiyyat yolu ilə. Alınma sözlərin mənimsənilməsində bu iki yol bir-birindən müəyyən dərəcədə fərqlənir. «Əcnəbi sözdə daha köklü dəyişiklik o zaman baş verir ki, bu söz şifahi şəkildə alınsın. Belə halda alınan sözün səs tərkibində ciddi dəyişiklik olur, onun

[1] Ч. Айтматов. Языковой космос, – Собр. соч., т. 3, М., 1984, стр. 423.

mənası nəzərə çarpacaq dərəcədə dəyişir»[1]. Yazılı dil vasitəsilə alınmalarda isə sözü alan dilin fonetik-qrammatik-orfoqrafik xüsusiyyətləri nəzərə alınsa da, etimon dil xüsusiyyətlərini qorumağa da meyil güclü olur. İnqilabdan əvvəl Azərbaycan dili üçün birinci yol əsas olub; rus dilindən alınmalar üçün, demək olar ki, yeganə yol şifahi yol idi ki, bu da alınmaların kəmiyyət və keyfiyyətində öz əksini tapırdı. İnqilabdan sonra rus dilində olan bir sıra əsərlərin, xüsusilə marksizm-leninizm klassiklərinin əsərlərinin dilimizə tərcüməsi alınmaların kəmiyyət və keyfiyyətinə öz əsaslı təsirini göstərdi. Külli miqdarda söz məhz bu yolla dilimizə keçərək, lüğət tərkibində özünə həmişəlik yer qazandı.

Sadə sözlər

Azərbaycan ədəbi dilinin lüğət tərkibinə daxil olan alınmaların bir qismi sadə sözlərdən ibarətdir. Bunların içərisində həm inqilabdan əvvəl, həm də sovet dövründə Azərbaycan dilinə daxil olan sözlərə təsadüf etmək mümkündür. Ümumişlək sözlər kimi sabitləşmiş əvvəlki alınmalar da sovet dövrü alınmaları kimi yeni ictimai quruluşa aid sosial anlayışları ifadə edir. Yeni ictimai məzmunun ifadəsi ilə səciyyələnən bu tipli alınma sözlər ədəbi dilin lüğət tərkibini zənginləşdirmək baxımından maraqlıdır. Ədəbi dilə sovet dövründə bilavasitə yeni ictimai anlayışları ifadə etmək zərurəti ilə daxil olan sözlər, başlıca olaraq, rus dilindən alınmışdır.

Azərbaycan ədəbi dilinə sovet dövründə yeni sosial anlayışları ifadə etmək baxımından əvvəllər daxil olmuş bir

---

[1] Н.М.Шанский. Лексикология современного русского языка, М., 1978, стр. 97-98.

sıra ərəb-fars mənşəli alınmalar da diqqəti cəlb edir. İstər inqilabdan sonra rus dilindən alınmış sözlər və istərsə də yeni dövrdə yeni ictimai məzmun daşımağa başlayan ərəb-fars mənşəli sözlər Azərbaycan ədəbi dili lüğət tərkibini leksik cəhətdən zənginləşdirdiyi kimi, onun semantik cəhətdən inkişafına da böyük təsir göstərmişdir. Belə sözlər ictimai həyatın müxtəlif sahələrinə aid olmaqla yanaşı, həm də terminoloji xüsusiyyət daşıyır. Azərbaycan dili terminoloji bazasının qüvvətləndirilməsinə xidmət edən alınmaların bir çoxu tədricən ümumxalq səciyyəli sözlər kimi, ədəbi dilin müxtəlif üslublarında işlədilir[1].

Sovet dövründə dilimizə daxil olan rus mənşəli alınma sözlərin ümumxalq səciyyəsi qazanmasında inqilabdan sonra ölkəmizdə gedən geniş savadlanma, savadsızlığın kütləvi şəkildə və böyük surətlə aradan qaldırılması həlledici rol oynayır. Bu cəhətə nəzər yetirən M.Adilov yazır: «Müasir adam 50 il, 30 il əvvəlki adam deyildir. Kütləvi savadlanma, gündəlik mütaliə, təbliğat və təşviqat müasir zəhmət adamını çox irəli atmışdır. Qəzet və jurnallar, radio və televiziya, kino və teatr, kitab hamının nəsibi olmuşdur. İndi hər kəs müasir elmlərdən müəyyən hazırlığa malikdir. Bu isə o deməkdir ki, müxtəlif elmlərə məxsus çoxlu terminlər indi ümumxalq sözünə çevrilməkdədir»[2]. Bu fikir Böyük Oktyabr sosialist inqilabından sonra rus dilindən alınan sözlərə də aiddir.

Azərbaycan ədəbi dilinin inkişaf və zənginləşməsində mühüm rol oynayan alınmaları semantik cəhətdən

---

[1] *Bax:* Н.А.Мамедов. Слова европейского происхождения в современном азербайджанском языке, АКД, Баку, 1966; Г.Р. Алиев. Русские заимствования в азербайджанском языке (лексико-фонетические особенности), АКД, Ашхабад, 1973 və s.

[2] M.İ.Adilov. Sözün qüdrəti, ADU-nun Elmi əsərləri, 1969, № 1, səh. 49.

aşağıdakı şəkildə qruplaşdırmaq olar:

a) *İctimai-siyasi mənalı sözlər.* Azərbaycan ədəbi dilində bu qəbildən olan *amnistiya, kosmopolit, bazis, parlament, plenum, kommunist, anarxiya, avanqard, baykot, biznes, büdcet, turist, turizm, total, teletayp, pioner, anonim, aparteid, lider, mitinq, taktika, deputat, kadr, kollektiv, konstitusiya, protokol, strategiya, podrat* və s. kimi sözlər daha işləkdir. Ümumxalq səciyyəsi qazanmış bu cür sözlər ədəbi dilin leksik tərkibini əks etdirən lüğətlərə də daxil edilmişdir. Belə sözlər, başlıca olaraq terminoloji vahidlər kimi işlədilsə də, ictimai anlayış bildirməsi ilə əlaqədar olaraq kütləvilik də qazana bilmişdir. Təsadüfi deyildir ki, bu tipli sözlər ədəbi dilin ayrı-ayrı üslublarında işlənərək vahid anlayış ifadə etməklə yanaşı, məna, məzmun cəhətdən tam şəkildə anlaşıqlı olması ilə də diqqəti cəlb edir. Bu cəhətdən dövri mətbuatın və bədii əsərlərin dilindən alınmış aşağıdakı faktlar səciyyəvidir:

Təsərrüfatı yeni k a d r l a r l a möhkəmlətmək barədə söhbət getmişdir (SK-26.06.82); *K a d r l a r ı seçmək və düzgün yerləşdirmək haqqında bir daha düşünmək lazımdır* (C. Əmirov); *İclasın p r o t o k o l l a r ı səliqə ilə qaydaya salınmışdı* (AM-19.05.80); *Elsevər planına görə ilk partiya təşkilatının p r o t o k o l l a r ı ilə də tanış olmalı idi* (Ə. Qasımov); *Bu s t r a t e g i y a d a n məqsəd qanuni hökumətləri devirmək, oyuncaq rejimlər yaratmaqdır* (K-26.08.83); *Briqada p o d r a t ı əməyin təşkilinin mütərəqqi formasıdır* (AG-26.08.83) və s.

b) *Məişətlə bağlı olanlar.* Məişət cəmiyyətik elə bir sahəsidir ki, kənarda baş vermiş hər hansı yenilik ona birbaşa təsir edir. Elm və texnikanın inkişafı və bu əsasda mədəni səviyyənin, zövqlərin yüksəlməsi məişətdə öz

əksini tapır; yeni anlayışlar yeni sözləri meydana gətirir.

Adətən, hər hansı millətə, xalqa məxsus məişət tərzi daha çox milli çərçivə ilə məhdudlaşır və bu cür milli anlayışları bildirən sözlər əsasən üslubi məqsədlərlə işlədilir. Belə sözlər dilçilikdə *ekzotizmlər* adlandırılır. Millətlərin son dərəcə yaxınlaşdığı müasir dövrdə məişət də öz milli sərhədini keçir və bu sahədəki yeniliklər başqa millət və xalqlara da sirayət edir. Yeniliklərlə birlikdə yeni sözlər də keçir.

Bu sahə ilə əlaqədar dilimizə keçmiş sözləri təxminən aşağıdakı şəkildə qruplaşdırmaq olar:

1. Məişət əşyalarının adlarını bildirən sözlər: *radio, radiola, televizor, telefon, videomaqnitofon, videotelefon, stol, stul, bufet, şifoner, servant, serviz, pianino, royal, qarnitur, tül, lampa, vanna, seyf, maqnitofon, şkaf* və s.

2. Paltar-parça adları bildirən sözlər: *cemper, jilet, kostyum, palto, qalstuk, panama, kombinasiya, pijama, kombinezon, kitel, beret, boston, velvet, triko, dermatin, velür, drap, krepdişin, gipür, vatin, neylon, pamazı, batis, şevyot, brezent* və s.

3. Məişət xidməti ilə bağlı anlayışları bildirən sözlər: *atelye, maqazin, bufet, restoran, pavilyon, bar, kafeteri, otel, manikür* və s.

4. Ərzaq mallarını bildirənlər; bu ad altında biz yeməklə əlaqədar bütün anlayışları birləşdiririk. Məsələn: *marqarin, vanil, bulka, vafli, vermişel, keks, bifşteks, rulet, konyak, viski, kakao, liker, rom, kokteyl* və s.

Ölçü-çəki bildirən bir qrup sözlər də vardır ki, onları da məişət məzmunlu sözlər içərisində vermək olar: *metr, kilometr, santimetr, millimetr, qram, kiloqram, ton, hektar, hektometr, litr, sentner, pud* və s.

Məişətlə bağlı anlayışları ifadə edən bu cür sözlər

dilimizin lüğət tərkibinə daxil olmuş və artıq ümumxalq malına çevrilmişdir. Ədəbi dilimizdə, xüsusilə də bədii əsərlərin dilində belə sözlər geniş işlənmə tezliyinə malikdir. Məsələn:

Vitrinlərdə göz oxşayan nümunələr qoyulmuşdu (AG-16.04.71); *Vitrinlərdə çiçəklər, köynəklər; Elektrik düymələr, ipəklər* (R. Rza); *Sədr stul çəkib bizi əyləşməyə dəvət etdi* (SK-16.08.77); *Teatrın foyesi adamla dolu idi* (B-16.06.81); *Günəşli foye bomboş idi* (M. Hüseyn) və s.

c) *Elm və texnikanın müxtəlif sahələrinə aid olanlar.* Cəmiyyətin istər sosial-mədəni və istərsə də iqtisadi cəhətdən inkişafını şərtləndirən amillərdən biri və başlıcası elmin, texnikanın qazandığı nailiyyətlərdir. Elmi-texniki inqilablar dövrü kimi səciyyələndirilən müasir dövrümüzdə bu sahənin rolu və əhəmiyyəti nəhayətsizdir.

Məlumdur ki, yeni meydana çıxan hər hansı məfhum, anlayış özü ilə birlikdə adını da yaradır. Meydana çıxmış söz istər tamamilə, daha doğrusu, həm fonetik-qrammatik, həm semantik cəhətdən yeni olsun, istərsə də mövcud sözlərin, mövcud leksik bazanın əsasında yaradılsın, bir dil vahidi kimi təzədir, yenidir. Bu cəhətdən elm və texnikanın sürətli inkişafı, yeni anlayışların yaranması ilə əlaqədar başqa dillərdən alınan sözlər lüğət tərkibinin zənginləşməsinə kömək edir.

Azərbaycan dilində rus dilindən alınmış, elm və texnikanın ayrı-ayrı sahələrinə aid olan terminlərə daha çox rast gəlmək olur. Dilin lüğət tərkibinə daxil olan belə terminlərdən bir çoxu məhdud dairədə, bilavasitə aid olduğu sahədə işləndiyi üçün ümumxalq səciyyəsi daşıya bilmir. Bir sıra alınma terminlər isə mətbuat dilində, habelə bədii ədəbiyyatda geniş şəkildə işlədilir, kütləvilik

baxımından əvvəlkilərdən fərqlənir. Bu cür terminlərin ümumxalq səciyyəsi qazanmaq potensialı xüsusilə böyükdür. Bunların böyük hissəsi yalnız mütəxəssislər üçün deyil, cəmiyyətin demək olar ki, bütün üzvləri – hamı üçün anlaşıqlı sözlərdən ibarətdir.

Son vaxtlar müxtəlif elm sahələrinin inkişafı, yeni elm sahələrinin yaranması və həmin sahələrə dair müvafiq terminlərin meydana çıxması lüğət tərkibini zənginləşdirən amil kimi özünü göstərir. Bu cəhətdən elm və texnikaya aid sözləri aşağıdakı şəkildə qruplaşdırmaq olar:

1. Fəlsəfəyə aid: *materiya, abstrakt, induksiya* və s.

2. Kimyaya aid: *brom, xlor, etan, karbon, kobalt, ammonium, germanium, kalsium, manqan* və s

3. Biologiyaya aid: *plazma, aorta, sperma, leykosit, vena, venoz* və s.

4. Coğrafiya və geologiyaya aid: *aysberq, eroziya, korroziya, bazalt, apatit, alunit, kristal* və s.

5. Riyaziyyata aid: *kub, kvadrat, sinus, inteqral, tangens, arqument, loqarifm, piramida, romb, radius, proyeksiya* və s.

6. Tibbə aid: *diaqnoz, immunitet, bronxit, diabet, dezinfeksiya, sulfadimezin, allergiya, validol, valokordin, dibazol, epidemiya, infeksiya, apendisit, dermatik, dezinteriya, faringit, infarkt, insulin, ampisilin, pensilin* və s.

7. Ədəbiyyatşünaslıq və dilçiliyə aid: *epos, dram, poeziya, proza, roman, pyes, kompozisiya, folklor, epitet, sintaksis, morfem, fonem, leksik, fraza, sintaksem, leksem, eliziya, proteza, assimilyasiya, dissimilyasiya* və s.

Bu cür sözlərə istər mətbuat dilində, istərsə də bədii ədəbiyyatda geniş şəkildə təsadüf edilir.

Piramidondan bir dənə də Rüstəm kişiyə içirtdi

(M.İbrahimov); *Diabetsən, insulin götür* (R.Rza); *Nadir tapılan padixtin dərmanı Səfurə xalanın xəstəliyinə çxeyli kömək etmişdi* (C.Əmirov); *Eksperimental zavod çay tullantılarından yüksək keyfiyyətli maye çay və konsentrat hazırlayır* (K-2.07.83) və s.

ç) *İncəsənətin müxtəlif sahələrinə aid olanlar.* Hər hansı incəsənət növü milli zəmində, milli özül üzərində yaransa da, ictimai hadisə olmaqla, dar, milli çərçivədə qalmayıb, digər xalqların incəsənəti ilə təmasda, bəşəriyyətin qazandığı bütün mənəvi sərvətlərdən bəhrələnməklə inkişaf edir, formalaşır, zənginləşir. Millətlərin son dərəcə yaxınlaşdığı son dövrlərdə isə sırf milli, kənar təsirlərdən uzaq incəsənət növü təsəvvür etmək mümkün deyil. Azərbaycan xalqının qədim tarixi kökə malik incəsənəti də milli zəmin üzərində yaranmış, lakin daim bəşəriyyətin əldə etdiyi bütün mütərəqqi, mənəvi sərvətlərdən bəhrələnmişdir. Ona görə də Azərbaycan dili incəsənət leksikasının əsası milli sözlərdən ibarət olsa da burada başqa dillərə məxsus söz və ifadələr də müəyyən faiz təşkil edir. Bunlar musiqi, veriliş, çalğı alətləri adları və s.-dən ibarətdir: *qaboy, klarnet, klub, muzey, musiqi, reportaj, reproduksiya, suflyor, fleyta* və s.

d) *İqtisadiyyat və nəqliyyata aid olanlar.* Bu qrupa aid sözlər daha çox milli zəmində yaransa da, başqa dillərdən alınmış sözlər də xüsusi lay təşkil edir. İqtisadiyyatın eninə və dərininə inkişafı bu sahəyə aid bir sıra yeni sözlərin meydana çıxmasına səbəb olmuşdur. Belə ki, iqtisadiyyatla bağlı olan *trest, ekskavator, traktor, elevator, aqreqat, briqada, ferma, kombayn, kultivator;* nəqliyyata aid *avtobus, trolleybus, tramvay, ekspress, metro, taksi* və s. sözlər dilimizdə geniş işlənmə tezliyinə malikdir.

Elm və texnikanın inkişafı bilavasitə həmin sahələrə

aid anlayışların meydana çıxması ilə yanaşı, mütəxəs-sislərin də yetişməsinə və onların adlandırılmasına, daha doğrusu, müxtəlif peşə adlarının yaranmasına səbəb olur. Cəmiyyət həyatının, təsərrüfatın müxtəlif guşələrinə aid olan bu sözlər daha tez ümumxalq sözü kimi formalaşır. Hal-hazırda *mexanik, mexanizator, operator, briqadir, aqronom, xirurq, terapevt, onkoloq, stomatoloq* və s. onlarca bu kimi söz ümumişlək leksikaya daxildir.

e) *Hərbi sahəyə aid olanlar.* Rus və Avropa dillərində yaranmış hərbi terminlərin böyük əksəriyyəti dilimizə keçmiş və lüğət tərkibinə daxil olmuşdur. Həmin sözlər işlənmə dairəsi və anlaşma dərəcəsinə görə ümumişlək sözlərə çox yaxındır: *avtomat, admiral, artilleriya, batalyon, batareya, briqada, vzvod, qvardiya, qranat, diviziya, eskadron, kapitan, komandir, korpus, general, leytenant, mina, minomyot, polk, pulemyot, puşka, rota, snayper, starşina, tank* və s. onlarla söz bu qəbildəndir.

Kosmik tədqiqatlarla əlaqədar dilimizə daxil olmuş, mətbuat dilində və bədii ədəbiyyatda geniş işləkliyə malik olan: *ekipaj, biosfer, ionosfer, komet, kosmonavt, orbit, peyk, sentrifuq, raket, asteroid, kosmos* və onlarca başqa sözlər də ümumxalq səciyyəsi qazanmağa meyillidir:

İndi biz böyük bir yəqinliklə deyə bilərik ki, «Kainat gəmisi» və onun e k i p a j ı sağ-salamatdır; heç bir a s t e r o i d, heç bir riyazi hesablama bizə kömək eləməz; Ş t u r m a n i l l ü m i n a t o r d a n açıq k o s m o s u seyr edirdi; hava gəmisinin dolandığı o r b i t d ə n bir balaca uzaqlaşmışıq (E.Mahmudov) və s.

Sosial-mədəni və elmi-texniki tərəqqi insan fəaliyyəti ilə sıx bağlı olduğundan xüsusən son dövrlərdə alınan terminlərin ümumxalq malına çevrilməsi daha da sürətlidir:

Elə bil, dünyanın k o n d i n s i o n e r l ə r i işə düşdü (A.

Məmmədov); *L i f t yuxarı, l i f t aşağı, Yuxu basır uşağı* (R. Rza); *R e p e r t u a r ı m ı z klassiklərin və sovet müəlliflərinin əsərləri ilə zəngindir* (K-2.07.83); *Gülə-gülə gələn topaz öz k a r i k a t u r a s ı n ı görüb yaman pərt oldu* (Ə.Qasımov) və s.

Sovet dövrü Azərbaycan ədəbi dilinin lüğət tərkibində ərəb-fars sözlərinin də xüsusi çəkisi vardır. Bu dövrdə yeni ictimai məzmun qazanmış ərəb-fars mənşəli sözlərdə ictimai anlayışların ümumxalq xarakteri daşıması ilə əlaqədar güclü kütləviləşmə baş verdi. Odur ki ictimai-kütləvi anlayış bildirən belə sözlər bədii üslubda ümumişlək məzmunlu vahidlər sırasında özünəməxsus yer tutmuşdur. Azərbaycan dilində işlədilən bu cür sözlərin aşağıdakı məna qrupları xüsusilə diqqəti cəlb edir:

a) *Vəzifə adları bildirən sözlər.* Müasir əmək sahəsinə aid olan, sosial mənalı *münsif, mühəndis, müxbir, rəis* və s. sözlər geniş arealda kütləvi şəkildə işlədilməkdədir. Ədəbi dilimizə hələ sovet dövründən əvvəl daxil olmuş bu kimi sözlər yeni dövrdə yeni anlayışları ifadə etmək xüsusiyyəti qazanmışdır. Daha doğrusu, həmin sözlər sosial dəyişiklikləri özündə əks etdirir. Ümumxalq səciyyəli anlayışları ifadə edən bu cür sözlər kütləvilik xüsusiyyətinə görə bədii üsluba da yol açmışdır:

Aşağıda meydançanın yanında üstünə qırmızı örtük salınmış uzun stolun ətrafında m ü n s i f l ə r heyəti əyləşmişdir (Ə. Qasımov); *Xəbər yoxdur m ü h ə n d i s d ə n* (S. Vurğun); *İşlərin gedişini yoxlayan işçilərin içərisində rayon qəzetindən gəlmiş m ü x b i r də var idi* (Ə. Qasımov); *Bura bax, sən bizim r ə i s i m i z i n nəyi olursan?* (S. Qədirzadə) və s

b) *İctimai mənaya malik olan digər sözlər.* Azərbaycan ədəbi dilində yeni ictimai məzmun qazanmış sözlərdən

təftiş, fəal, mərkəz və s. daha çox diqqəti cəlb edir. *Təftiş* sözü leksik-semantik cəhətdən Azərbaycan dilindəki *yoxlama* sözünü əvəz edir. Lakin *təftiş* sözü sosializm quruluşu zəminində yaranan *təftiş komissiyası* birləşməsində fərqli anlayış bildirməklə semantik cəhətdən *yoxlama* sözündən müəyyən qədər ayrılır. *Təftiş komissiyası* birləşməsi xalq dilində qısaldılaraq *təftiş* şəklində işlədilir. Bədii ədəbiyyatda *təftiş* sözünün «təftiş komissiyası» əvəzinə işlədilməsi də bilavasitə xalq dilinin təsiri ilə bağlıdır. *Təftiş* sözündə ictimai məzmunla yanaşı, müəyyən emosional çalar da müşahidə olunur.

Fəal sözündə, hər şeydən əvvəl, «ictimai-faydalı əməyin qabaqcıl nümayəndəsi» kimi yeni ictimai məna əks olunur və bu cəhətdən həmin məna bu sözə aid ümumi fəaliyyətdəolma anlayışından fərqlənir. *Mərkəz* sözü isə *rayon mərkəzi, mərkəzi idarə, mərkəzi təşkilat* kimi söz birləşmələrində yeni sosial mənalar ifadə edir. Qeyd edək ki, bu sözlər, adətən, başqa sözlərlə birləşmə daxilində işlənsə də, həmin məna-məzmun birləşmə daxilində meydana çıxsa da, üslubi məqsədlə əlaqədar tək işləndikdə belə, həmin anlayışı özündə saxlayır. Bir az da dəqiqləşdirsək, həmin söz birləşmənin digər tərkib hissəsi olmadan da yeni mənasında anlaşılır.

Yuxarıdakı sözlər bütöv söz birləşməsinin məna yükünü, məzmununu daşıya bilir. Ona görə də onların iştirak etdiyi birləşmələr dilin qənaət meyilinə əsasən, adətən, təktərəfli formada işlənir. Birləşmənin ümumi anlamı isə kontekstdən üzə çıxa bilir: *Təftişin bürküdən tərləyib daş kömür kimi işıldayan tara sifətində əvvəlcə təəccüb duyuldu* (İ.Hüseynov); *Axı sən bizim birinci dilli-ağızlı fəalımızsan* (M.İbrahimov); *Mərkəzdən bizim rayona təhkimçi gəlmişdir* (Ə.Vəliyev) və s.

Göründüyü kimi, burada «təftiş» sözü hətta tamam başqa üslubi çalarda işlənmişdir, daha doğrusu, vəzifə adının tərkib hissəsi olan bu söz həmin adı daşıyana bir ləqəb kimi verilmişdir. Hər hansı bir söz yalnız o zaman həmin ləqəbə çevrilə bilər ki, xalq onu özləşdirə bilsin, öz malına çevirə bilsin.

c) *İstehsalla, elm və texnika ilə əlaqədar işlədilənlər.* Müasir Azərbaycan ədəbi dilində ərəb-fars mənşəli *məntəqə, məzuniyyət, ezamiyyət, təyyarə* və s. kimi sözlər elmi-texniki tərəqqi ilə bağlı anlayışların ifadəçisi kimi işlədilir. Ümumxalq səciyyəsi qazanmış bu cür sözlər də dilimizdə işləkdir. Məsələn:

Səhər məntəqələri gəzdi, arabaları, maşınları yoxladı, yığılan pambığı hesaba aldı (İ.Şıxlı); *Ərizəni yaz, mən məzuniyyət almaqda sənə kömək edərəm* (C. Əmirov); *Ezamiyyətə gedəcəyim gün yaxınlaşdıqca narahatçılığım və həyəcanım da artırdı* (V.Babanlı); *Təyyarəmiz yavaş-yavaş enib düşür meydana* (S.Vurğun) və s.

ç) *Bədii təsvir və ətraf aləm hadisələri ilə əlaqədar işlədilənlər.* Müasir Azərbaycan ədəbi dilində, xüsusən, bədii ədəbiyyatda hadisə və xarakterlərin təsviri ilə əlaqədar ümumxalq səciyyəsi qazanmış bir sıra ərəb-fars mənşəli sözlər işlənir. Bunlardan *ahəng, üfüq, xatirə, xiyaban* və s. kimi sözlər daha çox nəzəri cəlb edir. Semantik cəhətdən anlaşıqlı olan bu kimi sözlər ədəbi dilimizin lüğət tərkibinin inkişafı və zənginləşməsi cəhətdən maraqlıdır. Ətraf aləm hadisələri barədə müəyyən bitkin təsəvvür yarada bilən belə sözlər bədii ədəbiyyatda Azərbaycan dilinin özünəməxsus vahidləri kimi səslənir:

Göy dənizdən almışdı, sözlərin öz rəngini, sözlərin ahəngini (S.Vurğun); *Üfüqə yatmış bulud layının arasından günəş boylananda çöllər çəpəki şüalar altında*

alışıb yandı (M.Hüseyn); *Xatirələr təzələnmişdi. Xırda addımlarla xiyaban boyu gəzə-gəzə söhbətə başladılar* (S.Qədirzadə) və s.

Düzəltmə sözlər

Azərbaycan ədəbi dilinin lüğət tərkibinə kök etibarilə alınma olan çoxlu düzəltmə sözlər daxil olmuşdur. Bunların bir qismi alınma sözlər bazası əsasında Azərbaycan dilinin sözdüzəldici şəkilçiləri ilə əmələ gəlmişsə, bir qismi rus və ərəb-fars mənşəli şəkilçilərlə düzələn sözlərdir. Məlum olduğu üzrə, Azərbaycan dilinə rus dilindən, habelə ərəb-fars dillərindən bir sıra sözlər və bu sözlərlə birlikdə bəzi sözdüzəldici şəkilçilər də daxil olmuşdur. Belə sözdüzəldici şəkilçilərin müəyyən qismi Azərbaycan dili söz yaradıcılığı prosesində təsirsiz qalır; bir qismi isə Azərbaycan dilində bu dilin qanunlarına uyğun şəkildə yenidən formalaşır və ikinci fəaliyyətə başlayır. Bununla da alınma sözlər əsasında söz yaradıcılığı prosesinin özünəməxsus cəhətləri meydana çıxır. Hər iki halda – istər alınma sözlər bazası əsasında milli şəkilçilərlə və istərsə də rus dilinə və ərəb-fars dillərinə məxsus şəkilçilərlə söz yaradıcılığı prosesi Azərbaycan ədəbi dilinin sovet dövründə zənginləşməsini təmin edən amil kimi maraq doğurur. Bunlardan ikincilər dilimizə hazır şəkildə keçmişdir. Birincilər isə sonradan öz dilimizə məxsus şəkilçilərlə yaradılmışdır. Rus dilindən Azərbaycan dilinə daxil olan sözlərin dilimizdə işlənmə intensivliyi artdıqca onların söz yaradıcılığı prosesində iştiraketmə perspektivləri də genişlənir. Bu isə həmin sözlərin tam mənada ümumxalq səciyyəsi qazanması ilə əlaqədardır. Ona görə də bilavasitə insanın əməli fəaliyyəti ilə sıx bağlı

sözlər, bir qayda olaraq, söz yaradıcılığı prosesində daha əsas yer tutur.

Sovet dövründə elm və texnikanın inkişafı, habelə sosial-ictimai tərəqqi ilə əlaqədar baş verən dəyişmələr sayəsində rus dilindən alınan bir çox sözlər SSRİ xalqları dillərinin, xüsusən türkdilli xalqların söz yaradıcılığında mühüm rol oynamışdır. Məsələn, türkmən dilində *kolxozçı, traktorçı, kombaynçı, ekskavatorçı, leninçi, aviomodelçi, avtomatçı, şaxtaçı*[1], uyğur dilində *staxanovçi, qvardiyaçi, kolxozçi, traktorçi*[2], tatar dilində *normalaştıru, stabil-ləştirlu*[3], qazax dilində *partiyalılık, leninşil, marksşil*[4] və s. sözləri misal göstərmək mümkündür.

a) Rus və Avropa mənşəli sözlərdən Azərbaycan dili şəkilçiləri vasitəsilə yeni sözlər yaradılması

Azərbaycan dilində rus dili bazası əsasında söz yaradıcılığı prosesi sovet dövründə xüsusilə intensiv olmuşdur. Dilimizə yeni daxil olmuş söz zaman keçdikcə, bir tərəfdən, dilin lüğət tərkibinə daxil olub, ümumişlək söz səviyyəsinə qalxırsa, digər tərəfdən, yeni söz yaradıcılığı prosesində fəal iştirak edir. A. Aslanov alınma sözlərin bu

---

[1] *Bax:* Х.А.Агаева. Развитие лексики туркменского языка за счет своих внутренних ресурсов (после Великой Октябрьской социалистической революции), АКД, Самарканд, 1961, стр. 9-11.

[2] *Bax:* Г.Садвакасов. Словообразование имен существительных в современном уйгурском языке, Изд. АН Казахской ССР, Алма-Ата. 1956, стр. 6.

[3] *Bax:* М.Б.Хайрулин. Интернациональная терминология в татарском языке (на материале школьных учебников), АКД Казань, 1975, стр. 20.

[4] *Bax:* К.М.Мусаев. Современная терминология литературных тюркских языков Советского Союза, «СТ», 1981, № 6, стр. 11.

xüsusiyyətindən bəhs edərək, müvafiq misallar əsasında sovet dövründə onların tədricən söz yaradıcılığında oynadığı rolu və lüğət tərkibini zənginləşdirmə imkanlarını göstərmiş və bu imkanların get-gedə genişləndiyini, artdığını izləmişdir. Bir sıra sözlərin söz yaradıcılığı prosesinə girərək tədricən daha çox yeni sözlərin formalaşmasında iştirakını izləyən müəllif ayrı-ayrı illər üzrə onların statistikasını verir. Məsələn, 1928-ci ildə *radio* sözü ilə formalaşan on bir söz və birləşmə vardısa, 1940-cı ildə əlavə olaraq iyirmi yeni söz yaranmış və 1951-ci ildə onların ümumi sayı əlliyə çatmışdır[1]. Bu sözlərin yaranmasında həm şəkilçi, həm də kök morfemləri iştirak edir. Bu sahədə Azərbaycan dilinə məxsus morfemlərin xüsusi rolu vardır. Bu prosesdə, demək olar ki, Azərbaycan dilinə məxsus məhsuldar şəkilçilərin böyük əksəriyyəti iştirak edir. Məhz bu dövrdə rus dili bazası əsasında məhsuldar *-çı, -lıq, -lı, -laş, -çılıq* şəkilçiləri vasitəsilə Azərbaycan dilində sözlər əmələ gəlmişdir. Bu cür yeni sözlərin əksəriyyəti cəmiyyətin sosial-iqtisadi inkişafı ilə əlaqədardır və müxtəlif ictimai əmək sahələri, inzibati-təsərrüfat, siyasi və iqtisadi inkişafla bağlı olaraq zərurət nəticəsində yaranmışdır.

Sovet dövründə rus dilindən alınmış sözlər əsasında aşağıdakı şəkilçilər vasitəsilə yeni sözlər düzəlmişdir:

-çı (-çi, -çu, -çü) şəkilçisi. Azərbaycan dilində sovet dövründə ictimai əmək, ictimai peşə və sənət anlayışlarının ifadəsi ilə əlaqədar bu şəkilçi vasitəsilə çoxlu yeni sözlər meydana gəlmişdir ki, bunların içərisində alınma sözlər əsasında yaradılanlar xüsusi çəkiyə malikdir.

Dilimizdə ən məhsuldar şəkilçilərdən olan *-çı (-çi, -*

---

[1] А.А.Асланов. Обогащение словарного состава азербайджанского литературною языка в советский период, АКД, Баку, 1954, стр. 90.

çu, -çü) vasitəsilə yaradılan yeni sözlər malik olduqları məna qruplarına görə də zəngindir. S. Cəfərov bu şəkilçinin vasitəsilə altı məna qrupuna malik sözlər yarandığını qeyd edir[1]. Alınma sözlər əsasında başlıca olaraq, aşağıdakı məna qruplarına məxsus sözlər yaranmışdır:

1) Peşə-sənət, vəzifə adlarını bildirənlər: *avtomatçı, aparatçı, armaturçu, bufetçi, traktorçu, qravüraçı, ekskavatorçu, kabelçi, katerçi, kombaynçı, makinaçı, aptekçi, buldozerçi* və s.

2) İctimai-siyasi mövqe, əqidə və mənsubiyyət bildirənlər: *avantüraçı, brenşteynçi, iskraçı, yakobinçi, kollektivçi, kolxozçu, komsomolçu, respublikaçı, lassalçı, leninçi, partiyaçı, pravdaçı, artelçi* və s.

3) Müxtəlif fiziki və zehni işlə əlaqədar olanlar: *rekordçu, modelçi, karikaturaçı, portretçi, romançı, felyetonçu, diplomçu, sitatçı* və s.

Qeyd edək ki, bu yolla düzələn sözləri yalnız yuxarıdakı bölgü daxilində məhdudlaşdırmaq olmaz. Bu bölgüdən kənarda qalıb, həmin qruplara daxil ola bilməyən *boksçu, modaçı, finalçı* və s. kimi sözlər də həmin keyfiyyətlərə malikdir. İctimai həyatın müxtəlif sahələrinə aid olub, yeni anlayışlar ifadə edən bu sözlər ədəbi dilimizin lüğət tərkibinə daxil olaraq ümumxalq səciyyəsi qazanmışdır. Anlaşıqlı olan bu tipli sözlərdən mətbuat dilində, habelə bədii ədəbiyyatın dilində də ümumişlək leksik vahidlər kimi istifadə olunur.

-lıq (-lik, -luq, -luk) şəkilçisi. Sovet dövründə-rus dilindən alınan sözlər əsasında sosialist ictimai-təsərrüfatına aid peşə, vəzifə, sənət anlayışları bildirən sözlər əmələ gəlməsində *-lıq (-lik, -luq, -lük)* şəkilçisinin də

---

[1] *Bax:* S.Cəfərov. Müasir Azərbaycan dili, I h. Bakı, «Maarif», 1972, səh. 184.

rolu böyükdür.

Dilimizin ən məhsuldar şəkilçilərindən olan *-lıq (-lik, -luq, -luk)* müxtəlif məna qruplarına malik sözlər yaradır. Alınma sözlər əsasında həmin şəkilçi ilə yaradılan yeni sözləri aşağıdakı məna qruplarında birləşdirmək olar:

1. Peşə-sənət, vəzifə, məşğuliyyət bildirənlər: *aqronomluq, admirallıq, akrobatlıq, aktyorluq, artistlik, aspirantlıq, dissertantlıq, direktorluq, kompozitorluq, briqadirlik, dekanlıq, rektorluq, prokurorluq, marşallıq, kassirlik* və s.

Qeyd etmək lazımdır ki, bu qrupa daxil olan bir qisim sözlər vardır ki, onlar vəzifə, məşğuliyyət bildirməklə yanaşı, vəzifə və məşğuliyyətin olduğu yeri də bildirməyə xidmət edir. Bu cəhətdən həmin sözlər dilimizdə omonimik cərgə yarada bilər. Omonim münasibətdə olan sözlərdən *dekanlıq, rektorluq, prokurorluq, direktorluq* və s. misal göstərmək olar.

2. İctimai mövqe və vəziyyət bildirənlər: *yakobinlik, kommunistlik, aktuallıq, obyektivlik, reallıq, prinsipiallıq, avanqardlıq, aqnostiklik, subyektivlik* və s.

3. Əlamət və keyfiyyət bildirənlər: *kostyumluq, voltluq, kotletlik* və s.

Azərbaycan ədəbi dili lüğət tərkibinə daxil olan və ümumişlək səciyyə daşıyan bu cür sözlərdən mətbuat dilində və bədii üslubda geniş surətdə istifadə olunur:

Deyəsən, a q r o n o m l u q məktəbində oxuyurdu (İ. Şıxlı); *Əvvəllər deyirdilər ki, səni b r i q a d i r l i y ə irəli çəkəcəyik, daha ondan söhbət açmırlar* (A.Məmmədov); *Maldarlıq sovetliklərində kolxozların vəziyyəti çox ciddi idi* (Ə.Vəliyev); *Söhbət bütün sahələrin r e n t a b e l l i y i n i yüksəltmək, kolxoz və sovxozların iqtisadiyyatını sağlamlaşdırmaq məqsədi daşıyan tədbirlərdən gedir* (K-

25.06.83); *Respublika əhalisinin həyat tərzində baş verən dəyişikliklər də öz dərinliyinə, miqyasına və intensivliyinə, keyfiyyətinə görə cəsarətlə tarixi dəyişikliklər adlandırıla bilər* (AG-30.06.83) və s

-lı (-li, -lu, -lü) şəkilçisi. Sovet dövründə rus dilindən alınmış sözlər əsasında Azərbaycan dilində *-lı (-li, -lu, -lü)* şəkilçisi vasitəsilə də çoxlu yeni sözlər yaradılmışdır. Yeni anlayışların ifadəsi kimi meydana çıxan *ordenli, medallı, planlı, sistemli, partiyalı, akkordlu, effektli, immunitetli, kateqoriyalı, koloritli, konduktorlu, kursivli, simmetriyalı, diplomlu* və s. sözlər indi dilimizdə geniş şəkildə işlədilir və hamı tərəfindən asanlıqla başa düşülür. Ədəbi dilin lüğət tərkibinin yeni lüğəvi vahidlərlə zənginləşməsində özünəməxsus yer tutan belə sözlərə müxtəlif üslublarda – mətbuatda, publisistik üslubda, bədii üslubda və s. təsadüf etmək olur:

Onların yüzdən çoxu akkordlu podrat əmək haqqı sisteminə keçirilmişdir (K-26.06.83); *Ordenli respublikamız bu il də plan tapşırıqlarını uğurla yerinə yetirmişdir* (K-18.10.83); *Yaxası medallı qəhrəman kolxozçu ayağa qalxıb söz istədi* (Ə.Vəliyev); *Sosialist təsərrüfatı hər şeydən əvvəl, planlı təsərrüfatdır* (K-19.01.82); *Yastıpapaq, qara, nazikbığ, ortaboy bir partiyalı ayağa qalxaraq, «Çobanın könlü olsa, təkədən pendir tutar», – dedi* (Ə. Vəliyev) və s

-sız (-siz, -suz, -süz) şəkilçisi. -lı (-li, -lu, -lü) şəkilçisi ilə antonim münasibətdə olan bu şəkilçi də məhsuldar olub, əsasən, həmin şəkilçinin *-lı, (-li, -lu, -lü* şəkilçisinin) artırıla bildiyi sözlərə əlavə edilir və əks məna ifadə edən sözlər yaradır: *plansız, sistemsiz, ideyasız, akkordsuz, effektsiz, koloritsiz, kursivsiz, ritmsiz, kateqoriyasız* və s.

Bu sözlər ədəbi dilin ayrı-ayrı üslublarında ideya-

siyasi, habelə təsərrüfatla bağlı anlayışları ifadə etmək məqamında işlədilir:

Təsərrüfat plansız olduqda işin nəinki keyfiyyətindən, həm də kəmiyyətindən söhbət gedə bilməz (SK-16.07.80); *İdeyasız əsərlər yazılmasının qarşısını almaq vacib məsələlərdən biridir* (K-16.02.75); *Partiyasızların da partiyalılarla birlikdə hüququ vardır* (Ə. Vəliyev) və s.

-çı+lıq (-çi+lik, -çu+luq, -çü+luk) şəkilçi birliyi. Xüsusən sovet dövründə *-çı (-çi, -çu, -çü)* şəkilçisindən sonra, *-lıq (-lik, -luq, -luk)* şəkilçisinin alınma sözlərə artırılması ilə çoxlu yeni sözlər yaradılmışdır. Bu şəkilçilərlə yaranan sözləri aşağıdakı şəkildə təsnif etmək olar:

1. Elm və təsərrüfatla bağlı müəyyən sənət, peşə adları, məşğuliyyət və s. bildirənlər: *aptekçilik, armaturçuluq, boksçuluq, bufetçilik, qravüraçılıq, ekskavatorçuluq, karikaturaçılıq, kataloqçuluq, katerçilik, kolleksiyaçılıq, kombaynçılıq, makinaçılıq, portretçilik, hipnozçuluq, kolxozçuluq* və s

2. İctimai-siyasi mövqe, əqidə, məslək və s. anlayışlarla əlaqədar olan sözlər: *avantüraçılıq, arakçeyevçilik, bernşteynçilik, zubatovçuluq, kornilovçuluq, lassalçılıq, miçurinçilik, oblomovçuluq, slavyançılıq, staxanovçuluq, komsomolçuluq, trotskiçilik* və s.

3. Müəyyən keyfiyyət, əlamət adları bildirən sözlər: *intriqaçılıq, kompaniyaçılıq, kollektivçilik, kooperativçilik, modaçılıq, sitatçılıq* və s.

Bəzi sözlərdə bu iki şəkilçini bir-birindən ayırmaq olmur və məlum olur ki, söz kökü bütünlüklə *-çılıq, (-çilik, -çuluq, -çülük)* şəkilçisi qəbul etmişdir. Məsələn: dilimizdə *oblomovçu, slavyançı* və s. sözləri; yoxdur. Ona görə də

oblomovçuluq, slavyançılıq sözlərindəki şəkilçi vahid *-çuluq, -çılıq* şəklindədir.

Bəzən *-lıq (-lik, -luq, -lük)* şəkilçisi *-lı (-li, -lu, -lü)* şəkilçisindən sonra gələrək keyfiyyət mənalı sözlər formalaşdırır ki, onların böyük əksəriyyəti mücərrəd mənalı olur. Məsələn, *effektlilik, kontrastlılıq, konfliktlilik, partiyalılıq, sistemlilik, perspektivlilik* və s.

-casına//-cəsinə şəkilçisi. Son vaxtlar bu şəkilçinin dilimizdə məhsuldarlığı xüsusi nəzərə çarpır. Bir çox hallarda alınma sözlərə artırılan bu şəkilçi keyfiyyət məzmunlu sözlər yaradır, daha doğrusu, müəyyən mənaya malik olan sözü həmin məna daxilində hərəkətlə bağlı keyfiyyət bildirmək istiqamətində formalaşdırır.

Sovet dövründə bu şəkilçi vasitəsilə rus dilindən alınan sözlər əsasında *aristokratcasına, ateistcəsinə, sosialistcəsinə, kommunistcəsinə, vulqarcasına, idealistcəsinə, materialistcəsinə, obyektivcəsinə, realistcəsinə, staxanovcasına, bürokratcasına, bolşevikcəsinə, marksistcəsinə, eqoistcəsinə, subyektivcəsinə, humanistcəsinə, şovinistcəsinə* və s. kimi sözlər əmələ gəlmişdir.

İctimai-siyasi məzmun baxımından daha çox publisist üsluba xas olan belə sözlər bilavasitə həmin anlayışları bildirmək məqamında bədii üslubda da işlədilir:

Əmək meydançasında kommunistcəsinə çalışırlar (SK-16.08.81); *Briqadanın staxanovcasına işləməsi kollektivin başqa üzvlərində də ruh yüksəkliyi yaradırdı* (Ə. Vəliyev); *Onun bürokratcasına hərəkətləri adamda əsəbilik yaradırdı* (Ə. Vəliyev); *Onların bolşevikcəsinə işləmələri kollektivi daim ruhlandırır* (K-12.07.43) və s.

-ca//-cə şəkilçisi. Bəzi hallarda semantik cəhətdən – *casına//cəsinə* şəkilçisi ilə eyniləşən bu şəkilçinin özünəməxsus semantik-qrammatik xüsusiyyətləri vardır.

Bəzən həm *–casına//-cəsinə,* həm də *-ca//cə* şəkilçisi eyni sözdən, demək olar ki, eynimənalı sözlər yaradır. Məsələn: *obyektivcəsinə//obyektivcə, subyektivcəsinə//subyektivcə, realistcəsinə//realistcə, kommunistcəsinə//kommunistcə* və s. Bu paralel sözlər eyni mənada, eyni funksiyada işlənə bilir.

Elə buradaca onu deyək ki, bu sözlər eyni məqam və funksiyada işlənsələr də, əslində bu mövqedə ikincilərin qeyri-dəqiqliyi, bununla əlaqədar az işləndiyi, birincilərin daha geniş işləndiyi, ona görə də eyni mövqedə ikincilərin sıxışdırıldığı özünü göstərir.

Bu şəkilçilər müəyyən semantik yaxınlığa malik olsalar da, bəzən başqa-başqa anlayışların yaradılmasına xidmət edir. Bu cəhət, məsələn, «ideyaca» sözündə xüsusi şəkildə özünü göstərir: Bu sözü «ideyacasına» şəklində işlətmək olmur və bu özü də bir daha göstərir ki, *-ca//-cə* və *-casına//-cəsinə* başqa-başqa şəkilçilərdir.

-la//-lə şəkilçisi. Söz yaradıcılığında, o cümlədən alınma sözlərdən yeni sözlər yaradılmasında, *-la//-lə* şəkilçisi və onun müxtəlif fel növləri şəkilçiləri ilə birlikdə işlənən formaları *(-laş, -ləş; -lan, -lən; -lat, -lət)* mühüm rola malikdir. Bəzən *belə* fikrə rast gəlmək olur ki, yalnız *–la//-lə* şəkilçisi var, son samitlər həmin şəkilçili felə sonradan artırılır. Məsələyə tarixi nöqteyi-nəzərdən yanaşdıqda burada həqiqət olduğunu görmək çətin deyil. Xüsusilə bir sıra sözlər bu şəkilçilərin dördünü də qəbul edir ki, bu da həmin fikrin təsdiqi üçün dəyərli faktdır. Məsələn: *asfaltlamaq//asfaltlanmaq, asfaltlaşmaq//asfaltlatmaq, sementləmək//sementlənmək//sementləşmək//sementlətmək*[*] və s.

---

[*] Misallar «Azərbaycan dilinin orfoqrafiya lüğəti»ndən (1975) götürülmüşdür.

Lakin bütün hallarda bu fikir təsdiqlənmir. Belə ki, elə sözlər vardır ki, onlar şəkilçilərdən birini, ikisini, yaxud üçünü qəbul edə bilmir. Məsələn: *ideal* sözü yalnız *-laş* şəkilçisi ilə *(ideallaşmaq), induksiya* sözü yalnız *-la* və *-lan* şəkilçisi ilə *(induksiyalamaq, induksiyalanmaq), qrim* sözü *-lə, -lən* və *-lət* şəkilçisi ilə *(qrimləmək, qrimlənmək, qrimlətmək)* işlənir. Bütün bunlar, xüsusilə bəzi sözlərin – *la//-lə* şəkilçisini qəbul etməsi göstərir ki, həmin şəkilçilərin hər biri haqqında ayrıca danışmaq lazımdır.

-laş//-ləş şəkilçisi. Sovet dövründə *-laş//-ləş şəkilçisi* vasitəsilə rus dilindən keçən sözlər əsasında ictimai-siyasi məna daşıyan bir sıra lüğəvi vahidlər əmələ gəlmişdir. Ədəbi dilin lüğət tərkibində özünəməxsus yer tutan *kolxozlaş, sovetləş, kollektivləş, qruplaş, demokratlaş* kimi sözlər xüsusilə xarakterikdir. Bu sözləri təkcə *-la//-lə* şəkilçisi ilə işlətmək olmaz.

Mətbuat dilində, həmçinin bədii üslubda bu tipli sözlər bilavasitə ictimai-siyasi anlayışların ifadəçisi kimi işlədilir:

Kollektivləşmənin ilk illərindən iqtisadi çətinliklərimiz az deyildi (K-20.08.40); *Onu kolxozlaşmış rayona işə göndərdilər* (Ə. Vəliyev); *Pasportlaşma başlamış ədəbiyyatda* (R. Rza); *Sovetləşmə başlananda buna kasıb-kusub daha sevinirdi* (Ə. Vəliyev) və s.

Bu şəkilçi vasitəsilə yalnız ictimai-siyasi mənalı sözlər deyil, bir sıra başqa məfhumları ifadə edən yeni sözlər də yaradılır: *intensivləşmə, ekranlaşma* və s.

Müxtəlif məna növlərinə aid fellər yaradan bu şəkilçilərin maraqlı xüsusiyyətlərindən biri onların bir neçəsinin üst-üstə işlənməsidir. Bu cəhətdən həmin şəkilçilərin aşağıdakı ardıcıllıqla işləndiyi nəzəri cəlb edir.

-laş, -laşdır, -laşdırma, -laşdırılma. Birinci və ikinci

mərhələlərdə adlardan fel yaradılırsa, sonrakı mərhələdə, əksinə, söz feli ada çevrilir, sonuncuda isə məchul növ şəkilçisi artırılmışdır (beləliklə, sonuncu şəkilçi özü də dörd şəkilçinin *(-laş, -dır, -ıl, -ma)* qovuşmasından meydana çıxmışdır.

Göstərilən sıra ardıcıllığı ilə şəkilçi qəbul edən alınmalara misal olaraq aşağıdakıları da göstərmək olar: *abstrakt-laş-dır-ma//abstrakt-laş-dır-ıl-ma, aktiv-ləş-dir-mə//aktiv-ləş-dir-il-mə.* Bu cür misalların sayını daha da artırmaq olar. Belə ki, *kino, kolxoz, konkret, kooperativ, leqal, plan* və s. sözlər həmin şəkilçiləri eyni ardıcıllıqla qəbul edə bilir.

Dilimizdə bəzi qeyri-məhsuldar şəkilçilər rus dilindən alınmış sözlərə artırılaraq yeni sözlər yaradır. Məsələn: *-ça//-çə* şəkilçisi vasitəsilə *aptekçə, vaqonça; -varı* şəkilçisi vasitəsilə *diplomatvarı, ellipsvarı, konusvarı, prizmavarı, silindrvarı; -cıq* şəkilçisi vasitəsilə *vaqoncuq, qrupcuq, ideyacıq, kanalçıq, krancıq, lampacıq* və s. sözlər yaradılmışdır.

b) Ərəb-fars mənşəli sözlərdən Azərbaycan dili şəkilçiləri vasitəsilə yeni sözlər yaradılması

Ərəb-fars mənşəli sözlərin dilimizə daxil olmasının uzun bir tarixi vardır. Ərəb istilası dövründən kütləvi şəkildə dilimizə keçərək aradan keçən bu uzun müddətdə əsl Azərbaycan sözləri ilə qaynayıb-qarışan, doğmalaşan bu sözlər dilimizin lüğət tərkibində xüsusi bir lay təşkil edir.

Sovet dövründə Azərbaycan ədəbi dilinə ərəb-fars

dillərindən ayrı-ayrı sözlər, demək olar ki, keçməmişdir. Təbii ki, bu hal ictimai-siyasi amillərlə şərtlənir. Buna baxmayaraq, ərəb-fars mənşəli sözlər sabit şəkildə yalnız ünsiyyət vasitəsi kimi işlənməklə qalmayıb, dilimizin lüğət tərkibinin daha da zənginləşməsində fəal iştirak etmişdir. Bu cəhətdən, ərəb-fars mənşəli sözlərin yeni sözlər yaranmasındakı rol və əhəmiyyəti xüsusilə qeyd edilməlidir. Ərəb-fars sözlərinin bir qismi həmin dillərə məxsus şəkilçilərlə dilimizə keçmişsə, bir qismi Azərbaycan dilinə məxsus şəkilçilər qəbul edərək yeni sözlərin meydana gəlməsində iştirak etmişdir.

Ərəb-fars mənşəli sözlərin əksəriyyəti dilimizin leksik-qrammatik qanunlarına tabe olaraq sözdüzəldici şəkilçi qəbul edir və yeni lüğəvi vahidlərin yaranmasında mühüm rol oynayır. Azərbaycan dilində ərəb-fars mənşəli sözlər əsasında yeni lüğəvi vahidlər yaradılması prosesində dilimizin, əsasən, məhsuldar şəkilçiləri iştirak edir.

-çı, (-çi, -çu, -çü) şəkilçisi. Sovet dövründə *-çı (-çi, -çu, -çü)* şəkilçisi vasitəsi ilə ərəb-fars mənşəli sözlər əsasında Azərbaycan ədəbi dilini yeni sosial anlayışlarla zənginləşdirən vahidlərin əmələ gəlməsi xüsusilə diqqəti cəlb edir. Bu sözlər, bilavasitə sosializm quruluşunun daxili inkişaf xüsusiyyətləri ilə bağlı anlayışları əks etdirir. Həmin şəkilçinin iştirakı ilə Azərbaycan dilində, xüsusən sovet dövründə *təsərrüfatçı, zərbəçi, tədarükçü, istehsalçı* və s. kimi saysız sözlər əmələ gəlmişdir. Bu sözlərin kökü dilimizdə ümumişlək xarakterdə olduğu kimi, sonradan onlar əsasında yaranan yuxarıdakı sözlər də bu keyfiyyəti qazanmışdır. Ona görə də həmin sözlər istər mətbuat dilində, istərsə də bədii əsərlərdə geniş şəkildə işlədilməkdədir:

Bu, yaxşı t ə s ə r r ü f a t ç ı n ı n öz işindən aldığı ləzzət

kimidir (Ə.Vəliyev); *Təsərrüfatçı kadrların təhsili ilə əlaqədar məsələ müzakirə edilmişdir* (K-19.06.69); *Pambıq ver zərbəçi dəzgahlara, Qoyma yadlar ölkənin sərvətini apara.* (R.Rza); *O, zərbəçi əmək kollektivində çalışır* (AG-18.04.68); *Bu istiqamətdə görülən tədbirlərin nəticəsidir ki, rayon tədarükçüləri az vaxtda dövlətə 90 min tondan çox tərəvəz satmışlar* (K-2.07.83) və s.

-çı şəkilçisi vasitəsi ilə ərəb-fars mənşəli sözlərdən vəzifə anlayışı bildirən vahidlərin əmələ gəlməsini də müşahidə etmək olur. Ədəbi dilimizdəki *qanunçu, nəzarətçi, təşkilatçı* və s. sözlər bu qrupa aiddir.

Milis, mənim fikrimcə, inzibatçı, qanunçu, tutan, cinayət, cəza orqanı deyildir (B.Bayramov); *Təsərrüfat məsələləri ilə əlaqədar xalq nəzarətçi-lərinin də qayğıları çoxalmışdır* (K-17.06.81); *Bəs nəzarətçilər? Mən onlara inanıram* (C.Əmirov); *O, həm yaxşı təşkilatçı, həm də igid bır əsgərdir* (M. Hüseyn) və s.

-çı şəkilçisi vasitəsi ilə ictimai-mədəni məzmun daşıyan sözlər də əmələ gəlir. Azərbaycan ədəbi dilində işləklik baxımından diqqəti cəlb edən belə sözlərə aid *tərbiyəçi, təbliğatçı, mühaziraçi, inqilabçı* və s. misallar göstərmək olar. Bu sözlər yalnız mətbuat dilində deyil, habelə bədii ədəbiyyatda da geniş işlənmə imkanına malikdir:

Tərbiyəçi sədrin hirsli vaxtlarını az görməmişdi, amma belə kobud valideynin olduğuna təsadüf etməmişdi (M.Hüseynov); *Təbliğatçının əsas vəzifəsi, dinləyicidə hadisəyə inam yaratmaqdan ibarətdir* (M.Hüseynov); *İlk partiya təşkilatı katiblərinin bir günlük seminarını keçiririk. Mühazirəçilər mərkəzdən olacaq* (M. İbra-himov) və s.

-çı şəkilçisi vasitəsi ilə ərəb-fars mənşəli sözlər əsasında yazıçı dilini, onun fərdi üslubunu səciyyələndirən okkazionalizm tipli neologizmlərin yaranmasına da təsadüf etmək olur. Bu sözlər indi bizə okkazionalizmlər kimi görünsə də, onların ümumdil faktına çevrilməsi ehtimalı vardır. Bu qəbildən olan *qeydçi, xəyalçı* sözləri xüsusilə diqqəti cəlb edir. Məsələn:

Seyrçilik, hadisələrin q e y d ç i s i səviyyəsinə enmək jurnalistin mənəvi məhvidir (Ə.Qasımov); *Mən uşaqlıqdan x ə y a l ç ı olduğum üçün köhnə həyatın çirkin cəhətlərini tez və daha açıq görürəm* (Ə.Vəliyev).

-lıq (-lik, -luq, -lük) şəkilçisi. Ərəb-fars mənşəli sözlər əsasında yeni ictimai məna bildirən sözlər yaradılmasında bu şəkilçi də mühüm rol oynayır. Bu məhsuldar şəkilçi vasitəsi ilə *hesabdarlıq, sədrlik, məhsuldarlıq* və s. kimi sözlər düzəldilmişdir. Ədəbi dilin lüğət tərkibində özünəməxsus yeri olan belə sözlər ayrı-ayrı üslublarda, xüsusilə mətbuat üslubunda və bədii üslubda ümumişlək sözlər kimi çıxış edir:

Onu sonra h e s a b d a r l ı q kursuna göndərdilər (AG-10.05.67); *İclasa s ə d r l i k edən cavan bir adam idi* (V. Babanlı); *Əməyin elmi təşkilinə bxyük diqqət yetirən bu briqadada m ə h s u l d a r l ı q bu il də artmışdı* (SK-16.09.80); *Doğrudur, m ə h s u l d a r l ı q planını yerinə yetirə bilməmişik* (M.İbrahimov) s.

-lıq şəkilçisinin məhsuldarlığı, işlənmə tezliyi bir daha onda özünü göstərir ki, alınma sözlərə artırılan bu şəkilçi vasitəsi ilə yalnız konkret deyil, abstrakt mənalı sözlər də yaradılır. Ərəb-fars sözlərinə artırılan bu şəkilçi *düşmənlik, kəfənlik, nigaranlıq* və s. kimi sözlər yaradır ki, bu sözlər bilavasitə yazıçı üslubunu səciyyələndirsə də, quruluşundakı sadəliyə və ifadə tərzindəki anlaşıqlılığa görə

diqqəti cəlb edir. Azərbaycan bədii ədəbiyyatında özünün leksik-semantik təzəliyi ilə səciyyələnən bu cür sözlərin iştirak etdiyi aşağıdakı misallar xarakterikdir:

Lakın o tükənməz, sanki heykəldir, Arxası qızıl yurd, önü d ü ş m ə n l i k (R.Rza); *Hər açılan qozası düşmənə bir k ə f ə n l i k* (R.Rza); *Ancaq həmişə vahimə, intizar, n i g a r a n l ı q onun zehnini gəmirirdi* (Mir Cəlal).

Yeri gəlmişkən demək lazımdır ki, həm birinci, həm üçüncü söz (düşmənlik, nigaranlıq) dildə *düşmənçilik, nigarançılıq* formasında işlənir. Lakin qısaldılmış forma həm struktur cəhətdən, həm də ehtiva etdiyi mənaya görə daha məqbul olduğu üçün onların dildə sabitləşməsi məqsədəuyğundur.

-çılıq (-çilik, -çuluq, -çülük) şəkilçisi. Sovet dövründə ərəb-fars mənşəli sözlər əsasında bu şəkilçi vasitəsi ilə təsərrüfat-siyasi məsələlərlə əlaqədar bir sıra yeni sözlər əmələ gəlmişdir. *İsrafçılıq, təsərrüfatçılıq, qənaətçilik* kimi sözlərin dilimizdə müvəffəqiyyətlə işlədilməsi onların sabitləşməsini təmin etmişdir. Sosialist təsərrüfat sisteminə aid olan belə sözlər xüsusən mətbuat dilində intensiv işlənən lüğəvi vahidlərdəndir:

Cəmiyyətimizin qanunları i s r a f ç ı l ı ğ a yol vermir (B-12.01.80); *Bunlar sosialist t ə s ə r r ü f a t ç ı l ı ğ ı n ı n başlıca prinsiplərindəndir* (SK-26.07.79); *Təbliğatçı q ə n a ə t ç i l i k prinsipini əsas konkret faktlarla şərh etməlidir* (K-16.04.78) və s.

-lı (-li, -lu, -lü) şəkilçisi. Bu şəkilçi vasitəsi ilə ərəb-fars mənşəli sözlərdən məna yeniliyi ilə səciyyələnən sözlər əmələ gəlmişdir. Belə sözlərin yaranmasında fərdi yazıçı üslubu əsas zəmin olduğundan onlara daha çox bədii ədəbiyyatda təsadüf edilir:

Zatında şübhə olan adamı ixtiyarlı komissiya divara

söykəyib hesab çəkibdir (B.Bayramov); *Qurtarmaqçın ağrıdan işə, z ə r b ə l i gedişə, yarış, Lenin yolunda qalibiyyətçin çağırışa gedirəm* (R. Rza).

İxtiyarlı sözü rus dilindəki «правомочный», *zərbəli* sözü isə «ударный» sözünün kalkası kimi meydana çıxsa da, onların yeni leksik-semantik vahid kimi yazıçı tərəfindən dildə işlədilməsi dilin leksik imkanlarının zənginləşməsi baxımından əhəmiyyətlidir. *Zərbəli* sözünün ədəbi dildə daha işlək *zərbəçi* variantı olsa da, müasir dildə, xüsusən son dövrdə *ixtiyarlı* sözünün mətbuatda geniş şəkildə işlədildiyi müşahidə olunur – *Bu məsələyə i x t i y a r l ı təşkilatlar tərəfindən baxılması məsləhət görülmüşdür* (K-16.07.82).

Qeyd etməliyik ki, *ixtiyarlı* sözü rəsmi üsluba məxsus *səlahiyyətli* sözünü də leksik-semantik cəhətdən bütövlükdə əvəz edir. İfadə tərzindəki yüngüllük və asanlıq da ona üstünlük qazandırır. Ümumiyyətlə, ifadə tərzinə və məna xüsusiyyətlərinə görə özünü tam şəkildə doğruldan *ixtiyarlı* sözü ümumxalq səciyyəsi qazanma meyili güclü olan lüğəvi vahidlərdən biri kimi maraqlıdır.

-sız (-siz, -suz, -süz) şəkilçisi. Söz yaradıcılığı prosesində bu şəkilçi məhsuldar şəkilçilər sırasındadır. Sovet dövrünə qədərki Azərbaycan ədəbi dilində, habelə inqilabdan sonrakı ilk illərdə Azərbaycan ədəbi dilində ərəb-fars mənşəli *biməfa, bigünah, bihünər* tipli sözlərin işlədilməsi səciyyəvi idi. Sonrakı dövrlərdə isə *-sız* şəkilçisi bu sözlərdəki *bi-* en şəkilçisini əvəz etmişdir. Bu isə bilavasitə alınma sözlərdə milliləşdirmə xüsusiyyətlərinin gücləndirilməsi ilə əlaqədardır. Belə ki, dilimizdə ön şəkilçi yoxdur və ona görə də alınmalardakı ön şəkilçilərin dilimizə məxsus son şəkilçilərlə əvəz edilməsi qanuna-uyğun hal hesab edilməlidir. Bu cür əvəzetmələr ədəbi dilə

təsirsiz qalmamış, əvvəlki ön şəkilçili sözlər ədəbi dilin lüğət tərkibindən çıxarılmış və son şəkilçili milli formalar sabitləşmişdir. Düzdür, *bi-* ön şəkilçili düzəltmə sözlərin bir qismi hələ də dilimizdə yaşayır, lakin ikincilərin işlənmə intensivliyi get-gedə daha da artır. Müasir ədəbi dilimizdə *bihünər, bivəfa, bigünah* sözləri əvəzinə, *hünərsiz, vəfasız, günahsız* sözləri daha çox işlənməkdədir.

Onun vəfasız olmasına daha şübhə qalmırdı (Ə. Vəliyev); *Günahsız adamlar öz yerlərindən dərbədər düşürlər* (K-18.07.81); *Hünərsiz bir adam burada nə edə bilərdi* (T. Abbasov).

-casına//-cəsinə şəkilçisi. Bu şəkilçi ərəb-fars mənşəli sözlərdən bilavasitə ictimai-siyasi məzmunlu keyfiyyət bildirən yeni lüğəvi vahidlər yaratmağa xidmət edir. Bu şəkilçi ilə *qəhrəmancasına, fədakarcasına* və s. kimi sözlər düzəlmişdir:

Sovet döyüşçüləri bu cəbhələrdə yenilmədən və qəhrəmancasına vuruşmuşlar (K-16.11.46); *Tarlalarda fədakarcasına çalışan igid əməkçilərimiz zəhmət bayrağını daim qaldırırlar* (SK-18. 08.71).

-daş şəkilçisi. Ədəbi dilimizdəki ərəb-fars mənşəli sözlərə Azərbaycan dilinə məxsus *-daş* şəkilçisinin artırılması ilə yeni isimlər yaradılmışdır. Belə sözlərdə yeni quruluşun mahiyyətindən doğan məqsəd və əqidə birliyi kimi mənalar ifadə olunur. Bu şəkilçi vasitəsi ilə *məsləkdaş, vətəndaş* kimi ümumxalq səciyyəsi qazanmış sözlərin yaranması ilə yanaşı, fərdi yaradıcılıq məhsulu kimi formalaşıb, hələ tam vətəndaşlıq hüququ qazanmamış *vəzifədaş* tipli sözlərə də təsadüf olunur:

Öz məsləkdaşları ilə bir daha götür-qoy etməyi lazım bildi (B. Bayramov); *Vətəndaş, vətəndaş! Bu xalq da sənin kimi vətəndaşdır* (C.Cabbarlı); *Öz*

v ə z i f ə d a ş ı ilə iş-güc barədə danışıb-dərdləşməyə hazırlaşırdı (B. Bayramov).

Ərəb-fars mənşəli sözlərdən müxtəlif fellər də əmələ gəlir. Burada iki istiqamət mövcuddur. Birinci istiqamət adlara fel düzəldən şəkilçi artırılmaqla birbaşa fel əmələ gətirilməsindən ibarətdir. İkinci istiqamət isə adlardan ad, sonra fel əmələ gətirilməsi kimi səciyyələnir. Azərbaycan dilində ərəb-fars mənşəli sözlər əsasında adlardan fel əmələ gəlməsində *-la//-lə, -laş//-ləş, -lan//-lən* şəkilçiləri mühüm rol oynayır. Müasir Azərbaycan dilində, xüsusən son dövrlərdə bu şəkilçilər vasitəsi ilə əvvəlki mürəkkəb formadan fərqli olaraq, yeni düzəltmə sözlər əmələ gətirilməsi təşəbbüslərini də müşahidə etmək olur. Belə sözlərin bir qismi hələlik müəyyən fərdi üslubda məhdudlaşsa da, dilin mürəkkəblikdən sadəliyə doğru ümumi inkişaf meyili, habelə ifadə tərzindəki asanlıq və leksik-semantik anlayışın tam əhatəliliyi baxımından diqqəti cəlb edir. Azərbaycan dilində ərəb-fars mənşəli sözlərdən fel əmələ gətirilməsində, başlıca olaraq, aşağıdakı şəkilçilər fəallıq göstərir:

-la//-lə şəkilçisi. Azərbaycan ədəbi dilində bu şəkilçi vasitəsi ilə ərəb mənşəli *tərif* sözündən *tərifləmək* sözü əmələ gəlmişdir. *Tərifləmək* sözü düzəltmə sözlərdən biri kimi, Azərbaycan dili lüğət tərkibində başqa sözlərlə elə qaynayıb-qarışmışdır ki, az qala onun kökünün alınma olduğu hiss edilmir. Ümumişlək leksikaya daxil olan *tərifləmək* sözünə ədəbi dilin ayrı-ayrı üslublarında geniş şəkildə rast gəlmək olur:

Əməkçilərin fədakar işlərini təkcə t ə r i f l ə m ə k azdır (SK-16.07.80); *Elə hamı durub bir ağızdan «t ə r i f l ə y i r d i»* (M. Hüseyn) və s

Struktur cəhətdən mürəkkəbliyə malik olan *tərif*

etmək sözü əvəzinə, «tərifləmək» sözünün meydana çıxması və işlədilməsi dilimiz üçün uğurlu haldır. Qeyd edək ki, müasir Azərbaycan dilində bu tipli *tənqid etmək, təsdiq etmək* kimi söz-formalar da mövcuddur. Son dövrlərdə, xüsusən fərdi yaradıcılıq məhsulu kimi meydana çıxıb, bu sözləri əvəz edən *tənqidləmək, təsdiqləmək* sözlərinin işlədilməsini də uğurlu hadisə kimi qiymətləndirmək olar. *Təsdiqləmək* sözü geniş işlənmə intensivliyi qazanmışdır, *tənqidləmək* sözü isə hələ tam vətəndaşlıq hüququ qazanmamışdır. Buna baxmayaraq, zaman öz sözünü deyəcək və *tərifləmək, təsdiqləmək* sözləri kimi bu söz də dilimizdə öz yerini tapıb möhkəmlənəcək. Qeyd etməliyik ki, *-la//-lə* şəkilçisi vasitəsilə ümumdil qanunları əsasında əmələ gələn belə sözlər fərdi-üslubi yaradıcılıq təşəbbüsləri ilə daha çox bağlı olduğundan həmin sözlərin bədii ədəbiyyatda işlədilməsi daha çox diqqəti çəkir:

Bu dəfə isə başqa cür çıxış edib onu tənqidləməyi qərara aldı (Anar); *O, danışdıqca bu da başı ilə təsdiqləyirdi* (Ə. Vəliyev) və s.

-la//-lə şəkilçisi vasitəsilə ərəb mənşəli *mübarək* sözündən *mübarəkləmək* sözü də meydana çıxmışdır ki, müasir dilimizə tam daxil olmasa da, onun «mübarək eləmək» sözü əvəzinə işlədilməsinin əhəmiyyəti göz qabağındadır. Bu söz də fərdi-okkazional neologizmlərdəndir – *Müavin qalxıb əzbərlədiyi cümlələrlə Atakişiyevin 40 illiyini düz yarım saat mübarəklədikdən sonra sözü mənə verdi* (S. Qədirzadə).

-laş//-ləş şəkilçisi. Bu şəkilçi vasitəsi ilə Azərbaycan dilində ərəb-fars mənşəli sözlər əsasında *sadələşmək, mürəkkəbləşmək, ahəngləşmək, məhdudlaşmaq* və s. kimi sözlər düzəlmişdir. Müasir dildə həmin sözlərin quruluşuna

uyğun şəkildə mürəkkəblikdən sadəliyə doğru inkişaf meyili ilə əlaqədar bir sıra yeni sözlərin əmələ gəlməsi müşahidə edilir. Belə sözlərin əmələ gəlməsi bir qayda olaraq, ərəb-fars mənşəli sözdən sonra işlədilən *olmaq, etmək,* sözləri ilə formalaşan mürəkkəb formaların əvəzlənməsi təşəbbüsü ilə bağlıdır; belə ki, analitik formanın ikinci tərəfi *-laş, -ləş* şəkilçisi ilə əvəzlənir. Əsas etibarı ilə fərdi yaradıcılıq məhsulu olan və dilin ümumi inkişaf qanunlarına əsaslanan belə sözlərə bədii ədəbiyyatda olduğu kimi, mətbuat dilində də rast gəlmək mümkündür:

Elə ki, yoxluğun dönür varlığa; hissimdə, ruhumda, heykəlləşirsən (B.Vahabzadə); *Söhbətləri işlərini hansı yolla sürətlə təzələməkdən, «fəhlələşməkdən» getdi* (B.Bayramov); *Belə bir hiss ilə də nə qədər geç deyil, kənarlaşmaq istəyirdim* (B.Bayramov); *Azərittifaqın Baş Tədarük İdarəsinin əmri ilə bu il iyun ayının birindən vəzifədən kənarlaşdırılmışdır* (K-26.08.83); *Yalnız silahların azaldılması yollarının aşkarlaşdırılması bəşəriyyətə möhkəm və etibarlı sülh gətirə bilər* (AG-30.06.83)

-lan//-lən şəkilçisi. Ərəb-fars mənşəli sözlər əsasında *-lan//-lən* şəkilçisi ilə düzələn fellər hərəkət və hal-vəziyyətin dəyişməsi məzmununu ifadə edir. Bu qəbildən olan düzəltmə sözlər də Azərbaycan dilinə məxsus feli lüğəvi vahidlər kimi felin bütün əlamətlərini qəbul edə bilir. Dilimizin ümumişlək leksikasına daxil olan *nurlanmaq, həvəslənmək, silahlanmaq* və s. kimi sözlər bu qəbildəndir:

Sanki bu köhnə kolxoz klubunun divarları bu insan sevincindən nurlanaraq, işıqlanmış və genişlənmişdi (M. İbrahimov); *İctimai işə həvəsləndirmə üçün*

mükafatlar ayrılmışdır (AG-18.05.68); *Quldurların silahlandırılaraq dinc əhali üzərinə göndərilməsi ictimaiyyətin haqlı narazılığına səbəb olmuşdur* (B-16.09.68).

Addan fel yaratmanın ikinci istiqaməti üzrə düzələn sözlərdə əvvəlcə ad düzəldən, sonra isə fel düzəldən şəkilçi iştirak edir, daha doğrusu, birinci mərhələdə addan ad, ikinci mərhələdə isə addan fel düzəlir. Bu yolla yaranan sözlərə aid *köməksizləşmək, qiymətsizləşmək* və s. kimi misallar göstərmək olar. Məsələn: *Xədicəyə elə gəlirdi ki, Zərbəli köməksizləşmişdi* (B. Bayramov); *İnsan dəyərinin tam qiymətsizləşdiyi bir dövrdə bu dəyərləri təyin etmək cəhdi də ortaya çıxır* (Anar).

c) Rus-Avropa və ərəb-fars dillərinə məxsus şəkilçilərlə yeni sözlər yaradılması

Başqa dillərə məxsus şəkilçilərin söz yaradıcılığı xüsusiyyətləri barədə dilçiliyimizdə bir sıra maraqlı fikirlər irəli sürülmüşdür.

N.Məmmədov göstərir ki, bir dildən başqa dilə söz və ifadələr keçdiyi kimi, sözlərlə birlikdə bir sıra şəkilçilər də keçə bilər. Bu hal həm şifahi danışıq dili və həm də yazılı ədəbiyyat vasitəsi ilə mümkün olur. Müəllif diqqəti belə bir cəhətə yönəldir ki, rus dilində sözdüzəldici forma kimi işlənən *-izm, -ist, -or, -ant, -ent* şəkilçilərinin özləri də başqa dildən alınmadır. Buradan, ümumiyyətlə, belə bir nəticə çıxarmaq olur ki, rus dilində *oçerkist, sosializm, kommunist, turizm, direktor, dissertant, opponent* kimi sözlərin düzəldilməsində iştirak edən bu şəkilçilər Azərbaycan dilində də sözdüzəldicilik funksiyasını yerinə

yetirir[1].

Bəzən başqa dillərdən, xüsusən rus dilindən Azərbaycan dilinə daxil olmuş sözlərin müəyyən bir qisminin yalnız rus dilinə məxsus şəkilçi ilə işlənməsi fikri də irəli sürülür, buna dair *marksizm, leninizm, sosializm* və s. kimi misallar verilir. Beləliklə, bu cür sözlərin sadə söz hüququnda olması fikri ortaya atılmış olur[2].

S.Cəfərov söz yaradıcılığı məsələlərindən bəhs edərkən rus dilinə məxsus *-izm, -ist, -av, -ov,* habelə ərəb-fars sözləri ilə Azərbaycan dilinə daxil olmuş *-şünas, -bi, na-, -i, -vi, -kar* və s. şəkilçiləri sözdüzəldici şəkilçilər sırasında izah edir[3].

M.Hüseynzadə başqa dillərdə sözdüzəldicilik xüsusiyyəti daşıyan və bilavasitə aid olduğu sözlərlə Azərbaycan dilinə daxil olmuş şəkilçilərin söz yaradıcılığı prosesində iştirakı barədə daha konkret fikir irəli sürür: «Biz başqa dildən alınma sözü o vaxt düzəltmə söz hesab edə bilərik ki, onun kökü Azərbaycan dilində ayrıca söz kimi mövcud olsun, işlədilsin; *şəxsiyyət, fəaliyyət, kəşfiyyat, materializm, idealist* və s. Bəzi məqamlarda şəkilçi eyni saitlə başladığına görə söz kökündən son saitin düşdüyünü də nəzərə almaq lazımdır: *səmimiyyət, mədəniyyət, ictimaiyyət* və sairə»[4].

Bu xüsusiyyət başqa dillərdə də müşahidə edilir. Məsələn, rus dilində *-navt (aeronavt, astronavt,*

---

[1] *Bax:* N.Məmmədov. Dilin lüğət tərkibinin zənginləşməsininn mənbə və üsullarına dair. Bakı, 1958, səh, 20-22.

[2] *Bax:* Müasir Azərbaycan dili, I c., «Elm» nəşriyyatı, Bakı, 1978, səh. 246

[3] *Bax:* S.Cəfərov. Azərbaycan dilində söz yaradıcılığı, ADU nəşriyyatı, Bakı, 1960, səh.70-83; Yenə onun: Azərbaycan dilində sözdüzəldici və sözdəyişdirici şəkilçilər, Bakı, 1968, səh. 30-31

[4] M.Hüseynadə. Müasir Azərbaycan dili, Bakı, «Maarif» nəşriyyatı, 1983, səh. 31

stratonavt), -drom (aerodrom, motodrom, vertodrom, sindrom, vododrom) kimi şəkilçilər vasitəsilə söz düzəldilməsini buna misal göstərmək olar[1].

Alınma sözlərin müəyyən bir qismi öz şəkilçi tərkibi ilə birlikdə leksik-semantik və qrammatik-semantik cəhətdən tam diferensiallaşmadığından hətta bir neçə sözdə özünü göstərən eyni şəkilçi dilimizdə ümumilikdə sözdüzəldici forma kimi çıxış edə bilmir. Bəzi şəkilçilər isə Azərbaycan dilinin fonetik qanunları əsasında dəyişdirilir. Belə şəkilçilər də leksik-qrammatik və semantik diferensiallaşma xüsusiyyətlərinə görə bütövlükdə sözdüzəldicilik xarakterinə malik olmur. Azərbaycan dilindəki başqa dillərə aid şəkilçilərin sözdüzəldicilik xüsusiyyətlərini, əsas etibarı ilə aşağıdakı kimi ümumiləşdirmək olar.

Rus dilindən keçmiş şəkilçilərin sözdüzəldicilik xüsusiyyətləri. Dilimizə rus dilindən onlarla söz keçmişdir ki, onları əslində kök və şəkilçi hissəyə ayırmaq mümkündür, başqa şəkildə desək, həmin sözlər etimon dildə sadə quruluşlu olmadığı kimi, Azərbaycan dilində də bu xüsusiyyətini saxlayır. Bu hal bilavasitə ondan doğru ki, həmin sözlərlə yanaşı, onların kökünü və ya əsasını təşkil edən söz də dilimizə keçir. Məsələn, «marksist» sözü ilə yanaşı, «Marks» sözü də dilimizdə işlədilir. Məlumdur ki, sözün hər hansı mənalı vahidi müstəqil olaraq işlənirsə, ona artıq sadə söz kimi baxmaq olmaz; *-ist* morfemi etimon dildə də şəkilçidir və təbii ki, Azərbaycan dilində də bu mövqeyini saxlayır, yəni şəkilçi olaraq qalır.

Qeyd edək ki, bütün hallarda bu prinsipə riayət olunmur, daha doğrusu, etimon dildə düzəltmə yolla

---

[1] *Bax:* В.В.Лопатин. Рождение слова. Неологизмы и окказиональные образования. М., изд. «Наука», 1973, стр. 30

yaradılan bəzi sözlər dilimizdə sadə olur. Belə ki, məsələn, «eqoist» sözünü dilimizdə kök və şəkilçiyə ayırmaq mümkün deyil. Etimon dilin qrammatik qayda-qanunları əsasında bu söz kök və şəkilçiyə parçalana bilirsə, belə əməliyyatı Azərbaycan dili qrammatik qayda-qanunları əsasında aparmaq olmur.

Yaxud etimon dildə mürəkkəb quruluşa malik olan söz dilimizə sadə və ya düzəltmə söz kimi daxil olur. Məsələn, «теплоход», «самолёт» sözləri etimon dildə mürəkkəb söz adlandırıla bilər, çünki buradakı hər söz özlüyündə iki sadə sözdən *(тепло-ход, само-лёт)* ibarətdir və bu da imkan verir ki, həmin qəbildən olan çoxlu söz mürəkkəb söz kimi təsnif edilsin. Dilimizə həmin formada daxil olmuş bu sözləri nə iki kökə, nə də kök və şəkilçiyə ayırmaq mümkündür, çünki bu tərkib hissələrin heç biri dilimizdə müstəqil, ayrıca yaşamaq hüququna malik deyil. Ona görə də, təbii ki, onlar sadə sözlər kimi təsnif edilir. Hal-hazırda rus dilində çoxlu sözdüzəldici şəkilçi vardır ki, onlar yeni mənalı sözlər yaratmağa xidmət edir. P. K. Milşin rus dilində ictimai-siyasi leksikanı zənginləşdirən bu cür şəkilçilər sırasında *-ik, -nin, -em, -ist, -izm, -иця, -ниця, -tor* və s. şəkilçiləri də verir və göstərir ki, bu şəkilçilərlə formalaşan sözlər yeni sözlərdir[1]. Dilimizdə rus dilindən alınan düzəltmə sözlərin formalaşmasında aşağıdakı şəkilçilər iştirak edir.

Sonu -iya şəkilçisi ilə bitən sözlər. Azərbaycan ədəbi dilində *-iya* şəkilçisi ilə formalaşan və düzəltmə söz kimi qeyd olunan çoxlu alınma sözlər vardır. Bunlar ictimai

---

[1] П.К.Мильшин. Обогащение общественно-политической лексики русского языка в советскую эпоху (на материале партдокументов, периодической печати, художественной литературы); АКД, Ростов-на Дону, 1964, стр. 10.

həyatın müxtəlif sahələrinə aid olub, leksik-semantik xüsusiyyətlərinə görə aşağıdakı qruplara ayrılır:

1. Müxtəlif peşə, məşğuliyyət sahələrinə aid olanlar. Bunlar ya sənət, peşə, məşğuliyyət adları, ya da onlara müxtəlif cəhətdən aid olan sözlərdir. Məsələn: *toponimiya, psixiatriya, arxeoqrafiya, arxeologiya, etnoqrafiya, ixtioqrafiya, kardioqrafiya, kosmoqrafiya, diffuziya, sinonimiya* və s

2. İctimai-siyasi anlayış bildirənlər: *aristokratka, bürokratiya, demokratiya, diplomatiya, hegemoniya* və s

Bu bölgülərə daxil olmayan *sanitariya, telefoniya, ortodoksiya, refleksiya* və s. sözlər də dilimizdə düzəltmə söz hüququndadır. Bu cür sözlər məhdud dairədə qalmayıb, mətbuatda, elmi əsərlərin dilində işlənməkdədir:

Nəcəf demokratiyanı gözləyərək səsə qoydu (M. İbrahimov); *Əsərdə dil universaliyaları barədə də bəhs olunur* (B-18.07.77); *O, tibb institutunun pediatriya fakültəsində təhsil alır* (AG-18.06.81).

Azərbaycan dilində sonu *-iya* şəkilçisi ilə bitən rus dilindən alınmış bir sıra sözlər də vardır ki, dilimizin leksik-qrammatik qaydaları üzrə onları düzəltmə sözlər hesab etmək olmaz. Bu sözlərdəki *-iya* hissəciyi Azərbaycan dilində şəkilçilik funksiyasını itirmiş olur, bütövlükdə söz sadə quruluşlu leksik vahid kimi dərk olunur. Azərbaycan ədəbi dilində geniş şəkildə işlədilən və ümumxalq səciyyəsi qazanan *sivilizasiya, partiya, auditoriya, stansiya, kultivasiya, plantasiya* və s. kimi lüğəvi vahidlər bu qəbildəndir. Cəmiyyətin daxili inkişaf problemləri ilə əlaqədar müvafiq şəkildə ictimai-siyasi, habelə təsərrüfat-iqtisadi anlayışlarla bağlı olan belə sözlərə mətbuatda və bədii ədəbiyyatda tez-tez təsadüf etmək olar:

Yer üzündə sivilizasiyanın, həyatın qorunması

üçün hər cür tədbirlər görmək lazımdır (AG-30.06.83); *Qafar çibindən partiya biletini çıxardıb özək katibinə təqdim etdi* (Ə. Vəliyev); *Adilə auditoriyadan çıxan kimi həmzə onu yanladı* (Ə. Qasımov); *Stansiyada Tiflis qatarının axşamüstü gələcəyini öyrənib geri döndülər* (M. Hüseyn); *Bir çox yerlərdə suvarılan uzunmüddətli mədəni otlaqlar başlı-başına buraxılmışdır, pozulmuş torpaqların kultivasiyasına dair tapşırıqların yerinə yetirilməsi gedişinə zəif nəzarət edilir* (K-31.07.83); *İndi kənd təsərrüfatı aviasiyası pambıq plantasiyalarını dərmanlamağa başlamışdır* (K.27. 08.83).

Sonu -a şəkilçisi ilə bitənlər. Azərbaycan dilində sonu *-a* şəkilçisi ilə bitən bir qrup söz işlədilir ki, bunların bəziləri düzəltmə sözlər prinsipinə uyğun gəlir, digər qismində isə şəkilçini kök hissəsindən ayırmaq olmur. Düzəltmə söz hüququnda işlədilən belə sözlərdən *klinika, nomenklatura, praktika* və s. göstərmək olar. Bu sözlərin kökü əsasında Azərbaycan dilində *klinik xəstəxana, klinik cərrahlıq, praktik əhəmiyyət, nomenklatur qiymət* və s. kimi söz birləşmələrinin əmələ gəldiyi müşahidə edilir.

Dilimizdə kök hissəsi müstəqil işlənə bilməyən və sonu etimon dildəki *-a* şəkilçisi ilə bitən *drujina, partitura* kimi sözlər isə Azərbaycan dilində sadə sözlər cərgəsinə daxildir. İstər düzəltmə və istərsə də sadə söz hüququnda olan bu tipli lüğəvi vahidlər sovet dövrü Azərbaycan ədəbi dilində müxtəlif ictimai və təsərrüfat-iqtisadi anlayışları ifadə etmək məqsədi ilə işlədilir:

Atam üçün niyə qorxuram? Klinikadan bu saat bir həkim alaram, təcili müalicəsinə başlaram (Mir Cəlal); *Şəhər partiya komitəsi onlara sözlə işin vəhdəti, həyatda, praktika ilə bağlılıq meyarı ilə yanaşır* (K-2.07.83); *Onlar xalq istehlakı mallarının istehsalı və nomen-*

klaturası üzrə planın xeyli kəsrlə yerinə yetirilməsinə yol vermişlər (AG-30.06.83).

Etimon dildə bu şəkilçinin iştirakı ilə formalaşan bir sıra sözlər də vardır ki, onlar haqqında ayrıca bəhs etmək lazımdır.

Məlumdur ki, sovet hakimiyyətinin ilk illərində alınma sözlərə münasibət müxtəlif olmuşdur. Bu müxtəliflik yalnız alınma sözün qəbul edilib-edilməməsi, yaxud hansı sözlərin qəbul edilməsi sahəsində deyil, habelə onları necə qəbul etmək, haisı şəkildə mənimsəmək məsələsində də özünü göstərirdi. Sonu -*a* ilə bitən alınmalar da belə mübahisə obyektlərindən olmuşdur. 1929-cu ildə keçirilmiş imla konfransının çıxardığı qərara əsasən rus dilindən alınmış və sonu -*a* ilə bitən sözlərdə həmin morfem atılırdı. Bu hal yalnız mətbuatda deyil, lüğətlərdə, o cümlədən «İmla lüğəti»ndə də öz əksini tapmışdır. Belə ki, rus dilindən alınmış *sistema, fizika, botanika, problema, dialektika, texnika, mexanika, praktika* və s. sözlər -*a*-sız yazılmağa başladı. Bu qayda heç cür özünü doğrulda bilməzdi. Hər şeydən əvvəl ona görə ki, bu qəbildən olan bir qisim sözlər vardır ki, onlar dilimizdə hər iki formada bir-birindən fərqli müxtəlif anlayışlar ifadə edir. *Fizika//fizik, botanika//botanik, dialektika//dialektik, texnika//texnik, mexanika//mexanik, praktika//praktik* və s. sözlər bu qəbildəndir. Bu sözlərin birincisi, daha doğrusu, -*a* ilə işlənənlər hər hansı elm, peşə, məşğuliyyət sahələrindən birinin adını bildirirsə, -*a*-sız işlənənlər tamam başqa məna – məzmun ifadə edir. Bunların bir qismi həmin sahə ilə məşğul olan adam anlayışını, digər qismi keyfiyyət, əlamət ifadə edir. Ona görə də bu cür sözlərdə -*a*-nın işlənib-işlənməməsindəki qanunauyğunluğa, düzlüyə xüsusi fikir verilməlidir. Etiraza səbəb olan bu qaydaya bir

də 1937-ci ildə qayıdıldı və həmin ildə tərtib olunan orfoqrafiya qaydaları layihəsində sonu *-a* ilə bitən bütün sözləri olduğu kimi qəbul etmək təklif edildi, etimon dildəki *apteka, sistema, problema, drama, direktiva* və s. sözlər olduğu kimi saxlanıldı. Nəhayət, 1957-ci ildə hazırlanmış və 1958-ci ildə təsdiqlənmiş yeni orfoqrafiya qaydalarında *-a*-nı atdıqdan sonra məna dolaşıqlığı yaratmayan sözlərin yenidən *-a*-sız yazılması təklif edildi və o vaxtdan çox haqlı olaraq *-a* ilə bitən bütün sözlər deyil, yalnız mənaca dəyişməyən sözlər *-a*-sız işlədilməyə başlandı: *sistem, aptek, problem, dram, direktiv* və s. Hal-hazırda bu qəbildən olan sözlərin sayı dilimizdə daha da artmışdır: *vitrin(a), orbit(a), proqram(ma), teleqram(ma)* və s.

Xatırladaq ki, bəzi müasir türk dillərində həmin mövqelərdə yenə də *-a* şəkilçisi saxlanılır və sözlər i d i o m a, f o n e m a şəklində işlədilir[1]. Maraqlıdır ki, bəzi türk dillərində nəinki bu sözlərdə həmin forma qalmış, hətta sonu qoşa samitlə bitən sözlərdə öz ilkin fonetik formasını keçdiyi dildə saxlamışdır. Belə ki, rus dilindəki *kiloqram, metall, proqress* və s. sözlər məsələn, özbək dilində də eyni: fonetik qabıqda işlənir[2].

Sonu -izm şəkilçisi ilə bitənlər. Azərbaycan ədəbi dilində sonu *-izm* şəkilçisi ilə bitən bir sıra sözlər vardır ki, bunların bəziləri düzəltmə söz hüququnda olduğu halda, bəziləri sadə söz kimi işlədilir. Azərbaycan dilindəki *marksizm, materializm, leninizm, sosializm, atomizm, vokalizm, volyuntarizm, intellektualizm, internasionalizm, idealizm, sovetizm, modernizm, pozitivizm* və s. sözlərin kökü müstəqil şəkildə işlənməkdədir. Bu sözlərin bir qismi

---

[1] *Bax:* Xozirqi zaman uzbek tili, Toşkent, 1957, səh. 103.
[2] Yenə orada, səh 104.

ayrılıqda sosial-siyasi məzmun daşıyan bir sıra söz birləşməsinin yaranmasında fəal iştirak edir: *Marks nəzəriyyəsi, Leninin vəsiyyəti, sosial quruluş, ideal nəzəriyyə, sovet dövləti* və s. Ədəbi dildə, ümumiyyətlə, *-izm* şəkilçili sözlər ictimai və ideya-siyasi anlayışları ifadə etmək üçün işlədilir:

Biz marksizmin əsaslarını dərindən öyrənməliyik (K-12.06.39); *Leninizmin ölməz ideyaları bütün xalqlar üçün örnəkdir* (K-19.05.56); *Marks və Engels materializmin yaradıcılarıdır* (AG-18.08.58); *İqtisadi inkişaf sosializmin möhkəmlənməsinin əsas maddi bazasıdır* (K-18.05.39); *İndiki nəsil, həqiqi mənada kommunizm qurucuları nəslidir* (K-16.07.68); *Onlar məsələnin şərhinə idealizm mövqeyindən yanaşırlar* (Əİ-16.07.74), *Əsərdə bir çox sovetizmlərin yaranma üsullarından da bəhs edilir* (B-14.07.69) və s.

Azərbaycan dilində sonu *-izm* ilə bitən *anarxizm, akmeizm, ateizm, purizm, bantizim, eqoizm faşizm* tipli kökü müstəqil işlənməyən sözləri, S. Cəfərovun qeyd etdiyi kimi, düzəltmə hesab etmək olmaz[1]. Buna baxmayaraq, bu sözlərin bir qismi yalnız həmin şəkilçi ilə deyil, başqa şəkilçilərlə də işləndiyi üçün onların kökü hiss edilir. Məsələn: *anarx-izm//-ist//-iya, ate-izm//-ist, eqo-izm//-ist, faş-izm//-ist, human-izm//-ist//-itar* və s.

Bu qəbildən olan elə sözlər də vardır ki, ilk baxışda onların kökünü ayırmaq çətin görünür. Lakin burada da dilimizin fonetik-qrammatik qayda-qanunları özünü göstərir. Belə ki, *kommunizm, avantürizm* və s. kimi sözlərin kökü əslində *kommuna* və *avantüra* sözləridir ki, onlar da dilimizdə geniş şəkildə işlədilir. Lakin dilimizin

---

[1] *Bax:* S.Cəfərov. Azərbaycan dilində söz yaradıcılığı, ADU nəşriyyatı, Bakı, 1960, səh. 71.

fonetik-qrammatik qaydalarına əsasən, həmin sözlər saitlə başlanan şəkilçi qəbul etdiyi üçün sözün son saiti düşür və kök, bir növ, tanınmaz olur.

Sonu -ist şəkilçisi ilə bitənlər. -izm və *-ist* şəkilçiləri eyni anlayışla bağlı müxtəlif mənaları bildirdikləri üçün, demək olar ki, hər ikisi sözə artırılma potensialına görə eyni yükə malikdir. Daha doğrusu, *-izm* şəkilçili köklərin böyük əksəriyyəti *-ist* şəkilçisini də qəbul edir. Ona görə həmin sözlərdə də *-izm* şəkilçili sözlərdə müşahidə etdiyimiz halı görə bilərik.

Azərbaycan dilində sonu *-ist* şəkilçisi ilə bitən *kommunist, sosialist, idealist, naturalist, proqramist, oçerkist, maşinist, realist, nihilist, dualist, turist* və s. kimi sözlərin işlənməsinə tez-tez təsadüf olunur. Bunlardan, *kommunist, sosialist, idealist, naturalist, oçerkist, maşinist, realist, solist* sözlərinin kökü *kommuna, sosial, ideal, natural, oçerk, maşın, real, solo* şəklində düşünülür.

Ədəbi dildə *-ist* şəkilçisi ilə işlədilən düzəltmə sözlərdən ictimai-siyasi anlayışların, habelə müxtəlif sənət-peşə adlarının ifadəsi üçün istifadə olunur:

Xalqımız doğma k o m m u n i s t partiyamızın ətrafında sıx birləşmişdir (K-17.02.57); *Qardaş s o s i a l i s t partiyalarının nümayəndələri yığıncağa toplaşmışdılar* (K-20.02.60); *İ d e a l i s t l ə r i n bu fikirləri əsassız idi* (K-18.05.58); *Bunlar r e a l i s t rəssam fırçasından çıxmış əsərlərdir* (Əİ-12.04.86). *-izm* və *-ist* şəkilçiləri bütün hallarda eyni sözə artırıla bilmir. Belə ki, bir qisim söz *-ist* şəkilçisi ilə işlənir, *-izm* şəkilçisi qəbul etmir, digər qisim sözlər isə, əksinə, *-izm* şəkilçisi ilə işlənir, *-ist* şəkilçisini qəbul etmir. Qeyd edək ki, ikinci hala birinciyə nisbətən daha çox sözdə təsadüf etmək olur. Məsələn, *batist, yumorist, mozaist* sözləri *batizm, yumorizm, mozaizm*

şəklində işlənmir. Yaxud *menşevizm, sinxronizm, klassisizm, doqmatizm, vulqarizm, bolşevizm, alkoqolizm* və s. sözlərin kökü yalnız *-izm* şəkilçisi ilə işlənir, *-ist* şəkilçisini qəbul edə bilmir. Bu sözlərin bir qismi həmin mövqedə başqa şəkilçi qəbul edir: *bolşe-v-ik, menşe-v-ik, sin-xron-ik* və s.

Sonu -ik şəkilçisi ilə bitənlər. Dilimizə rus dilindən keçmiş və geniş işlənmə imkanına malik olan sözlərin müəyyən qismini *-ik* şəkilçili sözlər təşkil edir. *-ik* şəkilçisi artırıldığı hər hansı sözə əlamət və keyfiyyət xarakteri verir. Lakin belə sözlərin bir qismində məna sərhəddini müəyyənləşdirmək üçün vurğu əsas rol oynayır. Belə ki, əgər vurğu *-ik* şəkilçisinin üzərinə düşərsə söz əlamət və keyfiyyət; şəkilçidən əvvəlki hecanın, daha doğrusu, kökün üzərinə düşərsə söz predmet məzmunu, daha doğrusu, peşə, sənət anlayışı bildirir. Məsələn, *satirik* sözü vurğunun yerinin dəyişməsi ilə müxtəlif məzmunlar ifadə edə bilər. «Satirik» sözü satira yazan, satira ilə məşğul olan mənasını bildirirsə, «satirik» sözü satirik tərzdə yazılan və ya satirik tərzdə yazan məzmununu ifadə edir.

Qeyd edək ki, etimon dildə (etimon dil dedikdə biz, təbii ki, həmin sözlərin alındığı rus dilini nəzərdə tuturuq)* bu cür sözlər eyni formada yalnız bir funksiyada – *isim*

---

* A.H.Qarayev bu şərtiliyə etiraz edir (bax: A.H.Qarayev. Terminlərin alınmasında etimon və mənbə dil məsələsi. – Azərbaycan terminologiyası problemləri, Bakı, APİ nəşri, 1988, səh. 107). O yazır: «Söz bir dildən başqasına birbaşa keçdiyi kimi, vasitəli şəkildə də keçə bilər. Belə halda, şübhəsiz ki, ilkin dil etimon, vasitəçi dil isə mənbə ola bilər» (yenə orada, səh. 107). Lakin bir sıra konkret faktların izahında bu cür diferensiallığı gözləmək ya mümkün deyil, ya da bir nəticə vermir, – o sözlər ki, Avropa dillərindən rus dilinə keçir, onların leksik-semantik münasibətində yeni sistem yaranır, nəticə etibarilə, Azərbaycan dilində Avropa sözünün rus dilindəki semasintatik funksiyası reallaşmış olur, odur ki, mənbə dil etimon dilə çevrilir.

mövqeyində çıxış edir. Əlamət, keyfiyyət funksiyasında bu söz etimon dildə sifətin öz spesifik formal əlaməti ilə: *-ческий, -ический* şəkilçisi ilə işlənir. Deməli, dilimizdə vahid formada *-ik* şəkilçisi ilə keçən bu sözlər omonimik səciyyə qazanır: həm isim olur, həm də sifət kimi işlənir ki, bu da Azərbaycan dilinin öz daxili normalarına uyğundur. Hətta demək lazımdır ki, etimon dildə *-ik* şəkilçisi ilə işlənməyən, yalnız sifət kimi mövcud olan *-ческий, -ический* şəkilçili bir trup sözlər vardır ki, onlar da dilimizə keçərkən *-ik* şəkilçisi ilə işlənir. Məlumdur ki, hər hansı şəkilçi bir dildən başqa dilə sözün tərkibində keçir, *-ik* şəkilçisi də belələrindəndir. Lakin bu şəkilçi öz qrammatik mövqeyində dilimizdə o qədər möhkəmlənmişdir ki, indi etimon dildə özünü göstərməyən bu cür söz yaradıcılığı Azərbaycan dilində qanunauyğun hala çevrilir. Məsələn, «sinonimik» sözü. Bu cür onlarca söz vardır ki, onlar etimon dildə hər hansı mövqedə olsa belə, bu formada mövcud deyil. Deməli, bu formanı həmin sözlər məhz Azərbaycan dilində almışdır. Bu isə göstərir ki, *-ik* şəkilçisi Azərbaycan dilinin milli xüsusiyyətlərinə tabe olmuş və bir növ milliləşmişdir, hər halda bütün bunlar bir daha göstərir ki, *-ik* şəkilçisi həm məhsuldarlıq cəhətdən, həm də məzmun cəhətdən böyük potensiala malikdir:

1) *-ik* şəkilçisi ilə formalaşan isimlər: *satirik, atletik, akademik, energetik, klassik, lirik, fanatik* və s. Misaldan göründüyü kimi, *atletik* sözündən başqa, qalan digər sözlər həm isim, həm də sifət kimi işlənə bilir. Lakin əvvəldə qeyd edildiyi kimi, bu cür sözlərin bir qismi yalnız sifət kimi işlədilir.

2) *-ik* şəkilçisi ilə yalnız sifət kimi formalaşan sözlər: *bürokratik, epizodik, etnoqrafik, iomik, kristallik, yumo-*

ristik, kvadratik, mifik, platonik, realistik, ritmik, silindrik, sinonimik, sinxronik, terapevtik, tipik, faktik, xarakterik və s.

Bu şəkilçi ilə formalaşmış bir sıra sözlər də vardır ki, onları Azərbaycan dilində kök və şəkilçiyə ayırmaq mümkün deyil. Məsələn: *xronik, polifonik, hipertonik, patetik, simmetrik, maqmatik, proqmatik, hidravlik* və s.

Yeri gəlmişkən demək lazımdır ki, bu qəbil sözlərdə hər məqamda *-ik* şəkilçisi işlənmir, daha doğrusu, situasiya ilə əlaqədar olaraq, bəzən bu şəkilçi düşə bilər. Bu cəhətdən *xarakterik* sözü diqqəti cəlb edir. Belə ki, birləşmə daxilində təyinedici üzv kimi işlənən bu sözün son vaxtlar şəkilçisiz variantı daha geniş yayılmışdır. Məsələn:

Əsərdə hadisənin xarakter cəhətləri göst-ərilmişdir (Əİ-16.04.82); *Burada ən ümdə və xarakter əlamətlər nəzərə çarpdırılır* (AG-24.04.82) və s.

Təbii ki, *-ik* şəkilçisinin ixtisarı bu sözün özünün semantikası ilə bağlıdır. Belə ki, *xarakter* sözünün öz semantikasında keyfiyyət məzmunu vardır. Ona görə də bu söz *-ik* şəkilçisiz də həmin mənanı ifadə edə bilir.

-ik şəkilçisi ilə formalaşan sözlər artıq dilimizin ümumi leksikonuna daxil olmuş, bunların çoxu işlənmə tezliyinə görə ümumxalq səciyyəsi qazanmışdır. Bu sözlərin maraqlı semantik-qrammatik xüsusiyyətlərindən biri onların böyük əksəriyyətinin *-a* şəkilçisini özünə birləşdirib ad əmələ gətirməsidir. Belə sözlər alındığı dildə – rus dilində də eyni şəkildə işlənir və əslində Azərbaycan dilindən fərqli xüsusiyyətlər məhz burada özünü göstərir. Belə ki, bir az əvvəldə deyildiyi kimi, bu tipli sözlər rus dilində *-ik* formantı ilə deyil, *-ческий, -ический* formantı ilə ifadə olunur. Ona görə də, təbii ki, həmin dildə söz əsası bu şəkilçidən əvvəl gələn hissədir və buradan özlüyündə

belə nəticə hasil olur ki, isim düzəldən məhz *-ika* şəkilçisidir. Məsələn: *akrobatika, akustika, arxitektonika, dinamika, leksika, lirika, xronika, mexanika, mozaika, ritmika, ritorika, sinonimika, toponimika* və s.

Göründüyü kimi, bu misalların bir çoxunda *-ika* morfemindən əvvəlki hissə müstəqil şəkildə dilimizdə işlənirsə *(ritm-ika, sinonim-ika, toponim-ika* və s), böyük əksəriyyəti belə müstəqilliyə malik deyil *(dinamika, leksika* və s). Bu hal isə dilimizdə bu mövqedə *-ika* şəkilçisindən deyil, məhz *-a* şəkilçisindən danışmağa əsas verir.

Sonu -tik şəkilçisi ilə bitənlər. Qeyd edək ki, bəzi dilçilik əsərlərində bu şəkilçidən deyil, eyni mövqedə *-atik* şəkilçisindən bəhs edilir. Bəzən isə *-tik* və *-atik* şəkilçiləri haqqında ayrıca məlumat verilir, daha doğrusu, onlar bir-birindən asılı olmayan müstəqil şəkilçilər kimi təqdim edilir. Əlbəttə, bu hal həmin sözlərə sırf müasirlik və tamamilə formal əlamətə görə yanaşmaqdan irəli gəlir. Fikrimizi izah üçün bəzi faktlara müraciət edək. Məlumdur ki, rus dilindən dilimizə *idiomatik, paradiqmatik, problematik, plazmatik, sintaqmatik, tematik, fonetik, sistematik* və s. sözlər keçmişdir və bu sözlərin əksəriyyətinin kökü müasir dilimizdə *(idiom, problem, sintaqm, fonem, sistem* və s.) *-atik* şəkilçisinə qədər olan hissədir. Lakin, əvvəla, bu sözlər rus dilində *-a* hissəciyi ilə birlikdə işlənir və təsadüfi deyil ki, dilimizə yeni daxil olduğu vaxtlarda həmin sözlər məhz etimon dildəki kimi yazılır və işlədilirdi. Ona görə də göstərilən misallarda şəkilçi *-tik* hissəsidir. Şəkilçinin *-tik* olması başqa sözlərdə daha aşkar şəkildə özünü göstərir. Məsələn, *plazmatik, tematik.*

Elə sözlər də vardır ki, onları kök və şəkilçi hissələrinə ayırmaq mümkün deyil, halbuki etimon dildə belə sözlər kök və şəkilçidən ibarətdir. Ona görə də

əvvəlkilərdən fərqli olaraq, bu cür sözlər dilimizdə sadə söz hüququndadır.

Sonu -iv şəkilçili sözlər. Azərbaycan dilində rus dilindən alınmış və sonu *-iv* şəkilçisi ilə bitən, sifət kimi işlənən sözlərdə rus dilinə məxsus *-ный* forması ixtisar edilmişdir. Başqa sözlə desək, rus dilində isim düzəldən *-iv* şəkilçisindən sonra işlənmiş sifət əmələ gətirən *-ный* şəkilçisi Azərbaycan dili daxili qanunları əsasında morfoloji əhəmiyyətini itirir və ixtisar olunur.

V.V.Akulenko alınmaların sosiolinqvistik xüsusiyyətlərini araşdırarkən belə nəticəyə gəlir ki, internasional sözlər bir qisim dillərə keçərkən onların tərkibindəki şəkilçilər saxlanılarsa, digər qismində dəyişikliyə uğrayır. Bu zaman sözün semantikası əsas rolu oynayır[1]. Bu hal türk dillərində də özünü göstərir. Bütünlükdə türk dillərinin qrammatik quruluşu ilə uyğun gəlməyən sözlər dilimizə keçərkən müəyyən dəyişikliyə uğrayır. Bu isə təbiidir. Çünki alınma zamanı söz alan dilin qanunauyğunluqları əsas götürülür. Rus dilinə məxsus *-iv* şəkilçili isim forması Azərbaycan dilinin ümumi prinsiplərindən asılı olaraq, sifət kimi işlədilir və deməli, bir daha yeni sifətdüzəltmə formasına ehtiyac olmur. Beləliklə, Azərbaycan dilində yeni şəkilçi forması meydana gəlmədən də funksional-qrammatik prinsipə əsaslanan sifətdüzəltmə qaydası yaranır, *-iv* şəkilçisi rus dilindəkindən fərqli olaraq, sifət düzəltmə funksiyası qazanır. Bu şəkilçi ilə formalaşan *atributiv, impulsiv, instinktiv, subyektiv, obyektiv, normativ, dedektiv, federativ, formativ, perspektiv, predikativ, reflektiv* və s. sözlər dilimizdə geniş işlənmə dairəsinə malikdir. Onlardan ədəbi dilin müxtəlif üslublarında,

---

[1] В.В.Акуленко. Вопросы интернационализации словарного состава языка, Харьков, 1972, стр. 34.

xüsusilə mətbuat üslubunda və bədii üslubda tez-tez istifadə edilir.

Sonu *-iv* şəkilçisi ilə bitən sözlərdən bəzilərinin Azərbaycan dilində isim kimi işlədilməsini müşahidə etmək olur. *Kooperativ, obyektiv, kursiv* sözləri belələrindəndir. Bunlardan ilk ikisi ikili səciyyəyə malikdirsə, daha doğrusu, həm isim, həm də sifət ola bilirsə, sonuncu söz *(kursiv)* sifət funksiyasında çıxış edə bilmir:

Beş nəfər kooperativi müdafiə etməli, yeddi nəfər poçta-teleqraf idarəsini saxlamalıdır (Ə. Vəliyev); *Obyektivdən baxanda şəhər əl içi kimi görünürdü* (Mir Cəlal).

Qeyd edək ki, *-iv* şəkilçisi ilə formalaşan bu cür sözlər dilimizin qrammatik qanunlarına əsasən quruluşca da ikili xarakter daşıyır. Belə ki, onların böyük əksəriyyəti düzəltmə söz hüququna malikdirsə, daha doğrusu, kök hissələr dilimizdə müstəqil olaraq işlənirsə *(atribut-iv, impuls-iv, instikt-iv, konservat-iv, korrelyat-iv, obyekt-iv, perspekt-iv, predikativ, subyekt-iv* və s), az qismini kökə və şəkilçiyə ayırmaq mümkün deyil *(intensiv, reflektiv, federativ* və s.). Bu isə onu göstərir ki, həmin forma müvafiq funksiyada Azərbaycan dilində işlənsə də, qrammatik forma bütünlükdə alınmadır.

-iv şəkilçili sözlərdə özünü göstərən hal *-al* şəkilçili sözlərdə də müşahidə edilir. Belə ki, Azərbaycan dilində rus dilindən alınmış və sonu *-al* şəkilçisi ilə bitən sözlərdə də rus dilinə məxsus *-ный (-ная)* sifət şəkilçiləri ixtisar edilmişdir. Həmin şəkilçinin ixtisar edilməsi ilə *-al* şəkilçisi Azərbaycan dilində morfoloji və funksional cəhətdən sifətformalaşdırma xüsusiyyəti qazanmış olur. Etimon dildə yaranıb dilimizə keçmiş *dialektal, diametral, eksperimental, embrional, fundamental, paradoksal, proporsional, sektoral, konstitusional, kontinental, kommunal, ideal,*

areal, xronikal, xloral, patriarxal, prosessual, natural, normal, rasional, anormal, material, monumental, meridional, manomal, minimal, spektral, struktural, ortodoksal, optimal, fenomenal, funksional, xronikal və s. kimi sifətlər bu qəbildəndir.

Bu tipli sözlərin ümumxalq səciyyəsi qazanmış qisminə mətbuat dilində daha çox təsadüf edilir:

Sovet həyat tərzini, sosializmin f u n d a m e n t a l sərvətlərini bacarıqla və yaradıcılıqla təbliğ etmək zəruridir (AG-30.06.83); *Məsələn, s o s i a l, nikbinlik və sabahkı günə inam, adamların kollektivçilik hissəsi bu qəbildəndir* (AG-30.06.83); *Qurultayda bütün aqrar-sənaye komplekt sahələrinin vahid şəkildə planlaşdırılmasına və p r o p o r s i o n a l inkişaf etdirilməsinə əsaslanan ərzaq proqramının işlənib hazırlanması zərurəti irəli sürülmüşdür* (K-25.06.83).

Bu cür sözlər də quruluşu etibarı ilə Azərbaycan ədəbi dilinin qrammatik qayda-qanunlarına görə sadə və düzəltmə deyə iki yerə ayrılır. Əgər sadə hesab olunanlarda *-al* şəkilçisini ayırmaq, daha dəqiqi, sözü kök və şəkilçiyə parçalamaq mümkün deyilsə (məsələn, *sosial, areal, minimal, optimal* və s.), bu sözlərin böyük əksəriyyətində köklə şəkilçi ayrılır və təbii ki, kök hissə müstəqil söz kimi dilimizdə fəaliyyət göstərir. Qeyd edək ki, həmin sözlərin kökü dilimizdə isim kimi işlənir *(dialekt-al, diametr-al, eksperiment-al, kontinent-al, monument-al, natura-l, norma-l, ortodoks-al, paradoks-al, kommuna-l, fenomen-al, xronika-l, fundament-al, struktur-al, spektr-al* və s.).

Söz yaradıcılığından bəhs edən bəzi əsərlərdə bu və ya başqa münasibətlə alınma sözlərdən danışılarkən *-loq, -loji* və *-logiya* şəkilçili sözlərə də toxunulur. Düzdür, dilimizdə sonu bu üç müxtəlif morfemdən ibarət olan çoxlu

alınma sözlər vardır. Bu formantlar bir-birindən fərqləndiyi kimi, onların iştirak etdiyi sözlər də ayrı-ayrı anlayışlar ifadə edir. Lakin buna baxmayaraq, Azərbaycan dili qrammatik qaydaları üzrə bu formantların şəkilçi kimi ayrılması və söz yaradıcılığı prosesində iştirakından ayrıca bəhs edilməsi özünü doğrultmur.

Məlumdur ki, yunanca logoz (loqos) sözü «elm» mənasını ifadə edir və bu sözün başqa sözlərə artırılması ilə, əsasən, həmin elm sahələri ilə bağlı anlayışları bildirən sözlər meydana çıxır. Qeyd edək ki, etimon dildə bu sözün iştirakı ilə formalaşıb, ayrı-ayrı anlayışlar bildirən sözlər dilimizdə müxtəlif sonluqlarda işlənir; belə ki, onların bir qismi *-loq, digər* qismi *-loji,* nəhayət, üçüncü hissəsi isə *-logiya* sonluğuna malikdir. Bu sözlər rus dilində tamam başqa formalara malikdir və həmin formalardan yalnız birincilər *-loq* şəkilçili sözlər dilimizə olduğu kimi keçmişdir. Buna baxmayaraq, dilimizdəki digər sözlərdə etimon dildəki *loqos* sözünün *-loq* hissəsi bu və ya digər şəkildə qalmışdır: *-loji*-də *q-j* əvəzlənməsi, *loqiya*-da *q-k* əvəzlənməsi özünü göstərir.

-loq şəkilçisi ilə formalaşanlar. Bu morfemin iştirakı ilə meydana çıxan sözlər əksərən hər hansı müvafiq elm sahəsi ilə məşğul olan şəxsi bildirir. Az hallarda başqa mənalar ifadə edir və mənşə dildə də, rus dilində də, Azərbaycan dilində də şəkilçi öz ilkin formasını saxlayır. Məsələn, *fizioloq, geoloq, psixoloq, texnoloq, bioloq, ideoloq, bakterioloq, hidroloq, filoloq, semasioloq, astroloq, kardioloq, zooloq, etimoloq, mifoloq, uroloq, monoloq, dialoq, analoq* və s.

-ura şəkilçisi ilə formalaşanlar. Bu şəkilçi ilə formalaşan sözlər müxtəlif mənalara malik olur. Məsələn: *apparatura, aspirantura, doktorantura, dosentura,*

kvadratura, komendatura, reseptura, faktura və s. Bu sözlərin hamısı dilimizdə quruluşca düzəltmədir, ona görə ki, onların çoxunda əsas *(aparat, aspirant, doktorant, dosent, kvadrat, komendant, resept, fakt)* müstəqil olaraq işlənir. Lakin eyni şəkildə formalaşan bir qrup sözlər də vardır ki, onları kök və şəkilçi hissələrinə ayırmaq, kök hissəni müstəqil işlətmək mümkün deyil. *Professura, rejissura, senzura* və s. sözlər bu qəbildəndir.

-ant şəkilçisi ilə formalaşanlar. Bu şəkilçi müxtəlif səciyyəli sözlərdən müəyyən bir sahədə çalışan şəxsləri adlandıran sözlər yaratmağa xidmət edir. Məsələn: *diplomant, doktorant, ekskursant, kursant, fabrikant, debütant, protestant, sektant* və s. *Sektant* sözünün kökü dilimizdə *sekta* şəklində mövcuddur. Həmin söz *-ant* şəkilçisi qəbul etdikdə saitlərdən biri ixtisar edilir. Lakin bu qəbildən olan elə sözlər də vardır ki, onlar dilimizdə sadə söz hüququndadır, onları kök və şəkilçi hissələrinə ayırmaq mümkün deyil. *Dissertant* sözü bu cür sözlərdəndir.

-aj şəkilçisi ilə formalaşanlar. Nisbətən qeyri-məhsuldar olan bu şəkilçi ilə formalaşan sözlərdən dilimizdə *amperaj, orbitraj, voltaj, kilometraj, metraj, pilotaj, tipaj* sözlərinə rast gəlmək olur. Qeyd edək ki, bu qəbildən olan *dublyaj* sözü də dilimizdə işlənir ki, müasir vəziyyətində biz onu düzəltmə sözlər içərisində verə bilmərik. Düzdür, bəzən *dubl* sözünün işlədilməsinə rast gəlirik, lakin o söz hələ dilimizdə tam yaşama hüququ, vətəndaşlıq hüququ qazanmamışdır.

-r, -or, -er, -yor şəkilçiləri ilə formalaşanlar. Bu şəkilçilərin iştirakı ilə *qubernator, kreditor, plagiator, senator, senzor, stajor, milyoner, milyarder, bankir, kassir* və s. sözlər yaranmışdır. Misallardan göründüyü kimi, həmin şəkilçilər hər hansı sözə artırılır-artırılsın, bütün

hallarda müvafiq sahə üzrə məşğul olan şəxs anlayışı bildirən sözlər yaradır.

-ator şəkilçisi ilə formalaşanlar. Məzmunca *-or* şəkilçisinə yaxın olan *-ator* şəkilçisi də müxtəlif sözlərə artırılaraq əşya məzmunlu söz yaratmağa xidmət edir. *Eksperimentator, analizator, indeksator, kanalizator* və s. sözlər bu qəbildəndir. Qeyd edək ki, *kanalizator* sözünün kökü kanal olsa da, həmin sözün formalaşmasında əsas *-ator* şəkilçisidir. Belə ki, bəzi sözlərdə *-iz* formantı və ondan sonra başqa bir şəkilçi iştirak edirsə də, əslində sözün formalaşması sonuncu şəkilçi əsasında olur. *Канализ-ация* sözündə də belədir.

Məlumdur ki, rus dilində və bir çox Avropa dillərində cins kateqoriyası vardır və təbii ki, bu kateqoriya formal əlamətlərə malikdir. Cins kateqoriyasının özünəməxsus morfoloji göstəriciləri vardır ki, onlardan biri də *-ka* şəkilçisidir. Bu şəkilçi etimon dildə kiçiltmə, əzizləmə mənası da yaradır: *Vizitka, zamazka, zaponka, kabinka, kommunarka, lampoçka, matroska, maşinka, pipetka, probka, ruletka* və s. belə sözlərdəndir. Demək lazımdır ki, bu sözlərdən müəyyən hissəsi dilimizdə şəkilçisiz də işlədilir: *vizit, pipet, rulet* və s. *Kommunarka, matroska* və bu sıradan olan digər sözlərdə çox vaxt *-ka* şəkilçisi atılır və eyni mənanı yaratmaq üçün «qadın» sözünün əlavəsi ilə söz birləşməsi formalaşır: *Kommunar qadın, matros qadın* və s.

Qeyd edək ki, bir sıra türk dillərində, o cümlədən özbək dilində *-ka* şəkilçisi rus dili sözləri tərkibinə keçərək cins mənası yaratmağa xidmət edir[1].

Bunlardan başqa, bir sıra şəkilçilər də vardır ki, onlar qeyri-məhsuldar olub, yalnız bir neçə sözün formalaş-

[1] Узбек адабий тили тарихи, Тошкент, 1982, стр. 165.

masında iştirak edir. Həmin şəkilçilər aşağıdakılardır:

-at şəkilçisi: *adresat, diplomat, karbonat, rektorat, dekanat* və s.

-iat şəkilçisi: *proletariat;*

-ial şəkilçisi: *bronxial, vektorial, ekvatorial, prinsipial* və s.

-it şəkilçisi: *koksit, fosforit;*

-oz şəkilçisi: *vitaminoz, venoz.*

Azərbaycan dilində düzəltmə söz hüququ daşıyan rus dili alınmalarının bir qismində sözdüzəldici ön şəkilçilər iştirak edir. Belə sözlərin kök hissəsi Azərbaycan dilində müstəqil işlənə bilən lüğəvi vahidlər kimi özünü göstərir. Ədəbi dilin lüğət tərkibinin inkişafında özünəməxsus yeri olan belə sözlərin əmələ gəlməsində, əsasən, aşağıdakı şəkilçilər fəal iştirak edir:

Əvvəlində anti- ön şəkilçisi iştirak edənlər. Azərbaycan ədəbi dilində bu şəkilçinin iştirakı ilə formalaşan *antifaşist, antiimperialist, antisemitizm, antipartiya* və s. sözlər mövcuddur. Bunlar, ümumiyyətlə, ictimai-siyasi məzmun daşıyan sözlər sırasına daxildir və daha çox publisistik-qəzet üslubuna xasdır. Təsadüfi deyildir ki, belə sözlərə mətbuat dilində daha tez-tez rast gəlmək olur.

Əvvəlində a- ön şəkilçisi iştirak edənlər. Bu şəkilçinin iştirakı ilə yaranmış və dilimizə keçmiş *anormal, asimmetrik//asimmetriya, asinxron, asemantik, asintetik, ateizm, ateist* kimi sözlər mövcuddur ki, bunlar daha çox terminoloji səciyyə daşıyır və elmi əsərlərin dilində, elmi üslubda işlədilir. Azərbaycan dilində bu cür düzəltmə sözlərin kökü müstəqil işlənir *(normal, simmetrik, sinxron, semantik, teizm, teist)* və həm də *normal müddət, simmetrik xətt, sinxron mühərrik, semantik çalar, sintetik məhsul* kimi bir sıra digər terminoloji səciyyəli söz birləşmələrinin

əmələ gəlməsində iştirak edir. Maraqlıdır ki, bu sözlərin şəkilçi ilə işlənmiş düzəltmə formaları da terminoloji səviyyəli söz birləşməsi əmələ gətirir. Belə birləşmələrə aid *anormal hərəkət, asimmetrik xətt, asinxron mühərrik, asemantik morfem, asintetik məhsul* və s. göstərmək olar.

Əvvəlində poli- ön şəkilçisi iştirak edənlər. Azərbaycan dilində rus dilindən alınmış, əvvəlində *poli-* şəkilçisi iştirak edən *poliklinika, politexnik, politexnikum, polisemantik, polisintetik* kimi sözlər işlədilir. Kök hissəsi müstəqil işlənə bilən *(klinika, texnik, texnikum, semantik, sintetik)* belə sözlər də düzəltmədir.

Rus dilindən keçmiş düzəltmə sözlərə aid bir cəhəti də qeyd etmək lazımdır. Bu da şəkilçilərin müvaziliyi, daha doğrusu, alınma şəkilçi ilə milli şəkilçinin paralel şəkildə eyni mövqe və funksiyada işlənməsidir. Eyni funksiyada eyni sözə artırılan müvafiq şəkilçilər aşağıdakılardır:

1. *-izm//-lıq*[4] *şəkilçiləri: barbarizm//barbarlıq, dekadentizm//dekadentlik.*

2. *-izm//-çılıq*[4] *şəkilçiləri: epikürizm//epikürçülük, kollektivizm//kollektivçilik.*

3. *-ist//-çı*[4] *şəkilçiləri: darvinist//darvinçi, telefonist//telefonçu, terrorist//terrorçu, trotskist//trotskiçi, traktorist//traktorçu* və s.

Bu şəkilçilərin müvaziliyi, güclülüyü bir daha onda özünü göstərir ki, bu cür sözlərdən bir qismi müəyyən mövqe və funksiyada *-lıq*[4] şəkilçisini qəbul edir. Məsələn: *ssenaristlik//ssenariçilik.*

4. *-at//-lıq*[4] *şəkilçiləri: dekanat//dekanlıq, direktorat//direktorluq, komissariat//komissarlıq.*

5. *-ant//-çı*[4] *şəkilçiləri: diplomant//diplomçu.*

6. *-er//-çı*[4] *şəkilçiləri: milyoner//milyonçu, milyarder//milyardçı.*

Dildə əcnəbi və milli şəkilçilərin bu cür müvaziliyi özünü doğrultmur. Belə ki, yeni söz yaradıcılığı üçün, eyni mövqe və funksiya üçün milli şəkilçi varsa və onun iştirakı ilə yaranan söz dildə kütləviləşə bilirsə, əcnəbi şəkilçi ilə formalaşan sözü işlətməyə ehtiyac qalmır.

Azərbaycan dilinə ərəb-fars dillərindən də bir sıra düzəltmə sözlər daxil olmuşdur. Rus dilindən alınan şəkilçilər kimi, ərəb-fars mənşəli şəkilçilər də sözün sonuna və əvvəlinə artırıla bilir. Ərəb-fars mənşəli şəkilçilərin söz yaradıcılığı xüsusiyyətləri, rus dilinə məxsus şəkilçilərdən başlıca olaraq iki cəhətə görə fərqlənir; birincisi, ərəb-fars mənşəli şəkilçilərlə düzəlmiş sözlərin kökü daha çox müstəqil işlənmə imkanına malikdir; ikincisi, bu şəkilçilərin bir çoxu təkcə ərəb-fars mənşəli sözlərə yox, həm də xalis Azərbaycan sözlərinə qoşularaq yeni sözlər əmələ gətirə bilir. Bu şəkilçilərin bəzisi, hətta rus dilindən alınan sözlərə də birləşmə imkanı qazanmışdır.

Müasir Azərbaycan dilində işlədilən və söz yaradıcılığı prosesində iştirak edən ərəb-fars mənşəli şəkilçilər başlıca olaraq bunlardır: *-keş, -dar, -nar, -at//-ət, -i//-vi, -dan, -xor, -baz, -xana, -kar//-gər, -stan, na-, bi-, ba-* və s. Bu şəkilçilərin içərisində elələri var ki, *(-xana, -baz, -kar, -şünas* və s.), etimon dildə əslində müstəqil leksik mənaya malik sözlərdir və qoşulduğu sözlərlə mürəkkəb söz əmələ gətirir. Lakin Azərbaycan dilində həmin morfemlər leksik məzmuna malik müstəqil söz kimi mövcud olmadığı üçün onların artırıldığı sözləri də mürəkkəb hesab etmək olmaz. Digər türk dillərində də həmin morfemlərə bu şəkildə yanaşılır[1].

-pərəst şəkilçisi. Mənşəcə fars dilinə aid olan bu şəkilçi həmin dildəki *pərəstiş* sözündən yaranmışdır.

[1] *Bax:* Xozirqi zaman uzbek tili, Toşkent, 1957, səh. 98.

Maraqlıdır ki, *pərəstiş* sözü də öz ilkin semantik məzmununda dilimizdə işləkdir. Təşəkkül tapdığı sözün məzmununa uyğun olaraq *-pərəst* şəkilçisi artırıldığı sözə «pərəstişetmə» mənası verir. Bu şəkilçi yalnız ərəb-fars sözlərinə deyil, habelə rus dilindən keçmiş sözlərə də artırılır. Məsələn, *şöhrətpərəst, mənsəbpərəst, atəşpərəst, slavyanpərəst, modapərəst* və s.

-xana şəkilçisi. Fars dilində müstəqil leksik vahid kimi işlənib, *ev* məzmunu ifadə edən bu morfem Azərbaycan dilində də uzun müddət həmin funksiyanı yerinə yetirmişdir. Hətta indi də dilimizin bir sıra şivələrində həmin söz ilkin semantikasında müstəqil leksik vahid kimi mövcuddur. Ədəbi dilimizdə isə bu morfem şəkilçi funksiyasını yerinə yetirir. Əlbəttə, burada həmin morfemin asemantikləşməsindən danışmaq olmaz: hər şeydən əvvəl ona görə ki, başqa dildən alınmışdır və geniş dairədə ümumişlək sözlər cərgəsinə daxil ola bilməmişdir, digər tərəfdən isə semantik köklər kimi hər hansı eyni məzmunlu sözün əsasında durmur, əksinə, hər hansı bir sözə artırılaraq, ondan yeni məzmunlu substantiv sözlər əmələ gətirir. Qeyd edək ki, bu şəkilçi yalnız ərəb-fars mənşəli sözlərə deyil, Azərbaycan dilində vətəndaşlaşmış sözlərə də artırılır. Məsələn: *kitabxana, çayxana, toyxana, poçtxana* və s. «Orfoqrafiya lüğəti»ndə (1975-ci il) *-xana* şəkilçisi vasitəsilə rus-Avropa mənşəli sözlərdən formalaşmış *qazanxana, maşınxana, motorxana, sosiskaxana, teleqrafxana, fotoqrafxana və* s. sözlər qeydə alınmışdır ki, bunlar fəaliyyət dairəsi nisbətən dar olan sözlərdir.

-şünas şəkilçisi. Bu şəkilçi mənşəyinə görə fars dilinə məxsus olub, «bilmək», «tanımaq» mənalı *şenaxten* məsdərindən əmələ gəlmişdir. *-şünas* şəkilçisinin qoşulduğu sözlər müəyyən elm, sənət və peşə ilə məşğul olan

şəxs məzmunu yaratmağa xidmət edir. Azərbaycan dilində bu şəkilçi vasitəsilə düzələn *musiqişünas, şərqşünas, ədəbiyyatşünas, tarixşünas, diyarşünas, ölkəşünas* və s. kimi sözlər vardır.

-şünas şəkilçisinin artırıldığı ərəb-fars mənşəli sözlər Azərbaycan dilində müstəqil işlədilir. Bu sözlər, ümumiyyətlə, ədəbi dilin ümumişlək leksikası tərkibinə daxildir. Bu şəkilçinin məhsuldarlığı bir daha onda özünü göstərir ki, o, yalnız ərəb-fars sözlərinə deyil, habelə rus dilindən alınmış sözlərə də artırıla bilir. Bəzi dilçilik əsərlərində belə bir fikrə də rast gəlmək olur ki, şəkilçi yalnız dilin öz sözləri ilə birlikdə başqa dilə keçir və keçdiyi dildə söz yaradıcılığı prosesinə girmir. Ərəb-fars dillərindən keçmiş bəzi şəkilçilərin, məsələn, *-şünas, -xana, -baz, -pərəst* və s.-in geniş fəaliyyət dairəsi bu fikri təkzib edir. Həmin şəkilçilərin rus və Avropa mənşəli sözlərə artırılması Azərbaycan dilinin qrammatik qanunları əsasında baş verir. Bu isə həmin şəkilçilərin dilimizdə vətəndaşlıq hüququ qazandığını, məhsuldar və ümumişlək olduğunu göstərir. *-şünas* şəkilçisi rus dilindən keçən *arxiv, kino, kurort, material, maşın, metal, slavyan, teatr, folklor* və s. sözlərə artırılaraq *arxivşünas, kinoşünas, kurortşünas, materialşünas, maşınşünas, metalşünas, slavyanşünas, teatrşünas, folklorşünas* və s. kimi sözlər yaradır. Qeyd edək ki, *-şünas* şəkilçisi, adətən, hər hansı elm, sənət, peşə, məşğuliyyət adlarına artırılır. Şəxs məzmunlu söz eyni mövqedə bu şəkilçini qəbul etmir, ona görə də «Orfoqrafiya lüğəti»ndə «fizikşünas» sözü düzgün verilməmişdir.

Bilavasitə ictimai-mədəni və elmi fəaliyyət sahələri ilə əlaqədar olan bu sözlərdən ədəbi dildə ümumişlək vahidlər kimi istifadə olunur:

Azərbaycan k i n o ş ü n a s l ı q sənətinin inkişafında

Moskva və Leninqrad mütəxəssislərinin rolu böyük olmuşdur (K-16.02.64); *O, teatrşünas alimlərdən biri kimi, qiymətli irs qoyub getmişdir* (K-10.22.82) və s.

-şünas şəkilçisi söz yaradıcılığı prosesində öz məhsuldarlığı ilə diqqəti cəlb etsə də, bir sıra hallarda onun qrammatik-semantik cəhətdən Azərbaycan dilinə məxsus *–çı*[4] şəkilçisi ilə əvəz edilməsi meyili müşahidə olunur. S.Cəfərov Azərbaycan dilində bu qəbildən olan *dilşünas, tarixşünas, ədəbiyyatşünas, musiqişünas* kimi sözlərlə yanaşı, *dilçi, tarixçi, ədəbiyyatçı, musiqiçi* paralellərinin işlənməsi faktlarına diqqəti cəlb edir[1]. Yeri gəlmişkən deyək ki, ikinci paralellər, daha doğrusu, *-çı* şəkilçisi ilə formalaşanlar tam üstünlük qazanmaqdadır.

Lakin onu da qeyd etməliyik ki, *-çı* şəkilçisi *-şünas* şəkilçisi ilə düzəlmiş *şərqşünas, diyarşünas, ölkəşünas* və s. kimi sözlərdə əvəzedicilik funksiyasını yerinə yetirə bilmir.

-keş şəkilçisi, Bu şəkilçi də mənşə etibarı ilə fars dilinə məxsusdur. Bir sıra ərəb-fars, həmçinin Azərbaycan dili sözlərinə artırılaraq şəxs, yaxud müəyyən alət məzmunu ifadə edən yeni sözlər əmələ gətirir. Konkret desək, bu şəkilçi ərəb-fars mənşəli *dəm, dərd, əzab, tərəf, zəhmət, kömək;* Azərbaycan dilinə məxsus *qayğı, sərin* və s. sözlərdən *dəmkeş, dərdkeş, əzabkeş, tərəfkeş, zəhmətkeş, köməkkeş, qayğıkeş, sərinkeş* və s. kimi sözlər yaradır. Müxtəlif ictimai fəaliyyət sahələrinə aid olan belə sözlər sovet dövründə ümumişlək leksik vahidlər kimi ədəbi dil materiallarında geniş yer tutur:

Yay aylarında Mirzə Məlik adi zəhmətkeşlər kimi işləyir, normal istirahət edirdi (C.Əmirov); *Mən*

---

[1] *Bax:* S.Cəfərov. Müasir Azərbaycan dili, «Maarif» nəşriyyatı, Bakı, 1970, səh. 188.

zəhmətkeş kəndlilərin beynini mövhumat və zurafatla dolduran müftəxorları ifşa etmişəm (Ə.Vəliyev); *Kömək-keşlik isə gedim qohum-qardaşlarımı çomaq-landırım, bəlkələndirim* (B.Bayramov); *Keçən oyunda topu öz qapımıza vuranda azarkeşlər paltarını didib cırıblar* (S. Qədirzadə).

-dar şəkilçisi. Azərbaycan dilində fars mənşəli bu şəkilçinin iştirakı ilə ərəb-fars sözlərindən düzəlmiş *heyvandar, havadar, minnətdar, kirayədar, xəzinədar, dalandar, dindar, tərəfdar, hesabdar* kimi leksik vahidlər işlənir.

-dar şəkilçisi Azərbaycan dilinə məxsus *mal, ev* və *əmək* sözlərinə artırılaraq *maldar, evdar, əməkdar* kimi sözlər də əmələ gətirir. Maraqlıdır ki, Azərbaycan dilinə məxsus «əmək» sözü əsasında düzəlmiş *əməkdar* sözü fars dilinə də daxil olmuşdur. Bu sözün hətta XVI əsrə aid fars mənbələrində işləndiyi də qeydə alınmışdır[1].

Müasir dövrdə *-dar* şəkilçisinin iştirakı ilə istər ərəb-fars mənşəli və istərsə də Azərbaycan dilinə məxsus sözlərdən əmələ gəlmiş yeni leksik vahidlərdə, başlıca olaraq, sosial anlayışlar ifadə edilir. Ədəbi dil materiallarında da həmin sözlərin bu cəhəti qabarıq şəkildə əks olunur:

O öz yoldaşına minnətdar olduğunu bildirdi (İ. Şıxlı); *Respublikanın heyvandarları cari ilin plan tapşırıqlarını artıqlaması ilə yerinə yetirmişlər* (SK-18.09.81); *Ona respublikanın əməkdar müəllimi kimi fəxri ad verilmişdir* (Əİ-12.02. 80).

Verilən misalların hamısı ədəbi dilimizdə vətəndaşlıq hüququ qazanmış sözlərdir. Onlar ümumişlək sözlər kimi hamı tərəfindən başa düşülür və bütün sahələrdə işlədilir.

---

[1] *Bax:* H. Zərinəzadə. Fars dilində Azərbaycan sözləri, Azərbaycan SSR EA nəşriyyatı, Bakı 1962, səh. 158.

Lakin bədii əsərlərin dilində bəzən dilimizin lüğət fonduna daxil ola bilməyən və geniş dairədə işlənməyən *-dar* şəkilçili düzəltmə sözlərdən istifadə halları ilə də qarşılaşırıq. Məsələn, Mir Cəlalda rast gəldiyimiz *kömək-dar* sözü kimi.

-kar şəkilçisi. Mənşə etibarı ilə fars dilinə məxsus olan bu şəkilçinin iştirakı ilə hər hansı bir işlə məşğul olan şəxs mənalı *təcavüzkar, fitnəkar, peşəkar, tələbkar, günahkar, sənətkar, tamahkar, rəngkar* və s. kimi sözlər düzəlmişdir. Azərbaycan ədəbi dilində bunlar ümumişlək lüğəvi vahidlər sırasına daxildir. Buna görə də həmin sözlərə istər mətbuat dilində və istərsə də bədii üslubda geniş rast gəlmək mümkündür:

O, peşəkar, inqilabçı ailəsində böyüyüb (AG-19.08.76); *Bu əsl sənətkarın sənət aləmi haqqında düşüncələri idi* (V.Musa); *Onun rəngkarlıq işində də yaxşı səriştəsi var* (Əİ-16.04.76).

-iyyat//-iyyət şəkilçisi. Azərbaycan ədəbi dilində ərəb-fars mənşəli sözlərdən ərəb dilinə məxsus *-iyyat//-iyyət* şəkilçisi ilə düzəlib ictimai-siyasi, habelə mədəni-məişət anlayışları ifadə edən sözlər sosializm quruculuğu zəminində yeni ictimai məna çalarları ilə zənginləşmişdir; *ictimaiyyat, kəşfiyyat, fəaliyyət, şəxsiyyət, səmimiyyət, mədəniyyət, şirniyyat, qətiyyət, hakimiyyət, nailiyyət, cəmiyyət, zəruriyyət, ümumiyyət, müvəffəqiyyət, xasiyyət, mənəviyyat, riyaziyyat, bəşəriyyət, insaniyyət* və s.

Bu cür sözlərin yeni ictimai məna çaları kəsb etməsi ədəbi dil materiallarında daha qabarıq şəkildə öz əksini tapır:

Əsgərlər onu mahir bir kəşfiyyatçı kimi tanıyırdılar (İ.Hüseynov); *Yeni əmək nailiyyətləri qazanılmasında briqadanın təşəbbüskar rolu az olmamışdır*

(AG-17.09.81) və s.

-at//-ət şəkilçisi. Mənşəcə ərəb dilinə məxsus olub, *-lıq* şəkilçisinin, bəzən də cəm şəkilçisinin funksiyasını yerinə yetirən bu şəkilçi ilə düzələn sözlər də, başlıca olaraq, ictimai-siyasi mənalar bildirir. Belə sözlərə aid *təbliğat, təşviqat, təchizat, məlumat, tədqiqat, heyvanat, mühacirat, məxluqat* və s. misallar göstərmək olar.

Qeyd etməliyik ki, bu cür sözlərin bir qismində *-at/ /-ət/* şəkilçisi əvəzinə bəzən Azərbaycan dilindəki *-lar//-lər/* cəm şəkilçisi işlədilir. Belə ki, *heyvanat, məxluqat, tədqiqat* sözləri daha çox birləşmə *daxilində heyvanlar aləmi, riyaziyyata dair tədqiqlər, canlı məxluqlar* şəklində işlənir. Bu əvəzetmə Azərbaycan dili daxili imkanlarının üstünlük mövqeyi ilə bilavasitə bağlıdır. Lakin sovet dövründə Azərbaycan ədəbi dilinin daxili imkanlar əsasında zənginləşməsi ilə əlaqədar yaranmış belə bir meyili hələlik, demək olar ki, *-at/-ət/* şəkilçili sözlərin hamısına şamil etmək mümkün deyildir.

-i//-vi/ şəkilçisi. Mənşəcə ərəb dilinə məxsus olub, Azərbaycan dilində əksərən ərəb-fars mənşəli sözlərə artırılan bu şəkilçi vasitəsi ilə müxtəlif ictimai fəaliyyət sahələri ilə əlaqədar məfhumları ifadə edən sözlər yaranır. Dilimizdə sifət düzəldən bu şəkilçi vasitəsi ilə formalaşan *elmi, tarixi, mülki, hüquqi, inzibati, hərbi, iqtisadi, xarici, daxili, ədəbi, inqilabi, şərti, şimali, cənubi, qərbi, şərqi, tibbi, zöhrəvi, kütləvi, mənəvi, tərbiyəvi, ənənəvi, dünyəvi, nümunəvi* və s. sözlər fəaliyyət göstərir. Sovet dövründə bu cür sözlərin də ictimai məzmun ifadə etmək cəhətdən zənginləşdiyi müşahidə olunur:

Zəhmətkeşlərin h ü q u q i tələbləri qanun çərçivəsində ödənilməlidir (K-16.02.78); *Müəssisələrdə m ə d ə n i və t ə r b i y ə v i işin səviyyəsini yüksəltməyə çalışmaq tələb*

olunur (AG-16.04.79); *Briqada üzvləri planın artıqlaması ilə yerinə yetirilməsini özlərinin vətən qarşısındakı müqəddəs və m ə n ə v i borcu hesab edirlər* (SK-4.07.80); *Onlar i n q i l a b i ənənələrə sədaqət ruhunda tərbiyə edilirlər* (B-18.07.81) və s.

-dan şəkilçisi. Azərbaycan dilində fars mənşəli *-dan* şəkilçisinin iştirakı ilə düzəlmiş *qənddan, nəməkdan, küldan, çaydan, şamdan* və s. sözlər işlədilir.

Sovet dövründə Azərbaycan ədəbi dilində daxili imkanlar hesabına söz yaradıcılığı prosesinin güclənməsi öz təsirini *-dan* şəkilçili sözlərdə də göstərir. Belə ki, bu şəkilçi bir çox hallarda «qab» sözü ilə əvəz edilərək, milli zəmində mürəkkəb sözlər yaradır. Ədəbi dildə, xüsusən danışıq dili təsiri ilə *qənddan* sözünün leksik-semantik paralellərinin meydana çıxması bununla əlaqədardır *(qəndqabı).*

Uzun müddət dilimizdə düzəltmə yolla formalaşan *nəməkdan* sözü işlədilmişdir. Fars dilinə aid *nəmək* sözü tarixən dilimizdə işlək olmuş, lakin sonradan fəaliyyətdən qalmışdır. Daha doğrusu, xalis Azərbaycan mənşəli *duz* sözü onu tamam sıxışdırıb aradan çıxarmış və həmin söz yalnız *nəməkdan* sözünün tərkibində qalmışdır. Son vaxtlar bu sözün də tamam aradan çıxdığı müşahidə olunur. Belə ki, bu forma ilə düzələn sözlərdə yalnız şəkilçi əvəz edilirdisə, *nəməkdan* sözündə həm kök *(nəmək sözü),* həm də şəkilçi əvəz olunur və beləliklə də, *nəməkdan* əvəzinə *duzqabı* leksik vahidi meydana çıxmış olur. Qeyd edək ki, indi *nəməkdan* sözü müasir Azərbaycan dilinin yalnız dialektlərində işlədilir.

-xor şəkilçisi. Fars mənşəli bu şəkilçi mənşə dildə *yemək* məzmunu verən «xorden» məsdərindən düzəlmişdir. Müxtəlif sözlərə artırılaraq mənfi keyfiyyətləri bildirən

sözlər – sifətlər yaradan bu şəkilçi məhsuldarlıq baxımından əvvəlkilərə nisbətən zəif olsa da, sosial anlayışlar ifadə etmək baxımından gərəklidir. *Müftəxor, rüşvətxor, çayxor* və s. belə sözlərdəndir.

-baz şəkilçisi. Fars mənşəli bu şəkilçi də, müəyyən mənada, *-xor* şəkilçisinə yaxın olub, hansı sözə artırılır-artırılsın, mənfi mənalı atributiv sözlər yaratmağa xidmət edir. Bu şəkilçi yalnız ərəb-fars sözlərinə deyil, xalis Azərbaycan, rus və Avropa mənşəli sözlərə də artırıla bilir. Məsələn: *quşbaz, işbaz, sazbaz, hoqqabaz, qumarbaz, atbaz, donosbaz, materialbaz, modabaz, partiyabaz, sitatbaz* və s.

-kar şəkilçisi. Fars dilinə mənsub olan bu şəkilçi həmin dildə *iş* mənası ifadə edən sözdür; ərəb-fars mənşəli sözlərlə işlənərək, şəxs bildirən atributiv xarakterli sözlər yaradır. Məsələn: *fitnəkar, riyakar, sənətkar, peşəkar, tələbkar, tamahkar* və s.

-kər şəkilçisi. Bu şəkilçi də fars dilinə mənsub olub, *-kar* şəkilçisi ilə, bir növ, sinonim münasibətdədir, daha doğrusu, hər iki şəkilçi ərəb-fars sözlərinə artırılaraq, atributiv xarakterli sözlər yaratmağa xidmət edir. Məsələn: *hiyləgər, zərgər, kimyagər* və s.

-stan(-ıstan, -istən, -ustan, -üstən) şəkilçisi. Fars dilinə mənsub olan bu morfem də Azərbaycan dilində sözdüzəldici şəkilçi funksiyasını yerinə yetirir və mənşəcə müxtəlif sözlərə artırılaraq, məkan məzmunlu isimlər yaradır. Məsələn: *Özbəkistan, Türkmənistan, Başqırdıstan, Tacikistan, Qazaxıstan, Dağıstan, Gürcüstan, Hindistan* və s.

Nisbətən məhsuldar olan bu şəkilçilərdən başqa, dilimizə ərəb-fars dillərindən keçmiş və az sözdə özünü göstərən sözdüzəldici şəkilçilər də vardır: *-zar (gülzar,*

çəmənzar, laləzar), -ran (Kamran), -xah (xeyirxah, bəd-xah), -gah (ordugah), -vat (xırdavat) və s. belələrindəndir. Qeyri-məhsuldar olduqları üçün onlar haqqında ayrıca danışmağa ehtiyac hiss etmirik.

Məlumdur ki, iltisaqi dillərdən olan Azərbaycan dilinin xarakter xüsusiyyətlərindən biri şəkilçilərin kök və ya əsasın sonuna artırılmasıdır. Lakin dilimizə çoxlu hind-Avropa mənşəli, o cümlədən ərəb-fars dillərinə mənsub sözlər keçmişdir ki, onlarda ön şəkilçi iştirak edir. Ərəb-fars mənşəli ön şəkilçilər müasir dilimizdə az olsa da, onlar müəyyən qrup təşkil edir. Həmin şəkilçilər əsas etibarı ilə aşağıdakılardır:

na- şəkilçisi. Mənşə etibarı ilə fars dilinə məxsus olan bu şəkilçi ilə düzələn sözlər inkarlıq məzmunu bildirir. Müasir Azərbaycan dilində *na-* şəkilçili *narahat, nalayiq, nataraz, namünasib, nanəcib, nahaq, namərd, naşükür, naxələf* və s. sözlər vardır ki, bunlar ədəbi dildə ümumxalq səciyyəli lüğəvi vahidlər kimi işlədilir:

Onun n a r a h a t l ı ğ ı, doğrusu, bizi də çox düşündürürdü (F.Kərimzadə); *O qədər n a l a y i q sözlər danışdı ki, axırı durub hərə bir tərəfə çıxıb getdi* (Mir Cəlal); *Gördü qapıda bir n a t a r a z adam əyləşib* (S.Qədirzadə) və s.

na- şəkilçisinin ərəb-fars mənşəli sözlərlə yanaşı, Azərbaycan dili sözlərinə qoşulması faktları da mövcuddur. Bizə elə gəlir ki, həmin sözlər vaxtilə Azərbaycan dilindən fars dilinə daxil olmuş, sonradan *na-* şəkilçisi artırılmış şəkildə yenidən Azərbaycan dilində işlədilməyə başlamışdır. Azərbaycan-dilindən fars dilinə daxil olmuş belə sözlər hələ fars dilinin XVI əsrə aid mənbələrində də qeydə alınmışdır[1]. Azərbaycan dilindəki *naümid, nakişi, nabələd,*

---

[1] *Bax:* H. Zərinəzadə. Fars dilində Azərbaycan sözləri, Azərbaycan SSR EA nəşriyyatı, Bakı, 1963, səh. 158.

nadinc, natəmiz kimi sözlər bu tiplidir. Bunlar ədəbi dil materiallarında, xüsusən bədii ədəbiyyatda ümumişlək sözlər kimi çıxış edir:

Naümid nəzərlərlə hər ikisi bir-birinə baxdı (Ə. Vəliyev); *Onun bu nakişiliyi hamıda bir qəzəb oyatmışdı* (Ə.Vəliyev); *Yola nabələd olmasalar da, bir az ehtiyat eləyirdilər* (İ.Şıxlı); *Uşaq bir az nadinclik etdiyinə görə bayıra çıxartmalı oldular* (Ə.Vəliyev); *Otaqdakı natəmizlik adamı çox narahat edirdi* (İ.Şıxlı).

Azərbaycan dilində, xüsusən sovet dövründə *na-* şəkilçisi ona ekvivalent olan *-sız* morfemi ilə əvəz edilməyə, *na-* şəkilçili forma sıxışdırılmağa başlamışdır. Bu meyil *rahatsız, ümidsiz, haqsız, insafsız* və s. sözlərdə xüsusilə qabarıq şəkildə görünür. Ona görə də ədəbi dildə, o cümlədən onun bədii üslubunda ikinci varianta daha geniş meydan verilmişdir. Məsələn:

Onun layiqsiz hərəkətləri heç kimə xoş görünə bilməzdi (B.Bayramov); *Artıq onun da daim gülümsər gözündə bir rahatsızlıq çırpındığını görməmək mümkün deyildi* (C.Cabbarlı); *Əbih Sultan ümidsiz nəzərlərlə aşağıdan yuxarıya doğru baxırdı* (F. Kərimzadə); *O, öz tələblərində heç də haqsız deyildi* (C. Əmirov).

na- şəkilçisinin milli *-sız*[4] şəkilçisi ilə əvəz edilməsi prosesi hələ tamamilə başa çatmamışdır. Elə sözlər var ki, onlarda ön şəkilçini *-sız*[4] şəkilçisi ilə əvəz etmək hələlik mümkün deyil və ona görə də həmin sözlərin ikinci variantına dildə rast gəlmək olmur. Belələrinə *nakişi, nabələd, nadinc, natəmiz* sözlərini misal göstərmək olar. Göründüyü kimi, bu sözlərin kökü mənşəcə Azərbaycan sözləridir.

bi- şəkilçisi. Mənşəcə fars dilinə məxsus olan bu

şəkilçi *na-* şəkilçisi ilə sinonim olub, əsas etibarı ilə, ərəb-fars dillərindən alınmış sözlərin əvvəlində işlənir. Bu şəkilçi vasitəsi ilə düzələn *bivəfa, biədəb, bihal, biqərəz, bisavad, bigünah, bietibar, bihəya, binişan, biəməl* kimi sözlər artıq çoxdan Azərbaycan ədəbi dilinin lüğət tərkibinə daxil olmuşdur.

Sovet dövründə Azərbaycan ədəbi dilinin daxili inkişaf qanunları əsasında bu sözlərdə *bi-* şəkilçisinin də *-sız* şəkilçisi ilə əvəzlənməsi faktı özünü göstərir. Belə ki, yuxarıdakı sözlərin son dövrlərdə *ədəbsiz, halsız, qərəzsiz, savadsız, günahsız, etibarsız, həyasız, əməlsiz, nişansız* kimi paralellərinin işlədilməsində üstünlük nəzərə çarpır.

ba- şəkilçisi. Söz önünə artırılan bu şəkilçi d mənşəcə fars dilinə məxsusdur. *Ba-* şəkilçisinin iştirakı ilə Azərbaycan dilində *basəfa, baməzə, baxəbər* kimi sözlər işlədilir. Maraqlıdır ki, dilimizdə *bi-* şəkilçisi *-sız* şəkilçisi ilə əvəzləndiyi kimi, *ba-* şəkilçisi də *-lı…* şəkilçisi ilə əvəz olunur: *səfalı, məzəli* kimi paralellərin işlənməsində üstünlük müşahidə edilir. Sonuncu, yəni *baxəbər* sözü isə xə*bərdar* şəklində işlənir və *-dar* şəkilçili forma *ba-* şəkilçili formanı sıxışdırır.

Mürəkkəb sözlər

Dilin leksik tərkibinin mühüm bir hissəsi mürəkkəb sözlərdən ibarətdir. Bunların içərisində mənşəcə alınma olanlar xüsusi lay təşkil edir. Təbiidir ki, biz burada mənşə dilin qrammatik quruluşunu deyil, bilavasitə Azərbaycan dilinin qrammatik quruluşunu əsas alırıq. Belə ki, mənşə dildə mürəkkəb quruluşa malik olan sözlərin tərkib hissələri müasir dilimizdə sərbəst şəkildə işlənirsə, onlar mürəkkəb, tərkib hissələri müstəqil işlənməyənlər isə sadə

və ya düzəltmə hesab edilir. Ola bilər ki, dilimizin müəyyən tarixi mərhələsində müəyyən qisim sözlərin tərkib hissələri müstəqil olaraq işlənmişdir və bu baxımdan, yəni tarixi nöqteyi-nəzərdən həmin sözlər mürəkkəb ola bilər, lakin müasir dilimizin qrammatik-semantik qayda-qanunları üzrə onları mürəkkəb hesab etmək özünü doğrultmur.

Alınma mürəkkəb sözlər tərəflərinin mənşəyinə görə müxtəlif səciyyəlidir. Komponentləri eyni dilə məxsus sözlərlə yanaşı, hibrid mürəkkəb sözlərə də dilimizdə geniş şəkildə rast gəlmək olur. Hibrid sözlərin olması isə onları dilimizə uyğunlaşdırmaq meyili ilə əlaqədardır. Mənşəyinə görə mürəkkəb sözləri aşağıdakı şəkildə qruplaşdırmaq olar:

1) Hər iki komponenti rus-Avropa mənşəli mürəkkəb sözlər. Azərbaycan ədəbi dilində bu qəbildən olan *kinoaparat, kinoaktyor, kinoaktrisa, kinodram, kinojurnal, kinokomediya, kinolent, kinomexanik, kinopovest, kino-rejissor, kinossenari, radiosiqnal, radioqram* və s. sözlərə təsadüf olunur. Əsas etibarı ilə terminoloji səciyyə daşıyan bu tipli sözlərdən ümumişləklik xarakterinə görə bədii ədəbiyyatda da geniş istifadə olunur.

2) Hər iki tərəfi rus-Avropa mənşəli bir qrup sözlər də vardır ki, onlar quruluşca əvvəlkilərdən fərqlənir. Həmin sözlər, əsasən, «o» saitinin iştirakı ilə formalaşır, sözlər arasında işlənən «o» saiti tərəfləri bir-birinə birləşdirməyə xidmət edir. Məsələn: *qazogenerator, qazobeton, qazometr, qazotrubin, elektroavtomatika, elektroakustika, elektro-aparatura, elektrodinamika, ionosfer* və s.

2) Rus-Avropa mənşəli sözlərlə Azərbaycan sözlərinin birləşməsindən əmələ gələnlər. Bu qrupa daxil olan mürəkkəb sözlərdə tərəflərin mənşə mənsubiyyətinə

görə sıralanması müxtəlif olur. Belə ki, bir qismində alınma sözlər əvvəldə, digər qismində isə sonra gəlir və Azərbaycan sözləri, adətən, feli sifət və ya feli isimdən ibarət olur.

a) alınma sözü birinci yerdə işlənən mürəkkəb sözlər: *akkordeonçalan, arfaçalan, asfaltbasan, barabançalan, benzindaşıyan, benzinölçən, benzintökən, betonqarışdıran, vaqonqayıran, vaqonqayırma, vaqonabaxan, vaqonqoşan, vaqonquraşdıran, vaqonsürən, vertolyotqayırma, violonçeçalan, vışkaquraşdıran, qazölçən, qazpaylayan, qranatatan, elektrikçəkən, elektrovozqayırma, maşınsürən, tankvuran, silosyığan* və s.

b) alınma sözü ikinci yerdə işlənən mürəkkəb sözlər: *yarımkristal, yarımkustar, yarımleqal, yarımsilindrik, yarımfabrikat* və s.

Qeyd etməliyik ki, *ikimotorlu, ikipartiyalı, ikipalatalı, yeddimetrlik, genişekranlı* və s. kimi mürəkkəb sözlərin ikinci komponenti quruluş etibarı ilə düzəltmədir və bu düzəltmə sözlərin kökü rus-Avropa mənşəlidir. Lakin sözlərin kökünün alınma olması bütövlükdə düzəltmə sözün alınma olması demək deyil, onların tərkibindəki sözdüzəldicilik elementləri Azərbaycan dilinə məxsusdur.

Azərbaycan dilindəki ərəb-fars mənşəli mürəkkəb sözlərin bir qisminin komponentləri dilimizdə müstəqil şəkildə işlənən lüğəvi vahidlərdən ibarətdir. Belə sözlərə aid *aynabənd, şüşəbənd* və s. misal göstərmək olar. Bu mürəkkəb sözlərin komponentləri *ayna, şüşə, bənd* sözləri müasir ədəbi dilimizdə müstəqil leksik vahid hüququna malikdir. Bu komponentlər əsasında əmələ gəlmiş mürəkkəb sözlər ümumişlək səciyyə daşıyır və bədii ədəbiyyatda da məhsuldar şəkildə işlədilir:

Aynabənddə oturub çay içirdilər (S.Qədirzadə);

Onu ş ü ş ə b ə n d i n döşəməsi üzərinə uzatdılar (S. Hüseyn).

Bəzən ərəb-fars mənşəli sözün eyni məna daşıyan Azərbaycan sözü ilə birləşərək işlənməsi müşahidə olunur. Qeyd etməliyik ki, belə sözlər, əsas etibarı ilə, danışıq dili üçün səciyyəvidir. Bunlarla birgə işlənən eynimənalı sözlərlə, əsasən, müəyyən konkret əşya, hadisə və ya situasiyanı daha da canlandırmaq, mənanı qüvvətləndirmək və daha çox nəzərə çarpdırmaq məqsədi güdülür. Azərbaycan dilində belə sözlərin bariz nümunəsi «uzundraz» və «üzbəsurət» sözləridir. Ədəbi dil faktı kimi, «Azərbaycan dilinin orfoqrafiya lüğəti»nə (1975) daxil olan bu sözlər bədii təsvirdə, əsasən, emosionallıq yaratmaq məqsədi ilə işlədilir:

Bir də gördüm əmimgilin qonağı u z u n d r a z adam sizə verdiyim kağızları ora-bura tökür (Ə.Vəliyev); *O, maşallah, göz dəyməsin, zırpı bir şeydir, elə yaxşı deyiblər ki, u z u n d r a z beynamaz, xeyrə-şərə yaramaz* (Anar); *Mənə elə gəlir ki, ağa, özünüz rəiyyətlə üzbəsurət gərək danışasınız* (Ə.Vəliyev); *İndi sənə deyirəm. Sənə də üzbəsurət deyə bilməzdim ey (*Ə.Qasımov).

Azərbaycan ədəbi dilində eyni sözün təkrarı ilə düzəlmiş «üzbəüz» sözünün leksik paraleli kimi işlədilən fars mənşəli *rubəru* sözü də vardır. Sonuncu orfoqrafiya lüğətinə (1975) daxil edilmiş bu söz ədəbi dil faktı kimi qeydə alınsa da, daha çox danışıq dili xarakteri daşıyır. Bizə belə gəlir ki, artıq işlənmə dairəsini kiçiltmiş, fəaliyyətdən düşmüş, yalnız məhdud dairədə, az hallarda işlədilən bu sözün orfoqrafiya lüğətinə düşməsi özünü doğrultmur. Təsadüfi deyildir ki, çox az hallarda ədəbi dilin bədii üslubunda işlədilən bu sözdən bilavasitə, danışıq dili xüsusiyyətlərini ifadə etmək üçün istifadə olunur:

– *Üzləşdirməsələr, mən tələb edəcəyəm, r u b ə r u danışaq* (Ə. Vəliyev); *Nə başını ağrıdım, sədr özü ilə r u b ə r u əyləşdirdi məni* (B. Bayramov).

Azərbaycan dilində tərkib hissələri müxtəlif mənşədən olan mürəkkəb sözlər də müəyyən yer tutur. Yuxarıdakı misallardan göründüyü kimi, tərkib hissələrinin hər ikisi alınma – biri rus-Avropa, digəri ərəb-fars mənşəli ola bildiyi kimi, biri alınma, digəri isə xalis Azərbaycan sözlərindən ibarət ola bilir. Qeyd edək ki, rus-Avropa və ərəb-fars sözləri ilə formalaşan hibrid sözlər dilimizdə azlıq təşkil edir. Bunlara aid *kinoməcmuə, kinofaciə* və s. sözləri misal göstərmək olar. Rus-Avropa və Azərbaycan dili sözlərindən əmələ gələn mürəkkəb sözlər isə geniş yayılmışdır.

İzafət birləşmələri

Məlumdur ki, izafət tərkibləri Azərbaycan dilində milli səciyyə daşımır, bir sintaktik vahid kimi, ərəb-fars dillərindən alınmadır. Dilimizin müasir dövrünə qədər qorunub saxlanan və tam mənası ilə vətəndaşlıq hüququ qazanan alınmalardan fərqli olaraq, izafət tərkibləri dilimizin qrammatik quruluşunda özünə daimi sığınacaq tapa bilməmişdir, ona görə də dilimizdən tamamilə çıxmaq üzrədir.

Yeri gəlmişkən bir məsələni də xatırladaq ki, rus türkoloqları «izafət» terminindən daha çox istifadə edir və bu başlıq altında müasir milli söz birləşmələrini öyrənirlər. Lakin biz «izafət», «izafət tərkibləri» adı altında ərəb-fars dillərinə məxsus qrammatik formadan bəhs edəcəyik.

İzafət birləşmələri Azərbaycan dilinin qrammatik quruluşuna uyğun deyildir. Buna görə də sintaktik vahid

kimi izafətdən Azərbaycan ədəbi dilində istifadə məqbul sayılmır. Lakin izafət birləşmələri dilimizə ərəb-fars dillərindən hazır şəkildə gəldiyindən, Azərbaycan dilində onların yaradılması və inkişaf yolu barədə danışmağa ehtiyac vardır. Azərbaycan dilində izafət birləşmələrinin işlədilməsi inqilabdan əvvəlki dövr üçün xüsusilə səciyyəvi idi. Çünki o dövrdə Azərbaycan dilinə külli miqdarda lüzumsuz ərəb-fars sözləri ilə yanaşı, bir sıra izafət birləşmələri də daxil olmuşdu. İnqilabdan sonrakı dövrdə isə lüzumsuz ərəb-fars sözlərinin Azərbaycan ədəbi dilində işlənmə imkanları məhdudlaşmaqla izafətin də istifadə potensialı azalmağa başladı. Bununla belə, hər hansı dil vahidi bir dildən başqa dilə tədriclə, uzun sürən prosesdə daxil olduğu kimi, onun dildən çıxması da birdən-birə olmur, bunun üçün müəyyən bir dövr tələb olunur. İzafət tərkiblərinin də dilimizi tərk etməsi belə bir qanuna-uyğunluq üzrədir. Buna görə də dilimizin qrammatik qayda-qanunlarına cavab verə bilməyən bu cür semantik vahidlər tədricən dilimizi tərk etməyə başlasa da, sovet dövrü Azərbaycan ədəbi dilinin lüğət tərkibində onların müəyyən qismi, az da olsa, öz işləkliyini saxlamışdır. Sovet dövrü Azərbaycan ədəbi dilində izafətin mühüm bir qismi işlənmə dairəsinə görə rəsmi-işgüzar üslubla bağlıdırsa, müəyyən bir qismi klassik şeir üslubu, həmçinin bədii ədəbiyyatda səciyyələndirmə vasitəsi kimi işlədilir. İzafət ərəb-fars dillərinin qrammatik quruluşu əsasında yaradıl-dığı kimi, burada iştirak edən komponentlər də bilavasitə, həmin dillərə məxsus leksik vahidlərdən ibarət olur.

Azərbaycan ədəbi dilində hələ ilk dövrlərdə işlənmiş izafətlərin bir çoxu sonralar müvafiq qarşılıqları ilə əvəz edilmiş, bəziləri isə xüsusən son dövrlər əvəzetmə perspektivi daha güclü olan qarşılıqla paralel işlədilir.

İzafətləri əvəz edən sözlər milli olduğu kimi, alınma da ola bilər. İzafət tərkibləri istər bədii dildə, istərsə də rəsmi-işgüzar üslubda müəyyən ağırlaşdırıcı təsirini saxlayır. Ona görə də belə birləşmələrə müvafiq qarşılıq axtarılması tamamilə təbii və məqsədəuyğundur.

Sovet dövrü Azərbaycan ədəbi dilində işlənən izafət birləşmələrini ifadə və məna xüsusiyyətlərinə görə aşağıdakı kimi qruplaşdırmaq olar:

a) *Rəsmi-işgüzar üslub üçün səciyyəvi dil faktı kimi işlədilənlər.* Azərbaycan dilində bu qəbildən olan izafət tərkiblərinə aid aşağıdakıları göstərmək olar:

Mən bu saat gedib Maarif Komissarlığına ərzihal yazacağam (C.Cabbarlı); *Təvəqqe eləyirəm, mənim ərzi-halıma qanun ilə baxasınız* (Mir Cəlal); *İndi ona siyasi və hərbi nöqteyi-nəzərlə baxır, onu bütün şərq inqilabının qapısı kimi görürdü* (C.Cabbarlı); *Senatorlar bir sıra konkret beynəlxalq problemlər barədə öz nöqteyi-nəzərini şərh etmişlər* (K-19.08.83); *Bir çox verilişlərdə, xüsusilə Yeni il şənliklərində həmin onunla tərəfi-müqabil olmuşam* (QJ-№ 2, 1983, s. 89); *Əfv-ümumi ehtimalı var idi* (Mir Cəlal); *Anketi, tərcümeyi-halı araşdırmaq ənənəsi hələ dəbdən düşməyib* (B.Bayramov); *Kağızı raykom katibinə nahaq veribsən. O, əldə maddeyi-sübutdur* (İ.Şıxlı); *Xudayar bəy kənd miqyasında hakimi-mütləq və diktatordur* (Anar).

Buradakı *ərzi-hal, nöqteyi-nəzər, tərəfi-müqabil, əfv-ümumi, tərcümeyi-hal, maddeyi-sübut, hakimi-mütləq* izafətləri ilə paralel şəkildə ədəbi dildə *ərizə, baxım, partnyor, amnistiya, avtobioqrafiya, fakt, diktator* sözləri də işlədilir. Qeyd etməliyik ki, izafətə nisbətən mənaca daha aydın, ifadə etibarı ilə daha sadə görünən bu qarşılıqlar ədəbi dildə özünə son vaxtlar daha çox işləklik

qazanmışdır. Buna görə də artıq indi *ərzi-hal, əfv-ümumi, hakimi-mütləq, maddeyi-sübut* izafətləri öz işləkliyini itirmiş və ədəbi dilimizdən çıxmışdır. «Nöqteyi-nəzər» yerinə «baxım», «tərəfi-müqabil» yerinə «partnyor», «tərcümeyi-hal» yerinə «avtobioqrafiya» işlənməsi isə izafətlərdən adi sözlərə doğru inkişafı səciyyələndirən maraqlı faktlardandır. Müasir rəsmi-işgüzar, habelə elmi, publisist üslublarda müvafiq izafəti əvəz edən bu sözlərdən getdikcə daha çox istifadə olunur və onlar dilimizdə tam mənası ilə vətəndaşlıq hüququ qazanır. Ədəbi dildə geniş dairədə işlənən bu cür faktları aşağıdakı misallardan da aydın şəkildə görmək mümkündür:

Məhsuldarlığı yüksəltmək baxımından yeni aqrotexniki qaydaların əhəmiyyəti böyükdür (SK-18.05.81); *Bu dəfə də o, səhnədə əvvəlki partnyoru ilə çıxış edirdi* (B-21.06.80); *Bu bütün ömrünü şərəfli zəhmətə həsr etmiş bir əməkçinin avtobioqrafiyası idi* (AG-16.05.82).

Təxmini hesablamaya görə, 1975-1982-ci illərə məxsus ədəbi dil materiallarında «nöqteyi-nəzər» əvəzinə «baxım» sözünün işlədilməsi 89%, «tərəfi-müqabil» əvəzinə «partnyor» sözünün işlədilməsi 77,7%, «tərcümeyi-hal» əvəzinə «avtobioqrafiya» sözünün işlədilməsi isə 78,7% təşkil edir.

Ədəbi dildə *baxım partnyor* və *avtobioqrafiya* sözlərinin işlənmə intensivliyi artdıqca yuxarıdakı nisbət də getdikcə həmin sözlərin xeyrinə dəyişir.

b) *Bədii təsvir və bədii səciyyələndirmə vasitəsi kimi işlədilənlər.* Sovet dövrü Azərbaycan ədəbi dilində işlədilən izafətlərin bir qismi klassik üslub ənənəsi ilə bağlıdır. Belə izafətlərə şeir dilində daha çox təsadüf olunur:

Öpürdü sanki öz övladına olub vasil,
Görüncə s i n e y i - ş ə f q ə t d ə nazlı yavrusunu.
(C.Cabbarlı)

Yaxşı gündə, yaman gündə var olsun,
Qədir bilən ə h l i - h a l d a n danışaq.
(S.Vurğun)

Nəsr əsərlərində təsadüf olunan izafətlər də klassik yazı üslubu, təmtəraqlı ifadələr işlətmə ənənəsi, habelə müəyyən məqsəd daşıyan üslubi səciyyələndirmə ilə bağlıdır. Müasir dilimiz üçün anlaşılmaz olub, tarixi fakt olaraq qalan belə izafət birləşmələri inqilabdan sonrakı illərdə hələ də yaşamaq hüququnda idi. Məsələn:

Bəli, təbiət g ə r d i ş i - i n s a n i y y ə t l ə elə bir düşmən deyil ki, fəlakət günündə onlara bir çarə arasın (C. Cabbarlı); *Biçarə bir s e y i d - m ə z l u m və qafil deyillərmi ki, anadan olan gündən təbiət səyyadinin cənginə düşür* (B. Talıblı); *Pərvərdigara, şükr olsun sənin d ə r g a h i - m ə r h ə m ə t i n ə ki, bizə xoşbəxtlik qapılarını açdın* (S. Hüseyn).

Qeyd etməliyik ki, müasir ədəbi dilimizdə, xüsusən 1960-1980-ci illər mərhələsində izafətin işlənmə potensialı çox zəiflədiyindən hətta bədii ədəbiyyatda da onlardan az-az hallarda istifadə edilir. Bəzən isə bir tərəfdən, hələ qarşılığı tapılmadığı, digər tərəfdən isə mətn və situasiyanın tələbi ilə müəyyən emosionallıq bildirmək üçün izafətdən istifadə hallarına rast gəlmək olur.

Belə ki, «kürreyi-ərz» izafəti müasir dilimizdə «bütün dünya», «yer kürəsi» birləşmələri ilə ifadə olunur, lakin etiraf etmək yerinə düşər ki, birinci ifadə daha çox tarixi emosional çalara malikdir və fikri daha tam, dəqiq və

istənilən səviyyədə ifadə edə bilir. Aşağıdakı misallarda biz bu fikrin təsdiqini görə bilərik:

O gün gəlib tələbələrə deyib ki, k ü r r e y i - ə r z d ə hələ Kəbirlinskidən bezdarnı artist anadan gəlməyib (Anar); *K ü r r e y i - ə r z i n hansı şəhərindən, kəndindən, hansı ailəsindən neçə-neçə günahsız qurbanlar aparmamışdır!* (S.Qədirzadə).

c) *Ədəbi dildə qarşılığı olmadan işlədilənlər.* İzafət birləşmələrinin bir qismi Azərbaycan ədəbi dilində qarşılığı və ya paralel variantı olmadan işlədilir. Bunlar ədəbi dildə hələ də mövqeyini itirməyən birləşmələrdir. Belə izafət birləşmələrindən *sui-istifadə, sövqi-təbii, qeyri-iradi* və s. xüsusilə sabit şəkil almışdır:

Azmı Aqil var, öz iti ağlını özü üçün bir alət edib ondan s u i - i s t i f a d ə edir! (Ə.Vəliyev); *Bəlkə doğrudan da vitrinlərin boşalmasından s u i - i s t i f a d ə eləyənlər var?* (B.Bayramov); *Qapıdan içəri girəndə s ö v q i - t ə b i i ilə qanrılıb geri baxdı* (S.Qədirzadə); *Q e y r i - i r a d i deyilmiş olsa da, bu sözlərin ancaq bir mənası vardı* (M. İbrahimov).

İzafət birləşmələri dilimizin qrammatik quruluşuna yad olduğu və onun qrammatik normalarına uyuşmadığı üçün tədricən dili tərk edir və daha sadə sözlərlə, yaxud söz birləşmələri ilə əvəz edilir. Bunlardan elələri də vardır ki, onların hətta xalq tərəfindən daha anlaşıqlı olan bir tərkib hissəsi qalır, digər tərəfi isə atılır. Beləliklə, izafətin tərkib hissələrindən biri bütöv izafətin funksiyasını yerinə yetirir. Məsələn: *hal-hazırda – hazırda, əhvali-ruhiyyə – əhval, hüsn-rəğbət – rəğbət, nəzəri-diqqət – diqqət, sui-qəsd- qəsd* və s.

Əlavəli sözlər

Əlavəli sözlər dilimizdə sonralar rus-Avropa dillərinin təsiri ilə meydana çıxmışdır. Ona görə də əlavəli sözlərin böyük əksəriyyətinin tərkib hissələrinin alınma sözlərlə ifadə olunması təbiidir. Əlavəli sözlər tərkib hissələrinin ifadə vasitəsinə görə də müxtəlifdir. Belə ki, əlavəli sözlər həm substantiv, həm də atributiv xarakterdə ola bilir.

1) Substantiv xarakterdə olanlar: *general-leytenant, general-mayor, marksizm-leninizm, sosial-demokratiya, sosial-şovinizm, sosial-şovinist, texnik-internat, federal-kansler, ştabs-kapitan, vaqon-restoran, vakuum-aparat, vakuum-kompressor, vitse-admiral, kamera-vokal, kafe-restoran, kreslo-krovat* və s.

2) Atributiv xarakterdə olanlar: *elmi-kütləvi, elmi-pedaqoji, elmi-texniki, elmi-fantastik, lirik-dramatik, lirik-epik, lirik-yumoristik, material-texniki, texniki-iqtisadi, sosial-iqtisadi* və s.

Söz birləşmələrindən əlavəli sözləri fərqləndirən bir xüsusiyyət ikincilərin bəzən tərkib hissələrinin ayrı-ayrılıqda işlənə bilməsidir. Bu zaman kiçik məna fərqi özünü göstərsə də, bu fərq hiss edilməyəcək dərəcədə az olur. Məsələn:

S o s i a l - i q t i s a d i inkişafı sürətləndirmək barəsində partiyanın göstərişlərində elmi-texniki tərəqqiyə böyük əhəmiyyət verilir; s o s i a l və i q t i s a d i inkişaf planlarının yerinə yetirilməsinə kredit mexanizminin təsirini güclən-dirmək məqsədi ilə bu mexanizm əsaslı surətdə yenidən qurulmalıdır (K-18.05.86).

Məlumdur ki, qoşa sözlərin müəyyən qismi tərkib hissələrinə parçalanmış halda da işlənə bilir. Məsələn: *ata-*

ana//ata və *ana, bacı-qardaş//bacı* və *qardaş, qəm-qüssə//qəm* və *qüssə, yer-göy//yer* və *göy* və s.

* * *

Dilimizdə bir qrup sözlər də vardır ki, onlar əslində mənşə dildə mürəkkəb söz hüququndadır. Rus dili vasitəsi ilə dilimizə keçən bu sözləri quruluşca təsnif etmək, daha doğrusu, onların sadə, düzəltmə və ya mürəkkəb olduğunu müəyyənləşdirmək çətinlik törədir. Bunların bir qisminin dilimizin qrammatik-semantik xüsusiyyətləri üzrə mürəkkəb söz olması şəksizdir. *Radio, foto, avia* və s. dilimizdə müstəqil leksik vahidlərdir və onlarla başlayan sözlər mürəkkəb sözlərdir. Məsələn: *radiomexanika, radiozavod, fotoatelye, fotomağaza, aviazavod* və s.

Lakin eyni qəbildən olan elə morfemlər də vardır ki, onların semantikası müəyyən dairə üçün anlaşıqlı olsa da, müstəqil leksik vahid hüququna malik deyil. *Avto-, aqro-, aero-, bio-, zoo-, kosmo-, geo-, makro-, mikro-, mono-, moto-, neo-, poli-, hidro-* və s. morfemlər bu qəbildəndir. Bu morfemlər qoşulduğu sözlərə müvafiq mənalar verir. Maraqlıdır ki, bu morfemlərin iştirak etdiyi sözlərin tərkibinin digər hissəsi müstəqil söz olduğu kimi, müstəqil olmaya da bilir. Birinci qrup sözlər düzəltmə və mürəkkəb, ikincilər isə sadə və düzəltmə sözlər arasında orta mövqe tutur. Bəzi dilçilik əsərlərində həmin morfemlərin söz, yaxud şəkilçi olması haqqında heç bir məlumat verilmir; onlardan ad çəkmədən *«poli-, neo-»,* … ilə başlayan sözlər adı altında bəhs edilir. Göstərilən morfemlərlə formalaşan sözlərdən dilimizdə aşağıdakılara geniş dairədə rast gəlmək olur:

aero- ilə başlayanlar. Bu cür sözlərin böyük hissəsi

təyyarə, təyyarəçiliklə bağlı anlayışları bildirir. Məsələn: *aerobus, aeroport, aeroklub, aerodrom, aerokassa, aerovağzal, aerodinamika, aeromaqnit, aerometr, aeroaviasiya, aerostansiya, aerotermometr, aerofotoaparat* və s.

aqro- ilə başlayanlar. Bu morfemlə başlayan sözlər kənd təsərrüfatı ilə bağlı anlayışlar bildirir və əslində, mürəkkəb sözə uyğun gəlir. Məsələn: *aqrobioloq, aqrometeoroloq, aqrobiologiya, aqrotexnika, aqrokimya, aqrosənaye* və s.

avto- ilə başlayanlar. Bu morfemlə formalaşan sözlərin böyük əksəriyyəti maşınla bağlı anlayışlar bildirir. Məsələn: *avtovağzal, avtomaşın, avtosistern, avtobaza, avtoqreyder, avtodrezin, avtozavod, avtokolon, avtoqaraj, avtokran, avtomagistral, avtomexanik, avtomodel, avtotraktor, avtofurqon, avtopark* və s. Bir qismi isə başqa məzmun ifadə edir. Məsələn: *avtobioqrafiya, avtopilat, avtoreferat* və s.

bio- ilə başlayanlar. Bu cür sözlər biologiya ilə bağlı anlayışlar bildirir. Məsələn: *biosintez, bioelektrik, bioindikator, biokimya, biogeokimya, biogenetik, biososioloji, biosfer, biofizik, biotexnika* və s.

zoo- ilə başlayanlar. Bu sözlər heyvanlar aləmi ilə bağlı mürəkkəb anlayışlar bildirir. Məsələn: *zookabinet, zooforma, zoospor, zoogigiyena, zoomağaza, zoomorfizm, zoopaleontologiya, zoopark, zoopsixologiya* və s.

geo- ilə başlayanlar. Bu sözlər geologiya ilə bağlı anlayışlar bildirir. Məsələn: *geobotanika, geokimya, geofizika, geoxronologiya, geomaqnetizm, geomorfologiya, geosentrizm, geosfer, geotexnika* və s.

tele- ilə başlayanlar. Bu sözlər rabitə ilə bağlı; anlayışlar bildirir. Məsələn: *telefon, teleqraf, teleqram, telefilm, telekamera, telereportaj* və s.

hidro- ilə başlayanlar. Bu sözlər su ilə bağlı anlayışları bildirir. Məsələn: *hidrobionika, hidrokompressor, hidroaparatura, hidrometallurgiya, hidromeliorasiya, hidrostansiya, hidroakustika, hidroenergiya* və s.

makro- ilə başlayanlar (mənşəcə «böyük» mənasındadır). Məsələn: *makromolekul, makrorelyef, makroseysmik, makrofotoqrafiya* və s.

mikro- ilə başlayanlar (mənşəcə «kiçik» mənasındadır). Məsələn: *mikrotoponim, mikroavtobus, mikrokulon, mikrogeologiya, mikrolampa, mikroseysmik, mikrosintez, mikrotelefon, mikrofilm* və s.

mono- ilə başlayanlar (mənşəcə «tək» mənasındadır). Məsələn: *monoteizm, monoton, monoxromatik, monohidrat* və s.

poli- ilə başlayanlar (mənşəcə «çox» mənasındadır). Məsələn: *polipredikativ, polisillogizm, polisimmetrik, polisintetik, politexnik, politipaj, poliklinika, polikristallik, polimetal, polimineral, polisaxarid* və s.

neo- ilə başlayanlar (mənşəcə «yeni» mənasındadır). Məsələn: *neofaşizm, neodarvinizm, neoimpressionizm, neoklassik, neolamarksizm, neonasizm, neoplatonizm* və s.

anti- ilə başlayanlar (mənşəcə «əks» mənasındadır). Məsələn: *antibiotik, antibolşevik, antidemokratizm, antiimperializm, antimaqnit, antimarksist, antifaşist, antikommunizm, antimilitarizm, antipartiya* və s.

Bu morfemlərin maraqlı xüsusiyyətlərindən biri ondan ibarətdir ki, onların bir qismi Azərbaycan dili və ərəb-fars sözləri ilə də işlənir. Məsələn: *avtoqatar, aerosəpin, avtoqələm, avtodartıcı, avtodükançı, avtomüfəttiş, aqroməntəqə, avtodükan, aeroxizək* və s.

Bu morfemlər dilimizdə daha geniş yayıldığı üçün onlar artıq ümumişlək səviyyədə anlaşmağa xidmət edir.

Bu qəbildən olan elə morfemlər də vardır ki, onlar cəmi bir-iki sözün tərkibində iştirak edir. Məsələn: drillametr, amfiteatr, perfokart və s.

Alınmaların leksik-funksional paralelliyi

Zərurət nəticəsində bir dildən digər dilə keçən sözlər həmin dilin leksik tərkibinin zənginləşməsində mühüm ro oynayır. Lakin alınma sözlər bütün hallarda yeni anlayış bildirmir; bəzən dildə müəyyən bir anlayış bildirən sözün olmasına baxmayaraq, başqa bir dildən həmin anlayışı bildirən yeni söz alınır. Burada da müəyyən dil qanunauyğunluqları izlənilir. Belə ki, alınan söz Azərbaycan dili qrammatik qayda-qanunlarına uyğun gəlib yaşamaq hüququ qazanırsa, əvvəlcədən dilimizdə mövcud olan sözlə paralel işlədilir. Belə sözlər, demək olar ki, eyni leksik-semantik xüsusiyyətə malik olub, sinonim cərgələr yaranmasına və onların zənginləşməsinə təsir edir. Sinonim cərgənin mövcudluğu ədəbi dilin lüğət tərkibinin leksik-semantik inkişafını səciyyələndirən mühüm amillərdən biridir. L.P.Krısinin qeyd etdiyinə görə, bu cür sinonimlik 1920-ci illər rus ədəbi dilində də mövcud olmuşdur[1].

Onu da qeyd etmək lazımdır ki, ümumişlək sözlərdən sinonim cərgələr nə qədər çox olarsa, bu, dilin zənginliyini göstərir. Lakin eyni fikri alınma sözlərlə qurulan bütün sinonim cərgələrə şamil etmək olmaz.

Müasir Azərbaycan ədəbi dilində paralel şəkildə işlədilən alınmalara aid bir cəhəti də qeyd etmək lazımdır. Əvvəlki fəsillərdə göstərildiyi kimi, xüsusilə son dövr

---

[1] *Bax:* Л.П.Крысин. Иноязычная лексика в русской литературной речи 20-х годов. – В кн.: «Развитие лексики современного русского языка». М., Изд. «Наука», 1965, стр. 117-134

ədəbi dil materiallarında ərəb-fars mənşəli sözlərə nisbətən, rus dili alınmalarının işlədilmə potensialı xeyli artmışdır. Bu da rus dili alınmaları müqabilində müəyyən qrup ərəb-fars mənşəli sözlərin artıq işləklikdən qalmasını və tədricən ədəbi dilin lüğət tərkibindən çıxmasını şərtləndirir.

Rus dilində olduğu kimi, Azərbaycan ədəbi dilində də 1920-ci ildən sonra paralel işlənən xeyli söz mövcud olmuşdur. Lakin dilin leksik qatındakı inkişaf perspektivləri ilə əlaqədar ilk mərhələlərə təsadüf edən bu paralellərin bir qismi getdikcə aradan çıxmağa və bu cəhətdən ədəbi dilin lüğət tərkibində sabitlik bərpa olunmağa başladı.

Belə sabitləşmə prosesində, şübhəsiz, rus dilindən alınan sözlərin çox mühüm rolu olmuşdur. Ərəb-fars mənşəli sözlərin müqabilində rus dili alınmalarının üstünlüyü son dövrlərə məxsus ədəbi dil materiallarında da müşahidə olunmaqdadır. Ədəbi dildə paralel işlədilən belə sözlərdən aşağıdakılar xüsusilə səciyyəvidir:

Resept – nüsxə. Ədəbi dildə *resept* sözü işlənmə intensivliyinə görə *nüsxə* sözündən daha üstündür. Belə ki, bunların hər ikisi «İzahlı lüğət»də, habelə 1960 və 1975-ci illərin orfoqrafiya lüğətlərində qeydə alınsa da, *resept* sözü daha çox ədəbi dilin mətbuat və bədii üslubları üçün səciyyəvidir, *nüsxə* sözünə isə əsas etibarı ilə bədii ədəbiyyatda təsadüf etmək olur:

Reseptlərdən düzgün istifadə etmək və ilk növbədə həkimlə məsləhətləşmək lazımdır (AQJ-1981, № 2, s. 14); *Reseptlər xəstələrə həkimin icazəsi ilə verilir* (AG-16.08.81); *Mən reseptlərə baxdım. Xəstənin yatağı yanında bir tərəfi çürük nar gördüm* (Mir Cəlal); *Həkim bir nüsxə yazıb verdi* (M. Hüseyn) və s.

1940-cı ildə nəşr olunmuş orfoqrafiya lüğətində ədəbi

dil faktı kimi *nüsxə* sözü qeydə alınmışdır. Son dövrlərdə *resept* sözünün işlədilmə intensivliyi artmışdır.

1975-1982-ci illər Azərbaycan ədəbi dili materialları əsasındakı hesablamalara görə bu nisbət *resept* sözündə 86%, *nüsxə* sözündə isə 14% təşkil etmişdir. Hətta cəsarətlə demək olar ki, *nüsxə* sözü eyni mənada – *resept* sözünün qarşılığı kimi son vaxtlar demək olar ki, işlənmir.

Aptek – əczaxana – dərmanxana. Semantik cəhətdən biri digərinin paraleli olan bu sözlərin hər üçü ədəbi dilin lüğət tərkibinə daxildir və «Azərbaycan dilinin izahlı lüğəti»ndə, habelə 1960 və 1975-ci illərdə nəşr edilmiş orfoqrafiya lüğətlərində qeydə alınmışdır.

Son dövrlər ədəbi dil materiallarının araşdırılması belə nəticə çıxarmağa imkan verir ki, *dərmanxana* sözü yerli kolorit yaratmaqla əlaqədar yalnız bədii ədəbiyyata, *əczaxana* sözü mətbuat dilinə, həmçinin bədii əsərlərin dilinə, *aptek* sözü isə bütünlükdə ədəbi dilə – bütün üslublara xasdır. Bu isə *aptek* sözünün bütünlükdə dilimizdə vətəndaşlıq hüququ qazandığını və tədriclə digər paralellərini fəaliyyət meydanından sıxışdırdığını göstərir. Aşağıdakı misallar da bu nisbəti qabarıq şəkildə əks etdirir:

Şəhərin aptek idarələrində yüksək ixtisaslı mütəxəssislər çalışır (B-16.07.81); *Fayton tutdurub rayona aptekdən bəzi şeylər almağa adam çağırtdırdım* (Mir Cəlal); *Bu dərman məmulatını şəhər əczaxanalarından tapmaq olar* (B-16.06.78); *Şəhərin bütün dərmanxanalarını gəzib axtarmışdı* (İ. Makulu).

Aptek sözünün işlənmə intensivliyi daha üstündür. Belə ki, ədəbi dil faktı kimi *aptek* sözünün 1975-1982-ci illərdəki işlənmə intensivliyi təqribən 76,5%, *əczaxana* sözünün işlənməsi 18,5%, *dərmanxana* sözünün işlənməsi ilə yalnız 5% təşkil edir. Bununla da ədəbi dildə *aptek*

sözünün *əczaxana* və *dərmanxana* paralellərinə nisbətən işlənmə üstünlüyü özünü bariz şəkildə əks etdirir.

Ştab-qərargah. 1940-cı ildə nəşr olunmuş orfoqrafiya lüğətində *ştab* sözü Azərbaycan ədəbi dili faktı kimi qeydə alınmışdır. Həmin sözlə ifadə edilən anlayışı bildirmək üçün lüğətdə *qərargah* sözü də verilmişdir. Sonrakı lüğətlərdə, xüsusən 1960 və 1975-ci illərdə nəşr edilən orfoqrafiya lüğətlərində, Azərbaycanca-rusca lüğətlərdə və izahlı lüğətdə hər iki söz qeydə alınmışdır.

Göstərmək lazımdır ki, hər iki söz ədəbi dilin müxtəlif üslublarında müasir dövrdə də paralel şəkildə işlədilməkdədir. Hətta bəzən bu sözün eyni bir əsərdə də paralel şəkildə işlədilməsinə təsadüf olunur:

Bu dəqiqədən başlayaraq kapitan Rəsulovun kabineti cinayət-axtarış şöbəsinin ş t a b ı n a çevrildi (C. Əmirov); *Kapitan Rəsulovun kabineti cinayət-axtarış şöbəsinin q ə r a r g a h ı n a çevrilmişdir* (C. Əmirov).

Misallardan göründüyü kimi, eyni anlayışı ifadə edən həmin sözlər *(ştab-qərargah)* bir əsərdə eyni zamanda və eyni məqsədlə işlədilmişdir. Bu sözlərin termin olması şəksizdir. Sözlərin paralelliyi, təbii ki, dildə zənginləşməyə kömək etsə də, terminologiya sahəsində dolaşıqlıq yaranmasına gətirib çıxarır. Eyni anlayış bildirən ümumişlək sözlər dildə nə qədər çox olarsa, onlar sinonim cərgəni yaradır ki, bu cərgənin varlığı da dili yüngülləşdirir, fikrin ifadəsinin rəngarəngliyinə və bu əsasda ünsiyyətin asanlaşmasına kömək edir. Ümumişlək sözlərdən fərqli olaraq, terminlərə bu fikri şamil etmək olmaz. Xüsusilə eyni əsərdə eyni məqsədlə paralel terminlər işlədilməsi yalnız anlaşılmazlıq yaradır. Terminlər variantlılıq sevmir və hərc-mərclik yaradan bu halı aradan qaldırmağı tələb edir.

Qeyd edək ki, Azərbaycan ədəbi dili materialları üzrə aparılmış təxmini hesablamalara görə, son dövrlər *qərargah* sözünün işlədilmə intensivliyi daha yüksəkdir. Belə ki, *qərargah* sözünün işlənmə tezliyi təqribən 64%, *ştab* sözü isə 36%-dir.

Avariya – qəza. Bu sözlər 1930-cu illərin lüğətləri istisna olmaqla, Azərbaycan ədəbi dilinə aid sonrakı lüğətlərdə qeydə alınmış və ədəbi dil materialı kimi təqdim edilmişdir. Qeyd edək ki, *avariya* sözü alınma olsa da, daha çox danışıq dili xüsusiyyəti daşıyır. Buna baxmayaraq, ədəbi dil materiallarında və o cümlədən bədii ədəbiyyatda bu sözlər paralel şəkildə işlədilir:

Zavod işə düşən vaxt böyük avariya olub (V. Babanlı); *Elə bildim qəza üz verib, yaralı-zaddır* (V. Babanlı).

Müasir Azərbaycan ədəbi dilində *qəza* sözünün işlənmə intensivliyi *avariya* sözünə nisbətən üstündür. Belə ki, ədəbi dildə (1975-1982) *qəza* sözünün işlənmə tezliyi 68,9%, *avariya* sözününkü isə 31,1% təşkil edir. Bəzən həmin sözlər əvəzinə daha çox ümumi xarakter daşıyan *hadisə* sözü də işlədilir ki, burada həmin sözün dar mənası nəzərdə tutulur.

Azərbaycan ədəbi dilində paralel işlədilən bir qrup sözlər də vardır ki, bəzi lüğətlərdə eynimənalı vahidlər kimi verilən bu cür sözlər leksik-semantik cəhətdən diferensiallaşmaya güclü meyil göstərir. Belə sözlərdən *koridor – dəhliz, krovat – çarpayı* və s. kimi paralelləri misal göstərmək olar.

Qeyd etməliyik ki, bir çox hallarda bir-birinin qarşılığı hesab edilən və paralel işlədilən bu sözlər müəyyən semantik çalarlarla bir-birindən fərqlənir. Məsələn, *dəhliz* sözü evin içərisindəki üstüörtülü keçid, ev qapısı ilə

otaqların arasında olan üstüörtülü dalan (Bax: ADİL, P, 1980) mənası ifadə etdiyi halda, *koridor* sözü otaqların arasında geniş vestibülə deyilir. Başqa sözlə, *dəhliz* kiçik, *koridor* isə böyük keçid mənasını bildirir. Bədii ədəbiyyatda isə bəzən bunların arasında fərq qoyulmadan hər ikisi eyni mənada işlədilir ki, bu da dildəki leksik vahidləri, onların məna çalarlarını tam bilməməkdə» irəli gəlir: *hər zaman tələbələrin söhbət edə-edə gəzinib papiros çəkdikləri mərmər koridorda yalnız divar saatının müntəzəm taqqıltıları eşidilirdi* (M.Hüseyn); *Dəhlizdə gəzinərkən deyərdik ki, Adilə sinif otağından bayıra çıxsa, nə yaxşı olardı* (Ə.Qasımov).

Təbii ki, dil faktına biganəlik, onu bilmədən işlətmək dolaşıqlığa səbəb olur. Bəzən biganəlik hətta fikir səhvi doğurur. Ona görə də sözlərin mənasını tam bilmədən onlardan istifadə etmək olmaz.

Krovat və *çarpayı* sözlərində də müəyyən məna çalarları, məna fərqi vardır. *Çarpayı* sözü taxtadan düzəldilmiş enli yataq əşyası anlayışını ifadə etdiyi halda, *krovat* sözü, əsas etibarilə, dəmirdən düzəldilən, açılıb-yığıla bilən, elastiklik vasitələri ilə təchiz edilmiş digər bir yataq əşyasının adını bildirir.

Göründüyü kimi, bu sözləri yaxınlaşdıran semantik cəhət onların hər ikisinin yataq əşyası anlayışını bildirməsidir. Lakin yalnız bu cəhət imkan vermir ki, həmin sözləri sinonim hesab edək. Həmin sözlər eyni məqsəd üçün işlədilən müxtəlif keyfiyyətli ayrı-ayrı əşyaları adlandırdığı üçün müxtəlif sözlərdir və ona görə də onları sinonim kimi işlətmək düz deyil.

Bununla belə, nədənsə, bəzi hallarda *krovat* sözü *çarpayı* sözünün paraleli hesab edilir və onun ifadə etdiyi mənada da işlədilir.

Bundan əlavə ədəbi dilimizdə *blokada – mühasirə, rüb – kvartal, abstrakt – mücərrəd* və s. kimi leksik paralellər də işlədilir.

* * *

Bütün bu deyilənlərə yekun kimi qeyd etmək olar ki, rus dilindən alınmış sözlər ərəb-fars mənşəli sözlərə nisbətən yaxın dövrə aid olsa da, müasirlik və dilin lüğət tərkibinin zənginləşməsi baxımından məhz rus dilindən alınmış sözlər öz üstün mövqeyini göstərir. Bu üstünlük əsas etibarilə onunla səciyyələnir ki, rus dilindən alınmalar Azərbaycan dilinə ictimai inkişaf perspektivləri ilə əlaqədar daxil olaraq, əksərən müasir beynəlmiləl xarakterdədir. Ümumi ədəbi dil səciyyəli lüğəvi vahidlər kimi işlənir.

Əgər inqilabdan əvvəl ümumxalq zəminindən çıxış edən demokratik yazıçıların bədii dilində xalis Azərbaycan sözləri və alınmalar az qala bərabər kəmiyyətdədirsə və alınmalar içərisində ərəb-fars mənşəli olanlar üstünlük təşkil edirsə[1], sovet dövründə 30-cu illərdən başlayaraq bu nisbət xalis Azərbaycan sözlərinin və rus dili vasitəsilə alınan beynəlmiləl terminologiyanın xeyrinə sürətlə dəyişmişdir.

Abbreviaturalar (qısaltmalar)

Sovet dövründə Azərbaycan dili lüğət tərkibinin zənginləşdirilməsində ixtisar söz yaradıcılığının müstəsna rolu qeyd olunmalıdır. Dilçilikdə abbreviasiya adı ilə

---

[1] Q.Ş.Kazımovun «Yazıçı və dil» (Bakı, APİ nəşri, 1975, səh. 67-70) kitabında «Dağılan tifaq» pyesinin lüğətinin mənşə mənzərəsini əks etdirən cədvələ baxmalı.

məşhur olan bu linqvistik hadisə Azərbaycan dilində sovet dövründə rus dili abbreviasiya sisteminin təsiri ilə təşəkkül tapmışdır.

Tədqiqatlar göstərir ki, abbreviasiya dünya dillərində yazı əsasında meydana gəlmişdir. Molum olduğu kimi, Azərbaycan yazısı öz tarixi ərzində ərəb, latın və rus qrafikalarına əsaslanmışdır. Ərəb qrafikası daha böyük bir dövrü əhatə etsə də, bu dövrdə ixtisar hadisəsi başqa türk dilləri kimi, Azərbaycan dili üçün də səciyyəvi olmamışdır. Orta əsr əlyazmalarının araşdırılması göstərir ki, həmin dövrlərdən əsrimizin 20-ci illərinə qədər Azərbaycan-türk dilli yazılarda yalnız dini məzmuna malik, ərəb dilindən götürülmüş ixtisarlardan istifadə olunmuşdur[1] ki, bu da dilimizin leksik sisteminin zənginləşdirilməsində heç bir rol oynamamışdır. Əslində, həmin dini ixtisarları abbreviasiya nümunələri adlandırmaq da çətindir, çünki «abbreviasiya söz yaradıcılığıdır. Abbreviasiya hadisəsinin məhsulu olan abbreviaturalar dilin lüğət tərkibinin zənginləşdirilməsində böyük rol oynayır. Leksik abbreviaturalar dilin digər sözlərinə aid bütün xüsusiyyətlərə malik olur»[2]. Haqqında qeyd etdiyimiz sakral işarələr isə söz kimi formalaşıb canlı danışıq dilinə keçə bilməmişdir.

Sovet hakimiyyətinin ilk illərində hələ ərəb qrafikasının hökmran olduğu müddətdə dövri mətbuatımızda rast gəldiyimiz ixtisarların, demək olar ki, hamısı rus dilinin müvafiq abbreviaturalarının kalka yolu ilə dilimizdə işlədilməsi nəticəsində yaradılmışdı: məsələn, *A. M. İ. Komitəsi* – Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi,

---

[1] Вах: Казым-бек. Грамматика турецко-татарского языка. Казань. 1839, стр. 522

[2] M.M.Adilov. Müasir Azərbaycan dilində abbreviasiya, nam.diss., bakı, 1986, səh. 42

A. K. F.-si – Azərbaycan Kommunist Firqəsi, *A. L. K. G. İ.* – Azərbaycan Lenin Kommunist Gənclər İttifaqı və s.

Hələ uzun müddət bu cür ixtisarlar Azərbaycan dilində qrafik abbreviatura mahiyyəti daşımış, tamamilə leksikləşə bilməmişdir. Məsələ burasındadır ki, bu cür vahidlərin ixtisar olunmuş hər bir komponentindən sonra nöqtə qoyulurdu və bu durğu işarəsi ixtisarın leksik abbreviatura – yəni sözə çevrilməsinə maneçilik törədirdi.

Ərəb qrafikasının rəsmi işlədilməsi dövrünün sonlarında bir sıra rus dili abbreviaturaları Azərbaycan dilinə hazır leksik vahid şəklində keçmişdi. *Likbez, rabfak, kolxoz, sovxoz, komsomol, sovnarkom, kommunxoz, NEP, ÇEKA, QOELRO* kimi sözlərin alınması milli abbreviasiya sisteminin təşəkkül tapmasında sonralar müsbət rol oynasa da, Azərbaycan dilinin öz sözləri əsasında ixtisar qısaltmaların yaranmasını gecikdirirdi. Məşhur rus dilçisi Y. D. Polivanov milli dillərdən danışarkən göstərirdi ki, burada mürəkkəb ixtisarlar rus dilindən müvəffəqiyyətlə alınır, lakin *sovdep, Sovnarkom* və s. kimi vahidlər söz yaradıcılığı resepti kimi deyil, hazır şəkildə mənimsənilir və buna görə də başqa dillərin öz abbreviaturaları adətən yaradılmır[1]. A. M. Suxotin rus dili abbreviaturalarından bir qisminin – ancaq öz abbreviantından uzaqlaşaraq, leksik vahid kimi müstəqilləşmiş «kolxoz» tipli ixtisarların hazır şəkildə işlədilməsini tövsiyə edərək yazırdı: «Unutmaq olmaz ki, rus dili abbreviaturalarından hazır şəkildə istifadə etməklə, milli dillər yalnız leksik cəhətdən zənginləşir, yeni struktur-məna kateqoriyasını isə mənimsəyə bilmir… Rus dili ilə eyni bir sosial şəraitdə inkişaf edən SSRİ milli dilləri üçün isə rus dilinin mürəkkəb ixtisar-terminlərinin

[1] *Bax:* Е.Д.Поливанов. Революция и литературные языки Союза ССР. Статьи по общему языкознанию, М., 1968, стр. 201.

işlədilməsi, onların mexaniki mənimsənilməsi deyil, bu söz yaradıcılığı üsulunun özünün mənimsənilməsi əsasdır»[1].

Lakin belə bir fakt nəzərə çatdırılmalıdır ki, hələ inqilabdan sonrakı illərdə bu yeni dil hadisəsinin türk dillərində, o cümlədən Azərbaycan dilində fəaliyyəti üçün istər dildaxili, istərsə də dilxarici amillər kifayət dərəcədə güclü deyildi. Belə ki, hələ respublikamızda savadsızlığın ləğv edilməsi kampaniyası başa çatmamışdı, geniş xalq kütlələrinin nitq mədəniyyəti lazımi səviyyədən çox-çox aşağı idi. Halbuki, məlumdur ki, abbreviasiya hadisəsi yalnız inkişaf etmiş cəmiyyətdə, dil daşıyıcılarının ümumi mədəni dil səviyyəsinin yüksək olduğu şəraitdə dil sistemində fəaliyyət göstərir. İlk dövrlərdə linqvistik amillər də arzu edilən səviyyədən aşağı idi. Belə ki, ərəb qrafikasında böyük hərflərin olmaması onun informasiya ifadə etmək qabiliyyətini zəiflədir, nəticədə abbreviasiya üçün mühüm olan bir element sıradan çıxmış olurdu. İkinci tərəfdən, abbreviasiya üçün Azərbaycan dilində hələ leksik baza yox idi: tədqiqatlar göstərmişdir ki, istər türk, istər ərəb və istərsə də fars mənşəli sözlər, inisiallar istisna olmaqla, Azərbaycan dilində suspensiya – ixtisara uyuşmur[2]. Abbreviasiya üçün rus və Avropa dillərindən internasional söz – terminlərin alınması yolu ilə formalaşmış xüsusi bir fondun olması vacibdir. Keçən əsrin 20-ci illərində isə Azərbaycan dilində belə bir fond yox idi. Ərəb-fars mənşəli sözlər sayca hələ üstünlük təşkil edirdi. Bu barədə danışan müəlliflər qeyd edirlər ki, «Oktyabr inqilabından sonrakı dövrdə türk dillərinin əksəriyyətinin

---

[1] А.Сухотин. Проблема «сокращенных слов» в языках СССР, Письменность и революция, сб, I, М.-Л., 1933, стр. 157.

[2] M.M.Adilov. Müasir Azərbaycan dilində abbreviasiya, nam. diss, Bakı, 1986, səh. 21.

leksik sisteminin kifayət qədər inkişaf etməməsinin əsas əlamətlərindən biri ictimai-siyasi və istehsalat terminlərinə və yeni anlayış ifadə edən sözlərə ehtiyac olmuşdu»[1].

Nəhayət, hər bir yenilik kimi abbreviasiya hadisəsi də dilçilər və mütəxəssislər arasında uzun-uzadı əsaslı və əsassız mübahisələrin baş verməsinə səbəb olmuşdu ki, bunun özü də ixtisar söz yaradıcılığına qarşı tərəddüdlü meyillərin genişlənməsinə şərait yaratmışdı. Hətta 30-cu illərin sonlarında belə «rus və beynəlmiləl sözləri rusca olduğu kimi yazmaq tərəfdarları idarə, təşkilat və cəmiyyət adlarının ixtisar şəklini *ÜİK(b)P, AK(b)P, Sovnarkom,* qəbul etməyi… təklif etmişlər»[2].

1926-cı ildə Bakıda keçirilmiş I Ümumittifaq Türkoloji qurultayda çıxış edən H. Zeynallı qeyd etmişdi ki, «bizim dövri və qeyri-dövri ədəbiyyatımızda *icrakom, Azmik, Azərittifaq, Azərnəşr, Azərbalıq, Azərneft, İŞCİ* kimi kombinasiyalar işlədilir ki, bunlar da göründüyü kimi, olduqca az olub, yalnız müxtəlif müəssisələrin adlarını əks etdirir. Deməliyik ki, …burada elə sayt birləşmələr yarana bilər ki, bununla biz türk (Azərbaycan – *N. X.)* dilinin qanunlarına tabeçilikdən kənara çıxmış olarıq.

Odur ki, fikrimizcə, bacardıqca bu cür ixtisarlardan qaçmaq lazımdır»[3].

Azərbaycan yazısının latın qrafikasından bəhrələndiyi qısa bir müddət ərzində həyatın bir çox sahələrində olduğu kimi, dil məsələlərində də rus xalqı ilə daha da yaxınlaşma meyillərinin güclənməsi Azərbaycan dilində ixtisar söz

---

[1] В.А.Исенгалиева. Интернациональные основы в тюркских языках. СТ, № 5, 1970, стр. 39.

[2] A.Məhərrəmov. Azərbaycan ədəbi dilinin sovet dövrü, Bakı, 1961, səh. 53.

[3] Первый Всесоюзный тюркологический съезд, 26 февраля – 5 марта, 1926 (Стенографический отчет), Баку, 1926, стр. 198-199.

yaradıcılığının mövqeyinin formalaşması üçün zəmin yaradırdı. Bu dövrdə Azərbaycan dilində «a) birbaşa rus dili sözlərinin və ifadə tərzinin (böyük və kiçik fonetik, morfoloji və orfoqrafik dəyişikliklər aparmaqla) əxz edilməsi; b) ayrı-ayrı sözlərin və frazeoloji ifadələrin kalka edilməsi və c) mürəkkəb və ya sadə quruluşlu sintaktik modellərin mənimsənilməsi»[1] genişləndi. Belə sintaktik modellərdən ən məşhuru məhz abbreviasiya hesab olunmalıdır. Lakin qeyd edilməlidir ki, rus dili ilə yaxınlaşma Azərbaycan dilinin mədəni səviyyəsinin inqilabi tələblər əsasında müasirləşdirilməsinə təkan verdisə də, həmin dövr üçün hələ də əsasən rus dili abbreviaturalarının hazır şəkildə işlədilməsi, yaxud hərfi tərcümə yolu ilə qarşılığının tətbiq edilməsi səciyyəvi idi. Latın qrafikası mərhələsində də abbreviasiya dilin söz yaradıcılığı sistemində müstəqillik əldə edə bilmədi. Bəzi ixtisarların yaranmasına baxmayaraq, bu dövr əsasən tərəddüdlə səciyyələnməlidir. Yeni abbreviatur-leksemlərin sayı az idi, məsələn: *APYC* – Azərbaycan Proletar Yazıçıları Cəmiyyəti, *ASŞC* – Azərbaycan Sosialist Şura Cümhuriyyəti, *XTŞ* – Xalq Təsərrüfatı Şurası, *XDİK* – Xalq Daxili İşlər Komissarlığı, *Azərkino* və s.

Kitab nəşrinin bu dövrdə genişlənməsi ixtisarların yayılmasında mühüm rol oynayır. Məsələn, Azərbaycan Dövlət Kitab Palatasının 1932-ci ildə tərtib etdiyi biblioqrafiya göstəricisində *AzAİŞƏ* – Azərbaycan Ali İqtisadi Şurası Əxbarı, *BŞƏ* – Bakı Şurası Əxbarı, *AZAKƏ* – Azərbaycan Arxeoloji Komitəsi Əxbarı, *Şqr* – Şura

[1] И.К.Белодед, Е.А.Бокарев и др. Русский язык – язык межнационального общения народов СССР. Всесоюзная конференция, посвященная закономерностям развития литературных языков народов СССР в советскую эпоху (Тезисы докладов), Алма-Ата, 1962, стр. 21.

quruluşu və s. kimi onlarla ixtisarlar təqdim olunmuşdur. Lakin bunlar müvəqqəti, şərti ixtisardan başqa bir şey deyildi. Bu halda abbreviasiyanın məhsulu söz deyildi. Belə olduqda abbreviasiya dilə əslində heç nə vermir, yalnız yazı üçün əhəmiyyət kəsb edən bir üsul olaraq qalırdı.

30-cu illərdən etibarən Azərbaycan dili sistemində ixtisar söz yaradıcılığının öyrənilməsinə də müəyyən yer verilməyə başlandı. İxtisar söz bəhsinin qrammatika kitablarına və dərsliklərə salınması[1] onun dil anlayıcıları arasında populyarlaşmasında müəyyən rol oynadı. Ümumiyyətlə, abbreviasiya hadisəsinin dilimizdə vətəndaşlıq hüququ əldə etməsi üçün 1941-ci ilə qədər artıq möhkəm baza yaranmışdı. Bu zaman respublikada savadsızlıq ləğv edilmiş, milli sənayemiz özünün yüksək inkişaf səviyyəsinə çatmışdı. Rus dilindən və rus dili vasitəsi ilə Avropa dillərindən söz axını hesabına ana dilimizdə kifayət qədər material cəmlənmişdi. Rus dilindən alınmış abbreviaturaların formal strukturu tədricən öyrənilmiş və lazımi tərcümə materialı toplanmışdı.

Yalnız son dövrdə – 40-cı illərdən sonra ixtisar söz yaradıcılığı Azərbaycan dili sistemində biryolluq təsdiqlənmiş, inkişaf edərək hazırda kifayət qədər geniş bir şəbəkəyə çevrilə bilmişdir.

Hesablamalar göstərir ki, müasir dövrdə ictimai-siyasi məzmunlu mətnlərdə işlədilən abbreviaturaların sayına görə Azərbaycan dili dünyada ən qabaqcıl yerlərdən birini tutur. Qazax dilində orta hesabla hər 1000 ictimai-siyasi sözdən 18,9-u, rus dilində 20-si, qırğız dilində 20,7-si,

---

[1] *Bax:* A.Şərif, İ.Həsənov, Ə.Babazadə. Qramer, II hissə, Bakı, Azərnəşr, 1933; A.Şərifov. Qrammatika (I hissə). Orta məktəbin V sinfi üçün, Bakı, Azərnəşr, 1936 və s.

qaraqalpaq dilikdə 24-ü, türkmən dilində 24,5-i, özbək dilində 25,4-ü abbreviatura – leksemdirsə, Azərbaycan dilindəki bu cür mətnlərdə hər 1000 sözdən 25,6-sı ixtisar sözdən ibarətdir[1].

Formal-struktur xüsusiyyətlərinə görə müasir Azərbaycan dilində abbreviaturaların 15 müxtəlif növünün qeyd edildiyinə[2] baxmayaraq, hazırda dilimizin lüğət tərkibini özündə əks etdirən bir sıra lüğətlərin tərtibi zamanı əksərən ixtisar sözlərin orada təsbiti unudulur. Halbuki, məlum olduğu kimi, leksik abbreviasiyanın məhsulu olan vahidlər dilin adi sözləri ilə birlikdə Azərbaycan dilinin leksik xəzinəsinin zənginləşdirilməsində fəal iştirak edir.

Qrafik abbreviaturaların yalnız yazı üçün əhəmiyyət kəsb etdiyi bəllidir. Belə ki, *e.ə., ç.v., kq, man., qəp.,* yazsaq da, onları *eramızdan əvvəl, çap vərəqi, kiloqram, manat, qəpik* kimi oxuyuruq, başqa sözlə, bu ixtisarların səs tərkibi müstəqilləşməmişdir. Özünün xüsusi səs tərkibi olmayan hər hansı bir yazı işarəsi isə leksik vahid hesab edilə bilməz. Hər hansı bir ixtisar vahidinin söz olub-olmadığını müəyyənləşdirmək üçün 4 meyar əldə əsas tutulmalıdır. Belə ki, ixtisar məhsulu sözdürsə, o: a) xüsusi tələffüz formasına; b) xüsusi orfoqrafiyaya; c) düzəltmə söz yaratmaq qabiliyyətinə və ç) xüsusi üslubi-semantik məzmuna malik olmalıdır[3]. Son nəticədə bütün bu tələblərə» leksik ixtisarlar cavab verir.

---

[1] Р.И.Могилевский, З.А.Аликулов. К вопросу о возникновении и функционировании аббревиатур в тюркских языках народов СССР. Вопросы востоковедения. Труды Самаркандского Госуниверситета, вып., № 279, 1976, стр. 86-87.

[2] *Bax:* M.M.Adilov. Müasir Azərbaycan dilində abbreviasiya, nam. diss, Bakı, 1986, səh. 114.

[3] Д.И.Алексеев. Сокраненные слова в русском языке. Саратов, 1979, стр. 104-106.

Leksik ixtisarlar bəzən xüsusi fonetik-orfoqrafik formaya malik olan, dildə öz abbreviantları ilə sinonim kimi yanaşı yaşayan, onlarla eyni hüquqlara malik olan, çox vaxt hətta işlənmə tezliyinə görə nitqdə onları üstələyən, beləliklə, dilin lüğət fondunu, leksik xəzinəsini zənginləşdirən sözlərdir.

Müasir Azərbaycan dilində ən sadə ixtisarlar *qısaltma sözlərdir*[1]. Bu cür qısaltmalar dildə mövcud olan sadə və ya mürəkkəb sözlərin abbreviasiyası yolu ilə yaranır. Söz birləşməsi qısaltma obyekti olmur.

Dilimizdə, struktur müxtəlifliyinə görə, qısaltma sözlərin üç növü məlumdur. Bunlardan ən geniş yayılmışı *suspensiya* üsulu ilə qısaltmalardır (bəzən *final qısaltması* da adlanır). Burada sözün informasiya ifadə etməyən son hissəsi ixtisar edilib atılır, başlanğıc hissə sözü müvəffəqiyyətlə əvəz edir, məsələn: fotoqrafiya – *foto,* metropoliten – *metro,* kiloqram – *kilo,* avtomobil – *avto,* kinematoqrafiya – *kino,* taksimotor – *taksi,* teleqram – *tel,* santimetr – *santim,* familiya – *famil* və s. Dilimizin antroponimika sistemində suspensiya üsulu ilə qısaltma daha geniş yayılmışdır ki, burada da rus dilinin təsiri təkzibedilməz faktdır. Məsələn: Mehriban – *Mehri,* Gülnarə – *Gülya,* İbrahim – *İbiş,* Sədaqət – *Sada,* Fəridə – *Fəriş;* həmçinin *«Məhəmməd – Məmməd – Məmiş»* (Ç.Hüseynov) və s. Qısaltma şəxs adlarının qeyri-rəsmi səciyyə daşımasına baxmayaraq, bəzi hallarda onların rəsmi pasport adı səviyyəsinə qalxdığı faktları ilə rastlaşırıq; məsələn: *Kəriş, İbiş, Ema, Hüsü, Zeynal, Şəmsi, Əbdül, Mehi, Miri, Nuru* və s[2].

---

[1] Termin M.M.Adilovun namizədlik dissertasiyasından götürülmüşdür (bax: səh. 114).

[2] *Bax:* B.Abdullayev. Azərbaycan şəxs adlarının izahlı lüğəti, Bakı, 1985.

Qısaltmaların ikinci növü *kontaktur* sözlər (sıxılmalar) adlanır. Vahidin ortasından informasiya itkisinə səbəb olmayacaq müəyyən bir hissə atılır, sözün əvvəli ilə sonu bir növ sıxılaraq birləşir. Rus dilində olduğu kimi, Azərbaycan dilində də kontakturlar əsasən antroponimika sahəsində fəaliyyət göstərir. Məsələn: Məhəmməd – *Məmməd,* Elmira – *Ema,* Zemfira – *Zema,* Səlahəddin – *Saləddin* və s. Əgər adın əvvəlinci hərfi və ya hissəsi və ortasından seçilmiş bir və ya bir neçə hərfi (səsi) birləşdirilərək şifahi nitq vahidi yaradılarsa, bu cür qısaltmalar da kontaktur adlandırılır, məsələn: Təranə – *Tata,* Elxan – *Exa*[1]*,* Çimnaz – *Çina,* Zeynəb – *Zina,* Firudin – *Fedya,* Etibar – *Edik,* Fəxrəddin – *Fəxi* və s.

Dilimizdəki antroponimik ixtisarlar arasında əvvəlinin ixtisar edilməsi yolu ilə yaradılmış qeyri-rəsmi adlara da rast gəlirik ki, bunlara da start qısaltması deyilir, məsələn: Zemfira – *Fira,* Gülnaz – *Naza,* Elenora – *Nora,* Esmira – *Mira,* Gülara – *Lara,* Şəmsəddin, Ələddin, Sədrəddin və s.

Hələlik Azərbaycan dilinin antroponimik sistemindən qırağa çıxmayan son iki qısaltma növünün qeyd olunması onların söz-termin yaradıcılığında yayılma imkanlarının aşkar edilməsində müəyyən rol oynaya bilər.

Müasir Azərbaycan dilinin söz yaradıcılığı sistemində hazırda ən çox yayılmış abbreviasiya üsulu *inisial* hesab edilməlidir. İnisialların tarixi dilimizdə daha qədimdir. Sovet hakimiyyətinin ilk illərindən etibarən, dilimizdə leksik inisiallar yayılmağa; başlamışdır.

İnisialların bir sıra üstün və çatışmaz cəhətləri vardır. Dil daşıyıcılarının teleenerjiyə qənaət və dil sisteminin özündən irəli gələn lakonizm tələblərinə cavab verməsi bu cür abbreviaturaların işlədilməsini olduqca əlverişli və

[1] *Bax:* H. Həsənov. Söz və ad, Bakı, 1984, səh. 92.

aktual edir. Lakin digər tərəfdən, onların bir sıra hallarda daxili mənası geniş xalq kütlələrinə məlum olmadığı üçün şifahi nitqdə işlənmə tezliyi zəifləyir, bu cür inisiallar dilin tam hüquqlu leksik vahidi funksiyasını daşımaqda çətinlik çəkir. Burada dilxarici amillərin rolu qeyd olunmalıdır.

Əsrimizin 20-ci illərindən bəri sovet inzibati-iqtisadi sistemində yaradılmış saysız-hesabsız idarə və müəssisələrin və müxtəlif tipli təşkilatların, həmçinin beynəlxalq əhəmiyyətli təşkilatların abbreviaturlaşmış adlarının azərbaycanlılar arasında da məşhurlaşmasının əsas səbəbi bu cür inisialların daxili mənasının onlara aydın olması ilə bağlıdır. Beləliklə, daxili formalı dildaşıyıcısının şüurunda «şəffaf» olan inisial-abbreviaturalar sözün tam mənasında leksik vahidlərdir. *YUNESKO, NATO, FRELİMO, TUL, PAP, UEFA, FİFA* tipli internasional abbreviaturaların isə daxili mənasının deyil, ümumi məzmununun aydın olması əsas şərtdir. Beləliklə, *BMT, OMİK, ADU* inisiallarının daxili mənasının *Beynəlxalq Millətlər Təşkilatı, Ordu Mərkəzi İdman Klubu* və *Azərbaycan Dövlət Universiteti* olduğunu hər bir dil daşıyıcısı bilir. Bu, həmin vahidlərin uzun birləşmələri ilə ifadə olunmuş adları işlənmə dairəsindən sıxışdırıb çıxar-masına, özlərinin sözə çevrilməsinə səbəb olur. Müəyyən bir qisim inisial-adların isə motivləşməsi üçün müəyyən vaxt tələb olunur. Bu müddətdə inisial tədricən məşhurlaşır, tanınır və nəhayət, leksikləşir.

İnisial şəklində ixtisarlar mürəkkəb abbreviasiya prosesində formalaşsa da, bir leksik vahid olmaq etibarilə quruluşuna görə sadə sözlər qrupuna aid edilməlidir. Uzun tərkibli söz birləşməsi ilə ifadə edilmiş adların və definitiv məna bildirən terminlərin hər bir komponentinin baş hərfi götürülərək, bir-biri ilə birləşdirilir və nəticədə əmələ

gəlmiş fonetik tərkib leksik və ya terminoloji vahid kimi təşəkkül tapır. Bir vurğu altında tələffüz edilən bu cür vahidlərin hər bir fonetik komponentinin ayrılıqda inisial olduğu tədricən ikinci plana keçir və həmin vahid ümumi şəkildə inisial adlanır.

İnisiallar bütün dünya dillərində, o cümlədən Azərbaycan dilində ən geniş yayılmış abbreviaturalardır.

Vaxtilə inisial-abbreviaturalar yalnız qrafik səciyyə daşıyır və onların hər bir elementindən sonra nöqtə qoyulurdu. Yalnız 60-cı illərdən inisiallarda durğu işarəsinin düzgün olmadığı haqqında qəti fikir formalaşdıqdan sonra onlar müstəqil leksik vahid kimi etiraf edilmişdir.

Struktur-fonetik xüsusiyyətlərinə görə inisialların üç növü məlumdur:

1. *Hərf inisialları* şəklində formalaşan abbreviaturaların tərkibi yalnız samitlərdən ibarət olur, məsələn, *BMT* – Birləşmiş Millətlər Təşkilatı, *KTN* – Kənd Təsərrüfatı Nazirliyi, *YSN* – Yeyinti Sənayesi Nazirliyi, *FZŞM* – Fabrik-Zavod Şagirdliyi Məktəbi, *XTNS* – Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisi və s. Bütün dünya dillərində məşhur olan hərf inisiallarının ümumi orfoepiya qaydalarına görə, onların tələffüzü zamanı hər bir hərfin əlifbadakı adına əsaslanmaq lazımdır: *BMT – Be-eM-Tv, KTN – Ke-Te-eN, YSN – Ye-Se-eN, FZŞM – Fe-Ze-Şe-eM, XTNS – Xe-Te-eN-Se və s.* Azərbaycan dilində hərf inisiallarının orfoepiya normalarının indiyədək rəsmiləşdirilməməsi ucbatından bu sahədə hələ də hərc-mərclik hökm sürür; hər bir samitdən sonra *«ı»* səsinin artırılması yayılmışdır. Bu isə elmi əsası olmayan və tələffüz unifikasiyasını pozan, beləliklə, nitq mədəniyyətinə zərbə vuran bir faktdır.

Hərflər əlifbadakı adına əsasən tələffüz edildiyinə

görə bu cür inisiallara bəzən «alfabetizmlər» də deyilir[1]. Azərbaycan dilçiliyində, tarixilik baxımından yanaşsaq, bunlara «əlifbaizmlər» demək olar.

2. Ümumi dilçilikdə səs inisiallarına *akronimlər* də deyilir. Akronimlər ən uğurlu inisiallar hesab olunur. Onlar tərkibindəki hərflərin ifadə etdiyi səslərin məcmusundan alınan söz kimi tələffüz edilir, başqa sözlə, orfoepiyaya görə akronimlər dilin adi sözlərindən fərqlənmir, yazıldığı kimi oxunur. Buna görə də, onlar dilin digər sözləri ilə tezliklə qaynayıb-qarışır və nisbətən daha asanlıqla lüğət tərkibinə daxil olur. Əlifbeizmlərdən fərqli olaraq, akronimlərdə samitlərlə yanaşı müxtəlif saitlər də çıxış edir; burada saitlər və samitlər bir-birini kifayət qədər səliqə ilə izləyir; məsələn, *ADU* – Azərbaycan Dövlət Universiteti (dilin adi sözləri ilə müqayisə et: *ahu), APİ* – Azərbaycan Pedaqoji İnstitutu (müq. et: *ani), SİTA* – Sovet İttifaqı Teleqraf Agentliyi (müq. et: *bina), OMİK* – Ordu Mərkəzi İdman Klubu (müq. et: *aşıq, ozan* və s).

Akronimlərin asan tələffüzü, adi sözlərə oxşaması onların dil daşıyıcıları arasında populyarlaşmasını təmin edir, bütöv ad və terminlərin işlədilməsinə ehtiyac qalmır.

3. *Qarışıq inisialların* tərkibi isə hərf və səs inisiallarının kombinasiyasından ibarət olur. Onların əlifbeizm elementləri hərf inisialı, akronim hissələri isə səs inisialı şəklində, vahid özü isə bir vurğu altında tələffüz edilir: məsələn *OADKYC* – OADKe-Ye-Ce – Orduya, Aviasiyaya, Donanmaya Könüllü Yardım Cəmiyyəti, *VVAQ* – Ve-VAQ – Vətəndaşlıq Vəziyyətlərinin Aktlaşdırma Qeydiyyatı və s.

---

[1] *Bax:* Г.В.Лашкова. Аббревиация как один из способов пополнения терминологического фонда современных языков, АКД, Саратов, 1983, стр. 10.

Ümumiyyətlə, qarışıq inisialların da tələffüz normalarının hələlik qəti müəyyənləşməməsi səbəbindən onlar dilimizin orfoepiya lüğətinə daxil edilmir; deməli, dil daşıyıcıları arasında yayılmır. Lakin xüsusi quruluşlu sözlər kimi inisiallar da dilin lüğət tərkibinin zənginləşdirilməsində müəyyən dərəcədə iştirak edir. Onların müxtəlif lüğətlərdə təsbitinin sahmana salınması hazırda aktuallıq kəsb edir.

Öz daxili formasının «şəffaflığı» baxımından daha çox maraq doğuran ixtisarlar *heca abbreviaturalarıdır.* Bu cür vahidlər söz birləşməsinin komponentlərinin heca ixtisarına məruz qalması və alınan söz «qəlpələrinin» bütöv halında birləşməsi yolu ilə yaradılır.

Azərbaycan dilində heca abbreviaturalarının abbreviasiya texnikasına görə iki növü vardır:

1. *Tam ixtisarlar* heca abbreviaturalarının elə bir növüdür ki, burada söz birləşməsinin bütün komponentləri müvafiq abbreviasiyaya uğrayır; məsələn; *partkom* – partiya komitəsi, *icrakom* – icraiyyə komitəsi, *rayicrakom* – *rayon* icraiyyə komitəsi; *nəşrkom* – nəşriyyat komitəsi, *filfak* – filologiya fakültəsi, *diamat*—dialektik materializm və s.

Məlumdur ki, başqa dillərdə olduğu kimi, Azərbaycan dilində də sözlərin əvvəli, ortası və ya sonu ixtisar oluna bilər. Bu planla yanaşdıqda, dilimizdə tam ixtisarların özlərinin də müxtəlifliyi ilə qarşılaşırıq:

a) Söz birləşməsinin birinci komponentinin ilk hecasının, digər komponentinin isə son hissələrinin götürülərək bir növ «sıxılma» yolu ilə formalaşmasından yaranan tam ixtisarlara çox vaxt *teleskopik sözlər* deyilir. Azərbaycan dilində teleskopik sözlər anlayışın özü ilə birlikdə rus dilindən götürülərək işlədilir; məsələn: *moped*

– mo/torlu//velosi/ped, *maqnetron* — maqn/it/ və e/lek/tron, *motel* – mot/orlu//h/otel, *bionika* – bio/logiya/ və /elektro/nika və s.

Dilimizdə teleskopiyaya aid nümunələr az da olsa, onların quruluşu və yaradılması yolları öyrənilməli, dilimizin ələlxüsus terminoloji sistemində onlardan səmərəli istifadə edilməsi perspektivləri aşkara çıxarılmalıdır.

b) Azərbaycan dilində ən geniş yayılmış tam ixtisarlar *tam suspensiyalar* hesab edilir. Bunlar söz birləşməsinin bütün komponentlərinin yalnız ilk hissələrinin götürülərək bir leksik vahid şəklində birləşdirilməsi yolu ilə formalaşan *raykom, partkom, nəşrkom* qəbilindən olan abbreviaturalardır.

2. *Yarımçıq ixtisarlar* heca abbreviaturalarının elə bir növüdür ki, burada söz birləşməsinin bütün komponentləri deyil, bir və ya bir neçə komponenti müvafiq abbreviasiyaya uğrayır, on azı bir komponentin kökü isə bütöv şəkildə saxlanır (birləşmə yarımçıq ixtisar edilir), saxlanılmış elementlər birləşərək leksik vahid əmələ gətirir; məsələn: *partbüro* – part/iya/ bürosu, *partbilet* – part/iya/ bileti, *raysovet* – ray/on/ soveti, *sosyarış* – sos/ializm/ yarışı, *pedməktəb* – ped/aqoji/ məktəb, *sanepidemstansiya* – san/itariya/-epidem/iologiya/ stansiyası və s.

Dilimizdə geniş yayılmış ixtisar sözlərdən bir qismi də *qarışıq abbreviaturalardır.* Bu cür vahidlərin tərkibi heca abbreviaturaları ilə inisialların kombinə edilməsi ilə formalaşır. Azərbaycan dilinin müasir mərhələsində qarışıq abbreviaturaların yazılışı zamanı heca abbreviaturu ilə ifadə olunmuş komponentdən sonra nöqtə qoyulması faktı geniş yayılmışdır, məsələn: *Sov.İKP* – Sovet İttifaqı Kommunist Partiyası, *Azər.TA* – Azərbaycan Teleqraf Agentliyi, *Az.Pİ* – Azərbaycan Politexnik İnstitutu və s. Bir sıra hallarda isə

vahid nöqtəsiz yazılır, məsələn: *ZahEs, KamAZ, KirAZ, AzNKİ, BaŞEŞ, YerAZ* və s.

Müxtəlif dillərdə abbreviasiya hadisəsinin tədqiqi göstərmişdir ki, qarışıq abbreviaturalar dilin lüğət tərkibinin və terminoloji fondunun zənginləşdirilməsində fəal iştirak edən vahidlərdir. Məlum olduğu kimi, leksik vahidin ortasında nöqtə yazılması heç bir məntiqə sığışmır; birinci komponentdən sonra nöqtə qoyulması qarışıq abbreviaturun hələ leksik vahid kimi formalaşdığı dövrün qalığından başqa bir şey deyildir. Qarışıq abbreviaturaların orfoqrafik prinsiplərinin unifikasiyası hazırda onların tərtibatında nöqtənin ləğv edilməsini bir problem kimi ortaya qoyur.

Ultra-abbreviaturalar adlanan ixtisar sözlər növünün əsasını uzun tərkibli söz birləşmələri ilə ifadə olunmuş adların (əsasən də erqonimlərin) abbreviasiyası yolu ilə yaradılmış vahidlər təşkil edir. Ultraabbreviasiya zamanı ən əvvəl çoxkomponentli söz birləşməsinin əksər komponentləri bütövlükdə ixtisara salınır, saxlanmış iki, ən çoxu üç komponent abbreviasiyaya cəlb olunur; məsələn: Azərbaycan (Dövlət) Nəşriyyatı – *Azərnəşr,* Azərbaycan (Dövlət) Neft (Sənayesi Birliyi) – *Azərneft,* Azərbaycan (İstehlak Cəmiyyətləri) İttifaqı – *Azərittifaq,* Azərbaycan Kitab (Ticarəti İdarəsi) – *Azərkitab,* Azərbaycan (Birləşmiş) Əlillərin (Kooperativ) İttifaqı – *Azərəlilittifaq* və s.

Dilimizdə həmçinin *bağlayıcılı inısiallar* adlanan abbreviatur nümunələrinə də rast gəlinir: məsələn: *M və KSN* – Meşə və Kimya Sənayesi Nazirliyi, *M və İP* – Mədəniyyət və İstirahət parkı və s[1]. Bu cür ixtisarlar rus dilindən kalka yolu ilə yaranmışdır və yalnız yazı üçün maraq doğurur. Həm yazılı, həm də şifahi nitq üçün eyni

[1] *Bax:* B.Abdullayev. Azərbaycan dilinin qısa ixtisarlar lüğəti, Bakı, 1968.

dərəcədə əhəmiyyəti olmayan vahidlər isə dilin leksik xəzinəsini zənginləşdirə bilməz.

Qeyd etmək lazımdır ki, ayrı-ayrı dillərdə abbreviaturadlar içərisində «daşlaşmış» vahidlərə çox təsadüf edilir. Abbreviatur-adı formalaşmış bir müəssisə və ya təşkilatın yeniləşmiş profilinə uyğun olaraq, bütöv söz birləşməsi ilə ifadə olunmuş adında hər nə cür dəyişikliklər edilsə belə, abbreviatur-ad öz köhnə formasını mühafizə edir. Məsələn, rus dilində vaxtilə *OSVOD* – «Общество содействия водному транспорту…» demək idi. Sonralar həmin cəmiyyətin profili və müvafiq şəkildə bütöv adı dəyişilərək «Общество спасения на водах» olmuşdursa da, *OSVOD* abbreviaturadı dəyişilməmişdir. Belə misallar rus dilində çoxdur[1]. Azərbaycan dili abbreviasiya sisteminin öyrənilməsi isə göstərmişdir ki, dilimizdə abbreviatur-adların bu cür «ədəbiləşməsinə» təsadüf olunmur. Azərbaycan dilində bütöv adın strukturu dəyişən kimi abbreviatur sıradan çıxır, arxaizmə çevrilir.

Hazırda Azərbaycan danışıq dilində işlədilən abbreviaturaların əksəriyyətini rus dili vahidləri təşkil edir. Hətta bir sıra hallarda ədəbi dilimizdə *SƏDM, ÜİLKGİ, ÜİHİMŞ, OADKYC, ƏMH, DAM* tipli uğurlu və kifayət qədər məşhurlaşmış inisial-abbreviaturalar olduğu halda, şifahi danışıqda *OBXSS, VLKSM, ВЦСПС, DOSAAF, QTO, QAİ* kimi rus dili ixtisarlarına üstünlük verilir. Lakin bununla belə, həmin abbreviaturalar Azərbaycan dili sistemində əslində «varvarizmlər» olub, milli dilimizdə «makaronizmin» geniş yayılmasına aparıb çıxarır. Çünki onların böyük əksəriyyəti ana dilimizin lüğət tərkibinə daxil olmur.

---

[1] *Bax:* Д.И.Алексеев, И.Г.Гозман, Г.В.Сахаров. Словарь сокращений русского языка, М., 1977

Ümumiyyətlə, Azərbaycan ədəbi dilində işlənən abbreviaturaların tərkibi genealoji cəhətdən müxtəlifdir.

Azərbaycan dilinin *milli abbreviaturaları* dilimizdə başqa türk dillərindəki milli abbreviaturalara nisbətən daha çoxdur. Mütəxəssislər hesablamışlar ki, qazax dilində işlənən abbreviaturaların cəmi 8,3 faizi, özbək dilində işlənənlərin 11,3 faizi milli dil vahidləridirsə, Azərbaycan dilindəki ixtisar sözlərin 16,4 faizi öz «məhsullarımızdır» (onların 83,6 faizi başqa dillərdən alınmalar, yaxud, internasional abbreviaturalardır)[1].

Dilimizdə işlənən *rus dili abbreviaturalarının* sayı daha çoxdur. Lakin məsələ burasındadır ki, onlar internasional abbreviaturalar kimi, Azərbaycan dili sistemində əslində abbreviaturluq mahiyyətini itirir. *Kolxoz, sovxoz, komsomol, kommunxoz, sambo, zaqs, soyuzpeçat* tipli abbreviaturaların milli dilimizdə quruluşca sadə söz kimi işlədildiyi bir faktdır. Çünki onların komponentlərinin bütöv variantları Azərbaycan dilinin lüğət tərkibində müstəqil söz kimi işlədilir.

Dilimizdə internasional fondun müəyyən qismini internasional abbreviaturalar təşkil edir. *YUNESKO//Yunesko, FRELİMO//Frelimo, CANA//Cana, DEFA, TUL, PAP, FİFA, UEFA, AİBA, FİDE, NATO* və s. kimi dünyanın əksər dillərində işlədilən abbreviaturalar Azərbaycan dilində də tərcümə və ya kalka olunmadan işlədilir və bir növ ekzotizm təsiri bağışlayır. Onlar Azərbaycan ədəbi dilində geniş yayıldığından dilimizin leksik tərkibini əks etdirən müxtəlif lüğətlərdə təsbit olunmalıdır.

---

[1] *Bax:* Р.И.Могилевский, З.А.Аликулов. К вопросу о возникновении и функционировании аббревиатур в тюркских языках народов СССР. Вопросы востоковедения. Труды Самаркандскога Госуниверситета, вып, № 279, 1976, стр. 86-87.

Müasir Azərbaycan ədəbiyyatında abbreviaturaların leksik vahid kimi gen-bol işlədilməsi də, onların dilimizin lüğət tərkibini zənginləşdirdiyini bir daha əyani sübut edir. Nümunələr:

Üç kilo hər tələbə, Yığıb çatdı mətləbə (M. Müşfiq); *Daşkənd, hava limanı. «İL-18», «TU-104»* və *«TU-124», Təyyarələr havanı yarar uğultularla, Daranar buludların saçı gümüş «TU»-larla* (Ə.Cəmil); *Partkom deyilsənmi? Raykopittifaqın qədim məsciddə yerləşən anbarının sağ-solundan ətrafa dar küçələr uzanırdı* (İ. Hüseynov); *Tindən «MAZ» çıxdı, biz aşdıq* (Anar); *Sən də, yoldaş pioner! Düzəlt səfini, çal dəfini, Şeirimin adın söylə – ASSR* (S.Vurğun); *Onlar profkom sədrini oyadıb, yuxulu-yuxulu sürüyərək yuxarı gətirdilər* (İ.Hüseynov); *ÇK işçisi yenə soruşdu* (İ.Əfəndiyev); *Veyis «NEP»-in indi həyata gətirdiyi və sonra daha nələr gətirəcəyindən də az-çox xəbərdar idi* (Əbülhəsən); *Əlli yaşı, münasibəti ilə, Azçekanın kollegiyası* (M.Qocayev); *Zavoda, fabrikaya, (yurdsuz uşaq evinə) məktəblərə, Çekaya* (R.Rza); *Maşın hissələrini avtomağazada satmırlar?* (B.Vahabzadə); *RİK-in qərarı müdafiə olundu* (Ə.Vəliyev); *Yükümüz çox olduğu üçün «ZİM» gətirdim* (B.Bayramov) və s.

* * *

İstehsalat prosesinin genişlənməsi ictimai-iqtisadi inkişafın həlledici amilidir: ictimai həyatın durmadan inkişafı bu prosesin nəhəng vüsət almasını stimullaşdırır. İstehsal prosesi yeni-yeni əmək alətlərinin yaradılması və müntəzəm olaraq təkmilləşdirilməsi problemini irəli sürür. Yeni yaradılan və ya təkmilləşdirilmiş modellər üzrə buraxılan əmək alətləri isə onların adlandırılmasından doğan

ehtiyac zəminində hər bir dilin ayrı-ayrı leksik laylarının zənginləşməsinə səbəb olur.

İqtisadi və elmi tərəqqi ilə bağlı olan dilxarici amillər istehsalat leksikasına daha dinamik təsir edir. Belə ki, elmi-texniki inqilab əsrində sənayenin fasiləsiz inkişafı bir tərəfdən istehsalat leksikasını zənginləşdirir, ikinci tərəfdən müxtəlif maşın və avadanlıqların istehsal prosesində təkmilləşdirilməsinə, modifikasiyasına, onların nominativ adlarının da leksik təkamülünə gətirib çıxarır.

Məlum həqiqətdir ki, əmək alətləri insanın insan kimi formalaşdığı ən ibtidai dövrlərdən mövcud olmuşdur. Lakin minilliklər ötdükcə bu alətlərin adlarının, demək olar ki, hamısı tədricən adi məişət sözlərinə çevrilmiş, dilin leksik tərkibi dəyişdikcə (statistik hesablamalar göstərir ki, hər min ildən bir dünya dillərinin 81,2 faizi dəyişir) həmin alətlərin adları da hissə-hissə, bütöv-bütöv dillərdən silinib getmişdir. Beləliklə, «əmək alətlərinin adları» dedikdə, əsasən, hazırda – son onilliklərdə elmi-texniki inqilabla bağlı olan, məsələn, *kibernetika, elektronika, telemexanika, elektrotexnika, radiotexnika, bionika, avtomatlaşdırma, avtomatik idarəetmə, robot texnikası* və s. ilə əlaqədar yaradılmış və yalnız ixtisas leksikasına aid edilən deyil, bəzən məişət texnikasının adları da nəzərdə tutulur.

Hələlik Azərbaycan dilinin istehsalat leksikası və elmi üslubu kifayət qədər geniş şəkildə tədqiqata cəlb edilməmişdir. İbtidai araşdırmalar milli dilimizdə müasir əmək alətləri adlarını özündə əhatə edən leksikanın bilinqvizm, hətta polilinqvizm nümunələri ilə zəngin olduğunu göstərir. Bu nümunələrin hamısı Azərbaycan dilində yazılmış və ya dilimizə tərcümə edilmiş elmi və elmi-kütləvi əsərlərdə, dərsliklərdə və başqa ixtisas yazılarında öz işlənmə dairəsini əldə etdiyindən, müasir ədəbi dilin lüğət tərkibinin

zənginləşdirilməsində onların iştirak etdiyini etiraf etməliyik.

Müxtəlif cihaz və aparatların nomenklatur adları ədəbi dilin terminoloji sisteminin formalaşmasında özünəməxsus rol oynayır. Hərf və rəqəmlərin hibrid birləşməsindən ibarət olan belə nomenklaturlar bədii dildə, demək olar ki, işlənmir, işlənərsə də öz terminoloji mahiyyətlərini itirir və buna görə də hesab olunur ki, «onların işlənmə dairəsi son dərəcə xüsusidir»[1].

Məlumdur ki, nominasiyanın iki və daha artıq üsulla ifadəsi kompleks və ya kombinə edilmiş nominasiya adlanır. Kompleks nominasiyanın bir nümunəsi kimi nomenklatur maraq doğurur. Lakin nomenklaturlar dildə bir sıra problemlərin meydana gəlməsinə şərait yaradır. Belə ki, «nomenklatur adlar daha çətin tələffüz edilir və bir növ tapmacaya çevrilir. Məsələn, belə nomenklatur terminlər kimə aydın ola bilər? X17N10M5AzT2YUBR və ya AKSRQB»[2]. Tələffüzü çətin olan, xarici formasının yadda qalması bir problemə çevrilən və ümumiyyətlə, şifahi nitqdə, demək olar ki, işlənməyən bu cür nomenklaturlar əsil mənada, leksik vahid rolunu oynaya bilmir, sözün əlamətləri onlarda geniş miqyasda özünü göstərmir.

Beləliklə, yalnız leksik kompleks yaratmayan hərf və rəqəmlərin məcmusundan ibarət nomenklaturlarla yanaşı, müəyyən alət və cihazların adlarını daha geniş ünsiyyətdə işlətmək üçün dildə onların başqa cür adlandırılmasına ehtiyac yaranır, belə əşyaların ümumi sözlərlə

---

[1] Е.В.Карпинская. Тенденция формирования наименований орудии производства. Современные проблемы русской терминологии, М., Наука, 1986, стр. 61.

[2] Z.Verdiyeva, F.Ağayeva, M.Adilov. Azərbaycan dilinin semasiologiyası, Bakı, «Maarif», 1979, səh. 222.

adlandırılması yayılır. Lakin «hər hansı əşyaya verilən ümumi ad (söz) ilə həmin əşyanın terminoloji tərzdə adlandırılması arasında müəyyən fərqlər vardır»[1]. Bu fərqlərin aradan qaldırılması üçün üçüncü növ adlar da formalaşır. Məsələn, «Jiquli» marka, həmin maşının nomenklaturu «VAZ-2101», «VAZ-2103», «VAZ-2106» və s.-dir. Marka ilə nomenklatur arasında isə 01 «Jiquli», 03 «Jiquli», 06 «Jiquli» orta mövqe tutur, dildə həm «Jiquli»nin markasını, həm də qısa şəkildə nomenklaturunu ifadə edir. «Jiquli» addır, demək termin deyil. «VAZ-2101», «VAZ-2103», «VAZ-2106» və s. isə artıq xüsusiləşmiş, anlayışı dəqiq ifadə etmiş, definitiv məna, başqa sözlə, xüsusi məzmun kəsb etmiş texniki termindir.

Bu baxımdan hesablama texnikası cihaz və avadanlıqlarının elmi-texniki inqilab dövründə durmadan artıb çoxalmaqda və fasiləsiz təkmilləşdirilməkdə olan növlərinin nomenklatur adlarının araşdırılması xüsusi əhəmiyyət kəsb edir.

Elektron hesablama maşınları iş prinsipinə, hesablama imkanlarına və element bazasına görə 4 nəslə ayrılır. Hazırda 4-cü nəsil maşınlar buraxılır.

Hesablama alət və maşınlarının bu inkişaf yolu paralel şəkildə dildə də öz əksini tapmış olur, onların modelləri təkmilləşdirildikcə dildə adları da dinamik olaraq iki formada dəyişir:

1) Bir əşyanın adlandırılması üçün tətbiq edilmiş nominasiya həmin əşyanın yeni variantını adlandırdıqda təkrar edilə bilər: bu zaman həmin nomenə fərqləndirici, distributiv səciyyəli rəqəm əlavə edilir və ya əgər müəyyən modelin nömrəsini bildirən həmin rəqəm əvvəldən vardırsa,

---

[1] Z.Verdiyeva, F.Ağayeva, M.Adilov. Azərbaycan dilinin semasiologiyası, Bakı, «Maarif», 1979, səh. 223.

yalnız rəqəm yeni modelə müvafiq olaraq dəyişdirilir. Məsələn, məlumdur ki, *«Nairi»* elektron hesablama maşını və ya *VK-1, SM, KEV, KEDR* hesablama maşınları dedikdə, biz onların ilkin modellərini nəzərdə tuturuq. Lakin elektron hesablama texnikası inkişaf etdikcə *«Nairi-2», «Nairi-3», «Nairi-S», «Nairi-K», «Nairi-M»* tipli EHM-lər[1] və *VK-2, VK-3, KSM-1, KSM-2, KEV-1, KEV-1e, KEV-2e, KELR-1e, KELR-1, KERL-2s* və s. hesablama maşınları yaradılmış, onların adları da münasib şəkildə dəyişilmişdir. Göründüyü kimi, gətirilmiş nümunələr içərisində abbreviasiya məhsulları üstünlük təşkil edir. Adətən, texniki abbreviaturaların daxili mənası yalnız müvafiq mütəxəssislərə məlum olur və ixtisas leksikasının «sirri» kimi gizli qalır. Daxili mənanın geniş ünsiyyət zamanı motivləşməməsi bu cür vahidləri emosionallıq və ekspressivlik yükündən qoruyur, «quru» saxlayır və deməli, onların sırf termin funksiyası daşımasında mühüm rol oynayır. Digər tərəfdən, ixtisar söz şəklində terminlərin daxili formasının həmin xüsusiyyəti elmi dildə rus dili və ya əcnəbi dil vahidlərinin orijinalda olduğu kimi, Hətta transliterasiya etmədən saxlanılmasını reallaşdırır. Təsadüfi deyildir ki, V. S. Mixelsonun dilimizə tərcümə edilmiş «hesablama riyaziyyatının elementləri» əsərində (Bakı, 1966)[2] *44 M* avtomatik hesablama maşını, *ЭНИАК* rəqəm elektron hesablama maşını, *«БЭСМ-2М»* qəbilindən olan vahidlərlə rastlaşırıq (həmçinin müqayisə et: Ölkəmizdə istehsal olunmuş birinci nəsil maşınlara misal *«БЭСМ-2», «Strela», «M-20», «Minsk-1», «Ural-2», «Ural-4»* və s. göstərmək olar. İkinci nəsil *«Minsk-23», «Minsk-22»,*

---

[1]H.Əliyev, Z.Tağıyeva, V.Kuzmina-Gerasimova. «Nairi-2» EHM-də proqramlaşdırılmanın elementləri, Bakı, APİ nəşri, 1980.

[2] V.S.Mixelson. Hesablama riyaziyyatının elementləri, Bakı, «Maarif», 1966.

«Minsk-32», «M-220», «БЭСМ-6», «Ural-14», «Razdan-2»[1]. Həmin terminlər məhz bu şəkildə də Azərbaycan ədəbi dilinin elektron hesablama texnikasına aid leksik layında üslubi bir norma kimi ümumməqbul hal almışdır və bütün müvafiq elmi mənbələrdə eyni şəkildə işlədilir. Düzdür, məsələn, БЭСМ (большая электронно-счетная машина) və МЭСМ (малая электронно-счетная машина) abbreviaturaları «Böyük elektron hesablama maşını» və «Kiçik elektron hesablama maşını» terminləri ilə arzuedilməz dublet təşkil edir, lakin onlardan hər birinin ayrı-ayrılıqda elmi dildə (abbreviaturun daha böyük tezliklə) işləndiyi bir fakt olaraq qalır. Müşahidələr göstərir ki, hətta çox vaxt abbreviatur şəklində nomenlə söz birləşməsi şəklində termin eyni vaxtda işlədilir və müvəf-fəqiyyətlə bir-birini tamamlayaraq, kompleks nominasiya əmələ gətirir, məsələn: *1501 fotooxuma mexanizmi*[2], *SAR avtomatik hesablama maşını, VK-1 kiçik hesablama maşını, VK-2 kiçik yarımavtomat hesablama maşını, VK-3 avtomatik hesablama maşını*[3] və s.

Bəzən də köhnə əşyanın modifikasiyası zamanı mode-lin nomenklatur addakı nömrəsini bildirən rəqəmi dəyiş-dirməklə deyil, köhnə əşyanın nominativ adını formal-struktur cəhətdən yeniləşdirməklə yeni ad yaradılır.

Doğrudan da, *QİYŞ* ölkələrinin iştirakı ilə elektron hesablama maşınlarının vahid sistemi yaradılandan sonra əvvəlki *EHM* adı əsasında *VS EHM* – «Vahid sistemli elektron hesablama maşınları» adı formalaşmış, bütün

---

[1] T.Əsgərov, S.Kərimov. Alqoritmik dillər və proqramlaşdırma, Bakı, «Maarif», 1982, səh. 5.

[2] H.Əliyev, Z.Tağıyeva, V.Kuzmina-Gerasimova. «Nairi-2» EHM-də proq-ramlaşdırmanın elementləri, Bakı, APİ nəşri, 1980.

[3] V.S.Mixelson. Hesablama riyaziyyatının elementləri, Bakı, «Maarif», 1966.

bunlar Azərbaycan dilində də daxili ehtiyatlar hesabına öz əksini tapmışdır.

1970-ci ildən mikroelektron hesablama maşınları buraxılmağa başlayandan sonra isə *«mikro-EHM»* nominativ vahidi məşhurlaşmışdır. Burada *mikro-analitik* sifətinin[1] işlədilməsi tərzi Azərbaycan dilinin daxili qaydalarını pozsa da, elmi dilin özünəməxsus spesifik üsluba malik olduğu nəzərə alınmalıdır.

Elektron hesablama maşınlarının texnologiyasının inkişafı imkan vermişdir ki, onun tətbiq dairəsi genişlənsin. Buna görə də hazırda müxtəlif növlü mikrokalkulyatorlar istehsal edilir.

Mikrokalkulyator – elmi-texniki, iqtisadi hesablamalar apara bilən kiçik həcmli elektron hesablama maşınlarına deyilir. Bu maşınlar məişətdə çox işlənir. Hazırda məktəbli MK-sı, evdar qadınlar üçün MK, statistik MK, proqramlı MK, mühəndis MK-sı və s. buraxılır. Bizim məktəblərdə *MKŞ-41* (микрокалькулятор школьный), *MK-56* və sairədən istifadə olunur. Məktəblərdə yeni «İnformatika və hesablama texnikasının əsasları» fənni tədris olunur.

Müasir hesablama texnikasının müxtəlif sistemlərinin adları, hesablama maşınlarında istifadə olunan xüsusi dillərin adları və s. Həmçinin öz orijinallığı ilə diqqəti cəlb edir. *ALQOL, FORTRAN, BEYSİK, ALQAMS, DJOVİAL, PL/1, ALQƏM, ALQƏK, KOBOL, TOBSOL, RPQ, KOMİT, İPL, LİSP, SNOBOL, ART, SİMULA, SİMSKRİPT, ASSEMBLER* kimi alqoritmik dil adları, SSRİ-də yaranan *«Rapira», DKOİ* və *EVSDS* kod adları, *MİQ* (mərkəzi idarə qurğusu), *HMQ* (hesab-məntiq qurğusu), *PİP* (prosessor

---

[1] Б.З.Букииза, Л.П.Калакуцкая. Орфография и грамматика (на материале терминологической лексики). Терминология и культура речи. М., Наука, 1981, стр. 139.

idarə pultu), *SK* (selektor kanalı), *MK* (multikleks kanalı), *OS-10/ES* əməliyyat sistemi, *MOS/ES* – kiçik əməliyyat sistemi, *DOS/ES* – disk əməliyyat sistemi və s. kimi terminlər abbreviasiyanın bu və ya digər üsulu ilə yaradılmışdır və VS EHM-lərlə bağlı olan leksikada geniş şəkildə işlədilir. Yuxarıda göstərilən proqramlaşdırma dillərinin hər birinin özünəməxsus xüsusi sözləri, lüğət fondu yaradılmışdır. Həmin sözlərin köməyi ilə proqramlaşdırma aparılır. Proqramlaşdırma dilində dəyişənlərə ad qoyulur, adlara müəyyən tələblər verilir. Məsələn, *BEYSİK* alqoritmik dilində hər bir ad ya bir hərfdən, ya hərf və onun ardınca yazılmış rəqəmdən ibarətdir. Bu simvolik adlar çox güman ki, müəyyən dövrdən sonra Azərbaycan dilində də bu və ya başqa tərzdə özünü göstərəcəkdir.

* * *

Əsasən, 50-ci illərdən etibarən Azərbaycan ədəbi dilinin lüğət tərkibinin zənginləşməsinə abbreviaturalar sistemli şəkildə təsir edir; abbreviaturaların müxtəlif sahələrə aid olması ədəbi dilin lüğət tərkibinin də müxtəlif istiqamətlərdə, başlıcası isə elmi-texniki planda zənginləşməsinə gətirib çıxarır. Əslində, abbreviaturalar hesabına lüğət tərkibinin texnoloji imkanları genişlənir, ona riyazi dəqiqlik gəlir.

Eyni zamanda abbreviaturaların çoxalması ilə ədəbi dilin sinonimiya imkanları da artır; sintaktik vahid modelləşir, formal baxımdan söz həcminə düşür, beləliklə, ixtisar – söz ixtisarı söz birləşməsi ilə eyni funksiyanı daşıyır. Ədəbi dildə sinonimiya imkanlarının bu cür genişlənməsi sintaksislə lüğət tərkibini adlandırma prinsipini ortaya çıxarır. Ədəbi dilin fəaliyyət sferasının qeyd edilən

istiqamətdə genişlənməsi texnoloji anlayışların faktlaşması ilə mümkündür, buna görə də Azərbaycan ədəbi dili müasir texniki prosesləri ifadə etməyə qadir bir dil kimi inkişaf edir.

V FƏSİL

ƏDƏBİ DİLİN LÜĞƏT TƏRKİBİNİN TƏRCÜMƏ ƏDƏBİYYATI HESABINA ZƏNGİNLƏŞMƏSİ

Tərcümə ədəbi dilləri yaxınlaşdıran, xalqların mənəvi mədəniyyəti, sosial-iqtisadi inkişafı haqqında geniş təsəvvür yaradan bir vasitədir. Ayrı-ayrı xalqlar məhz tərcümə sayəsində biri digərinin etnik xüsusiyyətləri, həyat tərzi, məişəti ilə tanış olur, onun ictimai quruluşu və s. barədə məlumat əldə edə bilir.

Sosializm birliyi şəraitində tərcümənin ictimai funksiyaları xüsusilə genişlənir. Bu birliyə daxil olan ölkələrin xalqları ictimai həyatda baş verən yüksəliş amilləri, elm və texnika nailiyyətlərinin insanın həyati mənafeyinə xidmət etməsi perspektivləri ilə tərcümə dili sayəsində tanış olurlar. Tərcümə dili bugünkü qəzet, radio, televiziya və digər kütləvi kommunikasiya vasitələrinin informasiya potensialında çox mühüm rol oynayır. İctimai həyatda irəliyə doğru inkişafla əlaqədar baş verən dərin sosial dəyişikliklər; partiya və hökumət qərarları, elmi-texniki nailiyyətlər və s. kimi mühüm informasiyaların çatdırılmasında tərcümə ədəbiyyatı xüsusi əhəmiyyətə malikdir.

Tərcümə başlıca informasiya vasitəsi olmaqla yanaşı, həm də lüğət tərkibinin leksik-semantik potensialını zənginləşdirən mühüm mənbələrdən biridir. Tərcümə dilində işlədilən bir çox leksik vahidlər lüğət tərkibinin bir elementi olsa da, çox zaman ümumişlək səciyyə daşımır. Tərcümə ədəbiyyatı vasitəsilə dilin lüğət tərkibinə keçən sözlər bilavasitə müəyyən sahələrdə, bu və ya digər situativ şəraitdə işlədilir.

Tərcümə ədəbiyyatının təsiri ilə bu və ya digər dildə terminoloji səciyyəli söz birləşmələri meydana gəlir. Lakin xüsusi leksik vahidlərin bu yolla əmələ gəlməsi normativ xüsusiyyət deyildir. Ümumi halda, bir dildə mövcud olan bu və ya digər leksik-qrammatik forma başqa dildə motivasiya xüsusiyyətinə, yəni semantik əsasa malik deyilsə, onda bunlar həmin dilə ya struktur əsasda çevrilir, tərcümə edilir və ya hazır şəkildə daxil olur. Beləliklə, tərcümənin təsiri ilə ikinci dildə də yeni məzmunlu söz birləşmələri və leksik vahidlər əmələ gəlir. Dildə özünə-məxsus leksik-semantik motivasiya mövcud olduqda isə tərcümə dilinin təsiri ilə yeni formaların əmələ gəlmə-sinə ehtiyac olmur. Məsələn, sovet dövründə Azərbaycan dilində əmələ gəlmiş *gənclər təşkilatı, həmrəylik günü, beynəlxalq saziş, xarici siyasət, daxili siyasət, yenidən-qurmanın projektoru, təsərrüfat hesabı, kadr siyasəti, direktiv qərarlar, sosial problem, texnoloji proseslər* və s. kimi çoxlu miqdarda söz birləşmələri ona görə tərcümə yolu ilə ədəbi dilə daxil olmuşdur ki, onların semantik motivasiyası vaxtı ilə Azərbaycan dilində olmamışdır. Struktur motivasiya isə müvafiq söz birləşmə-sində öz ifadəsini tapır. Buna görə də sosial-mədəni, təsərrüfat-iqtisadi inkişaf tələbləri, həmçinin elmi-texniki tərəqqi ilə bağlı olan anlayışları ifadə etmək üçün yeni məzmun Azərbaycan dilinin özündə mövcud olan model-lərlə verilir. Yeni məzmunun ifadə edilməsi xüsusiyyətləri Azərbaycan dilinin daxili modellərinin imkanlarından xaricdə olduqda isə lüğət tərkibinə sözlər birbaşa daxil olur. Məsələn, rus dilindən Azərbaycan dilinə daxil olan və hətta ümumişlək xarakter daşıyan *obyekt, turist, büro, inspektor, rayon, komitə, trest, pasport, sanatoriya, profilaktoriya, kombinat, statistika, proqnoz, tiraj, plastika, qrup, elektrik,*

dizel, motor, radio, avtomobil, poçt, poçtamt, telefon, teleqram, partiya, sovet, respublika və s. kimi sözlər bu qəbildəndir. Belə sözlərin lüğət tərkibinə daxil olması həm Azərbaycan dilini yeni məna anlayışları ilə, həm də yeni struktur formalarla zənginləşdirir. Nəticədə yeni anlayışla birlikdə ədəbi dilin yeni nizamasalınma qaydaları, modifikasiya sistemi meydana gəlmiş olur.

Yeni anlayış ifadə edən söz və ifadələr müqabilində, ikinci dildə semantik motivasiya mövcud olduğu halda, bunlar ya tərcümə, ya da kalka edilir. Deməli, yeni anlayış və mənanın ikinci dildə ifadəsi üçün onun özünün daxili struktur modelləri müəyyən edilmiş olur. Məsələn, Azərbaycan dilində *ostonovka* sözünün *dayanacaq, şofer* sözünün *sürücü, plyaj* sözünün *çimərlik, putyovka* sözünün *yollayış* formaları ilə ifadəsində bu xüsusiyyət özünü aydın şəkildə büruzə verir.

Bütün bunlar ədəbi dilə başqa dildən söz və ifadələr daxil olmasının motivasiya xüsusiyyətlərini əks etdirir. Tərcümə ədəbiyyatı ilə ədəbi dilə söz daxil olmasının və ya leksik-semantik potensialın zənginləşməsinin özünəməxsus cəhətləri isə bundan müəyyən dərəcədə fərqlidir. Burada tərcümə ədəbiyyatının keyfiyyətlərini nəzərə almaq lazımdır. Məlumdur ki, indi tərcümə ədəbi dilin bütün sahələrini əhatə edir. Yəni Azərbaycan dilinə xüsusən rus dilindən elmi-texniki, ictimai, siyasi, publisist, bədii və s. nümunələr tərcümə edilir. Elmi-texniki, ictimai-siyasi, publisist mətnlərin tərcüməsi ilə dilə bir sıra söz birləşməsi və leksik vahid şəklində terminoloji səciyyə daşıyan yeni elementlər daxil olur və onlar bilavasitə aid olduğu sahələrdə işlədilir.

* * *

İctimai həyatda bugünkü dərin sosial dəyişikliyin əsasını qoymuş marksizm-leninizm klassiklərinin inqilabi məzmunlu əsərlərinin xalqlar arasında yayılmasında və onların ideyalarının həyata keçirilməsində tərcümənin rolu böyükdür.

Marksizm-leninizm klassiklərinin əsərlərinin tərcüməsi xalqların təfəkküründə dərin təbəddülat yaratdığı kimi, ədəbi dillərdə də yeni ictimai-siyasi terminologiyanın inkişafına səbəb olur. Marksizm-leninizm klassiklərinin əsərləri Azərbaycan dilinə məhz Oktyabr sosialist inqilabının qələbəsindən sonra geniş şəkildə tərcümə edilmişdir. Bu dövrdə həyatdakı sosial dəyişikliklərin dərindən dərk olunması üçün klassiklərin əsərlərinin tərcüməsi böyük əhəmiyyət kəsb etmişdir. Tərcümə prosesində Azərbaycan ədəbi dilinə həm də bir sıra terminoloji dil vahidləri daxil olmuş və neologizmlərin bir növü kimi meydana çıxan yeni kalkalar yaranmışdır.

E. M. Rıt V.İ.Lenin dilinin leksik xüsusiyyətlərindən bəhs edərək yazır ki, dahi proletar rəhbəri, ümumiyyətlə, dilin aydın və səlis olmasına, konkretliyinə və ardıcıllığına, mənanın düzgün anlaşılmasına çox diqqət verirdi[1]. Buna görə də o, nitqin təsirli və aydın olması üçün yeri gəldikcə xalq dili ifadələrindən də istifadə edirdi. V.İ.Lenin öz əsərlərində daim çalışmışdır ki, alınma sözlərin işlədilməsində aydınlıq olsun. Məsələn, Əsərlərində işlədilən *sosializm, sosial-demokrat, proletar, burjuaziya, partiya, parlament, deputat, orqanizasiya, territoriya, kooperasiya* və s. kimi alınma sözlərin anlaşıqlığı buna misaldır[2].

V.İ.Leninin əsərlərində alınma sözlərin daha da

---

[1] *Bax.* Рыт Е.М. Ленин о языке и язык Ленина. М., 1936, стр. 3-38.
[2] Yenə orada, səh. 57.

anlaşıqlı olması üçün rus dilindəki qarşılığı da işlənmiş, həm də əvvəlcə bu qarşılıq, sonra isə, mötərizədə alınma söz verilmişdir. Məsələn, *гласные (депутаты), государственная дума (парламент); сельскохозяйственный союз (кооперация)* və s. kimi faktlar bu qəbildəndir[1]. O, alınma sözlərdən yerli-yersiz istifadənin əleyhinə olmuşdur, eyni zamanda öz əsərlərində bir çox yeni anlayışlar bildirən n e o l o g i z m l ə r[2] işlətmişdir.

Marksizm-leninizm klassiklərinin əsərlərinin tərcüməsi yolu ilə Azərbaycan ədəbi dilinin zənginləşməsinə təsir göstərən amillərdə iki xüsusiyyət müşahidə etmək olur. Bunlardan birincisi, semantik, ikincisi isə struktur xüsusiyyətlərdən ibarətdir.

Semantik xüsusiyyətlər. Azərbaycan dilində tərcümə prosesində işlənən hazır terminlərin və terminoloji səciyyə daşıyan söz birləşmələrinin məzmun anlayışında özünü göstərir. Bunların ən başlıca növləri, əsasən, aşağıdakılardan ibarətdir:

a) *İctimai-siyasi anlayışları bildirənlər.* Marksizm-leninizm klassiklərinin əsərləri bilavasitə cəmiyyətin həyatı ilə bağlı qanunların dialektikasına və inkişafına, həmçinin cəmiyyətin inqilabi mübarizə problemlərinə həsr edildiyi üçün həmin əsərlərin dilində ictimai-siyasi terminlər xüsusi yer tutur. Marksın, Engelsin və Leninin əsərlərində tez-tez işlədilən belə terminlərdən və terminoloji sözlərdən aşağıdakıları misal göstərmək olar: *proqram layihəsi, dövlətin iqtisadi əsası, demokratik respublika, inqilabi müdafiəçilik,*

---

[1] *Bax.* Рыт Е.М. Ленин о языке и язык Ленина. М., 1936, səh. 58, А.М.Вирковская. Общественно-политическая лексика книги В.И.Ленина «Что делать?» Минск, 1961, стр. 19-24; A.M.Qurbanov. Lenin və dilçilik, Bakı, 1969, səh. 23-26.

[2] E.M.Rıt. Göstərilən əsər, səh. 60-63.

proletar mövqeyi, xırda burjua mövqeyi, zəhmətkeş kütlələr, bolşevik təşviqatı, bolşevik mərkəzi, icraiyyə komissiyası, partiya konfransı və s.

b) *İctimai-iqtisadi anlayışları bildirənlər.* Marksizm-leninizm klassiklərinin əsərlərində ictimai quruluşun iqtisadi əsası ilə əlaqədar olan terminlər daha çox işlədilmişdir. Onların Azərbaycan dilinə tərcüməsi ilə ədəbi dilimizə yeni ictimai-iqtisadi anlayış ifadə edən vahidlər daxil olur. Bunların bir çoxu müasir dilimizdə də iqtisadiyyat sahəsində fəal işlədilir. Bəzilərindən isə sosializm ictimai quruluşunun iqtisadi-tarixi problemləri ilə əlaqədar istifadə olunur. Belə sözlərdən və birləşmələrdən aşağıdakılar diqqəti xüsusilə cəlb edir: *normal iş günü, izafi dəyər, istehlak dəyəri, əmək məhsuldarlığı, mənfəət norması, nisbi izafi dəyər, torpaq rentası, məhsuldar qüvvə, əmək bölgüsü, sabit kapital, dəyişən kapital, mütləq izafi dəyər, həqiqi dəyər, yol ərzaq komitəsi, ərzaq komissarlığı, maliyyə mərkəziyyəti, əmlak vergisi, əmək mükəlləfiyyəti, iş vergiləri, büdcə kitabçaları, xarici kapital, ərzaq dəstələri* və s.

c) *Siyasi əqidə anlayışları bildirənlər.* Siyasi əqidə anlayışı bildirən söz və ifadələr sinfi mübarizə dövrü hadisələrini əks etdirir. Bunların müəyyən bir qismi vaxtilə öz dövrünü başa çatdırmış və əhəmiyyətini itirmiş ictimai-siyasi hadisələrlə əlaqədar işləklikdən qalmışdır. İctimai mübarizə tarixinə dair hadisələrdən bəhs edildikdə isə bunlardan tarixizm kimi istifadə olunur. Məsələn: *opportunizm, bernşteynçilik, radikalizm, anarxist, tredyunonlar, joresçilər, liberalizm, menşevizm, kadet* və s.

Bununla yanaşı, klassiklərinin əsərlərində işlənmiş *kommunist, proletariat, demokratiya, internasional, sosialist, marksizm* kimi terminlər təkcə Azərbaycan dilinə deyil,

başqa dillərə də tərcüməsiz daxil olmuş və ümumcvdünya fəhlə hərəkatının ictimai xarakteri ilə əlaqədar fəal işlədilməkdədir.

ç) *Fəlsəfi terminlər.* Marksizm klassiklərinin əsərlərində fəlsəfi terminlər də xüsusi yer tutur və onların çoxu Azərbaycan ədəbi dilinə tərcüməsiz daxil olur. Marksist fəlsəfəsinin dərindən öyrənilməsi üçün xüsusi əhəmiyyət kəsb edən belə terminlərə K. Marks, F. Engels və V.İ.Leninin əsərlərində tez-tez işlədilən *material, materializm, metafizika, dialektika, apriorizm, empiriokritisizm, idealizm, aqnostisizm, dialektik materializm, relyativizm, praktika, kateqoriya, subyekt, obyekt* və s. misal göstərmək olar.

Struktur xüsusiyyətlər. Marksizm klassiklərinin əsərlərində təsərrüfat quruculuğuna, zəhmətkeşlərin kommunist tərbiyəsinə, elm və texnikanın inkişafına, habelə cəmiyyət həyatının ən fəal sahələrinə aid çoxlu terminlər işlədilmişdir ki, tərcümə yolu ilə bunların ədəbi dilə daxil olmasının həm mühüm linqvistik, həm də ictimai-siyasi əhəmiyyəti vardır. Bunların hər biri ayrılıqda xüsusi mövzular və tədqiqata böyük ehtiyacı olan aktual problemlərdəndir[1].

Qeyd etməliyik ki, Azərbaycan dilçiliyində marksizm-leninizm klassiklərinin əsərlərinin tərcüməsi ilə əlaqədar tədqiqat işlərinin aparılması günün vacib məsələlərindəndir.

Klassiklərin əsərlərinin tərcüməsi prosesində Azərbaycan dilinə daxil olan terminlərin struktur xüsusiyyətlərinin də orijinal və maraqlı cəhətləri vardır. Tərcümə

---

[1] *Bax:* Е.М.Рыт. Ленин о языке и язык Ленина. М., 1936, стр. 2; А.М.Вирковская. Общественно-политическая лексика книги В.И.Ленина «Что делать?», Минск, 1961, стр. 4.

prosesi ilə əlaqədar meydana çıxan söz və birləşmələrdə, əsas etibarilə, aşağıdakı struktur xüsusiyyətlər müşahidə edilir:

a) rus dilindən tərcümə edilmədən Azərbaycan dilində birbaşa işlədilənlər: Marksizm-leninizm klassiklərinin əsərlərində bir sıra terminoloji vahidlər işlədilmişdir ki, onların böyük əksəriyyəti beynəlxalq əhəmiyyət qazanmış dil faktlarıdır. Buna görə də onların tərcümə yolu ilə verilməsinə heç bir ehtiyac yoxdur. Bunlar hər bir dilin, o cümlədən Azərbaycan dilinin lüğət tərkibinə daxil olan sözlərdir. Onların dildə işlədilməsində terminoloji unifikasiya əsas prinsip kimi götürülür. Məsələn, marksizm-leninizm klassiklərinin əsərlərinin Azərbaycan dilinə tərcüməsində işlədilən beynəlmiləl xarakterli terminoloji vahidlər bu qəbildəndir: *demokrat, proqram, kapital, internasional, kompaniya, statistika, taktika, utopiya, renta, metod, ortodoks* və s.

Elə terminoloji sözlər də vardır ki, onlar Azərbaycan dilinə tərcümə prosesində bilavasitə rus dilində olduğu kimi işlədilmişdir. Çünki tərcümədə həmin terminlərin məzmununu dəqiq vermək olmur. Xüsusi daxili məzmuna malik olan belə sözlər tərcümə dilində *realiyə* səviyyəsində götürülür. Onların ifadə etdiyi ictimai-siyasi məzmun orijinal forması ilə daha qabarıq şəkildə əks olunur. Bu baxımdan aşağıdakı faktlar xüsusilə maraqlıdır: *osvobojdeniyaçilər, obıvatel, staroobryadçılar, otzovizm, trudoviklər* və s.

«Osvobojdenie» qəzet adıdır. V.İ.Lenin *osvobojdeniyeçilər* sözünü öz opportunist fikirlərini həmin qəzet vasitəsi ilə ifadə edən burjua sosial-demokratlarına aid etmişdir[1]. *Obıvatel* sözünün bir neçə mənası vardır.

[1] *Bax:* V.İ.Lenin. Əsərlərinin tam külliyyatı, 9-cu c., Bakı, 1976, səh. 332-

V.İ.Lenin bu sözü ictimai-siyasi mənada işlətmişdir. Bu söz ictimai-siyasi cəhətdən, cəmiyyət hadisələrindən kənara çəkilən, xırda şəxsi maraq və meşşan əhvali-ruhiyyəsi ilə yaşayan şəxslərə aid edilir. *Starobryadçılıq* sözünün rus dilində kilsə həyatında qədim qayda-qanunları saxlamaq mənası vardır. V.İ.Lenin də bu sözü həmin mənada işlətmişdir. *Otzovizm* burjua partiyasında opportunist cərəyandır. *Trudoviklər* adı ilə inqilaba qədərki Rusiyada (XX əsrin əvvəlləri) Dövlət dumasında xırda burjuaziya demokratik partiyasının üzvləri adlandırılmışlar.

Bu sıraya daxil olan *obıvatel* sözündən, müasir ictimai həyatın ümumi inkişaf ahəngi ilə ayaqlaşmayan şəxsləri tənqid etmək məqsədilə indi də istifadə olunur.

b) *Rus dilindən Azərbaycan dilinə tərcümə edilərək işlədilənlər.* Klassiklərin əsərlərinin tərcüməsi yolu ilə Azərbaycan dilində terminoloji xarakterli çoxlu söz və söz birləşmələri əmələ gəlmişdir. Məsələn: *izafi dəyər, istehlak dəyəri, torpaq mülkiyyəti, istehsal vasitələri, istehsal sahəsi, izafi dəyər norması, istehsal xərcləri, zəruri iş vaxtı, fəhlə partiyası, fəhlə ittifaqları, müəssislər məclisi, təşkilat komitəsi, təşkilat komissiyası, demokratik inqilab* və s. kimi terminoloji vahidlər bu qəbildəndir.

c) *Emosional ifadə tərzi ilə tərcümə edilənlər.* Klassiklərin dilində emosional məzmunlu ifadələrə tez-tez rast gəlmək olur. Azərbaycan dilinə tərcümədə də orijinala aid bu xüsusiyyət saxlanılır. Emosional ifadə xüsusiyyəti mühafizə edilməklə tərcümə olunan sözlərdə təkcə şəxsi, subyektiv yox, həm də ictimai emosionallıq, xüsusən qəzəb, kinayə, sarkazm öz əksini tapır. Belə məna xüsusiyyətlərini aşağıdakı tipli ifadələrdə görmək olur:

333.

gülünc seçkilər[1], *qəzəbli acizlik*[2], *yatmış burjuaziya*[3] *oyanmış burjuaziya*[4], *demokratik axın*[5], *proletar cərəyanı*[6] və s.

ç) *Azərbaycan dilində söz və ifadələrin yeni şəkildə işlədilməsi.* Marksizm-leninizm klassiklərinin, xüsusən V.İ.Leninin əsərlərinin Azərbaycan dilinə tərcümə edilmiş 4-cü nəşrində elə söz və ifadələrə rast gəlmək olur ki, onlar yeni nəşrdə yeni qaydalara uyğun verilir. Məsələn, 4-cü nəşrdə orijinaldakı *учредительное собрание*[7] söz birləşməsi *məclis-müəssisan*[8] kimi verilmişdir. Yeni redaksiyada isə bu ifadə Azərbaycan dili daxili qanunlarına uyğun olaraq *müəssislər məclisi*[9] şəklində verilir. Köhnə redaksiyada *internasional* və *beynəlmiləl* sözləri dublet kimi işlədilir: *Kommunist internasionalı*[10], *Gənclər beynəlmiləli*[11]. Yeni redaksiyada isə doğru olaraq *internasional* sözünün işlədilməsinə üstünlük verilir.

Lakin təəssüf ki, V.İ.Leninin əsərlərinin tam külliyyatı nəşrə hazırlanarkən əvvəlki tərcümələrdə buraxılmış bəzi üslub və məna səhvləri aradan qaldırılmamışdır. Məsələn, V.İ.Leninin «Az olsun, yaxşı olsun» əsərində məşhur «во-первых учиться, во-вторых учиться и в третьих учиться» ifadəsində «учиться» sözü «öyrənmək» əvəzinə «oxumaq» sözü ilə tərcümə olunmuş, 5-ci nəşrdə

---

[1] V.İ.Lenin. Əsərlərinin tam külliyyatı, 11-ci cild, Bakı, 1977, səh. 384
[2] Yenə orada, səh. 156.
[3] Yenə orada, səh. 346.
[4] Yenə orada, səh. 346-347.
[5] Yenə orada, səh. 140.
[6] Yenə orada.
[7] В.И.Ленин. Сочинение, т. 30, М., 1950, стр. 239.
[8] V.İ.Lenin. Əsərləri, 30-cu c. Bakı, 1952, səh. 254.
[9] Yenə orada, 40-cı c., Bakı, 1983, səh. 1.
[10] Yenə orada, 31-ci c., Bakı, 1981, səh. 208.
[11] Yenə orada, 30-cu c., Bakı, 1952, səh. 255.

də tərcüməyə düzəliş verilməmişdir. Halbuki V.İ.Leninin başqa əsərlərində həmin söz məhz «öyrənmək» mənasında işlədilir və bu sözün məna tutumu «oxumaq» sözünə nisbətən çox genişdir.

Marksizm-leninizm klassiklərinin əsərlərinin Azərbaycan dilinə tərcüməsi böyük ideoloji əhəmiyyət kəsb etdiyi kimi, ədəbi dilin lüğət tərkibinin təkmilləşməsi və zənginləşməsi üçün də tükənməz mənbədir. Tərcümə yolu ilə Azərbaycan dilinə daxil olmuş çoxlu terminoloji söz və ifadələr xalqımızın inqilabi mübarizəsi, tarixi, bugünkü ideoloji həyatı, gələcək ideyaları barədə geniş məlumat verir.

* * *

Bədii tərcümədə bir xalqın adət və ənənəsinə, həyat tərzinə, sosial və regional xüsusiyyətlərinə, məişətinə aid olan bir sıra sözlərin ifadə etdiyi məna başqa xalqların milli-etnik təfəkkürü üçün yad olduğuna görə onların ifadə etdiyi semantik xüsusiyyətlər ekzotik xarakterlidir. Buna görə də tərcümə dili hesabına həmin sözlərin ifadə etdiyi anlayış başqa dilin leksik-semantik potensialını genişləndirir və zənginləşdirir. Başqa sözlə, mənaca yad olan sözlər müəyyən izah tələb edir ki, onların izahı tərcümə dilinin leksik-semantik imkanlarının artmasını şərtləndirir. Həmin sözlər həm də lüğətlərdə qeydə alınır. Lakin bunlar ədəbi dil faktı olmayıb, ekzotik leksika faktı kimi nəzəri cəlb edir. Ekzotizmlər xüsusi anlayış bildirdiyinə görə, habelə, başqa dillərdə onların motivasiya xüsusiyyətləri mövcud olmadığına görə tərcümə edilə bilmirlər. Məsələn, bədii ədəbiyyatda tərcümə prosesində işlədilən *bundestaq* (alm.), *məclis* (türk), *rinsdan* (isveç), *xural* (monq.),

samuray (yap.), *klerk, konstebl* (ing.), *yanıçər* (türk), *yurt* (Cənubi Sibir), *viqvam* (hindu), *beşmet* (qafq.), *kimano* (yap.), *sari* (hindist.), *iena* (yap.), *lira* (ital.), *frank* (fr.), *yuan* (Çin) və s. sözlər ekzotik leksikaya daxildir[1].

Ekzotizmlər əsas etibarilə tərcümə dilində işlədilir. Orijinal ədəbiyyatda ekzotizmlərin işlədilməsi yerli və milli koloriti canlandırmaq məqsədi güdür. Varvarizmlər isə həm tərcümə ədəbiyyatında, həm də orijinal əsərlərdə bilavasitə surətə aid situativ şəraiti ifadə etmək üçün işlədilir. Varvarizmlər ya aid olduğu dilin, ya da tərcümə edilən dilin qrafik sistemi ilə verilir. Məsələn, L. Tolstoyun «hərb və sülh», «Anna Karenina» kimi əsərlərində varvarizmlərə aid böyük mətnlər aid olduğu dilin əlifba-qrafika sistemi ilə verilmişdir.

Varvarizmlər bir sözdən, söz birləşməsindən və ya cümlədən ibarət ola bilər. Bunlar bilavasitə surətin psixoloji vəziyyətini, daxili aləmini canlandırmaq məqsədi ilə işlədildiyi üçün onların müəyyən təhriflərlə verilməsi də mümkündür. Digər tərəfdən, varvarizmlər əsərin hansı dildə yazılmasından asılı olmayaraq bilavasitə yerli koloriti bildirmək məqsədinə xidmət edir.

İfadə edilən varvarizmlərə aid aşağıdakıları misal göstərmək olar:

Biri evlidir, soruşuram ki, m a r u ş k a b a r ? – Deyir: «Bar». (L. Tolstoy); *K o ş k i l d i – dedi və sonra bu sözün tatarca s a l a m demək olduğunu ona başa saldı* (L. Tolstoy).

Bu misallarda *bar* və *koşkildi* sözləri əslində rus dilində yazılmış ədəbiyyatda yerli koloriti canlandırmaq üçün işlədilən vahidlərdir. Həmin sözlər orijinalın özü üçün varvarizm olduğu kimi, bizim dilə tərcümədən sonra da

---

[1] *Bax:* М.И.Фомина. Современный русский язык. М., 1983, стр. 151.

varvarizm xüsusiyyətini saxlayır. Misallardan göründüyü kimi, yazıçı yerli koloriti canlandırmaq məqsədilə həmin varvarizmlərdən hətta ixtiyari şəkildə istifadə etmişdir. Məsələn, *«Maruşka bar?»* ifadəsini yazıçı *«arvadın varmı?»* mənasında işlətmişdir. Əslində isə tatar dilində həmin mənanı ifadə etmək üçün *«katının barmı»* və ya *«aяlın barmı?»* ifadəsinin işlədilməsi səciyyəvidir. Müəllif burada qadın anlayışı ilə əlaqədar tatarların rus məişəti və rus dilindəki qadın anlayışı barədə olan təsəvvürlərini canlandırmışdır. Sadə tatar məişətində rus qadını *«maruşka»* kimi anlaşılır. Ona görə də yazıçı tatar dilinə məxsus *bar* sözünü ixtiyari olaraq *«maruşka»* sözü ilə yanaşı işlətmişdir. Yazıçı bu sözü rus dilinə məxsus «jena» sözü ilə əvəz etsəydi, yerli və milli kolorit yaranmazdı və *bar* sözünün varvarizm kimi işlədilməsi də yersiz və məqsədsiz görünərdi.

İkinci misaldakı *koşkildi* sözü əslində iki sözdən ibarət olduğu halda, müəllifin müdaxiləsi ilə bir söz kimi işlədilmişdir. *Koşkildi* sözü *«xoş gəldi»* mənasını bildirir. Bu ifadənin bir söz kimi işlədilməsi əslində tatar dilindəki ifadənin rus dilində bir söz kimi tələffüz edilməsi xüsusiyyətləri ilə bağlıdır. Göründüyü kimi, bədii əsərdə yazıçı varvarizmdən bədii priyom kimi yaradıcılıqla istifadə edir. Varvarizmlərdən istifadədə yazıçı müdaxiləsinə söz birləşməsi şəklində ifadə olunan vahidlərdə də rast gəlmiş olur. Bu cəhətdən, aşağıdakı misaldakı varvarizm səciyyəvidir:

«Fışıltılı samitləri yumşaq tələffüz edir. Ц yerinə s deyirdi: s e l ı y p o l k, s e l ı y m e s y a s» (M. Şoloxov). Göründüyü kimi, yazıçı bədii surətin daxili xarakterini qabarıqlaşdırmaq məqsədilə onun nitq xüsusiyyətini nəzərə çarpdırmışdır. Bu xüsusiyyəti tərcümə dilində daha da

canlandırmaq məqsədi ilə tərcüməçi onu orijinalda olduğu kimi saxlamışdır. Beləliklə, orijinaldakı fərdi xüsusiyyətlərin və situativ koloritin saxlanması üçün varvarizmi saxlamaq lazım gəlmişdir.

Varvarizmlərin cümlə şəklində işlədilən formalarına da rast gəlmək mümkündür. Bu cəhətdən aşağıdakı misallar maraqlıdır:

Soruşuram: b a r a n ç u k b a r? Deyir «bar, bir cür». (L.Tolstoy); *Hacı Murad Vorontsova rusca dedi:*

– T v o y s ı n k u n a k (L.Tolstoy); *O, əlləri ilə üst-başını göstərərək əlavə etdi: r u j y o n e t, ş a ş k i n e t. K i n e z n a d o* (L.Tolstoy).

Birinci misalda varvarizm bilavasitə, yerli koloriti ifadə etmək məqsədi ilə işlədilmişdir. Buna görə də yazıçı surətin nitqinə aid xüsusiyyəti olduğu şəkildə canlandırır. İkinci misalda, həm yerli koloriti, həm də surətin əhval-ruhiyyəsini canlandırmaq üçün müəllif onun nitqinə müdaxilə edir. Başqa sözlə desək, rus və tatar sözlərini qarışıq işlətməsinə aid nümunəni nəzərə çarpdırır. Üçüncü misalda da bu kimi xüsusiyyət ifadə olunur. Yazıçı obrazın rusca nitqindəki rabitəsizliyi ifadə edir. Maraqlıdır ki, bütün bu faktlar tərcümədə varvarizm kimi işlədilir və orijinala məxsus təravətini saxlayır.

Varvarizmlərdən bədii priyom kimi orijinal əsərlərdə də istifadə olunur. Bədii ədəbiyyatdan alınmış aşağıdakı faktlar varvarizmlərə misal ola bilər: *– B o j e m o y, nə gözəldir! Mən bu maralın buynuzunu aparmalıyam qızıma hədiyyə; – S p a s a y t e m e n y a, s u k k i n i d e t i!... deyə xəndəyin dibindəki palçıqda ağnayan polkovnik qışqırdı* (L. Tolstoy).

Varvarizmlər müəyyən situasiya ilə əlaqədar işləndiyi üçün həmin situasiyadan da kənara çıxmır. Ekzotizmlər isə

oxucu təfəkkürünün genişlənməsində mühüm rol oynayır.

Ekzotizmlər bütövlükdə ekzotik leksikaya və ekzotik struktura aid xüsusiyyətləri özündə birləşdirir. Tərcümə ədəbiyyatı vasitəsi ilə ədəbi dilin ümumi lüğət tərkibinə daxil olan ekzotik leksika müxtəlif xalqlara aid etnik anlayışları yaxınlaşdıran linqvistik vasitə kimi xüsusi maraq doğurur.

Ekzotik leksikada milli-etnik anlayış başlıca cəhətdir. Adətən «milli xarakterli sözlər» deyəndə elə sözlər nəzərdə tutulur ki, bu sözlər xalqın məişətində, adət-ənənələrində yaşayan, sırf milli xarakterli əşyaların, geyimlərin və s. adını ifadə edir. Dildə bu cür sözlər ekzotik leksikaya daxildir. Odur ki, ekzotizm deyəndə yalnız dilin lüğət tərkibinə daxil olan və həmin dilin aid olduğu xalq tərəfindən dərk edilən və işlədilən spesifik sözlər nəzərdə tutulur.

Tərcümə əsərlərinin dilinin leksik tərkibinin müəyyən bir hissəsini ekzotik leksika təşkil edir ki, buraya daxil olan sözlər müəyyən bir xalqın həyat və məişət tərzinə aid olur, əşya və hadisələrin adını bildirir.

Tərcümə əsərlərinin dilindəki ekzotik sözlərə milli geyim adları, dini məzmunlu sözlər, yer, məkan adları və s. daxildir. Ekzotik sözlərin ədəbi dilik lüğət tərkibinin zənginləşməsində müəyyən rolu vardır. Məsələn, *«aul»* sözü əsasən Dağıstanda yaşayan, İber-Qafqaz dilli xalqların dilində işlənən ümumişlək sözdür. Bu söz eyni zamanda tərcümə ədəbiyyatı vasitəsilə Azərbaycan dilinə daxil olmuş və dilin leksik sistemində fəal mövqe tutmuşdur. Məsələn: – *Həmzət də bəzi qonşuları kimi evindən heç yana tərpənmədi. Axşamüstü düşmənlər aula doluşdu* (M. Hüseyn).

Bədii tərcümədə, bəzən ekzotizmləri tərcümə ilə

vermək imkanları da mümkün olur. Lakin tərcümədə milli-etnik xüsusiyyət itə biləcəyinə görə onların orijinal forması saxlanılır. Bu cəhətdən, aşağıdakı kimi faktlar səciyyəvidir:

Briçkaların yanına qayıtdım, oradakı oğlandan soruşdum (M.Şoloxov); *Kroket meydançasında, hər yerdə eyni bir sükut, eyni bir kimsəsizlik vardır* (V. Katayev); *Balaca ştopor probkaya sancılır* (V.Katayev); *O öz adına gələn depeşanı götürüb oxumağa başladı* (L. Tolstoy); *Baloya getmək üçün geyindiyi balo paltarını göstərmək məqsədi ilə onu öz yanına çağırtdırmışdı* (L. Tolstoy); – *Görürsünüzmü, əziz knyajnam və kuzinam, belə dəqiqələrdə hər şeyi düşünmək lazımdır* (L.Tolstoy); *Altında isə üstünü toz basmış bir dəstə immotrel asılmışdı* (L.Tolstoy); *Bu qədər təntənə ilə başlayan gün müsamirə və feyerverklərlə bitdi* (V.Katayev); *Bizim oryabina yanıb sərasər, pəncərə önünə de, töküldümü?* (S.Yesenin).

Bu misallarda verilən *briçka* sözü ifadə etdiyi mənaya uyğun olaraq, açıq və yüngül araba, *kroket* sözünü xüsusi idman oyunu, *ştopor* sözünü probkaaçan burğu, *depeşa* sözünü təcili diplomatik xəbər və ya təcili diplomatik məlumat, *balo* və *feyerverk* sözlərini xüsusi zadəgan məclisi, *kuzina* sözünü müvafiq şəkildə *əmiqızı, dayıqızı, bibiqızı* və ya *xalaqızı, immotrel* sözünü quruyandan sonra da öz təbii rəngini və şəklini saxlayan çiçək növü, *ryabina* sözünü isə *üvəz ağacı* kimi tərcümə etmək olardı. Lakin bu halda həmin sözlərlə ifadə olunan yerli və milli xüsusiyyətlər, həmçinin etnik və regional anlayışlar kölgədə qalardı. Tərcümə ədəbiyyatında məhz bu cəhət nəzərə alındığı üçün həmin sözlər tərcümə olunmamış, onların ekzotik xarakteri mühafizə olunmuşdur. Həmin sözlərlə əlaqədar oxucunun müəyyən izahlara müraciət etməsi isə

təsəvvür və təfəkkür genişliyinin yaranmasının başlıca amillərindən biri kimi özünü göstərir. Digər dillərə aid ekzotizmin Azərbaycan dilinin lüğət, tərkibinə daxil olması tarixi çox qədimdir. Ümumi halda, ekzotizmin Azərbaycan dilinin lüğət tərkibinə daxil olmasını iki dövrə ayırmaq olar:

1. XI-XIII əsrlərdən XIX əsrin əvvəlinədək.
2. XIX əsrin əvvəlindən hazırkı dövrədək.

Birinci dövrdə Azərbaycan dilinin yazılı qolunda ərəb və fars dillərinin təsiri aydın hiss olunurdu. Çünki həmin dövrdə Azərbaycanda dövlət dili kimi ərəb və fars dilləri hakim idi[1].

Deməli, ərəb və fars dillərinə məxsus olan və ekzotik səciyyə daşıyan sözlər Azərbaycan dilinə, xüsusən yazılı ədəbi dilə sürətlə keçir və yayılırdı. Bu gün də müasir Azərbaycan dilində işlənən *molla, ruhani, axund, məscid, came, cənnət, cəhənnəm, behişt, zünnar* və s. kimi söz və ifadələr məhz həmin dövrdə dilimizin lüğət tərkibində özünə yer eləmiş ekzotizm nümunələridir.

XIX əsrin birinci yarısında Şimali Azərbaycanın Rusiya tərkibinə daxil olması ilə mədəni-iqtisadi əlaqələr xeyli genişləndi. Azərbaycan ziyalılarının rus mədəniyyətinə, rus ədəbiyyatına marağı xeyli artdı. Ədəbi əlaqələr genişləndikcə dillərin qarşılıqlı təsiri də artmağa başladı. A.Bakıxanovun, M.F.Axundovun, S.Ə.Şirvaninin, H.B. Zərdabinin, N.Vəzirovun, Ə.Haqverdiyevin, M.Ə.Sa-birin və C.Məmmədquluzadənin yaradıcılığında rus dilinə məxsus ekzotizmlər özünə yer tutmağa başladı. Lakin ekzotik sözlərin böyük bir qismi Azərbaycan dilinin ümumi lüğət fonduna, bilavasitə tərcümə ədəbiyyatı hesabına daxil olmuşdur ki, bu da sovet dövrü Azərbaycan ədəbi dilinin

[1] *Bax:* T.Hacıyev, K.Vəliyev. Azərbaycan dili tarixi, Bakı, 1983, səh. 50.

leksik-semantik potensialının zənginləşməsində müstəsna rol oynamışdır.

L.N.Tolstoy, V.Mayakovski, M.Qorki, V.Katayev və onlarla rus və xarici ölkə yazıçılarından edilən tərcümələrin dilində işlədilən ekzotik sözlər linqvistik-filoloji aspektdə tədqiqatdan kənarda qalmışdır.

Məlumdur ki, bədii ədəbiyyatın əsas xüsusiyyətlərindən biri onun xəlqiliyidir. Yəni əsər hansı xalqın həyatından bəhs edirsə, həmin xalqın adət-ənənələrini, məişət tərzini düzgün əks etdirməlidir. Məsələn, bədii nümunələrdə *ləbbadə* (geyim), *ataman* (başçı), *rial* (pul vahidi), *bandur* (çalğı aləti), *kərənay* (çalğı aləti) və sair kimi sözlər işləndikdə, onların məna xüsusiyyətlərinə görə hansı xalqa aid olduğunu müəyyənləşdirmək olur. Belə ki, *ləbbadə* sözünün ərəb, *ataman* sözünün kazak, *rial* sözünün İran, *bandur* sözünün Ukrayna, *kərənay* sözünün özbək milli xüsusiyyətləri ilə bağlı olduğunu müəyyənləşdirmək çətin deyil.

Ekzotik leksikanın dildə ən geniş yayılmış növlərindən biri realiyalardır.

Məlumdur ki, hər xalqın özünün milli adət-ənənələri, milli məişət tərzi mövcuddur. Bu milli özünəməxsusluq həmin xalqı digər xalqlardan, etnik qruplardan fərqləndirir.

Xalqın spesifik məişət tərzi, milli adət-ənənələri və koloriti, hətta mifik təfəkkürü ilə bağlı leksik vahidlər də mövcuddur. Həmin leksik vahidlər onun bədii ədəbiyyatında da öz əksini tapır. Çünki bədii ədəbiyyatın özü də məhz millilik, xəlqilik kimi spesifik cəhətlərə malik olmalıdır.

Hər hansı xalqın dilində, bədii söz sərvətlərində işlənən və onun məişəti, milli təsərrüfatı və s. ilə bağlı olan sözlər realiyalar adı altında qruplaşdırılır. Realiyaları

dilçilərdən bəzisi «başqa xalqa məxsus spesifik anlayışlar bildirən» söz qrupları adlandırır[1]. Digər dilçilər isə realiyaları «başqa dillərdə ekvivalenti olmayan xüsusi milli sözlər» adlandırırlar[2].

Realiyalar ən çox bədii ədəbiyyatın tərcüməsi ilə yayılır, digər xalqların dilini zənginləşdirir. Çünki onlar ədəbiyyatın milliliyini və xəlqiliyini tamamlayan vasitələrdəndir.

Realiyalar dilçilik elminin hansı şöbəsinin tədqiq obyektidir? Bu məsələ dilçilər arasında həmişə mübahisə doğurmuşdur. Doğrudur, realiyalar elə leksik vahidlərdir ki, həmin vahidlərin başqa dildə paralelini tapmaq olmur və yaxud onları digər dilə tərcümə etmək mümkün deyil. Realiyalar sırf milli xarakterli, məişətlə bağlı əşyaların, mücərrəd varlıqların adını ümumiləşdirir, əks etdirir. Deməli, realiyaları leksikologiyada öyrənmək, tədqiq etmək zərurəti meydana çıxır. Leksikologiyada «məişət leksikası» adı altında realiya adlandırdığımız sözlər artıq çoxdan tədqiq olunmağa başlamışdır[3].

Realiyalar ən çox bədii tərcümə ilə bağlı yada düşür. Yəni tətbiqi dilçiliyin tərcüməşünaslıq şöbəsinin problemlərindən biri də realiyalardır. Həmişə realiyaların tərcüməsi, başqa dildə ifadəsi mütəxəssisləri xeyli düşündürmüşdür. Realiyalar bir tərəfdən bədii əsərin tərcümə olunduğu dili zənginləşdirir, digər tərəfdən əsərin mənsub olduğu xalqın milli koloritini, adət-ənənəsini, məişət tərzini, mifologiyasını, milli təfəkkürünü, hətta xalqın tarixini yaşadır, onun yaşadığı zamanın ictimai-siyasi ahəngini özündə əks etdirir. Buna görə də tərcümə

---

[1] *Bax:* Мастерство перевода, М., 1970, стр. 433.
[2] А.В.Федоров. Введение в теорию перевода, М., 1958 стр. 140.
[3] Мастерство перевода. М., 1970, стр. 433.

prosesində realiyalar bir problem kimi qarşıda durur. Məhz tərcüməçilərə əməli, praktik kömək üçün realiyalarla tətbiqi dilçiliyin tərcümə nəzəriyyəsi ilə bağlı bölməsi məşğul olur.

Tərcüməçiliyin geniş vüsət aldığı Sovet hakimiyyəti illərində dilimizdə, bilavasitə tərcümə ədəbiyyatının təsiri ilə bir sıra realiyaların işlənməsinə rast gəlmək olur. Məsələn, *kalyaska, kareta, şapka, karnaval, şlyapa, manej və* s. kimi yüzlərcə realiyalar Azərbaycan dilinə daxil olmuş və onun lüğət tərkibini zənginləşdirmişdir. Aşağıdakı cümlələrə diqqət yetirək:

...Qaç aşağı, mənim şlyapamı və amazonkamı gətir (M. Rid); *Bu, maslenitsa bayramında yumruqlaşanların davasına bənzəmirdi* (M. Şoloxov).

Burada *şlyapa* əvəzinə Azərbaycan dilinin dialekt və şivələrində işlənən «tərəziyə oxşar papaq», *amazonka* əvəzinə at minərkən geyilən uzun qadın paltarı və yaxud *maslenitsa* əvəzinə xristianlarda pəhriz bayramı ifadələri işlənsəydi, onda tərcümə olunan əsərin dilində məzmunsuzluq, uzunçuluq yaranardı. Məhz buna görə də tərcüməçi həmin realiyaları bizim dərk etdiyimiz formada tərcümə etməyib, buna ehtiyac da yoxdur.

Müşahidələr göstərir ki, tərcümə əsərinin dilində işlənən realiyalar çox müxtəlif səpkidə, müxtəlif üsulda verilir. Dilin zənginləşməsində bunun əhəmiyyəti böyükdür.

Tərcümə prosesində realiyaların bir qismi olduğu kimi saxlanılır, yəni orijinaldakı strukturu tərcümədə dəyişikliyə uğramır. Məsələn: – *Bunun üstündən rəngi solmuş yaşıl kamzol*[1] *geymişdi* (M.Rid); *Buğda dən tutanda kalmık əsməsə kolxoz taxıl sarıdan yükünü*

[1] *Kamzol* – jileti əvəz edən qolsuz paltar.

tutacaq (M. Şoloxov); *Onun bal qoxusu verən iyi bütün xutora yayılır* (M. Şoloxov); *Arvadların ən sırtığı olan jalmerka*[1] *Mavra gedəndən sonra məsələ aydınlaşdı* (M. Şoloxov); *Prokofinin arvadını troitsa*[2] *bayramının ikinci günü görmüşdür* (M.Şoloxov).

Nümunələrdəki *kamzol, kalmık, xutor, jalmerka, troitsa* sözləri orijinalda olduğu kimi verilmiş, yəni tərcümə prosesində həmin sözlər əvəzinə yeni söz düzəldilməsi məqsədəuyğun hesab edilməmişdir. Çünki həmin sözlər sırf milli xarakterdə olub geyim adı (kamzol), külək növü (kalmık), yaşayış məntəqəsini (xutor), əsgər arvadı (jalmerka), dini mərasim adı (troitsa) kimi anlayışları ifadə edir.

Belə transliterasiya üsulu ilə verilən realiyaların mənası və ya semantik məzmunu çox zaman mətndən aydın olur. Yəni sözün işləndiyi üslub, sintaktik şərait onun mənasını aydınlaşdırmağa imkan verir. Məsələn: – *Onun əynində qara xəz yaxalıqlı məxmər rotonda var idi* (M.Qorki); – *Deməli, «priçastiye» mərasiminə getməmisən, küçələrdə veyillənmisən, dinsiz?* (M.Qorki).

Bu cümlələrdə «rotonda»nın milli geyim növünü, «priçastiye» sözünün dini mərasim adını bildirməsi mətnin özündən aydın olur. Deməli, mətn çox zaman realiya üçün «redaktor» və ya «lüğət» rolunu oynayır. Bəzən cümlədə işlənən realiyadan sonra izahedici, aydınlaşdırıcı söz işlənir. Məsələn: – *Bəli, o əndəruna – içəri otaqlara gəlmişdi* (İran yazıçılarının hekayələri).

Bəzən realiyaların tərcümə prosesində kökü saxlanılır, şəkilçiləri Azərbaycan dilindəki ekvivalenti ilə əvəz olunur. A.V.Fyodorov belə tərcüməni «yarımçıq tərcümə»

---

[1] *Jalmerka* – soldat arvadı; əsgəri xidmətə çağırılmış kazak arvadı.
[2] *Troitsa* – xristian dini bayramlarından biridir.

adlandırmışdır[1]. «Yarımçıq tərcümə»yə aşağıdakı nümunələri misal göstərmək olar: – *Meşə cığırlarında yenə də ancaq komançilər*[2] *dolaşır* (M.Rid); *Onun yeparxiyasında*[3] *baş verən yeniliklərdən danışmağa başladı* (L.Tolstoy); *Klementenin ruladları yenə aydın bir surətdə gurlamağa başladı* (L.Tolstoy); *O sarafanlı qızlar necə? Təkmi kef edirlər? – deyə Bemtski soruşdu* (L. Tolstoy).

Tərcümə prosesində realiyalar bəzi hallarda orijinaldakı formasını itirir, yəni mənasına uyğun olan yeni leksik vahidlərlə əvəz olunur. Tərcüməyə belə imkanı əsər hansı dilə tərcümə olunursa, məhz həmin dilin lüğət tərkibinin zənginliyi verir. Məsələn: – *Biz onurğa cəzası haqda danışırdıq – Morqan cavab verdi* (Steven) – cümləsində verilən «onurğa cəzası» anlayışı Azərbaycan dilində işlənmir. Bu cəza növü yalnız XVIII əsrdə ingilis dəniz donanmasında həyata keçirilirdi. Lakin «onurğa» sözünün dildə mövcudluğu həmin cəza növünün adının Azərbaycanca ifadə olunmasına imkan verir.

Bəzən realiyalar söz birləşməsi formasında olur. Belə hallarda söz birləşməsinin tərəflərindən biri tərcümə edilir. Lakin bütövlükdə realiyanın məzmunu dəyişmir, yəni formaca əvəzlənmə semantik sahəyə təsir edə bilmir. Məsələn: – *Şaftalı və alma ağacları bu libası geyib qədr gecəsindəki*[4] *gəlin kimi bəzənirlər* (Ərəb hekayələri); *Qabağında yoğun hərflərlə «Volost idarəsi» yazılmış bir daxmanın yanında üç at bağlanmışdır* (V.Katayev) – cümlələrində *qədr gecəsi, volost idarəsi* realiyalarının

---

[1] *Bax:* А.В.Фёдоров. Введение в теорию перевода. М., 1958, стр. 140-160
[2] *Komançilər* – hind qəbiləsi.
[3] *Yeparxiya* – ruhani idarəsində olan sahə.
[4] *Qədr gecəsi* – rəvayətə görə Quranın nazil olduğu gecə.

ikinci tərəfi tərcümə olunmuşdur. Bəzən də tərcümə prosesində dilimizə başqa dillərdən keçən realiyalara məzmunca tərcümə olunan əsərin dilindəki realiyalar uyğun gəlir. Bu zaman tərcüməçilər yeni realiyanın ekvivalenti kimi əvvəlki realiyanı işlədirlər. Məsələn: – *Ata minəndə ismi-əzəm duası oxuyurdum. Bu duadan sonra məni heç kəs öldürə bilməzdi* (L.Tolstoy) – cümləsində olduğu kimi.

Bəzən Azərbaycan dilində köhnəlmiş sözlər, hətta sırf dialekt (məhəlli) xarakterli realiyalar tərcümə prosesində ekvivalentə çevrilə bilir: – *Yüzbaşı özünü elə çəkirdi ki, daha nə deyim* (M.Şoloxov) – cümləsində *yüzbaşı* sözü tərcümədə realiya kimi işlənmişdir. «Sakit Don» romanının həmin hissəsi Oktyabr inqilabından əvvəlki dövrə aid kazak həyatından bəhs edir. Məhz «yüzbaşı» anlayışı da həmin dövrdə Azərbaycanda aktiv işləndiyinə görə tərcümədə *сотский, сотник* sözünün ekvivalentinə çevrilmişdir.

Məlumdur ki, «çərəngülə» sözü dialekt sözüdür, qapının asıldığı dördkünc, taxtadan düzəldilmiş əşyaya deyilir. Ədəbi dildə buna *çərçivə* də deyilir. Lakin tərcüməsi rus dilində işlənən «karopka» (bəzi dialektlərdə «ramki» də deyilir) əvəzinə, *çərçivə* deyil, məhz *çərəngülə* işlətmişdir. Məsələn:

Qapıdan necə girdi
başı çərəngüləyə belə
heç toxunmadan.
(V. Mayakovski)

Tərcümə olunan əsərlərdə işlənən realiyaların əhəmiyyətini aşağıdakı kimi qruplaşdırmaq olar:

a) realiyalar dilin leksik sistemində xüsusi yer tutur, tərcümə ədəbiyyatında işlənərək həmin tərcümənin mənsub

olduğu dilin lüğət tərkibini zənginləşdirir, inkişaf etdirir;

b) realiyalar əsərin mənsub olduğu xalqın adət-ənənələri, milli koloriti, geyim tərzi, dini mərasimləri və s. haqqında geniş məlumat verir;

c) realiyalar əsərin mövzusunun bağlı olduğu dövr haqqında, həmin dövrün tarixi xüsusiyyətləri, sosial-iqtisadi münasibətləri haqqında oxucuda geniş təsəvvür yaradır.

Sözün semantikası və strukturu arasında daim vəhdət mövcuddur. Çox zaman bunlar bir-birini tamamlayır, yəni kontekstdə realiyanın strukturu onun semantikasını, semantikası isə strukturunu tamamlayır.

Dilimizə tərcümə yolu ilə daxil olan realiyalar leksik-semantik cəhətdən müxtəlifdir.

1. Realiyaların bir qrupu mənsub olduğu xalqın milli musiqisi ilə bağlıdır. Məsələn: – *Bir saatdan sonra isə torpaq döşəmə üzərində «kazaçka» rəqsi oynayırdı* (M. Şoloxov); *Mən hansı tərəfə baxdımsa nəhavəndi rəsəddan və ya üşşağı isfahandan seçə bilən bir adam görmədim* (Ərəb hekayələri); *O balalayka haradadır, göstər onu görüm!* (L.Tolstoy).

Bu cümlələrdə *kazaçka, balalayka,* realiyaları rus milli musiqisi ilə, *nəhavənd, rəsəd, üşşaq, isfahan* realiyaları isə şərq musiqisi ilə bağlıdır.

2. Realiyaların bir qrupu dini mərasimlərlə, adət-ənənələrlə bağlı olaraq işlədilir. Belə realiyalar çox zaman tərcümə ədəbiyyatında izahla verilir. Lakin sözün orijinal forması saxlanılır:

Rojdestvo[1] *gəlib çıxdı* (V.Katayev); *Toyu axırıncı spasa*[2] *kimi təxirə salmalıdır* (M.Şoloxov) və s. cümlə-

---

[1] *Rojdestvo* – İsanın anadan olan gün.

[2] *Spasa* – həzrət İsanın xilası şərəfinə bayramdır, ildə üç dəfə, əsas etibarilə yayda olur.

lərində *rojdestvo, spasa* sözləri yalnız xristianlara aid realiyalardır. Bu cür realiyalar xalqın dini təfəkkür tərzi, dini mərasimləri haqqında oxucuya məlumat verir.

3. Tərcümə ədəbiyyatı vasitəsilə dilimizə keçən realiyaların bəzilərində heyvandarlıqla bağlı sözlər işlədilir. Belə realiyalara aşağıdakıları nümunə göstərmək olar: – *Əsil lovtavro*[1] *atıdır. Mən belə atların həvəskarıyam* (L. Tolstoy).

4. Realiyaların bir hissəsi məişətlə, geyimlə və s. ilə bağlıdır: – *Anatal ingilisə tərəf döndü və frajkanın düyməsindən tutdu* (L.Tolstoy); *Gimnastyorkasının döşündə qan ləkəsi görünürdü* (M.Şoloxov); *Qapınızda olaram adicə bir şveytsar*[2] (V.Mayakovski); *Onların ki, kilidli dişlərindən qopmurdu qırıntı prosforu*[3] (V. Mayakovski).

5. Ümumiyyətlə, realiyalar leksik-semantik xüsusiyyət etibarilə hərbi sahələrə, sənayeyə, milli etnoslara və s. aid ola bilir.

Tərcümə ədəbiyyatı vasitəsilə dilimizdə işlənən realiyaların bir hissəsi artıq hamı tərəfindən başa düşülür: *aul, stanitsa, qarderob, pasxa, hədis, ataman, kazaçka rəqsi, ekipaj, furqon, kibitka, flikel, bumajnik, kurqan* və s.

Lakin dilimizə tərcümə ədəbiyyatı ilə keçən elə realiyalar da var ki, onlar yalnız işləndiyi əsərlə məhdudlaşır. Belə sözlərə dar sahə realiyaları da demək olar.

Dar sahə realiyalarına aşağıdakıları misal göstərmək olar:

– *Mənə bax, şlyaxtiç! – deyə kobud tərzdə onun*

---

[1] *Lovtavro* – kabardin atları zavodudur. Lova Qafqazda ən yaxşı at cinslərindən biridir.
[2] *Şveytsar* – restoran qapıçısı.
[3] *Prosfora* – kilsədə ibadət vaxtı yeyilən fətir.

sözünü kəsdi (M.Şoloxov); *Şevalyenin*[1] *pəncərələrinin birindən qeyri-qanuni olaraq işıq düşürdü* (L.Tolstoy); *Biz ovçunu hasardan keçirib blokhauza*[2] *apardıq* (Stivens) və s.

Leksik-terminoloji sözlər. Terminologiya elm sahəsi olmaqla yanaşı elm və texnikanın müəyyən sahələrinə aid terminlər sistemi, terminlərin məcmusu kimi də başa düşülür[3]. Bu mənada terminologiya ədəbi dilin lüğət tərkibinin əsas və ayrılmaz tərkib hissələrindən, komponentlərindən biridir.

Dilin lüğət tərkibinin digər komponentlərinə aid olan ümumi və spesifik inkişaf qanunları terminlərin də inkişafını və zənginləşməsini xarakterizə edir. Əlbəttə, bu qanunlar linqvistik mahiyyətdə olub, sovet dövrü Azərbaycan ədəbi dili üçün sabit xarakterdədir.

Dilin lüğət tərkibində özünəməxsus yeri olan terminlərin iki əsas xüsusiyyəti vardır:

Birinci cəhət terminlərin xüsusiləşməsi, yəni semantik cəhətdən konkret məna hüduduna malik olması, digəri isə terminlərin obrazlılıqdan, emosionallıqdan məhrum olmasıdır. Bundan əlavə, terminlər ümumiləşdirdiyi bu və ya digər sahənin adlarını dəqiq və konkret, yığcam və lakonik ifadə etmək xüsusiyyətinə də malikdir.[4]

Dilçilik ədəbiyyatında terminlərin dilin zəruri ehtiyacı nəticəsində yarandığı qeyd edilir. Bu ehtiyac iki istiqamətdə ödənilir: birincisi alınmalar hesabına termin yaradıcılığı yolu ilə; ikincisi, mövcud leksik elementlər əsasın-

---

[1] *Şevalye* – XIX əsrdə Makvadi İppolit Şehilyenin mehmanxanası.
[2] *Blokhauza* – istehkam.
[3] *Bax:* Terminologiya məsələləri, Bakı, 1987, səh. 5-11.
[4] *Bax:* Винокур Г.О. О некоторых явлениях словообразования в русской технической терминологии. – Труды МИФЛИ, филол, ф-т.

da dilin ənənəvi söz yaradıcılığı qaydaları üzrə[1].

Termin yaradılmasında digər üsullardan biri də dildə olan ümumişlək sözlərin elm və texnikanın konkret sahələri ilə əlaqələndirilməsidir. Bu zaman ümumişlək söz həm də termin səciyyəsi daşıyır.

Tərcümə ədəbiyyatında işlənən və ədəbi dilin lüğət tərkibinin leksik-semantik potensialını zənginləşdirən terminlərin öyrənilməsi məhz bu cəhətdən aktual və əhəmiyyətli problemlərdən biri kimi qiymətləndirilə bilər.

Ümumən, tərcümə ədəbiyyatının dilində işlənən terminlərin öyrənilməsi üç cəhətdən əhəmiyyətli hesab oluna bilər:

1) elmi cəhətdən;

2) tərcümə nəzəriyyəsi baxımından;

3) bədii dil cəhətdən.

Tərcümə ədəbiyyatından dilə keçən terminlər, dikər terminlər kimi, elmin bu və ya digər sahəsinə aid olub konkret məna, məzmun ifadə edir. Həmçinin dilin lüğət tərkibinə aid olan digər vahidlər kimi terminlər də qrammatik kateqoriyalara münasibətinə, struktur-semantik əlamətlərinə görə diqqəti cəlb edir.

Tərcümə ədəbiyyatının dilində işlədilən terminlərin mahiyyətinin açılması onun aid olduğu elm sahəsinin nəzəri və praktik əhəmiyyətini artırır.

Məlumdur ki, bədii ədəbiyyatda müxtəlif elm sahələrinə dair terminlər işlənə bilir. Terminlərin bədii dildə, bədii ədəbiyyatda xüsusi mövqeyi vardır. Odur ki, tərcümə prosesində terminlər əksərən olduğu kimi saxlanılır. Belə terminlərin tədqiqi, linqvistik xüsusiyyətlərinin araşdırılması tərcümə nəzəriyyəsini xeyli zənginləşdirmiş olur.

Tədqiqat prosesində terminlərin bədii dildə yeri,

---

[1] *Bax:* Terminologiya məsələləri, Bakı, 1987, səh. 7.

mahiyyəti və linqvistik mövqeyi də araşdırılır. Bu zaman bədii dildə terminlərin verilməsi, işlədilməsi və onların bədii dilin digər elementləri ilə qrammatik-semantik əlaqəsi də müəyyənləşir.

Deməli, tərcümə ədəbiyyatında terminlərin tədqiqi bədii dildə onların işlədilməsinin elmi prinsiplərinin meydana çıxarılması üçün zəmin yaradır. Məsələn, Azərbaycan ədəbi dilinin lüğət tərkibində *feldşer, riyaziyyat* terminləri mövcuddur. Lakin tərcümə ədəbiyyatında «feldşer» termininin işlədilməsi nə qədər qanuna-uyğundursa, «riyaziyyat» termini əvəzinə «matematika» işlədilməsi bir o qədər məqsədəmüvafiq deyildir. Lakin faktlar bəzən bunun əksini sübut edir. Məsələn: – *Kazlada taygöz f e l d ş e r Morozov oturmuşdu* (M.Qorki); *M a t e m a t i k a müəllimi isə gözlüyünün dalından kənara baxırdı* (V.Katayev).

Məsələ burasındadır ki, sovet dövrü Azərbaycan ədəbi dilinin ilkin mərhələlərində lüğət tərkibinə rus dilindən bir çox terminoloji vahidlər daxil olmuşdu. Bunlar bir müddət dildə əvvəlcədən mövcud olan və işləkliyi hamı tərəfindən qəbul edilən ərəb-fars mənşəli sözləri sıxışdırıb sıradan çıxarmışdı. Lakin sonralar yeni alınan sözlərin müəyyən bir qisminin ifadə çətinliklərinə görə işləklik potensialı azaldı və onların yerinə yenə də əvvəlki fəsillərdə göstərildiyi kimi ərəb-fars mənşəli vahidlər işlədilməyə başladı. Bu dəyişiklik *matematika – riyaziyyat* sözlərində olduğu kimi, *inqilab – revolyusiya, qərargah – ştab, mədəniyyət – kultura* qoşalıqlarında da birinci tərəflərin xeyrinə qurtardı.

Ədəbi dildə baş verən belə dəyişmələr həmin dövrlərdə tərcümə edilmiş bədii ədəbiyyat nümunələrində indi də müşahidə olunur.

Tərcümə ədəbiyyatı hesabına dilimizin lüğət tərkibinə

keçən terminlər elmin, texnikanın, incəsənətin mühüm və müxtəlif sahələrinə aiddir. Bu terminlər müxtəlif situasiyalarda, müxtəlif üslublarda işlədilir. Həm ayrı-ayrı obrazların dilində, həm də müəllif təhkiyəsində özünü göstərir. Ona görə də həmin terminlərin bir qismi ümumi orta bilik səviyyəsinə malik adamlara belə tanış olduğu halda, bəziləri ancaq bu və ya digər ixtisas sahəsində çalışan adamlar (mütəxəssislər) tərəfindən işlədilir. Odur ki, tərcümə dilində işlədilən terminləri şərti olaraq iki yerə bölə bilərik:

1. H*amı tərəfindən anlaşılan, başa düşülən terminlər.* Belə terminlər əsasən aşağıdakılardır: – *Hər gün görürsən ki, qonşularımızla bir yerdə oturub h ə d i s oxuyurdu* (Ərəb hekayələri); *P a s x a b a y r a m ı n d a Natalyaya təzə paltar tikdirmişdilər* (M.Şoloxov); *Q a r d e r o b l a r əzirdi, eşirdi insanları* (V.Mayakovski); *Yalnız a r t e l ç i «yox, müqəssir deyildir» – deyə təkid edirdi* (L.Tolstoy).

Bu nümunələrdə verilən *hədis, pasxa bayramı, qarderoblar, artelçi* sözləri orta savad dairəsinə məxsus adamlar tərəfindən başa düşülür. Belə terminlərin müəyyən qismi etnik səciyyəli olduğu üçün ümumişlək sözlər səciyyəsinə malikdir. Məsələn, *hədis* və *pasxa* bu qəbildəndir. *Qarderob* sözünün Azərbaycan dilində tam struktur-semantik ekvivalenti olmadığı üçün bu söz alınma kimi qəbul olunmuşdur. *Artel* sözü də ədəbi dilin lüğət tərkibinə daxil olan alınma sözlərdəndir.

2. Tərcümə ədəbiyyatının dilində işlədilib, başa düşülməsi nisbətən çətinlik törədən və yalnız aid olduğu sahələrin mütəxəssisləri tərəfindən işlədilən terminlər. Belə terminlərə, aşağıdakıları misal göstərmək olar: – *Doğrusunu demək lazımdır, ç u d o t v o r e t s*[1] *axır vaxtlar*

[1] *Çudotvorets* – möcüzə yaradan.

nədənsə özünü göstərmirdi (V.Katayev); *Behiştdir, min qaluşki ötürür bir kərəmə* (V.Mayakovski); *Qızıl rəngli düymələri və çiynindəki senzellərlə bir sülh hakimini xatırladırdı* (M.Qorki); *Anası dəhşətlə çığırır, atası öz ucalığını*[1] *yerə tullayır* (Ərəb hekayələri).

Tərcümə ədəbiyyatı vasitəsi ilə dilimizin lüğət tərkibinə keçən terminlər məzmunca müxtəlif sahələrlə bağlıdır. Bunlardan ən çox diqqəti cəlb edən hərbi və ictimai-siyasi terminlərdir.

Tərcümə dilində işlənən hərbi və ictimai-siyasi terminlərin böyük əksəriyyəti rus dilindən alınmışdır: – *Valya deyirdi ki, Snequrko kommunist propaqandası aparmasını boynuna aldı* (N.Ostrovski); *Orada həm menşeviklər, həm eserlər, həm kadetlər, həm də bizim inqilabi komitetimiz hökm sürür* (A.Çer.); *Dövlət kooperativinin sadiq keşikçisini rüsvay edib* (V. Mayakovski) və s.

Tərcümə ədəbiyyatı vasitəsi ilə dilimizin lüğət tərkibinə keçən hərbi və ictimai-siyasi terminlər struktur baxımından daha maraqlıdır. Həmin terminlərin bir hissəsinin kök və əsasları olduğu kimi saxlanılır, Azərbaycan dilinə məxsus şəkilçilər artırılır. Bunu aşağıdakı nümunələrdən də müşahidə etmək olur: – *Bu,* revolyusiyamızın *möhkəm iradəsidir* (V.Mayakovski); *Pavel onun, özü dediyi kimi, «xırda burjua stixiyasına» qapılmasını bəyənmir* (N.Ostrovski); *Onların hamısını «notovçuluğa» qapılmaqda ittiham etməyi xüsusilə sevirdi* (M.Qorki) .

İctimai-siyasi terminlər geniş oxucu kütləsinin ideya-siyasi təfəkkürünün inkişafına müsbət təsir göstərir, onların

---

[1] *Uçalı* – baş geyiminin bir hissəsi. Uçalı intiqam əhdi verəndə açıb tullayırlar.

dünyagöruşünü formalaşdırır Bədii ədəbiyyatda hadisələr müəyyən dövr hadisələri ilə bağlı olur. Həmin dövrə aid ictimai-siyasi hadisələr onların ifadə vasitəsi olan müəyyən terminlərlə verilir. Tərcümə ədəbiyyatında isə həmin dövr hadisələrinə aid terminoloji vasitələr əksərən orijinaldakına uyğun şəkildə saxlanır və müəyyən situativ koloriti canlandırır. Aşağıdakı misallarda bu tipli terminləri müşahidə etmək olur: – *Doğrudur, eser firqəsinə daxil olması ilə əlaqədar olaraq bu əməliyyat pan aomsovniki bir qədər narahat edirdi* (N.Ostrovski); *Axı, tufta xalis bürokratdı, – deyə Olqa acıqlı-acıqlı söylənməyə başladı* (N.Ostrovski); – *Yaramaz provokator bizi ələ verdi, gecə ikən hamımızı gəlib apardılar* (N.Ostrovski); *Açıq-aydın sabotaj etdiyi üçün dəmiryol meşə komitəsi rəhbərliyini işdən çıxarmaq, tədqiqat orqanlarına vermək...* (N.Ostrovski); *Kəndlilik onu proletar psixolojisindən ayırmırmı?* (N. Ostrovski); *Soldatlar, bolşevikləri müdafiə edin, onlar xain çıxmayacaqlar!* (N.Ostrovski).

Bu cümlələrdə *eser firqəsi, bürokrat, provokator, sabotaj, proletar psixologiyası, bolşevik* ictimai-siyasi terminləri ilə qarşılaşan oxucu onların ifadə etdiyi mənanı dərk etməyə çalışır və bununla da oxucuda ictimai fəallıq, siyasi dünyagörüş formalaşır.

Bir məsələni qeyd etmək lazımdır ki, son vaxtlar təkcə tərcümə ədəbiyyatı vasitəsi ilə deyil, dikər əlaqələrlə, vasitələrlə də dilimizin lüğət tərkibinə ictimai-siyasi terminlər daxil olur. Həmin terminlərin şərhi, izahı, semantikası, orfoqrafiya və orfoepiyası ilə bağlı mükəmməl bir lüğətə böyük ehtiyac hiss olunur. Xatırladaq ki, 1907-ci ildə görkəmli bəstəkar Üzeyir Hacıbəyovun nəşr etdirdiyi «Turki-rusi və rusi-türki lüğət» əsəri mətbuat, xüsusən

qəzet oxuyanlara kömək məqsədi ilə tərtib olunmuşdu. Lüğətin lüğətçilik tariximizdə mühüm yer tutmasının əsas səbəbi onun səhifələrində hər iki dilə – Azərbaycan və rus dillərinə dair ictimai-siyasi terminlərin verilməsidir. Mütəxəssislərin qeyd etdiyi kimi, bu lüğət tərcümə lüğətindən çox, izahlı lüğət xarakteri daşıyırdı. Məsələn:

İttihamnamə (ər. for.) – bir töhmət və cinayət üstə tutulmuş adam haqqında məhkəməyə verilən təqsir kağızı, *обвинительный акт.*

İdarə (ər.) – dövlət işlərinin dolandırılması, *правление.*

Lüğətdə həmçinin rus dilinə məxsus sözlərin də izahı və şərhi verilmişdir:

Офицер – zabit: *официальный* – rəsmi; *охранное отделение* – mühafizə şöbəsi və s.

Doğrudur, Azərbaycanda Sovet hakimiyyətinin ilk illərindən hazırkı dövrə qədər bir sıra ikidilli və izahlı lüğətlər çap olunub və həmin lüğətlərdə az miqdarda ictimai-siyasi terminlər də öz əksini tapıb. Lakin ictimai-siyasi terminləri əks etdirən mükəmməl bir izahlı lüğətə böyük ehtiyac hiss olunur.

Tərcümə ədəbiyyatı vasitəsilə dilimizin lüğət tərkibinə keçən terminlərin böyük bir qismi hərbi terminologiya ilə bağlıdır. Onu da qeyd edək ki, tərcümə əsərləri mövzu rəngarəngliyi baxımından çox zəngindir. Belə ki, hadisələr gah şəhər mühitində, sadə kənd həyatında, gah da döyüş meydanlarında, hərbi dairələrdə gedir. Ümumiyyətlə, bədii ədəbiyyat real həyatı əks etdirir, real hadisələri canlandırır. Bədii ədəbiyyatda işlədilən dil vasitələri də müəyyən bir dövrün sinxron linqvistik xüsusiyyətlərini özündə əks etdirir.

Sovet dövründə yazılan əsərlərin mühüm bir qismi

inqilabın qələbəsinin ilk illəri, xüsusən ilk quruculuq dövrü ilə bağlıdır. Həmin dövr hadisələrinin təsviri üsullarından asılı olaraq bədii ədəbiyyatda da müvafiq terminoloji vasitələrdən istifadə edilmişdir. Həmin əsərlərin məhz təsvir olunan hadisələrə yaxın dövrdə tərcümə edilməsi ilə işlədilən terminoloji leksika da müəyyən dərəcədə mühafizə edilmişdir. Qeyd etməliyik ki, sovet dövründə, xüsusən ilk mərhələlərdə ədəbi dilin ən mütəhərrik sahəsi olan leksik səviyyəsində tez-tez dəyişmələr baş verirdi. Bu dəyişmələr, bilavasitə o dövrlərdə edilən tərcümə əsərlərində də öz əksini tapırdı. Rus dilinə məxsus bir çox vahidlər ya əvvəlcədən Azərbaycan dilində mövcud olan ərəb-fars mənşəli sözlərin əvəzində işlədilirdi, ya da rus dilindəki qrammatik formalar, müəyyən dərəcədə Azərbaycan dilinə də müdaxilə edirdi. Bütün bu xüsusiyyət bədii tərcümə dilində işlədilən terminlərdə öz əksini tapırdı. Müasir dövrdə həmin terminlər artıq ədəbi dil qanunları üzrə dəyişdirilmiş və sabitləşdirilmişdir. Bəzi terminlərin tərcümə ədəbiyyatında mühafizəsi isə müəyyən tarixi dövrün real şəkildə canlandırılması, həmçinin dilin lüğət tərkibində baş verən dəyişmələrin müqayisəli öyrənilməsi cəhətdən nəzəri cəlb edir. Sovet dövrünün ilkin mərhələlərini, lüğət tərkibində həmin dövrə aid inkişaf və dəyişmələri əks etdirən terminlərdə aşağıdakı xüsusiyyətlər mühafizə edilir:

1. *Rus dilindən keçən və Azərbaycan dilində müəyyən qarşılığı mövcud olan sözlərin işlədilməsi.* Bu qrupa daxil olan sözlərin özlərini də iki qrupa ayırmaq olar. Bunlardan birincisi, rus-Avropa mənşəli sözlərin Azərbaycan dilinin öz sözlərinin, ikincisi isə ərəb-fars mənşəli sözlərin əvəzində işlənməsidir.

Sosial-siyasi hadisələrlə bağlı olub ilk mərhələlərdə

Azərbaycan dilində işlək olan, həmçinin tərcümə ədəbiyyatında mühafizə edilən sözlərdən *bandit, banda, soldat* sözləri maraqlı xüsusiyyətlərə malikdir. Məlumdur ki, Azərbaycan dilində *bandit* sözünün *quldur, soyğunçu, banda* sözünün isə *quldur dəstəsi* mənaları vardır. *Soldat* sözünün tam qarşılığı kimi *əsgər* sözü mövcuddur. Lakin sovet dövrü Azərbaycan ədəbi dilində *bandit, banda* və *soldat* sözlərinin normalaşmış leksik vahidlər kimi işlədilməsinin xüsusi cəhətləri də var idi. Belə ki, *quldur, soyğunçu* və həmçinin *quldur dəstəsi* kimi söz və ifadələr Azərbaycan dilində daha ümumi xarakter daşıyırdı. Bu sözlər, bütün dövrlərdə yol kəsməklə, soyğunçuluqla məşğul olan adamlara və ya dəstələrə verilən nomenklatur ad idi.

20-ci illərdən sonra isə *bandit* sözü, ümumiyyətlə, yolkəsən, soyğunçuluq edən yox, bilavasitə hökumətin düşməni kimi dağıntılıq törədən, yanğınlar salan, rəhbər və fəallara qəsd edən, təxribatçılıqla məşğul olan adamlara deyilirdi. Deməli, bu sözlər müəyyən dövrdə öz məna xüsusiyyətlərinə görə bədii ədəbiyyatda həm də üslubi bir priyom kimi işlədilmişdir. Bədii tərcümədə onların mühafizəsi ilə bir tərəfdən dilin müəyyən sinxron qatı nəzərə çarpdırılırsa, digər tərəfdən üslubi tələblər gözlənilmiş olur.

Aşağıdakı misallarda həmin xüsusiyyətin öz əksini tapmasını müşahidə etmək olur: – *Buraya, b a n d i t Maxnonun keçmişdə ağalıq etdiyi bu yerlərdə pər addımda təxribat izləri vardı* (N.Ostrovski); *Qatı b a n d i t l ə r, sabiq zabitlər, sağ və sol eserlər öz qüvvəsi və imkanı daxilində əlinə hakimiyyət alırdı* (N.Ostrovski); *B a n d a - n ı n vur-tut iki-üç başkəsəni vardı* (N.Ostrovski).

Soldat sözü öz mənasına görə hərbi terminologiyaya

daxil olsa da, yeni hakimiyyətin ilk illərində həm də ictimai-siyasi məzmun qazanmışdı. Buna görə də Azərbaycan dilində onun *əsgər* mənası olsa da, tərcümə dilində orijinala uyğun olaraq *soldat* işlədilmişdir. *Soldat* sözü yeni dövrdə inqilabın keşikçisi, hakimiyyətin qələ-bəsinin mühafizəçisi mənasını ifadə edirdi: *Soldatları stansiya komendantı çağırmışdı* (N.Ostrovski).

Yeni hakimiyyətin ilk illərində quruculuq işləri genişlənir, texniki tərəqqi nailiyyətlərindən istifadənin potensialı artırdı. Bütün bunlar ölkədə baş verən sosial-siyasi hadisələrlə həmahəng surətdə inkişaf edirdi. Cəmiyyətin inkişafı ilə yanaşı, texniki tərəqqi nailiyyətləri də bədii əsərlərdə başlıca mövzulardan birinə çevrilirdi. Rus dilində texniki inkişafla əlaqədar işlənən terminlər Azərbaycan dilinə daxil olurdu. Tərcümə əsərlərində də bu xüsusiyyət müşahidə edilir. Məsələn, V.Mayakovskinin şeirlərində *tren* sözü işlədilmişdir. Onun Azərbaycan dilindəki qarşılığı *qatar* sözü ilə ifadə olunur. Lakin *qatar* sözündə *tren* sözünün işlənmə situasiyası, dövrün coşğun hadisələri əks olunmur. Ona görə də tərcümədə *tren* sözünün saxlanılması məqsədəuyğun hesab edilmişdir:

Fit verilir, yerindən tərpənir
trenimiz.
(V. Mayakovski)

Step sözü də tərcümə ədəbiyyatında rus dilindəki kimi verilmişdir. Bu lüzum ondan irəli gəlmişdir ki, *step* sözü orijinalda strateji məzmunlu hərbi termin kimi işlədilmişdir: – *Stepdə kim bilir onların adı nədir?* (V. Katayev).

Tərcümə ədəbiyyatında orijinalda olduğu kimi işlənən sözlərin mühüm bir qismini ərəb-fars mənşəli sözlərin əvəzediciləri təşkil edir. Bunların əksəriyyəti ictimai-siyasi məzmun daşıyan sözlərdən ibarətdir. Bu cür leksik vahidlər 1920-40-cı illər dövründə Azərbaycan ədəbi dilində terminoloji vasitələr kimi işlədilmişdir. Bunlardan *kiqant* (qiqant), *koloniya, revolyusiya, provokator* kimi sözləri misal göstərmək olar. Azərbaycan dilində bu sözlərin ərəb-fars mənşəli *nəhəng, müstəmləkə, inqilab, təxribatçı* kimi müvafiq qarşılıqları vardır. Lakin bu sözlər həmin dövr hadisələrimi, ümumi ictimai-siyasi anlayışı bütövlükdə ifadə edə bilmədiyi üçün tərcümə dilində orijinala məxsus variantlar saxlanılmışdır: – *Böyük «k i q a n t» maşınlarla yarılacaq bu torpaq* (V.Mayakovski); *Təki k o l o n i y a malı mağazalara dolsun* (V.Mayakovski); *R e v o l - y u s i y a d a daha uzağa üzmək üçün Leninin günəşində yuyunuram mən bu gün* (V.Mayakovski); *Yaramaz p r o v o k a t o r bizi ələ verdi; gecə ikən hamımızı gəlib apardılar* (N.Ostrovski).

Tərcümə ədəbiyyatında Azərbaycan dilindəki ərəb-fars mənşəli sözlərin qarşılığı kimi verilən leksemlərin müəyyən qismi əşya və sahə anlayışlı nomenklatur terminlərdən ibarətdir. Bunlardan *konvert, kuşetka, podval, poselka, uçastok* kimi sözləri misal göstərmək olar. Həmin sözlər 1920-40-cı illər dövrü Azərbaycan ədəbi dilinin lüğət tərkibində işlədilmişdir. Ərəb-fars mənşəli sözlərin əvəz olunması meyili ilə ədəbi dilə daxil olan bu cür sözlərdə ictimai-siyasi anlayış əks olunmur. Bununla belə, həmin sözlər müəyyən dövrdə ədəbi dildə işlədildiyi üçün tərcümə dilində də saxlanılmışdır. Məlum olduğu üzrə *konvert* sözü *zərf, kuşetka* sözü *taxt, podval* sözü *zirzəmi, poselka* sözü *qəsəbə, uçastok* sözü isə *dairə* sözlərinin

əvəzində işlədilmişdir. Bu sözlərin bir çoxu 1950-ci illərin sonlarına kimi və hətta 1960-cı illərdə belə ədəbi dildə işlədildiyinə görə həmin dövrlərə aid tərcümə əsərlərində də onların mühafizəsini görmək mümkündür:

İndi də konverti açarkən gizli bir mehribanlıqla düşündü (N.Ostrovski); *Foma kreslonu kuşetkaya yaxın çəkib sərbəstliklə dedi* (M.Qorki); *Atasilə bərabər podvalda və çardaqda mətbəə yoldaşlarının yarısını gizlətməyə müvəffəq oldu* (N.Ostrovski); *Fəhlə poselkunu və stansiyasını şəhərdən ayıracaq bir gözətçi dəstəsi qoyulmasını əmr etdi* (N.Ostrovski); *Uçastok nəqliyyat fövqəladə komisiyonunda qızğın iş gedirdi* (N. Ostrovski).

Tərcümə ədəbiyyatında orijinalına uyğun işlənən leksik-terminoloji vahidlərin müəyyən qismi rəsmi-işgüzar xarakter daşıyan sözlərdən ibarətdir. Rəsmi-işgüzar səciyyəli sözlərin mühüm cəhətlərindən biri budur ki, onlar müəyyən dövrdə ədəbi dildə ərəb-fars mənşəli sözlərin əvəzinə işləndikdən sonra öz yerini yenidən həmin sözlərə vermişsə də, bunlar ümumi danışıq dilində indi də saxlanılmaqdadır. Məsələn, bu mənada həmin xüsusiyyət *ustav, kalendar, xarakteristika* kimi sözlərdə özünü daha aydın şəkildə büruzə verir. İndi Azərbaycan ədəbi dilində *ustav* əvəzinə *nizamnamə, kalendar* əvəzinə *təqvim, xarakteristika* əvəzinə isə *xasiyyətnamə* işlədilir. Tərcümə ədəbiyyatında bunların rus dilindəki variantlarının saxlanması həm o sözlərin müvafiq dövrdə ədəbi dildə işlənmə xüsusiyyətlərini, həm də Azərbaycan danışıq dilində onların mövqeyini nəzərə çarpdırır. Məsələn: – *Dəf etmək lazımdır!.. Köhnə ustavda nə deyilir?* (M. Şoloxov); *Günü qabaqcadan kalendardan bilirdilər* (V.Katayev); *Xarakteristikada «partiyaya son dərəcə*

sadiqdir» sözlərini oxudu (N.Ostrovski).

Tərcümə ədəbiyyatında rus dilindəki varianta uyğun işlədilən leksik-terminoloji vahidlərin müəyyən qismi hətta müasir dilimizdə də ikili işlədilən sözlərdən ibarətdir. Məsələn, *operasiya* və *melodiya* bu tiplidir. *Operasiya* sözünün Azərbaycan dilində *əməliyyat, melodiya* sözünün isə *tərana* kimi ekvivalenti olduğu halda, bəzən bədii dildə rus dilindən alınma sözlər işlədilir. Məsələn: *Dedi ki, operasiya lazımdır, xəstə elə bu gün xəstəxanaya aparılmalıdır* (M.Qorki); *Mahnının melodiyasını saxlamağa çalışaraq həzin bir ahənglə nağıl etməyə başlayır* (M.Qorki).

Tərcümə ədəbiyyatında bu sözlər ədəbi dilin 1920-1940-cı illərini əks etdirsə də, müasir dövrdə onların hələlik öz işləkliyini itirmədiyini də müşahidə etmək olur: – *Xəstəni operasiya otağına apardılar* (İ.Əfəndiyev); *İçəridən incə melodiya eşidilirdi* (V.Nəsib).

Tərcümə ədəbiyyatında bəzi leksik-terminoloji vahidlərin rus dilindəki variantı bilavasitə situasiyaya görə saxlanılır. Məsələn, aşağıdakı misallarda *həyəcan* əvəzinə *trevoqa, mövzu* əvəzinə *tema* işlədilməsi faktları bu qəbildəndir: *Trevoqa ilə toplanış beşinci piyada məktəbində olacaq.* (N.Ostrovski); *Bu temanın üstündə fırlanmışam illərlə* (V.Mayakovski).

Bəzi sözlərin rus dilindəki variantının saxlanması isə onların ədəbi dilə daxil olması xüsusiyyəti ilə bağlı deyildir. Məsələn, tərcümə ədəbiyyatında təsadüf olunan *zastava* və *vodokaçka* sözlərinin tərcümədə *qarovulxana* və *suvaran maşın* şəklində işlədilməsi tərcümənin keyfiyyətinə xələl gətirməzdi, üstəlik Azərbaycan dilinin daxili imkanlarını daha aydın şəkildə üzə çıxarardı. Görü-nür, tərcüməçi müəyyən yerli koloriti, həmçinin danışıq dili

üçün əsas olan məna xüsusiyyətlərini nəzərə alaraq həmin sözlərin rus dilindəki variantının saxlanmasına üstünlük vermişdir: *Bütün zastavalardan birbaş Zimniyə tərəf!* (V.Mayakovski); *Su gəlmirdi. Ehtimal ki, vodokaçka işləmirdi* (N.Ostrovski).

2. *Rus dilindən keçən və Azərbaycan dilində tərcüməsinə ehtiyac olmayan sözlər.* Tərcüməsinə ehtiyac olmayan leksik-terminoloji sözlər əsas etibarilə, müəyyən adət, mərasim, etnik anlayış bildirir. Belə sözlər başqa dilə, ümumiyyətlə, tərcümə olunmur, öz xarakterinə, həmçinin semantik xüsusiyyətlərinə görə ekzotizmlərə daxil olur. Bununla yanaşı, belə sözlər öz struktur cəhətlərinə görə terminoloji leksikanın bir qolunu təşkil edir. Tərcümə ədəbiyyatında təsadüf edilən belə sözlərə dair aşağıdakı misalları göstərmək olar: – *Rojdestvo gəlib çıxdı* (V. Katayev); – *Demək, «priçastiye» mərasiminə getməmisən, küçələrdə veyillənirsən, dinsiz?* (M.Qorki); *Onu troitsa bayramında kəsək, yerinə cavan xoruz alaq* (M.Şoloxov); *Toyu axırıncı spasa kimi təxirə salmalıdır* (M.Şoloxov); *Bu maslenitsa bayramında yumrulaşanların davasına bənzəmirdi* (M. Şoloxov).

Bu misallarda adət və mərasim adlarını bildirən *rojdestvo* sözü İsanın anadan olma gününü, *priçastiye* dindar xristianların kilsədə çaxır içmə mərasimini, *troitsa* xristianlarda ata, oğul və ruhun vəhdətini xatırladan bayramı, *spasa* İsanın xilası şərəfinə ildə üç dəfə (əsasən yayda) keçirilən bayramı, *maslenitsa* isə pəhriz bayramını bildirir. Bunlar xüsusiləşmiş və struktur-semantik cəhətdən motivləşmiş vahidlər olduğu üçün başqa dilə tərcümə edilmir.

Tərcümə edilməyən leksik-terminoloji vahidlərin bir qismi də adət, xasiyyət və məşğuliyyətlə bağlı sözlərdir.

Tərcümə ədəbiyyatında bunlardan aşağıdakıların işlədilməsi nəzəri cəlb edir: – *Onu obıvatellər tanıyırdılar: o həmişə silahlı olurdu* (N.Ostrovski); *Zirzəmiyə enir Puşkinin xəsis rıtsarı* (V.Mayakovski).

Bu misallardakı *obıvatel* sözü ictimai görüşü olmayan, meşşan təbiətli adam mənası daşıyır. Azərbaycan dilində həmin sözün termin kimi bir sözlə qarşılığı olmadığı üçün tərcüməsinə də ehtiyac hiss olunmur. *Rıtsar* sözünün müqabilində isə *cəngavər* sözünü işlətmək olardı. Lakin görünür, *rıtsar* sözü ilə *cəngavər* sözü arasında müəyyən etnik anlayış fərqi olduğuna görə onun tərcüməsinə ciddi ehtiyac hiss edilməmişdir.

Bəzən motivləşmiş məna xüsusiyyətinə malik olan əşya adlarının tərcümə edilməsinə də ehtiyac olmur. Məsələn, aşağıdakı misallarda verilən *zelterski* və *pralyotka* sözləri bu qəbildəndir: – *Ejov zelterski şüşəsinin ağzını açırdı* (M.Qorki); *Qarşıdan gələn pralyotka gecənin sakitliyini buzların şıqqıltısı ilə doldurdu* (M.Qorki). Bu misallardakı *zelterski* şüşə növü, *pralyotka* isə xüsusi araba növü bildirdiyinə görə tərcümə edilməmişdir.

3. *Rus dilinə məxsus müəyyən qrammatik əlamətləri mühafizə edən sözlər.* Sovet dövrü Azərbaycan ədəbi dilinin ilk mərhələlərində müəyyən terminoloji səciyyəli leksik və sintaktik vahidlərdə bəzi qrammatik əlamətlər saxlanılırdı. Yəni, bəzi sözlərdə və birləşmələrdə rus dilinə məxsus şəkilçilər işlədilməkdə idi. Tərcümə ədəbiyyatında bunların öz ifadəsini tapması bir tərəfdən həmin dövr ədəbi dilinə aid əlamətlərin saxlanması və dilin lüğət tərkibinin inkişaf mərhələləri barədə müəyyən təsəvvür oyatmaq cəhətdən maraqlı olduğu kimi, əsərdə təsvir olunan hadisələrlə bağlı konkret situasiyaların canlandırılması baxımından da mühüm rol oynayır. Tərcümə ədəbiyyatının

dilindəki müəyyən faktlarda qrammatik əlamətlərin rus dilində olduğu kimi işlənməsi ədəbi dilin qrammatik normalarının təkmilləşmiş olduğu müasir dövr baxımından təhlil edildikdə bir sıra maraqlı cəhətlər meydana çıxır.

Ədəbi dildə, sonralar aid olduğu sözlə birlikdə əvəz olunan qrammatik əlamətlərdən aşağıdakılarına tərcümə ədəbiyyatında daha çox rast gəlmək olur:

-yor şəkilçisi. Məsələn: – *Qarı bu çağırılmamış k o n t r o l y o r u n üzərinə çımxırdı* (N.Ostrovski) .

Bu şəkilçi özünün qrammatik-semantik xüsusiyyətlərinə görə Azərbaycan dilindəki *-çı (-çi, -çu, -çü)* şəkilçisi ilə ekvivalent təşkil edir. Buna görə mümkün olan qrammatik-semantik şəraitdə *-yor* şəkilçisi Azərbaycan dili variantı ilə əvəz edilə bilərdi.

Ədəbi dilin sonrakı inkişaf mərhələlərində *-yor* şəkilçisi ilə birlikdə *kontrol* sözü də əvəz edilmiş, struktur və semantik cəhətdən müvafiq *nəzarətçi* sözü işlədilmişdir. Bununla yanaşı, tərcümə dilində bilavasitə həmin dövrün psixoloji vəziyyətini və hadisələrin sosial xarakterini canlandırmaq üçün *kontrolyor* sözünün işlədilməsi xüsusi əhəmiyyətə malikdir.

-nik şəkilçisi. Bu şəkilçi də Azərbaycan dilində qrammatik-semantik cəhətdən *-çı (-çi, -çu, -çü)* şəkilçisinə uyğun gəlir. Sovet dövrü Azərbaycan ədəbi dilinin ilk mərhələlərində bu şəkilçinin qoşulması ilə işlənən bir sıra sözlərdə sonralar əvəzolunma prosesi başlanmışdır. Məsələn: – *Görünür, kollej s o v e t n i k i kimi mühüm rütbədən ölümcül surətdə qorxmuşdu* (V.Katayev).

Məlum olduğu üzrə, *sovetnik* sözü əvəzinə müasir dövrdə *məsləhətçi* və ya *müşavir* sözləri işlədilir. Tərcümə dilində *sovetnik* sözünün saxlanması isə həmin dövrdə *məsləhətçi* və ya *müşavir* sözlərinin işlək olmaması, həmçi-

nin konkret situasiyada *sovetnik* sözünün daha lüzumlu olmasından irəli gəlir.

-at şəkilçisi. Bu şəkilçi *-çılıq (-çilik, -çuluq, -çülük)* şəkilçisinin qrammatik-semantik ekvivalenti səciyyəsinə malikdir. Lakin bütün sözlərdə *-at* şəkilçisinin bu mənası müşahidə edilmir. Tərcümə ədəbiyyatından alınmış aşağıdakı faktda isə *-at* şəkilçisinin *-çılıq (-çilik, -çuluq, -çülük)* şəkilçisinə uyğun qrammatik-semantik xüsusiyyətini müşahidə etmək olur: – *Fransanın protektoratı altında, Polşa və Rumıniya ilə birlikdə Rusiya ilə Qərb arasında silahlı bufet yaradarlar* (N.Ostrovski).

Protektorat sözü əvəzinə müasir Azərbaycan dilində *himayəçilik* sözü işlənsə də, orijinala aid məna xüsusiyyətləri məhz həmin sözün özü ilə daha canlı şəkildə ifadə olunur.

Tərcümə ədəbiyyatında təsadüf olunan bir qisim sözlərdə sonralar yalnız şəkilçi komponentində dəyişiklik olmuşdur. Tərcümə ədəbiyyatında bunlardan aşağıdakılara təsadüf edilir:

-giya şəkilçisi. Bu şəkilçi rus dilindəki *-qiya* formasının transliterasiya olunmuş variantıdır. Rus dilindən alındığı sözlə birlikdə müəyyən dövr ərzində Azərbaycan dilində işlədilən bu şəkilçi fonetik-orfoepik tələblər üzrə dəyişikliyə uğramışdır: – *Bundakı energiyaya, bundakı həyat gücünə bax!* (L.Tolstoy).

Müasir dildə *energiya* sözü *enerji* şəklində işlədilir. Tərcümə dilindəki variant isə sovet dövrü Azərbaycan ədəbi dilinin ilk mərhələlərini xatırladır.

-ist şəkilçisi. Bu şəkilçi Azərbaycan dilindəki *-çı (-çi, -çu, -çü)* şəkilçisi isə qrammatik-semantik ekvivalentliyə malikdir. Rus dilindən alınma sözlərin çoxunda *-ist* şəkilçisi *-çı (-çi, -çu, -çü)* şəkilçisi ilə əvəz olunmuşsa da,

ictimai-siyasi və ideoloji məzmun bildirən *marksist, materialist, idealist, kommunist* kimi sözlərdə bu şəkilçi saxlanılır. Ədəbi dilin xüsusən 60-cı illərə qədərki dövrünü əks etdirən tərcümə ədəbiyyatında *-ist* şəkilçisinin normativ işlənmə faktları müşahidə olunur: – *Dəmiryol telefonistləri ilə yarım saat söyüşdükdən sonra Juxrayla danışmağa müvəffəq oldu* (N.Ostrovski).

Müasir dövrdə *traktorist, şaxmatist, metallist, qravyurist* və s. sözlər *traktorçu, şahmatçı, metalçı, qravüraçı* şəklində işləndiyi kimi, *telefonist* sözü də *telefonçu* şəklində işlədilir.

-iya şəkilçisi. -iya şəkilçisi Azərbaycan dilindəki *-lıq (-lik, -luq, -lük)* şəkilçisinə uyğun gəlir. Tərcümə ədəbiyyatında təsadüf edilən faktda da bu xüsusiyyət müşahidə olunur: *O özü direktoriyanın ehtiyacı üçün qənimətlər hesabından dəfələrlə pul tələb etmişdi* (N.Ostrovski).

Burada işlədilmiş *direktoriya* sözü əvəzində müasir Azərbaycan dilində *direktorluq* sözündən istifadə edilir. *Direktoriya* sözü isə sovet dövrü Azərbaycan ədəbi dili lüğət tərkibinin ilkin mərhələsinin izini əks etdirir.

-et şəkilçisi. Bu şəkilçi sovet dövrü ədəbi dilinin ilkin mərhələsində *komitet* sözü tərkibində işlədilmişdir. Bilavasitə həmin dövrə aid tərcümə dilində də *komitet* sözü rus dilindəki şəklinə uyğun formada saxlanılır: – *Mülkədarların mülkünü yandırmalı, şəhərə gedib komiteti axtarmalı idi* (V.Katayev).

Müasir dövrdə bu sözün *-et* şəkilçi komponenti, Azərbaycan ədəbi dilində *-ə* affiksial forması ilə əvəz olunmuşdur.

Bəzi sözlərdə isə rus dilinə məxsus qrammatik əlamət sonradan ixtisar edilmişdir. Tərcümə ədəbiyyatında təsadüf olunan belə qrammatik əlamətlərə dair aşağıdakıları

göstərmək olar:

-ka şəkilçisi. Sovet dövrü Azərbaycan ədəbi dilinin ilk mərhələsinə təsadüf edən tərcümə dilində rus dilindən alınmış və *-ka* şəkilçisi ilə işlənən sözlərdən müəyyən hadisə və situasiyanın canlandırılmasında istifadə olunmuşdur. Aşağıdakı misallarda bu xüsusiyyəti görmək mümkündür: – *Suyu qızmış Maksimka səsini kəsdi* (M. Şoloxov); *Sanitarka Frosya onun yanından uzaqlaşmır* (N.Ostrovski).

Bu misallardakı *maksimka* silah adıdır. Sözün sonundakı *-ka* şəkilçisi Azərbaycan dili üçün əhəmiyyətli deyildir. Sözün özü isə artıq işlək olmadığından müəyyən dərəcədə tarixizm xarakterli sözlər sırasına keçmişdir. *Sanitarka* sözü isə müasir dildə *sanitar* şəklində işlədilir; *-Ka* şəkilçisi qrammatik səciyyə daşımadığı üçün işlədilməsinə də lüzum qalmamışdır.

-a şəkilçisi. Rus dilində bu qrammatik əlamət bəzi sözlərdə son şəkilçi kimi işlədilir. Sovet dövrü Azərbaycan ədəbi dilinin ilk mərhələsində rus dilindən alınma sözlərdə həmin şəkilçi sözün özü ilə birlikdə işlədilmiş, lakin heç bir qrammatik funksiya daşımamışdır. Buma görə də sonralar öz işləkliyini itirmişdir: – *Poçta paketləri yığınını əda ilə özünə tərəf çəkdi* (N.Ostrovski); *Planeta, əzizim, hərlən, ye, iç, kefə bax* (S.Yesenin).

Müasir ədəbi dildə bu sözlər norma kimi, *poçt* və *planet* şəklində işlədilir.

-o şəkilçisi. Rus dilindən alınma sözlərin sonunda *-o* qrammatik əlamətinin işlənməsi də Azərbaycan sovet ədəbi dilinin ilk mərhələsini xatırladır: – *Alayın orkestrosu gurlayırdı* (N.Ostrovski).

Müasir dilimizdə *orkestro* sözü *orkestr* şəklində formalaşmışdır.

Tərcümə dilində *ekoloji leksikanın* da rolu vardır. Adətən ekoloji mühit dedikdə xalqı əhatə edən ekoloji aləm, coğrafi şərait, bitki və heyvanat aləmi nəzərdə tutulur. Yaşadığı şəraitlə, ekoloji mühitlə əlaqəsi olmayan elə bir xalq təsəvvürə gəlməz. İnsanlar daim onları əhatə edən mühitlə, coğrafi şəraitlə əlaqədar olmuş, heyvanat və bitkilərdən öz məişətlərində geniş istifadə etmişlər. Nəinki azərbaycanlıların, hətta bütün türkdilli xalqların ekoloji mühitlə əlaqəsi onun dilində, nitqində də öz əksini tapmışdır[1]. Odur ki, dil də ekoloji informasiyaların yayılmasında, verilməsində mühüm rol oynayır.

Bədii ədəbiyyatda öz inikasını tapmış hadisə və əhvalatlar həmişə müəyyən zaman çərçivəsində olmuşdur və məkanca sabitdir[2]. Deməli, ədəbiyyatda hadisələrin məkanla əlaqəsi, müəyyən məkan hüdudunda baş verməsi onun leksikasına da təsir edir. Məkan hüdudu olan yerdə ekoloji leksika da formalaşır. Bu da bədii əsərin dilini zənginləşdirir, onun tədqiqat obyekti olmasına təsir göstərir.

Ekoloji leksikası zəngin olan hər hansı bədii ədəbiyyat tərcümə prosesində bir o qədər də dəyişikliyə məruz qalmır. Çünki hər xalqın özünəməxsus coğrafi şəraiti, spesifik ekoloji leksikası mövcuddur. Tərcümə prosesində bütün bu məsələlər nəzərə alınır və bu hal əsərin səsləndiyi ikinci dili zənginləşdirir: – *Çayların meşənin sahillərində xal-xal oselotlar*[3], *pumalar*[4] *və yaquar adlı pələnglər dolaşır* (M. Rid) – cümləsində *oselotlar,*

---

[1] *Bax:* И.З.Гаджиев. Тюркоязычные ареалы Кавказа, М., 1979, стр. 132-166.

[2] *Bax:* Л.Тимофеев. Стих и проза (Популярный очерк теории), М., 1938, стр. 10.

[3] *Oselatlar* – vəhşi Meksika pişiyi.

[4] *Pumalar* – Amerikada vəhşi pişiyin bir növüdür.

pumalar, yaquar Amerika qitəsində yaşayan vəhşi heyvan adlarıdır. Həmin coğrafi şəraitdə baş verən hadisələri əks etdirən bədii əsər bunlarsız keçinə bilməz. Odur ki, tərcüməçi həmin sözləri saxlamaq zərurəti ilə qarşılaşır. Adətən tərcümə olunan əsərin ekoloji leksikasına daxil olan sözlərin Azərbaycan dilində ekvivalenti olmur. Məsələn, L. Tolstoyun «Dirilmə» əsərində quruyandan sonra da öz təbii rəngini və şəklini saxlayan *immortel* çiçəyi Azərbaycan xalqının yaşadığı ərazidə bitmir. Tərcüməçi məhz bu çiçəyin adını olduğu kimi saxlamalı olmuşdur: – *Altından isə üstünü toz basmış bir dəstə immortel asılmışdı* (L. Tolstoy).

Əfsanəvi yonca adı olan *müşkülgüta* da belə sözlərdəndir: —*Əmi, deyirlər ki, səndə müşkülgüta, – deyib susdu* (L.Tolstoy).

M.Ridin «Başsız atlı» romanının ekoloji leksikasına daxil olan İrlandiya cinsli, maral ovlayan itin adını – *maralit* sözünü saxlamaq lazım gəlmişdir.

M.Qorkinin «Artomonovların işi» romanında verilən xüsusi toyuq növü – *kuryata* da tərcümədə olduğu kimi saxlanmışdır: – *Styonka! – dedi, şəhəri xəcalətə vermə, özünü bu k u r y a t a y a göstər* (M. Qorki).

Yuxarıda göründüyü kimi, tərcümə ədəbiyyatı hesabına dilin lüğət tərkibinə daxil olan məişət leksikası olduqca rəngarəng və çoxcəhətlidir.

Tərcümə ədəbiyyatında qısaltmaların da işlədilməsinə təsadüf olunur. Qısaltmalar tərcümə ədəbiyyatında həm terminoloji vasitələrin bir növü kimi, həm də okkazional şəkildə işlədilir. Qısaltmalardan bu şəkildə istifadə edilməsində orijinala məxsus cəhətlərdən kənara çıxılmasına, demək olar ki, yol verilmir. Terminoloji xüsusiyyət daşıyan: qısaltmalar Azərbaycan ədəbi dilinə 1920-ci illərdən

daxil olmağa başlamışdır. Bədii ədəbiyyatda bunlar müəyyən hallarda öz terminlik xüsusiyyətini saxlasa da, bəzən onlardan okkazional şəkildə istifadəyə də meyil özünü göstərir. İstər terminoloji: səciyyəli və istərsə də okkazional xarakterli qısaltmaların tərcümə ədəbiyyatında işlədilməsinin iki başlıca xüsusiyyəti müşahidə olunur. Bunlardan birincisi, qısaltmaların Azərbaycan variantı əsasında tərcümə edilmədən işlədilməsi, ikinci isə bunların bəzilərinin bütöv, bəzilərinin isə müəyyən komponentlərinin ekvivalentinin işlədilməsindən ibarətdir.

20-ci illər üçün xas olan abbreviaturaların əksəriyyəti müasir dövrdə artıq işlənmir. Məsələn, *ÇK* (çeka), *lavkom, qubkom, qubsovet, qubçeka, kombed, revkom, narkom, narkomat* və s.

Tərcümə ədəbiyyatında təsadüf edilən terminoloji səciyyəli qısaltmalarda əsas etibarilə orijinala məxsus koloritin saxlanılması diqqət mərkəzində olduğu üçün onlar bir çox hallarda dəyişdirilmədən işlədilir. Terminoloji səciyyəli bəzi qısaltmalar hazırda Azərbaycan ədəbi dilində işlədilməsə də onlar bədii ədəbiyyatda, xüsusən tərcümə dilində özlərinin işlək olduğu dövrə aid koloriti ifadə etməklə səciyyələnir. Belə terminoloji qısaltmaların bəzilərinin tərcüməyə ehtiyacı olmasa da, bəzilərinin Azərbaycan dilində ekvivalenti mövcuddur. Ədəbi dilin müəyyən tarixi dövrünü nəzərə çarpdırmaq məqsədi ilə bunların hamısı tərcümə dilində orijinala Uyğun işlədilir. Məsələn: – *Göydələnlər üstündə a e r o s t a n s i y a var* (V. Mayakovski); *S k o r o x o d d a n şeir, şeirdən çəkmə* (V. Mayakovski).

Aerostansiya və *skoroxod* sözləri qısaltma yolla əmələ gəlmişdir. Onlar alınma terminoloji vahidlər kimi motivləşmiş olduğundan tərcümə variantında orijinaldakı kimi

saxlanılmışdır.

Qısaltma terminlərin bir qismi dövrün koloritinin saxlanması məqsədi ilə tərcümə edilmədən işlədilir. Bunlara aid aşağıdakıları misal göstərmək olar:

Möhürsüz kağızda olmaz etibar,
Möhrü Mospoliqraf daim hazırlar.
(V. Mayakovski)

Bu masanı kommunxozdan çiyinlərinə alıb gətirmişdilər (N.Ostrovski); *İstəyir ki, ağzımı zavkom çəkib bağlasın* (V.Mayakovski); *Zavxoz filankəs... sonra vurub gödənə* (V.Mayakovski); *Sovnarxoz əzişdirir, sürünüb gələn möhtəkirləri* (V.Mayakovski); *Köhnə çarığı lakla əvəz edib duranlar, ey, proletkultçular!* (V. Mayakovski); *İspolkomda işlərdim sədr vəzifəsində* (S. Yesenin); *Məruzələr eləsin, Şaxtadan, soyuqdan qorxmaz heç zaman, Qumdan gedib isti pal-paltar alan* (V. Mayakovski); *Çeka öz mövqeyindən enib gəlmişdir bura* (V.Mayakovski).

Bu misallardakı *Mospoliqraf, kommunxoz, zavkom, zavxoz, sovnarxoz, proletkult, ispolkom, QUM, çeka* kimi qısaltmaların hamısını Azərbaycan dilindəki ekvivalentlə vermək mümkündür. Lakin bu halda orijinala məxsus kolorit pozulardı.

Qısaltmaların bir qismi bədii ədəbiyyatda okkazional şəkildə işlədilir. Buna uyğun olaraq tərcümədə də onların okkazional şəkildə işlədilməsi öz əksini tapır. Tərcümə dilində okkazional qısaltmaların bu və ya digər komponentinin qarşılığı verilir. Bu da tərcüməçinin orijinala aid mənanı qabarıq şəkildə əks etdirməsi məqsədindən irəli gəlir. Aşağıdakı kimi misallarda bu xüsusiyyəti müşahidə

etmək olur: – *Qavrik dodaqlarını büzüb: – l ü t k o m özünsən, dedi* (V.Katayev); *Qardaşı x a l k o m a t d a, yeznəsi də vurmaqda* (V.Mayakovski); *Oradadır x a l q k o m s o v u n və MİK-in binaları* (V.Mayakovski).

Misallarda verilən *lütkom, xalqkom, xalqkomsov* sözlərinin birinci komponentləri tərcümə olunmuşdur. Onların okkazional xarakteri tərcümə variantında xüsusilə qabarıq şəkildə öz əksini tapır.

Tərcümə vasitəsilə müxtəlif milli ifadə mədəniyyətləri qarşılaşır, idraki-linqvistik müqayisə gedir. Bu da, nəticə etibarilə, ədəbi dillərin (o cümlədən də Azərbaycan ədəbi dilinin) lüğət tərkibinin inkişaf istiqamətlərindən birini təşkil edir.

* * *

Beləliklə, Azərbaycan ədəbi dili lüğət tərkibinin sovet dövründə zənginləşməsi, əslində, müxtəlif aspektləri olan mürəkkəb hadisədir – başlıca qənaət bundan ibarətdir ki, zənginləşmə prosesi milli dilin daxili potensiyasına əsaslanır, başqa dillərin təsiri də daxili imkanlarla idarə olunur, ona tabe olur.

ƏLAVƏ

CƏNUBİ AZƏRBAYCANDA ƏDƏBİ DİLİN LÜĞƏT TƏRKİBİNİN ÜMUMİ MƏNZƏRƏSİ

Cənubi Azərbaycanda ədəbi dilin funksional xüsusiyyətləri son illərdə Şimaldakı ilə müqayisəli şəkildə tədqiq edilməkdədir – T.Hacıyevin, N.Cəfərovun araşdırmalarını misal göstərmək olar[1], lakin demək lazımdır ki, bu sahədə işlər hələ təzəcə başlayır; bir sıra nəzəri və praktik məsələlərin həlli üçün Şimaldan və Cənubdan olan dilçilərin qüvvələrini birləşdirmək lazım gəlir.

Cənubi Azərbaycanda ədəbi dilin lüğət tərkibinin mənzərəsini, hər şeydən əvvəl, ədəbi dilin özünün düşmüş olduğu mədəni-ictimai mühit müəyyən edir; 50-ci illərdən başlayaraq ədəbi dil Cənubda əsasən etnoqrafik dayaqlar üzərində tədricən yüksəlir (məsələn, deyək ki, mərhum şair Şəhriyarın «Heydərbabaya salam»ı meydana çıxır), ona görə də lüğət tərkibi ümumilikdə etnoqrafik məzmunlu leksik vahidlərlə zəngin olur:

Qarı nənə gecə nağıl deyəndə,
Külək qalxıb qap-bacanı döyəndə,

[1] Т.И.Гаджиев. Отношение историческом диалектологии к диалектам в условиях дифференцированного языка. – Вопросы диалектологии и истории языка, Душанбе, изд. «Дониш», 1984, стр. 246-249; N.Cəfərov. Cənubi Azərbaycanda ədəbi dil (normalar). «Azərbaycan müəllimi» qəz., 23 noyabr 1988-ci il; yenə onun. Cənubi Azərbaycanda ədəbi dil (üslublar). «Ulduz» jur., 1989, № 1, səh. 86-91; həmçinin bax: N.Xudiyev. Cənubi Azərbaycanda ədəbi dilin lüğət tərkibi. «Azərbaycan müəllimi» qəz., 14 dekabr, 1988-ci il.

Qurd keçinin Şəngülüsün yeyəndə
Mən qayıdıb bir də uşaq olaydım,
Bir gül açıb ondan sonra solaydım.
(Şəhriyar)

Göründüyü kimi, *Qarı nənə, nağıl, qap-baca, qurd, keçi* qəbilindən olan anlayışlar bilavasitə etnoqrafik məzmuna malikdir, mətnə daxil olan digər anlayışlar isə əslində ümumi ideyanın təsiri ilə həmin məzmunu qəbul edir. Beləliklə, Cənubda ədəbi dilin lüğət tərkibində koloritli söz və ifadələrin sıxlığı ədəbi-bədii düşüncənin, mədəni təfəkkürün özündən gəlir, yəni təkcə linqvistik hadisə deyil. Ümumiyyətlə, sözlə (sözün mənası ilə) mədəni-tarixi təfəkkürün strukturu arasında birbaşa səbəb-nəticə əlaqələri vardır – bu əlaqələr obyektiv və subyektiv münasibətlərin bütöv sistemi ilə qaydaya salınır[1]. Azər-baycan ədəbi dilinin Cənub qolu ilə Şimal qolu arasında tarixən yaranmış fərqlər linqvistik fərq olmaqdan daha çox tarixi-mədəni, sosioloji-etnoqrafik («etnoqrafiya» sözünü geniş mənada, ümumən, «milli sosioloji xüsusiyyətlər» mənasında işlədirik) fərqlərdir və şübhəsiz, lüğət tərkibi həmin fərqləri əks etdirməyə dil qatlarının hamısından daha həssasdır.

Lüğət tərkibinin konkret zaman kəsiyindəki mənzərəsini dövrün ictimai şüur səviyyəsi müəyyən edir, çünki leksika ilə ictimai şüur arasındakı münasibət birbaşadır; dilin potensiyasında olan sözlərin seçilməsi də, alınmalara ehtiyac da bu prinsip əsasında müəyyən olunur.

Cənubda ədəbi dilin lüğət tərkibində etnoqrafik (eləcə də məişət) məzmunlu leksik vahidlərin funksionallığı 50-ci

---

[1] *Bax:* У.В.О.Куаин. Слово и объект. – Новое в зарубежной лингвистике, выпуск XVIII (логический анализ естественного языка), М., изд. «Прогресс», 1986, стр. 25-26

illərdən 70-ci illərin sonlarına qədər davam edir – həm də nəzərə alaq ki, bu dövrdə ədəbi dil, demək olar ki, ancaq şeir dilindən ibarətdir; bu da öz növbəsində klassik poetik leksikanın da işləkliyini şərtləndirir:

Genə könlüm quşu bir sevgili cananı sevər,
Baş qoyub çöllərə Məcnun kimi Leylanı sevər.
Hicr oduna yanıram eşqli pərvanə kimi,
Vəslüvin ləzzətini tapmağa hicranı sevər…
(M. Etimad)

Könlüm quşu, sevgili canan, Məcnun, Leyla, hicr odu, pərvanə, vəsl, hicran klassik poetik təfəkkürdən gəlir – bunlar əsrlər boyu ədəbi-bədii dildə işlənmiş söz və ifadələrdir. Digər tərəfdən həmin söz və ifadələr Şimal üçün arxaikdir, ancaq tarixi fakt kimi maraqlıdır, halbuki Cənubda poetik funksionallığa malikdir. Ənənəyə bu qədər yaxınlıq isə ictimai həyatın öz daxili tələbidir[1].

Beləliklə, İran islam inqilabına qədər Cənubda ədəbi dilin leksik normasını etnoqrafik və klassik lüğəvi vahidlərin bolluğu müəyyən edir; lüğət tərkibinin inkişaf tarixi etnoqrafik leksika ilə klassik nitq leksikasını qarşı-qarşıya qoysa da (T.Hacıyevin tədqiqatlarını xatırlayın[2]), konkret dövrdə, yəni 50-ci illərdən etibarən Cənubda bunların birləşdiyini görürük: bizim fikrimizcə, etnoqrafik leksika ilə klassik nitq leksikasının dialektik əlaqəsini cəmiyyətin

[1] Bu barədə bax: И.Джафарпур. Пути развития демократической поэзии Южного Азербайджана (1941-1960 гг.), Баку, АКД, 1967, стр. 17; C. Xəndan. Uğur yolu (Cənubi Azərbaycan ədəbiyyat, mətbuat, maarif, incəsənət. Azərbaycan ədəbiyyatında cənub mövzusu), Bakı, Azərnəşr, 1987, səh. 180-181.

[2] Bax: T.Hacıyev. Azərbaycan ədəbi dili tarixi, Bakı, ADU nəşri, 1976, səh. 55-56.

özünün düşmüş olduğu şərait hazırlayır… Xalq milli mənəviyyatını (onun əsas realizə forması olan dilini) yaşatmaq üçün birinci növbədə tarixinə baş vurur; tarix isə etnoqrafik müəyyənlik ilə klassik norma müəyyənliyini birlikdə təqdim edir. Ona görə də Cənubi Azərbaycanda 50-ci illərdən başlayan milli oyanmanın yeni dalğası dildə də bu iki cəhəti ardıcıl olaraq faktlaşdırır – yəni söhbət elə bir prosesdən gedir ki, bunun universal ictimai-milli məzmunu var, nitq də həmin universallığa daxildir.

İran İslam inqilabı Cənubda ədəbi dilin inkişafına güclü təsir göstərdi. 70-ci illərin sonu, 80-ci illərin əvvəllərində kifayət qədər kitab, jurnal və qəzetlər nəşr edildi. Ədəbi dilə inqilabi anlayışlar gəldi. Əslində, ədəbi dilin bu illərdəki lüğət tərkibi 40-cı illərin ortalarındakı vəziyyəti yada salır; o zaman da dil inqilabi surətlə inkişaf edirdi. Lakin nə 40-cı illərin ortalarında, nə də 70-ci illərin sonu, 80-ci illərin əvvəllərində Cənubda ədəbi dilin lüğət tərkibi üçün xarakterik olan etnoqrafik və klassik nitq leksikasının işləkliyi aradan qalxmır; məsələn:

«Sizə aydın degki məcəllə çıxarmax bu dövranda nə qədər çətin və ağırdı. Lakin biz bu çətinliği ana dilimizin inkişafı eşqində təhlil edib və bu milli yüki boyumuza almışıq.

Əlbəttə, bu yolda bizi mütərəqqi insanlar hələ öz çıxarına qədər 50-dən 200 tümənə qədər köməklik edirlər. Biz bu ayıq və aydın fikirlərimizə eşq olsun söyləyib bütün oxucularımızdan hər cəhətdən köməklik arzulayırıq. Necə ki, bilirsiniz, bu məcəllə Aqayi Naseh Natiqin zidd-Azərbaycani kitabı «Zəbani-Azərbaycan və vəhdəti-milli İran» deyil ki, vəqfi pullarınan çıxsın…» («Dədə Qorqud» məcəlləsi, № 3, səh. 1).

«Cəllad Pəhləvi rejimi bir quduz it kimi hər nə ki,

onun kəsif fars şovinisti siyasətinə qarşı gəlirdi, qapıp aradan aparırdı. Bu iki köpək-cocuq ingilis-Əmrkayi quduz itlər hər bir şeydən çox Azərbaycan xəlqinnən və onun şirin ana dilinnən qorxurdu…» («Koroğlu» məcəlləsi, № 1, səh. 3).

İnqilab gedişində ədəbi dilin ictimai məzmunu artır; buna uyğun olaraq lüğət tərkibi də zənginləşir, dilə ictimai-siyasi leksika gəlir, lakin etnoqrafik və klassik nitq leksikası işləkliyini itirmir, – çünki inqilabın özü məhz etnoqrafik və klassik təfəkkür fonunda yetişir.

Keçdi gecə, gün çatdadı, birdən ana yurdu
Xalq ilə gəlib göz qabağında səfə durdu.
Hamı qol açırlar, məni səslirlər ki, gəl, gəl!
Gəl dərdini söylə bizə, qürbət səni yordu,
Rəsmi dilimiz, düzdü ki, farsidi, gözəldi,
Amma nə gözəldi ana dili, ana yurdu!
Allah biliri mən ki, nə seyr etdimü gördüm,
Gördüm öz əlimlə ürəyimi iki böldüm.
(H. Ş. Rəhgüzər)

Gecə, gün (gün çatdadı), qürbət və s. leksik obrazlar klassik nitq təfəkkürünün məhsuludur, lakin inqilabi oyanış həmin leksik obrazlara yeni məzmun verir: *gecə* – şah rejimi, gün*ün çatdaması* – inqilabi hərəkatın qələbəsi, *qürbət* – siyasi mühacirətdir; məsələ burasındadır ki, yeni məzmun sözə klassik məntiqlə verilir və bu cəhət Cənubda lüğət tərkibinin leksik-semantik inkişafının əsas göstəricilərindən biridir.

Gecə-gündüz, isti-soyuq, yay-qış daim çevrilir,
Zaman dönər, dövran keçər, eldən ancaq dil qalar.
Cərəs səsi qəfildən cumar dərin sükuta,

Karvandansa düşərgədə xamuş olan kül qalar.
(Q. Məcdfər)

Sözə klassik münasibətin inqilabi təfəkkürə xidmət etməsi bu mətndə özünü aydın şəkildə göstərir; *gecə-gündüz, soyuq-isti, qış-yay* qarşılaşdırmaları *zaman-dövran-karvan* poetik sinonimliyi ilə estetik əlaqədə təqdim olunur: *kül* daha güclü leksik obrazdır – «nəticə» deməkdir. «Cərəs səsi» – inqilabın səsidir, «dərin sükut» – əzilən xalqın mənəviyyatıdır... Göründüyü kimi, mətn ancaq sözün sözə klassik «estetik münasibəti üzərində qurulmuşdur[1].

İnqilabdan sonra şifahi xalq ədəbiyyatının dili üçün xarakter olan leksika da canlanır; Cənub şairlərinin dilindən gətirdiyimiz nümunələr bunu təsdiq edir:

Xalq üz qoydu üsyana,
Zülmün evi daşlandı.
Şahın köhnə pambığı
Bir ildə hallaclandı.
Bütün İran bir oldu.
İnqilablar başlandı.
Şah qağa qaçdı getdi,
Dağları aşdı getdi.
Didərgin düşdü getdi,
Dərbədər oldu getdi...
(B. Elçin)

[1] Söz – dil üçün bir faktdırsa, ədəbiyyat (ədəbi-bədii) təfəkkür üçün başqa faktdır; «Ədəbiyyatın dili konnotativdir, yəni çoxmənalıdır və çoxlu assosiasiyalar doğurmaq gücünə malikdir» (Ц.Тодоров. Понитие литературы. — Семиотика, М., изд, «Радуга», 1983, стр. 832); Cənubda ədəbi dilin lüğət tərkibi, əsasən, ədəbi-bədii dilin ixtiyarında olduğu üçün (və əlavə edək ki, publisistika da burada çox zaman bədii publisistika kimi çıxış edir) sözə semiotik münasibətin həmin tipi fəaldır.

Daşlanmaq (müq. et: *daşı atılmaq), hallaclanmaq:* düzəltmə sözləri folklor söz yaradıcılığı prinsipi ilə, yəni leksik vahidin etnoqrafik-poetik cilası tökülmədən yaradılmışdır; həm də bu sözlər frazeoloji əhatədə verilmişdir: *zülmün evi daşlanmaq, köhnə pambığı hallaclanmaq,* – göründüyü kimi, həmin frazeoloji birləşmələr də ciddi şəkildə folklor (yaxud danışıq dili) semantikasına uyğundur.

Bir olmaq, şah qağa tipli ifadələr danışıq ifadələridir, – bu cür əslində poetik məqamda işlənmə təcrübəsi az olan vahidlərin səxavətlə şeir dilinə gətirilməsi Cənub üçün təbii haldır. *Dağları aşdı, getdi* – nağıl ifadəsidir, metaforik məzmuna malikdir; burada isə satirik məna qazanır və *didərgin düşdü, dərbədər oldu* ifadələrindəki satirik tonla uyğunlaşır. Deməli, leksik (yaxud frazeoloji) vahid. Cənub şeirinin dilində folklordan gəldiyi keyfiyyətdə reallaşdığı kimi, aktuallaşdırılaraq da işlənir, – bu, şübhəsiz, sözə, onun leksik-semantik və poetik məzmununa funksional (ictimai varlığın tələbi ilə) yanaşılması ilə əlaqədardır.

Ayıl, günəş, ayıl, günəş,
Ölkəmizə yayıl, günəş!..
Çıx dərələr qucağından,
Od götürək ocağından,
Zər saçları yay üzünə,
Həsrət qalsın ay üzünə.
Zülmət bağrın oya-oya,
Çıx üfüqü qana boya…
(M. Şami)

Bu mətndə isə lüğət tərkibi xalq nəğmələrinin leksikasına uyğundur; *ayıl, yayıl, yay, boya* tipli vahidlərdir – onlar əsrlər boyu folklor dilində işlənilmişdir. *Üfüqü qana*

boyamaq metaforası da söz; həssaslığı, ümumən, Cənub şeirinin leksik poetikası barədə məlumat verir; məlum olur ki, burada sözə tarixi münasibət əsasən dəyişmir – priyomlar, ifadə üsulları müəyyən dəyişmələrlə (başqa sözlə, deformasiya olunmaqla) bir qayda olaraq mühafizə edilir. Şübhəsiz, «dilin inkişafının bütün dövrlərində» lüğət tərkibinin vahidi kimi söz ayrıca şəkildə deyil, ümumi leksik-semantik sistemin mikroelementi kimi fəaliyyət göstərir, onun semantik təkamülünü sintaqmatik münasibətdə olduğu vahidlər, işlənmə şəraiti və tezliyi müəyyənləşdirir»[1] – məsələyə bu nöqtədən yanaşdıqda, Cənubda ədəbi dilin lüğət tərkibində folklordan, yaxud birbaşa məişət ünsiyyətindən gələn etnoqrafik-məişət leksikası leksik-semantik sistemdəki mürəkkəb sintaqmatik, eyni zamanda assosiativ münasibətin ifadəsidir, yəni tarixən dil təfəkkürünün özündə müəyyənləşmiş hadisədir.

Dillən, sazım, dillən, sazım!
Misri səslə elim coşsun.
Qızılüzən aşıb-daşsın,
Savalana mahnı qoşsun.
El şairi Məftun oğlu,
Kəlmələr od-alovlu…
(B. Zəmani)

Yuxarıda M.Şaminin şeirindən verdiyimiz parçada da müraciət B. Zəmaninin şeirindəki kimi idi; müqayisə edək: *Ayıl, günəş, ayıl, günəş – Dillən, sazım, dillən, sazım…* Əslində, bu sintaktik analogiyadır; lakin sözün sintaqmatik yeri baxımından həm də leksik-semantik analogiyadır – heç olmasa ona görə ki, *ayılmaq* ilə *dillənmək* arasında

[1] İ.Məmmədov. Azərbaycan dili semasiologiyasına giriş, Bakı, ADU nəşri, 1988, səh. 68.

«inqilabi hərəkat» məzmununda xəfif, eyni zamanda sistemli məna rabitəsi vardır. *Coşmaq, aşıb-daşmaq, mahnı qoşmaq* söz və ifadələri də həmin *ayılmaq* və *dillənmək* məzmunundadır.

Cənubi Azərbaycanda şifahi xalq ədəbiyyatı on illər boyu milli ədəbi-bədii təfəkkürün əsas ifadə forması olmuşdur; şübhəsiz, bu, ədəbi dilin sonrakı taleyinə təsirsiz qalmır, inqilabın qələbəsindən sonra meydana çıxan mətbuatın dili də göstərir ki, folklor (eləcə də danışıq) leksikası yazılı dilə nə qədər güclü axınla gəlmişdir.

Azərbaycan ədəbi dilinin lüğət tərkibi Şimalda rus dilinin, Cənubda fars dilinin təsirinə məruz qalır; demək lazımdır ki, hər iki dil – həm rus, həm də fars dilləri analitik quruluşlu dillər olduğundan onların təsiri nəticəsində Azərbaycan dilində də analitizm hiss ediləcək qədər qüvvətlidir… Şimalda rus dilinin təsiri daha çox elmi üslub vasitəsilə həyata keçirildiyi halda, Cənubda üslub diferensiallığının zəifliyi ilə əlaqədar olaraq, ümumiyyətlə, nitq təzahürünün bütün formalarına fars dilinin təsiri özünü göstərməkdədir. Lakin bu təsirdə bir stixiyalılıq da var, adətən, fars sözü, yaxud ifadəsi işləndiyi mətnin leksik tərkibinə uyuşmur, təsadüfi, daha doğrusu, situativ səciyyə daşıyır, məsələn: «Təbrizdə bu günlər taksiçilər bir şanlı – gözəl *ebtekara* əl qoyublar. Bu *ebtekara* görə taksiçilər dalı şüşədə şüarlar – adlar Azərbaycan dilində yazırlar» («Koroğlu» məcəlləsi, № 1).

Ebtekar («təşəbbüs» deməkdir) sözü burada perspektivsiz sözdür və şübhəsiz, leksik-semantik sistemin üzvi tərkib hissəsinə çevrilə bilməz; bəs necə olur ki, Cənubda ədəbi dilin lüğət tərkibi bu cür müxtəlif təmayülləri əks etdirir? Görünür, bunun səbəbini, yuxarıda qeyd etdiyimiz kimi, ədəbi dilin düşdüyü mədəni-ictimai mühitdə

axtarmaq lazımdır: hadisələrin, ictimai ovqatın sürətlə bir-birini əvəz etməsi, bir sinxron mərhələdə müxtəlif dünyagörüşlərin təmsil olunması müxtəlif nitq təzahürlərini faktlaşdırır (yada salaq ki, Şimali Azərbaycanda da, xüsusilə 20-ci illərdə lüğət tərkibi belə bir vəziyyətdə olmuşdu – bu da mədəni-ictimai mühitlə bağlı idi…).

Doktor Həmid Nitqi öz kitabını iki adla – «Yazı qaydaları (imla qılavuzu)» adlandırır və bunlardan birincisinə haqlı olaraq üstünlük verir; *imlaya yox, yazıya, qılavuza yox, qaydaya* üstünlük verilməsi, əslində, Şimalda yarım əsr bundan qabaq getmiş prosesi xatırladır. Bu və buna bənzər faktlar göstərir ki, Cənubi Azərbaycanda ədəbi dilin lüğət tərkibi Şimaldakından fərqli norma variantı yaratmır, bəlkə, müəyyən gecikmələrlə ümumi normanın arxasınca gəlir (onu təqlid edir), onu da əlavə edək ki, qeyd olunan hal ümumən ədəbi dillərin tarixində nadir hadisədir.

Cənubi Azərbaycanda ədəbi dilin lüğət tərkibi üçün səciyyəvi olan leksik paralellik (əsasən, türk-fars, bəzən də türk-fars-Avropa paralelliyi) universal əlamətdir; həm fonetik, həm leksik, həm də qrammatik normaya aiddir…

N.Cəfərov qeyd edir ki, «Şimalda arxaizm faktı kimi qəbul olunan sözlərin Cənubda bəzən çevikliyi diqqəti cəlb edir», bundan sonra isə müəllif *yax, paxır, tiri-cəfa* sözlərini misal göstərir[1]. Əlbəttə, buraya daha bir sıra nümunələri əlavə etmək mümkündür: *yağmalanmaq* – Onla *yağmalandım,* onlarla talandım (Araz); *qovzanmaq* – Füzulitək göyə *qovzandı* ahım (F.Hasarlı); *arxadaş* – Duyuram birbəbir *arxadaşları* (F.Hasarlı); *rəğmən* – Buna *rəğmən hərgiz* bükülmədi belimiz (H.Nitqi) və s. Lakin sual olunur: bu cür arxaik leksik vahidlərin çevikliyinə səbəb nədir?

[1] N. Cəfərov. Cənubi Azərbaycanda ədəbi dil (normalar). – «Azərbaycan müəllimi» qəz., 29 noyabr 1988-ci il.

Bizim fikrimizcə, bunun bir neçə səbəbi vardır:

1) Şimaldan fərqli olaraq, Cənubda köhnə ictimai quruluşun, münasibətlər sisteminin qalması və buna uyğun olan anlayışların yaşaması: məsələn, *rəncbər, ərbab, şah, nökər* və s.

2) Şimaldan fərqli olaraq Cənubda ənənəvi estetik mədəniyyətin, etnoqrafik təfəkkürün daha davamlı şəkildə mühafizə edilməsi nəticəsində buna uyğun olan anlayışların yaşaması; məsələn: *o abi-həyat cənnəti-məva, guşeyi-viranə, nəsib (olmaq), kəbə, yar* və s. (H.Ş.Rəhgüzərin bir şeirindən alınmış bu anlayışlar klassik estetik təfəkkürün məhsuludur. Həmin estetika Cənubda bu gün də yaşayır).

3) Nəhayət, Cənubda ədəbi dilin lüğət tərkibindəki artımın (zənginləşmənin) Şərq kontekstində getməsi; bu, o deməkdir ki, Cənubi Azərbaycanda mədəni-elmi təfəkkür Avropa standartlarını ləng qəbul edir, daha doğrusu, bu standartları milliləşdirəcək (yaxud mənimsəyəcək) mədəni-ictimai şərait yoxdur.

İran İslam inqilabından sonra Cənubda ədəbi dil, prinsip etibarilə, stixiyalı surətdə inkişaf edir, halbuki Şimalda lüğət tərkibinin inkişafındakı stixiyalılıq, demək olar ki, aradan qaldırılmışdır; leksik norma, heç şübhəsiz, təbii şəkildə yaranır, lakin bu prosesin linqvistik nəzarət altında olması vacib şərtdir. Cənubda isə belə bir nəzarətin həyata keçirilməsinə 70-ci illərin sonu, 80-ci illərin əvvəllərində imkan yox idi… Hazırda isə mövcud material əsasında müəyyən ümumiləşdirmələr aparmağa ehtiyac duyulur (bu sahədə bəzi işlər artıq görülmüşdür; məsələn, M. Peyfunun lüğətini qeyd etmək olar[1])…

20-ci illərdən bu günə qədər Cənubi Azərbaycanda ədəbi dilin lüğət tərkibi iki inkişaf mərhələsindən

[1] M. Peyfun. Azərbaycanca-farsca lüğət, Tehran, nəşre-daneşpaye, 1983.

keçmişdir: 1) 20-ci illərin əvvəllərindən 40-cı illərin sonlarına qədər və 2) 50-ci illərin əvvəllərindən 80-ci illərin sonlarına qədər. Ədəbi dilin lüğət tərkibinin Cənubdakı inkişaf mərhələlərinin formal baxımdan Şimaldakı inkişaf mərhələlərinə uyğun olmasına baxmayaraq, inkişafın xarakteri başqa-başqadır; belə ki, Cənubda ədəbi dilin lüğət tərkibi 20-ci, 30-cu, eləcə də 50-ci, 60-cı illərdə qeyri-intensiv inkişaf etdiyi halda, 40-cı illərin ortalarında və 70-ci illərin sonu, 80-ci illərin əvvəllərində inqilabi sürətlə inkişaf edir. Əslində, inkişaf qeyri-intensiv və intensiv getdiyi illərdə leksik normalar bir-biri ilə tipoloji oxşarlığa malikdir ki, bu da müəyyən müqayisələr aparmağa imkan verir; istər 40-cı illərin ortalarında, istərsə də buna müvafiq olaraq 70-ci illərin sonu, 80-ci illərin əvvəllərində Cənubda ədəbi dilin lüğət tərkibi əvvəlki bir neçə onillikdə görünməmiş demokratizmə malik olur, inkişaf partlayışla gedir.

Beləliklə, Cənubi Azərbaycanda da ədəbi dilin lüğət tərkibinin inkişafı Şimalda olduğu kimi müəyyən qanunauyğunluqlara tabedir; eyni zamanda daha dərin qatlarda yerləşən elə qanunauyğunluqlar da var ki, həm Şimalda, həm də Cənubda lüğət tərkibinin inkişafını vahid hadisə kimi idarə edir, …əgər belə olmasa idi, Cənubda inkişafın partlayışlarla getməsi mümkün olmazdı; məsələ burasındadır ki, milli dirçəlişin vüsət aldığı məqamlarda Şimalla Cənub leksik normanın inkişafı baxımından mümkün qədər bir-birinə yaxınlaşır, maksimum yaxınl-aşmaya isə linqvistik deyil, ekstralinqvistik amillər mane olur.

* * *

F. de Sössür göstərir ki, «…dilin qeyri-sabitliyi ancaq zamanın hərəkəti ilə müəyyən olunur. Beləliklə, coğrafi

müxtəliflik ümumi hadisənin ancaq ikinci aspekti kimi qarşıda dayanır»[1].

Cənubla Şimal arasında lüğət tərkibi – leksik norma baxımından fərqlərin yaranması, prinsip etibarilə son dövrlərə aiddir – sosialist inqilabının qələbəsindən sonra Şimalda ictimai şüura əsaslı şəkildə təsir edən dil quruculuğu prosesi getdi; bunun da mühüm vəzifələrindən biri, məlum olduğu kimi, terminologiya məsələsi idi. Terminologiya məsələlərinin müzakirəsi, rus-Avropa dillərindən gələn terminologiyanın qəbulu, milli dilin daxili potensiyası əsasında termin yaradıcılığı prosesləri elə bir münasibət formalaşdırdı ki, bu, dərhal Şimalda funksional olan ədəbi dilin lüğət tərkibində təbəddülat yaratdı. Tərcümə işinin genişlənməsi (xüsusən Avropa yönümü üzrə) də lüğət tərkibinin keyfiyyətinə təsir etdi. Halbuki Cənubda Azərbaycan dilinin amansızcasına sıxışdırılması onu məişət, bir də az-çox poeziya dili səviyyəsində saxladı. Düzdür, 1944-1946-cı illərdə – inqilab illərində bir sıra tədbirlərin həyata keçirilməsi ilə əlaqədar olaraq ədəbi dilin canlanması müşahidə edilir, lakin bu da uzun sürmədi; Şimalla Cənub arasındakı söz-termin mübadiləsi (əlbəttə, ədəbi dil norması səviyyəsindən) davamlı olmadı. Həm də təkcə ona görə yox ki, vaxt az idi, həm də ona görə ki, Cənubla Şimal arasında artıq ictimai-mənəvi (və mədəni) fərqlər nəinki yaranmış, eyni zamanda dərinləşmişdi. Lüğət tərkibi isə bu münasibətləri bir sistem halında əks etdirməyə bilməzdi və həqiqətən əks etdirirdi.

M.C.Cəfərov çox doğru olaraq göstərir ki, Azərbaycan ədəbi dilinin «son 60 ildə, sosializm quruluşu şəraitində xeyli təkmilləşdiyi, daxili söz yaradıcılığı

[1] Ф. де Сессюр. Труды по языкознанию. М., изд. «Прогресс», 1977, стр. 235.

imkanlarının artdığı və lüğət tərkibinin keçmişilə müqayisə edilə bilməyəcək ölçüdə zənginləşdiyi də artıq hər kəsə məlum olan bir həqiqətdir»[1], halbuki həmin zənginləşmə prosesi bu intensivlikdə Cənubda getməmişdir; təsadüfi deyil ki, Cənubda leksik normada pərakəndəlik hələ də güclüdür, bir tərəfdən ərəb, fars, bir tərəfdən Avropa, bir tərəfdən də ana dili sözü bəzən paralel işlənir. Bu isə, heç şübhəsiz, yazılı dil təcrübəsinin son illərədək az qala itirilməsi ilə bağlı olmuşdur.

Şimalla Cənub arasında ədəbi dilin lüğət tərkibindəki fərq funksional üslublara münasibətdə daha aydın görünür; tədqiqat göstərir ki, Cənubda inqilabi hərəkat dövründə – İran İslam inqilabından sonrakı ilk illərdə əsasən üç üslub mövcud olmuşdur; bədii üslub, publisist üslub, elmi üslub[2].

Bədii üslubda, qeyd etdiyimiz kimi, arxaik-etnoqrafik, arxaik-klassik leksika, danışıq leksikası kifayət qədər fəaldır. Şimalda xüsusilə 60-cı illərdən sonra ədəbi-bədii dildə folklora meyilin artması Cənubla müəyyən uyğunluq yaranmasına imkan verdi, lakin bu uyğunluq; heç şübhəsiz, çox da böyük sahəni əhatə etmirdi. Cənub şeirinin dilində ərəb, fars sözləri hətta milli dirçəliş – inqilab dövründə də (İslam inqilabı nəzərdə tutulur) Şimaldakına nisbətən çox işlənir; *qəvvas, rövnəqli, dərbar, təhəmmül* (Y.Şeyda); *istibdad, istemar, ərş, dəstur, nabud* (olmaq), *iqdam* (M. Dirəsrin) və s. ərəb, fars sözləri Şimalda şeir dili üçün, demək olar ki, yaddır.

Cənubda bədii üslubun (ədəbi-bədii dilin) lüğət tərkibinə, sözün normativ və estetik funksiyasına inqilabi

---

[1] M.C.Cəfərov. Azərbaycan dilində yeni söz və söz birləşmələri yaradılması problemləri. – Nitq mədəniyyəti məsələləri, Bakı, «Elm» nəş., 1988, səh. 5.
[2] N.Cəfərov. Cənubi Azərbaycanda ədəbi dil (üslublar), «Ulduz» jur., 1989, № 1, səh. 86.

düşüncə təsir edir; «İnqilabın doğurduğu əhvali-ruhiyyə bədii dilə publisist aydınlıq gətirir, haradasa obrazlılıq səviyyəsini aşağı salır; şeirini yazan-deyən bir qayda olaraq nə deyəcəyini düşünür, necə deyəcəyinə o qədər də fikir vermir…»[1]. Sözün bədii üslubda da publisistik konkretliklə verilməsi dövrün tələbi idi; inqilabi fikir poetik ifadə dumanında itməməli, mürəkkəbləşməməli idi.

Publisistik üslubun leksikası bədii üslubun leksikasına nisbətən daha müasir tipli olmuşdur; Əlbəttə, inqilabi hərəkat demokratik ruhu qanadlandırmışdı, ictimai təfəkkürə müasir məzmunlu anlayışlar gəlmişdi[2]. «Koroğlu», «Dədə Qorqud», «Çənlibel», «Odlar yurdu», «Yoldaş», «Araz», «Birlik», «Varlıq» kimi mətbuat orqanlarına da döyüşkən üslub özünəməxsus söz potensiyasını yetirdi. Əlbəttə, publisistik yazıların dilində ən normativ leksikadan tutmuş loru leksikaya qədər hər cür rəngarəng cəmiyyətin müxtəlif təbəqələrinin dili əksini tapır.

«Koroğlu» məcmuəsinin baş məqaləsindən aşağıdakı sətirlərin lüğət tərkibinə baxaq:

«Koroğlu» məcəlləsi öz birinci nüsxəsinin nəşr olmasına görə qanlı və nə şanlı bəhmənin inqilabını bütün vətəndaşlara alqış deyir. «Koroğlu» məcəlləsinin yazıçılar heyəti olan azadlıqlardan istifadə eliyərək çalışacaq ki:

1) İmperializmə qarşı tutmağınan onu hər libas və hər şəkildə olduğunu görsədib və ifşa eləsin.

2) İstibdadı və onun üzünə rəngbərəng don geyməsini görsədib və xəlqi başa salmağınan istibdadın bir başqa şəkildə qayıtmasının qabağın alsın…» («Koroğlu» məc., № 6, səh. 1).

---

[1] N.Cəfərov. Cənubi Azərbaycanda ədəbi dil (üslublar), «Ulduz» jur., 1989, № 1, səh. 89.

[2] Mirzə İbrahimov. Cənub sovqatı, «Azərbaycan» jur 1981, №5.

Vətəndaş, azadlıq, imperializm, istibdad, xəlq və s. ictimai-siyasi məzmunlu leksika mətnin funksiyasını müəyyən edir. Bu anlayışlar oyanmış ictimai şüurun faktıdır və ümumiyyətlə, 1979-cu il fevral inqilabından sonra bu cür leksik vahidlərin publisistik dildə sıx-sıx işlədilməsi diqqəti cəlb edir. Eyni zamanda həmin qəbildən olan sözlər ədəbi-bədii, hətta elmi üslubda da özünü göstərir, yəni universal hadisədir.

Elmi üslubda terminologiya əsasən ənənəvidir – ərəb, fars mənşəli terminlərdən istifadə olunur, bir sıra hallarda isə Avropa terminologiyasına müraciət edilir; prinsip etibarilə, elmi üslubun imkanlarının aşağı olması terminoloji leksikanın funksionallığına mənfi təsir göstərir. Şübhəsiz, Cənubda elmi üslubun inkişafı kimi terminoloji sistemin inkişafı da Şimaldakı təcrübəyə əsaslandıqda perspektivlidir. Termin paralelliyi də məhz bu yolla aradan qaldırıla bilər.

Cənubda ədəbi dilin inkişafı qarşısına çıxan ekstralinqvistik maneələr hazırda lüğət tərkibinin zənginləşməsinə imkan vermir, – Cənub bu baxımdan Şimalla müqayisə olunmur; kitab, jurnal, qəzet çapının maksimum məhdudlaşması (yaxud ümumən qadağan olunması) məişətdə işlənən sözlərin ədəbi dilə gətirilməsi prosesini dayandırmışdır. Halbuki burada xalq dilinin böyük ifadə potensiyası aşkarlanmamış qalır. Düzdür, Cənubdan olan söz ustalarının (B.Azəroğlunun, M.Gülgünün, Ə.Tudənin, H.Billurinin, S.Tahirin və b.) dilində indinin özündə də bir sıra koloritli söz və ifadələr işlənir, lakin bu həmin lüğət potensiyasının bütünlüklə istifadəsi deyil – Şimalda geniş funksionallığa malik ədəbi dilin lüğət tərkibi Cənubun xalq dili xəzinəsindən hələ ki, lazımi qaydada faydalanmır.

Şimalla Cənub arasında Azərbaycan ədəbi dili lüğət

tərkibinin sinxron müqayisəsi göstərir ki, mövcud fərq tarixi-funksional fərqdir; leksik-semantik sistemin daxili tələbindən yox, tarixi inkişaf ərzində ana dilinin mədəni-tarixi, ictimai-siyasi funksionallıq səviyyələrinin müxtəlif-liyindən irəli gəlir.

* * *

Şimali Azərbaycanda ədəbi dilin lüğət tərkibinin sovet dövründəki inkişafı; Cənubdakı leksik proseslərdən təcrid olunmur; istər 20-ci, istər 40-cı, istərsə də 70-ci illə-rin sonu, 80-ci illərin əvvəllərində ədəbi dil səviyyəsindəki əlaqələr, şübhəsiz, lüğət tərkibini – leksik normanı da əhatə edir. Deməli, ədəbi dilin lüğət tərkibinin Şimal və Cənubdakı təzahür formaları tarixi-funksional fərqlərə baxmayaraq, vahid orqanizm kimi mövcuddur.

NƏTİCƏ

Sovet dövründə Azərbaycan ədəbi dilinin inkişafı həm əsrlər boyu davam edən təbii axını ilə gedir, həm də ictimai-mədəni təsirləri özündə daha intensiv şəkildə əks etdirir, ona görə də geniş kontekstdə götürdükdə ədəbi dil normasının tarixi sabitliyi qalır, məhdud kontekstdə isə normanın müəyyən inkişaf dövrləri keçirdiyi görünür; bizim fikrimizcə, ədəbi dilin normasını keyfiyyətcə həmin sabitliklə həmin inkişaf arasındakı dialektik münasibət xarakterizə edir. Əlbəttə, ədəbi dilin nisbi sabitlik göstəriciləri də, inkişaf sürəti də lüğət tərkibində daha parlaq şəkildə ifadə olunur.

Azərbaycan ədəbi dilinin lüğət tərkibi demək olar ki, tədricən inkişaf edir; müəyyən vaxtlarda türk, yaxud rus dili sözlərinə üstünlük verilib sonradan onlardan əl çəkilməsi isə inkişafın tədriciliyini pozmur, çünki bu cür təbəddülatlar lüğət tərkibinin daxili ehtiyacından deyil, mədəni-ictimai mühitin özündə subyektiv təsirlərin güclənməsindən irəli gəlir – ədəbi dilin təbii sabitliyi əvvəl-axır belə ifrat meyilləri üstələyir və əslində, həmin təbii sabitliyin ədəbi dilin (deyək ki, onun lüğət tərkibinin) inkişafını idarə etməsi bununla müəyyən edilir.

Sovet dövründə ədəbi dilin lüğət tərkibinin optimal tədqiqi iki aspektdən təhlilin metodiki üstünlüyünü qəbul etməyə əsas verir; birinci aspekt analitik-sinxron, ikinci aspekt isə sintetik-diaxron səpkilidir. Analitik-sinxron təhlil lüğət tərkibini mərhələlər üzrə, eyni zamanda üslub planına diqqət verməklə araşdırır, bir, yaxud bir neçə onillik hüdudunda lüğət tərkibinin mənzərəsini təsvir edir. Sintetik-diaxron təhlil isə mərhələlər üzrə təsnifdən imtina edir, lüğət tərkibini bütöv keyfiyyət halında araşdırır və əslində

analitik-sinxron təhlili tamamlamış olur.

Azərbaycan ədəbi dilinin lüğət tərkibi sovet dövründə həm normativ-dil, həm də funksional-nitq planında (daha doğrusu, bu planların qarşılıqlı əlaqəsi baxımından) iki mərhələdən keçir:

I. 1920-1940-cı illər;

II. 1940-cı ildən sonrakı dövr.

I mərhələdə norma planı üslub planına, II mərhələdə isə, əksinə, üslub planı norma planına təsir edir, ona görə də 20-ci, 30-cu illərdə ədəbi dilin lüğət tərkibinin normativ mənzərəsi müəyyənləşir, demək olar ki, bütün funksional nitq sahələri eyni leksik proseslərlə xarakterizə olunur, 40-cı, xüsusilə 50-ci illərdə isə artıq ədəbi dilin yeni ictimai-mədəni təfəkkürünü bütün koordinatları ilə ehtiva edən leksik norma mövcuddur. O zaman ki, leksik normanın sabitliyi hələ yoxdur, dilin əsas enerjisi normanın sabitləşməsinə gedir; norma sabitliyi yarandıqca üslubi proseslər güclənir, bundan sonra əsas enerji lüğət tərkibinin üslubi diferensiasiyasına sərf olunur. Normanın dinamikasını funksional-üslubi parçalanmanın dərinləşməsi təmin edir – leksik variantlaşma isə artıq stabil norma mövcud olduğuna görə I mərhələdə əsası qoyulmuş prinsipləri nəinki pozur, əksinə, daha da möhkəmləndirir.

I mərhələdə lüğət tərkibinin inkişafı əslində XX əsrin əvvəllərində aldığı təkanla gedir; inqilabdan sonra da XX əsrin əvvəllərinə məxsus dil-üslub mübahisələri davam edir, mübahisələrin mərkəzində isə, heç şübhəsiz, ədəbi dilin leksik norması məsələsi dayanırdı, eyni zamanda, ictimai-siyasi, mədəni mühit elə idi ki, bu mübahisələr ideoloji xarakter alırdı və məsələ də burasındadır ki, I mərhələdə həmin vəziyyət bu və ya digər şəkildə qalırdı. 20-ci illərdə terminoloji leksikanın hansı mənbələr

hesabına zənginləşmə problemi ortaya çıxanda müxtəlif cəbhələr yaranmışdı, bir-birinə heç cür güzəştə getməyən bu cəbhələr problemi həll etmək üçün adətən ekstra-linqvistik mövqelərdən çıxış edirdilər, dilin daxili tələbi nadir hallarda nəzərə alınırdı.

20-30-cu illərdə ədəbi dilin lüğət tərkibi, struktur-semantik və funksional-stilistik planlarda aparılan müşahidələrin nəticəsi kimi, demək olar ki, normalaşır, normalaşma müxtəlif istiqamətdə axtarışların (xüsusilə dil quruculuğu baxımından axtarışları nəzərdə tuturuq) toplanması, milli əsasda vahidləşməsi hesabına gedir; 20-ci illərdə ərəb-fars mənşəli sözlər ictimai-mədəni təfəkkürdəki çevrilişə müvafiq olaraq məna təbəddülatı keçirir, inqilabın qələbəsi ilə əlaqədar iqtisadi-təsərrüfat, ictimai-siyasi, mədəni-mənəvi sahələrdə ərəb-fars mənşəli terminologiyanın intensiv işləkliyi onu göstərir ki, inqilab tarixən müəyyənləşmiş klassik nitq-ifadə kontekstini bir yana atmır, inqilabi dəyişikliklər həmin kontekstdə, əsasən, məzmunca yenidən qurulma istiqamətində gedir. 20-ci illərdə osmanlı türkcəsi elementlərinin lüğət tərkibindəki funksionallığına gəldikdə isə demək lazımdır ki, bu, XX əsrin əvvəllərinə məxsus ədəbi nitq təzahürlərinin 20-ci illərdə də yaşaması prinsipi ilə bağlıdır – osmanlı türkcəsindən olan sözlərin Azərbaycan dilində ekvivalenti var idi (ərəb-fars mənşəli sözlərdən fərqli olaraq) və bu sözlər bir qayda olaraq ümumişlək vahidlər (əsasən əvəzliklər) idi, ona görə də mövcud ictimai-mədəni təfəkkürün ifadəsi üçün xüsusi əhəmiyyət kəsb etmirdi – ədəbi fakt kimi perspektivsiz idi, ümumxalq dili üçün isə yaramırdı, çünki ümumxalq dilində əsrlər boyu sabitləşmiş müvafiq vahidlər var idi.

İnqilabdan sonra rus-Avropa mənşəli leksikanın

kütləvi artımına, lüğət tərkibində əhəmiyyətli mövqeyə malik olmasına gəldikdə isə burada iki cəhət diqqəti cəlb edir; birincisi, rus-Avropa mənşəli leksika XIX əsrin ortalarından başlayaraq, ümumiyyətlə, texnikanın, mədəniyyətin ifadəçisi kimi ədəbi dildə faktlaşır, ikincisi, inqilabi idrakın təntənəsi (eləcə də onun həyata keçməsi) faktoru kimi yayılır, 20-ci illərdə ikinci cəhət aparıcı idi.

Beləliklə, inqilabdan sonrakı on il ərzində ədəbi dilin lüğət tərkibində rus-Avropa, ərəb-fars, türk (osmanlı) mənşəli leksika əsasən bir funksional əlamətinə görə birləşir; inqilabi təfəkkürə, onun yaratdığı mədəniyyətə xidmət etmək – inqilabi təfəkkürün özündə (daha doğrusu, inqilabın ictimai təfəkkür tərəfindən qəbulunda) müəyyən normativliyin olmaması isə (sinfi mübarizə gedirdi) ümumən ədəbi dilin lüğət tərkibinin mənzərəsinə də təsirsiz qalmırdı; daxili imkanlar hesabına söz artımı da buna uyğun idi, purizm fəaliyyət göstərirdi.

30-cu illərdə inqilabi təfəkkür daha çox ictimailəşir, daha çox kütlənin yaradıcılığını (o cümlədən nitq yaradıcılığını) ehtiva edir, nəticədə: 1) daxili imkanlar hesabına söz-ifadə yaradıcılığı 20-ci illərdəki ilə müqayisəyə gəlməyəcək qədər artır (ərəb-fars mənşəli bir sıra sözlər də burada ehtiva olunur – onlar daha ardıcıl şəkildə yeni ictimai təfəkkürün materialına çevrilir, milli əhatədə mənimsənilir); 2) rus-Avropa mənşəli leksikanın ədəbi dildəki həcmi sürətlə (bir sıra hallarda ifrat dərəcədə) genişlənir; 3) ərəb-fars, eləcə də türk (osmanlı) sözlərinin funksionallığı azalır, perspektivi aradan qalxır. Lüğət tərkibinin 30-cu illərdəki mənzərəsi 20-ci illərdəki mənzərəsindən əslində çox fərqlənir – xeyli miqdarda faktların müqayisəli tədqiqi də bunu göstərir, lakin həmin fərq, hər şeydən əvvəl, kəmiyyət tərəfinə aiddir, keyfiyyətcə isə həm

20-ci, həm də 30-cu illəri vahid tipologiya xarakterizə edir; əlbəttə, tipoloji vahidlik, yekcinslik dialektik məzmunda anlaşılmalıdır, belə ki, 1920-ci 1940-cı illərdə Azərbaycan ədəbi dili lüğət tərkibinin normativ prinsipləri (struktur əsasları) müəyyənləşir və həmin əsaslar sonrakı mərhələdə ancaq funksional istiqamətdə təkamül prosesi keçirir, normativ dəyişmə müşahidə olunmur.

40-cı illərdən etibarən lüğət tərkibində nisbi sabitlik var, həmin keyfiyyət 80-ci illərə qədər qalır, deməli, elə bu sabitlik keyfiyyətinə görə 40-cı illərdən etibarən ədəbi dilin lüğət tərkibinin sovet dövründəki inkişafında II mərhələ başlanır və bizim günlərə qədər davam edir; 30-cu illərin sonuna doğru faktlaşan aşağıdakı əlamətlər II mərhələ üçün xarakterikdir: 1) ədəbi dilin lüğət tərkibinin inkişafında daxili imkanların maksimum aktivliyi; (leksik-semantik artım daha çox ifadə – söz birləşməsi yaradıcılığı hesabına gedir); 2) rus-Avropa alınmalarının ədəbi dilə milli söz yaradıcılığı prinsipləri əsasında qəbul edilməsi (həmin sözlərin işlədilməsindəki hərc-mərclik 50-ci illərdən etibarən aradan qalxır); 3) ərəb-fars mənşəli sözlər həm məzmun, həm də forma planında daxili imkanlar tərəfindən idarə olunur, onun keyfiyyət göstəricisinə çevrilir.

II mərhələdə iki yarımmərhələnin – 1940-1960-cı illər və 1960-1980-ci illərin avtonomluğu diqqəti cəlb edir; 40-cı, 50-ci illərdə I mərhələyə məxsus bəzi əlamətlər qalır, eyni zamanda II mərhələnin tipologiyası aşkarlanır, 60-cı, 70-ci illərdə isə II mərhələ bütün keyfiyyəti ilə özünü təsdiq edir – bu, lüğət tərkibində funksional-stilistik diferensiasiyanın dərinləşməsi ilə əlaqədar olaraq normanın sabitləşməsindən ibarətdir. 40-cı, 50-ci illərdə lüğət tərkibində gedən proseslərin hər bir funksional üslub üçün avtonomluğu meydana gəlir; nəticədə hər bir üslubun öz

kontekstində və ictimai-linqvistik funksiyasına müvafiq olan axtarışlar aparılır – lüğət tərkibinin üslubi diferensiasiyası onun mənzərəsini də müəyyən edir. 60-70-ci illərdə iki mühüm meyil lüğət tərkibinin diferensi-asiyasını gücləndirir: bunlardan birincisi bədii üslubdan başlayıb sonra başqa üslublara yayılan demokratikləşmə (xalq danışıq dilinə, dialektlərə meyiletmə), ikincisi isə ETİ ilə əlaqədar elmi-texniki terminologiyanın axınından ibarətdir. Əslində, bu meyillər bir-birini kompensasiya edir; belə ki, demokratikləşmə prosesi ədəbi dili milli zəminə bağlayır, elmi-texniki terminologiya axını isə onu müasirləşdirir, nəticədə ədəbi dil elmi-mədəni inkişafın müasir tələblərinə cavab verməklə yaşamaq hüququnu təmin edir.

Əlbəttə, sovet dövrü Azərbaycan ədəbi dili lüğət tərkibinin bir keyfiyyət faktı kimi dərk edilməsi iki sinxron mərhələnin tarixi-dialektik münasibəti ilə də təsdiq olunur; normalaşma elə bir linqvistik-qneseoloji prosesdir ki, o həm ilkin normalaşmanı, həm də üslubi diferensiasiyanın sabitləşməsini ehtiva edir, – bu baxımdan, yəni geniş mənada normalaşma prosesi ədəbi dilin lüğət tərkibinin sovet dövründəki inkişafını bütövlükdə xarakterizə etmiş olur. Ona görə də sovet dövrü Azərbaycan ədəbi dili lüğət tərkibi eyni zamanda ikinci aspektdən – bütöv bir tam halında nəzərdən keçirilməklə sintetik-diaxron aspektdən tədqiq edilir; bu cür tədqiqat üçün metodiki baxımdan daha əlverişli sahə lüğət tərkibinin zənginləşməsindən ibarətdir – zənginləşmə lüğət tərkibinin strukturunda baş verən əsas proseslərin diaxron mənzərəsini açır, tarixi-mədəni inkişafın leksik-semantik sistemdə faktlaşma tərzini aşkara çıxarır.

Azərbaycan ədəbi dilinin lüğət tərkibi başlıca olaraq daxili imkanlar hesabına inkişaf edir, bu isə o deməkdir ki,

təbii-tarixi zənginləşmədə dil öz daxili potensiyasına dayanır, eyni zamanda lüğət tərkibinin inkişafına şüurlu-elmi müdaxilə də bu cəhəti nəzərə alır, mümkün olan nəzarəti qeyd edilən istiqamətdə (dilin öz daxili potensiyasına əsaslanmaqla) həyata keçirir. Daxili imkanlar hesabına lüğət tərkibinin zənginləşməsi – inkişafı, şübhəsiz, birinci növbədə arxaikləşmə prosesi ilə yeni sözlərin yaranması prosesinin məntiqi əlaqəsində özünü göstərir; sovet dövründə xeyli miqdarda söz köhnəlir (inqilabın məhv etdiyi ictimai-mənəvi münasibətlərin bütöv bir sisteminin tarix səhnəsindən çıxması ilə əlaqədar olaraq), eyni zamanda bundan da tat-qat çox söz (ifadə) yaranır – hər iki proses bilavasitə ekstralinqvistik amillərlə – sosialist inqilabı, ETİ ilə bağlıdır. Lakin ədəbi dilin lüğət tərkibindəki köhnəlmə-yeniləşmə hərəkatının (əslində, köhnəlmə və yeniləşmədən ibarət iki prosesin müstəqilliyi şərtidir, biz bu şərtilikdən çıxış edib həmin prosesləri məntiqi əlaqədə – vahid hadisə kimi alırıq) linqvistik tərəfi mövcuddur – buraya aşağıdakıları daxil edirik:

– lüğət tərkibində köhnəlmə-yeniləşmə hərəkatının faktlaşma imkanı, yəni köhnəlmə-yeniləşmə prosesini ictimai-psixoloji hadisə kimi dil hansı intensivlikdə qəbul edir;

– köhnəlmə-yeniləşmə hərəkatı lüğət tərkibində söz yaradıcılığı prosesinin hansı istiqamətlərini passivləşdirir, hansıları isə aktivləşdirir;

– nəhayət, köhnəlmə-yeniləşmə hərəkatı leksik-semantik sistemə necə təsir göstərir, hansı leksik-semantik sahələrin həcmini daraldır, hansıların həcmini genişləndirir.

Dil faktlarının ardıcıl olaraq təsdiq etdiyi kimi, köhnəlmə-yeniləşmə hərəkatı ədəbi dilin lüğət tərkibini sovet dövründə sosialist təfəkkürünün ifadəsi üçün əlverişli

səviyyəyə çatdırır; əlbəttə, bir daha qeyd edək ki, bu, daxili imkanlarla ehtiva olunan proses kimi maraqlıdır, alınma sözlər burada köməkçi rola malikdir və milli-leksik sistemin təkamül qanunlarına, prinsiplərinə tabe olur.

Köhnəlmə prosesi söz yaradıcılığında daha çox sintetik məqamı passivləşdirir, yeniləşmə prosesi isə analitik məqamı fəallaşdırır – əslində bunun ancaq linqvistik yox, qneseoloji linqvistik səbəblərindən bəhs etmək olar; o mənada ki, dil təfəkkürünə sovet dövründə (xüsusilə 50-ci illərdən etibarən) daxil olan anlayışlar bir qayda olaraq iki müxtəlif anlayışın məntiqi-funksional inteqrasiyasından yaranır.

Ədəbi dilin lüğət tərkibində üslubi neologizmlər – okkazionalizmlər bir qayda olaraq iki keyfiyyətə malikdir; bir tərəfdən, burada lüğət tərkibinin yeniləşmə stixiyası, ikinci tərəfdən, üslubi diferensiasiya – variantlaşma cəhdi əksini tapır, tədricən hər iki keyfiyyət konkret dil faktına münasibətdə bir-birindən təcrid olunduğuna görə linqvistik məqamla linqvostilistik məqam diferensiallaşır, ilkin diffuzluq aradan qalxır.

Azərbaycan ədəbi dili lüğət tərkibinin daxili imkanlar hesabına zənginləşməsində dialektizmlər diqqəti cəlb edir, həm də bu cür zənginləşmənin sosial-linqvistik məzmunu əvvəlki dövrlərdəkindən əsaslı şəkildə fərqlənir; sovet dövründə dialekt-ədəbi dil münasibətinin xarakteri dəyişir belə ki, dialektlərin tədricən aradan qalxması üçün ictimai-psixoloji şərait əmələ gəlir. Dialekt isə izsiz məhv olub gedə bilməz, onun enerjisi var və bu enerji müxtəlif yollarla ədəbi dilə sərf olunmalıdır; ədəbi dil isə dialekt materialını (şübhəsiz, birinci növbədə leksik materialı) ancaq o prinsiplə qəbul edir ki, onun normativliyinə *xələl* gəlməsin. 20-ci, xüsusilə 30-cu illərdə ədəbi dilin lüğət tərkibində

normalaşma prosesinin aktiv olduğu vaxt dialektlərdən ədəbi dilə daha çox söz, həm də birbaşa keçir. Halbuki, 60-70-ci illərdə dialektlərdən söz alınması müəyyən mənada stilizasiya faktı kimi diqqəti çəkir, – dialekt leksikası ədəbi dilə diferensial funksional-üslubi keyfiyyəti ilə gəlir, yəni bütövlükdə ədəbi normativliyə malik olmur.

Daxili imkanlar hesabına zənginləşmə bir də ona görə mürəkkəb prosesdir ki, burada yeni ictimai təfəkkürün təsiri ilə sözün semantikasının dəyişməsi, unifikasiyası da başa düşülür, «zənginləşmə» anlayışı bu mənada özünü o qədər də doğrultmur; müşahidələr göstərir ki, sovet dövründə ədəbi dilin lüğət tərkibindəki semantik dəyişmələr müəyyən sistem verir – həmin sistem ictimai varlıqda baş verən inqilabi çevrilişə uyğun olub, onu əks etdirir.

Ədəbi dilin strukturunda daxili imkanlar hesabına zənginləşmə ilə başqa dillər hesabına zənginləşmə arasında kəskin sərhəd yoxdur, kalkaların leksik-semantik təbiəti üzərindəki müşahidələr də bunu təsdiq edir; Azərbaycan ədəbi dilinin lüğət tərkibi rus-Avropa dillərindən çoxlu miqdarda kalkalar vasitəsilə ardıcıl olaraq zənginləşmişdir, lakin kalka etmək imkanı Azərbaycan dilinin daxili potensiyasının genişliyini də göstərmişdir.

Azərbaycan ədəbi dili lüğət tərkibinin kalkalar hesabına artımının başlıca şərtləri aşağıdakılardan ibarətdir:

– inqilabın qələbəsi ilə əlaqədar olaraq rus-Avropa elmi-mədəni təfəkküründə yeni ideologiyanın təntənəsi nəticəsində ictimai-siyasi anlayışların bütöv bir sisteminin təşəkkülü, ETİ ilə bağlı olaraq yeni anlayışların yaranması;

– inqilabdan sonra Azərbaycan xalqının rus-Avropa elmi-mədəni təfəkkürünə yiyələnmək imkanının genişlənməsi;

– Azərbaycan dilinin leksik-semantik potensiyasının, daxili imkanlarının zənginliyi, başqa sözlə, «ekvivalent təqdim etmək» gücünə malik olması.

Ədəbi dilin lüğət tərkibinin daxili imkanlar hesabına zənginləşməsi ilə başqa dillər hesabına zənginləşməsi onun strukturunda eyni keyfiyyətdə dəyişiklik yaratmır – alınma sözlərin mənbəyi nə qədər eyni olursa-olsun (əlbəttə, bu, onların xüsusi mikrosistemlər əmələ gətirməsinə, kompaktlığına səbəb olur), yenə də onları daxili imkanlar idarə edir; Azərbaycan ədəbi dilinin lüğət tərkibi rus-Avropa mənşəli alınmaların bütöv bir sistemi ilə zənginləşir – bunların böyük əksəriyyəti terminoloji səciyyəli vahidlərdir, daha doğrusu, alındığı dil üçün kontekstoloji-stilistik funksionallığını itirib terminolojiləşir.

Azərbaycan ədəbi dili lüğət tərkibi internasionalizmlərlə görünməmiş dərəcədə zənginləşir – internasionalizmlər, əsasən, ictimai-siyasi, elmi-texniki sahələrə aid olsa da, lüğət tərkibinin ümumi mənzərəsinə təsir edir, çünki onların aid olduğu sahələr ictimai təfəkkürün funksional məqamlarını təşkil edir.

Azərbaycan dilinə daxil olmuş rus-Avropa mənşəli leksika getdikcə daha ardıcıl şəkildə leksik-qrammatik sistem tərəfindən mənimsənilir – bu prosesdə ədəbi dilin lüğət tərkibində sabitləşmiş ərəb-fars mənşəli sözlər də iştirak edir; sonuncular rus-Avropa mənşəli leksika, əksərən, internasionalizmlərlə milli leksik-semantik sistem arasındakı əlaqənin genişlənməsinə yardım edir – o mənada ki, milli leksik-semantik sistemin ərəb-fars elementlərini mənimsəmə təcrübəsi var və həmin təcrübə analoji olaraq az və ya çox dərəcədə rus-Avropa mənşəli alınmalara da tətbiq edilir.

XIX əsrin sonu XX əsrin əvvəllərindən başlayaraq

Şərq və Qərb mədəniyyətlərinin Azərbaycanda qovuşması prosesi gedir, həmin proses sovet dövründə güclənir və keyfiyyət həddinə çatır; elə bunun nəticəsidir ki, ədəbi dildə həm Şərq, həm də Qərb mədəni təfəkkürünün məhsulu olan leksik vahidlərin paralel işlənməsi qanuni-ləşir – bu cür paralellik mürəkkəb qneseoloji prosesin nəticəsidir, təkcə linqvistik deyil, ümumən fəlsəfi-tarixi məzmuna malikdir. Müxtəlif milli-coğrafi kontekstlərdə təşəkkül tapmış mənəvi mədəniyyətlərin qovuşmasına tərcümə intensiv şəkildə təsir edir; Azərbaycan dilinə tərcümənin həcmi kifayət qədər geniş olduğundan lüğət tərkibinin zənginləşməsində mühüm mədəni-linqvistik faktor kimi onun rolu diqqəti çəkir – tərcümə gedişində müxtəlif üslubların leksik-semantik potensiyasının artımı müşahidə edilir: bədii üslub metaforalarla, realiyalarla, elmi üslub terminologiya ilə, publisist üslub dövrün ictimai-iqtisadi məzmununu ifadə edən vahidlərlə və s. zənginləşir. Azərbaycan ədəbi dilinin lüğət tərkibinin inkişafına tərcümə iki istiqamətdə təsir» edir: həm bilavasitə – lüğət tərkibini alınma sözlərlə zənginləşdirir, həm də bilavasitə yeni leksik ifadə imkanlarını üzə çıxarır, dilin daxili potensiyasını reallaşdırır, passiv vahidləri «kommunikativ istehlaka» buraxır.

Azərbaycan ədəbi dili lüğət tərkibinin zənginləşməsi anlayışında ehtiva olunan spesifik sahələr mövcuddur – buraya əsasən, qısaltmalar (abbreviaturalar) və onomastika daxildir: qısaltmalar Azərbaycan ədəbi dilində məhz sovet dövründə formalaşır, onomastika isə sovet dövründə keyfiyyətcə dəyişir.

Lüğət tərkibinin qısaltmalar hesabına zənginləşməsi onun texniki imkanlarının artması ilə nəticələnir, beləliklə, ədəbi dil elmi-texniki informasiyanı getdikcə daha dəqiq ifadə edir. Qısaltmaların mənşəcə mənsubiyyəti də maraq

doğurur, bu, ədəbi dilin lüğət tərkibinin mənşəcə təsnifinə müvafiqdir, yəni ümumi funksional prosesdə ehtiva olunur. Sinonimiya imkanlarının genişlənməsində qısaltmalar spesifik rola malikdir; onlar adlandırma prinsipi ilə sintaktik vahidlərlə qarşılaşdırılır, beləliklə, müxtəlif funksional üslub sahələrində, xüsusilə elmi-texniki mətnlərin dilində bu cür sinonim variantlar işlənir.

Onomastik sistem lüğət tərkibində gedən struktur-semantik inkişaf prosesini bir qədər spesifik şəkildə əks etdirir – sovet dövründə Azərbaycan antroponimiyasında, toponimiyasında, eləcə də onomastikanın digər sahələrində mövcud ictimai-siyasi, mənəvi dəyişikliklərə (həmin dəyişikliklərin inqilabi məzmununa) uyğun tarixi-mədəni unifikasiya prosesi getmiş və getməkdə davam edir; ədəbi dilin lüğət tərkibinin zənginləşmə prinsipləri onomastik leksikanın təşəkkülü qaydalarını da müəyyən edir, nəticədə, həmin prinsiplərin universiallığı təsdiq olunur.

Sovet dövründə Azərbaycan ədəbi dili lüğət tərkibinin zənginləşmə – inkişafında daxili imkanlarla başqa dillərin təsiri vəhdətdə çıxış edir, ədəbi dilin demokratik əsaslar üzrə yenidən qurulması onun daxili imkanlarını fəallaşdırdığından həmin vəhdət prinsip etibarilə daxili imkanların xeyrinədir. Beləliklə, həm analitik-sinxron, həm də sintetik-diaxron təhlil əsasında sovet dövrü Azərbaycan ədəbi dili lüğət tərkibinin əsas inkişaf qanunauyğunluqlarını aşkarlamaq mümkündür – bunlar aşağıdakılardan ibarətdir:

– Azərbaycan ədəbi dilinin lüğət tərkibi sovet dövrünə çoxəsrlik ifadə-nitq potensialı, müəyyən normaları, funksional imkanları, yəni keyfiyyət xüsusiyyətləri ilə gəlir və bu keyfiyyət sovet dövründə lüğət tərkibinin inkişaf-zənginləşmə prinsiplərini də müəyyən edir;

– inqilabdan sonra Azərbaycan ədəbi dilinin funk-

sional imkanları həm linqvistik, həm də ekstralinqvistik baxımlardan genişlənir, leksik-terminoloji norma elmi nəzarət altında inkişaf edir, lüğət tərkibi əvvəlki dövrlərdəkindən fərqli olaraq birbaşa demokratik-kütləvi sosial bazaya dayanır;

– inqilabın qələbəsi ilə Azərbaycan ədəbi dili lüğət tərkibi məzmunca milli sosialist əsasları üzərində yenidən qurulur – yeni dünyanın anlayışları leksik-semantik sistemdə faktlaşır, köhnə dünyanın anlayışları isə sıxışdırılır, tədricən passivləşir və nəticədə, lüğət tərkibinin, prinsip etibarı ilə, yeni norması yaranır.

Şübhəsiz, sovet dövründə Azərbaycan ədəbi dili lüğət tərkibinin inkişafının müstəqil kontekst kimi tədqiqata cəlb edilməsi, birinci növbədə, ictimai təfəkkürün sosialist formasının təşəkkülü ilə bağlıdır – bu, proses tədricən gedir və leksik-semantik normativliyin yeni sistemini müəyyənləşdirir, ona görə də sovet dövründə Azərbaycan ədəbi dili lüğət tərkibinin inkişafı onun yeni ictimai təfəkkür formasına uyğunlaşması prosesi kimi də (lakin mütləqləşdirilmədən) şərh oluna bilər. SSRİ xalqları dil-lərinin, o cümlədən türk dillərinin materialları da bunu təsdiq edir.

Lüğət tərkibinin inkişafının funksional-üslub konteksti var – ictimai-mədəni təfəkkürün diferensiallıq səviyyəsini də ictimai-mədəni təfəkkürün dialektikası müəyyən edir. Ədəbi dilin lüğət tərkibinin hər hansı mərhələdəki normativliyi bu mənada dil normativliyindən çox nitq normativliyidir.

Nəhayət, onu da qeyd edək ki, sovet dövründə Azərbaycan ədəbi dili lüğət tərkibinin inkişaf qanunauyğunluqlarının müxtəlif istiqamətlərdə tədqiqi eyni zamanda mürəkkəb metodiki-nəzəri sistem verir, lakin bu sistemin getdikcə təkmilləşməsinə də ehtiyac duyulur. edir.

İXTİSARLAR

A – «Azərbaycan» jurnalı
AQ – «Azərbaycan qadını» jurnalı
AG—«Azərbaycan gəncləri» qəzeti
AM—«Azərbaycan müəllimi» qəzeti
AP – «Azərbaycan pioneri» qəzeti
B – «Bakı» qəzeti
QJ – «Qobustan» jurnalı
Ə – «Ədəbiyyat» qəzeti
Əİ – «Ədəbiyyat və incəsənət» qəzeti
İ – «İdman» qəzeti
İM – «İnqilab və mədəniyyət» jurnalı
YY – «Yeni yol» qəzeti
K – «Kommunist» qəzeti
KH – «Kənd həyatı» jurnalı
Gİ – «Gənc işçi» qəzeti
Mİ – «Maarif işçisi» jurnalı
MM – «Maarif və mədəniyyət» jurnalı
RK – «Revolyusiya və kultura» jurnalı
SK – «Sovet kəndi» qəzeti
CT – «Советская тюркология» jurnalı
U – «Ulduz» jurnalı

ƏDƏBİYYAT

К.Маркс. Капитал. I том, Госполитиздат, 1955.

F.Engels. Sosializmin utopiyadan elmə doğru inkişafı. Bakı, 1974.

K.Marks və F.Engels. Seçilmiş əsərləri. III cild, Bakı, 1983.

V.İ.Lenin. Əsərləri. 5-ci nəşr, 11, 15, 20, 21, 23, 24, 26, 27, 30, 31, 36, 37, 40-cı cildlər.

Sov.İKP Proqramı. Yeni redaksiya. Bakı, Azərnəşr, 1985.

Абаева М.М. Взаимовлияние и взаимообогащение культур социалистических наций (в период строительства коммунизма), Ашхабад, Изд. «Илым», 1976.

Abbasova N.K. C.Cabbarlı dramaturgiyasında söz. Bakı, «Yazıçı» nəş., 1983.

Ağazadə F. Türkcəni zənginləşdirmək yolları. – «Maarif işçisi», 1926, № 8-9.

Adilov M.M. Müasir Azərbaycan dilində abbrevasiya, nam. dis., Bakı, 1986.

Adilov M. İ. Qəzet dili, Bakı, ADU nəş., 1973.

Adilov M.İ. S.Rəhimovun bədii üslubu və «Şamo»-nun dili haqqında. «Azərbaycan» jur., 1965, № 7.

Azərbaycan dilinin orfoqrafiya lüğəti, Bakı, «Elm» nəşr., 1975.

Azərbaycan dilinin izahlı lüğəti, I, II, III, IV c., Bakı, Azərb. SSR EA nəş., 1966, 1980, 1983, 1987.

Azərbaycan ədəbi dili tarixi (Sovet dövrü), Bakı, «Elm» nəş., 1982.

Azərbaycan bədii dilinin üslubiyyatı (oçerklər), Bakı, «Elm» nəş., 1970.

Акуленко В.В. Вопросы интернационализации

словарного состава языка, Харьков, 1972.

Асланов А.А. Обогащение словарного состава азербайджанского литературного языка в советский период, АКД, Баку, 1953.

Aslanov Ə.A. Lenin milli siyasəti və Azərbaycan dilinin yeni mərhələsi. Bakı, «Bilik» cəmiyyəti nəşri, 1980.

Axundov A.A. Dil və üslub məsələləri, Bakı, «Gənclik» nəş., 1957.

Axundov A.A. Şair və söz. – «Azərbaycan» jur., 1957, № 7.

Базиев А.Т., Исаев М.И. Язык и нация, М., 1973.

Баскаков А.Н. Отражение социалистической культуры в современном азербайджанском литературном языке. X Взаимоотношение развития национальных языков и национальных культур, М., изд. «Наука», 1980.

Баскаков Н.А. Современное состояние терминологии в языках народов СССР. – «Вопросы терминологии», М., изд. АН СССР, 1961.

Будагов Р.А. Что такое развитие и совершенствование языка, М., изд. «Наука», 1977.

Велиев Э.З. Словообразование в современном азербайджанском языке на базе русско-интернациональной лексики, дис. канд. наук, Баку, 1986.

Verdiyeva Z., Ağayeva F., Adilov M. Azərbaycan dilinin semasiologiyası, Bakı, «Maarif» nəş., 1979.

Qasımov M.Ş. Azərbaycan dili terminologiyasının əsasları. Bakı, «Elm» nəş., 1979.

Гасымов М.Ш. Из истории образования и развития терминологии в Азербайджане. – Тюркская лексика и лексикография, М., изд. «Наука», 1973.

Qurbanov A.M. Müasir Azərbaycan ədəbi dili, Bakı,

«Maarif» nəş., 1985.

Qurbanov A.M. Müasir Azərbaycan dilinin lüğət tərkibi, Bakı, APİ nəşri, 1964.

Qurbanov A. M. Azərbaycan onomastikası, Bakı, APİ nəşri, 1986.

Дешериев Ю.Д. Закономерности развития и взаимодействия языков в советском обществе, М., изд. «Наука», 1966.

Дешериев Ю.Д. Отражение развития материальной и духовной культуры советских в литературных языках автономных республик, областей, округов. – Взаимоотношение развития национальных языков и национальных культур, М., изд. «Наука», 1980.

Dəmirçizadə Ə.M. Azərbaycan ədəbi dilinin inkişaf yolları, Bakı, 1958.

Dəmirçizadə Ə.M. Azərbaycan dilinin üslubiyyatı, Bakı, 1962.

Джунусов М.С. Взаимообогащение национальных культур и развитие национального-русского двуязычия. – Взаимоотношение развития национальных языков и национальных культур. М., изд. «Наука», 1980.

Zeynalov F.R. Sovet dövründə Azərbaycan dilində ictimai və siyasi sözlərin əmələ gəlməsinə dair bəzi qeydlər. – ADU-nun filoloji fakültəsinin əsərləri, 1958.

Əlibəyzadə E.M. Azərbaycan dilinin sovet dövründə inkişafı və zənginləşməsi haqqında. – Azərb. SSR EA-nın Xəbərləri, 1955, № 4.

Əfəndiyeva T.Ə. Azərbaycan dilinin leksik üslubiyyatı, Bakı, «Elm» nəş., 1980.

İbrahimov M.Ə. Azərbaycan dili, Bakı, Azərb. SSR EA nəş., 1957.

İbrahimov M.Ə. Cənub sovqatı. «Azərbaycan» jur-

nalı, 1981, №5.

İmla lüğəti, Bakı, 1929.

Исаев И.М. Языковое строительство как один из важнейших экстралингвистических факторов развития языка. – Язык и общество, М., изд. «Наука», 1968.

Исрафилова Р.Д. Обогащение в советский период словарного состава азербайджанского языка за счет внутренних ресурсов и отражение его в словарях, АКД, Баку, 1971.

Kazımova R.C. Sovet hakimiyyəti illərində Azərbaycan dilinin lüğət tərkibinin zənginləşməsi. – Azərb. SSR EA-nın Xəbərləri, 1952, № 6.

Kazımov Q.Ş. Komik-bədii vasitələr, Bakı, «Yazıçı» nəş. 1983.

Керимов Л.Г. Научно-технический прогресс и обогащение словарного состава современного азербайджанского языка АКД Баку, 1983.

Лопатин В.В. Рождение слова. Неологизмы и окказиональные образования. М., изд. «Наука», 1973.

Мамедов И.О. Лексика газеты «Коммунист», АКД, Баку, 1974.

Мамедова З. Расширение значения слов в современном азербайджанском языке, АКД, Баку, 1984.

Məmmədov N.N. Dilçiliyin əsasları, Bakı, Azərtədrisnəşr, 1961.

Məhərrəmov A. M. Azərbaycan ədəbi dilinin sovet dövrü, Bakı, APİ nəşri, 1961.

Məhərrəmova R. C. Azərbaycan sovet nəsrində bədii dil və stil məsələləri, – «Azərbaycan» jur., 1953, № 6.

Мусаев К.М. Современная терминология литературных тюркских языков Советского Союза. – Советская тюркология, 1981, № 6.

Мусаев К.М. Основные проблемы изучения лексики тюркских языков. – Советская тюркология, 1978, № 9.

Müasir Azərbaycan dili, I c., Bakı, «Elm» nəş., 1978.

Orucov Ə.Ə. Terminoloji leksika haqqında bəzi qeydlər. – Nitq mədəniyyəti məsələləri, Bakı, «Elm» nəş., 1969.

Orfoqrafiya lüğəti, Bakı, Azərnəşr, 1940.

Peyfun M. Azərbaycanca-farsca lüğət, Tehran, «Neşre-da-neşpaye», 1983.

Первый Всесоюзный Тюркологический съезд (Стенографический отчет), Баку, 1926.

Поливанов Е.Д. Революция и литературные языки Союза ССР. – Статьи по общему языкознанию., М., 1968.

Рыт Е.М. Ленин о языке и язык Ленина, М, 1936.

Rüstəmov R.A. Sovet hakimiyyəti illərində Azərbaycan dili lüğət tərkibinin rus dilinin təsiri ilə zənginləşməsi. – Azərb. SSR EA Ədəbiyyat və dil institutunun əsərləri, dilçilik seriyası, VI c., 1964.

Салманова С.Т. Роль большевистской печати в обогащении словарного состава азербайджанского литературного языка (1905-1920), АКД, Баку, 1958.

Соссюр Ф. Де. Труды по языкознанию. М., изд. «Прогресс» 1977, стр. 235.

Сухотин А. Проблемы «сокращенных слов» в языках СССР – Письменность и революция, сб. I, М.-Л., 1933.

Terminologiya məsələləri, Bakı, «Elm» nəş., 1987.

Филин Ф.П. Современное общественное развитие и проблемы, двуязычия. – Проблемы двуязычия. М., 1972.

Ханазаров К.Х. Решение национально-языковой проблемы в СССР, М., изд. Политиздат, 1977.

Хауген Эйнер. Языковой контакт. – Новое в лингвистике вып., II, М, 1952.

Xudiyev N.M. Azərbaycan ədəbi dili lüğət tərkibinin inkişafı, (Sovet dövrü), Bakı, APİ nəşri, 1986.

Xudiyev N. M. Azərbaycan ədəbi dilinin zənginləşmə yolları (Sovet dövrü), Bakı, APİ nəşri, 1987.

Hacıyev İ. Sovet hakimiyyəti illərində Azərbaycan dilinin lüğət tərkibindəki dəyişikliklər haqqında bəzi qeydlər. – «Azərbaycan məktəbi» jur., 1953, № 1.

Hacıyev T.İ. XX əsrin əvvəllərində Azərbaycan ədəbi dili, Bakı, «Maarif» nəş., 1977.

Hacıyev T.İ. Elmi-zehni səviyyə və bədii dildə novatorluğun faktı. – «Azərbaycan» jur., 1980, № 10.

Hacıyev T.İ. Azərbaycan ədəbi dili tarixi, II hissə, Bakı, «Maarif» nəş., 1985.

Həsənov H.Ə. Müasir Azərbaycan dilinin leksikası, Bakı, ADU nəşri, 1978.

Həsənov H.Ə. Söz və ad, Bakı, Azərnəşr, 1984.

Çobanov M.N. Azərbaycan antroponimiyasının əsasları, Tbilisi, 1983.

Cavad Ə. Fənni istilahlar. – «Maarif və mədəniyyət» jur., 1923, № 3.

Cahangirov M.P. Azərbaycan sovet şeirində məhəlli və arxaik sözlər. – «Azərbaycan» jur., 1955, № 9.

Cəfərov S.Ə. Müasir Azərbaycan dili, Bakı, «Maarif» nəş., 1982.

Cəfərov S.Ə. Azərbaycan dilində söz yaradıcılığı, Bakı, ADU nəşri, 1960.

Şirəliyev M.Ş. İstilahlar yaradılmasında əsas prinsiplər. – Dil institutunun əsərləri, Bakı, Azərb. SSR EA

nəş., I c., 1947.

Şirəliyev M.Ş. Sovet dövrü Azərbaycan ədəbi dilinin inkişafı. – «Azərbaycan dili və ədəbiyyat tədrisi», 1957, I bur.

Ширалиев М.Ш., Рагимов М.Ш. Азербайджанский язык. – Закономерности развития литературных языков народов СССР в советскую эпоху, М., изд. «Наука», 1979.

Ширалиев М.Ш. К вопросу развития азербайджанского литературного языка в советский период – 10 лет АН Азербайджанской ССР (1945-1955), Баку, 1956.

Şıxlinski Ə. Döyüş sözlüyü (təlimnamə və nizamnamələri və elmi-hərbi kitabları çevirmək üçün yardımlıq), Bakı, 1926.

MÜNDƏRİCAT

Giriş..... 3

I fəsil. Sovet dövrü Azərbaycan ədəbi dili: inkişaf problemləri, normalar və üslublar haqqında 9
Ədəbi dil və onun lüğət tərkibinin bəzi inkişaf problemləri 9
Fonetik-orfoqrafik və qrammatik normalar 37
Üslublarin inkişafi 54

II fəsil. Ədəbi dilin lüğət tərkibinin ümumi mənzərəsi və inkişaf mərhələləri haqqında 76
Birinci mərhələ. 20-40-ci illərdə lüğət tərkibinin inkişafı 82
Ikinci mərhələ. 40-80-ci illərdə lüğət tərkibinin inkişafı 134

III fəsil. Ədəbi dilin lüğət tərkibinin daxili imkanlar hesabına zənginləşməsi 175
Yeni sözlərin yaranması 177
Sözlərin semantik inkişafı 208
Ədəbi dilin zənginləşməsində leksik dialektizmlərin rolu 218
Lüğət tərkibinin kalka yolu ilə zənginləşməsi 234
Onomastik sistemin zənginləşməsi 241

IV fəsil. Ədəbi dilin lüğət tərkibinin alınmalar hesabına zənginləşməsi 260
Alınma sözlərin struktur-semantik xüsusiyyətləri 264
Sadə sözlər 279
Düzəltmə sözlər 290
Mürəkkəb sözlər 343
Əlavəli sözlər 353
Alınmaların leksik-funksional paralelliyi 357

Abbreviaturalar (qısaltmalar)..... 363

V fəsil. Ədəbi dilin lüğət tərkibinin tərcümə ədəbiyyatı hesabına zənginləşməsi..... 390

ƏLAVƏ. Cənubi Azərbaycanda ədəbi dilin lüğət tərkibinin ümumi mənzərəsi 439

Nəticə 456
Ixtisarlar 469
Ədəbiyyat 470

Nizami Xudiyev

AZƏRBAYCAN ƏDƏBİ DİLİ LÜĞƏT TƏRKİBİNİN İNKİŞAFI

(SOVET DÖVRÜ)

«Elm və Təhsil» nəşriyyatının direktoru:
professor Nadir MƏMMƏDLİ

Kompüter dizayneri: **Zahid Məmmədov**
Texniki redaktor: **Rövşanə Nizamiqızı**

Yığılmağa verilmiş **25.09.2012**
Çapa imzalanmış **18.11.2012**
Şərti çap vərəqi **30.** Sifariş **№489**
Kağız formatı **60x84 1/16.** Tiraj **500**

Kitab **«Elm və Təhsil»** nəşriyyat-poliqrafiya
müəssisəsində səhifələnib çap olunmuşdur.
E-mail: elm_ve_tehsil@box.az
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.